ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 92, № 2, 2025

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

# ELMİ əsərlər

# НАУЧНЫЕ ТРУДЫ

# SCIENTIFIC WORKS

*İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edilməyə başlamışdır.*
*2024-cü ildə "Elmi əsərlər"in 90 illiyi tamam olur.*
*İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətiririk:*

*«Научные труды» института издаются с 1934 года.*
*В 2024 году исполнится 90-летие «Научных трудов».*
*Доводим до сведения приказ № 150 института:*

*"Scientific works" of the Institute have been published since 1934. In 2024,*
*the 90th anniversary of "Scientific works" will be completed.*
*We bring to the attention Order No. 150 of the Institute:*



Приказ №150

От 17/I-34 г.

Временно утвердить редакционной коллегии Аз.Н.И.И.П.П. в составе ответ. редактора т. Мамедова Гулам /директора Ин-та/ секретарь т. Малахальцева и членом т. Араслы.

Тов. Малахальцеву 19/I к 1 часу дня представить план выпуска научных трудов института.

Директор Ин-та:

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2025.92.2
https://archive.org/details/elmi-s-rl-r.-.-2025-2-pdf – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/elmi-s-rl-r-2025-volume-92-number-2-pdf/278781756 – SlideShare
https://www.calameo.com/read/007335995dbb17a269b61 – Calameo
https://isindexing.com/isi/viewjournal.php – International Scientific Indexing
http://olddrji.lbp.world/Search.aspx?J=Scientific%20Works&S=0 – Directory of Research Journals Indexing

**ISSN 2409-8817**
**E-ISSN 3078-2813**
**DOI: 10.69682**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU**

# *ELMİ ƏSƏRLƏR*

**cild 92, № 2, 2025**

# *НАУЧНЫЕ ТРУДЫ*

**том 92, № 2, 2025**

# *SCIENTIFIC WORKS*

**volume 92, № 2, 2025**

**“Elmi əsərlər” 1934-cü ildən çıxır**
**İldə 6 nömrə nəşr olunur**
**Redaksiyanın ünvanı**:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.*

***Təsisçi:** Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin*
*11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.*

*Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə*
*tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.*

**Baş redaktor**:
**Akif Abbasov** – *pedaqogika elmləri doktoru, professor*

**Baş redaktorun müavini**:
**Hümeyir Əhmədov** – *pedaqogika elmləri doktoru, professor*

**Baş redaktorun müavini**:
**İlham Cavadov** – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Məsul katib**:
**İradə Əmirəliyeva** – *pedaqogika üzrə fəlsəfə doktoru*

**Redaksiya heyəti**: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

**Redaksiya Şurası**:
**B.H. Əliyev** (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
**A.N. Rəhimov** (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
**A.K. Kusainov** (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
**O.M. Topuzov** (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
**İ.X. Karimova** (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
**V. Briller** (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
**S.P. Lomov** (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
**Y.P.Zinçenko** (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
**Ə.Ə. Şahin** (Hacettepe Universitetinin professoru, Türkiyə)
**Y. Romanenko** (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
**A.S. Sidenko** (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
**N.V. Naumova** (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
**Tran Mai Uos** (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

**Redaksiya**: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2025

***Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики***

***Учредитель: Институт Образования Азербайджанской Республики***
***Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики***

***«Научные труды» издается с 1934 года.***

***Периодичность издания: 6 номеров в год.***
***«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики***

**Главный редактор**:
**Акиф Аббасов** – *доктор педагогических наук, профессор*

**Заместитель главного редактора**:
**Гумеир Ахмедов** – *доктор педагогических наук, профессор*

**Заместитель главного редактора**:
**Ильхам Джавадов –** *доктор философии по педагогике, доцент*

**Ответственный секретарь**:
**Ирада Амиралиева** – *доктор философии по педагогике*

**Редакционная коллегия**: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

**Редакционный совет**:
**Б.Г. Алиев** (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
**А.Н. Рагимов** (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
**А.К. Кусаинов** (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
**О.М. Топузов** (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
**И.Х. Каримова** (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
**В. Бриллер (**исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
**С.П. Ломов** (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
**Ю.П.Зинченко** (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
**А.А. Шахин** (профессор Университета Хаджеттепе, Турция)
**Е. Романенко** (доктор наук по государственному управлению, профессор, Украина)
**А.С. Сиденко** (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
**Н.В. Наумова** (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
**Tran Mai Uoc** (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
**Редакция**: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2025

***Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan***

***Founder: Institute of Education of the Republic of Azerbaijan***
***The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan***

***"Research Papers" has been published since 1934.***

***Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan***

**Editor in Chief**:
**Akif Abbasov** – *doctor of pedagogical sciences, professor*

**Deputy Editor in Chief**:
**Humeyir Ahmadov** – *doctor of pedagogical sciences, professor*

**Deputy Editor in Chief**:
**Ilham Javadov** – *doctor of philosophy in pedagogy, associate professor*

**Executive Secretary**:
**Irada Amiraliyeva** – *doctor of philosophy in pedagogy*

**Editorial board**: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc. –prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

**Editorial Council**:
**B.H. Aliyev** (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
**A.N. Rahimov** (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
**A.K. Kusainov** (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
**O.M. Topuzov** (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
**I.Kh. Karimova** (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
**B.Briller** (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
**S.P. Lomov** (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
**Y.P. Zinchenko** (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
**A.A. Shahin** (professor at Hacettepe University, Turkiye)
**Y. Romanenko** (doctor of sciences in public administration, professor, Ukraine)
**A.S. Sidenko** (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
**N.V. Naumova** (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
**Tran Mai Uoc** (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2025

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2025-Cİ İLİN "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# УКАЗ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ОБ ОБЪЯВЛЕНИИ 2025 ГОДА «ГОДОМ КОНСТИТУЦИИ И СУВЕРЕНИТЕТА» В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

# DECREE OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ON DECLARATING 2025 AS THE "YEAR OF THE CONSTITUTION AND SOVEREIGNTY" IN THE REPUBLIC OF AZERBAIJAN



Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi

bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 dekabr 2024-cü il

*UOT 37.01.*

***Hümeyir Hüseyn oğlu Əhmədov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Rusiya Təhsil Akademiyasının xarici üzvü,*
*RTA-nın Əməkdar elm və təhsil xadimi*
*https://orcid.org/ 0000-0003-0019-4266*
*E-mail: humeyir@gmail.com*
*a.humeyir@arti.edu.az*

***Lalə Akif qızı Məmmədli***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı mütəxəssisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*elmlər doktoru proqramı üzrə əyani doktorant*
*https://orcid.org/0000-0003-0686-3627*
*E-mail: lale23@mail.ru*
*l.memmedli@arti.edu.az*

***Pərvin Cavanşir qızı Əlizadə***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı mütəxəssisi,*
*Türkiyə Respublikası Van Yüzüncü Yıl Universitetinin fəlsəfə doktoru proqramı üzrə qiyabi doktorantı*
*https://orcid.org/0009-0009-5896-2177*
*E-mail: alizadapari.16@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).7-18*

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDAN TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ İSTİFADƏNİN İMKANLARI

***Гумейир Гусейн оглы Ахмедов***
*заведующий отделом подготовки научно-педагогических кадров,*
*Института Образования Азербайджанской Республики*
*доктор педагогических наук, профессор,*
*иностранный член Российской академии образования,*
*заслуженный деятель науки и образования РАО*

***Лала Акиф гызы Мамедли***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*
*доктор философии по педагогики,*
*докторант очной формы обучения по программе доктора наук*

***Парвин Джаваншир гызы Ализаде***
*ведущий специалист отдела подготовки научно-педагогических кадров*
*Института Образования Азербайджанской Республики*
*заочный докторант по программе доктора философии Университета*
*Ван Юзюнджю Йыл Турецкой Республики*

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В УЧЕБНО-ВОСПИТАТЕЛЬНОМ ПРОЦЕССЕ

**_Humeyir Huseyn Ahmadov_**
*head of the department of Scientific and pedagogical personnel training of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of Pedagogical sciences , professor*
*foreign member of the Russian Academy of Education*
*Honored scientist and educator of the Russian Academy of Education*

**_Lala Akif Mammadly_**
*leading specialist of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in pedagogy*
*doctorial student in the program of doctor of sciences*

**_Parvin Cavanshir Alizadeh_**
*leading specialist of the department of Scientific and pedagogical personnel training of the Institute of Education of the Republic of Azerbaijan*
*doctorial student in the program of philosophy at Van Yuzuncu Yil University, Republic of Turkey*

# POSSIBILITIES OF USING THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN IN THE EDUCATIONAL PROCESS

**Xülasə.** Məqalə Azərbaycan Respublikasının Konstitusiyasında yer alan demokratik prinsipləri, insan haqlarını və milli dəyərləri təhsil proqramına daxil etməklə təhsil prosesinin təkmilləşdirilməsi mövzusunu təhlil edir. Onun müddəalarının şagirdlərə hüquq və vəzifələrini öyrətmək, vətəndaş fəallığını və hüquqi şüuru inkişaf etdirmək məqsədilə tədrisinin mümkünlüyü qeyd edilir. Konstitusiyanın müxtəlif fənlərə inteqrasiyası tənqidi təfəkkürə təkan verir və şagirdlərin idarəetmə və qanunun aliliyi anlayışını gücləndirir. Bundan əlavə, təhsildə Konstitusiyadan istifadə gələcək vətəndaşlara demokratik cəmiyyətin inkişafına fəal töhfə vermək, onların dövlət quruculuğu prosesində fəal iştirakını təmin etmək imkanları yaradır. Məqalədə şagirdlərin sosial və hüquqi şüurunun formalaşmasında konstitusiya təhsilinin effektivliyini qiymətləndirmək üçün məzmun təhlili, nümunə tədqiqatları və pedaqoji metodlar əsasında keyfiyyətli yanaşmadan istifadə edilmişdir.
***Açar sözlər:*** *konstitusiya, suverenlik, dövlət rəmzləri, təhsil, vətəndaşlıq hüququ*

**Аннотация**. В статье анализируется вопрос совершенствования образовательного процесса путем включения в образовательную программу демократических принципов, прав человека и национальных ценностей, содержащихся в Конституции Азербайджанской Республики. Отмечается возможность преподавания ее положений с целью обучения учащихся их правам и обязанностям, развития гражданской активности и правосознания. Интеграция Конституции в различные предметы стимулирует критическое мышление и укрепляет понимание учащимися управления и верховенства закона. Кроме того, использование Конституции в образовании создает возможности для будущих граждан активно содействовать развитию демократического общества, обеспечивать их активное участие в процессе государственного строительства. В статье используется качественный подход, основанный на контент-анализе, тематических исследованиях и педагогических методах, для оценивания эффективности конституционного образования в формировании социального и правового сознания учащихся.
***Ключевые слова:*** *конституция, суверенитет, государственные символы, образование, гражданское право*

**Abstract.** The article analyzes the issue of improving the educational process by including the democratic principles, human rights and national values contained in the Constitution of the Republic of Azerbaijan in the educational program. The possibility of teaching its provisions in order to teach learners their rights and duties, develop civic activism and legal awareness is noted. The integration of the Constitution into various subjects stimulates critical thinking and strengthens learners' understanding of governance and the rule of law. In addition, the use of the Constitution in education creates opportunities for future citizens to actively contribute to the development of a democratic society, to ensure their active participation in the state-building process. The article uses a qualitative approach based on content analysis, case studies and pedagogical methods to assess the effectiveness of constitutional education in shaping learners' social and legal consciousness.
***Keywords:*** *constitution, sovereignty, state symbols, education, civil law*

Bütün insanlar anadan vətəndaş kimi doğulsa da, vətəndaşlıq mənəviyyatı keyfiyyətlərinə birdən-birə yiyələnmir. Hər bir insanın kiçik yaşlarından vətəndaş keyfiyyətləri ilə hazırlanmaq, tərbiyə olunmaq ehtiyacı var, çünki vətəndaşlıq həm də şəxsiyyətə yetkinlik, fiziki və əxlaqi-mənəvi kamilliyin nümayişi deməkdir. Vətəndaşlıq o zaman əxlaqi normada təzahür edir ki, qanunun aliliyi öz hökmdarlığı ilə gənc nəslin tərbiyəsinin tərkib hissəsinə çevrilir. Hər bir vətəndaş qanunları, xüsusi ilə öz ölkəsinin Əsas Qanununu mükəmməl bilməlidir ki, ona riayət edə bilsin [3, s. 4].

Hüquqi vətəndaşlıq hazırlığı Konstitusiyanın öyrənilməsi ilə başlanılır. Ona görə də bu sahədə əsas vəzifə təhsil ocaqlarının üzərinə düşür. İlk növbədə yaşından, anlayış səviyyəsindən asılı olmayaraq bütün şagirdlərə həm ümumi məsələlərin öyrədilməsi, həm də vətəndaşlıq hisslərinin aşılanması müəyyənləşdirilməlidir. Daha sonra bu iş xüsusi olaraq məktəblilərin yaşına, anlayış səviyyəsinə, həyat təcrübəsinə uyğun şəkildə qurulmalıdır. Təlim prosesindən əlavə olaraq, tərbiyəvi tədbirlər həyata keçirilməlidir ki, bütün uşaqlarda vətəndaşlıq qüruru baş qaldırsın, vətəndaş kimi formalaşmasına təsir göstərsin.

Gərək "suverenlik", "müstəqil dövlət", "müstəqil respublika" və "müstəqil respublikanın Konstitusiyası" anlayışlarının praktik reallıq şəraitində nə demək olduğunu hər bir uşaq, yeniyetmə, gənc ətraflı dərk etsin ki, onu qorumaq şərəfinə nail olmaq üçün can atsın. Yüksək səviyyədə inkişaf etmiş ölkələrin rəqabət üstünlüyü başlıca olaraq təhsillə müəyyənləşən insan kapitalının inkişafı ilə bağlıdır [7, s.11].

Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiya layihəsi Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklərlə, 2009-cu il martın 18-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasınn 23-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyasının 75-ci maddəsində yazılır ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Bu qanuni tələbin hər bir vətəndaşımızın daxili tələbatına çevrilməsi üçün yetişən gənc nəsildə təhsil müddətində siyasi mədəniyyətin formalaşdırılması zəruri əhəmiyyətə malikdir. Buna isə kiçik yaşlarından aparılan tərbiyə ilə nail olmaq mümkündür. Eləcə də Vətəni müdafiə, tarixi və mədəniyyət abidələrinin qorunması, ətraf mühitə, təbiətə qayğılı münasibət və digər vəzifələrin yerinə yetirilməsi məktəblərin istək və arzusu kimi meydana çıxmalıdır. Bu hisslər şagirdlərin qanına, canına işləməli, onların həyat kredosuna çevrilməlidir. Belə olanda yaşamaq, yaratmaq, mübarizə aparmaq, düşmənə qalib gəlmək asan olar.

Dövlət rəmzlərini tanımaq, qorumaq, onları sevmək hər bir Azərbaycan vətəndaşının borcudur. Müstəqilliyimizin göstəricisi olan bu rəmzlər uğrunda minlərlə soydaşımız canını qurban vermiş, şəhid olmuşdur. Ona görə də qürur mənbəyimiz olan dövlət rəmzlərini həmişə uca tutmalıyıq. Bu işə ilk öncə ailədən başlamaq lazımdır. İbtidai siniflərdə müəllimlərin köməyi ilə şagirdlərdə dövlət rəmzləri haqqında tam təsəvvür yaradılmalı, onlarda dövlət rəmzlərinə məhəbbət hissi aşılanmalıdır. Uşaqlar üç-dörd yaşlarından etibarən Azərbaycan Respublikasının üçrəngli bayrağını tanıyır, artıq məktəbə gedəndə dövlət gerbi ilə də tanış olurlar. Hətta məktəbəqədər təhsil müəssisələrində təhsil alan körpələr belə dövlət himnimizi əzbərdən ifa edə bilirlər.

Tədris prosesində müəllimlər çalışmalıdır ki, şagirdlər dövlət rəmzlərinin mahiyyətini və onlardan istifadə qaydalarını öyrənsinlər. Dövlət rəmzləri xalqın mənəvi dəyərləridir. Müəllim şagirdlərə bayrağın rəngi, forması, ölçüsü, ger-

bin təsviri, onun mənası, himnin məzmunu və musiqisi ilə bağlı məlumat verməlidir. Şagirdlər bilməlidirlər ki, Azərbaycan Respublikasının Dövlət Bayrağında mavi rəng Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng isə İslam sivilizasiyasına mənsubluğunu ifadə edir.

Respublikamıza xarici dövlətlərin dövlət başçıları gələndə, xarici ölkələrdə bizim dövlət başçımız qarşılananda ehtiram və protokol əlaməti olaraq dövlət himni səsləndirilir. Xarici ölkələrdə idmançılarımız qalib gələndə onların şərəfinə Azərbaycan bayrağı qaldırılır və dövlət himni çalınır.

Ümumtəhsil məktəblərinin bütün siniflərində tədris olunan dərsliklərində respublikanın bayrağı, gerbi və himni sistemli şəkildə olmasa da verilmişdir. Azərbaycan dövlət rəmzləri ilə tanışlıq uşaqlarda vətənpərvərlik, milli iftixar hissi, şərəf, ləyaqət kimi hisslər tərbiyə edir.

Bütün vətəndaşların birinci vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasını mükəmməl öyrənməkdən ibarətdir. Bu məqsədlə öyrənənlərin yaşına, həyat təcrübəsinə uyğun olaraq müxtəlif tədris formalarından istifadə edilməlidir. Konstitusiyanın mahiyyəti və məzmunu, ayrı-ayrı bölmələri, fəsilləri və müvafiq maddələri uşaqların yaşlarına uyğun şəkildə şərh edilməlidir. Müəllimlər Konstitusiyanın valideynlər və cəmiyyət arasında təbliğinə də çalışmalıdırlar. Lakin bu işin formal deyil, real yerinə yetirilməsi üçün təbliğat və izahı ilə məşğul olanlar əvvəlcə Konstitusiyanı mükəmməl öyrənməli, onun hüquqi, iqtisadi, siyasi, sosial əsaslarını bilməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının öyrənilməsində və ətraflı şərh edilməsində diqqət ilk növbədə onun irəli sürdüyü əsas prinsiplərə yönəldilməlidir. Bu prinsiplər aşağıdakılardır:

1. Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq;

2. Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;

3. Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;

4. Xalqın iradəsinin ifadəsi kimi qanunların ali hüquqi təməlini təmin etmək, dünyəvi dövlət qurmaq;

5. Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;

6. Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Hər bir prinsip haqqında ətraflı məlumat vermək üçün "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsiplərin geniş şərhi verilməlidir. "Müstəqillik", "suverenlik", "ərazi bütövlüyü" anlayışları aydın şəkildə izah edilməlidir ki, bu da mahiyyəti haqqında məlumat verməklə yanaşı, vətəndaşlıq iftixarını, qürur hissini yaratsın.

Konstitusiyanın öyrədilməsi hər bir sinifdə uşaqların anlama səviyyəsinə uyğun olaraq ayrı-ayrı fənlərin tərkib hissəsi olaraq tədris edildiyindən onu necə şərh etmək, hansı mövzu ilə əlaqələndirmək və s. kimi metodik işlər hər bir müəllimin üzərinə düşür.

Müəllimlər bu imkandan bəhrələnməklə Konstitusiyanın maddələrinin uşaqlara öyrədilməsinə çalışmalıdırlar. Humanitar və təbiət fənlərinin bu sahədə imkanları böyükdür.

Tarix dərslərində Azərbaycan Respublikasının Konstitusiyasının öyrədilməsi məsələləri üzərində də danışmaq lazımdır.

Azərbaycan Respublikasının Konstitusiyasının orta məktəbdə sistemli olaraq öyrədilməsi məqsədilə vaxtilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 mart 1996-cı il tarixli 99 nömrəli əmri ilə IX siniflərdə həftədə 1 saat, ümumiyyətlə isə (tədris ili ərzində 35 saat) "Azərbaycan Respublikasının Konstitusiyası" kursunun tədrisi məqsədyönlü bilinmişdir. IX sinifdə belə bir kursun tədrisi gənclərin təhsili və mənəvi tərbiyəsində həlledici əhəmiyyətə malik olmuşdur. Qeyd edilən fənn 1996-cı ildə tətbiq olunduğu andan 2013-2014-cü tədris ilinə qədər müstəqil kurs kimi tədris edilmişdir. Daha geniş vətəndaş təhsili kurslarına inteqrasiya olunmazdan və ya başqa fənlərlə əvəz olunmazdan əvvəl 18 tədris ili davam etmişdir. Bu, şagirdlərin Konstitusiyada nəzərdə tutulmuş qanuni hüquq və vəzifələri haqqında maarifləndirməyə kömək etmişdir. Bu fənn sayəsində şagirdlər qanunilik və məsuliyyət mədəniyyətinin inkişafına kömək edən Azərbaycanın hüquq sisteminin təməl prinsipləri haqqında məlumat əldə ediblər. Kurs Azərbaycanın suverenliyini, milli

kimliyini və müstəqilliyini dərindən başa düşməyi təmin etmiş, ərazi bütövlüyünün və milli birliyin qorunmasında konstitusiya prinsiplərinin əhəmiyyətini gücləndirmişdir.

"Azərbaycan Respublikasının Konstitusiyası" fənni üzrə hazırlanmış proqramda əsas anlayışlar və aparıcı ideyalar aşağıdakı kimi səciyyələndirilmişdi [2]:

1. Xalq hakimiyyəti, xalqın suverenliyi, referendum, Azərbaycan dövlətinin əsasları, əsas insan və vətəndaş hüquqları, vəzifələri, ictimai münasibətlərdə hansı cinsiyyətləri müəyyən edir. Bunlar keçmiş konstitusiyadan nə ilə fərqlənir.

2. Hakimiyyətin bölüşdürülməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti hansı müsbət nəticələr əldə etmişdir.

3. Naxçıvan Muxtar Respublikasının statusu, Naxçıvan Muxtar Respublikasında hakimiyyət bölgüsü, bu muxtar qurum üçün hansı səlahiyyət və imkanlar yaradılmışdır.

4. Yerli özünüidarəetmə bələdiyyələr və onların səlahiyyətləri, Azərbaycanda qanunvericilik sistemindəki dəyişikliklər yerli "hakimiyyət orqanları"nın hansı istiqamətlərdə sərbəstləşməsinə səbəb olacaqdır.

VI-IX siniflərin tarix kurslarından və IX siniflərin "Həyat bilgisi" fənninin təlimindən alınan biliklər əsasında Azərbaycan dövlətçiliyini, xalq hakimiyyətini, demokratiyanı, xalqın suverenliyini sərbəst misallarla izah etmək mümkündür.

1. "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır" məsələlərini mənbələrdən öyrənməklə və bu anlayışları müəyyən sistem üzrə təhlil etmək, ümumiləşdirmək, müqayisə etmək, qiymətləndirmək və şərh etmək:

2. Hüquqi dövlət anlayışı, qanunun aliliyi deməkdir. Cəmiyyətin inkişafı üçün bu nə verir, tələblərin səviyyəsinə uyğun olaraq qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında bölüşdürülməsinin müqayisəli təhlilini vermək;

3. Bələdiyyələrin yerli özünüidarə orqanlarının cəmiyyətdəki yerini və rolunu izah etmək, yerli icra hakimiyyətlərin sərbəstliyi üçün bu qurumların əhəmiyyətini şərh etmək;

4. Azərbaycan Respublikasının Konstitusiyasına görə qanunvericilik sistemini şagirdlərin başa düşəcəkləri səviyyədə izah etmək;

5. Hüquqi bilikləri müxtəlif mənbələrdən - tədris ədəbiyyatından, tarix, dövlət sənədlərindən, hüquq ədəbiyyatından və kütləvi informasiya vasitələrinin məlumatlarından istifadə etməklə sadə həyati misallarla izah etmək;

6. Şagirdlərə müstəqil şəkildə ədəbiyyat seçmək, icmal, tezislər tərtib etmək, referat və məruzə hazırlamaq vərişlərinə cəlb edilmələri, onların məktəb diskussiyalarında iştirak etmələri, hüquqi və siyasi mədəniyyətlərini nümayiş etdirmələri üçün lazımi şərait yaradılmalıdır.

Son illər respublikamızın ictimai-siyasi həyatında baş verən hadisələri təhlil edərkən bəlli bir fikri də şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi qüdrəti gündən-günə artır. Fərəhləndirici haldır ki, Azərbaycan Respublikası BMT, ATƏT və digər beynəlxalq təşkilatların üzvüdür. Azərbaycan xalqı dünya xalqları arasında özünə layiq yer tutur. Çünki dövlətimiz demokratik, hüquqi dövlətdir və Azərbaycan Respublikasının vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Beynəlxalq aləmdə Azərbaycan xalqının yüksək dövlətçilik ənənəsi ilə bağlı imicindən bəhs edərkən, Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti mütləq yetişən gənc nəslə örnək olaraq aşılanmalıdır. Məhz Heydər Əliyevin sərt və yorulmaz fəaliyyəti nəticəsində atəşkəs rejimi yaradılmış, Əsrin müqaviləsi – neft kontraktı bağlanmış, siyasi sabitlik iqtisadi tərəqqinin təminatını şərtləndirmişdir. Ölkədə özəlləşmənin keçirilməsi, inflyasiyanın dayanması məhz onun çoxşaxəli fəaliyyəti nəticəsindədir. Bu kimi tədbirlər Azərbaycan Respublikasına dünyada maraq yaratmışdır. 44 günlük Vətən Müharibəsi nəticəsində düşmən üzərində qələbə çalmış, torpaqlarımız geri qaytarılmışdır. 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı ölkəmizin bütün ərazisi üzərində suverenliyimizin bərpası ilə tamamlanmışdır. Bu suverenliyimizin hüquqi əsaslarını bilmək və öyrənmək hər bir Azərbaycan vətəndaşının borcudur.

IX siniflərdə "Həyat bilgisi" fənnini tədris edərkən Konstitusiyanın ayrı-ayrı maddələrinə istinad etmək mümkündür: məsələn, "İnsan hüquqları" mövzusu keçirilərkən Konstitusiyasının müvafiq maddələrinə istinad etmək səmərəli nəticə verə bilər. Hər şeydən əvvəl, müəllim azadlıq haqqında müxtəlif baxışları şərh edərək

dərsdə azadlıq anlayışının mahiyyətini açmalı, «azadlıq nədir?» sualı ətrafında fikir mübadiləsi aparmalı, öz fikir və mülahizələrini düzgün əsaslandırmalıdır. O göstərməlidir ki, azadlıq özbaşınalıq deyil. Yadda saxlamaq lazımdır ki, insanların bütün sahələrdəki davranışı və fəaliyyətini tənzimləyən dinamik və çevik xarakterə malik, bir sıra məhdudlaşdırıcı normalar vardır. Əslində azadlığın məzmununu və onun ictimai həyatını bütün sahələrindəki mövcud normaları idrak səviyyəsi və onlara əməl edilməsi təşkil edir. Buradan belə nəticə çıxır ki, azadlığın zərurətini dərk edilməsi və fəaliyyətin əhəmiyyətidir [9, s.92-95]. IX sinif "Azərbaycan tarixi" dərsliyində isə (III bölmə) 1921-ci il Azərbaycan SSR-in ilk və ikinci Konstitusiyalarından 1989-cu il "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanununadək ətraflı məlumatlar verilir. Daha sonra isə (IV bölmə) 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Akt"ının qəbulu və Hüquqi dövlət quruculuğu tədbirləri çərçivəsində 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu ilə bağlı məlumatlar şagirdlərə tədris olunur [5, s.110-144].

Müəllim azadlığın, demokratiya, qanunçuluq məsələləri anlayışları ilə bağlı olduğu barədə şagirdlərə izah verərkən Konstitusiyasının ikinci bölməsinin 3-cü fəslində, yəni "İnsan və vətəndaş hüquqları və azadlıqları" hissəsində verilmiş məlumata istinad etməlidir. Müəllim əvvəl insan vətəndaş hüquqları və azadlıqlarının əsas prinsipini (maddə 24) şagirdlərin nəzərinə çatdırmalıdır:

1. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.

2. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

3. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir.

Vətəndaşların azadlıq hüququ Konstitusiyanın 28-ci maddəsində rəsmi şəkildə təsdiqlənmiş və aşağıdakı şəkildə ifadə olunmuşdur:

1. Hər kəsin azadlıq hüququ var.

2. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər,

3. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

4. Azərbaycan Respublikasının vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır [1].

Göründüyü kimi, vətəndaşların azadlıq hüququ Konstitusiyada tamlığı ilə öz əksini tapmışdır. Müəllim çalışmalıdır ki, hər bir şagird vətəndaşlara verilmiş hüquqları bilsin. Azərbaycan Respublikasının vətəndaşlarının hüquqları ayrı-ayrı maddələrdə təsbit edilmişdir: bərabərlik hüququ (maddə 25), insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi (maddə 26), mülkiyyət hüququ (maddə 29), əqli mülkiyyət hüququ (maddə 30), təhlükəsiz yaşamaq hüququ (maddə 31), şəxsi toxunulmazlıq hüququ (maddə 32), mənzil toxunulmazlığı hüququ (maddə 33), nikah hüququ (maddə 34), əmək hüququ (maddə 35), tətil hüququ (maddə 36), istirahət hüququ (maddə 37), sosial təminat hüququ (maddə 38), sağlam ətraf mühitdə yaşamaq hüququ (maddə 39), sağlamlığın qorunması hüququ (maddə 41), təhsil hüququ (maddə 42), mənzil hüququ (maddə 43), milli mənsubiyyət hüququ (maddə 44), ana dilindən istifadə hüququ (maddə 45), şərəf və ləyaqətin müdafiəsi hüququ (maddə 46), fikir və söz azadlığı (maddə 47), vicdan azadlığı (maddə 48), sərbəst toplaşmaq azadlığı (maddə 49), məlumat azadlığı (maddə 50), yaradıcılıq azadlığı (maddə 51), vətəndaşlıq hüququ (maddə 52), vətəndaşlıq hüququnun təminatı (maddə 53), cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ (maddə 54), seçki hüququ (maddə 56), müraciət etmək hüququ (maddə 57), birləşmək hüququ (maddə 58), azad sahibkarlıq hüququ (maddə 59), hüquq və azadlıqların məhkəmə təminatı (maddə 60), hüquqi yardım almaq hüququ (maddə 61) və s. Şagirdlərin məktəbdə oxuyarkən öz hüquqlarını bilmələri vacibdir. Hüquqlar məktəblilərə izah edilərkən onların demokratik mahiyyəti, geniş imkanlı olması və bunların dövlət tərəfindən təminatı, qorunması xüsusi olaraq onlara çatdırılmalıdır.

Bu zaman elə məsələlər var ki, onların üzərində xüsusi olaraq dayanmaq lazımdır: məsələn, Konstitusiyanın 3-cü fəslində əsas insan

və vətəndaş hüquqları və azadlıqları göstərilir. Yeniyetmələr və gənclər bu barədə müəyyən təsəvvürə malik olduqlarından, çətinlik çəkmədən mənimsəyirlər. Buna baxmayaraq, 3-cü fəsildə yer alan hüquqlarla bağlı hər bir maddə əsaslı şərh edilməlidir. Tutaq ki, şagirdlər bərabərlik hüququnu (maddə 25) öyrənirlər. Burada göstərilir ki:

1. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

2. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

3. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir. İnsan və vətəndaş hüquqları və azadlıqları irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

4. Heç kəsə bu maddənin 3-cü hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

5. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

6. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

Burada hər şey aydındır. Məktəblilər qeyd edilənləri hətta əzbərləyərək öyrənə bilərlər. Lakin məsələ bununla bitmir. Yəqin etmək lazımdır ki, deyilənlər hər bir gəncdə hüquqi təfəkkür formalaşdırsın, ona hüquqi mədəniyyət aşılansın, onu tələblərdən səviyyə üçün hazırlasın. Bu o zaman mümkün olar ki, şagird kağız üzərində oxuduqlarına həyatında hamı tərəfindən riayət edildiyini görsün. Əks təqdirdə şagirdlərin öyrəndiklərinin heç bir faydası olmaz. Öyrənilən hər bir maddə həyatilik tələb edir.

Təcrübə göstərir ki, məktəblilər hüquq və vəzifələri bir-birindən asanlıqla ayıra bilmirlər. Bəzi hallarda hüquqlarını cədvəldə saxlayır, vəzifələrini unudurlar. Bu cür gənclər şüurlu şəkildə öz vətəndaşlıq tələblərini dövlət qarşısında irəli sürür, vəzifə borclarını yerinə yetirmədikdə isə özlərini günahkar bilmirlər. Bu hal onların vətəndaşlıq məsuliyyətini dərk etməmələrindən daha çox, vəzifələrini hüquqi əsasla bilməmələrindən irəli gəlir. Ona görə də hər bir məktəbli Konstitusiyada əks etdirilən vətəndaş hüquq və vəzifələrini mükəmməl şəkildə öyrənməli və hər birinin mahiyyətini dərk etməlidir. Onlar bilməlidirlər ki, insan ləyaqəti qorunur və ona hörmət edilir, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğu kimi hüquq və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir (maddə 24). Əgər məktəblilər bu prinsipi mahiyyətcə düzgün başa düşsələr, hüquq və vəzifələrini də eyni səviyyədə anlar və yerinə yetirməyə çalışarlar.

Təcrübə göstərir ki, bəzi məktəblərdə vətəndaşların vəzifələrini məktəblilərə öyrədərkən onu daha çox vəzifələrlə əlaqələndirirlər. Bu, müəyyən hüquqlara malik insanın vəzifələrini yerinə yetirmək məsuliyyətinin böyüklüyündən doğrudur. Lakin vəzifələrinin məzmunu böyüklüyündən bu maddələr öyrədilərkən daha çox dövlətin əsaslarına aid maddələrə istinad edilməlidir. Çünki vəzifələrinin məzmunu dövlətin əsaslarının gerçəkləşdirilməsi ilə bağlıdır.

Dövlətin əsasları fəslində Azərbaycan dövləti (maddə 7), Azərbaycan dövlətinin başçısı (maddə 8), Silahlı Qüvvələr (maddə 9), beynəlxalq münasibətlərin prinsipləri (maddə 10), ərazi (maddə 11), dövlətin ali məqsədi (maddə 12), mülkiyyət (maddə 13), təbii ehtiyatlar (maddə 14), iqtisadi inkişaf və dövlət (maddə 15), sosial inkişaf və dövlət (maddə 16), ailə, uşaqlar və dövlət (maddə 17), din və dövlət (maddə 18), pul vahidi (maddə 19), dövlətin borclarına qoyulan məhdudiyyətlər (maddə 20), dövlət dili (maddə 21), paytaxt (maddə 22), Azərbaycan dövlətinin rəmzləri (maddə 23) haqqında verilmiş maddələrdə hüquqi əsaslar göstərilir ki, onları bilmədən vətəndaş kimi vəzifələri anlamaq və yerinə yetirmək olmaz. Ona görə də bu əsaslar mükəmməl öyrədilməli və bu zaman vətəndaşlıq hissləri, duyğuları inkişaf etdirilməlidir. Vətəndaşlıq duyğusu olmadan vətəndaşlıq ləyaqətini, vətənə qarşı borcu formalaşdırmaq mümkün deyil.

Konstitusiyanın öyrənilməsi prosesində psixoloji və pedaqoji təsir vasitələrindən səmə-

rəli istifadə edilməli, vətəndaş-şəxsiyyət hazırlığı məqsədi aydın olmalıdır.

Dövlətin əsaslarını və özünün bu demokratik dövlətdə hüquq və azadlıqları ilə şəxsi və vətəndaş vəzifələrinin mahiyyətinə vararaq dərkinə əmin olur, özünü bu vəzifələri yerinə yetirmək üçün hazırlayar. Bu məsələ Konstitusiyada hüquqi baxımdan 72-ci maddədə konkret yazılır:

1. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər.

2. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

3. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

Göründüyü kimi hər kəs vətəndaşlıq vəzifələrini yerinə yetirməlidir. Qanunu bilməmək onu məsuliyyətdən azad etmir. Deməli, qanunları bilməmək özü ən zəruri vəzifə borcuna daxildir.

Vətəndaşların əsas vəzifələri Konstitusiyamızın 4-cü fəslində qeyd edilir. Burada vergilər və başqa dövlət ödənişləri (maddə 73), Vətənə sədaqət (maddə 74), dövlət rəmzlərinə hörmət (maddə 75), Vətəni müdafiə (maddə 76), tarix və mədəniyyət abidələrinin qorunması (maddə 77), ətraf mühitin qorunması (maddə 78), qanuna zidd vəzifələrin icrasına yol verilməməsi (maddə 79), məsuliyyət (maddə 80) kimi mühüm vətəndaşlıq vəzifələri qanunilәşdirilir.

Konstitusiya maddələrinin öyrənilməsi işin bir tərəfidir, işin ikinci tərəfi məktəbdəki tədbirlərlə şagirdlərin vətəndaşlıq hazırlığının həyata keçirilməsidir.

Orta ümumtəhsil məktəbini bitirən hər bir gənc həyata tam hüquqlu vətəndaş kimi daxil olur. O, vətəndaşlığını təsdiq edən sənəd pasport alar. Az keçmir ki, vətəni müdafiə etmək borcunu yerinə yetirmək yaşına çatır, hətta ailə qurmaq, seçib-seçilmək hüququna yiyələnir, işləmək, vəzifə daşımaq missiyasına çatır və s. Bütün bunlar o zaman səmərəli qurulur ki, gənc kamil vətəndaşlıq hazırlığı keçmiş olsun, keyfiyyətlərə, hüquqi-siyasi təfəkkürə yiyələnir.

Bütün tərbiyəvi meyarları hərtərəfli mənimsəmək üçün Azərbaycan Respublikası Konstitusiyasının digər bölmə və fəsillərini də öyrənmək tələb olunur. Məsələn, gənclər qanunvericilik hakimiyyətinə (5-ci fəsil), icra hakimiyyətinə (6-cı fəsil), məhkəmə hakimiyyətinə (7-ci fəsil) və ümumiyyətlə, Qanunvericilik sisteminə (10-cu fəsil) aid maddələrlə tanış olduqdan sonra mənsub olduqları ölkənin demokratik mahiyyətini, hətta öz hüquq və vəzifələrini təkcə əxlaqi-mənəvi baxımdan deyil, siyasi-hüquqi baxımdan və tam hüquqlu vətəndaş kimi dərk edirlər. Məktəbdə aparılan təlim prosesi bu böyük vəzifənin əhəmiyyətindən təkcə kəlmə bilməz. Ona görə də məktəblilərin vətəndaşlıq hazırlığının sistemi, bu sistemdə həyata keçirilən iş formaları tətbiq edilməlidir.

Bu sistemdə məktəbdə təlimdən kənar iş prosesində görülən işlər, məktəbdənkənar proseslər və sinif-tədbirlər, valideynlərlə əlaqə və ailədə və cəmiyyətdə görülən işlər və baş verən hadisələr və s. öz müvafiq yerini tutmalıdır. Lakin ilkin mərhələdə, ailə və məktəb üzərinə daha böyük vəzifələr düşür.

Azərbaycan Konstitusiyasından irəli gələn vəzifələrlə şagirdlərin tanış edilməsi baxımından kimya-biologiya fənlərindən imkanlar daha genişdir. Kimya və biologiya fənlərinin tədrisi prosesində qanunun ideyalarının aşağıdakı istiqamətlərdə öyrədilməsi mümkündür:

1. Elmi-texniki inkişafın həyata keçirilməsi təminatı;

2. Sağlamlığın qorunması hüquqları;

3. Təbii sərvətlərdən səmərəli istifadə, iqtisadi inkişaf perspektivləri;

4. Ekoloji sistem və təbiətin mühafizəsi problemləri.

Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin. Elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur. Bu sözlərin mənalarını dərindən başa düşmələri üçün şagirdlərin qarşısında belə bir sual qoyula bilər: “Burada nəzərdə tutulan əsas ideyaları kim izah edə bilər?”. Bu zaman şagirdlərin cavabları üst-üstə düşməyə də bilər. Müəllim onların cavablarını ümumiləşdirərək qeyd etməlidir ki, Azərbaycan xalqının hər bir vətəndaşının rifahının yaxşılaşdırılması, əsasən,

sənayenin və kənd təsərrüfatının inkişafı ilə birbaşa əlaqədardır. Əks təqdirdə, bölgənin sənayesi və kənd təsərrüfatı inkişaf etməz, xalqın rifahı tələb olunan səviyyəyə qalxmaz.

Ona görə də respublikamızda ilk növbədə sənaye və kənd təsərrüfatının elmi əsasda qurulmasına diqqət artırılır. Hazırda respublikamızın kimya sənayesinin inkişafı ilə bağlı ciddi işlər gedir. Bakıda sement, şin, polad, çuqun əritmə, şüşə, kübrə, sulfat və nitrat turşusu, alüminium, boru-prokat zavodları neft emalı sənayesi müəssisələri xarici ölkələrin maliyyə vəsaiti hesabına müştərək müqavilələr əsasında inkişaf etdirilir. Quruculuq işləri aparılır, inkişaf etmiş yeni texnologiyanın tətbiqi ilə yenidən qurulur. Əhalinin həyat səviyyəsinin inkişafı, qida, geyim, məişət avadanlıqlarına, tibbi məhsullara olan tələbatının maksimum ödənilməsi planlaşdırılır.

Kimya və biologiyanın tədrisi respublikamızın təbii ehtiyatları, onlardan səmərəli istifadə edilməsi kənetik əlaqə zəminində həyata keçirilir. Bu baxımdan kimyanın və biologiyanın tədrisini Konstitusiyamızın 14-cü maddəsi ilə əlaqələndirmək mümkündür: “Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.” Konstitusiyanın bu maddəsi ilə əlaqədar şagirdlərə bilik və bacarıqlar vermək məqsədilə ilk növbədə həmin Maddənin mahiyyəti aydınlaşdırılmalıdır. Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, Azərbaycan Respublikasında müstəqillik illərindən öncə miras qalan müəyyən ekoloji problemlərin olduğu nəzərə alınaraq yeni Konstitusiyaya təbiətin ətraf mühitin qorunması ilə bağlı Maddə daxil edilmişdir. Konstitusiyanın 40-cı maddəsində qeyd edilir ki, hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. 144-cü maddənin 9-cu bəndində isə yerli ekoloji proqramların qəbul və icra edilməsi xüsusilə vurğulanır. Buradan müstəqil respublikamızda təbiətin qorunmasına, gələcək nəsillər üçün saxlanmasına böyük əhəmiyyət verildiyi hiss olunur. Şagirdlərin bu maddənin əhəmiyyətini başa düşmələri üçün geniş söhbət aparılmalı, aydınlaşdırılmalıdır ki, respublikamız neft, qaz, dəmir, mərmər və s. faydalı qazıntılarla zəngindir. Öz fəaliyyətini 1990-cı illərin əvvəllərində dayandırmış bir çox zavodlar yenidən bərpa olunur, təchiz edilir, fəaliyyətlərini bərpa edirlər. Bu zavodların fəaliyyəti sənayenin inkişafını təmin etsə də, bir sıra problemlər də yaranır. Belə ki, ətraf mühitin çirklənməsi, havanın zəhərlənməsi nəticəsində əhalinin sağlamlığına müəyyən ölçüdə zərər dəyir.

Konstitusiyada təbiətin qorunması problemlərinə, o cümlədən gənclərin təbiətə qarşı müsbət münasibətdə tərbiyə edilməsinə xüsusi yer ayrılır. Bu meyarlar əsasında gənc nəsildə hələ uşaqlıq yaşlarından təbiətə qarşı, onun yaratdığı nemətlərdən səmərəli istifadə sahəsində ümumi təsəvvürlər yaradılmalıdır. Biosferin ehtiyatları dünyanın bütün canlı aləminə aiddir. Biosfer ətraf mühitin ayrılmaz hissəsi olmaqla, onun tərkibinə hava, su, torpaq, istilik, günəş işığı daxildir. Təbiətin elə bir küncü yoxdur ki, o biosferdən təcrid edilmiş olsun və digər sahələrdən asılı olmasın. Azərbaycanın karbohidrogen yataqlarının istismarı nəticəsində meydana gələn ekoloji problemlərə qarşı ölkə başçısı tərəfindən yaşıl enerjiyə keçid siyasəti irəli sürülmüşdür. Ölkə gəlirlərini böyük ölçüdə neft və qaz ehtiyatlarının satışı vasitəsilə təmin edən bir dövlət üçün bu, dünyada nadir rastlanan, unikal bir nümunədir. Yaxın gələcəkdə Azərbaycanın təkcə regionda deyil, dünyada yaşıl enerji üzrə aparıcı dövlətlərdən biri olması üçün məqsədyönlü və ardıcıl siyasət yürüdülür. Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirilməsi (COP-29), işğaldan azad olunmuş ərazilərimizdə alternativ enerji mənbələrindən istifadəyə yönəlmiş uğurlu planlaşdırma buna bariz nümunədir [4].

Göründüyü kimi, orta ümumtəhsil məktəblərində təlim prosesində Azərbaycan Respublikasının Konstitusiyasının maddələrinin öyrədilməsi üçün geniş imkanlar vardır. Müəllimlər bu imkan və şəraitdən maksimum istifadə etməyə çalışmalıdırlar. Onlar Azərbaycan Respublikasının Konstitusiyasını ancaq siyasi sənəd kimi deyil, hər bir insanın tələblərini müəyyən edən, hüquq və vəzifələrini müəyyənləşdirən sənəd kimi öyrənməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasında məktəblilərin mənəvi tərbiyəsi ilə də bağlı maraqlı fikirlər vardır. Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaş hüzurunda

ailənin mövqeyi, borcu, vəzifəsi aydın verilmişdir. Ailə, sağlam olaraq, cəmiyyətin əsas özəyi adlandırılır. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində yazılır:

1. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

2. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

3. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədir.

4. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

5. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməz.

6. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

Göründüyü kimi, uşaqların ilkin və əsas tərbiyə işi, onlara qayğı ailənin, valideynlərin üzərinə düşür, təhsil-təlim isə birbaşa tədris müəssisələrinə aiddir ki, dövlət bunun təminatını və nəzarətini həyata keçirir. Deməli, Konstitusiyaya görə müəyyənləşəcək təhsil və tərbiyə konsepsiyasında ailə-məktəb əlaqəsi, ailənin və məktəbin üzərinə düşən xüsusi və ümumi vəzifələr dəqiq müəyyənləşdirilməlidir, ailə, insan, ictimai asayişin ilkin özəyi kimi götürülməlidir. Bundan əlavə Konstitusiyaya, böyüklərin iqtisadi, hüquqi, ekoloji, siyasi-mənəvi tərbiyəsinin də yeni metodoloji əsaslarla, cəmiyyətin, dövlətin yüngülləşən sosial, siyasi, iqtisadi bazada, yeni istehsal münasibətlərinə görə qurulmasını irəli sürür. Bu baxımdan da vətəndaşların tərbiyə edilməsində ailə, məktəb və bütövlükdə cəmiyyət çox mühüm vəzifə daşıyır.

Ailə və məktəb böyüyən nəslə təşkilatçılıq, dəqiqlik, qədirbilənlik, təşəbbüskarlıq, quruculuq kimi işgüzarlıq qabiliyyətlərini, düzlük, sədaqətlilik, sözübütövlülük, xeyirxahlıq, vətənpərvərlik, məhəbbət və s. inkişaf etdirməli, öz hərəkət, münasibət və davranışlarını, arzu və əməllərini qanunculuq əsasında hüquqi normada qurmaq etikası üzərində formalaşdırmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyası insan-vətəndaş yetişdirilməsi üçün geniş imkanlar açır. Burada dil-ədəbiyyat müəllimlərinin üzərinə böyük məsuliyyət düşür.

Hər bir xalqın varlığını müəyyən edən əsas şərtlərdən biri onun dilinin olmasıdır. Böyük rus pedaqoqu K.D. Uşinski yazırdı: "Xalqın dili, onun mənəvi həyatının heç bir vaxt solmayan və daim çiçəklənən, tarix sərhədlərindən çox uzaqlarda başlanmış boyasıdır. Dildə bütün xalq və onun vətəni canlanmış olur.

Xalq dilinin parlaq, aydın dərinliklərində, doğma ölkənin tək bir təbiəti deyil, həm də xalqın mənəvi həyatının bütün tarixləri əks olunur. Xalq nəsilləri bir-birinin ardınca keçir, lakin hər nəslin həyat nəticələri dil vasitəsilə gələcək nəslə irs olaraq qalır... Dil xalqın içərisində ölüb, yenidən doğanları, yaşamaqda olanları və gələcək nəsilləri böyük, tarixi və şanlı bir tam şəkildə birləşdirən ən canlı, ən məhsuldar və ən möhkəm əlaqədir. Dil nəinki xalqın həyatını özündə ifadə edir, o, eyni zamanda, məhz həyatını özüdür. Ana dili məhv olarkən, xalq artıq yox olur...

Uşaq ana dilini öyrənərkən yalnız səsləri öyrənmir. O, eyni zamanda, ana dilinin doğma düşüncəsindən mənəvi həyat və qüvvət içir" [12, s.111-113].

Azərbaycan dilinə yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev demişdir: "Hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini - rus dilini də, ingilis dilini də, fransız dilini də mənimsəsin, öyrənsin. Bu, lazımdır, çünki müasir dünya ölkələrinin bir-birilə sıx əlaqəsi bu gün və gələcəkdə insandan bir çox dili bilməsini tələb edir. Mən gənclərimizə bu tövsiyəni verirəm... Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun."[10, s.65]

Millətin ən yüksək mənəvi dəyəri olan ana dilinə Azərbaycan Respublikasının Konstitusiyasında geniş yer verilmişdir. Dövlət dilindən bəhs olunan Konstitusiyanın 21-ci maddəsində dəyişiklik və ya onun ləğv edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz. 21-ci maddədə yazılmışdır:

1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

2.Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Doğma dilimizin yaşaması, inkişaf etməsi üçün Respublikamızda hər cür şərait yaradılmışdır. Belə ki, Konstitusiyada təsbit edilmiş bu maddədə uşaq bağçasından tutmuş ali məktəblərə qədər bütün tədris müəssisələrində həyata

keçirilir. Azərbaycanlı uşaqlar doğma ana dilində təhsil alırlar. Çünki onlar bu hüquqa malikdirlər. Yeri gəlmişkən bir faktı qeyd etmək vacibdir ki, sovet hakimiyyəti illərində, xüsusilə 1970-ci illərdə bütün Sovet İttifaqı respublikalarında yerli dillər sıxışdırıldığı halda, Azərbaycanda daha da inkişaf etdirilmişdir. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu öncəki illərdə də Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması təsbit edilmişdi. Respublikanın bir qrup dilçi aliminə Dövlət mükafatı verilmişdi. Orta Asiya respublikalarında ali təhsil müəssisələri ancaq rus dilində olduğu halda (xüsusilə, Qazaxıstanda və Qırğızıstanda), Azərbaycanda o zaman fəaliyyət göstərən 18 ali məktəbin hamısında təlim dili Azərbaycan dili idi (Təbii ki, rus bölmələri də vardı).

Konstitusiyamızda ən mühüm maddələrdən biri də Vətənə sadiqliklə, vətənpərvərliklə bağlıdır. Konstitusiyanın 74-cü maddəsində göstərilir:

1. Vətənə sədaqət müqəddəsdir.

2. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər.

3.Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyət orqanlarında işləyən, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağına and içmiş şəxs dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.

Bu müqəddəs amalı şagirdlərə çatdırmaq, onlara mənimsətmək, qanlarına, canlarına hopdurmaq müəllimlərimizin şərəfli işi olmalıdır.

Konstitusiyada təsbit olunan bu maddə ailədə, məktəbdə uşaqlara başa salınmalı, onlarda vətənpərvərlik hissləri aşılanmalıdır. Ulu Öndər Heydər Əliyevin təbirincə desək, hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə orduya xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaqdır.

Konstitusiyanın ümumi ruhu və məzmunu bunu deməyə əsas verir ki, müasir gəncliyi milli ruhda, ümumbəşəri dəyərlər zəminində yetişdirmək, İslam dini dəyərlərinin mütərəqqi ənənələrini sevmək və yaşatmaq ruhunda tərbiyələndirmək lazımdır.

Ali Baş Komandan, ölkə prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalq bir yumruq altında birləşərək müzəffər ordumuzun şücaəti nəticəsində 30 ildən artıq erməni qəsbkarlarını və onların havadarlığının istismarında olan qanunsuz hərbi birləşmələrini darmadağın edərək əbədi torpaqlarımızı işğaldan azad etdi. Əsas məqsəd müstəqil, suveren Azərbaycan Respublikası vətəndaşlarının kamil şəxsiyyətlər kimi formalaşdırılması işində hər bir təhsil işçisi, müəllim, tərbiyəçinin mövcud imkanlardan geniş istifadə etməsi, millətin gələcəyi olan gəncliyin yetişdirilməsində öz səyini və bacarığını əsirgəməməsidir.

**Problemin aktuallığı.** Məqalənin mövzusu tələbələr arasında vətəndaşlıq tərbiyəsi və hüquqi maarifləndirməni təşviq etdiyi, milli dəyərlərə və qanunun aliliyinə hörmət hissini aşıladığı üçün müasir pedaqogikada olduqca aktualdır. Azərbaycan Respublikası Konstitusiyasının tədris prosesinə inteqrasiyası demokratik dəyərlərə, hüquqlara və vətəndaşlıq məsuliyyətinə yaxşı bələd olan nəslin yetişdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma şagirdlərin milli idarəçilik haqqında anlayışını artırmaqla yanaşı, onların demokratik və hüquqi şüurlu cəmiyyətin formalaşmasında rolunu gücləndirir.

**Problemin yeniliyi.** Məqalənin elmi yeniliyi konstitusiya prinsiplərinin təhsil kurikulumlarına inteqrasiyasının innovativ yollarının araşdırılmasında, şagirdlərin öz hüquq və vəzifələrini dərk etmələrinin genişləndirilməsindədir. Belə ki, konstitusiya prinsiplərinin təhsil praktikasına daxil edilməsi milli kimliyin, hüquqi şüurun və fəal vətəndaşlığın daha dərindən dərk edilməsinə kömək edə bilər. Bu yanaşma kurrikulumu zənginləşdirməklə yanaşı, həm də şagirdlərlə ölkələrinin hüquqi və siyasi sistemi arasında əlaqəni gücləndirir.

**Problemin praktik əhəmiyyəti:** Məqalə vətəndaş hüquq və azadlıqlarını bilavasitə və ya digər fənlər daxilində tədris edən təhsil işçiləri, eyni zamanda siyasi mədəniyyət mövzusunda araşdırma aparan tədqiqatçılar üçün də faydalı ola bilər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası [Mətn]: -Bakı: Hüquq Yayın Evi, - 2023, - 115 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası [Mətn]: ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik / İ. İsmayılov, M. Əmirov, H. Qurbanov [və b.]; - Bakı: Təhsil, - 2010. - 134 s.
3. Əhmədov, H.H. Azərbaycan Respublikasının Konstitusiyasında təhsil və tərbiyə məsələləri / H.H. Əhmədov. -Bakı: Elm, - 1998. - 88 s.
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / URL: https://president.az/az/articles/view/51355
5. Şükürov, K. Azərbaycan tarixi 9: Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün dərslik /K. Şükürov, P. Ağalarov, N. Quliyev. Bakı: Şərq-Qərb. – 2024. - 200 s.
6. Əhmədov H.H. Elmi-pedaqoji kadrların hazırlanması günün aktual problemidir // - Bakı: "Azərbaycan müəllimi" qəzeti, , - 2016. 12 mart. - s.11.
7. Əhmədov, H.H. Konstitusiyamızı öyrənmək vətəndaşlıq borcudur // - Bakı: Təhsil, mədəniyyət, incəsənət. Elmi-nəzəri metodik jurnal, - 2002. - № 1, - s. 27-30.
8. Əhmədov, H.H. Konstitusiyamız: onun müddəalarına əməl etmək hər birimizin müqəddəs vəzifəsidir // - Bakı: Dövlət və hüquq. Elmi-nəzəri metodik jurnal, - 2002. - №1-3, - s. 23-28
9. Məmmədova, N. Həyat bilgisi 9: ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik / N. Məmmədova, K. Mahmudova, S. Bəhrəmova. Bakı. Şərq-Qərb. – 2020. - 136 s.
10. Heydər Əliyev və Azərbaycan diasporu. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Bakı: 362 s. Elektron resurs / URL: https://files.preslib.az/projects/diaspora/a4.pdf
11. Məmmədova, N. Həyat bilgisi: Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik / N. Məmmədova, K. Mahmudova, S. Bəhrəmova. -Bakı: Şərq-Qərb, - 2020. -136 s.
12. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri. / K.D. Uşinski. -Bakı: Azərnəşr, - 1953. - 312 s.

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR-IN-CHIEF***

***PROFESSOR NAZİM KAZIM oğlu KAZIMOV – 75***
***ПРОФЕССОР НАЗИМ КЯЗИМ оглу КЯЗИМОВ – 75***
***PROFESSOR NAZIM KAZIM KAZIMOV – 75***

*UOT 37.1*

***Akif Nurağa oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*E-mail: a.abbasov@arti.edu.az*
*https://orcid.org/ 0000-0002-9210-7141*
*https://doi.org/10.69682/arti.2025.92(2).19-22*

## MUSİQİŞÜNAS, TANINMIŞ ALİM VƏ PEDAQOQUN ŞƏRƏFLİ HƏYAT YOLU

***Акиф Нурага оглу Аббасов***
*ученый секретарь Института Образования Азербайджанской Республики,*
*доктор педагогических наук, профессор, заслуженный учитель*

## СЛАВНАЯ ЖИЗНЬ МУЗЫКОВЕДА, ИЗВЕСТНОГО УЧЕНОГО И ПЕДАГОГА

***Akif Nuragha Abbasov***
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of pedagogical sciences, professor, Honored teacher*

## THE FAMOUS LIFE OF A MUSICOLOGİST, RENOWNED SCIENTIST AND TEACHER

**Xülasə.** Nazim Kazım oğlu Kazımov professordur. Vaxtilə Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Musiqi Kollecində (keçmiş Asəf Zeynallı adına Azərbaycan Musiqi Texnikumunda) təhsil alıb. Hazırda kollecin direktorudur. Sonralar Bakı Dövlət Universitetinin filologiya fakültəsini, eyni zamanda Bakı Musiqi Akademiyasını bitirib. Tarzəndir. Musiqi sahəsində tanınmış şəxsdir. Bu il onun anadan olmasının 75 illiyi tamam olur. Məqalə onun həyat yoluna həsr edilmişdir.
***Açar sözlər***: *musiqi kolleci, milli konservatoriya, musiqi akademiyası, 75 illik, tarzən, pedaqoq*

**Аннотация**. Назим Кязим оглы Кязимов – профессор. Ранее он учился в музыкальном училище при Азербайджанской Национальной Консерватории (бывший Азербайджанский музыкальный техникум имени Асафа Зейналлы). В настоящее время он является директором колледжа. Позднее окончил филологический факультет Бакинского Государственного Университета, а также Бакинскую Музыкальную Академию. Является таристом. Он – известная фигура в музыкальной сфере. В этом году исполняется 75 лет со дня его рождения. Статья посвящена его жизненному пути.
***Ключевые слова***: *музыкальный колледж, национальная консерватория, музыкальная академия, 75-летие, тарист, педагог*

**Abstract.** Nazim Kazim Kazimov is a professor. He previously studied at the Music College under the Azerbaijan National Conservatory (former Azerbaijan Music College named after Asaf Zeynalli). He is currently the director of the college. Later, he graduated from the philological faculty of Baku State University, as well as the Baku Academy of Music. He is a well-known figure in the music industry. This year marks the 75th anniversary of his birth. The article is dedicated to his life. Keywords: music college, national conservatory, music academy, 75th anniversary, tar pl
***Keywords:*** *music college, national conservatory, music academy, 75th anniversary, teacher*

**Ön söz**

İllər elə tez ötüşür ki. Yeni il başlayır. Gözünü açıb görürsən ki, artıq il yarı olub. Bir də baxırsan kim isə: “Heç bilmədim may ayı nə zaman yetişdi”, - deyir. O biri söhbətə qarışır: “A kişi, may nədir, il artıq sona yetir”, - cavabını verir.

Bax belə illərin işığında Nazim bir də gördü ki, yaşının üstünə xeyli yaş gəlib, 75 yaşına çatıb. 75 yaş əsrin dörddə üçüdür. Nazim ötən illərə boylandı. Öz-özündən soruşdu: “Papağımı günə yandırmamışan ki?” “Yox”, -dedi. Ötüb keçən illəri vərəqlədi. Haqlı olduğunu gördü. Sonra özünə baxdı. Maşallah boy-buxun onda. Özünü qıvraq, gümrah, sağlam hiss edir. Necə deyərlər “dəyərəm min cavana”.

**Həyatı, təhsil illəri**

Nazim Kazımov 4 aprel 1950-ci ildə Naxçıvan şəhərində doğulmuş, şəhər 1 nömrəli məktəbində təhsil almışdır. Hələ orta məktəbdə oxuyarkən onda musiqiyə dərin maraq yaranmışdı. Ümumtəhsil məktəbi ilə yanaşı eyni zamanda şəhər musiqi məktəbinin tar sinfində təhsil almağa başlamışdır.

Nəhayət, orta məktəbdə təhsil illəri arxada qaldı. Musiqi həmişə Nazimlə idi. Azərbaycan musiqi alətlərinin şahı sayılan tara sevgi, vurğunluq onu Bakıya - Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna (1966) gətirib çıxardı. O, xalq çalğı alətləri şöbəsinin tar sinfinə qəbul olundu.

Nazim musiqimizlə bərabər Azərbaycan ədəbiyyatının da vurğunu idi. Musiqi ilə ədəbiyyatı bir-birində ayrı təsəvvür etmirdi. Həm də ali təhsil almaq arzusunda idi. Odur ki, texnikumda təhsil ala-ala sənədlərini Bakı Dövlət Universitetinə təqdim etdi və universitetin filologiya fakültəsinə (qiyabi) daxil oldu (1967). Arzular tükənmir deyirlər. Sevdiyi filologiya üzrə ali təhsilə yiyələnən Nazim musiqi sahəsində də ali təhsil almağı arzulayırdı. Bakı Dövlət Universiteti diplomunu aldıqdan sonra Azərbaycan Dövlət Konservatoriyasında qəbul imtahanlarında iştirak edərək konservatoriyanın tələbəsi oldu. Xalq çalğı alətləri şöbəsində xalq artistləri Səid Rüstəmovdan (tar ixtisası üzrə) və Süleyman Ələsgərovdan (dirijorluq ixtisası üzrə) dərs almağa başladı. Yaxşı tələbə, yaxşı mütəxəssis olmağa çalışırdı.



**Keçdiyi şərəfli yollar**

Nazimin ilk əmək fəaliyyəti Əli Bayramlı (hazırda Şirvan) şəhəri ilə bağlıdır. O, Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunda təhsilini tamamlayanda (1970) təyinatını bu şəhərdəki musiqi məktəbinə verdilər. Nazim Əli Bayramlı musiqi məktəbində 3 il müəllim vəzifəsində çalışdı.

Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı illərdə (1973-1978) eyni zamanda Bakının 15 nömrəli musiqi məktəbində xalq çalğı alətləri şöbəsinin müdiri olaraq əmək fəaliyyətini davam etdirdi.

Konservatoriyanı bitirdikdə (1978) onun təyinatını yenidən Əli Bayramlı (hazırsa Şirvan) musiqi məktəbinə verdilər. Nazim Kazımov bu musiqi məktəbində bir daha 4 il işlədi, müəllim, direktor müavini oldu.

Buradakı musiqi məktəbində çalışarkən Ariz Abduləliyev, Fəxrəddin Qafarov, Vaqif Abuzərov, Vüqar Nəzərov və başqa bu kimi musiqiçiləri yetişdirdi. Onlar hazırda musiqi sahəsində özlərinə məxsus ad-san yiyəsidirlər.

Nazim müəllim 4 ildən sonra təzədən Bakıya qayıtdı. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında Xalq musiqisi kafedrasında müəllim vəzifəsində çalışmağa (1981-1984) başladı. İş elə gətirdi ki, Nazim Kazımov üçüncü dəfə Əli Bayramlı musiqi məktəbinə qayıtmalı oldu. Bu dəfə musiqi məktəbinin direktoru təyin olunmuşdu. 8 il (1984-1992-ci illər) bu vəzifədə işlədi. Musiqi kadrla-

rının hazırlanması sahəsində səmərəli fəaliyyət göstərdi. Yenə Bakı şəhərinə gəldi. Bu dəfə respublika Təhsil Nazirliyində işə çağırılmışdı. Burada inspektor, aparıcı mütəxəssis, baş mütəxəssis və idarə rəisinin müavini vəzifələrini tutdu. 9 il fəaliyyət göstərdi. çalışdı.

Nazim Kazımov Asif Zeynallı adına Musiqi Texnikumunun məzunu idi. Tale elə gətirdi ki, onu bu məşhur, nüfuzlu tədris müəssisəsinə (hazırda Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecidir) direktor təyin etdilər. 2001-ci ildən həmin vəzifədə işləyir. Eyni zamanda Azərbaycan Milli Konservatoriyasının Xalq çalğı alətləri kafedrasının professorudur.

**Nazim Kazımovun uğurları**

Nazim müəllim musiqi təhsilinin müasir problem və inkişaf meyllərinə dərindən yiyələnmiş mütəxəssisdir. Geniş erudisiyaya, musiqi savadına malikdir. Təhsil təşkilatçısı, tədris prosesinin, təhsil müəssisəsinin, tələbələrin, tələbə auditoriyasının idarə olunması, müəllim-tələbə münasibətlərinin səmərəli qurulması sahəsində səriştəyə yiyələnmiş şəxs, alimdir. O, yüksək ifaçılıq məharətinə malikdir. Xalq musiqisini, o cümlədən muğamlarımızı çox gözəl bilir.

Professor Nazim Kazımovun pedaqoji və elmi fəaliyyəti üzvü vəhdət təşkil edir. Azərbaycan muğamlarının tərbiyəvi əhəmiyyəti və təlim-tərbiyə prosesində onlardan istifadə ilə bağlı onun bir sıra araşdırmaları, əsərləri vardır. 1997-ci ildə professor Vidadi Xəlilovun elmi rəhbərliyi ilə "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda dissertasiya yazaraq müdafiə etmiş, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır, professordur. Həmin dissertasiya əsasında "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" monoqrafiyasını (2000) çap etdirmişdir. Həmin monoqrafiya, eyni zamanda "Tar, kamança, qanun ixtisası üzrə pedaqoji təcrübə" proqramı (Bakı 1998), "Ümumtəhsil məktəblərində muğamların tədrisi və tərbiyəvi əhəmiyyəti" (1996), "Tar ilə fortepiano üçün pyeslər" mövzusunda proqram, metodik vəsait və kitabçalar, bir çox elmi məqalə musiqi müəllimlərinin, Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyanın, həm də orta ixtisas musiqi məktəblərinin müəllim və tələbələrinin stolüstü kitabıdır.

N. Kazımov milli musiqimizin fəal təbliğatçısıdır, məşhur musiqi xadimlərimizin həyat və fəaliyyətini tədqiq edir, respublikamızın musiqi ictimaiyyətinə, respublikamızın sakinlərinə çatdırır.

“Tar ilə fortepiano üçün pyeslər” (1999), “Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri” (2000), “Səid Rüstəmov”, “Asəf Zeynallı”, ”Musiqi kolleci-110” (2008), “Adil Gəray Məmmədbəyli” monoqrafiyaları, “Pedaqoji təcrübə” kitabı (2007 sevilə-sevilə oxunur.

Bundan başqa, Nazim müəllim təlimi Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin I, V, VII və VIII sinifləri üçün "Musiqi" dərsliklərinin həmmüəlliflərindəndir.

**Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin uğurları**

Professor Nazim Kazımovun direktoru olduğu Musiqi Kollecinin tələbələri də öz uğurları ilə respublikaya səs salır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təşkil olunan muğam ifaçılığı müsabiqələrində Musiqi Kolleci tələbələri hər dəfə böyük nailiyyətlər qazanırlar. Müsabiqələrdə Kollecin məzunlarından Təyyar Bayramov, Babək Niftəliyev, Güllü Muradova, Abgül Mirzəliyev, Ehtiram Hüseynov, Rəvanə Ərəbova müsabiqədə layiqli yerlər tutmuşlar.

**Professor Nazim Kazımov Azərbaycan musiqisi haqqında**

Günel Abbaslı ötən ilin sentyabrında “Azərbaycan müəllimi” qəzetində Nazim müəllimlə müsahibə aparıb. Günel xanımın iki sualına Nazim müəllimin cavablarını təqdim etmək istəyirəm:

***“Günel Abbaslı***: Musiqinin bugünkü vəziyyəti bir peşəkar kimi sizi nə dərəcədə qane edir?

***Nazim Kazımov***: Azərbaycan musiqisi dünya miqyasında bəyənilir. İstər muğamlarımız, istər klassik musiqimiz bizim üçün bir xəzinədir. Musiqiçilərimiz dünya səhnələrində, beynəlxalq müsabiqələrdə iştirak edirlər və dünyanın bir çox ölkələrində uğur qazanırlar. Bizim musiqini eşidənlər ondan doya bilmirlər. Mən bir faktı söyləmək istərdim. Fikrət Əmirovun “Azərbaycan kapriççiosu” deyilən bir əsəri var. Amerikalı bir dirijor yazır: “Maestro, mən sizin kapriççionu konsertin ortasında ifa edəndə hə-

min mahnıdan sonra zal boşalır. Tamaşaçılar deyir ki, biz başqa musiqi eşitmək istəmirik. Bizə icazə verin, sizin kapriççionu konsertin axırında çalaq ki, camaat getməsin və xahiş edirik, siz hansı musiqi alətində çalmısınızsa, onu gətirin Amerikada görüşək". Fikrət Əmirov tarını götürüb gedir.

***Günel Abbaslı:*** Bəstəkarlıq da musiqimizlə eyni dərəcədə inkişaf edir?

***Nazim Kazımov***: Gənc bəstəkarlarımız var, ancaq qəbul edirik ki, musiqilər o dövrdəki kimi deyil. Buna müəyyən zaman lazımdır. O musiqiçilər intibah dövründə yetişdi. Bu bütün dünyada belədir, indi Almaniyada da Bethovenlər yetişmir. Sanki Üzeyir bəy, Qara Qarayev yazılması lazım olan hər şeyi yazıb gediblər. Bu gün də gənc bəstəkarlar yazır, yaradır. Mən əminəm ki, bizim musiqimiz inkişaf edəcək. Çünki görürəm ki, bu gün də istedadlı gənclər var, onlar beynəlxalq arenalarda ölkəmizi təmsil edirlər. Azərbaycan xalqı öz musiqisi ilə bütün dünyanı fəth etməyə qadirdir".

**Şəxsi keyfiyyətləri**.

Nazim Kazım oğlu Kazımovun uğurları çoxdur. Bu uğurlara görə o başqalarının qarşısında öyünmür. Sadəcə çalışır ki, öz əməyi, zəhməti ilə nailiyyətlərinin sayını artırsın. Nazim müəllim sadə, mehriban, xeyirxah, humanist, səmimi, alicənab insandır. Yüksək insani keyfiyyətləri ilə böyük hörmət və nüfuz qazanmışdır. İstər rəhbərlik etdiyi pedaqoji kollektivin üzvləri, istər tələbələr, istərsə də musiqi aləmində sevilir.

Professor Vidadi Xəlilov "Sadiqlik nümunəsi" adlı kitab nəşr etdirmişdir. Həmin kitab Əməkdar incəsənət xadimi, professor Nazim Kazımovun həyat və yaradıcılığını diqqət mərkəzinə gətirir.

**Nazim Kazımovun əməyinin qiymətləndirilməsi**

Dövlətimiz musiqinin tədrisi, musiqi kadrlarının yetişdirilməsi, musiqi sahəsindəki şəxsi xidmətlərini nəzərə alaraq, onu Əməkdar incəsənət xadimi fəxri adına layiq görmüşdür. O, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə II dərəcəli Əmək ordeni; Təhsil və Elm Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir. Bundan başqa, Nazim müəllim "Qızıl qələm" mükafatı laureatıdır.

**Son söz**.

Professor Nazim Kazımov vaxtilə dahi Üzeyir Hacıbəylinin direktoru olduğu, zəngin ənənələri ilə seçilən Musiqi Kollecinə rəhbərlik edir. Üzeyir bəy iki dəfə fasilələrlə kollecin direktor olmuşdur. Bu təhsil müəssisəsi təkcə respublikamızda deyil, Yaxın Şərqdə ilk musiqi təhsili məktəbi olmuşdur. Nazim müəllim var gücü ilə çalışır ki, Üzeyir bəyin ənənələrini qorusun, yaşatsın, onun adına layiq rəhbərlik üslubu tətbiq etsin.

Professor Nazim Kazım oğlu Kazımovun 75 yaşı tamam olur. Bu yubiley günlərində ona nə arzu edərdik? Xoş əhval, sağlam və uzun ömür, yaradıcılıq uğurları, Musiqi Kollecinin uğurlarını görüb sevinmək arzusu! Əziz Nazim müəllim, 75 yaşın mübarək!!!

**Problemin aktuallığı**. Professor Nazim Kazımov musiqi sahəsində, təhsilin idarə olunması istiqamətində səmərəli fəaliyyət göstərib. Görkəmli musiqiçi, pedaqoq, fədakar təhsil təşkilatçı kimi onun həyat yolunu işıqlandırmaq aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Professor Nazim Kazımovun həyat və fəaliyyəti diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün maraqlı olacaqdır.

**Ədəbiyyat**

Milli musiqimizin fəal və fədakar təəssübkeşi. "525-ci qəzet", 2025, 04 aprel, s. 12.

**Redaksiyaya daxil olub:** 07.04.2025

**ÜZEYİR HACIBƏYLİ – 140**
**УЗЕИР ГАДЖИБЕЙЛИ – 140**
**UZEYIR HAJIBAYLI – 140**

UOT 37.1

**İradə Böyükağa qızı Əmirəliyeva**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3319-7466
E-mail: amiraliyeva_i@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(2).23-26

## ÜZEYİR HACIBƏYLİ MÜƏLLİMİN VƏZİFƏLƏRİ VƏ TƏRBİYƏ HAQQINDA

**Ирада Боюкага гызы Амиралиева**
доктор философии по педагогике,
ведущий научный сотрудник Института Образования Азербайджанской Республики

## УЗЕИР ГАДЖИБЕЙЛИ ОБ ОБЯЗАННОСТЯХ УЧИТЕЛЯ И ВОСПИТАНИИ

**Irada Boyukagha Amiraliyeva**
doctor of philosophy in pedagogy,
leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan

## UZEYIR HAJIBAYLI ON THE DUTIES OF A TEACHER AND UPBRINGING

**Xülasə.** Üzeyir Hacıbəyli Azərbaycanın dünya mədəniyyətinə təqdim etdiyi ən görkəmli simalarından biridir. Həm yazıçı, dramaturq, tərcüməçi, həm jurnalist, ictimai xadim, dirijor, və ən əsası, son dərəcə böyük bəstəkardır. Qori müəllimlər seminariyasını bitirdikdən sonra Hadrutda və Bakı şəhərində müəllim kimi fəaliyyət göstərmişdir. O, çoxsaylı operaların, musiqili komediyaların, hekayə, məqalə, felyeton və resenziyaların müəllifidir.

Məqalədə Üzeyir bəyin həyat yoluna nəzər salınır.

***Açar sözlər**: Üzeyir bəy, bəstəkar, yazıçı, dramaturq, opera, musiqili komediya, hekayələr, felyetonlar, tərbiyə məsələləri*

**Аннотация**. Узеир Гаджибейли – одна из самых выдающихся личностей, которую Азербайджан подарил мировой культуре. Он писатель, драматург, переводчик, журналист, общественный деятель, дирижер и, что самое главное, величайший композитор. После окончания Горийской учительской семинарии работал учителем в Гадруте и Баку. Он является автором многочисленных опер, музыкальных комедий, рассказов, статей, фельетонов и рецензий.

В статье рассматривается жизненный путь Узеир-бея.

***Ключевые слова**: Узеир-бей, композитор, писатель, драматург, опера, музыкальная комедия, рассказы, фельетоны, вопросы воспитания*

**Abstract.** Uzeyir Hajibayly is one of the most outstanding personalities that Azerbaijan has given to world culture. He is a writer, playwright, translator, journalist, public figure, conductor and, most importantly, the greatest composer. After graduating from the Gori Teachers' Seminary, he worked as a teacher in Hadrut and Baku. He is the author of numerous operas, musical comedies, short stories, articles, feuilletons and reviews. The article examines the life of Uzeyir bay.

***Key words**: Uzeyir bay, composer, writer, playwright, opera, musical comedy, short stories, feuilletons, educational issues*

1985-ci il sentyabrın 18-də Ağcabədidə doğulan Üzeyir hələ kiçik yaşlarında olarkən onun ailəsi Şuşa şəhərinə köçmüşdü. O, uşaqlıq illərini Şuşada keçirmişdir. Ailənin Şuşaya köçməyi səbəbsiz deyildi. Atası Əbdülhüseyin Xurşid banu Natəvanın şəxsi katibi vəzifəsində çalışırdı. Həm də atası əslən Şuşalı idi. O, 1840-cı ildə Şuşada dünyaya gəlmişdi.

Üzeyir ilk təhsilini Şuşada, buradakı ikiillik rus-türk məktəbində almış, daha sonra o, Qori Müəllimlər seminariyasının məzunu (1904) olmuşdu. Həmin seminariyanı bitirdikdən sonra əvvəlcə Cəbrayıl bölgəsinin Hadrud kəndində, daha sonralar Bakının Bibi-Heybət və "Səadət" məktəblərində işləmiş, Azərbaycan dili, riyaziyyat, coğrafiya, tarix və rus dili fənlərindən dərs demişdir.

Üzeyir Hacıbəyli böyük tarixi şəxsiyyətdir. Çoxsaylı əsərlər yaratmışdır. Bu il onun anadan olmasının 140 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi bəstəkarın yubileyinin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar sərəncam imzalamışdır.

Üzeyir bəy Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, millət vəkili, Azərbaycan Musiqi Konservatoriyasının (hazırda BMA) rektoru, SSRİ Xalq Artisti, milli operanın banisi idi.

Üzeyir bəy 6 operanın müəllifidir: “Leyli və Məcnun”, “ “Şah Abbas və Xurşid banu”, “Əsli və Kərəm”, “Harun və Leyla”, “Rüstəm və Söhrab”, “Koroğlu”. Bu operalar arasında ən çox “Leyli və Məcnun” və “Koroğlu” operaları tamaşaya qoyulmuşdur. “Koroğlu” operası Üzeyir bəyin şah əsəridir.

Bundan savayı, Ü. Hacıbəyli “O olmasın, bu olsun”, “Arşın mal alan”, “Ər və arvad” musiqili komediyalarının, çoxlu satirik hekayələrin və resenziyaların, felyeton və məqalələrin, səhnəciklərin müəllifidir.

Dahi bəstəkarın hər operası, görkəmli yazıçının hər operettası, istedadlı jurnalistin hər məqaləsi, felyetonu və hekayəsi çox güclü təhsilləndirici və tərbiyələndirici imkanları ilə diqqət mərkəzinə gəlir.

Nümunələrə müraciət edək: “Müəllimlər ictimalına dair” məqaləsində deyilir: “Müəllimlərimizin doğrudan-doğruya olan vəzifələri camaatımızın girdabi-cəhalətdən qurtarıb rahi-nicatı-mədəniyyət və mərifətə tuş eləməkdir.... (1, s. 57). Söz yoxdur ki, camaatı girdabi-cəhalətdən çıxarmaq kimi bir müqəddəs, lakin müşkül vəzifənin ifasına qədəm qoymaqdan əvvəl, camaatımızın mübtəla olduğu girdabi-cəhalətin əlacını dürüst və aydın surətdə bilməlidir” (1, s. 57).

Bu iqtibasda ilk növbədə müəllimin qarşısında duran başlıca, ümdə vəzifə diqqətə çatdırılır: “camaatımızın girdabi-cəhalətdən qurtarıb rahi-nicatı-mədəniyyət və mərifətə tuş eləmək”. İkincisi, “müşkül vəzifənin ifasına qədəm qoymaqdan əvvəl, camaatımızın mübtəla olduğu girdabi-cəhalətin əlacını aydın bilmək”.

“Təəssüflər olsun” məqaləsində “maarif və mədəniyyət qapıları bizim üzümüzə bağlandığı” qeyd edilir. Göstərilir ki, bu səbəbdən biz “cəhalət və vəhşaniyyət vadisində sərgərdan qoyulmuşuq. Həqiqi ömür sürmək üçün qabağımızı kəsib duran sədləri nistü nabüd edəcək qədər qüvvəti-mənəviyyəyə və cismaniyyəyə malik olub, bizi zülami-cəhalətdən nuri-maarifə tuş edə biləydi! (1, s. 69).

Haqqında danışılan məqalədə oxuyuruq: “ Millətlərin qabağa getməsini ölçə bilən bir ölçü olsa idi və o ölçü ilə müsəlman millətinin qabağa getməsi ölçülsə idi, onda məlum olardı ki, biz bir addım qabağa, iki addım dala, dörd addım qabağa, üç addım dala, iki addım dala, beş addım qabağa eləyə-eləyə qabağa gedirik. Bir kəlmə, biz təzə yerimək öyrənən uşağa oxşayırıq ki, bir addım atıb sonra yıxılır; durub bir addım daha artır, amma ayaqları bir-birinə dolaşıb yerə yıxılır, yenə durur, addım atır, bədəni ağırlıq edib yıxılır, durur və i.a.

Uşağın bu cürə yıxıla-dura getməsinə səbəb nədir?

Məlumdur ki, onu yeridən əzaların cismani qüvvətsizliyidir.

Yaxşı, bəs bizim bu cürə – bir dala, bir qabağa addım atıb yıxıla-dura “qabağa getməyimizin” səbəbi nədir?” (1, s.106),

Üzeyir bəy səbəbi yada salır: “Onun da səbəbi bizi qabağa aparan əzaların, yəni iş başında duranlarımızın qüvvətsizliyidir Amma bizim əzalarımızın qüvvətsizliyi cismani qüvvətsizlik deyildir, yəni əzalarımız çolaq, şil və şikəst deyildirlər Onların qüvvətsizliyi mənəvi qüvvətsizlikdir!” (1, s. 107).

“Xəbərdarlıq” məqaləsi də maraq doğurur. Məqalədə deyilir: “Yaxşı, yaxşı oxutmaq qanununa əməl etməyib, uşağını oxutmayan erməni və gürcünün tənbehi nədir? Onun tənbehi müsəlman olmaqdır... Yəni haman uşaq oxumayıb

böyüdükdən sonra dilsiz, ağızsız, qulaqsız, başsız cahil müsəlman kimi gah bəyin, gah mollanın, gah qaradovoyun, gah yasavulun qapazı altında qalar" (1, s. 121).

Həmin sözlərdə dərin həqiqət vardır. İndi təhsildən kənarda qalan demək olar ki yoxdur, yaxud azdır. Vaxtilə isə, təhsil almaq üçün şərait olmurdu. Ya müəllim çatışmırdı, ya məktəb yox idi, ya da ana dilində dünyəvi təhsil almaq əvəzinə mollaxanaya gedərək dini təhsil alırdılar.

Bu barədə "Xəbərdarlıq" məqaləsində Üzeyir bəy yazırdı: "O ki qaldı milli məktəblərimizə, əvvəla, onların ədədləri çox azdır və saniyən, bu məktəblər dəxi iqtizaəti-zəmanəyə müvafiq bir halda deyldirlər Kəndlərdəki milli məktəblərimizin vəzifəsi əvvəla, ana dilini uşaqlara mümkün qədər mükəmməl surətdə öyrətməklə bərabər, rus dilini dəxi ona təlim etdirməkdir" (1, s. 126).

"Hər işi öz əhlinə tapşırmalı" məqaləsində isə deyilir: "Çox vaxt bizim cəmiyyətlərimizin, ittifaqlarımızın camaatımıza heç bir mənfəət verməməsinə və bir tez zamanda duran və işlərinə məşğul olan adamlarımız əhl madamlar olmayıblar. Yəni üzərlərinə götürdükləri məsuliyyəti və vəzifəni layiqincə ifa edə bilmirlər. Elə bilmədiklərinə səbəb səhlənkarlıq və etinasızlıq deyil, öz vəzifələrində əhl olmadıqlarıdır. Çox vaxt görürsən ki, bir iş başına qoyulmuş və ya öhdəsinə müəyyən bir vəzifə verilmiş adam haman işin üstündə o qədər çalışır ki lap qabıq qoyur, amma yenə də iş irəli getmir. Axırda o qədər özünü əziyyət və zəhmətə salır ki. Həm cismani, həm də ruhən yorulur" (1, s. 145).

Üzeyir bəy fərdin şəxsiyyət kimi təşəkkül tapıb formalaşmasından ötrü onların nümunəvi davranış və rəftara yaxşı ünsiyyət tərzinə, savada, müstəqilliyə yiyələnməsini vacib sayırdı. Bu və ya digər insana qiymət verərkən onun müsbət mənəvi keyfiyyətlərə hansı səviyyədə sahiblənməsini, ədalətli, sücaətli, səxavətli, xeyirxahlı olmasını diqqət mərkəzində sazlamağı məsləhət görürdü. "Harun və Leyla" Librettosunda vəzir əmiri səciyyələndirərkən onun müsbət keyfiyyətlərini sadalayır: "Şanu şövkət, ey Əmir, səndən artıq kimdə yox,

Həm ədalət, həm səxavət, həm sücaət səndə çox" ( s. 136).

Bəs Əmir? Həqiqətən də o, həmin keyfiyyətlərə malikdir? Yoxsa vəzir ona xoş gəlmək üçün elə deyir. Diqqət yetirək: "Allahın mərhəməti cümlənizin üzərində olsun" (2, s. 136). Bu, Əmirin sözləridir. O, tabeçiliyində olanlarla mehriban, ədalətli davranır, onların xoş gün keçirmələrini istəyir. Əmirin "Allahın mərhəməti cümlənizin üzərində olsun" sözləri də onun müsbət şəxs olduğunu sübuta yetirir.

Librettoda Harun müsbət, Zeyd mənfi obraz kimi verilmişdir. Onların hər ikisi döyüşçüdür, hər ikisi igiddir. Hər ikisi Əmirin qızı Leylanı sevir. Leylanın sevdiyi isə Harundur. Zeyd bilir ki, Leylanın ona meyli yoxdur. Leyla Zeydi sevmədiyini ona bildirir. O bundan nəticə çıxarmır. Haruna Leyladan uzaq durmağı təkidlə tələb edir. Harun isə məhəbbətinə sadiqdir. İş elə gətirir ki, dövlətin üstünə düşmən gəlir. Əmir ordunu bir araya toplayaraq, həm də üzünü Harunla Zeydə tutaraq deyir: "Düşmən...bizi qırmaq və müqəddəs məkanlarımızı əlimizdən almaq istəyir. Əmr edirəm, qoşun bu gün hazır olsun. Harun və Zeyd! Qoşun çəkib gedirsiniz, düşmən ilə dava edirsiniz. Hansı biriniz davadan müzəffər gəlsə, əmir sözü verirəm ki, məndən hər nə istəsən, təxtü-tacımdan başqa, - onu əmələ gətirərəm!" (2, s. 136).

Elə olur ki, qələbəni Harun və onun sərəncamındakı əsgərlər qazanırlar. Zeyd nəyə isə nail olmur. Uğursuzluğundan son dərəcə pis olan, Leylanı itirəcəyindən qorxan Zeyd Harunu və yaxınlarını qətlə yetirib Əmirin hüzuruna gələrək düşmən üzərində qələbəni çalanın o olduğunu bildirir. Leylanı istəyir. Əmir razı olmur, deyir nə qədər qızıl, hansısa şəhəri ona verər, Leylanı isə yox. Lakin Əmir yadına düşür ki, belə bir söz verib: "əmir sözü verirəm ki, məndən hər nə istəsən, təxtü-tacımdan başqa, – onu əmələ gətirərəm!" Odur ki, məcbur olub razılaşır. Toy ərəfəsində Harun gəlib çıxır. Sən demə o ölməyibmiş. Onu yaralı halda tapıb sağaldıblar. Əmir qızını Haruna verir, Zeyd cəzasını alır.

Təhsilalanların müstəqil ailə həyatına hazırlanması baxımından Üzeyir bəyin "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" musiqili komediyaları mühüm rola malikdir. Ailə və nikah məsələləri, ailənin mənəvi əsası kimi – məhəbbət, hüquqi əsası kimi – nikah (kəbin) məsələləri, ər-arvad münasibətləri, sevənlərin davranış problemləri yüksək sənətkarlıqla işlənib. Üzeyir bəy "O olmasın, bu olsun" əsərində cavan qızın yaşlı kişiyə, özü də pul xatirinə, maddi mülahizələri əsas götürərək verilməsini pisləyir; azad sevgini, sevənlərin bir-birinə qo-

vuşmasının zəruriliyini əsaslandırır. “Arşın mal alan” komediyasında gənclərin bir-birini görmədən, yalnız valideynlərinin məsləhəti, razılığı ilə ailə qurmasını düzgün hesab etmir. Əsgər haqlı olaraq deyir ki, istəyirəm evlənəcəyim qızı özüm görüm, bəyənim, xasiyyətinə bələd olum.

Gülçöhrə: Görünür ki, subaysan. Bəs nə üçün indiyə qədər evlənməmisən?

Əsgər: Nə sayaq evlənim. Görmədiyim qızı almaram, gördüyüm qızlardan da xoşuma gələn ürəyimə batanı bir nəfər olubdur ki, o qızı da mənə verməzlər. Çünki o, bəy qızıdır.

Gülçöhrə: Sən əvvəlcə qızdan soruş, sonra de. Nə bilirsən getməz?

Əsgər: Bəs elə isə, de görüm, mənə gələrsənmi?

Gülçöhrə: Mən?

Əsgər: Mənim xoşladığım qız bircə sənsən.

Gülçöhrə: Məni bir kərrə görməklə xoşladın?

Əsgər: Göz gördü, könül sevdi” Gözüm səni görən kimi qəlbim sevindiyimdən çırpınmağa başladı.

Gülçöhrə (*kənara*): Vallah, mənimki də elə oldu (2, 302-303).

**Problemin aktuallığı**. Üzeyir bəyin 140 illik yubileyi ərəfəsində onun yaradıcılığına müraciət olunması aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Üzeyir Hacıbəylinin zəngin bədii irsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri. -Bakı, 1985.
2. Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri. 2- cilddə. 1-ci cild. -Bakı: Şərq-Qərb, -2005.

**Redaksiyaya daxil olub:** 07.04.2025.

UOT 37.1

**Adilə Həsən qızı Nəzərova**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
E-mail: adile1970@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(2).27-31

# ÜZEYİR HACIBƏYLİ: MİLLİ DƏYƏRLƏR VƏ QAYNAQLAR

**Адила Гасан гызы Назарова**
доктор философии по филологии
ведущий научный сотрудник Института Образования Азербайджанской Республики

# УЗЕЙИР ГАДЖИБЕЙЛИ: НАЦИОНАЛЬНЫЕ ЦЕННОСТИ И РЕСУРСЫ

**Adila Gasan Nazarova**
doctor of philosophy inp hilology,
leading research at the Institute of Education Republic of Azerbaijan

# UZEYIR HAJIBAYLY: NATIONAL VALUES AND RESOURCES

**Xülasə.** Məlumdur ki, Şərq ölkələrində əsas janr xalq yaradıcılığı hesab olunur. Azərbaycanda mürəkkəb ideya, emosional məna yükü olan, dərin təfəkkür ifadə edən muğam və xalq mahnılarının Qərb musiqisi - opera ilə birləşməsi ilk dəfə Ü.Hacıbəylinin yaradıcılığında işlənmişdir. Bu əsərlər "muğam operası" adı ilə dünya musiqi tarixinə yazılmışdır. Ü.Hacıbəylinin əsərlərində, xüsusilə operettalarında Azərbaycan xalqının hüquqi azadlıq istəyi, mənəvi azadlığının – insanın daxili azadlığının ifadəsi ilə vəhdətdə işlənmişdir. Dahi bəstəkar bir müəllim olaraq ana dilli məktəblərin olmasını, qadın azadlığını, qızların təhsil almasını vacib sayırdı.
***Açar sözlər:*** *Milli dəyərlər, xalq mahnıları, opera, sintez, muğam, xor*

**Аннотация.** Известно, что в странах Востока народное творчество считается основным жанром. В Азербайджане сочетание мугама и народных песен, несущих в себе сложную идею, эмоциональный смысл, выражающих глубокие мысли, с западной музыкой – оперой впервые получило развитие в творчестве У. Гаджибейли. Эти произведения вошли в историю мировой музыки под названием «мугамная опера». В творчестве У. Гаджибейли, особенно в его опереттах, стремление азербайджанского народа к правовой свободе сочетается с выражением его духовной свободы – внутренней свободы человека. Будучи педагогом, гениальный композитор считал важным существование школ с преподаванием на родном языке, свободу женщин и образование девочек.
***Ключевые слова:*** *Национальные ценности, народные песни, опера, синтез, мугам, хор*

**Abstract.** It is known that in Eastern countries the main genre is considered folk art. In Azerbaijan, the combination of mugham and folk songs, which have a complex idea, emotional meaning, and express deep thinking, with Western music - opera was first used in the work of U. Hajibayly. These works were written in the history of world music under the name "mugham opera". In the works of U. Hajibayly, especially in his operettas, the desire of the Azerbaijani people for legal freedom was expressed in unity with the expression of their spiritual freedom - the inner freedom of man. As a teacher, the brilliant composer considered it important to have schools in the mother tongue, women's freedom, and girls' education.
***Key words****: National values, folk songs, opera, synthesis, mugham, choir*

İnsanların yaratdığı mədəniyyət qarşılıqlı sosial əlaqələrin nəticəsində yaranmış və inkişaf etmişdir. Musiqi bu mədəni formalaşmanın lap əvvəlindən bəşəriyyətlə birlikdə inkişaf etmiş, cəmiyyət tərəfindən ehtiyaclara uyğun olaraq dəyişdirilmişdir.

Azərbaycanın peşəkar musiqi sənətinin banisi, musiqi etnoqrafı, yaradıcılığında Qərb və Şərq üslubunu birləşdirən bəstəkar Üzeyir Hacıbəyli beynəlxalq opera janrının repertuarına bənzərsiz əsərlər qatmış görkəmli şəxsiyyətdir. Kiçik yaşlarından atasının uzun illər şəxsi katibi olduğu məşhur Azərbaycan şairi, ictimai xadim Xurşidbanu Natəvanın evində təşkil olunan musiqi icmalarının fəaliyyəti ilə tanış olması, şeir məclislərində iştirak etməsi, sonradan həmin məclislərdə musiqi alətlərində çalmağı öyrənməsi, xalq mahnıları və muğamlar ifa etməsi, hətta 13 yaşında o dövrün məşhur xanəndəsi Cabbar Qaryağdıoğlunun iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyevin səhnəyə qoyduğu "Məcnun Leylinin məzarı başında" səhnəsində xorda oxuması onun musiqi sənətini daha yaxından öyrənməsinə əlverişli şərait yaratmışdı.

Ü. Hacıbəyli ilk musiqi təhsilini müəllimi və dayısı Azərbaycan musiqisinin bilicisi Ağalarbəy Əliverdibəyovdan almışdır. Mədrəsə təhsili aldıqdan və ikiillik rus-tatar məktəbini bitirdikdən sonra Qori Müəllimlər Seminariyasında oxuması ona yeni bir mədəniyyəti – Qərb musiqisini mənimsəməyə imkan vermiş, skripka, violonçel və nəfəs alətlərində ifa etməyi öyrənməsi, xalq mahnılarını Qərb musiqi notlarına salması gələcəyin dahi bəstəkarını Qərb və Şərq musiqisini sintez etməyə yönəltmişdir.

1905- ci ildən Hadrutda və Bakıda "Bibi-Heybət" və "Səadət" məktəblərində Azərbaycan dili, coğrafiya, tarix, riyaziyyat və rus dili müəllimi olaraq pedaqoji fəaliyyətlə məşğul olmuş, bir sıra qəzet və jurnallarda məqalə və felyetonlar yazaraq xalqın maariflənməsi yolunda var gücü ilə çalışmışdı. Bu məqalələrin məzmunu təhsilin əhəmiyyəti, savadsızlığın, mollaxana və mədrəsələrdəki qüsurların aradan qaldırılması, ana dilli və dünyəvi məktəblərin yaradılması, qızların təhsilə cəlb edilməsi, yeni dərsliklərin yazılmasının gərəkliliyi, məktəblərdə tərbiyə məsələləri və s. ilə bağlı problemlərlə bağlı idi.

Ü. Hacıbəylinin maarifçiliyin müxtəlif sahələri ilə əlaqədar pedaqoji görüşləri indi də öz aktuallığını qoruyub saxlayır.

Fikrimizcə, elmi tədqiqatlar apararkən bəstəkarın gəlib çatdığı məqamı müəyyənləşdirmək üçün bunların nəzərə alınması vacibdir.

Ü. Hacıbəylinin yaradıcılığını araşdırarkən üç məqama diqqət yetirilməsini vacib bilirik:

1. Milli düşüncə sistemində millətin (xalqın) özünəməxsus tarixi və cəmiyyətin nəzərində buna müasir baxış.

2. Operada Azərbaycan ladlarından istifadə. Dünyəvi musiqinin fonunda dini və milli musiqinin yeri.

3. Milli ideologiyanın, xəlqiliyin gücü ilə bəşəri dəyərlərin müqayisəsində ortaya çıxan yeni fəlsəfi (burada həm də siyasi) dəyərlər. Milli və dünyəvi musiqinin sintezi.

Yaşadığı dövrün hakim ideologiyasını nəzərə alaraq, milli-mədəni, mənəvi-dini dəyərləri Qərb musiqisi əsasında – İtaliyada dini tamaşaların bir hissəsi kimi yaranan opera janrında işləməsi müəyyən qədər də məcburiyyətdən irəli gəlirdi. Bu kontekstdə "Şeyx Sənan", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarının librettosunun xalq dastanları, "Rüstəm və Söhrab" operasının librettosunun isə fars şairi Firdovsinin İran-Turan müharibələrindən bəhs edən məşhur "Şahnamə" poeması əsasında yazılmasına baxmayaraq, həmin əsərlərin musiqisinin Qərb-Şərq musiqisi üslubunda işlənilməsini xatırlamaq yerinə düşər.

Məlum olduğu kimi, Şərq ölkələrinin xalq yaradıcılığının əsas janrı olan, mürəkkəb ideya, emosional məna daşıyan, bitkin təfəkkür ifadə edən muğamın opera ilə birləşməsi ilk dəfə Ü. Hacıbəylinin yaradıcılığında işlənmiş və bu, "muğam operası" adı ilə nadir hadisə kimi dünya musiqi tarixinə düşmüşdür.

Ü. Hacıbəyli "Musiqidə xəlqilik" məqaləsində qeyd edir ki, *"Azərbaycan musiqisini öyrəndikdə, ondan istifadə etdikdə, muğam sisteminə, Azərbaycan musiqisində olan və çox böyük rol oynayan canlı muğamlara xüsusi diqqət verilməlidir."* (2, s. 223)

XX əsrin ortalarında Ü. Hacıbəyli Yaxın Şərq xalqları musiqisinin nəzəri və əməli inkişafında iki məşhur Azərbaycan alimi, nəzəriyyəçisi və musiqişünasının: Səfiəddin Urməvinin (XIII əsr) və Əbdülqadir Marağainin (XIV əsr) başlıca yeri olduğunu qeyd edirdi. XX əsr Azərbaycan musiqi tarixində isə Ü. Hacıbəyli artıq S. Urməvinin davamçısı idi. O, adlarını çəkdiyi musiqişünasların qoyduğu sistemə, yəni Şərq xalqlarının musiqi mədəniyyətinə – on iki muğam və altı dəsgaha əsaslanaraq yeni musiqinin qanunlarını yaratmış, Şərqdə ilk muğam operası yazmışdır. Şərq-müsəlman aləminin musiqisin-

də ilk opera olan "Leyli və Məcnun" operasının librettosu dahi Məhəmməd Füzulinin məlum poemasının motivləri əsasında yazılmışdır. O, bu operada sonrakı əsərlərindən fərqli olaraq, yalnız muğam və xalq mahnılarından istifadə etmişdir.

Ü. Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" kitabında yazır: *"Xalq incəsənəti, folklor üslubu səslər və gözəllik cəhətdən tükənməz zənginliyə malikdir. ...İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nəğmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır."* (1, s. 210)

N.K. Postnikovaya görə, maraq – naməlum olanların kəşfinə yönəlmiş idrak fəaliyyətidir. Bu fikrin davamı olaraq, Ə.Ə. Qədirov və N.Ə. Xəlilovun ifadəsinə diqqət yetiririk: "Marağı insan fəaliyyətinin aparıcı stimulu hesab

edə bilərik. Maraq sayəsində biz subyekt və obyekt arasındakı qarşılıqlı təsir proseslərinə, fəaliyyət mexanizminə daxil olub, onlara daxildən baxa bilirik" [3, s.183].

N.Q. Morozova "Ailədə uşaqların idraki maraqlarının tərbiyəsi" işində müxtəlif maraqların olduğunu vurğulayır və göstərir ki, əgər – uşaqlarda elmə, texnologiyaya, sənətə, idmana maraq inkişaf edirsə, onda buna, insan fəaliyyətinin bu növləri barədə daha çox məlumat əldə etmək istəyi də və bu fəaliyyətlə məşğul olarkən sevinc həyəcanı da qoşulur. M.F. Belyayev isə müəyyənləşdirdiyi bir neçə maraq qrupunun təsnifatını verir: məzmununa görə (elmi, estetik, texniki, oyunlu və s.), dərinliyinə görə (səthi, dərin), həcminə görə (geniş, dar). Ən əhəmiyyətlisi, fikrimizcə, maraqların bu üç növüdür: səthi, dərin və geniş.

*Səthi maraqlar* fəaliyyətdəki xarici məmnunluq üçün yönəldilmişdir, insanın həyatında, fəaliyyətində əhəmiyyətli rol oynamır və demək olar ki, həmişə izsiz keçir.

*Dərin maraqlar,* A.Q. Kovalyovun fikrincə, insanın psixi həyatında mühüm rol oynayır. Həyatın bütün sahələrini əhatə edən hadisələrin mahiyyətinə nüfuz etmək istəyi ilə xarakterizə olunur.

*Geniş maraqlar* yönəldiləcək obyektlərin sayı ilə xarakterizə olunur. Geniş maraqların inkişaf etdirilməsinin vacibliyi barədə Ə.Ə. Əlizadə də yazaraq, vurğulamışdır ki, yalnız geniş və çoxcəhətli maraqlar psixoloji inkişafın tam əsasıdır.

N.G. Morozova bu məsələyə müraciət edərək maraqların genişliyindəki genetik dəyişikliyi bir piramida və ya konusla müqayisə edir. Uşaq nə qədər kiçik olarsa, maraqlar da o qədər geniş olmalıdır, çünki o, ətraf mühit haqqında parlaq və canlı təəssüratları təmin edir və gələcək bilik sistemini əldə etmək üçün bünövrədir. L.S. Slavina biliklərin mənimsənilməsində təlim və idrak maraqlarının inkişafının prioritet olduğunu müəyyən etmişdir.

Beləliklə, yuxarıda apardığımız təhlilləri ümumiləşdirərək, biz "idraki maraq" anlayışının mahiyyətinin aşağıdakı aspektlərdən ibarət olduğu qənaətinə gəlirik:

- idraki maraq idrak tələbatlarının təzahür formalarından biridir;
- idraki maraq şəxsiyyətin istiqamətini təmin edir, öyrənmək cəhdləri ilə xarakterizə olunur;
- intellektual, emosional və iradi xüsusiyyətləri ilə xarakterizə olunur;
- həvəs idraki marağın inkişafı üçün mahiyyət daşıyır, o idrak tələbatlarının təzahürünün ilkin mərhələsi hesab edilə bilər;
- idraki maraq "fəallıq" anlayışı ilə sıx bağlıdır və uşaqlarda idrak fəallığının formalaşmasında böyük əhəmiyyət daşıyır. Onların arasında qarşılıqlı asılılıq vardır.

Onu da qeyd edək ki, idraki fəaliyyət həm şərtdir, həm də uşağa dünyəvi məlumat əldə etmək üçün bir vasitədir. Ona səmərəli təlim və şəxsi inkişaf üçün bir vasitə kimi də baxmaq olar. Burada idraki maraq, hər hansı bir fəaliyyətin uğurla həyata keçirilməsini təmin edən aparıcı motiv, stimul kimi təhlil edilir. İşin əsas kontekstində bu nəticələr kiçikyaşlı məktəblilərin idraki fəallığını nəzərə almağın yollarını müəyyənləşdirməyə imkan verir.

**Problemin aktuallığı.** İdrak marağına əqli fəaliyyətin əsas motivi kimi baxılır. İdrak prosesinə hadisələrin mahiyyətinə daxil olmaq, şüurda səbəb-nəticə əlaqəsini, qanunauyğunluq və ziddiyyətləri əks etdirmək səciyyəvidir. Bu məsələlərin həlli idrak maraqları formalaşdırılmadan mümkün deyildir, o, idrak fəaliyyətinin inkişafının əsası, onun meydana gəlməsi motivi, həmçinin uşaqlarda idrakı tələbatların təzahürünün ən yüksək formasıdır. Onun aşağı səviyyədə inkişafı uşağın məktəbdə geri qalmasına, idrak fəallığının azalmasına, təlimdə motivasiyanın tamamilə yoxluğuna gətirib çıxarır.

**Problemin elmi-nəzəri yeniliyi.** İdraki inkişafın müxtəlif mərhələlərində kiçik məktəbyaşlı uşaqların idrak fəallığının səciyyəsi müəyyən olundu ki, onun da meydana gəlməsi qeyri-bərabərliklə bağlı olduğundan bu, kiçik məktəbyaşlı uşaqlarda idrak fəallığının formalaşdırılmasına fənlərarası inteqrasiyanın müsbət təsiri olduğunu sübut edir.

**Problemin praktik əhəmiyyəti** idrak maraqlarının formalaşdırılması prosesinə pedaqoji rəhbərlik proqramının işlənilib hazırlanmasından, bu işin praktik icra mərhələlərinin müəyyənləşdirilməsindən, təhsil münasibətlərinin bütün iştirakçılarının fəal idrak mövqelərinin inkişafına yönəlmiş problemli-axtarıcı, tədqiqatçılıq forma, metod və vasitələrindən ibarətdir.

## Ədəbiyyat


1. Abbasov, A.N. Pedaqogika: Dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. – Bakı: Mütərcim, 2024. – 400s.
2. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası / R.İ. Əliyev, G.B. Əliyeva. – Bakı: ADPU-nun nəşriyyatı, – 2010. – 144 s.

3. Qədirov ,Ə.Ə. Yaş psixologiyası / Ə.Ə. Qədirov, N.Ə. Xəlilov.– Gəncə, 1999. – 342 s.
4. Анастасиев А.И. Дидактический катехизис / А.И. Анастасиев. – Казань: Типо-литография Казаньского Университета, 2020. – 16 с.
5. Гордон Л.А. Психология и педагогика интереса / Л.А. Гордон. – Киев, 1940 – 348 с.
6. Лисина М.И. Общение, личность и психика ребенка / под ред. АГ. Рузской. – М.: Институт Практической Психологии, 1997. – 384 с.
7. Ожегов С.И. Толковый словарь русского языка. В 4 томах. Т.1. М.: Русский язык, 1991. – с. 335.
8. Очерки истории школы и педагогической мысли народов СССР. 2-я половина XIX в. и первая половина XX в. / под ред. А.И. Пускунова. . – М.: Просвещение, 1973. – 345 с.
9. Педагогический энциклопедический словарь: слов / под ред. Б.М. Бим-Бад. – М.: Большая российская энциклопедия, 2002. – с. 108.
10. Цветков И.М. Интерес и динамика его развития у учащихся // Ученые записки Ярославского пед. ин-та. – 1994. – Вып. 1. – с. 188 – 212.
11. Щукина Г.И. Проблема познавательного интереса в педагогике. – М.: Педагогика. 1971. – 352 с.

**Redaksiyaya daxil olub**: 28.01.2025

## *TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ*
## *ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ*
## *ISSUES OF EDUCATION MANAGEMENT*

*UOT 378.4:303.722*

***Vaqif Tahir oğlu Fətullayev***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0005-2718-529X*
*E-mail: vaqif.fatullayev@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(2).43-52*

# BEYNƏLXALQ İKİLİ DİPLOM PROQRAMLARININ TƏŞKİLİ

***Вагиф Тахир оглы Фатуллаев***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# ОРГАНИЗАЦИЯ МЕЖДУНАРОДНЫХ ПРОГРАММ ДВОЙНЫХ ДИПЛОМОВ

***Vagif Tahir Fatullayev***
*doctorial student in the program of doctor of philosophy*
*at the Institute of Education of the Republic of Azerbaijan*

# ORGANIZATION OF INTERNATIONAL DOUBLE DIPLOMA PROGRAMS

**Xülasə.** Müasir dövrdə universitetlər qlobal rəqabət şəraitində fərqlənmək üçün beynəlxalq tərəfdaşlıqları genişləndirir, tələbə və professor-müəllim heyətinin mobilliyini təşviq edir, tədris proqramlarının beynəlxalq tanınmasını gücləndirirlər. Bu məqsədlərə xidmət edən ikili diplom proqramları (İDP) tələbələrə fərqli təhsil sistemlərində təcrübə qazanmaq, peşəkar əlaqələr qurmaq və iş imkanlarını artırmaq imkanı yaradır. Həmçinin bu proqramlar universitetlərin maliyyə, marketinq və elmi-tədqiqat resurslarını səmərəli şəkildə bölüşməsinə şərait yaradır. Məqalədə İDP-lərin dizaynı və idarə edilməsi üçün “WHEEL” (ÇARX) çərçivəsi təqdim olunur. Bu çərçivə beynəlxalq əməkdaşlıq, proqram dizaynı, təcrübə mübadiləsi, tədris proqramlarının təkmilləşdirilməsi və şəbəkələrin genişləndirilməsi kimi əsas istiqamətləri əhatə edir. “WHEEL” çərçivəsi tərəfdaşların seçilməsindən tutmuş proqramın keyfiyyət təminatı və tamamlanma tələblərinə qədər bütün mərhələlərdə effektiv idarəetməni təmin edir. Məqalədə həmçinin İDP-lərin qarşılaşdığı çətinliklər, məsələn, mədəni uyğunsuzluq, təhsil sistemləri arasında fərqlər və inzibati məsuliyyətlərin qeyri-müəyyənliyi kimi məsələlər vurğulanır. Bu problemlərin həlli üçün tərəfdaşlar arasında aydın kommunikasiya, tələbə dəstək xidmətlərinin təkmilləşdirilməsi və keyfiyyət təminatı proseslərinin davamlı monitorinqi tövsiyə olunur.
***Açar sözlər:*** *İkili diplom proqramları (İDP), ali təhsil, beynəlxalq əməkdaşlıq, “WHEEL” çərçivəsi, keyfiyyət təminatı*

**Аннотация.** В современную эпоху университеты расширяют международное сотрудничество, стимулируют мобильность студентов и преподавателей, а также усиливают международное признание учебных программ, чтобы выделяться в условиях глобальной конкуренции. Программы двойных дипломов (ПДД) способствуют достижению этих целей, предоставляя студентам возможность получить опыт в различных образовательных системах, построить профессиональные сети и увеличить возможности трудоустройства. Кроме того, эти программы способствуют эффективному распределению финансовых, маркетинговых и научно-исследовательских ресурсов между университетами. В статье представлен фреймворк «WHEEL» для разработки и управления ПДД. Этот фреймворк охватывает ключевые области, такие как международное сотрудничество, проектирование программ, обмен опытом, совершенствование учебных планов и расширение сетей. Фреймворк «WHEEL» обес-

печивает эффективное управление на всех этапах, от выбора партнеров до обеспечения качества и требований по завершению программы. В статье также подчеркиваются проблемы, с которыми сталкиваются ПДД, такие как культурные различия, различия между образовательными системами и неопределенность административных обязанностей. Для решения этих проблем рекомендуется четкая коммуникация между партнерами, улучшение услуг поддержки студентов и непрерывный мониторинг процессов обеспечения качества.

***Ключевые слова:*** *Программы двойного диплома (ПДД), высшее образование, международное сотрудничество, структура "WHEEL", обеспечение качества*

**Abstract.** In the modern era, universities are expanding international partnerships, encouraging the mobility of students and faculty, and enhancing the international recognition of curricula to differentiate themselves in the global competitive environment. Dual degree programs (DDPs) contribute to achieving these goals by providing students with the opportunity to gain experience in different educational systems, build professional networks, and increase job opportunities. These programs also facilitate the efficient sharing of financial, marketing, and research resources among universities. The article presents the "WHEEL" framework for the design and management of DDPs. This framework encompasses key areas such as international cooperation, program design, exchange of experiences, curriculum enhancement, and network expansion. The "WHEEL" framework ensures effective management at all stages, from selecting partners to quality assurance and program completion requirements. The article also highlights challenges faced by DDPs, such as cultural mismatches, differences between educational systems, and uncertainty in administrative responsibilities. To address these issues, clear communication between partners, improvement of student support services, and continuous monitoring of quality assurance processes are recommended.

***Keywords:*** *Dual Diploma Programs (DDP), higher education, international cooperation, "WHEEL" framework, quality assurance*

**Giriş.** Ali təhsildə rəqabət dinamikası getdikcə artır və universitetlər qlobal dəyişikliklərə sürətlə uyğunlaşmaqla yanaşı, həm də onlardan bir addım öndə olmağı bacarmalıdırlar. Müasir dövrdə ali təhsil müəssisələri artıq qlobal mühitə uyğunlaşmaq üçün yeni beynəlmiləlləşmə strategiyaları inkişaf etdirir, tədris proqramlarının beynəlxalq tanınmasını gücləndirir və inzibati-pedaqoji heyət və tələbələrin hərəkətliliyini (mobilliyini) təşviq edirlər. Mobillik, xüsusilə, çoxmədəniyyətli təhsili dəyərləndirməyin praktik yolu kimi ön plana çıxır (HEGlobal, 2016). Bu kontekstdə beynəlxalq diplom proqramları son vaxtlar həm tələbələr, həm də universitetlər üçün multikultural təhsil imkanı yaradır. Bu proqramlar tələbələrə fərqli təhsil sistemlərini təcrübə etmək, iş imkanlarını artırmaq və peşəkar əlaqələr qurmaq imkanı verir (Carlin, 2008). Hesabatlar göstərir ki, ikili diplom proqramları ilə məzun olan tələbələr əmək bazarında daha tez iş tapır və beynəlxalq şirkətlərdə daha yüksək vəzifələrə yiyələnirlər. Bundan əlavə, bu proqramlar universitetlər arasında elmi əməkdaşlığı gücləndirir, ortaq tədqiqat imkanlarını artırır və ali təhsil müəssisələrinin beynəlxalq nüfuzunu artırmağa kömək edir (IIE, 2020).

Ali təhsil müəssisələri pedaqoji təkliflərini genişləndirməklə daha güclü beynəlxalq akademik tərəfdaşlıqlar qura bilərlər. Bu cür əməkdaşlıqlar, xüsusilə, universitetlərin maliyyə, marketinq və digər resurslarını səmərəli şəkildə paylaşmasına şərait yaradır. Eyni zamanda, tədris və öyrənmə metodlarının təkmilləşdirilməsi, elmi-tədqiqat əməkdaşlıqlarının genişləndirilməsi və keyfiyyət təminatı proseslərində ən yaxşı təcrübələrin mübadiləsini asanlaşdırır (Carlin, 2008; Culver et al., 2011), həmçinin qlobal geosiyasi balansı yenidən qurmağa kömək edir (HEGlobal, 2016). Belə ki, beynəlxalq akademik tərəfdaşlıqlar ölkələrin qlobal elmi-texnoloji inkişafda rolunu gücləndirir, ali təhsil sisteminə qabaqcıl təcrübələri gətirir və universitetlərin beynəlxalq inteqrasiyasını sürətləndirir. Xaricdə təhsil imkanlarının genişləndirilməsi və xarici tələbələrin cəlbi isə ölkələrin yumşaq güc siyasətini möhkəmləndirərək onların nüfuzunu artırır. Region və Qərb universitetləri ilə əməkdaşlıq həm iqtisadi, həm də siyasi əlaqələri gücləndirir, insan kapitalının inkişafına və bilik iqtisadiyyatına töhfə verir.

Bəzi tədqiqatçıların fikrincə, beynəlxalq proqramlar daha çox bir tərəflidir, yəni bir təhsil sistemindəki universitetlər həlləri, təcrübələri digər təhsil sistemindəki müəssisələrə köçürür (Healey və Bordogna, 2014). Burada ümumi tənqidlərdən biri budur ki, bəzi hallər (lisenziya,

françayzinq, xarici nümayəndəlik, akkreditasiya müqavilələri) bir təhsil sisteminin digərinə təsir etməsinə şərait yaradır ki, bu da təhsil yanaşmalarının homogenləşməsinə səbəb olur (Egege və Kutileh, 2008). Bəzi müəlliflər bunu daha da irəliləyərək Amerika, Britaniya və Avstraliya universitetlərinin dominant rolunu akademik imperiya formasında şərh edirlər (Healey və Bordogna, 2014). Bu baxımdan, hesab olunur ki, beynəlxalq diplom proqramları milli kontekstə uyğun həllər təqdim etməlidir (Pyvis, 2011). Buna baxmayaraq, beynəlxalq ikili və birgə diplom proqramları müxtəlif təhsil sistemlərinin beynəlxalq tələbə təcrübəsinə verdiyi töhfələri yenidən tarazlamaq üçün fürsət ola bilər.

İki tərəfli təcrübə mübadiləsinə yönələn ikili və birgə diplom proqramları strateji beynəlxalq tərəfdaşlıqlar arasında əlaqələri demokratikləşdirə bilər. Amma bu proqramların əksəriyyəti həm tələbə sayı, həm də gəlir baxımından hələ də marjinal[1] olaraq qalır (HEGlobal, 2016). Bu məqalədə belə proqramların ali təhsil sektorunda strateji rolu müzakirə olunur, onların təşkilati dizaynını dəstəkləyən səmərəli çərçivə təqdim edilir.

Qeyd edək ki, ikili diplom proqramları iki və ya daha çox ali təhsil müəssisəsinin əməkdaşlığı ilə həyata keçirilir və tələbələrə müxtəlif ölkələrdə iki ayrı proqramdan eyni anda məzun olmaq imkanı yaradır. Bu proqramlar tamamlandıqda tələbələr hər bir proqram üçün fərqli diplomlar alırlar. Birgə diplom proqramları isə iki beynəlxalq ali təhsil müəssisəsinin birgə əməkdaşlıq etdiyi təhsil proqramıdır. Bu proqramda təlim-tədris iki universitet arasında paylaşılır və nəticədə tələbələr hər iki müəssisənin birgə təqdim etdiyi vahid proqramı tamamlayır və sonda bir diplom alırlar. Beləcə, bu iki növ proqram arasındakı əsas fərq ikili diplom proqramlarının tələbələrə iki ayrı diplom təklif etməsi, birgə diplom proqramlarının isə tələbəyə bir tək diplom təqdim etməsidir.

**Beynəlxalq ikili diplom proqramlarının dizaynı.** Beynəlxalq ikili diplom proqramları (İDP) ali təhsil müəssisələri arasında səmərəli əməkdaşlıq formalarından biridir. İDP-lər, əsasən, təşkilatlararası tədqiqat simpoziumları, konfranslar, beynəlxalq şəbəkələrə qatılmaq, iqtisadi missiyalar, dostluq tədbirləri və birgə maliyyə layihələri kimi dövlətlərin təşkil etdiyi təşviq tədbirlərinin nəticəsi olaraq yaranır (Palermo və d., 2018).

İDP-lərin dizaynı və icrası, adətən, müvafiq sahələrdə yüksək ixtisaslaşmış bilik və bacarıqların tələb olunduğu kompleks prosesdir (Tobenkin, 2008). İDP-yə artan marağa baxmayaraq, elmi ədəbiyyat bu məsələlərə məhdud diqqət ayırmış və ali təhsil müəssisəsinin rəhbərlərinə qərar qəbuletmə proseslərini dəstəkləyən çərçivələr təqdim etməmişdir. Bu məqalə bu boşluğu doldurmaq üçün çərçivə təklif edir.

“WHEEL” (ÇARX) çərçivəsi nüfuzlu beynəlxalq universitetlər tərəfindən ikili diplom proqramlarının dizaynında istifadə olunur (Palermo və d., 2018). Bu çərçivə proqramların strukturlarının müəyyən edilməsində, beynəlxalq əlaqələrin qurulmasında və akademik mübadilələrin təşkili baxımından mühüm rol oynayır. Məsələn, Nottingem Biznes Məktəbi, Tvente, Melburn, Kaliforniya, Berkli və Lund kimi nüfuzlu ali təhsil müəssisələri “WHEEL” çərçivəsini proqramlarının inkişafında və beynəlxalq tərəfdaşlıqların səmərəli idarə olunmasında uğurla tətbiq edirlər. Bu çərçivə özündə aşağıdakı istiqamətləri birləşdirir (Palermo və d., 2018):

- ✓ Beynəlxalq əməkdaşlıq;
- ✓ Proqram dizaynı;
- ✓ Təcrübə mübadiləsi və ən yaxşı təcrübələrin paylaşılması;
- ✓ Təhsil proqramlarının (kurikulumların) təkmilləşdirilməsi;
- ✓ Şəbəkələrin genişləndirilməsi.

Bu çərçivənin tətbiqi, öz növbəsində, İDP-lərin daha səmərəli və uğurlu şəkildə həyata keçirilməsini təmin edir, ali təhsil menecerlərinə müvafiq qərarları qəbul etməkdə əsaslı çərçivə təqdim edir. “WHEEL” çərçivəsi müxtəlif mərhələlərdən ibarət olub, proqramın keyfiyyətli dizaynını təmin etmək üçün bir sıra prinsipləri və strategiyaları özündə cəmləyir (Şəkil 1) (Palermo və d., 2018).

[1] *Burada “marjinal” sözü “hələ də əsas axının kənarında qalmaq, əhəmiyyətli təsirə malik olmamaq” mənasında işlədilib. Yəni, ikili və birgə diplom proqramları strateji tərəfdaşlıqları inkişaf etdirmək potensialına malik olsa da, hələ də geniş yayılmayıb, inkişaf mərhələsindədir.*




***Şəkil 1. "WHEEL" (ÇARX) çərçivəsi***

İkili diplom proqramlarının dizayn olunmasında "WHEEL" çərçivəsi sistemli və strateji yanaşmanı əks etdirir. İlk növbədə, tərəfdaş universitetlər diqqətlə seçilməsi, əməkdaşlıq çərçivəsi və akademik uyğunluğun müəyyənləşdirilməsi arzuolunandır. Daha sonra isə mövcud təcrübə və milli kontekst nəzərə alınaraq proqramın dayanıqlılığı və effektivliyi təmin edilir. Keyfiyyət təminatı proseslərinin davamlı monitorinqi isə proqramın standartlara uyğunluğunu və akademik səviyyəsinin qorunmasını təmin edəcək. Növbəti addımlarda isə məzun olmaq üçün tələb və standartlar dəqiq müəyyən edilməsi, kredit yükü, qiymətləndirmə meyarları və diplomun tanınması məsələlərinin nəzərə alınması, nəhayət, proqramın idarəetmə planı hazırlanaraq resursların bölgüsü, pedaqoji heyətin rolu və davamlı inkişaf strategiyasının qurulması məqsədəuyğundur.

**a) Tərəfdaşların seçilərək əməkdaşlığın qurulması.** Tərəfdaşların seçilməsi və əməkdaşlığın qurulması hər bir təşkilatın və layihənin uğurlu inkişafı üçün vacib mərhələdir. Bu proses doğru tərəfdaşları müəyyənləşdirmək və onlarla effektiv və davamlı əməkdaşlıq əlaqələri qurmaqla əlaqədardır. Əməkdaşlıq tərəflərin qarşılıqlı fayda əldə etməsi və resursların düzgün istifadəsi ilə daha məhsuldar və uğurlu nəticələrə çatmağa imkan verir. Tərəfdaşların seçilməsi zamanı nəzərə alınmalı olan faktorlar onların məqsədləri, strategiyaları və dəyərlərinin uyğunluğu, eləcə də qarşılıqlı güvən və kommunikasiya bacarıqlarıdır.

Bəzi tədqiqatçılar göstərir ki, ikili və birgə diplom proqramları çox vaxt əvvəlcə bir-biri ilə əməkdaşlıq edən universitetlərin müəllim heyətinin birgə səyi ilə yaranır (Michael və Barlaj, 2003). Qlobal tərəfdaşlıq quran ali təhsil müəssisələrinin, ilk növbədə, mədəni oxşarlıq və ortaq strateji niyyətlər əsasında tərəfdaş seçməsi daha məqsədəuyğundur (Frynas və Mellahi, 2015). Çünki oxşar strateji mövqedə olan iki universitet tələbə qəbulunda və akademik idarəetmədə daha yaxşı nəticələr əldə edə bilər. Eyni zamanda, beynəlxalq akkreditasiyaya sahib iki universitetin iş proseslərini bir-birinə uyğunlaşdırması daha asan ola bilər. Lakin tərəfdaşlıqlar zamanla dəyişə bilər və əsas məqsədlər də fərqliliklər ortaya çıxa bilər. Buna görə də, tərəfdaşlıqların müntəzəm olaraq qiymətləndirilməsi və yenidən nəzərdən keçirilməsi vacibdir.

İDP-lərin effektiv həyata keçirilməsi bir sıra vacib məsələlərin həllini tələb edir. İlk növbədə, tərəfdaş universitetlər arasında strateji məqsədlərin uyğunlaşdırılması və proqramın hər iki universitetin beynəlxalq fəaliyyət portfelindəki yerinin dəqiq müəyyən edilməsi önəmlidir. Bu proses çərçivəsində mövcud razılaşmaların müqayisəsi aparılır və proqramın akademik və strateji hədəflərə uyğunluğu qiymətləndirilir. Həmçinin tərəfdaş universitetlərin mədəniyyətləri və dəyərləri arasında uyğunluq yaratmaq üçün vizual artefaktlar və nümunələrdən istifadə

edilir, prioritetlər müəyyənləşdirilir. İDP-lərin uğurlu icrası üçün maliyyə və resursların səmərəli idarə olunması da xüsusi əhəmiyyət daşıyır. Bundan əlavə, tərəfdaşlığın institusional səviyyədə geniş dəstəklənməsi daha uzunmüddətli və dayanıqlı əməkdaşlığın formalaşmasına töhfə verir (Cədvəl 1) (Palermo və b., 2018).

***Cədvəl 1. Tərəfdaşlığın qurulması prosesini idarə etmək üçün təklif olunan fəaliyyət və hədəflər***

| **Həll edilməsi zəruri olan məsələlər** | **Fəaliyyət** | **Hədəf** |
|---|---|---|
| *Aydınlıq* | Tərəfdaşlar arasında bəyan olunan məsələlərin müqayisəsi və İDP-nin hər iki portfeldə aydın şəkildə yerləşdirilməsini təmin edilməsi | Hər iki tərəfdaşın eyni strateji məqsədə sahib olmasını və İDP-nin beynəlxalq fəaliyyət portfelində oxşar mövqedə dayanmasını təmin etmək |
| *Prioritet* | Hər iki müəssisənin mədəniyyətini təmsil edən vizual artefaktlar və nümunələrin yaradılması | Hər iki tərəfdaşın dəyərləri və mədəni anlayışları paylaşmasını təmin etmək |
| *Ölçmə* | Nəzərdə tutulan müddət üçün öhdəlik götürülmüş resursların müqayisəli büdcəsinin hazırlanması | Hər iki tərəfdaşın maliyyə resurslarını və s. nəzərə alaraq öhdəlik götürməsini təmin etmək |
| *Asılılıq* | Daha geniş institusional dəstəyi və fərdi məsuliyyətləri müəyyənləşdirmək | Hər iki tərəfdaşın yalnız seçilmiş işçi qrupla deyil, təşkilati səviyyədə öhdəlik götürməsini təmin etmək |

**b) Mövcud təcrübənin və kontekstin nəzərə alınması.** Elmi ədəbiyyat mədəni aspektlərin idarə olunmasının transmilli təhsil təcrübələrində mühüm rol oynadığını göstərir (Knight, 2008; Kim, 2009; Pyvis, 2011). Heffernan və digərləri (2010) tələbələrin vizual, audial və kinestetik öyrənmə üslublarına uyğun tədris metodlarının tətbiqinin onların akademik uğurlarına müsbət təsir etdiyini vurğulamışdır. Kim (2009) isə beynəlxalq akademik heyətin fərqli pedaqoji yanaşmalarının tələbələrin transmilli təhsil təcrübələrinə təsirini araşdıraraq müəllimlərin mədəni və pedaqoji çevikliyin tələb olunduğu mühitlərdə daha effektiv ola biləcəyini qeyd etmişdir. McBurnie və Ziguras (2007) isə tədris materiallarının mədəni kontekstdə qiymətləndirilməsinin vacibliyini əsaslandıraraq yerli və qlobal təhsil standartlarına uyğunlaşdırılmasının tələbələrin tədris prosesinə inteqrasiyasını gücləndirdiyini bildiriblər. Bu mədəni elementlərin qiymətləndirilməsi transmilli layihələrin uğuru üçün iki əsas səbəbə görə vacibdir: birincisi, mədəniyyətlər arasındakı dominantlıq fərqlərini aradan qaldırmaq, ikincisi isə tələbələri qarşılaşacaqları mədəni çağırışlara hazırlamaq (Egege və Kutileh, 2008; Healey və Bordogna, 2014; Teichler, 2009).

İDP-lər transmilli əməkdaşlıq formatı olaraq tələbələrə iki fərqli təhsil sistemində balanslaşdırılmış təcrübə imkanı təqdim edir və bu, onların unikal üstünlüklərindən biridir. Lakin xaricə gedən tələbələr üçün mədəni dəstək baxımından ciddi fərqlər mövcuddur. Belə ki, məsələn, Avstraliya və Böyük Britaniya universitetləri xarici tələbələr üçün müxtəlif mentorluq və adaptasiya proqramları təşkil edərək onların yeni akademik və sosial mühitə inteqrasiyasını asanlaşdırır. Digər tərəfdən, bəzi Asiya universitetlərində yerli və beynəlxalq tələbələr arasında sosial əlaqələri gücləndirmək üçün mədəniyyət gecələri və dil mübadilə proqramları tətbiq olunur. Lakin bəzi ölkələrdə İDP tələbələri üçün bu cür strukturlu dəstək mexanizmləri məhdud ola bilər ki, bu da onların akademik və sosial adaptasiyasına təsir göstərə bilər.

Beynəlxalq proqramlarda iştirak edən tələbələr bəzən müxtəlif tədris və öyrənmə metodları, akademik heyətin fərqli səviyyədə dəstəyi, fərqli inzibati idarəetmə sistemləri və iş yükü ilə qarşılaşırlar. Tobenkin (2008) bu amilləri effektiv İDP-lərin yaradılmasında əsas məhdudiyyətlər kimi müəyyən etmişdir. Fərqli gözləntilərə uyğunlaşma tempi İDP-lərin təbii xüsusiyyəti olsa da, sürətləndirilmiş beynəlxalq proqramlar-

da tələbə məmnuniyyətinin kritik amili kimi vurğulanır (Knight, 2013). Belə ki, Nottingem Biznes Məktəbində Beynəlxalq Biznes İkili Diplom Proqramı çərçivəsində aparılan fokus qrupların nəticələri göstərmişdir ki, mədəni uyğunsuzluq tələbə məmnuniyyətinin əsas təyinedicilərindən biridir. Bundan əlavə, bu problemlər yalnız proqramların təşkili və tələbələrin məmnuniyyətinə deyil, həmçinin akademik və inzibati heyət arasında stress səviyyəsinin artmasına da təsir edir. Müxtəlif təhsil sistemlərində müəllimlərin və inzibati heyətin rolu fərqlənir. Məsələn, tələbələrə dəstək üçün ayrılan vaxt, heyətə əlçatanlığı (üzbəüz və ya onlayn), heyətin kampusda nə qədər mövcud olması və rəsmi münasibətlərin necə qurulması müxtəlif təhsil sistemləri arasında fərqli ola bilər. Fakültə üzvləri ilə aparılan müsahibələr bu fərqləri təsdiq edib və mədəni uyğunlaşma çətinliklərinin müəllimlərə stress yarada biləcəyini göstərib. Məlumatlar göstərir ki, həm tələbələr, həm də akademik heyət müəyyən adaptasiya problemləri ilə üzləşirlər (Palermo və d., 2018).

İkili diplom proqramlarının uğurla icrası tələbələrin akademik və sosial mühitə rahat uyğunlaşmasını, potensial konfliktlərin minimuma endirilməsini və gözləntilərin əvvəlcədən düzgün idarə olunmasını şərtləndirir. Bu prosesdə akademik heyət və tələbələr arasında mədəni fərqlərin aydınlaşdırılması, dəstək xidmətlərinin, infrastruktur imkanlarının və məsləhət saatlarının dəqiq şəkildə müəyyən edilməsi mühüm rol oynayır. Qiymətləndirmə və resurs planlamasının səmərəliliyi, inzibati yükün balanslaşdırılması və obyektiv öyrənmə səviyyəsinin ölçülməsi üçün uyğun mexanizmlərin tətbiqini tələb edir. Eyni zamanda, təlim-tədris strukturunun aydın şəkildə təqdim olunması tələbələrin pedaqoji prosesə uyğunlaşması sürətlənir və onların yeni akademik mühitə inteqrasiyasına müsbət təsir göstərir (Cədvəl 2) (Palermo və d., 2018).

***Cədvəl 2. Mövcud təcrübənin və kontekstin nəzərə alınması üçün təklif olunan fəaliyyət və hədəflər***

| Həll edilməsi zəruri olan məsələlər | Fəaliyyət | Hədəf |
|---|---|---|
| *Aydınlıq* | Akademik heyət və tələbələr arasındakı mədəni əlaqələrin xüsusiyyətlərinin, qarşılıqlı gözləntilərin izah edilməsi | Tələbələrin yeni mühitə uyğunlaşmasını asanlaşdırmaq və mümkün konfliktlərə, narazılıqlara səbəb olan amilləri minimuma endirmək |
| *Prioritet* | Tələbələrə təqdim olunan dəstək xidmətlərin (məs., infrastruktur, müəllimlərlə görüş saatları) dəqiq şəkildə qeyd edilməsi | Tələbələrin gözləntilərini idarə etmək və proqramın tələblərinə uyğunluğu təmin etmək üçün bu məsələləri əvvəlcədən müəyyənləşdirmək |
| *Ölçmə* | Tələbələrin və müəllimlərin gözləntilərini nəzərə alaraq, inzibati yükləri də diqqətə alaraq qiymətləndirmə cədvəllərinin dərc edilməsi | Həm tələbələrin, həm də müəllim heyətinin gözləntilərini idarə etmək, resurs planlamasını asanlaşdırmaq, öyrənmə səviyyəsinin ölçülməsini təmin etmək |
| *Asılılıq* | Təlim-tədris strukturunun ətraflı izah edilməsi | Tələbələrin gözləntilərini idarə etmək və keçid dövründə pedaqoji uyğunlaşma məsələlərini əvvəlcədən nəzərə almaq |

**c) Keyfiyyət təminatı proseslərinin dəyərləndirilməsi.** Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin əsas məqsədi təhsil sisteminin dayanıqlı inkişafını təmin etmək, keyfiyyət barədə obyektiv məlumat əldə etmək, ictimaiyyətin məlumatlılıq səviyyəsini artırmaq, əsaslandırılmış idarəetmə qərarları qəbul etmək və sosial-iqtisadi inkişafa uyğun perspektiv strategiyalar müəyyənləşdirməkdir. Müasir tələblərə cavab verən meyarlar əsasında

aparılan monitorinq və qiymətləndirmə təhsil sahəsində mövcud çətinlikləri və problemləri düzgün müəyyənləşdirərək onların həlli yollarını göstərir və uğurlu nəticələr əldə etmək üçün geniş imkanlar yaradır (Javadov, 2015).

Tərəfdaşlar ikili diplom proqramlarının hazırlanması və müqavilə imzalanması zamanı keyfiyyətə diqqət yetirirlər. Lakin keyfiyyətin təminatı proseslərinin uyğun olmaması proqramın həyata keçirilməsini ləngidə bilər. Təhsilin keyfiyyətinin idarə olunması peşəkar ekspertiza əsasında qurulmalı və müasir cəmiyyətin tələblərinə uyğunlaşdırılaraq dünya təhsil sisteminə inteqrasiya edilməlidir. Təhsilin keyfiyyəti dedikdə, şagird nailiyyətləri, təhsil proqramlarının effektivliyi və tədris şəraitinin səviyyəsi nəzərdə tutulur (Javadov, 2024).

İkili diplom proqramlarının uğurlu icrası tələbələrin akademik və sosial mühitə uyğunlaşmasını asanlaşdırır və potensial münaqişələrin qarşısını alır. Mədəni fərqlərin aydınlaşdırılması, dəstək xidmətləri və akademik məsləhət saatlarının müəyyən edilməsi bu prosesi dəstəkləyir. Eyni zamanda, təlim-tədris strukturu və resurs planlamasının düzgün aparılması tələbələrin inteqrasiyasını sürətləndirir və öyrənmə səviyyəsinin obyektiv qiymətləndirilməsini təmin edir. Buna görə də, ali təhsil müəssisələri keyfiyyətin təminatını izləmək üçün davamlı monitorinq aparmalıdır. “WHEEL” çərçivəsi bu proqramların qiymətləndirilməsində keyfiyyətin izlənməsini təmin edən dörd əsas fəaliyyət təklif edir (Cədvəl 3) (Palermo və d., 2018).

***Cədvəl 3. Keyfiyyət təminatı proseslərinin dəyərləndirilməsi üçün təklif olunan fəaliyyət və hədəflər***

| **Həll edilməsi zəruri olan məsələlər** | **Fəaliyyət** | **Hədəf** |
|---|---|---|
| *Aydınlıq* | Hər iki tərəf üçün keyfiyyət təminatı ilə bağlı terminlərin toplandığı bir lüğət hazırlamaq. Burada “Tez-tez verilən suallar” bölməsi də əlavə edilə bilər | Tərəfdaşlar bir-birinin istifadə etdiyi terminlər və keyfiyyət tələbləri ilə tanış olacaqlar |
| *Prioritet* | Qiymətləndirmə prosesinə tərəfdaş ölkənin daxili qanunvericiliyinə bələd olan mütəxəssisin daxil edilməsini təmin etmək | Keyfiyyət tələblərinin daha yaxşı anlaşılması və potensial problemlərin daha dəqiq başa düşülməsinin təmin olunması |
| *Ölçmə* | Beynəlxalq akkreditasiyalar, gözlənilən öhdəliklər və keyfiyyət standartları ilə bağlı yol xəritələri hazırlamaq və təqdim etmək | Qarşıya çıxa biləcək çətinliklər əvvəlcədən müəyyənləşdirmək və hər iki qurumun işçiləri əlavə iş yükünə hazır olmaq |
| *Asılılıq* | Hər iki tərəfin keyfiyyət təminatı prosedurlarını sxemlər şəklində təsvir etmək və müqayisəli təhlil aparmaq | Tərəfdaşlar bir-birinin iş qaydalarını və dəyişiklik tələblərini daha yaxşı anlayacaq və uyğunlaşma prosesini asanlaşdıracaqlar |

**d) Proqramı bitirmə tələb və standartlarının qoyulması.** Birgə və ikili diplom proqramlarının hazırlanmasında əsas çətinliklərdən biri, kredit ekvivalentliyinin və proqramın tamamlanma tələblərinin müəyyən edilməsidir. Fərqli qiymətləndirmə sistemləri və fənn tələbləri kreditlərin tanınmasını çətinləşdirir. Bundan əlavə, ölkələr və universitetlər arasında yekun qiymətləndirmə tələbləri də fərqlənir. Bəzi ölkələrdə dissertasiya tədricən ləğv olunur, digərlərində isə əsas şərt olaraq qalır. Ali təhsil müəssisələrinin müstəqilliyi və milli məhdudiyyətlər bu prosesi daha da mürəkkəbləşdirir (Kuder və d., 2013). Əlavə olaraq, proqramların dizaynı zamanı tədris və qiymətləndirmə metodlarının uyğunsuzluğu tələbələrin hər iki universitetin tələblərinə uyğun performans nümayiş etdirməsini çətinləşdirir.

Bu cür problemlərin qarşısının alınması üçün kreditlərin uyğunlaşdırılması, tələbələrin məzun olma tələbləri ilə bağlı potensial problemlərin öncədən müəyyən edilməsi, yekun qiymətləndirmə prosedurlarının dəqiqləşdirilməsi və tamamlanma üçün alternativ yolların işlənib hazırlanması əsas hədəflər kimi müəyyənləşdirilməsi vacibdir. Bu çərçivədə aparılan fəaliyyətlər proqramın effektivliyini artırmaq və tələbələrin akademik uyğunsuzluq səbəbindən qarşılaşa biləcəyi problemləri minimuma endirmək məqsədi daşıyır (Cədvəl 4) (Palermo və d., 2018).

***Cədvəl 4. Proqramı bitirmə tələb və standartlarının qoyulması üçün təklif olunan addımlar***

| Həll edilməsi zəruri olan məsələlər | Fəaliyyət | Hədəf |
|---|---|---|
| *Aydınlıq* | Kreditlərin və modul/təcrübə ekvivalentliyinin əvvəlcədən qiymətləndirilməsi və xəritələndirilməsi | Kreditlərin uyğunlaşdırılmasını və çevrilməsini asanlaşdırmaq |
| *Prioritet* | Proqram, institusional, peşəkar və milli səviyyədə tələblərin müəyyən edilməsi | Tələbələrin proqramdan məzun olması ilə bağlı qarşıya çıxacaq çətinlikləri əvvəlcədən müəyyən etmək |
| *Ölçmə* | Yekun semestr üçün detalları müəyyən etmək (məsələn, pedaqoji və ya istehsalat təcrübəsi, dissertasiya işi, layihələr və s) | Konkret tələblərlə bağlı tamamlanma problemlərini əvvəlcədən görmək |
| *Asılılıq* | Tamamlama üçün alternativlərin müəyyən edilməsi (kəsrlər, növbəti ilə qalma, vaxtından əvvəl məzun olmaq və s.) | Xüsusi halların nəzərə alınması və bununla bağlı prosedurları hazır etmək |

**e) Proqramın menecment planının hazırlanması.** İDP-lərin tədris təqvimləri, əsasən, digər akademik proqramlardan fərqli olduğu üçün tələbə dəstək xidmətləri bu fərqliliyə uyğunlaşmaqda çətinlik yaşayır (Griffiths, 2003). Standart proqramlara yönəlmiş inzibati sistemlər İDP tələbələrinin yaşayış qeydiyyatı, dil kurslarına yazılma və digər təşkilati məsələlərdə problemlərlə qarşılaşmasına səbəb olur. Xüsusilə, bir neçə tərəfdaş universitetin iştirak etdiyi İDP layihələrində fərqli akademik cədvəllərin koordinasiyası tələbələrin məmnunluğu, fakültənin iş yükü planlaması və tələbə yaşayış xidmətlərinin effektivliyinə birbaşa təsir edir. Proqramların vaxtı və bununla bağlı məsuliyyətlərin qeyri-müəyyənliyi inzibati heyət üçün əsas stres mənbələrindən biridir (Kuder və Obst, 2009). Aparılan müsahibələr göstərir ki, tələbə dəstək xidmətləri ənənəvi akademik sistemdən kənara çıxan İDP-lərin tələblərinə uyğunlaşmaqda çətinlik çəkir.

Səmərəli İDP-lərin yaradılmasında inzibati dəstək və müdafiənin rolu böyükdür. Fokus qruplar göstərir ki, tələbələr tərəfdaş universitetlərdə aldıqları dəstəyi ənənəvi proqramlarla müqayisə edirlər və idarəetmə planlarının aydın olmaması onların təhsil təcrübəsini çətinləşdirir. Bu problemlərin həlli üçün təşkilatlar arasında ən yaxşı təcrübələrin paylaşılması, məsuliyyətlərin dəqiq müəyyənləşdirilməsi və tərəfdaşların bir-birindən asılılığının azaldılması vacibdir. "WHEEL" çərçivəsində təklif olunan tədbirlər bu problemləri əvvəlcədən görməyə və onların təsirini minimuma endirməyə imkan yaradır (Cədvəl 5) (Palermo və d., 2018).

***Cədvəl 5. Proqramın menecment planının hazırlanması üçün təklif olunan addımlar***

| **Həll edilməsi zəruri olan məsələlər** | **Fəaliyyət** | **Hədəf** |
|---|---|---|
| *Aydınlıq* | Proqramların təqvimlərini paylaşmaq (məsələn, semestr başlanğıcı, imtahan cədvəlləri) | Tələbə və professor-müəllim heyətinin iş yükünün planlaşdırılmasını asanlaşdırmaq |
| *Prioritet* | Hər mərhələdə inzibati məsuliyyətləri vizual şəkildə göstərmək | Qərar qəbul etmə və tələbə dəstəyi proseslərində boşluq yaranma riskini öncədən görmək |
| *Ölçmə* | Tələbələrin dərslərdə aktiv iştirakı ilə müstəqil öyrənmə vaxtı arasında balans qurmaq və bunu effektiv şəkildə planlaşdırmaq | Gözləntiləri idarə etmək və tələbələri transmilli təhsilə hazırlamaq |
| *Asılılıq* | Proqram çərçivəsində tələb olunan kreditlərin dəqiq sayını və təlim nəticələrini müəyyən etmək | Təhsilin pillə və səviyyələri arası keçidlərin həyata keçirilməsini təmin etmək |

**Nəticə.** Beynəlxalq ikili diplom proqramları (İDP) beynəlxalq tərəfdaşlıqları gücləndirmək, ali təhsil müəssisələrinin nüfuzunu artırmaq və transnasyonal təhsil yanaşmasını inkişaf etdirmək üçün strateji vasitədir. Aparılmış tədqiqat nəticələrinə əsaslanaraq, bu proqramların uğurlu tətbiqi üçün dörd əsas aspekt müəyyən edilmişdir: aydınlıq, prioritet, ölçü və asılılıq. İDP-lər ali təhsil müəssisələrinin qlobal inteqrasiyasını sürətləndirir, tələbələrə unikal imkanlar yaradır və təhsil sistemlərinin keyfiyyətini yüksəldir. “WHEEL” çərçivəsi isə bu proqramların davamlı inkişafı və effektiv idarə edilməsi üçün əsas vasitə kimi çıxış edir. Bu yanaşma, ali təhsil sahəsində innovasiyaların tətbiqi və qlobal rəqabətqabiliyyətli kadrların yetişdirilməsi üçün geniş imkanlar açır. Bu çərçivədə “WHEEL” modeli təklif olunur ki, bu, İDP-lərin həyata keçirilməsini qiymətləndirmək və davamlı monitorinqini təmin etmək üçün idarəetmə aləti kimi çıxış edir. Çərçivə tərəfdaşların seçilməsi, keyfiyyətin təminatı, tamamlanma tələbləri və proqram idarəetmə planları kimi strateji qərarlarını əhatə edir.

“WHEEL” çərçivəsi İDP-lərin dizayn və təşkil proseslərini daha sistemli və əlaqələndirilmiş şəkildə idarə etməyə imkan yaradır. Nümunələr göstərir ki, əməliyyat səviyyəsində qəbul edilən qərarlar strateji səviyyədə də əhəmiyyətlidir və bu məsələləri tərəfdaş seçimi və əlaqələndirmə prosesinə inteqrasiya etmək vacibdir. Çərçivə hər bir ali təhsil müəssisəsinin tələblərinə uyğunlaşdırıla bilər və normativ yoxlama siyahısı kimi deyil, proqramların vəziyyətini davamlı nəzərdən keçirmək üçün baza kimi xidmət etməlidir. Bu yanaşma sayəsində potensial problemlər vaxtında aşkarlanır və İDP-lər həm tələbə, həm də işçi heyətinin məmnuniyyətini maksimuma çatdırmaqla öz strateji rolunu effektiv şəkildə yerinə yetirə bilər.

**Problemin aktuallığı.** Müasir dövrdə universitetlərin qlobal rəqabət şəraitində fərqlənmək və beynəlxalq inteqrasiyanı gücləndirmək məqsədilə ikili diplom proqramlarının əhəmiyyəti artır. Bu proqramlar tələbələrə fərqli təhsil sistemlərində təcrübə qazanmaq, peşəkar əlaqələr qurmaq və iş imkanlarını artırmaqla yanaşı, universitetlərin resurslarını səmərəli şəkildə bölüşməsinə və beynəlxalq tanınmalarını gücləndirməsinə imkan yaradır. İkili diplom proqramlarına artan marağa baxmayaraq, elmi ədəbiyyat bu məsələlərə məhdud diqqət ayırmış və ali təhsil menecerlərinə qərar qəbul etmə proseslərini dəstəkləyən çərçivələr təqdim etməmişdir.

**Problemin yeniliyi.** Məqalədə təqdim olunan “WHEEL” çərçivəsi ikili diplom proqramlarının dizaynı və idarə edilməsi üçün sistemli və strateji yanaşma təqdim edir. Bu çərçivə tərəfdaş seçimi, keyfiyyət təminatı və tələbə məmnuniyyəti kimi məsələləri əhatə edərək, bu proqramların effektivliyini artırmağa yönəlmiş müasir yanaşma təqdim edir.

**Problemin praktik əhəmiyyəti.** İkili diplom proqramları tələbələrə qlobal təcrübə qazandırır, universitetlərin beynəlxalq əməkdaşlığını gücləndirir və təhsil sistemlərinin keyfiyyətini artırır. “WHEEL” çərçivəsi isə ali təhsil müəssisələrinə bu proqramları uğurla həyata keçirmək üçün praktik alət təqdim edir və bununla da təhsil sahəsində davamlı inkişafa töhfə verir.

**Ədəbiyyat**


1. Carlin, D.B. (2008) Engaging globally through joint and dual degrees: The graduate experience. Global Higher Education. Collaborative Dual Degree Programs and Value Added for Students: Lessons Learned Through the Evaluate E-Project Journal of Studies in International Education, 20(10), 1–22.
2. Culver, S. M., Puri, I. K., Spinelli, G., DePauw, K.P.K. and Dooley, J. E. (2011)
3. Egege, S. and Kutieleh, S. (2008) Dimming Down Difference. In Lee Dunn and Michelle Wallace, ed. Teaching in Transnational Higher Education. USA: Routledge, 67-76.
4. Frynas, J. G. and Mellahi, K. (2015) Global Strategic Management, 3 rd ed. Oxford University Press: Oxford.
5. Griffith, V. (2003) A degree that bridges the world. Financial Times, March 10, 13. 16
6. Gutierrez, R., Bhandari, R., and Obst, D. (2008). Exploring host country capacity for increasing US study abroad. Institute of International Education White Paper Series, 2, May.
7. Healey, N. M. and Bordogna, C. (2014) From Transnational to Multinational Education: Emerging Trends in International Higher Education. Internationalisation of Higher Education, 3, 33-53. Available at www.handbook-internationalisation.com, last accessed 25th July 2017.
8. Heffernan, T., Morrison, M., Basu, P., and Sweeney, A. (2010) Cultural differences, learning styles and transnational education. Journal of Higher Education Policy and Management, 32(1), 27-39.
9. HEGlobal (2016) The Scale and Scope of UK Higher Education Transnational Education.
10. Institute of International Education (IIE). (2020). “Top 25 institutions hosting international students, 2000/01 – 2019/20.” Open Doors Report on International Educational Exchange.
11. Javadov, Ilham. (2015). MONITORING AND ASSESSMENT OF THE QUALITY OF EDUCATION: CONTEMPORARY APPROACHES. Azerbaijan Journal of Educational Studies. 3. 29-34.
12. Javadov, Ilham. (2024). BASIC FACTORS AFFECTING THE QUALITY OF GENERAL EDUCATION. Ижтимоий-гуманитар фанларнинг долзарб муаммолари / Актуальные проблемы социально-гуманитарных наук / Actual Problems of Humanities and Social Sciences. 7. 290-296. 10.58224/2618-7175-2024-7-290-296.
13. Kim, T. (2009) Transnational academic mobility, internationalization and interculturality in higher education, Intercultural Education, 20(5), 395–405.
14. Knight, J. (2008) The internationalisation of higher education: Are we on the right track? The Global University – Academic Matters. October/November, 5-13.
15. Knight, J. (2013) Joint, double, and consecutive degree programs: Definition, doubts, and dilemmas in M. Kuder, N. Lemmens, and D. Obst (eds.) Global Perspectives on International Joint and Double Degree Programs. New York: Institute of International Education.
16. Kuder, M. and Obst, D. (2009) Joint and double degree programs in the transatlantic context - A survey report. New York: USA. Institute of International Education.
17. Kuder, M., Lemmens, N. and Obst, D. (eds.) (2013) Global Perspectives on International Joint and Double Degree Programs. New York: USA. Institute of International Education.
18. McBurnie, G. and Ziguras, C. (2007) Transnational Education: Issues and Trends in Offshore Higher Education. London: Routledge.
19. Michael, S. O. and Balraj, L. (2003) Higher education institutional collaborations: an analysis of models of joint degree programs, Journal of Higher Education Policy and Management, 25(2), 131-145
20. Palermo, O. A., Bisignano, A. P., & Mercado, S. (2018). The design of international dual degree programmes as effective transnational education experiences. In *Springer eBooks* (pp. 45–66).
21. Pyvis, D. (2011) The need for context sensitive measures of educational quality in transnational higher education. Teaching in Higher Education, 16(6), 733-744.
22. Teichler, U. (2009) Internationalisation of Higher Education: European Experiences. Asia Pacific Education Review, 10(1), 93–106.
23. Tobenkin, D. (2008) Degrees of Success. NAFSA: International Educator, May/June, 36-46.


**Redaksiyaya daxil olub:**14.03.2025

***TƏLİM TEXNOLOGİYALARI***
***ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ***
***TEACHING TECHNOLOGIES***

*UOT 37.*

***Firədun Nadir oğlu İbrahimov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının professoru,*
*pedaqogika elmləri doktoru*
*https://orcid.org/0000-0002-0775-1048*
*E-mail: firedun52@mail.ru*

***Sevinc İlqar qızı Kərimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Şəki filialının baş müəllimi*
*https://orcid.org/0009-0004-3317-4215*
*https://doi.org/10.69682/arti.2025.92(2).53-62*

## TƏHSİLALANMƏRKƏZLİ TƏLİM SİSTEMİNİN FƏLSƏFİ-METODOLOJİ ƏSASLARI

***Фирадун Надир оглы Ибрагимов***
*доктор педагогических наук, профессор*
*Шекинского филиала Азербайджанского Государственого Педагогического Университета*

***Севиндж Ильгар гызы Керимова***
*старший преподаватель*
*Шекинского филиала Азербайджанского Государственого Педагогического Университета*

## ФИЛОСОФСКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ОБРАЗОВАТЕЛЬНО-ЦЕНТРИРОВАННОЙ СИСТЕМЫ ОБУЧЕНИЯ

***Firadun Nadir Ibrahimov***
*professor at Sheki branch of Azerbaijan State Pedagogical University,*
*doctor of pedagogical sciences*

***Sevinj Karimova Ilgar***
*the teacher at Sheki branch of Azerbaijan State Pedagogical University*

## PHILOSOPHICAL-METHODOLOGICAL FOUNDATIONS OF LEARNER-CENTERED TRAINING SYSTEM

**Xülasə**. Məqalədə müxtəlif elmi mənbələrdə “təlim” anlayışı ilə bağlı şərhlərdə fikir müxtəlifliyinə diqqət yönəldilir. Vurğulanır ki, mükəmməl təlim sisteminin nəzəri və praktik əsaslarının işlənilməsi didaktikanın mərkəzi problemidir, daha səmərəli nəticələri hədəfləyən didaktik sistemlərin axtarışı zəruri və davamlı prosesdir. İddia olunur ki, təhsilin həyata keçirilməsinin mühüm yollarından biri olaraq dərk edilən “mükəmməl təlim prosesi”nin *təhsialanmərkəzli* (bu, onun emercent əlaməti kimi qəbul olunur!) və *təhsilalanlarda IV sənaye inqilabının çağırışlarına uyğun bacarıqların formalaşmasını şərtləndirən* sistem kimi interpretasiya edilməlidir. Vurğulanır ki, təlim prosesinin idarə olunması üçün elmin və praktikanın nailiyyətləri ilə ayaqlaşan elmi fəlsəfənin nəzəri-metodoloji əhəmiyyəti olduqca böyükdür və bu prosesdə şagirdlərin idrak fəaliyyətinin idarə olunması, əqli qabiliyyətlərinin inkişafı yalnız o şərtlə mümkündür ki, təfəkkür prosesinin qanunauyğunluqları, elmi idrakın forma və metodlarının xüsusiyyətləri və dialektik əlaqələri daim nəzərə alınsın.

Bu işdə təlim prosesinin idarə olunmasına öz-özlüyündə idrak məsələsi kimi baxmağın məntiqiliyi diqqətə çatdırılır. Təlim prosesində səmərəli nəticələrin reallaşması üçün praktik pedaqoqun idarəetmə fəa-

liyyətinin müəyyənləşdirilməsində gerçəkliyin dərk olunması və dəyişdirilməsi metodları haqqında dialektika və idrak nəzəriyyəsinin tərkibləri kimi ehtiva edilən komponentlərə istinad etməsinin məqsədəuyğunluğu diqqət mərkəzinə çəkilir və bu "imkandaşıyıcı komponentlər"i özündə saxlayan fikrin hərəkət forması həmin prosesin idarə olunmasının metodoloji əsası kimi dəyərləndirilir.

***Açar sözlər:*** *təlim; dialektika; idrak nəzəriyyəsi; elmi tədqiqat metodları; elmi idrak formaları; problem; idrak məsələsi; əqli fəaliyyətin növləri; dərrakəli və zəkalı fəaliyyət; hissi intuisiya; intellektual intiusiya; ideya; prinsip; nəzəriyyə.*

**Аннотация.** В статье акцентируется внимание на разнообразие мнений в трактовках понятия «обучение» в различных научных источниках. Подчеркивается, что разработка теоретических и практических основ совершенной системы образования является центральной проблемой дидактики, поиск дидактических систем, нацеленных на более эффективные результаты, также считается необходимым и непрерывным процессом. Утверждается, что «совершенный процесс обучения», который воспринимается как один из важных способов реализации образования, следует трактовать как образовательно-центрированную (она рассматривается как его эмерджентный признак!) систему, обусловливающую формирование умений и навыков обучаемых в соответствии с последствиями IV промышленной революции. Подчеркивается, что теоретико-методологическое значение научной философии, идущей в ногу с достижениями науки и практики, для управления образовательным процессом очень велико, и в этом процессе управление познавательной деятельностью обучаемых и развитие их умственных способностей возможно лишь при условии, что всегда будут учитываться закономерности мыслительного процесса, особенности форм и методов научного познания и диалектических отношений.

В данной работе обращается внимание на логику рассмотрения управления процессом обучения как самой познавательной проблемы. В целях достижения эффективных результатов в процессе обучения в центр внимания выдвигается целесообразность обращения педагога-практика к содержащимся в диалектико-когнитивной теории компонентам о способах понимания и изменения действительности при определении управленческой деятельности. В качестве основы ценится форма движения мысли, содержащая эти «обеспечивающие компоненты».

***Ключевые слова:*** *обучение, диалектика, когнитивная теория, методы научных исследований, формы научного познания, проблема, когнитивная задача, виды умственной деятельности, проницательная и разумная деятельность, чувственная интуиция, интеллектуальная интуиция, идея, принцип, теория.*

**Abstract.** The article focuses on the diversity of opinions in the interpretations of the concept of "training" in various scientific sources. It is emphasized that working out the theoretical and practical foundations of an excellent educational system is the central problem of didactics. The search for didactic systems aiming at more effective results is a necessary and continuous process. It is claimed that the "perfect training process", which is perceived as one of the important ways of implementing education, should be interpreted as an learner-centered (it is considered as its emergent sign!) system that conditions the formation of skills in the students in accordance with the implications of the IV industrial revolution. It is emphasized that the theoretical-methodological importance of scientific philosophy, which is in step with the achievements of science and practice, for the management of the educational process is very great, and in this process, the management of students' cognitive activity and the development of their mental abilities is possible only on the condition that the regularities of the thinking process, the characteristics of the forms and methods of scientific cognition and dialectical relations should always be taken into account.

In this work, the logic of looking at the management of the learning process as a cognitive issue in itself is brought to attention. In order to achieve effective results in the training process, the appropriateness of the practical educator's reference to the components contained in the dialectic and cognitive theory about the methods of understanding and changing reality in determining the management activity is drawn into the center of attention, and the form of thought movement that contains these "enabling components" is the methodological basis of the management of that process. Which is valued as the basis.

***Keywords:*** *training; dialectics; cognitive theory; scientific research methods; forms of scientific cognition; problem; cognitive issue; types of mental activity; insightful and intelligent action; sense intuition; intellectual intuition; idea; principle; theory.*

**Tədqiqat mövzusunun aktuallığı.** IV sənaye inqilabının çağırışlarına adekvat bacarıqların formalaşdırılmasını hədəfləyən təhsilalanmərkəzli təhsilin həyata keçirilmə yolu kimi qəbul edilən təlim nəzəriyyəsinin işlənilməsi didaktikanın aktual problemidir. Bu problemin həllinə əsas olan (həllini reallaşdıran) məsələlər sırasında dialektikanın, qnoseologiyanın qanun və kateqoriyalarının metodoloji rolunun bilavasitə müəyyənləşdirilməsi məsələsi də vardır. Odur ki, sözügedən təhsilalanmərkəzli təlim sisteminin nəzəri və texnoloji əsaslarının müəyyənləşdirilməsi, elmi idrakın mükəmməl forması olan adekvat nəzəriyyənin ərsiyəyə gətirilməsi baxımından "Təhsialanmərkəzli təlim sisteminin fəlsəfi-metodoloji əsasları" mövzusunda tədqiqatın aparılmasının aktuallığını iddia edirik.

*Tədqiqatın metodoloji əsası.* Tədqiqatın reallaşdırılması prosesində empirik, empirik-nəzəri, nəzəri, metanəzəri, metakoqnitiv metodlardan istifadə olunmuş və "sistem-struktur" dialektik yanaşmaya istinad edilmişdir.

*Tədqiqat materialları əsasında formalaşdırılmış ümumiləşmələrin şərhi.* Pedaqogika elm sahəsinin obyekti, tədqiqat metodları, metodologiyası və əsas anlayışları barədə çox yazılmışdır və elmi mənbələrdə bunların özünə yer alan interpretasiyalarında müxtəliflik mövcuddur[10;, s. 43-50]. Görkəmli Azərbaycan psixoloqu prof. Ə.Ə. Əlizadə "Təlim" anlayışına aydınlıq gətirmək məqsədi ilə ona belə bir elmi şərh verir: "Təlim tədris fəaliyyətininin mühüm xarakteristikası olsa da, onun bütün tərəflərini əks etdirmir. Təlim sözün geniş mənasında yeni bilik, bacarıq və vərdişlərin mənimsənilməsini nəzərdə tutur" [2, s. 150]. Prof. Z.İ. Qaralovun fikrincə, təlim prosesi-obyektiv varlığı dərk etmək, bunun əsasında tərbiyələnmək və inkişafda olmaq prosesidir. Obyektiv aləmin insan şüurunda fəal inikası prosesini məqsədyönlü təmin etmək üçün müxtəlif yollardan, metod və vasitələrdən istifadə olunur. Bu metodlar içərisində ən mükəmməli dialektik metoddur. Bütünlükdə təbiət həmin metoda istinad etməklə dərk olunur [4, s. 72].

Yeri gəlmişkən vurğulayaq ki, dialektik metod idrakın ən ümumi metodudur, ona görə ki, o, təbiət və cəmiyyət hadisələrinə birtərəfli yanaşmanı kənar edir, maddi gerçəkliyin konkret sahəsinin inkişafını əks etdirən xüsusi qanundan deyil, təbiət, cəmiyyət və təfəkkürün bütün sahələrinin inkişafını əks etdirən ən ümumi qanunlara əsaslanır. Qeyd etməliyik ki, bir metod olmaq etibarı ilə dialektikanın ən ümumi xarakter daşıması o demək deyildir ki, bu metod elmi idrakın bütün metodlarını əvəz edə bilər. Dialektika idrakın ümumi xarakter daşıyan yeganə elmi metodu olsa da, o konkret elmlərin xüsusi metodlarını əvəz edə bilməz. Müasir elmin sərəncamında ən ümumi və yeganə elmi xarakter daşıyan bu metodla yanaşı, bir sıra xüsusi metodlar da vardır. Onu da xüsusi olaraq vurğulayaq ki, dialektik metodun elmi idrakın ən ümumi metodu olmasını əsaslandırmaq üçün dialektikanın əsas prinsip, qanun və kateqoriyalarının elmi idrak üçün metodoloji və evristik əhəmiyyətinə diqqət yönəltmək lazımdır. Elmi-tədqiqat praktikası göstərir ki, öyrənilən cisim və hadisələrin digər hadisələrlə qarşılıqlı əlaqəsini və asılılığını nəzərə almayan tədqiqatçı idrakda həmişə ciddi çətinliklərlə rastlaşır. İdrakın çox mürəkkəb məsələlərinin müvəffəqiyyətlə həll olunduğu, maddi və mənəvi aləmin əsrarəngiz sirlərinə bacarıqla nüfuz etdiyi hazırkı dövrdə heç bir tədqiqatçı yeganə elmi idrak metodu olmaq etibarı ilə materialist dialektikadan istifadə etmədən keçinə bilməz.

Mətləbdən uzaqlaşmayaq. Təlim prosesində elmi həqiqətlərin gənc nəslə ötürülməsinin əsasını da dialektik metod təşkil edir. Ona görə də öyrənmə (dərk etmə) dialektik idraki hadisə sayılır. Təlim prosesinin yolları, metod və vasitələri, şagirdlərin bu prosesdə alqoritmik və evristik fəaliyyətin nisbətləri dialektik metodun əsasında yaradılaraq müəllim-şagird fəaliyyəti qurulur. Dərketmə prosesi müxtəlif səviyyəli, əlaqəli mərhələlərdən keçir. İnkar olunmur ki, əsil həqiqətə çatmaq üçün insan şüuru bu mərhələlərdən keçməlidir.

Tədqiqatın qayəsinə uyğun olaraq biz burada "Təlim prosesi" anlayışını nəzər-nöqtəsi olaraq seçməklə sözügedən anlayışa "sistem-struktur" baxımdan yanaşaraq mülahizələrimizi, ümumiləşmə halına gətirdiyimiz qənaətlərimizi təqdim etməyi faydalı sayırıq və əslində bununla da pedaqoji fikrə və praktikaya öz töhfəmizi vermək istəyimizi təzahür etməyə çalışmışıq. Onu da öncədən vurğulayaq ki, dialektikanın inkişaf etmiş qolu kimi formalaşan "sistem-struktur yanaşma"ya əsaslandığımız üçün məntiqi olaraq şərhimizdə "mükəmməl sistem" və ya "bütöv sistem" anlayışlarını işlətməli oluruq.

Pedaqogika nəzəriyyəsində təlimin müxtəlif sistemləri barədə də çox yazılmışdır, didaktiklər tərəfindən bu və ya digər konsepsiyaya üstünlük verilməsini özündə ehtiva edən təlim sistemlərinin mövcudluğu göstərilir [5, s. 76-78]. Məsələn, müasirliyi dəyərləndirilən fəal/interaktiv təlimlə bağlı professor A.N. Abbasov yazır: "Fəal/interaktiv təlim dedikdə, məktəblilərin fəal idrak fəaliyyətini diqqət mərkəzinə gətirən və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim başa düşülür. Fəal interaktiv təlim tədris və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur"[1;268].

Şübhə yoxdur ki, mükəmməl təlim sisteminin nəzəri və praktik əsaslarının işlənilməsi didaktikanın mərkəzi problemidir. Ümumiyyətlə, daha səmərəli nəticələri hədəfləyən didaktik sistemlərin axtarışı zəruri və davamlı prosesdir.

Bizcə, təlim sisteminin mükəmməlliyi onun bəşər mədəniyyətinin zəruri hissəsinin şagirdlər tərəfindən mənimsənilməsinə imkan verən ən səmərəli yolları özündə saxlama səviyyəsi, başqa sözlə, şəxsiyyətin inkişafına edə biləcəyi sürətləndirici təsirin səmərəliliyi ilə xarakterizə oluna bilər; belə sistem təhsilin bütün səviyyələrini əhatə etməlidir, həm reproduktiv, həm də yaradıcı səviyyədə mənimsəmə isə yalnız əqli fəaliyyətin analitik və evristik növlərinin məqsədəuyğun idarə olunması nəticəsində mümkündür [9, s. 451-473]. Biz belə hesab edirik ki, idrakın gerçəkliyi əksetdirmə qanunauyğunluqlarına, təlim prosesinin mahiyyətinə azçox bələd olan hər bir kəs bu fikrə etiraz etməz. Odur ki, biz L. Bertalanfinin "Sistem təhlili ideyası"na istinad etməklə təlimin elə sistemini mükəmməl sayırıq ki, o, özündə bir çox cəhət və keyfiyyətlərlə (altsistemlərdən ibarət olması, ayrıla bilən altsistemlərin qarşılıqlı əlaqəsini təyin edən xassənin olması, idrakın bütöv sisteminə uyğun qoyula bilməsi və s.) yanaşı[6; 8], onun alqoritmik (analitik fəaliyyətin mühüm tərkibi olaraq) və evristik fəaliyyətin optimal nisbətini özündə ehtiva etmiş olsun [10, s. 20]. Burada diqqət yönəldilən arqumentləri arxa plana keçirmədən vurğulamağı lazım bilirik ki, təlim prosesinin mükəmməlliyi onun tətbiq edildiyi (-həyata keçirildiyi) zaman kəsiyində formalaşan "təhsil məkanının"(təhsil nəzəriyyəsinə "təhsil məkanı" anlayışının daxil edilməsini məqbul və faydalı hesab edirik, hansı ki, bu məkanın formalaşmasını sənaye inqilablarının çağırışları dialektikanın inkari-inkar qanunu davamlı şəkildə şərtləndirir, biz bu qənaətə uzunmüddətli tədqiqat fəaliyyəti sayəsində gəlməli oluruq) xüsusiyyətlərinə adekvatlığı ilə şərtlənir. Bizim elmi mənbələrdən və qabaqcıl pedaqoji təcrübədən əldə etdiyimiz materialların elmi idrakın forma və metodları əsasında formalaşdırdığımız və subyektiv xarakter daşıyan(subyektiv cəhət insanın idrak fəaliyyətində qaçılmaz gerçəkdir!) ümumiləşmələrimizə görə, hazırda təhsilin həyata keçirilməsinin mühüm yolu kimi dərk olunan "mükəmməl təlim prosesi" IV sənaye inqilabının çağırışlarına uyğun bacarıqların formalaşmasını şərtləndirən təhsilalan mərkəzli emercent təbiəti ilə mövcud sistem kimi interpretasiya olunmalıdır, fikrimizcə, onun nəzəri və texnoloji əsaslarının işlənilməsi təhsil nəzəriyyəsinin (didaktikanın) "təkmilləşdirilməsinin paradiqması" kimi qəbul edilməlidir. Bu prosesdə didaktiklərin, təhsil sahəsində çalışan psixoloqların pedaqoji psixologiyaya ərməğan etdiyi töhfələr inkar olunmamalı, onlardan yaradıcılıqla faydalanmaq gərəkdir. Məxsusi olaraq vurğulamaq yerinə düşər ki, savadlılıq, çox dil bilmək, riyazi, elmi, texnoloji, rəqəmsal savadlılıq, şəxsi, sosial və öyrənməyi öyrənmək, fəal vətəndaş mövqeyi, sahibkarlıq, mədəni məlumatlılıq və özünü idarəetmə kompetensiyalarının formalaşdırılmasını hədəfləyən təhsilalan mərkəzli təlim nəzəriyyəsinin işlənilməsində "Çoxnövlü zəka" (Hovard Qardner), "Zehni inkişafın mərhələləri" (Jan Piaje), "Sosial inkişaf" (Lev Vıqotski), "Düşüncə tərzi" (Karol Dvek), "Mənəvi inkişaf" (Lourens Kolberq), "Öyrənmənin şərtləri" (Robert Qanye), "Emosional zəka" (Daniel Qoulman), "İntrovert və ekstrovert şəxsiyyət" (K.Yunq) və digər bu kimi idrak məsələlərindən (qeyd edək ki, bunlar elmi mənbələrdə elmi idrakın ən mükəmməl forması sayılan "nəzəriyyə"lər adı təqdim olunur), Sinxiron və asinxron tədris, Sorğu və araşdırma əsaslı təlim , Problem əsaslı təlim, Layihə əsaslı təlim(PBL) öyrənmə, Oyun əsaslı öyrənmə, Birbaşa təlim və digər forma və modellərdən faydalanmaq zəruridir, bu vacib məsələnin arzuolunan səviyyədə həllində istinad olunmalı "imkandaşıyıcı element"lərdir (Ətraflı məlumat üçün bax: [7, s. 90-97, 117-151]).

Fikrimizcə, təlim prosesinin idarə olunmasına öz-özlüyündə idrak məsələsi kimi baxmaq olar. Təlim prosesində pedaqoqun idarə-

etmə fəaliyyətinin müəyyənləşdirilməsində də gerçəkliyin dərk olunması və dəyişdirilməsi metodları haqqında dialektika və idrak nəzəriyyəsinin tərkibləri kimi ehtiva olunan prinsiplərə istinad edilir. Bu prinsipləri özündə saxlayan nəzəriyyə təlim prosesinin idarə olunmasının metodoloji əsası rolunu oynayır.

Təlim prosesinin idarə olunması üçün elmin və praktikanın nailiyyətləri ilə ayaqlaşan elmi fəlsəfənin nəzəri-metodoloji əhəmiyyəti olduqca böyükdür. Qeyd etdiyimiz kimi, burada dialektika və idrak nəzəriyyəsi ön planda durur. Bunu hər şeydən əvvəl onda görmək olar ki, adətən, təlim prosesində müəllim bir sıra fəlsəfi –metodoloji problemləri həll etməli olur. Dialektika müəllimə idarə etdiyi hadisəyə sonsuz hadisələr silsiləsinin bir halqası kimi baxmağa, onun mahiyyətini dərk etməyə imkan verir ki, bu da obyektin hazırkı halını və mahiyyətini dərindən, dəqiq öyrənməyə, onun hansı istiqamətdə inkişaf edəcəyini və gələcəyinin necə olacağını müəyyənləşdirməyə əsas verir.

Dialektikanı həm ümumi idrak nəzəriyyəsi, həm də elmlərin metodoloji əsası hesab edənlər yanılmırlar. Səciyyəvi cəhət budur ki, metodoloji əsas evristik xüsusiyyət daşımağa qadirdir. Fikrimizi daha da konkretləşdirmək üçün dialektikanın qanun və kateqoriyalarına müraciət edək. Dialektikanın əsas qanun və kateqoriyalarının təlim prosesi və onun idarə olunması üçün mühüm metodoloji və evristik əhəmiyyəti əksliklərin vəhdəti və mübarizəsi qanununda daha aşkar görünür. Dialektikanın nəbzi, nüvəsi adlandırılan bu qanunun təlimin idarə olunması üçün metodoloji əhəmiyyəti ondadır ki, o, pedaqoqa bu prosesin ziddiyyətli mahiyyətini müəyyən etməyə, təlim prosesini və onun komponentlərinin inkişafının mənbəyini, hərəkətverici qüvvəsini, daxili impulslarını açmağa imkan verir. Bu qanuna əsaslanmadan, təlim prosesində onun təzahürünü aydın dərk etmədən, pedaqoji prosesə rəhbərlik edənə hadisələrin inkişafında meydana çıxan və təlim prosesində dərk olunanlara əks olan ziddiyyətlərin mahiyyətini başa düşmək, bu obyektiv ziddiyyətləri təfəkkürün məntiqi cəhətdən düzgün olmayan gedişindən törəyən subyektiv ziddiyyətlərdən ayırmaq çətin olardı.

Əksliklərin vəhdəti və mübarizəsi qanununa əsaslanmaq, təlim prosesində ondan şüurlu şəkildə istifadə etmək, təlimin idarə olunması prosesində qarşıya çıxan bir sıra çətinlikləri aradan qaldırmağa və hadisələrin mahiyyətinə nüfuz etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, təkcə əksliklərin vəhdəti və mübarizəsi qanunu deyil, eyni zamanda materialist dialektikanın digər qanun və kateqoriyaları, prinsipləri də mühüm metodoloji əhəmiyyətə malikdir. Məsələn, dialektikanın ümumi əlaqə prinsipini götürək. Dialektikanın bu prinsipini təlimə aid etdikdə təlim metodlarının bir-biri ilə ayrılmaz əlaqəsinin şahidi oluruq. Belə ki, elmi-tədqiqatda olduğu kimi, təlim prosesində də idrakın ən ümumi və xüsusi metodları ayrı-ayrılıqda, yanaşı deyil, ayrılmaz əlaqədə təsir göstərir. Dialektik metodun təlim prosesinin gedişinə və onun nəticələrinə təsiri xüsusi metodlar vasitəsi ilə həyata keçirilir.

Fəlsəfədə dialektikanı təbiət, cəmiyyət və təfəkkürdə ümumi əlaqə və ümumi inkişaf nəzəriyyəsi kimi səciyyələndirirlər. Dialektikanı həm də ümumi idrak nəzəriyyəsi kimi də səciyyələndirirlər. Dialektikanın ümumi idrak nəzəriyyəsi kimi səciyyələndirilməsi, hər şeydən əvvəl, bununla əlaqədardır ki, idrak prosesi özü dialektik prosesdir, başqa sözlə, idrak nəzəriyyəsi özü xarici aləmin insan şüurunda dialektik inikasıdır və bu əksolunma prosesində gerçəkliyə məxsus qanunauyğunluqlar şüurumuzda bilik kimi formalaşır. Bu qanunauyğunluqların dərk edilməsi, mənimsədilməsi sayəsində ümumi prinsip və nəzəri müddəalar formulə edilir ki, bunun da təlim prosesinin idarə olunması üçün müstəsna əhəmiyyəti vardır. Belə ki, təlim prosesinin özünə gerçəkliyə məxsus olan predmet və hadisələrin dərk olunmasının spesifik bir növü kimi baxmaq olar. Odur ki, qnoseologiyanın, dialektikanın ümumi qanunları, prinsipləri təlimin xüsusi metodları ilə əlaqədar fəaliyyət göstərir. Vəzifə bu əlaqə əsasında təlimin elə qurulmasına nail olmaqdır ki, şagirdlərin bəşər mədəniyyətini, elmlərin əsaslarını yaxşı mənimsəməsinə (hətta onu sonra yaradıcılıqla inkişaf etdirməsinə) şərait yaransın, onlarda idrak müstəqilliyi formalaşsın.

Məlum olduğu kimi, qnoseologiya fəlsəfənin tərkib hissəsidir. O, ümumi idrak nəzəriyyəsidir, bilik haqqında təlimdir. Təsadüfi deyildir ki, fəlsəfi ədəbiyyatda həqiqət anlayışını qnoseologiyanın mərkəzi kateqoriyası hesab edirlər. Həqiqət özü də bilikdir, ətraf aləm, gerçəklik haqqında sınaqdan çıxmış, doğruluğu ictimai praktikada yoxlanılmış bilikdir. Səciyyəvi haldır ki, "bilik" anlayışı pedaqogikanın təlim nəzəriyyəsi ilə bilavasitə

bağlı olan kateqoriyasıdır. Bəs bilik nədir, onun fəlsəfi və pedaqoji aspektləri nədən ibarətdir?

Bu məsələlərdən söhbət gedəndə M. Əkbərovun və N. Cəfərovun "Bilik haqqında nə bilirik?" məqaləsi diqqəti çəkir [3]. Məqalədə bilik insanların ictimai əməyinin və zehni fəaliyyətinin məhsulu, "obyektiv gerçəkliyin ideal inikası, onun nəzəri əxzetmənin nəticəsi... insanların məqsədəuyğun-praktik fəaliyyətinin zəruri elementi, zəmini" kimi səciyyələndirilir. Burada bilik qnoseoloji kateqoriya kimi xarakterizə edilir, onun, ümumiyyətlə, mahiyyəti, növləri, funksiyası araşdırılır. Bununla belə, biliyin pedaqoji aspekti də müəlliflərin nəzərindən yayınmamışdır. Məqalədə oxuyuruq ki, pedaqogikada bilik dedikdə əsasən təhsilin məzmunu ilə bağlı olan elə element nəzərdə tutulur ki, burada bəşəriyyətin əldə etmiş olduğu hazır sərvətin yetişməkdə olan gənc nəslə mənimsədilməsindən, həm də bu sərvətdən təhsil üçün nəyi və onu necə, nə üçün təlim etməkdən söhbət gedir. Burada elmdə "yeni bilik" anlayışı haqqında mülahizə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, fəlsəfədə yeni bilik elmi tədqiqatların elə nəticəsinə deyilir ki, o, obyektiv gerçəkliyə, onun xassə və qanunauyğunluqlarına dair mövcud olan biliklərimizi və onların tətbiqini əsaslı surətdə dəyişdirir və genişləndirir. Buraya daxildir: a)yeni empirik, eksperimental faktların kəşfi, b)müəyyən bir nəzəri sistemdən deduksiya yolu ilə alınan anlayış və mülahizələr, c) mövcud nəzəri təsəvvürləri dəyişən yeni elmi anlayış, qanun, müddəa, prinsiplərin yaranması.

Məxsusi olaraq qeyd etmək gərəkdir ki, təlim prosesində "yeni bilik" dedikdə, buradakı "yeni" sözündə müəyyən şərtilik var; bu bilik elmdə artıq bərqərar olmuş "hazır" biliklərdən müəyyən didaktik prinsiplər əsasında seçilən və dərsliklərə daxil edilən elə proqram materialıdır ki, o, təlim prosesində müəyyən ardıcıllıqla seçilmiş formada şagirdlərə aşılanır [11, s. 21-22].

Sözügedən məqalədə biliyin ümumi, metodoloji təsnifatı və funksiyalarını fəlsəfi baxımdan araşdıran müəlliflər, onun tədris işi üçün mühüm əhəmiyyətini xüsusi qeyd edirlər. Burada tədris fənlərinin məzmununa daxil olan biliklərin aşağıdakı növləri qeyd edilir: a)əsas terminlər və anlayışlar (bunlarsız heç bir mətn, müddəa və ya mülahizə aydın olmaz); b)gündəlik həyati və elmi faktlar (bunlarsız elm qanunlarını anlamaq olmaz, əqidə, ideya, isbat kimi keyfiyyətlər formalaşmaz); c)gerçəkliyin müxtəlif obyektləri və hadisələri arasındakı zəruri, mühüm, davamlı əlaqələri açan elm qanunları (bunlarsız elmdən danışmaq olmaz); ç)elmi nəzəriyyələr; e) metodoloji xarakterli biliklər (biliyin meydana gəlməsi, hasil edilməsi yolları və tarixi, idrak metodları) d) qiymətləndirici(və ya dəyərləndirici) biliklər (müxtəlif həyati hadisələrə münasibət normalarına qiymət vermək barədə biliklər) [3].

Əlbəttə, bu məsələlərin ətrafında müəlliflərlə bu və ya digər baxımdan mübahisə etmək olar. Lakin məqalədə müəlliflərin belə bir nəticəsi bizi qane edir ki, "biliyin müxtəlif növlərə malik olması və bunların təlim prosesində müxtəlif funksiyalar daşımasına baxmayaraq, onlar bir-biri ilə ayrılmaz daxili əlaqədə olub dialektik vəhdət, vahid bir sistem təşkil edir". "Bilik" anlayışının həm fəlsəfi, həm də pedaqoji aspektlərini əsaslı surətdə təhlil edən müəlliflər haqlı olaraq qeyd edirlər ki,"qnoseologiyanın mühüm bir kateqoriyası olan biliyin ümumi, fəlsəfi anlamını bunun pedaqoji aspektlərini bir-birindən təcrid etmək də, bunları bir-birinə qarşı qoymaq da səhvdir" [11, s. 21-22].

Biliyin verilmə üsulları pedaqogika elminin inkişafı gedişində dəyişikliklərə məruz qalmışdır. Xarakterik cəhət budur ki, bu dəyişikliyin metodoloji əsası da məhz idrak nəzəriyyəsində yeri olan prinsiplərdir. Bu prosesin aşağıda göstərilən üç inkişaf mərhələsini fərqləndirmək olar: əvvəllər şagirdlərə biliklər şifahi formada təqdim olunurdu(təlim əməyindən ayrılmış şəkildə), bu zaman doğmatik təlim aparıcı mövqedə idi; sonralar fəaliyyət üsulları haqqında biliklərin verilməsinə və xüsusi qaydada onların tətbiqinə yer verildi; nəhayət, fəaliyyətin nəticəsi kimi biliyin əldə olunması məqsədəuyğun hesab edildi. Fəaliyyətdə olan nəzəriyyə "əvvəlcə hər hansı mənimsəmə, sonra isə tətbiq" öz yerini daha əsaslandırılmış nəzəriyyəyə verməli oldu: "anlayışı mənimsəmə yalnız onun tətbiqi prosesində həyata keçir" [13, s. 59]. Mənimsəmə və tətbiq vahid idrak prosesinin iki tərəfi kimi qəbul olundu.

İndi praktiklərə yaxşı məlumdur ki, proqramlaşdırılmış metod və vasitələrin, problemli öyrənmənin təlim prosesinə daxil edilməsi mənimsəmə ilə tətbiqin vahid halda birləşməsi üçün imkanları xeyli yaxşılaşdırır. Bu o deməkdir ki, düzgün metodoloji əsas təlimin müvəffəqiyyəti üçün vacib şərtdir.

Şagirdlərin idrak müstəqilliyinin və onların yaradıcı qabiliyyətlərinin inkişafı probleminin tədqiqi yaradıcılığın fəlsəfi nəzəriyyəsi ilə sıx bağlıdır. Bu problem öz növbəsində elmin inkişafı, elmi tədqiqatın məntiqinin dərki, yaradıcı prosesin xüsusiyyəti (o yaradıcılığın psixologiyasının inkişafı ilə bağlıdır), kibernetika, riyazi məntiq, evristik proqramlaşdırma, idrak nəzəriyyəsinin sonrakı inkişafı ilə şərtlənir. Heç şübhəsiz ki, müxtəlif təlim üsullarının, evristik və alqoritmik metodların tətbiqi müəllimdən yaradıcılıq qabiliyyəti, geniş dünyagörüşü xarakterli bilik tələb edir.

Psixologiya elmi sübut etmişdir ki, insan psixikası nəinki cisimlərin hazırda görünən, habelə onlardan kənarda olan surətlərinə əsaslanmaq qabiliyyətinə də malikdir. İnsan fəaliyyəti çox mürəkkəb və xüsusi bir prosesdir. O, sadəcə olaraq tələbatların ödənilməsi ilə deyil, məqsədin dərk olunması və ictimai təcrübə ilə şərtlənir. Məhz insanın qabaqlayıcı inikas fəaliyyətinin əsasında müvafiq məqsəd durur və özünün sonrakı fəaliyyətini ona şüurlu şəkildə tabe etdirir.

Fəlsəfi ədəbiyyatda təfəkkürün iki funksiyasından danışılır: birincisi, gerçəkliyin obyektlərinin adekvat əks olunması, ikincisi isə obyektiv aləmdə həqiqətdə mövcud olmayan, bu və ya digər cisim və hadisələrə adekvat olmayan obrazların yaradılmasıdır. Təfəkkürün hər iki funksiyası inikas anlayışının spesifik tərəfidir, bunun əsasında aktiv idrak durur.

Fəlsəfi ədəbiyyatda idrakın belə aktivliyi inikas-dəyişdirmə anlayışı ilə, şüurlu yaradıcılıq fəaliyyəti ilə bağlı şəkildə izah edilir[18 ], yəni insanın yaradıcılıq fəaliyyətinin təbiətinə filosoflar inikas-dəyişdirmə fəaliyyətinin nəticəsi kimi baxır. Belə ki, yaradıcılıq dəyişdirici inikasın zirvəsi, onun ali dərəcəsi sayılır. Bu fəaliyyətin nəticəsində daha yüksək bilik və fəaliyyət üsulları formalaşır.

V.H. Nəsirov və Ə.B. Məmmədov haqlı olaraq göstərirlər ki, dialektik təfəkkür axtarışlar təfəkkürü olub, bir tərəfdən empirik biliklə, digər tərəfdən isə kateqorial struktur ilə şərtlənən yaradıcı fəaliyyətdir. Mahiyyətin dialektik təfəkkür vasitəsi ilə aşkara çıxarılması o demək deyildir ki, bu prosesdə formal məntiqi təfəkkür formaları, əməliyyatları və üsulları iştirak etmir. Əksinə, formal-məntiqi vasitələr olmadan mahiyyət aşkar edilə bilməz. Lakin bu vasitələr də mahiyyətin aşkar edilməsi üçün kifayət deyil, burada aparıcı rol dialektik təfəkkürə, kateqorial təhlilə məxsusdur [8, s. 122]. Təfəkkürün müşahidələr əsasında ilkin təsəvvür, sadə təfəkkür əməliyyatları, ilkin ümumiləşdirmələr, mücərrəd təfəkkür, modelləşdirmə əməliyyatları, fərziyyələr və aksiomlar irəli sürmək, qanun və nəzəriyyələr formalaşdırmaq, təsdiq, sübut, əsaslandırmaq, tətbiqlər və s. hərəkətlərdən istifadə olunaraq mahiyyət aşkara çıxarılır.

Tədris prosesində müəllim tərəfindən diqqət mərkəzində saxlamaq gərəkdir ki, intellektual intuisiya ilə birlikdə kateqorial təhlil zəruri biliyə gətirib çıxaran vahid prosesin ayrılmaz tərkib hissəsidir. Nəzəri biliyin yaradılmasında kateqorial təhlilin rolu faktların kateqorial şəkildə ümumiləşdirilməsindən ibarətdir. Fakt öyrənilən predmetə aid olan empirik bilik, kateqoriya isə ümumiliyə malik olub gerçəkliyin müəyyən sahəsinə daxil olan bütün predmetlərə aid nəzəri biliklərdir [8, s. 123]. Kateqoriya təfəkkürün forması, ideya isə nəzəriyyənin əsas anlayışıdır [11, 24]. İdrakda kateqoriya və faktların əlaqəsi intellektual intuisiya vasitəsi ilə təmin edilir.

Yeri gəlmişkən qeyd edək ki, çoxmənalı olmasına baxmayaraq, intuisiya anlayışı əsasən həqiqəti bir dəfəyə aşkara çıxaran müstəqil bilik mənasında başa düşülür [14, s. 117]. İntuisiyanın iki növü hissi intuisiya (bilavasitə hissi bilik) və intellektual intuisiya(məsələn, həndəsi aksiomlar) bir-birindən fərqləndirilir. İntiusiyanın bundan əlavə evristik növü də məlumdur ki, bu da gözlənilməz kəşflər üçün zəruri olan həllin tapılması və s. formada təzahür edir.

Təlim prosesində şagirdlərin idrak fəaliyyətinin idarə olunması və əqli qabiliyyətlərinin inkişafı yalnız o şərtlə mümkündür ki, təfəkkür prosesinin qanunauyğunluqları daim nəzərə alınsın. Bu həm əqli fəaliyyətin növlərinə, həm də onların strukturuna aiddir. Onlar konkret situasiyada yaddaş və təfəkkürün müxtəlif münasibətləri ilə bağlıdır.

Filosof və psixoloqların tədqiqatları əsasında da müəyyənləşdirilmişdir ki, problem həlli zamanı yeni biliklərin mövcud biliklər sisteminə daxil edilməsi və onun yenidən işlənməsi ilə bağlı insanın yaradıcı əqli fəaliyyəti iki növ (analitik və evristik) ola bilər.

Problem həlli zamanı əqli fəaliyyətin analitik növü həlli alqoritmlərinin, əqli əməliyyatların dəqiq ardıcıllığının mövcudluğu ilə bağlıdır. Bu növdə fikri fəaliyyət məntiqi təfəkkürün bütün qa-

nunları üzrə baş verir. Şagirdin evristik fəaliyyətinin əsasında onun intuitiv təfəkkürü durur. Evristik priyomlar daha çox o zaman tətbiq olunur ki, həllin alqoritmi məlum olmasın. Hətta alqoritmlərin məlum olduğu halda belə, evristik priyomların tətbiq olunması həll prosesini sürətləndirə bilir.

İnsan fəaliyyətinin cəhəti olan biliyin özünü də rasional və qeyri-rasional kateqoriyaları baxımından qiymətləndirmək olar. Öz təbiəti etibarilə bilik, bəşəriyyətin məqsəd və tələbatına cavab verən ideyalar yaratdığına görə məntiqi, qərarlaşmış olan məlum zəka formalarına uyğun gəlməsinə görə rasionaldır. Bununla birlikdə, o, çox halda, əvvəlcədən yaradılmış təfəkkür formalarından kənara çıxır, təkcə həmin təfəkkür formaları ilə izah edilə bilmir, yəni onda elə bir cəhət vardır ki, bu cəhət məntiqin özünün dəyişilməsi və onun cəbbəxanasının yeni təfəkkür formaları və kateqoriyaları hesabına zənginləşməsi yolu ilə aradan qaldırılır.

İdrakın inkişafının başlıca meyli olmaq etibarilə rasional iki formada – dərrakə və həqiqətən zəka formasında mövcuddur.

Dərrakəli fəaliyyət irəlicədən nəzərdə tutulmuş sxem üzrə, şablon əsasında, metodun özünü, onun hüdudlarını və imkanlarını dərk etmədən, fikir formaları və abstraktsiyalarla əməliyyat aparmaq deməkdir. Dərrakə tamı, vahidi bir-birinə qarşılıqlı surətdə nüfuz edən vəhdət halında əhatə edə bilmədiyindən, onları bir-birini istisna edən əks cəhətlərə bölür. Dərrakənin xüsusiyyətləri alqoritm, qayda timsalında ən parlaq şəkildə nəzərə çarpır ki, buna müvafiq olaraq, məsələn, bu və ya digər hesablama prosesi yerinə yetirilir və həmin hesablama prosesi üçün aşağıdakı ciddi bir müəyyənlik səciyyəvidir: hesablama prosesinin hər bir mərhələsi özündən sonra gələn mərhələni müəyyən edir, prosesin özü ayrı-ayrı addımlara bölünür, göstəriş isə simvolların kombinasiyası şəklində verilir. Dərrakənin fəaliyyət göstərməsi nəzəri təfəkkür üçün zəruridir. Lakin insan təfəkkürünün səciyyəvi xüsusiyyətini dərrakə deyil, məhz zəka ifadə edir. Zəka, məzmunu və təbiəti dərk olunan anlayışlarla əməliyyat aparır, zəkanın köməyi ilə hadisələr, proseslər yaradıcı fəallıqla, məqsədyönlüklə əks olunur. İnsanın zəkası təşəkkül tapmış bilik sistemi hüdudlarından kənara çıxmağa, yeni sistem yaratmağa çalışır. Əgər dərrakə üçün səciyyəvi olan analizdirsə, zəka üçün ən yüksək insan qabiliyyəti səviyyəsinə çatdırılmış sintezdir. İnsan biliyi dərrakədən və zəkadan ibarət fəaliyyətin vəhdətidir ki, həmin fəaliyyətlə obyektiv reallıq dərk olunur və rasional surətdə dəyişdirilməsi yolları müəyyən edilir.

Əlbəttə, yaradıcılığın bütün sirləri, onun qanunauyğunluqları, mexanizmi hələlik tam, axıra qədər öyrənilməmişdir. Lakin bununla belə elmi idrakın nəticələri kimi biliklərin sistemi, onların inkişaf məntiqi haqqında kifayət qədər məlumatımız vardır. Təlim prosesində idrakın formalarının xüsusiyyətlərini, qarşılıqlı əlaqələrini bilmək və bunlardan məqsədəuyğun şəkildə istifadə etmək zəruridir. Bu zəruriliyin bir sıra vəhdət təşkil edən səbəbləri vardır. Birincisi, bu və ya digər tədris fənninin məzmununu təşkil edən bilik və fəaliyyət üsulları müəyyən formalarda təqdim olunur. İkincisi, idrakın müəyyən metod və formalarından istifadə edilərək həmin bilik və fəaliyyət üsulları (tədris fənnin məzmununu təşkil edən ) əldə olunmuşdur. Üçüncüsü, hər bir formanın spesifik xüsusiyyətlərini, idrakın strukturunda həmin elementin yerini və funksiyasını bilməklə, təlim prosesində onun əldə olunması məqsədi ilə şagirdlərin idrak fəaliyyətlərini tənzimləmək mümkündür. Biliyin formasından asılı olaraq onun əldə olunmasına yönələn əqli fəaliyyətin analitik (alqoritmik) və evristik cəhətlərinin münasibətini dürüstləşdirmək mümkündür.

Odur ki, elmi idrakın müxtəlif formalarının təlim prosesinin təşkil və idarə olunması baxımından vacib olan bəzi cəhətlərini nəzərdən keçirməyi, müəyyən mənada haşiyə çıxmağı lazım bilirik.

Məlumdur ki, həm elmi tədqiqatın, həm də təlimin zəruri şərtlərindən biri qazanılmış biliklərin sistemləşdirilməsidir və bu problemlə sıx bağlı olan məsələdir. Problem biliksizlikdən biliyə keçid mərhələsidir. Problem biliyin empirikdən nəzəriyyəyə zəruri hərəkətini ehtiva edir.

Problem məsələnin toplanmış bilikdə cavabı olmayan və buna görə də sadə informasiya axtarışlarından fərqlənən müvafiq praktiki və nəzəri fəaliyyət tələb edən növüdür [15; 21-22] Məsələ problemin təmərküzləşmiş ifadəsi, onun düyün nöqtəsidir [16, 80]. Qnoseologiyanın mərkəzi anlayışlarından olub, elmdə mühüm rol oynayan ideya öz mənası etibarilə məntiqi təfəkkürün anlayış formasına daha yaxındır. İdeya ilə anlayışın əsas fərqi bunlardır ki, hər bir ideya anlayış olduğu halda, heç də hər cür anlayış ideya deyildir. Yalnız əsasında müəyyən biliklərin

sintez olunduğu və bilik sisteminin yarandığı anlayış ideya rolunu oynaya bilər. İdeya nəzəriyyənin elementi, onun əsasıdır, nəzəriyyə isə artıq inkişaf edib formalaşmış ideyadır.

Nəzəriyyənin ideyadan fərqi bundadır ki, nəzəriyyə həm ideyanı, həm də ondan törəyən bütün digər anlayışları ehtiva edir. İdeyanın nəzəriyyənin strukturuna daxil olan digər anlayışlardan məzmun fərqinə gəldikdə isə o, bundan ibarətdir: İdeya nəzəriyyənin əsasını təşkil edən mühüm qanunauyğunluğu əks etdirdiyi halda, həmin nəzəriyyənin məzmununa daxil olan anlayışlar bu qanunauyğunluğu yalnız qismən, natamam şəkildə, başqa sözlə, onun ancaq mühüm tərəf və aspektini əks etdirirlər.

İdeya, əvvəla empirik bilikdə verilməsi mümkün olmayan mahiyyəti əks etdirir, ikincisi, ideya əsasında predmet və hadisələr haqqında qazanılmış biliklərin yüksək sintezinə nail olunur və nəzəriyyə yaradılır. İdeya gerçəkliyin inikasıdır. İdeyanın təşəkkül prosesi dialektik təfəkkürün yaradıcı xarakterinin təzahürüdür. İdeya - yüksək obyektivlik, dolğunluq və konkretlik dərəcəsinə yüksəlmiş və eyni zamanda praktik olaraq həyata keçirilməyə istiqamətləndirilmiş fikrə deyilir.

İdeya yalnız anlayışla deyil, habelə biliyin digər forması olan prinsiplə də əlaqədardır. Bu əlaqə özünü belə bir cəhətdə göstərir ki, həm ideya, həm də prinsip nəzəriyyənin yalnız əsası olmayıb, habelə onun sərhədləridir. İdeyalarla münasibətdə prinsip ideyanın abstrakt ifadəsidir. İdeya prinsipə nisbətən məzmun genişliyinə malikdir. Nəzəriyyənin əsasını bir ideya təşkil etdiyi halda, nəzəriyyəni ifadə edən prinsiplər bir neçə ola bilər [8, s. 123-124].

İdeya və prinsip kimi qanun da elmi idrakın mühüm formalarından olub, hadisələrin obyektiv, ümumi, mühüm zəruri, nisbi sabit və təkrarlanan əlaqə və münasibətlərini əks etdirir.

Gerçəkliyin müxtəlif sahələrində təsir göstərən qanunların kəşf və formula edilməsi elmi idrakın əsas formalarından olan hipotezaların yaradılması üçün mühüm əhəmiyyət kəsb edir. Hipoteza hər hansı hadisənin səbəbini izah edən, lakin hazırkı zamanda səhihliyi hələ sübut olunmamış elmi fərziyyədir. Nəzəriyyə dedikdə bu və ya digər predmet sahəsinin mühüm, başqa sözlə qanunauyğun, ümumi və zəruri daxili əlaqələrini əks etdirən, öz aralarında məntiqi surətdə əlaqələnən fərziyyələrin müəyyən sistemi kimi mövcud olan həqiqi bilik nəzərdə tutulur [17, s. 167-168].

Şübhə yoxdur ki, şagirdlərin təlim fəaliyyətləri, onların yaradıcı qabiliyyətləri və müstəqilliyinin formalaşmasının məqsədyönlü şəkildə istiqamətlənməsi elmi biliklərin sistemi və onların inkişaf məntiqini nəzərə almağı tələb edir. Bu prosesdən isə onların alqoritmik və evristik fəaliyyətləri müəyyən nisbətdə çıxış edir, funksiya yerinə yetirir. Məhz bu nisbəti müəyyənləşdirərkən elmi idrakın bu və ya digər formasının xüsusiyyətləri əsas kimi götürülür, müəllimin idarəetmə fəaliyyəti özünə istiqamət müəyyən edir. Burada idarə edənin qarşısında iki mühüm vəzifə durur: 1)qarşıya qoyulmuş məqsədə uyğun olaraq, hər bir şagirdin əqli fəaliyyətində alqoritmik və evristik növlərin yerini dürüstləşdirmək; 2) analitik və yaxud evristik növlü əqli fəaliyyətin strukturuna uyğun olaraq, formal və dialektik məntiqin forma və metodlarından (təlim materialının xüsusiyyətlərinə və şagirdlərin imkanlarına uyğun) istifadənin mexanizmini müəyyənləşdirmək. Belə məntiqi əsaslarla idarə olunan prosesdə şagirdin yaradıcılıq fəaliyyətinə cəlb olunmasına əlverişli imkan yaranır. Başqa sözlə, burada göstərilən əsaslarla idarə olunan proses şagirdə elmi idrakda tətbiq olunan metodlardan müəllimin rəhbərliyi altında istifadə imkanı verir, onun yaradıcılıq təcrübəsinə, əqli fəaliyyətinin alqoritmik, analitik və evristik növlərinin qarşılıqlı əlaqədə, vəhdətdə inkişafına səbəb olur.

Biz belə hesab edirik ki, fəlsəfi anlayışlardan bu və ya digər səviyyədə təlim prosesinin və onun idarə olunması problemlərinin tədqiqində istifadə edilməsi o zaman müvəffəqiyyətli ola bilər ki, bu məsələyə məntiq, psixologiya və pedaqogika birlikdə baxsın, onlar bu elmlərin müvafiq nəticələri ilə uzlaşsın. Bu uzlaşmanın özü qnoseologiyanın, dialektikanın qanun və kateqoriyalarının məntiq, psixologiya və pedaqogikada metodoloji rolu ilə bilavasitə bağlıdır. Lakin təlim prosesinin idarə edilməsinin özünəməxsus nisbi müstəqilliyə malik olan məntiqi, psixoloji əsasları da vardır.

**Tədqiqatın elmi yeniliyi.** IV sənaye inqilabının çağrışlarına uyğun bərqərar olan gerçəklikdə təhsilin həyata keçirilmə yolunun emercent əlamətinin təhsilalanmərkəzli sistem olması ideyası irəli sürülmüş, onun nəzəri və texnoloji əsaslarının işlənilməsinin zəruriliyi diqqət mərkəzinə çəkilmiş və sözügedən təlim sisteminin fəlsəfi-metodoloji əsaslarının interpretasiyası verilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** IV sənaye inqilabının çağırışlarına uyğun bərqərar olan gerçəklikdə təhsilin həyata keçirilmə yolunun emercent əlamətinin təhsilalanmərkəzli sistem olması ideyası 1)daha mükəmməl təlim sisteminin nəzəri və texnoloji əsaslarının tədqiqatına və aşkarlanması prosesinə yön verir, 2) təhsilverənlərin praktiki fəaliyyətlərində məqsəd aydınlığına, səmərəli nəticələri hədəfləyən metodik sistemin formalaşdırılması prosesində yanlışlıqların azalmasına səbəb olur.

***Nəticə***. 1. Mükəmməl təlim sisteminin nəzəri və praktik əsaslarının işlənilməsi didaktikanın mərkəzi problemidir, daha səmərəli nəticələri hədəfləyən didaktik sistemlərin axtarışı zəruri və davamlı prosesdir; 2. Təhsilin həyata keçirilməsinin mühüm yolu kimi dərk olunan "mükəmməl təlim prosesi" IV sənaye inqilabının çağırışlarına uyğun bacarıqların formalaşmasını şərtləndirən təhsilalanmərkəzli emercent təbiəti ilə mövcud sistem kimi interpretasiya olunmalıdır; 3. Təlim prosesinin idarə olunması üçün elmin və praktikanın nailiyyətləri ilə ayaqlaşan elmi fəlsəfənin nəzəri-metodoloji əhəmiyyəti olduqca böyükdür və bu prosesində şagirdlərin idrak fəaliyyətinin idarə olunması, əqli qabiliyyətlərinin inkişafı yalnız o şərtlə mümkündür ki, təfəkkür prosesinin qanunauyğunluqları, elmi idrakın forma və metodlarının xüsusiyyətləri və dialektik əlaqələri daim nəzərə alınsın; 4. Təlim prosesinin idarə olunmasına öz-özlüyündə idrak məsələsi kimi baxmaq məntiqidir; 5. Təlim prosesində səmərəli nəticələrin reallaşdırılması üçün praktik pedaqoq tərəfindən idarəetmə fəaliyyətinin müəyyənləşdirilməsində gerçəkliyin dərk olunması və dəyişdirilməsi metodları haqqında dialektika və idrak nəzəriyyəsinin tərkibləri kimi ehtiva olunan komponentlərə istinad edilməsi məqsədəuyğundur və bu "imkandaşıyıcı komponentlər"i özündə saxlayan fikrin hərəkət forması həmin prosesinin idarə olunmasının metodoloji əsası kimi dəyərləndirilməlidir.

**Ədəbiyyat**


1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.
2. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri /Ə.Ə. Əlizadə. - Bakı: Pedaqogika, -2004. – 432 s.
3. Əkbərov, M.S. Bilik haqqında nə bilirik?// Azərbaycan müəllimi. -1983, 13 və 20 may. – s. 4
4. Qaralov, Z.İ. Fizika qanunlarının tədrisi / Z.İ. Qaralov. - Bakı: Elm, - 1997. – 348 s.
5. Kazımov, N.M. Pedaqogika: Pedaqoji İnstitut və universitet tələbələri üçün dərslik / N.M. Kazımov, Ə.Ş. Həşimov. - Bakı: Maarif, - 1996. – 415 s.
6. Mirzəcanzadə, A.X. İxtisasa giriş / A.X. Mirzəcanzadə. - Bakı: BDU nəşriyyatı, - 1990. – 368 s.
7. Metodika və Pedaqogika. Yenilənmiş çərçivə sənədi əsasında(Vəsait) / Maksimim Tədris mərkəzi, - 2024. -181 s.
8. Nəsirov, V.H. Elmi idrakın metod və formaları / V.N. Nəsirov, Ə.B. Məmmədov, - Bakı: Maarif , - 1980. – 148 s.
9. İbrahimov, F.N. Pedaqogika [2 cilddə] (Dərslik). / F.N. İbrahimov, R.L. Hüseynzadə. - Bakı: Mütərcim, - c.1. – 2013. 708 s.
10. İbrahimov, F.N. Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər / - Bakı: Mütərcim , -1998. – 398 s.
11. İbrahimov, F.N. Təlimin dərk edilməsinə "sistem-struktur" baxımından yanaşma / -Bakı: Mütərcim , - 1999. – s. 172.
12. Махмутов, М.И. Теория и практика проблемного обучения / М.И. Махмутов. - Казань, Татарское книжное издательство, -1972. - 555 с.
13. Радионов, И.К. О природе интуиции.Сб.: Проблемы отражения и современная наука / И.К. Радионов - М.: МГУ, - 1967. – 289 с.
14. Крымски, З.С. Научная проблема. Сб.: Логика научного исследования / З.С. Крымски. - М.: Мысль, - 1973. – 203 с.
15. Копнин, П.В. Диалектика как логика и теории / П.В. Копнин. - М.: Наука, - 1973. – 315 с.
16. Штофф, В.А. Введение и методологию научного познания / В. А. Штофф. - Л.:ЛГУ, - 1972. - 243 с.
17. Якиманская, И.С. Советская педагогика: Образное мышление и его место в обучении / И.С. Якиманская . - 1968, № 2. -165 с.


**Redaksiyaya daxil olub:** 08.04.2025.

*UOT 37.1.*

***Тельман Гамзага оглу Джафаров***
*профессор Бакинского славянского университета,*
*доктор филологических наук*
*https://orcid.org/0000-0002-4429-654X*
*E-mail: telmanjafarov.h.@bsu-edu.uni.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).63-67*

# НЕОБХОДИМЫ СТАНДАРТИЗАЦИЯ ДВУЯЗЫЧНОГО И МНОГОЯЗЫЧНОГО ОБУЧЕНИЯ И ПРИНЯТИЕ СООТВЕТСТВУЮЩЕЙ КОНЦЕПЦИИ

***Telman Həmzağa oğlu Cəfərov***
*Bakı Slavyan Universitetinin professoru,*
*filologiya elmləri doktoru*

# İKİDİLLİ VƏ ÇOXDİLLİ TƏLİMİN STANDARTLAŞDIRILMASI VƏ MÜVAFİQ KONSEPSİYANIN QƏBULU VACİBDİR

***Telman Gamzagha Jafarov***
*professor of the Baku Slavic University*
*doctor of philological sciences*

# STANDARDIZATION OF BILINGUAL AND MULTILINGUAL EDUCATION AND THE ADOPTION OF AN APPROPRIATE CONCEPT ARE NEEDED

**Аннотация.** Изложенные мысли и аргументы исходят из учебных реалий нашей страны. Сама учебная практика и языковая ситуация подсказывают необходимость комплексного решения поднимаемой здесь проблемы применения билингвальной модели обучения, отказа от прежних стандартов и практики усвоения языков, а также определения их статуса в качестве учебных языков в дошкольных, общеобразовательных и высших учебных заведениях.

Исходя из наших наблюдений, из опыта стран ближнего зарубежья, анализа учебной ситуации в классах с негосударственными языками обучения, мы пришли к выводу о том, что прежде чем перейти к двуязычному и полиязычному образованию в нашей республике, необходимо подготовить 1) законодательную базу; 2) соответствующую концепцию и стандарты обучения; 3) учебные планы и учебные ресурсы.

***Ключевые слова:*** *учебная практика, учебные реалии нашей страны, опыт соседних стран, концепция и стандарты*

**Xülasə**. Məqalədə yer alan fikir və dəlillər ölkəmizin təhsil reallıqlarından irəli gəlir. Tədris praktikası və dil situasiyası bilinqval təlim modelinin tətbiqi ilə bağlı problemin kompleks şəkildə həllini, ölkəmizdə dillərin öyrədilməsində mövcud olan təcrübədən imtina olunmasını və tədris dili kimi onların statusunun dəyişdirilməsini aktuallaşdırır.

Öz müşahidələrimizdən, yaxın qonşu ölkələrin təcrübəsindən, qeyri-dövlət dillərində tədris situasiyasının təhlilindən çıxış edərək, o nəticəyə gəlmişik ki, respublikamızda ikidilli və çoxdilli təlimə keçid üçün 1) lazımi qanunvericilik bazasını; 2) müvafiq konsepsiya və standartları; 3) tədris planları və tədris resurslarını hazırlamaq vacibdir.

***Açar sözlər***: *tədris praktikası, ölkəmizin təhsil reallıqları, qonşu ölkələrin təcrübəsi, konsepsiya və standartlar*

**Abstract**. The thoughts and arguments outlined in the article are based on the educational realities of our country. The educational practice itself and the language situation suggest the need for a comprehensive solution to the problem raised here of applying a bilingual learning model, abandoning previous standards and practices of language acquisition, as well as determining their status as teaching languages in preschool, general education and higher education institutions.

Based on our observations, from the experience of neighboring countries, and an analysis of the educational situation in classrooms with non-state languages of training, we came to the conclusion that before switching to bilingual and multilingual education in our republic, it is necessary to prepare 1) a legislative framework; 2) an appropriate concept and standards of training; 3) curricula and educational resources.

***Keywords**: educational practice, educational realities of our country, the experience of neighboring countries, concept and standards.*

Изложенные ниже мысли и аргументы исходят из учебных реалий нашей страны. Сама учебная практика и языковая ситуация подсказывают необходимость комплексного решения поднимаемой здесь проблемы применения билингвальной модели обучения, отказа от прежних стандартов и практики усвоения языков, а также определения их статуса в качестве учебных языков в дошкольных, общеобразовательных и высших учебных заведениях. Это продиктовано требованиями международного рынка труда, применением высоких технологий и искусственного интеллекта, новыми геополитическими условиями, развитием культурологии и других смежных наук, служащих изучению и пропаганде национальных языков и культур в общении с мировыми языками и культурами отдельных регионов и стран.

- Ранний детский возраст, дошкольный и школьный периоды жизни являются самым оптимальным этапом усвоения родного и иностранных языков. Любое дошкольное учебное учреждение, начальная и средняя школа являются самым удобным и удачным образовательным пространством для развития и укрепления речевых навыков, устной и письменной речи детей, формирования в них умения и культуры общения.

- В средней школе, в зависимости от географического расположения, людских ресурсов и традиционных отношений страны с окружающими её регионами и странами, наряду с государственным языком необходимо интенсивное обучение как минимум двум иностранным языкам. При формировании классов с углублённым изучением отдельных школьных предметов в средней школе желательно внедрение полилингвального обучения.

- Современные универсальные гуманитарные направления, такие как культурология, регионоведение, переводоведение, компаративистика, сравнительное языкознание, мультикультурализм и другие смежные науки, базирующиеся на них специальности и специализации вне зависимости от страны, являются базой билингвального и полилингвального обучения молодежи, расширяют возможность наиболее полного овладевания своей профессией или специальностью. Благодаря би- и полилингвальной учебной среде, предметы и курсы можно презентовать и применять, как минимум, на трех языках. Необходимость усвоения и применения государственного и международных языков в качестве учебных языков указанных специальностей в вузах любой страны определяются Рамками Национальной квалификации [1].

- Страны с этническим и национальным многообразием, объявившие в своей Конституции, в Законе об образовании государственный язык, т.е., язык титульной нации языком обучения, в случае предоставления другим языкам возможности организации на них учебного процесса, решают его организационные, учебно-методические вопросы, проблемы кадрового обеспечения и занятости на рынке труда.

- Как показывает опыт, будучи серьёзной мотивацией для овладевания учебными предметами, получения высокой квалификации, продолжения учебной карьеры и профессионального роста, двуязычие и многоязычие должны быть мотивированы реалиями жизни и дистанцироваться от всякой идеологии и политической пропаганды, способствовать глубокому изучению и усвоению культурных ценностей, высоким достижениям науки и техническому прогрессу изучаемых народов и стран.

- Двуязычие и многоязычие возможны только в тех учебных условиях, когда ответственные за образование и науку в стране исполнительные структуры предлагают для всех этапов и уровней обучения 1) соответствующие учебные стандарты; 2) учебные планы; 3) учебные ресурсы; 4) необходимую учебно-производственную базу обучения профессии; 5) научно-методическое, кадровое, техническое обеспечение учебного процесса;

6) обмен студентами и специалистами между странами, на чьих языках готовятся специалисты, осуществляются проекты двойных дипломов; 7) повышение квалификации и переквалификацию через систему непрерывных мер по дополнительному образованию и др.

В городах Баку, Сумгаите и Гяндже, в ряде районных центров Азербайджана преобладают дошкольные образовательные учреждения, предпочитающие билингвальную или полилингвальную модель обучения. Это, прежде всего, связано с языковой ситуацией и особенностями внутреннего и внешнего рынков труда. В то же время наряду с государственным языком, родители руководствуются перспективами общеобразовательного обучения на русском, английском и турецком языках. Так как многие дошкольные детские учреждения к билингвальной и полилингвальной моделям обучения обращаются в обход своим учебным планам, в форме курсов и дополнительных занятий, трудно дать точную статистику о численности привлеченных к этой модели обучения дошкольников и языковых способностей детей дошкольного возраста. Однако согласно Конституции республики, Законам об образовании и об общем образовании ежегодно тысяча детей проходят собеседование на знание языка будущего обучения. В государственных школах функционируют классы с азербайджанским, русским и грузинскими языками обучения. Классы с английским языком обучения организуются только в частных общеобразовательных учреждениях, а с турецким языком обучения в турецких лицеях. Дети для обучения в этих классах проходят дошкольную подготовку согласно специфике обучения и учебным программам.

Языковая ситуация в вузах усугубляется тем, что, выбирая язык специальности и специализации, абитуриенты поступают в университеты без сдачи экзамена на знание языка будущей специальности, что, конечно же, отражается на качестве их подготовки. Несмотря на широкое обсуждение проблемы, серьёзный общественный резонанс, при поступлении в вузы язык обучения определяется некорректно: окончившие школу на азербайджанском или русском языках порой не имеют возможности овладеть языком своей специальности и получить качественную подготовку по ряду специальностей и специализаций. То есть неопределённость в выборе языка обучения и специальности имеет нежелательные последствия для подготовки высококвалифицированных специалистов. Еще одной явной проблемой подготовки специалистов в так называемых русском и английском секторах обучения выступает отсутствие специалистов со знанием языка специальности. Меня, как преподавателя и организатора учебного процесса, в данной учебной ситуации всегда беспокоили не идеологические и политические предпосылки и обстоятельства организации процесса обучения, а вопросы обеспечения качества подготовки специалистов.

Как социальный заказ и элемент международной жизни двуязычие и многоязычие сегодня стали предметом обсуждения и исследования, в основном, в двух аспектах: 1) в социально-политическом, как последствие миграционных и демографических процессов и 2) в лингвистическом и методическом, как языковая ситуация, языковое разнообразие, проблема коммуникации и межкультурного общения в многоэтнических социальных группах. К сожалению, основной аспект проблемы языковой ситуации в обществе, в учебной среде всегда остаётся вне поля зрения. Причина этому, как нам кажется, зиждется в идеологических настроениях обществ и микро- и макросоциальных групп. Языковая ситуация в обществах редко обсуждается даже в признанных международных гуманитарных организациях и миссиях. Как нам кажется, все наши проблемы вокруг обострения международных отношений в мире, социального напряжения внутри общества связаны с недопониманием людей, отдельных народов друг друга, неприятием чужого мнения, скептическим отношением к чужим культурам, инакомыслием. Хотя во всех образовательных стандартах особо подчёркивается привитие детям и молодёжи культуры общения, диалога, толерантности и т.д.

Считаем, что законодательная база Азербайджана, языковая политика страны создали благоприятные условия для обеспечения учебных потребностей и для сохранения и изучения культуры этнических мень-

шинств, а также для углубленного изучения и применения международных языков [2; 3]. В то же время, на данном этапе ощущается отсутствие конкретных учебных стандартов и программ по внедрению билингвальной и полилингвальной моделей обучения в дошкольных, средних и высших учебных заведениях республики, что приводит к неопределённости и хаотичности в их применении, снижает эффективность и качество учебы. Понятно, что это заграждает путь и к созданию системных учебных ресурсов для привития знаний, навыков, умений и компетенций в соответствии со стандартами. Эта ситуация взаимосвязана с другой немаловажной проблемой – учебным графиком и стандартами обучения иностранным языкам в школах. На сегодняшний день 10% всех учащихся в стране получают среднее образование в классах с русским, до 1% детей – с английским и турецким языками обучения, т.е. в классах с так называемым негосударственными языками обучения. 90% учащихся заняты в школах и классах с государственным языком обучения, где изучению основного иностранного языка в начальных классах отводится 1 час, в средних и старших классах 2-3 часа в неделю с разделением на подгруппы. Изучение второго иностранного языка стартует с пятого класса; 1 час в неделю с разделением на подгруппы. Как заметно, учащиеся с негосударственными языками, в частности, с русским языком обучения имеют больше возможностей для овладения иностранными языками. Учитывая, что они (99% детей из азербайджанских семей) уже с первого класса начинают интенсивное усвоение и государственного языка, их шансы на знание языков заметно увеличиваются. Но в данном случае речь идёт только о 10% учащихся. Получается, что азербайджанская школа, как и в советские годы, не дает детям полной возможности изучать иностранные языки в рамках учебной программы.

Предложенная нами система билингвального (полингвального) обучения в классах с негосударственным языком обучения, где государственный язык также выступает учебным языком, намного эффективней: *во-первых*, в плане сохранения учебной деятельности на иностранных языках; *во вторых*, для расширения этого опыта в классах с государственным языком обучения, в результате чего билингвальным обучением могут быть охвачены не 160 тысяч детей, а 1 миллион 670 тысяч детей. Приказом министра науки и образования билингвальное обучение в классах с русским языком обучения было применено в течение последних двух лет в форме проекта сначала в 20-ти, а потом во 100 школах. А с этого года по всей республике с пятого класса внедряется изучение истории Азербайджана на азербайджанском языке, что позволяет рассматривать данную учебную ситуацию как билингвальную. Предполагается изучение национальной литературы также на государственном языке. К сожалению, это учебная ситуация пока официально не получила статус билингвальной, т.е. не имеет четких стандартов, что лишает возможности детей и их учителей иметь под рукой соответствующие учебные ресурсы. На наш взгляд, 1) пора в соответствии с законодательством обозначить эти классы как билингвальные и перестать называть их классами с негосударственными языками обучения; 2) эта система может быть намного эффективной, если применение билингвального обучения начать с I класса, т.е. обучать государственному языку как и другому языку обучения по стандартам слушания и понимания, речи и письма; 3) историю и литературу Азербайджана целесообразно включить в учебный план как самостоятельные предметы. При этом тексты по темам должны быть адаптированы и соответствовать языковому уровню учащихся. Необходимо также выработать систему предтекстовой и послетекстовой работы.

Вторым немаловажным шагом может стать пересмотр отношения к стандартам обучения иностранным языкам в классах и школах с государственным языком обучения: с 1-го по 11-й классы обучение основному иностранному языку (чаще английскому) в объёме 3-4-х часов в неделю с разделением классов на подгруппы, с 5-го по 11-й классы – второму иностранному языку (почти во всех школах русскому) в объёме 2-3-х часов в неделю с разделением классов на подгруппы. Это создаст реальную возможность для интенсивного изучения иностран-

ных языков в школах всей республики. В связи с переходом на углубленное изучение отдельных школьных предметов на уровне среднего образования желательно применение полилингвальной модели обучения, сохраняя обучение второму иностранному языку в объеме тех же часов. Об эффективности этой модели обучения свидетельствуют опыт и исследования казахстанских ученых-лингвистов и методистов. [4] Считаем, что концепция полиязычного образования в системе среднего образования дружеской страны приемлема не только в системе среднего, но и высшего образования нашей республики: «Полиязычное образование – единственный способ подготовить конкурентоспособное поколение, владеющее несколькими языками, свободно коммуницирующее в любой языковой среде, способное найти свое место в поликультурном обществе» [5].

В Концепции полиязычного образования Республики Казахстан хотелось бы выделить два момента, которые послужили бы примером для тех, кто сомневается в успешности применения двуязычия и полиязычия: 1) в 1-м и 2-м классах начальной школы казахский и русский изучаются как языки обучения, иностранный язык включается в учебные планы, начиная с 3-го класса; 2) в вузах готовятся учителя по всем предметам специально для двуязычных и полиязычных классов.

Некоторые другие проблемы и специфика применения билингвальной модели обучения в Азербайджане освещены нами в предыдущих работах. Исходя из наших наблюдений, из опыта стран ближнего зарубежья, анализа учебной ситуации в классах с негосударственными языками обучения, мы пришли к выводу о том, что прежде чем перейти к двуязычному и полиязычному образованию в нашей республике, необходимо подготовить 1) законодательную базу; 2) соответствующую концепцию и стандарты обучения; 3) учебные планы и учебные ресурсы.

**Актуальность проблемы** обусловлена необходимостью применения билингвальной и полилингвальной моделей обучения в Азербайджане.

**Новизна проблемы** связана с обоснованием необходимости подготовки и утверждения Концепции по внедрению двуязычия и многоязычия в образовательной системе республики, стандартизацией указанных моделей образования, а также пересмотра графика и стандартов обучения иностранным языкам в общеобразовательных учреждениях страны.

**Практическое значение проблемы** продиктовано учебными реалиями и условиями рынка труда республики, а также требованиями Рамок Национальной квалификации для отдельных ступеней и уровней образования.

## Литература


1. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi: [Elektron mənbə] / URL: https://e-qanun.az/framework/39622
2. Закон Азербайджанской Республики об образовании: [Электронный ресурс] / URL: https://base.spinform.ru/show_doc.fwx?rgn=29005
3. Закон Азербайджанской Республики об общем образовании https://base.spinform.ru/show_red.fwx?rid=98569
4. Альжанова А.О., Негманова Д.А. Полиязычное образование в Казахстане: особенности и перспективы: [Электронный ресурс] / URL: file:///C:/Users/user/Downloads/poliyazychnoe-obrazovanie-v-kazahstane-osobennosti-i-perspektivy.pdf
5. Концепция полиязычного образования, Астана, 2022, 41 с.: [Электронный ресурс] / URL: https://uba.edu.kz/storage/app/media/40%2040% 2040% 20%20%20% 20RRRRRRRRR.pdf
6. Джафаров Т.Г. О возможностях и преимуществах применения билингвальной модели обучения в школах Азербайджана // – Bakı: Mütərcim, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri – 2024. №1, – s.362-366.
7. Джафаров Т.Г. Проблемы создания учебников и организации обучения в двуязычном образовании: [Электронный ресурс] / URL: https://www.as-journal.edu.az/en/problems-of-textbook-creation-and-teaching-organization-in-bilingual-education
8. Jafarov T. On the possibilities and advantages of using a bilingual education model in Azerbaijani schools: [Electronic resorse] URL: https://zenodo.org/records/13842688.


**Redaksiyaya daxil olub:** 07.04.2025.

***İBTİDAİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ***
***АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ***
***ACTUAL PROBLEMS OF PRIMARY EDUCATION***

*UOT 37.1*

***Reyhan Tapdıq qızı Hacızadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-2287-2905*
*E-mail: reyhan.hacizad@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).68-71*

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİ ZAMANI İDRAK FƏALLIĞININ İNKİŞAFI

***Рейхан Тапдыг гызы Гаджизаде***
*преподаватель Азербайджанского Государственного*
*Педагогического Университета,*
*доктор философии по педагогике*

# РАЗВИТИЕ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ПРИ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ УЧАЩИХСЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Reyhan Tapdig Hajizade***
*teacher at the Azerbaijan State Pedagogical University,*
*doctor of philosopy in pedagogy*

# INDEPENDENT WORK OF PRIMARY SCHOOL STUDENTS DEVELOPMENT OF COGNITIVE ACTIVITIES IN THE ORGANIZATION

**Xülasə.** Məqalədə məktəblərimizin ibtidai sinif şagirdlərinin müstəqil işlərinin təlim prosesində səmərəli təşkili zamanı idrak fəallığının inkişaf etdirilməsi məsələsinə toxunulmuşdur. Tədqiqat müstəqil işlərin təşkili ibtidai sinif şagirdlərinin maraqlarına uyğun olması, öz işinin mahiyyətini aydın başa düşməsi, nəticənin əldə olunmasına səy göstərməsi, əqli-iradi eyni zamanda fikri fəallıq, yaradıcı fəallıq, idraki fallıq, və s. qabiliyyətlərin səfərbər edilməsi üçün müəllim tərəfindən müvafiq şəraitin yaradılması, onların müstəqil işə cəlb olunması və təşkilindən ibarətdir.
***Açar sözlər**: müstəqil iş, yaradıcı qabiliyyət, idrak fəallığı, ibtidai sinif şagirdləri, şagirdlərin müstəqilliyi.*

**Аннотация.** В статье рассматривается проблема развития познавательной активности при эффективной организации самостоятельной работы учащихся младших классов в процессе обучения. Организация самостоятельной исследовательской работы должна соответствовать интересам учащихся младших классов, им следует четко понимать суть своей работы, стремиться к достижению результата, развитию мыслительно-волевой, интеллектуальной, творческой активности, познавательной гибкости и т.д. Она заключается в создании учителем соответствующих условий для мобилизации способностей, вовлечении их в самостоятельную работу и ее организацию.
***Ключевые слова**: самостоятельная работа, творческие способности, познавательная активность, учащиеся начальных классов, самостоятельность учащихся.*

**Abstract.** The article deals with the problem of the development of cognitive activity in the effective organization of independent work of students of younger classes during the training process. The organization of independent research work should correspond to the interests of students of younger classes, they should clearly understand the essence of their work, strive to achieve the result, develop mental-

volitional and intellectual activity, creative activity, cognitive flexibility, etc. d. It consists in creating appropriate conditions for the mobilization of abilities by the teacher, involving them in independent work and its organization.

***Key words****: independent work, creative abilities, cognitive activity, elementary school students, students' independence.*

K.D. Uşinski şagirdlərin yaxşı təşkil olunmuş müstəqil müşahidələrinə və onların müstəqil qoyduqları təcrübələrə böyük əhəmiyyət verirdi. O, yazırdı "Öz fikirlərini yaxşı ifadə etməyi bacarmamaq çatışmamazlıqdır; lakin müstəqil fikrə malik olmamaq daha böyük çatışmamazlıqdır. Müstəqil fikirlər isə yalnız müstəqil surətdə qazanılmış biliklərdən doğur." (1)

Böyük pedaqoq düzgün olaraq yazırdı ki, təlimin tərbiyə vasitəsi olması üçün təlim prosesində şagirdlərin müstəqilliyi təmin olunmalıdır.

Göründüyü kimi, K.D. Uşinski şagirdlərin müstəqil işi, onlarda müstəqilliyin inkişaf etdirilməsi problemini daha dərindən təhlil etmiş və təlimin təcrübəsi baxımından qiymətləndirməyə çalışmışdır.

Şagirdlərin müstəqil işlərinə həsr edilmiş tədqiqatlardan biri M. İsmixanovun "İbtidai təlimdə şagirdlərin müstəqil işi" əsəridir. O, bu əsərdə müstəqil işləri şagirdlərin müstəqil təlim fəaliyyətində zehni və əməli xarakterli əsas təlim əməliyyatlarına uyğun olaraq təsnif etməyin üstünlüyünü əsaslandırır, ibtidai siniflərdə keçirilən müxtəlif təlim fənlərindən misallar gətirərək, dərsin ayrı-ayrı mərhələlərində şagirdlərin müstəqil işlərinin təşkilinə dair konkret nümunələr verir. (2)

"Şagirdlərin müstəqil işi" anlayışının mahiyyətini yaxşı dərk etmək üçün ona "fəallıq" və "müstəqillik" anlayışları ilə əlaqədə baxmaq lazımdır. Söhbət təlim prosesindən getdiyindən, bacarıq və vərdişlər öyrəndiyindən hər cür fəallıq və müstəqillik deyil, təlim prosesinin əsas funksiyalarının yerinə yetirilməsinə yardım edəcək idrakı fəallıq və müstəqillik nəzərdə tutulmalıdır.

Pedaqoji ədəbiyyatda "idrakı fəallıq", "fikri müstəqillik", "yaradıcı fəallıq", "yaradıcı müstəqillik" anlayışlarına da rast gəlmək olur. Bəzən fəallıq adı altında şagirdin fəaliyyətindəki ancaq xarici əlamətlər nəzərə alınır: şagirdin daim hərəkətdə olması, tez-tez suala cavab verməyə can atması və s. Əlbəttə, idrakı fəallığın bu cür başa düşülməsi birtərəflidir. Çünki şagird sakit halda da fəal ola, fəal surətdə fikirləşə bilər. Həqiqi idraki fəallıq məhz daxili fəallıqla əlaqədar olduğundan, onu əsas götürmək lazımdır. Sözsüz ki, bu zaman xarici təzahürlər də nəzərə alınmalıdır.

Eyni zamanda, müəlliflər kollektivi tərəfindən yazılmış pedaqogika dərsliyində bu məsələdən bəhs edilərkən göstərilir: "Fəallıq dedikdə, biz buna birtərəfli, yəni ancaq zehni fəallıq və ya yalnız əməli fəallıq kimi yanaşmamalıyıq. Şagirdin həm zehni fəallıq göstərməsi, nəticələr çıxarması, təhlillər aparması və s., həm də əməli fəallıq göstərməyi, xüsusən nəzəri biliklərin əmək prosesində tətbiq etməsi çox mühümdür. Qeyd etməliyik ki, əməli fəallıq da zehni fəallığın iştirakı və nəzarəti altında aparılır. (3)

Deyilənlərdən göründüyü kimi, idraki fəallıq şagirdlərin fiziki və əqli qabiliyyətlərinin sadəcə gərginləşməsi deyil, yalnız fəal xarici təzahürə malik olan fəaliyyət deyildir. İdrak fəallığı şagirdlərin optimal vaxt ərzində fəaliyyət üsullarına və biliklərə daha səmərəli yiyələnməsi sayəində, təlim məqsədinin yerinə yetirilməsinə nail olmaq üçün əqli-iradi qabiliyyətlərin səfərbər edilməsində özünü göstərir. İdrak fəallığının daha yüksək səviyyəsi yaradıcı fəallıqdır. Yaradıcı fəallıq isə aşağıdakı xüsusiyyətlərlə səciyyələnir.

1.Verilmiş tapşırıqların həlli üçün zəruri olan şərtləri axtarıb tapmaq, bu işə yaradıcı şəkildə yanaşmaq.

2. Qarşıda duran təlim materialının öyrənilməsinə daxili ehtiyac duymaq.

3. Öyrənilən materialın həcmini genişləndirməyə, məzmununu dərinləşdirməyə və bunun üçün əvvəllər qazanmış biliklərdən daha çox istifadə etməyə çalışmaq.

Beləliklə, nəzərə alınmalıdır ki, fəallıq, fikri fəallıq, yaradıcı fəallıq şagirdlərin müstəqilliyindən ayrılmazdır.

Müstəqillik haqqında prof. Y.Ş. Kərimovun da fikirləri diqqəti cəlb edir: "Şagirdlərin müstəqilliyini təmin etmək üçün, hər şeydən əvvəl, müəllim müstəqilliyi təmin edən prinsipləri nəzərə almalıdır; şagirdlər müstəqil yerinə yetirməli olduqları işin mahiyyətini aydın başa düşməli, düzgün gedişini dərk etməli, ona öz münasibətlərini bildirməyi bacarmalıdır; müstəqil işlər mahiyyətinə görə şagirdlərin güclərinə,

maraq və meylinə müvafiq, məzmununa, quruluşuna görə şagirdlərin məntiqi təfəkkürünün, əqli fəaliyyətinin, yaradıcı imkanlarının inkişafını təmin etməlidir” (4).

Nəhayət, yuxarıda deyilənlərə əsaslanaraq şagirdlərin müstəqil işlərinin əsas əlamətlərini bu cür müəyyən etmək olar:

1. Müəllimin bilavasitə iştirakı və kənar şəxslərin köməyi olmadan şagirdlərin müstəqil işləməsi.
2. Əsasən, müəllim tərəfindən müəyyən edilmiş tapşırığın olması.
3. Tapşırığın yerinə yetirilməsi üçün müəyyən vaxtın ayrılması.
4. Müstəqil işi zamanı şagirdin müəyyən təlim çətinliklərini aradan qaldırmaq üçün əqli və fiziki gərginlik keçirilməsi.
5. Müstəqil iş zamanı şagirdlərin ümumi inkişafının təmin edilməsi və tərbiyə məqsədlərinin həyata keçirilməsi.

Deyilənləri ümumiləşdirərək təlim prosesində şagirdlərin müstəqil işinə aşağıdakı tərifi vermək olar.

Müəllim təlim tapşırığını şagirdin əqli və əməli fəaliyyət göstərərək bunun üçün xüsusi ayrılmış vaxtda, bilavasitə kömək olmadan yerinə yetirməsi şagirdlərin müstəqil işidir.

Beləliklə, müstəqil işlərin təşkilinin əsas əhəmiyyəti ondan ibarətdir ki, müəllim və şagird münasibətlərinin demokratik təfəkkür əsasında qurulmasının, şagird müstəqillik qabiliyyətlərinin inkişaf etdirilməsini, təlimi öyrədən və öyrənən subyektlərin tabe və asılı deyil, bərabər tərəflər kimi müəyyənləşdirilməsini, bir sözlə, şagirdin cəmiyyətin üçün yararlı və yaradıcı şəxsiyyət olaraq ehtiva edir.

İbtidai siniflərdə şagirdlərin dərs zamanı müstəqil işlərinin təşkilində idrak fəallığının inkişafı çox mühümdür. Belə ki, müstəqil işlər zamanı ilk öncə müəllim təlimə maraq oyatmalıdır. İdrak marağı da ümumiyyətlə, marağın növlərindən biridir. Onun səciyyəvi xüsusiyyəti bundan ibarətdir ki, xüsusi bir obyektə, yəni obyektiv qanunların dərk edilməsinə yönəlmiş olur. Başqa sözlə desək, idrak marağı şəxsiyyətin həyatı, onun sirlərini dərk etməyə, başa düşməyə, öyrənməyə göstərdiyi cəhddir, münasibətdir. Təlim marağı, ümumiyyətlə, marağın digər növlərinə nisbətən idrak marağına daha çox yaxınlaşır, lakin onunla eyniyyət təşkil etmir.

Şagirdlərin təlim marağının spesifik cəhətləri aşağıdakılardan ibarətdir: a) bu marağın yaranmasında və inkişafında müəllimin mühüm rolu vardır; b) təlim marağı – şagirdlərin diqqətinin, əsasən, tədris materiallarındakı anlayışlar sistemini dərk etməyə yönəldilməsidir; c) bu maraq uşaqları bilik əldə etməyə həvəsləndirən daxili tələbatdır, motivlərdir və s.

Təcrübə göstərir ki, şagirdlərin əksəriyyəti bütün fənlərə eyni cür maraq bəsləmir, bəzi fənləri daha çox sevir, başqaları ilə az maraqlanırlar. Bu, müxtəlif səbəblərdən irəli gəlir: şagirdin fikrinə görə, bu və ya digər fənnin həyatda daha çox əhəmiyyətə malik olması; ailənin təsiri; müəllimin şəxsiyyəti və bacarığı; dərsliyin keyfiyyəti və s. Əlbəttə, bunlardan belə bir nəticə çıxarmaq olmaz ki, guya uşağın digər fənlərə marağını inkişaf etdirmək mümkün deyildir. Əksinə, müəyyən şərtlərə əməl etməklə (məsələn, dərsi maraqlı qurmaq, tədrisin keyfiyyətini yüksəltmək, hər bir fənnin lazımlı olduğunu başa salmaq və s.) uşağın keçilən bütün fənlərə maraqlarını inkişaf etdirmək mümkün və lazımdır.

Məsələn, biz keçən il Bakı şəhərində olan məktəblərdən birində müşahidə zamanı dərsdə şagirdlərin bir qisminin dərsə cəlb olunmadığını və təlimin onlar üçün maraq oyatmadığını müşahidə etdik. Burdan da aydın görünür ki, təlimə cəlb olunmayan şagird üçün müstəqil işlərin təşkili çətin və faydasız olacaqdır. Bu səbəbdən daha səmərəli yollardan istifadə etmək məqsədə uyğun sayılır.

Dərsdə müstəqil işlər müxtəlif məqsədlər üçün təşkil oluna bilər. Məsələn, yeni öyrədilən biliyin mənimsənilməsinə bilavasitə kömək edən əvvəlki mövzuların təkrarı üçün şagirdlərin müstəqil işlərini təşkil etmək olar; yeni dərsə aid bəzi faktlarla uşaqları tanış etməkdən ötrü onların müstəqil işlərini (müşahidələrini) təşkil etmək mümkündür; biliyi müəllimin bilavasitə müdaxiləsi olmadan kitabdan oxuyub öyrənmək məqsədi ilə şagirdlərə müstəqil iş tapşırıla bilər və s.

Müəllimlə şagird, eləcə də şagirdlə şagird arasındakı münasibətlər də təlim marağına müəyyən təsir göstərir. Belə münasibətlər, müstəqil işlər zamanı bir qayda olaraq, təlimin təşkil üsulları ilə bağlı şəkildə meydana çıxır və mühüm amil rolunu oynayır. Bunu yığcam şəkildə şərh etməyə çalışaq: a) müəllim sinfin bütün şagirdlərini eyni xarakterli və eyni məzmunlu işə

cəlb edir; b) müəllim bütün siniflə eyni vaxtda və eyni tərzdə məşğul olur; c) tapşırıqlar şagirdlərin yaş səviyyəsinə uyğun olur; d) tapşırıqlar düşündürücü və maraq tələb edən olur; e) şagirdlərdə mövcud bilik və bacarığın səviyyəsi və müxtəlif çətinliyə malik olan tapşırıqların verilməsi nəzərə alınır. Eyni zamanda müəllimlər ibtidai siniflərdə təlim zamanı şagirdlərin müstəqil işini səmərəli təşkil etməyi zəruriliyinin müasir həyatın tələblərindən irəli gəldiyini bilməlidirlər. Belə bir zərurəti aydın təsəvvür edən hər bir sinif müəllimi təlim zamanı şagirdlərdə müstəqilliyi inkişaf etdirməyə daha geniş yer verər.

**Problemin aktuallığı**. İbtidai sinif şagirdlərinin təlim zamanı müstəqil işlərə cəlb olunması, onların gələcəkdə sərbəst şəkildə istənilən problemin öhdəsindən gəlməsi, eyni zamanda yaradıcı qabiliyyətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi**. Məqalədə ibtidai sinif şagirdlərin müstəqil işlərin təşkili zamanı idrak fəallığının inkişafı üçün istifadə olunan metod və üsullar diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə mütəxəssislər və gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. Ушинский, K.D. Собрание сочинений. -M., -1950. – с 34-35.
2. İsmixanov, M. İbtidai təlimdə şagirdlərin müstəqil işi. – Bakı, -1978.
3. Muradxanov, M. və b. Pedaqogika. – Bakı, -1964. – s. 113-114.
4. Kərimov, Y. Ana dilinin tədrisi metodikası. – Bakı, -2003. –258 s.
5. Əliyev, İ. İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəlilik şərtləri. – Bakı: Nurlan, – 2007.


**Redaksiyaya daxil olub**: 12.03. 2025

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRINGING TECHNOLOGIES***

*UOT 373.7*

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogik kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-1151-4440*
*E-mail: a.ismayilxanova@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).72-76*

## İNSAN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA TƏLİM-TƏRBİYƏNİN ROLU

***Асмет Идрис гызы Исмаилханова***
*доцент кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## РОЛЬ ОБРАЗОВАНИЯ И ВОСПИТАНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

***Asmet Idris Ismailkhanova***
*associate professor of the department of General pedagogy of the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

## ROLE OF EDUCATION AND UPBRİNGİNG IN PERSONALITY DEVELOPMENT

**Xülasə.** Müəllif məqalədə bildirir ki, müasir cəmiyyətin inkişafı, hadisələrin başvermə səbəbləri, hərəkətverici qüvvələri, qanunauyğunluqları haqqında hal-hazırda metafizik və dialektik inkişaf konsepsiyası hazırlanmışdır. İnsan şəxsiyyətinin formalaşmasında təlim-tərbiyənin rolunun vacib olduğunu deyərək qeyd edir ki, hal-hazırda bu prosesdə üç amilin rolunun olduğunu dünya alimləri də təsdiq edirlər. Bunlar təlim-tərbiyə, mühit və irsiyyətdir. Lakin elə tədqiqatçılar vardır ki, bunlardan bir qrupu şəxsiyyətin formalaşmasında tərbiyəyə, digərləri irsiyyətə, başqa bir qrup alimlər isə mühitə üstünlük verirlər. Müəllif bu məsələdə öz fikirlərini söyləməklə bərabər qeyd edir ki, hər bir insan bilməlidir ki, onlar hansı amillərin təsiri altında inkişaf etmişdir və onların şəxsiyyət kimi formalaşmasına mühit, irsiyyət və tərbiyə nə dərəcədə təsir göstərmişdir. Məqalədə İslam dininin müqəddəs kitabı "Qurani-Kərim"dən, "Dədə Qorqud"dan sitat gətirərək uşağın şəxsiyyət kimi formalaşmasında ailənin və məktəbin rolundan da bəhs olunur. Sonda müəllif belə bir fikir söyləyir ki, hər bir valideyn dünyaya gətirdiyi övladı üçün cavabdehdir və onu düzgün, təlim-tərbiyənin diktə etdiyi prinsiplər əsasında tərbiyə etməlidir.
***Açar sözlər.*** *metafizika, dialektika, tərəqqi, irsiyyət, psixoloji, bioloji, fizioloji, qavrayış, təfəkkür, təkamül, eksperiment, təvazökarlıq*

**Аннотация.** В статье автор заявляет, что в настоящее время разработана метафизическая и диалектическая концепция развития современного общества, а также причин возникновения событий, движущих сил и закономерностей внутри него. Подчёркивая важную роль образования в формировании человеческой личности, автор отмечает, что в настоящее время учёные также подтверждают наличие трёх факторов, играющих значимую роль в этом процессе: образование, среда и наследственность. Однако в то время, как одна группа исследователей отдаёт предпочтение образованию в формировании личности, другие подчёркивают важность факторов наследственности и среды. Выражая собственное мнение по этому поводу, автор указывает на необходимость осведомлённости каждого человека об этих факторах и степени их влияния на формирование его собственной личности.

В статье также упоминается роль семьи и школы в формировании личности ребёнка, приводятся цитаты из священной книги ислама «Корана» и эпоса «Деде-Горгуд». В заключении автор высказывает мнение, что каждый родитель несёт личную ответственность за собственных детей, что обязывает его воспитывать их правильно и в соответствии с воспитательными принципами.

***Ключевые слова:*** *метафизика, диалектика, прогресс, наследственность, психологическое, биологическое, физиологическое, восприятие, мышление, эволюция, эксперимент, скромность*

**Abstract.** The author states that a metaphysical and dialectical concept of the development of modern society, as well as the causes of events, driving forces and patterns within it, has been developed. Highlighting the important role of education in the development of human personality, the author notes that currently scientists also confirm the presence of three factors that play a significant role in this process: education, environment and genetics. However, while one group of researchers gives preference to education in the development of personality, others emphasize the importance of genetics and environmental factors. Expressing his own opinion on this matter, the author points out the need for every person to be aware of these factors and the degree of their influence on the formation of his own personality. The article also mentions the role of family and school in the development of a child's personality, and provides quotes from the holy book of Islam, the Qur'an, and the epic Dede-Gorgud.

In conclusion, the author expresses the opinion that each parent bears personal responsibility for his children, thereby being obliged to raise them adequately and in line with educational principles.

***Keywords:*** *metaphysics, dialectics, progress, heredity, psychological, biological, physiological, perception, thinking, evolution, experiment, modesty*

Müasir cəmiyyətin inkişafı, hadisələrin başvermə səbəbləri, hərəkətverici qüvvələri, qanunauyğunluqları haqqında hal-hazırda metafizik və dialektik inkişaf konsepsiyası hazırlanmışdır. Bildiyimiz kimi insan dünyaya fərd kimi gəlir və xarici aləmin təsiri ilə şəxsiyyət kimi formalaşır. Məlumdur ki, dünya ölkələrinin dahi şəxsiyyətləri haqlı olaraq fərdin şəxsiyyət kimi formalaşmasında irsiyyətin rolunu daha üstün qiymətləndirirlər. İnkişaf cəmiyyət və təbiət hadisələri ilə birbaşa bağlı olduğundan yaradıcılıqla, tərəqqi ilə, hərəkətlə səciyyələnir. Bu həm də mühit və tərbiyə ilə də şərtlənir. Fərdin şəxsiyyət kimi formalaşması deyərkən burada üç əlamət nəzərdə tutulur:

1. fiziki anatomik-fizioloji inkişaf, yəni insanın bioloji fərd kimi inkişafı;
2. psixoloji inkişaf;
3. Sosial inkişaf.

Hər üç əlamət ayrı-ayrılıqda keyfiyyət və kəmiyyət dəyərlərinə malikdir. İnsanın psixoloji inkişafına onun idrak prosesinin, qavrayış və təsəvvürün, duyğuların, nitqin və təfəkkürün, diqqətin, hafizə və iradənin, nəticə və təxəyyülün necə təşəkkül tapıb inkişaf etməsi daxildir.

Sosial inkişaf isə şəxsiyyətin cəmiyyətdəki iştirakı, kollektiv üzvləri və konkret adamlarla münasibətində özünü büruzə verir, onu xarici aləmdə baş verən hadisələrin iştirakçısına çevirir. Bu keyfiyyətlər insanı şəxsiyyət kimi formalaşdırır. Şəxsiyyət onun meyl və maraqlarının, temperamentinin funksional xüsusiyyətləri nəticəsində meydana çıxan fərdi fərqlər sayəsində cəmiyyətdə özünəməxsus mövqe tuta bilir. Yuxarıda qeyd etdiyimiz kimi, insan bioloji varlıq kimi bu dünyaya gəlir, özünün fəaliyyəti prosesində çox mürəkkəb həyat yolu keçərək formalaşır.

Hal-hazırkı cəmiyyətin qarşısında dayanan vəzifələrin həyata keçirilməsi yüksək dərəcədə fəal, hərəkətli şəxsiyyətin formalaşdırılması prosesinin əhəmiyyətindən çox asılıdır. Şəxsiyyətin inkişafı ilə bağlı pedaqoji fikrin zəngin ideyalarını nəzərdən keçirmək çox vacibdir. Məsələn, Azərbaycanın dahi mütəfəkkirləri şəxsiyyətin müsbət cəhətlərini onların cəmiyyətdəki mövqeyində, fəaliyyətində və münasibətində axtarmışlar. Ona görə ki, münasibətlər insanların həyat təcrübəsinin nəticəsidir ki, bu da onların hərəkətlərini və daxili hisslərini müəyyən edir.

Bunun nəticəsidir ki, insanın şəxsiyyət kimi formalaşmasına təsir edən amillər haqda müxtəlif fərziyyələr irəli sürmüşlər. Min illərdir ki, bu amillərdən irsiyyətə daha çox üstünlük verilmişdir. İnsanlarda belə bir fikir formalaşmışdır ki, övladda olan bütün müsbət və mənfi nə xüsusiyyətlər varsa onlara valideynlərindən keçmişdir. Bu dövrlərdə irsiyyət amilinin hakim olduğunu qəbul edən filosoflar bununla bərabər tərbiyə amilinə də xüsusi əhəmiyyət vermişlər. Azərbaycanın dahi şairi N. Gəncəvi elmin, təhsilin, tərbiyənin böyük gücünə inanaraq onları təbliğ etsə də, insan şəxsiyyətinin formalaşma-

sında irsiyyət amilinin mütləq rolunu da qeyd etmişdir.

Bildiyimiz kimi, insanın düzgün tərbiyəsində bir sıra amil vacib rol oynayır və insanda ayrı-ayrı yaş dövrlərində psixi, fiziki və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlər yaranır və onların əsl şəxsiyyət kimi formalaşmasında mühüm dəyişikliklər, yeniliklər meydana gəlir. Odur ki, hər bir insan bilməlidir ki, onlar hansı amillərin təsiri altında inkişaf etmişdir və onların şəxsiyyət kimi formalaşmasına mühit, irsiyyət və tərbiyə nə dərəcədə təsir göstərmişdir.

Şəxsiyyətin formalaşmasında bu amillərin daha dərindən öyrənilməsi və eyni zamanda tərbiyənin roluna dair ta qədim dövrlərdən sonralara qədər müxtəlif fərziyyələr irəli sürülmüş, zaman-zaman mübahisələr edilmiş, maraqlı tədqiqatlar aparılmışdır. Məsələn, qədim yunan filosofları Sokrat, Platon, Aristotel hələ bizim eradan əvvəl insanın formalaşmasında tərbiyənin rolunun əsas olduğunu göstərirdilər. Platon özünün "Qanunlar" əsərində qeyd edirdi ki, insanı düzgün tərbiyə etsəydik o, ən sakit və ilahi məxluq olardı.

Hətta tərbiyənin meydana gəlməsi və insan həyatında oynadığı rola görə iki nəzəriyyə mövcud idi.

- təkamül-bioloji nəzəriyyə;
- psixoloji nəzəriyyə.

Təkamül-bioloji nəzəriyyənin nümayəndələri A. Espinos, Ş. Leturno və C. Simpson tərbiyəni qeyri-mütəşəkkil, kortəbii hadisə adlandıraraq tərbiyənin şüurlu səviyyəsini inkar etmişlər.

Psixoloji nəzəriyyənin nümayəndələrindən P. Monro isə tərbiyənin meydana gəlməsini kiçiklərin böyükləri şüursuz şəkildə təqlid etməsi ilə əlaqələndirirdi.

Böyük çex pedaqoqu Y.A. Komenski isə qeyd edirdi ki, insan yalnız tərbiyə sayəsində insan olur. Uşaqları qruplara bölərkən o, istedadsız, tənbəl uşaqlara az rast gəlindiyini və bunların da təlim-tərbiyə sayəsində düzələcəyinə inanırdı. Onu da qeyd etmək lazımdır ki, Komenskinin pedaqogikaya gətirdiyi yeni fikir də bu idi: "Tərbiyənin böyük gücünə və imkanlarına inam."

Özünün "Böyük didaktika" əsərində Y.A.. Komenski qeyd edirdi ki, bizə təbiət əxlaqı verir, bilik və xeyirxahlıq vermir. O, insanın şəxsiyyət kimi formalaşmasında məktəbi, təlim-tərbiyə işini təkmilləşdirməyi üstün tutur və təlimin insan tərbiyəsi üzərində çalışmasını vacib hesab edirdi.

İnsan şəxsiyyətinin formalaşmasında tərbiyənin böyük gücünə inananlardan biri də ingilis filosofu Con Lokk olmuşdur. "İdeyaların fitriliyi" nəzəriyyəsinə qarşı çıxaraq C. Lokk özünün "Ağ lövhə" (Fabula rasa) ideyasını irəli sürmüş və qeyd etmişdir ki, uşaq dünyaya gələrkən ona irsən heç bir qüvvə bəxş edilmir. Uşaq ruhu ağ lövhə kimidir, tərbiyə vasitəsilə bu ağ lövhəyə hər nə istəsək yaza bilərik. İstənilən mənfi və ya müsbət keyfiyyəti tərbiyə vasitəsi ilə yaratmaq olar.

Bildiyimiz kimi cəmiyyət daima inkişafdadır və insan şəxsiyyətinin düzgün formalaşmasında tərbiyə böyük rol oynayır. XIX əsrdə yaşamış utopik sosialistlər Şarl Furye, Sen Simon, Robert Ouen və başqaları şəxsiyyətin formalaşmasında tərbiyənin böyük gücünə inanır və ümid edirdilər ki, cəmiyyət yalnız tərbiyənin gücü ilə dəyişib inkişaf edəcəkdir.

Rus demokratlarından XIX əsrdə yaşamış Belinski, Dobrolyubov, Çernışevski kimi şəxsiyyətlər də tərbiyənin gücünə inanaraq qeyd edirdilər ki, tək şəxsiyyətin özünün deyil, eyni zamanda cəmiyyətin, dövlətin də gələcəyi gənclərin düzgün tərbiyə edilməsindən asılıdır.

Hətta Dobrolyubov qeyd edirdi ki, insanlarla ünsiyyətdə olmayan, körpə yaşlarından vəhşi təbiətdə vəhşi heyvanların əhatəsində böyüyən adamlar vəhşiləşir və onlar tamamilə əqli cəhətdən inkişafdan qalır.

Buna çoxlu misallar gətirmək mümkündür. Öz alimləri ilə mübahisə edən Hind şahzadəsi Əkbər belə bir fikir irəli sürmüşdür ki, insanın insan olması üçün hökmən insani mühit olmalıdır. Alimlərin etirazına cavab olaraq şahzadə Cin, Benqal və Hind uşaqları üzərində bir eksperiment aparmaq qərarına gəlir. O, anadan olan kimi uşaqları valideynlərindən alaraq kameralarda saxlamış və onların ünsiyyətdən və insani münasibətlərdən tamamilə əlaqələrini kəsmişlər. Yeddi illik davam edən eksperimentin sonunda uşaqların heyvan səsləri çıxarmalarının şahidi olmuşlar. Buradan məlum olur ki, mənəvi keyfiyyətlər uşağa irsən verilmir. Bütün bu keyfiyyətlər tərbiyə və ictimai mühitin təsiri nəticəsində əmələ gəlir. İnsanın insan olması onun fərdi inkişafından, ictimai həyat şəraitindən, istehsal münasibətlərindən və ictimai münasibətlər sistemindən asılıdır. Düzgün tərbiyə

nəticəsində uşaqda yeni keyfiyyətlər, qabiliyyətlər yaranır və inkişaf edir, xarakter formalaşır. Təlim-tərbiyə sayəsində uşaq zəngin dünyagörüşə sahib olur, ictimai həyata hazırlanır.

Onu qeyd etmək lazımdır ki, uşağın şəxsiyyət kimi formalaşması ailədən başlanır. Valideynlər uşaq üçün mədəni-məişət şəraiti yaradır, uşaq xarakterinin təşəkkülündə, sosial-mənəvi təsəvvürlərinin formalaşmasında vasitə rolu oynayırlar.

İslam dünyasının müqəddəs kitabı olan "Qurani-Kərim"də, Azərbaycanın insanlıq abidəsi hesab edilən "Dədə-Qorqud" dastanında, mütəfəkkirlərimizin əsərlərində də tərbiyə haqqında qiymətli fikirlər irəli sürülmüşdür. Peyğəmbərimiz Həzrəti Məhəmməd qiymətli kəlamlarının birində qeyd etmişdir ki, ata övladına düzgün tərbiyədən qeyri qiymətli heç nə verə bilməz.

Tərbiyənin verilməsində ailə ilə bərabər məktəb də mühüm rol oynayır. Bəzi mütəfəkkirlər isə qeyd edirlər ki, uşağın tərbiyəsində gecikmək olmaz. Ana südündən ayrılan kimi dərhal onun tərbiyəsi ilə məşğul olmaq lazımdır. Əks təqdirdə valideyn tərbiyə işində gec qalmış olar. Uşağın inkişafı tərbiyə ilə birbaşa əlaqəlidir. Odur ki, inkişaf prosesində tərbiyə düzgün verilərsə gələcəyimiz olan uşaqlar əsl insan kimi formalaşar. İnkişaf uşağı ən kiçik yaşlarından fəal olmağa təhrik edən prosesdir.

Bəzən yaşlı insanlar uşağın müstəqilliyə can atmasından çox narahat olurlar. Lakin uşağa verilən düzgün tərbiyə bu narahatlıqları aradan qaldırır və uşağın müstəqil inkişafına köməklik göstərir.

Bəzən isə "Bizim vaxtımızda tərbiyə tamam başqa idi" deyib uşaqların düzgün tərbiyə olunmamasında zəmanəni günahlandıranlar da olur. Amma onlar başa düşmək istəmirlər ki, zaman dəyişir, tərbiyənin şərtləri dəyişir. İndiki gənc nəsli bizim zamanımıza deyil, onların zamanına uyğun şəkildə tərbiyə etmək lazımdır. Belə olmadıqda mübahisələr, neqativ hallar yaranır. Tərbiyə edənin üzərinə düşən vəzifə uşağın daxili qüvvələrini stimullaşdırmaq və onlara düzgün istiqamət verməkdir. Təlim-tərbiyə prosesində bu şərtlərə əməl etmək vacibdir. Milli adət-ənənələrimizə hörmət, məhəbbət və uşaqları bu istiqamətdə inkişaf etdirmək məhz təlim-tərbiyə prosesində baş verir. Gənc nəslin cəmiyyətimizdə milli dəyərlərimiz ruhunda tərbiyə edilməsi onlarda hər cür mənəvi keyfiyyətlərin formalaşmasında vacib amildir. Elə buna görə də uşaqların təlim-tərbiyəsi ön planda olmalıdır. Onların milli dəyərlərimiz ruhunda tərbiyə edilməsi gələcəyin mərd, qəhrəman övladlarının yetişdirilməsi deməkdir. Biz bunu 44 günlük II Qarabağ müharibəsinin timsalında gördük. İgid, qəhrəman oğullarımız gözünü qırpmadan Vətənin müdafiəsinə qalxdılar və üç rəngli bayrağımızı Qarabağ səmalarında dalğalandırmağa nail oldular. Bütün bunlarla yanaşı gəncliyin əxlaq tərbiyəsi cəmiyyətimiz üçün mühüm amildir. Azərbaycan xalqının çox zəngin adətləri, ənənələri vardır ki, bu da eyni zamanda bizim əxlaqi dəyərlərimizdir. Əxlaqı gözəl gənclərin gələcəyi də parlaq olmalıdır.

Sonda onu da qeyd etmək lazımdır ki, hal-hazırda üç mühüm problem mövcuddur ki, bunlardan birincisi yeniyetmə və gənclərin cəmiyyətə olan münasibətidir. Yəni, əsas vəzifə onların milli adət-ənənələrimizə, xalqımıza məhəbbət, hörmət, yeni müstəqillik qazanan ölkəmizə sədaqət, cəmiyyətin mənafeyini üstün tutub vicdanla işləmək, yeraltı-yerüstü sərvətlərimizi qorumaq, təbiətə qayğılı münasibət göstərmək və qorumaq ruhunda tərbiyə etməkdir.

İkinci problem cəmiyyətdə insanların bir-birinə olan qarşılıqlı münasibətidir ki, buraya qarşılıqlı yardım, kollektivçilik, dostluq, yoldaşlıq, qarşılıqlı hörmət və vətənpərvərlik münasibəti daxildir.

Sonuncu məsələ isə insanların milli-əxlaqi keyfiyyətləridir ki, buraya da düzlük, doğruçuluq, mənəvi cəhətdən saflıq, təmizlik, təvazökarlıq, namus, qeyrət, vicdan, və s. kimi müsbət mənəvi-əxlaqi keyfiyyətlər daxildir. Bütün bu müsbət əxlaqi keyfiyyətlərə yiyələnmədən insan cəmiyyətdə özünə layiq olduğu yeri tuta bilməz. Odur ki, hər bir valideyn dünyaya gətirdiyi övladı üçün cavabdehdir və onu düzgün, təlim-tərbiyənin diktə etdiyi prinsiplər əsasında tərbiyə etməlidir.

**Problemin aktuallığı.** Hal-hazırda ailənin və məktəbin üzərinə düşən ən mühüm vəzifə gənc nəslin əsl şəxsiyyət kimi formalaşması prosesidir. Şəxsiyyətin formalaşmasının yolu isə təlim-tərbiyədən keçir. Odur ki, bu prosesin daha da uğurlu nəticələr əldə edilməsi üçün yeniyetmə və gənclərin milli adət-ənənələr ruhunda tərbiyə edilməsi aktual məsələ kimi cəmiyyətin qarşısında dayanmışdır. Problemin aktuallığı da ondan ibarətdir.

**Problemin elmi yeniliyi.** Hal-hazırda müstəqillik qazanan ölkəmizdə ümumtəhsil məktəblərində yeni sistem yaradılmalı və gənc nəslin formalaşmasında yeni üsul və vasitələr işlənib hazırlanmalı, bu sahədə güclü pedaqoji kadr hazırlığına başlanılmalıdır.

**Problemin praktik əhəmiyyəti**. Müasir dövrdə ümumtəhsil müəssisələrinin müstəqilliyinin artması çox böyük əhəmiyyət daşıyır. Bu da təhsilin keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərir. Bu məqalə məktəbin pedaqoji kollektivinin təlim-tərbiyə işində daha yaxından və fəal iştirak etməsinə zəmin yaradacaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004-cü illər). I kitab. -Bakı: Çaşıoğlu, -2005. -254 s.
2. İsmixanov, M.A. Məktəbin idarə edilməsi: Dərs vəsaiti / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova. -Bakı, -2012. -235 s.
3. Mehrabov, A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. // -Bakı, Azərbaycan məktəbi, -2007. №1, -112 s.
4. Azərbaycan Müəllimlər İnstitutunda “ Təhsildə innovasiyalar haqqında “ keçirilmiş elmi praktik konfransın materialları, 25 aprel 2014-cü il


**Redaksiyaya daxil olub:** 17.02.2025.

*UOT: 37.0*

***Rəhiməxanım Rzabala qızı Məmmədzadə***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0008-2256-3185*
*E-mail: ragimaxanum.mamedzade@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).77-81*

# TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ İŞLƏRİN PLANLAŞDIRILMASI

***Рагимаханым Рзабала гызы Мамедзаде***
*старший преподаватель Азербайджанского Университета Языков*
*доктор философии по педагогике*

# ПЛАНИРОВАНИЕ РАБОТЫ ПО РАЗВИТИЮ НРАВСТВЕННЫХ КАЧЕСТВ СТУДЕНТОВ

***Rahimakhanim Rzabala Mammadzade***
*senior lecturer at the Azerbaijan University of Languages*
*doctor of philosophy in pedagogy*

# PLANNING WORK TO DEVELOP THE MORAL QUALITIES OF STUDENTS

**Xülasə.** İnstitut və universitetlərdə tədris prosesində - mühazirə və seminarlarda tələbələrə bilik və məlumatlar verilir, onların peşəkar bacarıqları formalaşdırılır, təhsili də diqqət mərkəzində saxlanılır. Ancaq təlimdən sonra bu iş davam etdirilməlidir. Ümumtəhsil müəssisələrində və kolleclərdə olduğu kimi, ali təhsil müəssisələrində də tələbələrin tədris işləri ilə yanaşı, tələbələrin asudə vaxtlarında dərsdənkənar fəaliyyətləri də nəzərdə tutulur.
***Açar sözlər:*** *planlaşdırma, tərbiyə işinin planlaşdırılması, tələbələr, tələbə qrupu, qrupun kuratoru*

**Аннотация.** В процессе обучения в институтах и университетах – на лекциях и семинарах – студентам предоставляются знания и информация, формируются их профессиональные навыки, при этом их воспитание также находится в центре внимания. Однако эту работу следует продолжить и после обучения. Как и в общеобразовательных учреждениях и колледжах, так и в высших учебных заведениях планируются воспитательные мероприятия для студентов, а также внеклассные мероприятия для студентов в свободное от учебы время.
***Ключевые слова***: *планирование, планирование воспитательной работы, студенты, студенческая группа, куратор группы*

**Abstract.** During the training process at institutes and universities – lectures and seminars – students are provided with knowledge and information, their professional skills are formed, and their upbringing is also the focus. However, this work should be continued after training. As in general education institutions and colleges, higher education institutions plan upbringing activities for students, as well as extracurricular activities for students in their free time.
***Key words***: *planning, planning upbringing work, students, student group, group supervisor*

İnstitut və universitetlərdə təlim prosesində – mühazirə və seminar məşğələlərində tələbələrə bilik və məlumatlar verilməklə, ixtisas bacarıqları fortmalaşdırılmaqla yanaşı onların tərbiyəsi də diqqət mərkəzində dayanır. Lakin təlimdən sonrakı vaxtlarda bu iş davam etdirilməlidir.

Ümumtəhsil müəssisələrində, kolleclərdə olduğu kimi, ali təhsil müəssisələrində də tələbələrlə aparılacaq tərbiyə işləri, asudə vaxtların-

da onlarla aparılacaq auditoriyadankənar tədbirlər planlaşdırılır.

Auditoriyadankənar təhsil-tərbiyə işlərinin planlaşdırılması ayrı-ayrı qruplar, həmçinin universitet (institut) üzrə aparılır. Hər bir qrupa kuratorlar təhkim olunduğından qruplar üzrə planlaşdırmanı – kurator, ümumuniversitet üzrə - tərbiyə işləri üzrə prorektor aparır.

Kurator kimdir? Onun vəzifəsinə nələr daxildir? Bu suallara cavab verməyə çalışaq. Ali təhsil müəssisələrinə qəbul olunduqdan sonra tələbəsi bəzi yeni anlayışlarla tanış olurlar: rektor, prorektor, mühazirə, auditoriya, seminar məşğələsi, kollokvium, sessiya, kurator, professor, dekanlıq, dekan, kafedra, qrup, patok və s.

Akademik qrupun kuratoru bir növ ümumtəhsil məktəblərdə sinif rəhbərinin vəzifəsinə daxil olan işləri həyata keçirmək üçün təyin edilir. O, müəllimlərdən biri olur. Onun vəzifəsinə kafedranın, fakültənin və ya universitetin rəhbərliyi ilə qrup tələbələr arasında əlaqənin yaradılması daxildir. Ümumtəhsil məktəbinin sinif rəhbərindən məktəbdən fərqli olaraq, o, kuratorun vəzifəsinə tələbələrin valideynləri ilə ünsiyyətə girmək, demək olar ki, aid deyildir.

Akademik qrup kuratorunun başlıca fəaliyyət növlərindən biri I kurs tələbələrinin universitetə uyğunlaşmasına və tədris prosesinə qoşulmasına kömək göstərməkdir. Bu məqsədlə tələbələr dərs cədvəli ilə, ayrı-ayrı uyğun kafedralar, dekanlıqla, kitabxana, məşğələlərin keçiriləcəyi auditoriyalarla, yeməkxana ilə tanış edilirlər.

Akademik qrupun kuratoru rəhbəri olduğu qrupla əlaqədar təlim-tərbiyə içlərini planlaşdırarkən istər tərbiyənin məqsəd və vəzifələrini nəzərə almalı, eyni zamanda ali təhsil müəssisəsinin ümumi iş planını əsas götürməlidir.

Kurator tədbirlər planını tərtib edərkən tələbələrin bilik və tərbiyəlilik səviyyələrini, maraq və meyllərini, psixoloji keyfiyyətlərini diqqət mərkəzində saxlamalıdırlar.

Qrupa aid tərbiyəvi tədbirlər planı, adətən illik və yarımillik hazırlanır. Planlaşdırma zamanı bir sıra tələblər nəzərə alınmalıdır. Həmin tələblərə aiddir: məqsədaydınlığı, planın real olması, konkretlik tədbirin həyata keçirilməsi vaxtı və icraya məsul şəxs qeyd olunmalıdır), optimallıq, perspektivlik, yaşauyğunluq, işdə rejimin gözlənilməsi, yerli şəraitin hesaba alınması.

Planlaşdırma ali məktəbin idarəetmə sistemində son dərəcə böyük əhəmiyyət daşıyan hazırlıq mərhələsidir. Planlaşdırma tərbiyə sisteminin nəticələrini və səmərəliliyini əvvəlcədən qabaqcadan aşkarlamağa öz köməyini göstərir.

Planlaşdırma tərbiyə sisteminin nəticələrini və səmərəliliyini əvvəlcədən qabaqcadan aşkarlamağa öz köməyini göstərir.

Tələbə qrupunun iş planının tərtibi zamanı əvvəldə qrupun ümumi səciyyəsi öz əksini tapır. Bu, bir sıra hallarda qrupun pasportu adlandırılır. İş planında qrup fəallarının səciyyəsi öz ifadəsini tapır.

İş planının növbəti bölməsinə “Tələbə kollektivi arasında görülən işlər” adı verilir. Bu bölmədə tədris ili dövründə tələbələrlə tərbiyəvi tədbirlərin əsas məzmunu verilir. Buraya nələr daxildir? Aydınlıq gətirək: 1. Tələbələr əqli tərbiyə işləri. 2. Mənəvi tərbiyə işləri. 3. Hüquqi maariflənmə işləri. 4. Ekoloji və iqtisadi tərbiyə işləri. 5. Əmək tərbiyəsi və fiziki mədəniyyətin formalaşdırılması üzrə işlər. 6. Gənclər təşkilatı ilə işlər.

Planlaşdırma zamanı tələbələrin inkişaf qanunauyğunluqları və onların fərdi xüsusiyyətlərinin hesaba alınması məqsədəuyğundur.

Tələbələr arasında mənəvi maariflənmənin təşkili və mənəvi mədəniyyətin, düzgün davranış və rəftar tərzinin tərbiyələndirilməsi işlərinin aparılması məqsədilə bu işin məqsədyönlü, məzmunlu, düzgün planlaşdırılması son dərəcə əhəmiyyətlidir.

Universitetdə təlim-tərbiyə prosesinin planlaşdırılması zamanı aşağıdakılar diqqət mərkəzində dayanmalıdır. Planlaşdırma:

1) Müəyyən vaxtda işin məzmununu müəyyən etməyə imkan verir.

2) Mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinin müxtəlif formalarını, üsul və vasitələrini nümayiş etdirməyə kömək göstərir.

3) Fəaliyyətin vaxtlı-vaxtında, sistemli və məqsədyönlü şəkildə təşkilini kömək göstərir;

4) Müəllimin peşəkar inkişafını təmin edir.

Tələbə qrupunun tərbiyəvi iş planı iki əsas məqsədi izləməlidir:

1.Təhsil müəssisəsinin qarşısında duran tərbiyə, o cümlədən mənəvi tərbiyə prosesinin xüsusiyyətlərini özündə əks etdirməlidir.

2.Qrupun inkişaf səviyyəsinə, imkan və tələblərinə cavab verən şəkildə olmalıdır.

Akademik qrupun kuratoru tərbiyəvi iş planın müasir ali təhsil müəssisəsinin məqsədini və vəzifələrini, rəhbərlik etdiyi qrupun ümumi

inkişaf səviyyəsini, tələbələrin hər birinin fərdi xüsusiyyətlərini, maddi imkanlarını, mənəvi, psixoloji və fiziki imkanlarını, sağlam həyat tərzinə hansı səviyyədə yiyələnmələrini hesaba almaqla tutulur.

İş planının girişində ("Qrupun pasportu"nda) tələbələrin ümumi sayı, oğlanların və qızların, əlaçıların sayı, adları, ata adları və soy adları öz əksini tapır. Haqqında danışılan hissədə eyni zamanda akademik qrupun kuratorunun, qrup nümayəndəsinin, qrup üzrə gənclər təşkilatı nümayəndəsinin, qrup üzrə özünüidarə orqanı rəhbərinin adları (ata adları, soy adları) qeyd olunur.

Tərbiyə, o cümlədən mənəvi keyfiyyətlərin aşılanması işlərinin planlaşdırılması aşağıdakı vəzifələrin həyata keçirilməsinə yönəlir:

1) istiqamətləndirici (müəyyənləşdirən), yəni konkret istiqamətləri və fəaliyyət növlərini özündə birləşdirir;

2) Proqnozlaşdırma – ideyanı göstərir və konkret hərəkətlərin köməyilə nəticələri diqqət mərkəzinə gətirir;

3) Təşkilati vəzifə vasitələri özündə birləşdirir. Fəaliyyətin təşkili zamanı onun obyekti və subyekti aşkarlanır, fəaliyyətin ardıcıllığı meydana çıxır: Kim? Nə? Nə vaxt? Harada? Nə etməli?

4) Nəzarət, başqa sözlə, müəllimin özü iş planından faydalanaraq, verilən tapşırıqların icrasına nəzarəti həyata keçirə, plana uyğun fəaliyyətləri reallaşdıra bilər.

Akademik qrupun tərbiyə işləri planı layihə halında hazır olduğu təqdirdə o, ilk növbədə qrup fəalları, daha sonra qrupun bütün tələbələri ilə müzakirə edilir ki, əlavə təkliflər irəli sürüldükdə onları nəzərə almaq mümkün olsun.

İş planı hazır olduqda ona müvafiq dekanlıq baxaraq tərbiyə işləri üzrə prorektora təqdim edir. İş planı prorektor tərəfindən təsdiq edilir və akademik qrupun kuratoru artıq işə başlayır, nəzərdə tutulmuş tədbirləri qrup fəalları ilə təşkil edib həyata keçirirlər.

Ali təhsil müəssisəsində tərbiyə işlərinin planlı, məqsədyönlü təşkili və həyata keçirilməsi məqsədilə tərbiyə işləri üzrə prorektor ştatı müəyyənləşdirilmişdir. Prorektor da ali təhsil müəssisəsinin tərbiyəvi iş planını hazırlamalı və universitetin elmi şurasında təsdiqinə nail olmalıdır. Ali təhsil müəssisəsinin tərbiyəvi iş planı adətən iki cür hazırlanır: 1) perspektiv iş planı; 2) cari təqvim iş planı.

Perspektiv iş planında prorektorun tədris ili ərzində həyata keçirəcəyi işlər öz ifadəsini tapır. Bildiyimiz kimi, tərbiyə işi mürəkkəb, çoxcəhətli, dialektik və ziddiyyətli bir işdir. Onun hər bir xüsusiyyətini irəlicədən doğru-dürüst müəyyənləşdirmək olmur. Perspektiv plan ümumi xarakter kəsb edir.

Cari təqvim iş planı. Cari təqvim planı, bir qayda olaraq rüblük, aylıq və həftəlik hazırlanır, dəqiqliyi və konkretliyi ilə fərqlənir.

Akademik qrupun kuratoru rəhbəri olduğu qrupla əlaqədar təlim-tərbiyə içlərini planlaşdırarkən istər tərbiyənin məqsəd və vəzifələrini nəzərə almalı, eyni zamanda ali təhsil müəssisəsinin ümumi iş planını əsas götürməlidir.

Kurator tədbirlər planını tərtib edərkən tələbələrin bilik və tərbiyəlilik səviyyələrini, maraq və meyllərini, psixoloji keyfiyyətlərini diqqət mərkəzində saxlamalıdırlar.

Qrupa aid tərbiyəvi tədbirlər planı, adətən illik və yarımillik hazırlanır. Planlaşdırma zamanı bir sıra tələblər nəzərə alınmalıdır. Həmin tələblərə aiddir: məqsədaydınlığı, planın real olması, konkretlik tədbirin həyata keçirilməsi vaxtı və icraya məsul şəxs qeyd olunmalıdır), optimallıq, perspektivlik, yaşauyğunluq, işdə rejimin gözlənilməsi, yerli şəraitin hesaba alınması.

Tələbə qrupunun iş planının tərtibi zamanı əvvəldə qrupun ümumi səciyyəsi öz əksini tapır. Bu, bir sıra hallarda qrupun pasportu adlandırılır. İş planında qrup fəallarının səciyyəsi öz ifadəsini tapır.

İş planının növbəti bölməsinə "Tələbə kollektivi arasında görülən işlər" adı verilir. Bu bölmədə tədris ili dövründə tələbələrlə tərbiyəvi tədbirlərin əsas məzmunu verilir. Buraya nələr daxildir? Aydınlıq gətirək: 1. Tələbələr əqli tərbiyə işləri. 2. Mənəvi tərbiyə işləri. 3. Hüquqi maariflənmə işləri. 4. Ekoloji və iqtisadi tərbiyə işləri. 5. Əmək tərbiyəsi və fiziki mədəniyyətin formalaşdırılması üzrə işlər. 6.. Gənclər təşkilatı ilə işlər.

Tələbələr arasında mənəvi maariflənmənin təşkili və mənəvi mədəniyyətin, düzgün davranış və rəftar tərzinin tərbiyələndirilməsi işlərinin aparılması məqsədilə bu işin məqsədyönlü, məzmunlu, düzgün planlaşdırılması son dərəcə əhəmiyyətlidir.

Tələbə qrupunun tərbiyəvi iş planı iki əsas məqsədi izləməlidir:

1.Təhsil müəssisəsinin qarşısında duran tərbiyə, o cümlədən mənəvi tərbiyə prosesinin xüsusiyyətlərini özündə əks etdirməlidir.

2.Qrupun inkişaf səviyyəsinə, imkan və tələblərinə cavab verən şəkildə olmalıdır.

Akademik qrupun kuratoru tərbiyəvi iş planın müasir ali təhsil müəssisəsinin məqsədini və vəzifələrini, rəhbərlik etdiyi qrupun ümumi inkişaf səviyyəsini, tələbələrin hər birinin fərdi xüsusiyyətlərini, maddi imkanlarını, mənəvi, psixoloji və fiziki imkanlarını, sağlam həyat tərzinə hansı səviyyədə yiyələnmələrini hesaba almaqla tutulur.

İş planının girişində ("Qrupun pasportu"nda) tələbələrin ümumi sayı, oğlanların və qızların, əlaçıların sayı, adları, ata adları və soy adları öz əksini tapır. Haqqında danışılan hissədə eyni zamanda akademik qrupun kuratorunun, qrup nümayəndəsinin, qrup üzrə gənclər təşkilatı nümayəndəsinin, qrup üzrə özünüidarə orqanı rəhbərinin adları (ata adları, soy adları) qeyd olunur.

Akademik qrupun tərbiyə işləri planı layihə halında hazır olduğu təqdirdə o, ilk növbədə qrup fəalları, daha sonra qrupun bütün tələbələri ilə müzakirə edilir ki, əlavə təkliflər irəli sürüldükdə onları nəzərə almaq mümkün olsun.

İş planı hazır olduqda ona müvafiq dekanlıq baxaraq tərbiyə işləri üzrə prorektora təqdim edir. İş planı prorektor tərəfindən təsdiq edilir və akademik qrupun kuratoru artıq işə başlayır, nəzərdə tutulmuş tədbirləri qrup fəalları ilə təşkil edib həyata keçirirlər.

Tərbiyə işlərinin planlaşdırılması zamanı aşağıdakı tələblərin nəzərə alınması işin xeyrinə olardı:

*Məqsədyönlülük – qarşıda duran vəzifələrin aydın təsəvvür edilməsi.*

*2.Obyektivlik – ali təhsil müəssisəsinin fəaliyyət imkanları, müəllim və tələbələrin imkanlarına dair biliklər.*

*3.Perspektivlik – fəaliyyətin məqsədləri bəyənildikdə, anlaşılan, əlçatan olduqda.*

*4. Mürəkkəblik – forma, üsul, vasitə və fəaliyyət növlərinin vəhdəti, qarşılıqlı əlaqənin olması.*

*5. Davamlılıq – vaxtilə qazanılan təcrübənin hesaba alınması, təkrarçılığa yol verilməməsi,*

Ali təhsil müəssisəsində tərbiyə işlərinin planlı, məqsədyönlü təşkili və həyata keçirilməsi məqsədilə tərbiyə işləri üzrə prorektor ştatı müəyyənləşdirilmişdir. Prorektor da ali təhsil müəssisəsinin tərbiyəvi iş planını hazırlamalı və universitetin elmi şurasında təsdiqinə nail olmalıdır. Ali təhsil müəssisəsinin tərbiyəvi iş planı adətən iki cür hazırlanır: 1) perspektiv iş planı; 2) cari təqvim iş planı.

Perspektiv iş planında prorektorun tədris ili ərzində həyata keçirəcəyi işlər öz ifadəsini tapır. Bildiyimiz kimi, tərbiyə işi mürəkkəb, çoxcəhətli, dialektik və ziddiyyətli bir işdir. Onun hər bir xüsusiyyətini irəlicədən doğru-dürüst müəyyənləşdirmək olmur. Perspektiv plan ümumi xarakter kəsb edir.

Cari təqvim iş planı. Cari təqvim planı, bir qayda olaraq rüblük, aylıq və həftəlik hazırlanır, dəqiqliyi və konkretliyi ilə fərqlənir.

Təhsil müəssisələrində, o cümlədən institut və universitetlərdə bir qayda olaraq tərbiyəvi iş planının 3 növündən istifadə edirlər: **perspektiv, illik, cari**.

Planlaşdırmanın müddətləri planlaşdırmanın məqsədləri nəzərə alınmaqla müəyyən olunur. Belə ki, ***perspektiv plan*** ali təhsil müəssisəsini təxminən 4 ilini əhatə edir.

***Perspektiv plan***ın çox təfərrüatlı olması tələb edilmir. O, müəyyən bir dövrdən ötrü institut və ya universitetin fəaliyyəti və inkişafı üçün zəruri təlimatları müəyyənləşdirir. Perspektiv planın quruluşuna daxildir***:*** planlaşdırılan dövr üçün tələbə qrupunun qarşısında dayanan məqsədlər; tələbə kollektivinin illər üzrə inkişaf perspektivləri; tələbələrin müxtəlif kurslara, treninq və seminarlara cəlbi və s.; müəllim və tələbələrin sosial müdafiəsi, onların yaşayış və istirahət şəraitinin yaxşılaşdırılması.

*İllik plan* tərbiyə işləri bir tədris ili üçün planlaşdırılır.

İllik planın quruluşu: Tələbə qrupunda ötən tədris ilində aparılan təhsil-tərbiyə işlərinin nəticələrinin yığcam təhlili və yeni tədris ilində qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi; təhsil-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı professor-müəllim kollektivinin işi; ali məktəbdaxili və qrupdaxili nəzarət sistemi və s.

Cari planlaşdırma müvafiq gün ərzində həyata keçirilməsi nəzərdə tutulan işlərin planlaşdırılması ilə bağlıdır.

Ali təhsil müəssisələrində tədbirlər, adətən rüb, ay, həftə və tarix üzrə təşkil olunaraq həyata keçirilir.

Akademik qrupun kuratoru ilə tələbələr arasında qarşılıqlı əlaqənin xarakteri və səviyyəsi bəzi məqamlardan xeyli dərəcədə asılıdır: tələbələrin yaşından, kuratorun, tərbiyə işləri ilə məşğul olan müəllimlərin hazırlığından və planlaşdırma növündən.

**Problemin aktuallığı**. Ali təhsil müəssisələrində təhsil-tərbiyə işlərinin planlaşdırılması mühüm vəzifələrindən biridir. Ona görə də bu mövzuya müraciət olunması aktualdır.

**Problemin yeniliyi**. Tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi üzrə işlərin planlaşdırılması diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə magistrant, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat


1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. -Bakı: Mütərcim, -2021. – 608 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: Mütərcim, -2022. – 608 s.
3. Abbasov, A.N. Pedaqogika: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. -Bakı: Mütərcim, -2024. – 608 s.
4. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. -Bakı: Mütərcim, -2022. – 608 s.


**Redaksiyaya daxil olub***:* 03.04.2025

UOT 37.1

**Jalə Tofiq qızı Abbaszadə**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müəllimi*
*https://orcid.org/000000214129476*
*E-mail: jalieva80@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).82-85*

# BAYATI VƏ LAYLALARIN TƏRBİYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Жала Тофик гызы Аббасзаде**
*преподаватель кафедры Педагогики Бакинского Государственного Университета*

# ВОСПИТАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ БАЯТЫ И КОЛЫБЕЛЬНЫХ

**Jala Tofig Abbaszadeh**
*teacher of the department of Pedagogy at Baku State University*

# UPBRINGING FEATURES OF BAYATI AND LYRICS

**Xülasə.** Məqalə Azərbaycan xalqının folklor irsinə daxil olan bayatı və laylaların tərbiyəvi və pedaqoji xüsusiyyətlərini əhatə edir. Bayatılar, ənənəvi şeir və musiqi forması kimi, qısa və təsirli şəkildə əxlaqi dəyərləri, dostluğu, ailə birliyini və təbiət sevgisini tərənnüm edir. Onlar xalqın həyat fəlsəfəsini, dünyagörüşünü və dərin mənəvi mesajlarını özündə əks etdirir. Laylalar isə körpələrin yatdırılması üçün istifadə olunan, ana sevgi və şəfqətini ifadə edən mahnılardır. Onlar uşaqların sakitləşdirilməsinə, psixoloji rifahının təmin olunmasına və estetik zövqünün inkişafına töhfə verir. Nəticədə, bayatı və laylaların həm psixoloji, həm də tərbiyəvi potensialının geniş olduğu göstərilir.
***Açar sözlər:*** *bayatı, layla, xalq, cəmiyyət, ailə*

**Аннотация.** В статье рассматриваются воспитательные и педагогические особенности баятов и колыбельных песен, являющихся частью фольклорного наследия азербайджанского народа. Баяты, как традиционная форма поэзии и музыки, в краткой и эффективной форме воспевают моральные ценности, дружбу, семейное единство и любовь к природе. Они отражают жизненную философию народа, его мировоззрение и глубокие духовные послания. Колыбельные – это песни, используемые для убаюкивания младенцев, выражающие материнскую любовь и сострадание. Они способствуют успокоению детей, обеспечению их психологического благополучия и развитию эстетического вкуса. В результате показано, что баяты и колыбельные песни имеют широкий психолого-воспитательный потенциал.
***Ключевые слова:*** *баяты, колыбельные, народ, общество, семья*

**Abstract.** The article covers the educational and pedagogical features of bayati and lullabies, which are part of the folklore heritage of the Azerbaijani people. Bayati, as a traditional form of poetry and music, briefly and effectively glorifies moral values, friendship, family unity and love of nature. They reflect the people's philosophy of life, worldview and deep spiritual messages. Lullabies are songs used to put babies to sleep, expressing maternal love and compassion. They contribute to calming children, ensuring their psychological well-being and developing their aesthetic taste. As a result, it is shown that bayati and lullabies have a wide psychological and educational potential.
***Keywords****: bayati, lullaby, people, society, family*

Azərbaycan xalqının zəngin mədəni irsində yer alan bayatı və laylalar, sadəcə musiqi və ədəbiyyat növləri olaraq deyil, həm də pedaqoji və tərbiyəvi əhəmiyyət daşıyan əsərlər kimi diqqətə layiqdir. Hər iki janr, xalqın ənənələrini, dünyagörüşünü və həyat fəlsəfəsini özündə əks etdirərək uşaqların tərbiyəsində mühüm rol oynayır. Bayatı və laylalarda tərbiyə məsələlərinin tədqiqi, bu əsərlərin pedaqoji potensialını daha dərindən anlamağa kömək edəcək və onların

tədrisində istifadə üçün yeni yanaşmalar təklif edəcəkdir.

Bayatı və Layla janrlarının xüsusiyyətləri

1. Bayatılar! Bayatılar, Azərbaycan xalqının folklorunda ənənəvi olaraq istifadə olunan bir növ şeir və musiqi formasıdır. Bu şeirlər çox vaxt qısa və təsirli olur, həyatın müxtəlif anlarını, insanlar arasındakı münasibətləri və ümumi dünyagörüşünü əks etdirir. Bayatılar həm də sosial və tərbiyəvi mesajlar daşıyır. Məsələn, əxlaqi dəyərlər, dostluq, sevgi ailə, birliyi və təbiətə hörmət kimi mövzular tez-tez bayatılar da yer alır.

2. Laylalar: Laylalar əsasən uşaqların yatdırılması və yuxusunun əmin-amanlıq içində keçməsi üçün oxunan mahnılardır. Onlar həm də ananın və ya digər yaxın şəxslərin uşağa sevdiyi sevgi, şəfqət və qayğını ifadə edir. Laylaların musiqisi adətən sakitləşdirici və yuxuya gətiricidir. Amma eyni zamanda dərin mənəvi və tərbiyəvi mesajlar verir. Uşağa qarşı qayğı, əxlaqi dəyərlər sevgi və mədəniyyətin təbliği bu janrın əsas məqsədlərindəndir.

Bayatı və laylalarda müxtəlif tərbiyəvi məsələlər yer alır.

1. Əxlaqi dəyərlərin təbliği.

Bayatılarda cəmiyyətin əxlaqi prinsipləri və yaxşılıq, doğruluq kimi dəyərlər təşviq edilir. Laylalar isə uşaqlara mərhəmət, təvazökarlıq və ətraf mühitlə harmoniyada yaşamağı öyrədir.

2. Təbiətə və ətraf mühitə hörmət. Bayatılarda təbiət və onun gözəllikləri çox vaxt sevilir və təriflənir. Uşaqlara təbiətin dəyəri və ona qarşı hörmətli münasibət aşılanır. Laylalarda isə təbiət və heyvanlar haqqında sevgi və qayğı xüsusilə önə çıxır.

3. Ailə və ictimai münasibətlər. Bayatılarda ailə içindəki münasibətlər və həmrəylik ön planda tutulur. Xüsusilə, valideynlər uşaqlarına düzgün tərbiyə vermək, onların sosial məsuliyyətlərini anlamalarına kömək etməkdə vacib rol oynayırlar. Laylalar isə ana-uşaq münasibətinin, şəfqətin və qayğının vurğulandığı bir mühit yaradır.

4. Uşaqlara psixoloji dəstək: Laylalar uşaqların yuxu prosesində onlara rahatlıq və təhlükəsizlik hissi verir. Bu mahnılar uşaqların emosional inkişafını dəstəkləyərək onların psixoloji sağlamlıqlarına müsbət təsir göstərir.

Bayatı və laylaların pedaqoji potensialı olduqca genişdir. Bu əsərlərin tədris prosesində istifadəsi, uşaqların mənəvi və əxlaqi inkişafını dəstəkləyər, eyni zamanda onların sosial bacarıqlarını formalaşdırmağa kömək edər. məktəblilərdə və uşaq bağçalarında bayatı və laylaların tədris planlarına daxil edilməsi. Həm də uşaqların milli mədəniyyəti mənimsəmələrinə şərait yaradır.

1. Ədəbiyyat və musiqi tədrisi. Bayatılar və laylalar musiqi və ədəbiyyat dərslərində tədris edilə bilər. Onlar şeir sənətini və musiqini birləşdirərək uşaqlarda estetik zövqün inkişafına kömək edir.

2. Tərbiyəvi müəllimlik yanaşmaları. Uşaqların tərbiyə edilməsi prosesində müəllimlər, bayatılardan və laylalardan istifadə edərək şagirdlərə sosial məsuliyyət, ailə birliyi, əxlaqi dəyərlər və mədəniyyətin vacibliyini aşılaya bilərlər. Bu əsərlər həmçinin sinif otağında müsbət emosional atmosferin yaradılmasında da rol oynayır.

Nəğmələrin çox yayılmış növlərindən olan bayatılar tərbiyə zamanı mühüm rola malikdir. Xalq öz arzu və istəklərini, sevinc və kədərlərini, milli dəyərlərini bayatılarda ifadə etmişlər. dərin və mənalı bir fikri kiçik bir parçada ifadə edə bilmək bayatının ən yaxşı xüsusiyyətlərindəndir.

Bülbül dolubdur bağa,
Bir su salıbdır bağa.
Sayanın qulu ol sən,
Saymayana ol ağa [4, s. 128].

Vətən və qəhrəmanlıq mövzusuna aid bir neçə bayatı nümunəsinə baxaq.

Çiçəyim gülüm verən,
Ağzımda dilim vətən.
Bir çakıl daşın üçün [4, s.46].

Əziziyəm dilən gəz,
Bağda gülə diləngəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz [2, s. 146].

Qəribdən gərib quşam,
Vətəndən ayrılmışam.
Hər quşun yuvası var,
Mən bir yuvasız quşam [4, 285].

Burdan oldu yolum tən,
Varmı bu yoldan ötən!
Bu dünyada şirin şey,

Bir anadır, bir Vətən [5, s. 7].

İgid gərək atlana,
Atın minə atlana.
Mərd odur ki, döyüşdə
Hər yaraya qatlana [4, s. 24].

Bu misralarda qəribçilik, həsrət, Vətən sevgisi, qürbət, motivləri mühüm əhəmiyyət kəsb edir və hər birinin özünəməxsus tərbiyəvi xarakteri vardır. Əsas əhəmiyyətli cəhət də budur ki, tədris zamanı bu mövzulu bayatılar vasitəsilə uşaqların hafizəsində vətənin hər şeydən müqəddəs, dəyərli olmasını həkk olunur.

Bildiyimiz kimi bayatılar məzmununa görə rəngarəngdir. Məzmununda bacı qardaşa, ana-ataya olan hörmət, ehtiram, dəyər, sədaqət ifadə edən bayatılar da uşaqların tərbiyəsində mühüm əhəmiyyətə malikdir.

Bu yurdun tacı bağlar,
Meyvəsi acı bağlar.
Ağrısa qardaş bacı,
Genə də bacı ağlar [4, s. 121].
Burda bir göyçək ağlar,
Gələr ağbirçək ağlar.
Yad ağlar, yalan ağlar,
Öz anam gerçək ağlar [4, s. 127].
Aşıq, qardaşı düşər,
Yağar qar daşa düşər.
Qardaşın miskil işi,
Yenə qardaşa düşər [4, s. 60].
Bu yerdə gülən olsa,
Tərimi silən olsa.
Qardaşlıq gözəl şeydir.
Qədrini bilən olsa [4, s.233].
Bürüyübdür qar daşı,
Get, dağlardan qar daşı.
Bayramı o gün eylər,
Bacı görsə qardaşı [4, s.101].

Mövzu baxımından dostluq, yoldaşlıq, sədaqət və s. özündə əks etdirən bayatılardan da istifadə etməklə şagirdlərdə sədaqətli, səmimi, dürüst dostluq kimi keyfiyyətlər tərbiyə etmək olar.

Bülbül güldən həzz alar,
Gül saralar tez solar.
Tikə ilə dost olan,
İlcə küsülü qalar [4, s.128].
Donu tik üz ilməni,
sanə tək üz ilməni.
Vəfalı dost-yad olmaz,
Görməyə yüz il məni [1, s.126]
Bu gedən hay da verməz,
Çağırası hayda verməz.
Bir dost bivəfa olsa,
Dostuna fayda verməz. [4, s.127-128].
Bülbül uçar bu dala,
Qonar o dala, bu dala,
Dost sözü açıq deyər,
Düşmən deyər budala [4.s.127].

Bu bayatıların vasitəsi ilə uşaqlarda səmimi dostluq, dostluqda sədaqətin vacibliyi, açıq sözlülük və s. bu kimi keyfiyyətləri aşılamış olarıq.

Dost-dost ilə qaç olmaz,
Bir tücəylə ac olmaz.
Zəhmət, çəkən, iş görən,
Özgəyə möhtac olmaz. [3.s219].
Tüstülənər bacalar,
Ocaq üstə saç olar.
Zəhmət sevən gün görək,
Tənbəl hər vaxt ac olar [3, s. 219].
Güllərin həşim olsun,
Gün vursun həşim olsun,
Var dövlətin olunca
Sənətin, peşən olsun [7, s. 221].
Güllərin bir-bir sana,
Yaz verər bir sirr sana.
Bir elm bir də sənət,
Xəzinədar insana [3, s. 224].

Misralardan da göründüyü kimi xalq əməyə, zəhmətə, sənətə, elmə həmişə yüksək dəyər vermişdir. Bekarçılıq korluq gətirər“ [3, s. 218] deyən xalq əməyə, əməkçiyə yüksək qiymət vermiş, yaxşı, firavan yaşamaq heç kimə möhtac olmamaq üçün mütləq sənədə sahib olmağın vacibliyini dönə-dönə vurğulamışlar.

Şifahi xalq yaradıcılığının janrlarından laylalar, oxşamalar, əzizləmələr tərbiyə vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Laylalarda analar öz övladlarına olan sonsuz, məhəbbəti, gələcək nailiyyətləri, xoş günləri, xoş arzuları ifadə olmuşdur. Ananın öz övladına verdiyi xeyir-duaları öz əksini tapmışdır.

Nərgizi ümum laylay,
Yaxana duzum laylay.
Sən böyü mən qocalım,
Toyunda süzüm laylay [2, s. 162].

Laylay, beşiyim laylay,
Evim eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.

Laylasın dərin bala,
Yuxusun sərin bala.
Sən get şirin yuxuya,
Toyunu görüm bala [2, s. 162].

Körpələrin şirin yuxuya getməsi üçün laylalar bir vasitədir.

**Problemin aktuallığı.** Uşaqların estetik tərbiyəsinin inkişafı üçün laylalar və bayatılar ən təsirli və güclü vasitələrindəndir. Bu şifahi xalq yaradıcılığı nümunələri folklor elementlərinin tərbiyəvi potensialını ortaya qoyur və onların tədrisdə daha effektiv istifadə yollarını göstərir. Bu janrların təhsil prosesində inteqrasiyası, həm də milli mədəniyyətin qorunmasına və təbliğinə xidmət edəcəkdir.

**Problemin yeniliyi.** Özündə tərbiyəvi mövzuları ehtiva edən bayatı və laylalardan istifadə etməklə uşaqlarda əməyə, dostluğa, əməkçiyə, Vətənə, anaya, ailəyə sevgi və hörmət kimi mənəvi keyfiyyətlər tərbiyə etmiş oluruq.

**Problemin praktik əhəmiyyəti.** Təhsil müəssisələrində bu istiqamətdə metodiki vəsaitlərin, dərslik və monoqrafiyaların hazırlanmasında, elmi aspektə daxil olan ayrı-ayrı simpoziumlarda məruzə və çıxışların tərtib olunmasında istifadə edilmə imkanlarını artırır.

## Ədəbiyyat

1. Azərbaycan bayatıları. / -Bakı: XXI Yeni nəşrlər evi, -2004. - 304 s.
2. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P. Əfəndiyev. -Bakı: Maarif, -1981. -406 s.
3. Həşimov, S. Azərbaycan xalq pedaqogikası /S. Həşimov, B. Sadıqov. - Bakı: Patronat-1993, -325s.
4. Pirsultan, S.T. Azərbaycan Oğuz ədəbiyyatı bayatıları / S.T. Pirsultan. -Gəncə, -2012. -377 s.
5. Səlimxanova, X. Məktəbəqədər tərbiyə müəssisələrində şifahi xalq ədəbiyyatının öyrənilməsi / X. Səlimxanova.- Bakı: Maarif, -1985. -195 s.
6. Qasımova, L. Pedaqogika / L.N. Qasımova, R.B. Mahmudova. Bakı, -2021, -s.610.

**Redaksiyaya daxil olub:** 19.02.2025.

UOT 37.01

**Səbinə Xeyrulla qızı Piriyeva**
Sumqayıt Dövlət Universitetinin nəzdində
Sumqayıt Dövlət Texniki Kollecinin müəllimi
https://orcid.org/0009-0000-2785-6587
E-mail: sabina.m.79@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(2).86-89

# MƏNƏVİ-ƏXLAQİ İNKİŞAFDA TƏMƏL MİLLİ DƏYƏRLƏR

**Сабина Хайрулла гызы Пириева**
преподаватель Сумгаитского Государственного Технического Колледжа при Сумгаитском Государственном Университете

# ОСНОВНЫЕ НАЦИОНАЛЬНЫЕ ЦЕННОСТИ В ДУХОВНО-НРАВСТВЕННОМ РАЗВИТИИ

**Sabina Kheyrulla Piriyeva**
teacher of Sumgait State Technical College
under Sumgait State University

# BASIC NATIONAL VALUES IN SPIRITUAL AND MORAL DEVELOPMENT

**Xülasə.** Bu məqalənin məqsədi Azərbaycan xalqının fəlsəfi-pedaqoji irsində uşaqların mənəvi-əxlaqi tərbiyəsinin təşkilinin konseptual ideyalarını təhlil etməkdir. Məqalədə müəllif mənəvi-əxlaqi inkişaf və tərbiyə anlayışlarını və onların təşkili prinsiplərini açıqlayır. Problemlərin tədqiqi gənclərin mənəvi-əxlaqi inkişafı və tərbiyəsi problemlərinin həlli prinsiplərini müəyyən etməyə, həm ümumbəşəri, həm mənəvi, həm də milli dəyərləri özündə əks etdirən ideya və konsepsiyaların bütöv təbəqəsini pedaqogikaya təqdim etməyə imkan verəcəkdir.
***Açar sözlər:*** *mənəvi-əxlaqi inkişaf, sosiallaşma, milli dəyərlər, vətəndaş cəmiyyəti, din, insanlıq, vətənpərvərlik , sosial həmrəylik, vətəndaşlıq*

**Аннотация.** Цель данной статьи – проанализировать концептуальные идеи организации духовно-нравственного воспитания детей в философско-педагогическом наследии азербайджанского народа. В статье, автор раскрывает понятие духовно-нравственного воспитания и его принципы организации. Исследование проблем позволит определить принципы решения вопросов духовно-нравственного развития и воспитания молодежи, сделать достоянием педагогики целый пласт идей и концепций, отражавших как общечеловеческие, так и духовные, и национальные ценности.
***Ключевые слова:*** *духовно-нравственное развитие, социализация, национальные ценности, гражданское общество, религия, гуманизм, патриотизм, социальная солидарность, гражданственность*

**Abstract.** The purpose of this article is to analyze the conceptual ideas of the organization of spiritual and moral education of children in the philosophical and pedagogical heritage of the Azerbaijani people. İn the article, the author explains and education and the principles of solving the problems of spiritual and moral development and education of young people, and to present to pedagogy a whole layer of ideas and concepts that include both universal, moral and national values
***Key words:*** *Spiritual and moral development, socialization, national values, civil society, religion patriotism, humanity, social solidarity, citizenship*

Mənəvi-əxlaqi inkişafın, tərbiyənin və sosiallaşmanın əsas məzmunu çoxmillətli Azərbaycan xalqının ictimai-tarixi, mədəni və ailə ənənələrində qorunan, nəsildən-nəslə ötürülən və ölkənin müasir şəraitdə uğurlu inkişafını təmin edən təməl milli dəyərlərdir.

Əsas milli dəyərlər bütün tarixi və mədəni dolğunluğu və etnik müxtəlifliyi ilə Azərbaycanın milli həyatından irəli gəlir. Milli həyat sfera-

sında əxlaqın və insanlığın qaynaqlarını, yəni sosial münasibətlərin, fəaliyyətin və şüurun o sahələrini müəyyən etmək olar ki, bunlara arxalanmaq insana dağıdıcı təsirlərə qarşı durmağa, öz şüurunu, həyatını, sosial münasibətlər sistemini məhsuldar şəkildə inkişaf etdirməyə imkan verir.

Ənənəvi əxlaqın mənbələri bunlardır: Azərbaycan, onun etnik tərkibi, vətəndaş cəmiyyəti, ailə, əmək, incəsənət, elm, din, təbiət, insanlıq.

Ənənəvi əxlaq mənbələrinə uyğun olaraq, hər biri mənəvi dəyərlər (ideyalar) sistemində üzə çıxan təməl milli dəyərlərlə müəyyən edilir:

• vətənpərvərlik – Azərbaycana, öz xalqına, kiçik vətəninə məhəbbət, Vətənə xidmət;

• sosial həmrəylik – şəxsi və milli azadlıq, insanlara, dövlət institutlarına və vətəndaş cəmiyyətinə inam, ədalət, mərhəmət, şərəf, ləyaqət;

• vətəndaşlıq – Vətənə xidmət, qanunun aliliyinə, vətəndaş cəmiyyətinə, asayişə, multikultural dünyaya, vicdan və dini etiqad azadlığına;

• ailə – məhəbbət və sədaqət, sağlamlıq, firavanlıq, valideynlərə hörmət, qocalara və gənclərə qayğı, nəslin davamına qayğı;

• əmək və yaradıcılıq - əməyə hörmət, yaradıcılıq, qətiyyət və əzmkarlıq;

• elm – biliyin dəyəri, həqiqət axtarışı, dünyanın elmi mənzərəsi;

• ənənəvi rus dinləri – dinlərarası dialoq əsasında formalaşmış iman, mənəviyyat, insanın dini həyatı, dini dünyagörüşünün dəyəri, tolerantlıq haqqında təsəvvürlər;

• incəsənət və ədəbiyyat – gözəllik, harmoniya, insanın mənəvi dünyası, əxlaqi seçim, həyatın mənası, estetik inkişaf, etik inkişaf;

• təbiət – təkamül, doğma torpaq, qorunan təbiət, Yer planeti, ekoloji şüur;

• bəşəriyyət – bütün dünyada sülh, mədəniyyətlərin və xalqların müxtəlifliyi, bəşəriyyətin tərəqqisi, beynəlxalq əməkdaşlıq.

Təməl milli dəyərlər gənclərin mənəvi-əxlaqi inkişafı və tərbiyəsinin ayrılmaz hissəsinin, yəni gənclərin təhsildə, ailədə və cəmiyyətdəki fəaliyyətlərini müəyyən edən bütün həyatının strukturunun əsasını təşkil edir. Belə bir şəraiti təşkil etmək və onun tam fəaliyyətini təmin etmək üçün yaşam prosesində iştirak edən bütün sosial subyektlərin: ailələrin, ictimai təşkilatların, o cümlədən uşaq və gənclər hərəkatlarının və təşkilatlarının, əlavə təhsil, mədəniyyət və idman müəssisələrinin, kütləvi informasiya vasitələrinin, ənənəvi rus dini birliklərinin birgə səyləri tələb olunur. Yetişən nəslin həyatının strukturunun yaradılmasında aparıcı, məzmunlu müəyyənedici rol təhsil prosesinin subyektlərinə aiddir.

Əsas milli dəyərlər sistemi vahid millət ideyasının və əsas ictimai qüvvələrin milli problemlərin həllində, o cümlədən uşaq və gənclərin tərbiyəsində ümumi dəyərlərə və sosial mənalara əsaslanan vətəndaş birləşməsinə hazır olmasının əsasını təşkil edir.

Təməl milli dəyərlərə üzrə vətəndaş konsensusuna nail olmaq Azərbaycan təhsil məkanının vahidliyini gücləndirəcək, ona açıqlıq, dialoq, mədəni və sosial dinamizm verəcəkdir.

Əsas milli dəyərlər yönündə vətəndaş həmrəyliyi millətin özünün və onun dəyərlərinin vahidliyi, mənəvi və sosial birliyi ilə heç bir əlaqəsi yoxdur. Millət birliyi müxtəlif siyasi-ictimai qüvvələrin, etnik və dini icmaların dialoqunda təməl dəyər konsensusu ilə əldə edilir və onların bir-birinə açıq olması, milli problemlərin birgə həllinə hazır olması, o cümlədən ölkəmizin inkişafının əsası kimi uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə dəstəklənir.

Azərbaycan vətəndaşının şəxsiyyətinin, gənclərin mənəvi həyat tərzinin mənəvi-əxlaqi inkişafı və tərbiyəsi üçün sosial açıq məkanın təşkili aşağıdakılar əsasında həyata keçirilir:

• tərbiyə edənin əxlaqi nümunəsi;

• sosial-pedaqoji tərəfdaşlıq;

• fərdi -şəxsi inkişafı;

• mənəvi-əxlaqi tərbiyə proqramlarının inteqrasiyası;

• tərbiyəyə sosial tələbat.

Tərbiyə edənin əxlaqi nümunəsindən danışarkən görkəmli alman pedaqoqu A. Disterverqin sözlərini xatırlamaq lazım gəlir. O deyirdi ki, "hər yerdə məktəbin dəyəri onun müəlliminin dəyərinə bərabərdir" Müəllim əxlaqlılığı, onun peşə fəaliyyətində və həyatında əməl etdiyi əxlaq normaları, pedaqoji fəaliyyətinə, yetirmələrinə, həmkarlarına münasibətidir ki – bütün bunlar tərbiyə olunanın mənəvi-əxlaqi inkişafı və tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb edir. Müəllim həmişə yetirmələri üçün əxlaq və vətəndaş -şəxsi davranış nümunəsi kimi çıxış etməsə, heç bir təhsil proqramı effektiv olmayacaq.

Pedaqoji dillə desək, əsas milli dəyərlər arasında uşaqların ruhunda bütün digər dəyərlərə can

verən, ən mühüm, sistem formalaşdıran birinin – Müəllimin dəyərini müəyyən etmək lazımdır.

Müəllimlərin dövlət və sosial vəziyyətini, onların maddi təminatı səviyyəsini əhəmiyyətli dərəcədə artırmaq vacibdir. Müəllim cəmiyyətdə hörmətli insana çevrilməli, müəllimlik peşəsi gənclər üçün nüfuzlu olmalıdır.

Müasir şəraitdə sosial-pedaqoji tərəfdaşlıq olmadan təhsil prosesinin subyektləri gənclərin tam mənəvi-əxlaqi inkişafını və tərbiyəsini təmin edə bilmirlər. Bu milli problemi həll etmək üçün sosiallaşmanın digər subyektləri: ailə, ictimai təşkilatlar və ənənəvi rus dini birlikləri, əlavə təhsil, mədəniyyət və idman müəssisələri, media ilə pedaqoji cəhətdən uyğun tərəfdaşlıq qurmaq lazımdır.

Sosial-pedaqoji tərəfdaşlığın təşkili ümumtəhsil müəssisələrinin və digər sosiallaşma subyektlərinin sosial-təhsil proqramlarının milli tərbiyə idealı və əsas milli dəyərlər əsasında əlaqələndirilməsi yolu ilə həyata keçirilə bilər. Bu, təhsil və sosiallaşma subyektlərinin belə proqramların hazırlanmasında və həyata keçirilməsində maraqlı olması şərtilə mümkündür.

Sosial-pedaqoji tərəfdaşlığın inkişafı dövlət siyasətinin prioritet sahəsinə çevrilməlidir. Fərdi-şəxsi inkişaf 90-cı illərdə pedaqogikanın prioriteti idi. O XXI əsrdə də müasir təhsilin ən mühüm vəzifələrindən biri olaraq qalır. Mənəvi-əxlaqi inkişaf məkanında özünün reallaşmasının dolğunluğunu əldə edir.

Şəxsiyyətin öz müqəddəratını təyin etməsinə, onun qabiliyyət və istedadının inkişafına pedaqoji dəstək, uğurlu ictimailəşmə üçün zəruri olan sistemli elmi bilik, bacarıq, bacarıq və səriştələrin ötürülməsi özlüyündə şəxsiyyətin sərbəst inkişafı və sosial yetkinləşməsi üçün kifayət qədər şərait yaratmır. İnsan yaxşını şərdən ayırmasa, həyata, işinə, ailəsinə, başqa insanlara, cəmiyyətə, Vətənə, yəni insanın özünü mənəvi cəhətdən təsdiq etdiyi, şəxsiyyətinin formalaşdığı hər şeyə dəyər verməsə, azad deyildir. Elm biliyi və yaxşılıqdan xəbərsiz olmaq, iti ağıl və kar ürək insana təhlükə yaradır, onun şəxsi inkişafını məhdudlaşdırır və eybəcərləşdirir.

Şagirdlərin mənəvi-əxlaqi inkişafı və tərbiyəsi gənclərin əsas fəaliyyət növlərinə inteqrasiya edilməlidir: sinifdaxili, məktəbdənkənar, məktəbdənkənar və ictimai faydalı. Başqa sözlə, mənəvi-əxlaqi təhsil proqramlarının inteqrasiyası zəruridir. Belə proqramlardan biri dini mədəniyyətin və dünyəvi həyatın mənəvi əsaslarının öyrədilməsi ola bilər.

Təhsilin məzmunu təməl milli dəyərlər ətrafında qruplaşdırılır. Pedaqoji dillə desək, onların hər biri insanın özünə ünvanladığı sual, müəllimin şagirdə verdiyi sual kimi formalaşır. Bu, təhsil fəaliyyətinin məqsədi olan təhsil vəzifəsidir.

Pedaqoji cəhətdən sual kimi müəyyən edilən əsas dəyərlərin hər biri təhsil vəzifəsinə çevrilir. Bunu həll etmək üçün tələbələr müəllimlər, valideynlər və digər mənəvi, mədəni və sosial həyatın subyektləri ilə birlikdə məzmuna müraciət edirlər:

- Azərbaycanın, Azərbaycan xalqlarının, ailəsinin tarixi
- valideynlərinizin və əcdadlarınızın həyat təcrübəsi;
- ənənəvi dinlər;
- ədəbiyyat və incəsənət əsərləri, milli və dünya mədəniyyətinin ən yaxşı nümunələri;
- dövri ədəbiyyat, müasir həyatı əks etdirən media;
- Azərbaycanda yaşayan xalqların folkloru;
- ictimai faydalı və şəxsi əhəmiyyətli fəaliyyət;
- akademik fənlər;
- digər məlumat və elmi bilik mənbələri.

Təməl dəyərlər müəyyən bir fənnin, təhsil fəaliyyətinin formasının və ya növünün məzmununda lokallaşdırılmır. Onlar bütün təhsil məzmununu, məktəb həyatının bütün strukturunu, gəncin şəxsiyyət, fərd, vətəndaş kimi bütün çoxşaxəli fəaliyyətlərini əhatə edir.

**Problemin aktuallığı**. Əsas milli dəyərlər sistemi şəxsiyyətin mənəvi-əxlaqi inkişafı məkanı üçün semantik əsas yaradır. Bu məkanda ayrı-ayrı akademik fənlər, məktəb və ailə, məktəb və cəmiyyət, məktəb və həyat arasında maneələr aradan qaldırılır.

Sosial tələb prinsipi onu göstərir ki, təhsilin effektiv olması üçün uşağın, onun ailəsinin, digər insanların və cəmiyyətin həyatında tələbat olmalıdır. Uşağın sosiallaşması və vaxtında sosial yetkinləşməsi onun yaşlı cəmiyyətin problemlərinin həllinə könüllü və mümkün daxil edilməsi ilə baş verir. Tam mənəvi-əxlaqi inkişaf o zaman baş verir ki, təhsil yalnız şagirdə müəyyən dəyərlər haqqında məlumat verməklə məhdudlaşmır, mənəvi fəaliyyət üçün imkanlar açır.

**Problemin yeniliyi.** Mənəvi inkişaf həyatla, əxlaqi seçim əsasında həll edilməli olan real sosial problemlərlə bağlı olduqda mənalı dolğunluğa çatır və şagirdin özü üçün aktuallaşır. Özünüzü daha əxlaqlı, daha mehriban, daha saf etmək ətrafınızdakı dünyanı eyniləşdirmək deməkdir.

Mənəvi inkişaf və təhsil proqramları tələbələrin ailənin, məktəbin, kəndin, rayonun, şəhərin, bölgənin, respublikanın, Azərbaycanın real sosial, ekoloji, mədəni, iqtisadi və digər problemlərinin həllinə könüllü və mümkün cəlb edilməsini təmin etməlidir. Sosiallaşmanın ənənəvi və özünü doğrultmuş forması uşaq və gənclər hərəkatları, təşkilatlar və icmalardır. Onların tarixi və sosial əhəmiyyətli məqsədləri və onlara nail olmaq üçün proqramları olmalıdır.

**Problemin praktik əhəmiyyəti** "Məktəb-ailə-cəmiyyət" sistemində tərbiyə prosesinin təşkili təkcə öyrədən deyil, həm də tərbiyə etmək qabiliyyətinə malik pedaqoqlar tələb edəcəkdir.

Beləliklə, Azərbaycan vətəndaşının mənəvi-əxlaqi inkişafı və tərbiyəsi ölkənin inkişafında, xalqın mənəvi birliyini və onları birləşdirən mənəvi dəyərləri, siyasi və iqtisadi sabitliyi təmin edən əsas amildir. Şəxsiyyəti, onun daxili həyatının vəziyyətini və keyfiyyətini nəzərə almadan müasir innovativ iqtisadiyyat yaratmaq mümkün deyildir.

Cəmiyyətin inkişafının tempi və xarakteri birbaşa insanın vətəndaş mövqeyindən, onun motivasiya-iradi sferasından, həyat prioritetlərindən, əxlaqi inamlarından, əxlaq normalarından və mənəvi dəyərlərdən asılıdır.

## Ədəbiyyat


1. Şahhüseynova S.A. Etika: İncəsənət təmayüllü ali məktəb tələbələri üçün dərslik / S.A. Şahhüseynova..- Bakı: - 2009.- 160 s.
2. Bağırov, S. İşguzar etika: dərs vəsaiti / S. Bağırov. –Bakı: Ecoprint, – 2003. s. 65-70.
3. Rzayev M. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodikası / M. Rzayev. –Bakı: Mütərcim, – 2009. - 119 s.
4. Şəkixanova M. M. Sufizm fəlsəfəsinin «kamil insan» konsepsiyası: / fəlsəfə üzrə fəlsəfə doktoru dis. avtoreferatı) / - Bakı, 2006. -26 s.
5. Əliyev, Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi: Monoqrafiya / Q.C. Əliyev. -Bakı: Qismət, - 2003. – 248 s.


**Redaksiyaya daxil olub:** 17.02.2025.

***AUTİST YENİYETMƏLƏRLƏ İŞ***
***РАБОТА С АУТИСТИЧНЫМИ ПОДРОСТКАМИ***
***WORKING WITH AUTISTIC TEENAGERS***

*UOT 615.851.*

***Tura Əli qızı Əliyeva***
*Gəncə Dövlət Universitetinin baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0005-4237-8751*
*E-mail: tureeliyeva@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).90-93*

## MƏKTƏBDƏ İNTELLEKTUAL İNKİŞAFI LƏNGİYƏN AUTİST-YENİYETMƏLƏRİN DİAQNOSTİKASI

***Тура Али гызы Алиева***
*преподаватель Гянджинского Государственного Университета,*
*доктор философии по педагогике*

## ДИАГНОСТИКА ОТСТАЮЩИХ В ИНТЕЛЛЕКТУАЛЬНОМ РАЗВИТИИ АУТИСТОВ-ПОДРОСТКОВ В ШКОЛЕ

***Tura Ali Aliyeva***
*lecturer at Ganja State University,*
*doctor of philosophy in pedagogy*

## DIAGNOSTICS OF AUTYST REGULATION SCHOOLS FOR INTELLECTUAL DEVELOPMENT

**Xülasə.** Mətndə göstərilir ki, autizmin ən ümumi xarakteristikaları arasında sosial qarşılıqlı əlaqələrdə, dil və ünsiyyət bacarıqlarında çatışmazlıq, təkrarlanan davranışlar, eyniliyə həddindən çox bağlılıq kimi xüsusiyyətlər yer almaqdadır. Əqli geriliyi olan şagirdlərin diaqnostikası zamanı onların koqnitiv qabiliyyətlərinin məhdud olması, onun uşaqların təlim fəaliyyətinə təsiri, normal həmyaşıdlarına nisbətən onların mənimsəmə imkanlarının zəif olması nəzərə alınmalıdır. Bu vaxt yadda saxlamaq lazımdır ki, proqram materialları ağırlaşdırıldıqda autist-uşaqların əqli və intellektual inkişafları ləngiyir.
**Açar sözlər:** *intellektual inkişaf, autist yeniyetmə, fəaliyyətin monitorinqi, funksional diaqnostika, alqoritmik diaqnostika.*

**Аннотация.** В тексте показано, что среди наиболее распространенных характеристик аутизма считаются недостаток социального взаимодействия, языковых и коммуникативных навыков, повторяющееся поведение и чрезмерная привязанность к идентичности. При диагностике учащихся с умственной отсталостью важно учитывать ограничения их когнитивных способностей, влияние их на учебную деятельность и их слабые возможности освоения в отличие от нормальных сверстников. В то же время важно помнить, что у детей-аутистов с проблемами умственного и интеллектуального развития при перенагрузке программного материала замедляется их развитие.
***Ключевые слова:*** *интеллектуальное развитие, подросток – аутист, мониторинг деятельности, функциональная диагностика, алгоритмическая диагностика.*

**Abstract.** Article deals with research, the most common features of autism are the lack of social interaction, lack of language and communication capabilities, repetitive behaviors, and excessive loyalty. That when diagnosing students with mental retardation, it is important to take into account the limitations of cognitive abilities, their impact on learning activities, and their ability to master unlike their normal age. At the same time, it is important to remember that overload of software with autistic children with mental, intellectual development problems slows down its development.
***Key words:*** *intellectual development, autistic adolescents, activity monitoring, functional diagnostics, algorithmic diagnostics.*

İnkişaf etmiş qərb ölkələrində inklüziv təhsilin tarixi 50 ilə yaxın bir dövrü əhatə edir. Son illərdə Azərbaycanda da təhsilin bu sferasına maraq və diqqət xeyli artmışdır. Qeyd etmək lazımdır ki, psixi inkişafında problemi olan uşaqların sayı son dövrlərdə demək olar ki, xeyli artmışdır. İntellektual inkişafı yüngül formada ləngiyən, o cümlədən autist uşaqların demək olar ki, əksəriyyəti ümumtəhsil məktəblərində təhsil alırlar [2, s.55]. Əlbəttə bu, məktəb üçün, sinif kollektivi üçün xeyli sayda problemlərin yaranmasına səbəb olur. Azərbaycan psixoloqu, professor Ramiz Əliyev göstərir ki, psixi proseslərin dərinliyini əks etdirən uydurulmuş fantastik aləm bəzi insanlarda tədricən təfəkkürü şərtləndirən amilə çevrilir. Bu hadisəyə autistik təfəkkür deyilir.

"Autizm şəxsi hisslərə elə dərindən aludə olmaqdır ki, reallıq hissi itir, onunla əlaqə kəsilir, ətrafdakılarla ünsiyyətə maraq azalır. Autistik təfəkkür arzuların xəyalən "reallaşmasıdır"; gəlinciklə oynayan qız xoşbəxt ana, oğlan general olur. Xəyalən xoşbəxt günlər yaşanılır. Yuxuda isə ən gizli arzular "həyata keçir" [3, s.202].

R.İ. Əliyev göstərir ki, autistik təfəkkür real həyata təsir etmək imkanında deyil, yəni o, qeyri-məhsuldar fantaziyadır. Autistik təfəkkür psixi reallığın, arzu, motiv, meyl, emosional reaksiyanın kompleks təsirindən yaranır və insanın psixi vəziyyətini əks etdirir.

Belə şagirdlər adətən pis oxuyur, təlim materiallarını mənimsəməkdə, məktəb həyatına adaptasiya olunmaqda çətinlik çəkir, onlardan tələb olunan qaydalara əməl edə bilmirlər. İntellektual inkişafında ləngimələr olan autist uşaqların dezadaptasiyası mütəxəssislər və pedaqoqlar tərəfindən birmənalı şəkildə qəbul olunur. Onlar bir qayda olaraq tənbəl, kriminal davranışa meylli olurlar. İntellektual inkişafında ləngimələr olan yeniyetmə autistlər üçün təhsilə neqativ münasibət, özünütəsdiq motivinin aşağı olması xarakterikdir. Bu tip yeniyetmələrdə təlimə az da olsa maraq yaratmaq üçün onları daim nəzarətdə saxlamaq, bu istiqamətdə təlimi optimallaşdırmaq vacibdir. Bununla yanaşı bütün sahələr üzrə şagird haqqında məlumatlar toplanmalı, təhlil olunmalı, fəaliyyət sahələri arasında əlaqə yaradılmalıdır.

Autist uşaqlar kiçik məktəb yaşı dövründə məhdud şəkildə olsa da, ətrafına və yaşıdlarına maraq göstərməyə çalışırlar. Üç yaşında ikən bənzər xüsusiyyətlərə malik iki autist uşaqda məktəb dövrünə gəldikdə fərqli xüsusiyyətlər müşahidə etmək olur. Belə ki, məktəb dövründə bu uşaqlardan biri dili ünsiyyət vasitəsi kimi heç istifadə etmədiyi halda, digəri danışmağa başlaya bilər. Lakin bu nitq adətən məqsədli şəkildə olmur və autist uşaqlar bu nitqdən istifadə edərək ətrafındakı insanlarla sosial ünsiyyətə girə bilmirlər. Onların nitqi məqsədsiz şəkildə olur və əksər hallarda exolaliya şəklində təzahür edər. Autist uşaqların əksəriyyəti şəxs əvəzliklərindən düzgün istifadə edə bilmirlər. Belə ki, özləri haqqında üçüncü bir şəxsdən danışırmış kimi bəhs edirlər. Məsələn, "mən gəlirəm" ifadəsi əvəzinə "o gəlir" deyirlər.

Autist uşaqlar yeniyetməlik dövrünü yaşıdları kimi keçirirlər. Onların əksəriyyəti bu dövrü böyük problemlər yaşamadan keçirirlər. Bu dövrün bəzi autist uşaqların inkişafına müsbət təsir etdiyi halda, bəzi autist uşaqların inkişafına mənfi təsir etdiyi müşahidə olunmuşdur. Belə ki, bəzi autist uşaqlarda ağırlaşma, yəni inkişafda geriləmə olmuşdur. Bu geriləmə sosial münasibətlərə təsir etməklə yanaşı, bəzi hallarda nitqin itməsi və akademik bacarıqlarda nəzərə çarpan geriliklə təzahür edir. Bəzi hallarda bu dövrdə autist yeniyetmələr öz vəziyyətlərini dərk edirlər və bunun nəticəsində onlarda depressiya halı müşahidə olunur.

Yeniyetməlik dövründə fiziki cəhətdən güclənən autistlər nisbətən aqressiv olurlar. Bəzi hallarda istəklərini və ya onları narahat edən hər hansı bir halı fiziki şiddət göstərməklə ifadə edə bilərlər. Bu dövrdə qızların oğlanlara nəzərən daha aqressiv olduğu müşahidə edilir.

Autist insanların çox az qismi yetkinlik dövrünü normal yetkinlər kimi keçirirlər. Əksər hissəsi isə ağır bir şəkildə həyatlarına davam edirlər. Bu dövrdə autist insanların bəziləri özlərini ətraf mühitdən izolyasiya edirlər. Autizmin və ya autistik yalnızlığın bütün əlamətlərini nümayiş etdirirlər. İnsanlardan uzaqlaşır, tənhalığı üstün tuturlar. Bu insanlar saatlarla otaqda tək başına qala bilərlər. Belə vəziyyətdə narahat edilmək istəmirlər. Tək qalmamaq üçün məcbur edildikdə çətinlik yaratmazlar, ancaq təkbaşına buraxıldıqda da öyrəndiklərini unudarlar. İnkişafları dayanar, hətta geriləmə müşahidə olunar.

Autist uşağın erkən diaqnozu və erkən müdaxilə uşağın daha sürətli inkişafını təmin edir. Autist bir uşağa nə qədər erkən yaşda diaqnoz qoyularsa və ehtiyacı olan xüsusi təhsilə nə

qədər tez başlanarsa, həyat bacarıqlarına qovuşmaq şansı da o qədər çoxalar.

İntellektual inkişafı yüngül formada ləngiyən autist yeniyetmələrin şəxsi keyfiyyətləri və fəaliyyətlərinin monitorinqinin aparılması ayrı-ayrı xüsusiyyətlər üzərində qurulmamalı, kompleks halda araşdırılmalıdır. Ötən əsrin 90-cı illərinə qədər müəllimlərdən şagirdlər haqqında müxtəlif forma və blankların doldurulması tələb olunurdu [1, s.254]. Bunlar şagirdlərin davranışı, tərbiyəlilik dərəcəsi ilə bağlı ümumi, şablon fikirlər idi və demək olar ki, bu sənədlərə əsasən şagird haqqında konkret olaraq nəsə öyrənmək mümkün olmurdu. Əlbəttə, bu kimi hallara indi də rast gəlinir. Autist uşaqların xüsusiyyətlərinin araşdırılması, onu kimin aparması, münasibəti üzərində qurulur. Amma bu xüsusiyyətlərin necəliyi, monitorinqinin aparılması bir çox hallarda elmi əsaslara söykənmir. Məsələn, autist yeniyetmələrin təfəkkür müstəqilliyi, özünütənzim, kreativlik, vətənpərvərliyi və s. cəhətlərə adətən diqqət yetirilmir.

Göründüyü kimi, proses tam olaraq formal xarakter daşıyır, autizmin, geridəqalmanın səbəbləri, real mənzərə müəyyənləşdirilmir.

Məlumdur ki, autist uşaqların təlim fəaliyyəti və sosial adaptasiyası ilə bağlı müəllimlərin apardığı iş, normal inkişaf etmiş uşaqlardan məzmun və forma baxımından fərqli olmalıdır.

Bununla belə autist uşaqlar özləri də psixoloji baxımdan bir-birlərindən fərqlənirlər. Autizmin tipologiyasından asılı olaraq inkişafetdirici korreksiya işləri aparıla bilər. Araşdırmalar göstərir ki, ümumtəhsil məktəblərində çalışan müəllimlər heç də autist uşaqlarla işləmək səriştəsinə malik deyillər. Bununla yanaşı onların istifadəsində bu sahədə heç bir elmi-metodiki ədəbiyyat da yoxdur. Təbii ki, onlardan bunu tələb etmək də düzgün olmazdı.

Autizmə aid ədəbiyyatın təhlili, eləcə də müşahidələrə əsasən söyləmək olar ki, funksional diaqnozun qoyulması, monitorinqinin aparılması daha səmərəli üsuldur. Funksional diaqnoz konkret autist uşağın kollegial şəkildə intellekt səviyyəsinin, şəxsi keyfiyyətlərinin, sosiallaşmasının və c. müəyyənləşdirilməsidir. Bundan başqa öyrənilməlidir ki, uşağa hansı səviyyədə materialı mənimsətmək mümkündür və bütün bunların əsasında konkret uşaq üçün proqram hazırlanmalıdır. Bu uşaqlarda hökmən inkişafın dinamikası, korreksiya işinin səmərəli olub olmaması öz əksini tapmalıdır.

Funksional diaqnoz konsepsiyası eyni zamanda pedaqoq və defektoloqların ən azı şüurunda dəyişikliyə səbəb olur. Belə ki, o, əqli geridəqalma psixi inkişafın ləngiməsi arasında fərqi görür, sinfin komplektləşdirilməsində bunları nəzərə ala bilir.

Respublikamızda aparılan tədqiqatlara, eləcə də müşahidələrimizə əsasən söyləyə bilərik ki, ümumtəhsil məktəblərində xeyli sayda yüngül formada intellektual inkişafında ləngimələr olan autist uşaqlar təhsil alır [4, s.19]. Bunu təbii hal hesab etmək olar. Bu inkişaf etmiş qərb ölkələrində, eləcə də Rusiyada qəbul olunmuş norma sayılır. Əlbəttə, həmin ölkələrdə belə vəziyyət qanunlarla tənzim olunur. Azərbaycanda isə bu hal müəyyən mənada mentalitetdən irəli gəlir. Yəni valideynlər ya bu vəziyyəti gizlədir, yaxud da mahiyyətinə varmırlar. Digər bir hal isə ümumən yüngül formada olan psixi inkişafdakı ləngimənin təyin olunmasındakı çətinliklərlə bağlıdır. Yüngül formalı autizmin müəyyənləşdirilməsi isə daha mürəkkəb bir prosesdir.

Funksional diaqnostikanın başlıca mahiyyəti uşağın kompleks tədqiqi, problemin düzgün araşdırılması və pedaqoq, psixoloq, eləcə də valideynin əlbir işləməsi üçün şərait yaradır. Bu isə öz növbəsində autist yeniyetmələrin təlim fəaliyyətinin, psixososial inkişafının təmin olunmasında mühüm rol oynayır. Bundan başqa hər bir mütəxəssisin funksiyasının müəyyənləşdirilməsi də vacib şərtlərdəndir. Psixoloq ilk növbədə psixi inkişafın səviyyəsini müəyyənləşdirməli, idraki qabiliyyətlərdəki çatışmazlıqları üzə çıxarmalıdır. Bunun üçün ayrı-ayrı, eləcə də kompleks metodlardan istifadə olunması vacibdir. Psixi inkişafın səviyyəsi nə qədər aşağı olarsa tədqiq olunan metodların əhatəliliyi də o qədər azalır. Yəni simvolik, qiyabi, abstrakt və s. əhatə edən metodikaların işlənməsi o dərəcədə çətinləşir. Autist yeniyetmənin simvol və işarələri daha çətinliklə qavraması onun psixikasında da süstlüyün olmasına səbəb olur. Nəticədə özünüdərk, şüurlu fəaliyyət, emosional sfera o qədər az inkişaf edir, bu isə fəaliyyət prosesində öz əksini tapır.

Funksional diaqnostikadan başqa alqoritmik diaqnostikadan da istifadə olunması mümkündür. Qeyd etmək istərdik ki, autizmin müxtəlif növləri və səviyyələri vardır. Qeyd edilmiş bu diaqnostik metodlar psixi inkişafında problemlər olan autist uşaqlar üçün nəzərdə tutulmuşdur.

Alqoritmik diaqnostikadan istifadənin ilkin məqsədi psixi inkişafda yaranan problemin xarakterini müəyyənləşdirməkdən ibarətdir. Bura psixi inkişafın ləngiməsi, yüngül formada intellektual inkişafın ləngiməsi, əqli geridə qalma və s. aid edilə bilər [3, s.58].

Psixi inkişafın ləngiməsinə idraki qabiliyyətlərin məhdudluğu, yüngül formada intellektual inkişafın ləngiməsinə müəyyən qədər normadan aşağı səviyyə aid edilir. Əqli geridəqalma zamanı isə həm davranışda, həm də emosional, intellektual sferada pozuntu aydın şəkildə öz əksini tapır.

Alqoritmik diaqnostika zamanı idraki qabiliyyətlərin məhdudluğunu, onun təlim fəaliyyətinə təsirini, normal yaşıdlarından fərqli olaraq mənimsəmə imkanlarının az olmasını nəzərə almaq lazımdır. Eyni zamanda unutmaq olmaz ki, psixi, intellektual inkişafında problemlər olan autist uşaqların qəbul edə bilməklərindən artıq proqram materialı ilə yüklənməsi onun inkişafının ləngiməsinə səbəb olur.

İdraki qabiliyyətlərdə yüngül çatışmazlıqları olan şagirdlər əsasən idraki, məntiqi tapşırıqları yerinə yetirməkdə çətinlik çəkirlər. Bununla yanaşı qeyd etmək lazımdır ki, bu tip uşaqlar eyni zamanda tapşırığın həlli yollarını dərk edə bilmirlər. Bəzən onlar tapşırığın mahiyyətini tez və asan qavradıqları halda abstrakt anlayışları qavramaqda və yadda saxlamaqda çətinliklə üzləşirlər. Müəllimin köməyini də eyni səviyyədə qəbul edə bilmirlər. Bəzi tapşırıqları həll edərkən müəllimin sadəcə istiqamət verməsi yetərli olursa, digər hallarda müəllimin hərtərəfli şərhindən, izahından sonra da şagird tapşırığın həlli yollarını tapa bilmir. Bununla belə bu hal heç də seçilən metodikanın səhv olduğundan irəli gəlmir. Məhdudiyyət nailiyyət qazanmağa cəhd etmə motivasiyanın olmamasından, eləcə də fəaliyyətin şüurlu tənzimlənməsinin yetərli olmamasından irəli gəlir. Autist uşağın erkən diaqnozu və erkən müdaxilə uşağın daha sürətli inkişafını təmin edir. Autist bir uşağa nə qədər erkən yaşda diaqnoz qoyularsa və ehtiyacı olan xüsusi təhsilə nə qədər tez başlanarsa, həyat bacarıqlarına qovuşmaq şansı da o qədər çoxalar.

Tədqiqatımızdan aydın oldu ki, autist uşaqlar psixoloji cəhətdən tam yetkin olmadıqlarından onlar fiziki gərginliyə dözə bilmirlər. Onların məktəb həyatı düzgün qurulmadıqda stress keçirirlər. Ən böyük çətinlik isə kollektivə adaptasiya olunmaq, yoldaşları ilə münasibət qurmaqla bağlıdır.

**Nəticə.** Müəyyənləşdirildi ki, sosial dezadaptasiyaya aid edilən yeniyetmələrin ümumi və psixi inkişafı tələb olunan normadan xeyli aşağıdır və ümumtəhsil məktəblərinin proqram tələblərinə uyğun səviyyədə deyil. Ona görə də onların proqramları hazırlanarkən həmin uşaqların davranışla, təlimlə bağlı dinamik inkişafları nəzərə alınmalıdır. Daim korreksiyaedici təlim nəzarətdə olmalıdır.

**Problemin elmi-nəzəri yeniliyi.** İlk dəfə olaraq bu tədqiqat işində autist yeniyetmələrin dezadaptasiyası, ona təsir edən amillər, onların diaqnostika və korreksiyası arasındakı əlaqələr üzə çıxarılmışdır. Tədqiqatın nəticələrindən korreksiyaedici pedaqogikanın, pedaqogika və inkişaf psixologiyasının tədrisində istifadə oluna bilər.

**Problemin tətbiqi əhəmiyyəti.** Tədqiqatın metodikasından, alınan nəticələrdən və verilən tövsiyələrdən məktəbdə intellektual inkişafı ləngiyən autist-yeniyetmələrin diaqnostikası zamanı, həm praktik müəllimlər, həm də məktəb rəhbərliyi faydalana bilər.

## Ədəbiyyat


1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi. Ali təhsil müəssisələri üçün dərslik. / A.N. Abbasov, L.A. Məmmədli, İ.A. Əmirəliyeva – Bakı: Mütərcim, – 2022. – 464 s.
2. Cavadova S.İ. Əqli geriliyi olan kiçikyaşlı uşaqların dərs prosesində işgüzarlığının artırılması yolları // İbtidai məktəb və məktəbəqədər tərbiyə, -2004, №2, -54-57 s.
3. Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. -Bakı: Nurlan, -2004.
4. Qəhrəmanova Q.H. Gənclərin sosiallaşmasında fəaliyyət və şəxsiyyətlərarası münasibətlərin rolu. -Bakı: Elm və təhsil, -2013.
5. Dostuzadə D.Ə. Sağlamlıq imkanları məhdud uşaqlarla işə dair // İbtidai məktəb və məktəbəqədər tərbiyə, -2004, № 2, -57-58 s.
6. Kərimova E. Psixi inkişafında ləngiməsi olan uşaqlarla işin təşkili yolları. / Təhsilin müasir problemləri. -Bakı: Mütərcim, -2010. – 64 s.
7. Фрейд З. Введение в психоанализ. Харьков: Клуб семейного досуга, -2012.


**Redaksiyaya daxil olub:** 31.01.2025

***TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ***
***МОНИТОРИНГ И ОЦЕНИВАНИЕ В ОБРАЗОВАНИИ***
***MONITORING AND EVALUATION IN EDUCATION***

*UOT 005.6.*

***Sevinc Yəhya qızı Quliyeva***
*Bakı Dövlət Universiteti*
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*https://orcid.org/0000-0002-8594-3600*
*E-mail: seva69aliyeva@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).94-96*

# MÜASİR PSİXOLOJİ TƏDQİQATLARDA KOMPÜTER ƏSASLI QİYMƏTLƏNDİRİLMƏLƏR APARILMASININ GÜCLÜ VƏ ZƏİF TƏRƏFLƏRİ

***Севиндж Яхья гызы Гулиева***
*доктор философии по психологии, доцент*
*Бакинского Государственного Университета*

# СИЛЬНЫЕ И СЛАБЫЕ СТОРОНЫ КОМПЬЮТЕРНЫХ ОЦЕНИВАНИЙ В СОВРЕМЕННЫХ ПСИХОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

***Sevinj Yahya Guliyeva***
*doctor of philosophy in psychology, associate professor of department of Psychology at Baku State University*

# STRENGTHS AND WEAKNESSES OF COMPUTER-BASED ASSESSMENTS IN MODERN PSYCHOLOGICAL RESEARCH

**Xülasə.** Kompüter əsaslı qiymətləndirmə testləri tərtibatçıları və eləcə də mütəxəssislər üçün böyük imkanlar yaratdı. Onlara riyazi prosedurlardan və o qədər mürəkkəb hesablamalardan istifadə edərək əvvəlki dövrlərdə istifadəsi həftələr və ya aylar çəkə psixometrik cəhətdən əsaslandırılmış testlər hazırlamağa imkan verdi. O, istifadəçiləri sınamaq üçün yeni bir imkanlar yaratdı və əvvəllər tətbiq edilməmiş daxili qiymətləndirmə və şərh imkanları ilə xüsusi hazırlanmış testlərin qurulmasına imkan verdi. Bir çox test istifadəçiləri üçün kompüter əsaslı psixoloji ölçmə nümunələri böyük irəliləyişdir, belə ki, onlar testləri şəxsən idarə etməli və hətta analizdən əvvəl cavabları başqa formada yerləşdirməli idilər (əl ilə hesablama şablonu və ya digər cihazdan istifadə etməklə), nəticədə əldə edilən məlumatların qiymətləndirilməsi və şərh edilməsi kimi çox vaxt itkisinə səbəb olur. Məqalədə beynəlxalq ədəbiyyata istinadən müasir kompüter əsaslı ölçmə nümunələri təhlil edilmişdir.
***Açar sözlər:*** *psixoloji qiymətləndirmə, kompüter əsaslı ölçmələr, testləşdirmə, müasir yanaşmalar, təhsil psixologiyası*

**Аннотация.** Компьютерные оценочные тесты создали большие возможности как для разработчиков, так и для профессионалов. Это позволило им разработать психометрически обоснованные тесты, использующие математические процедуры и вычисления настолько сложные, что в предыдущие эпохи на их выполнение ушли бы недели или месяцы. Это создало новые возможности для тестирования пользователей и позволило создавать индивидуальные тесты со встроенными возможностями оценки и комментирования, которые ранее не были реализованы. Для многих пользователей тестов компьютерные модели психологических измерений стали серьезным улучшением, поскольку им приходилось лично проводить тесты и даже вводить ответы в другой форме перед анализом (используя шаблон ручного расчета или другое устройство), что приводило к потере большого количества времени на оценку и интерпретацию полученных данных. В статье анализируются современные примеры компьютерных измерений со ссылкой на международную литературу.
***Ключевые слова:*** *психологическое оценивание, компьютерные измерения, тестирование, современные подходы, педагогическая психология*

**Abstract.** Computerized assessment tests have created great opportunities for both developers and professionals. They have allowed them to develop psychometrically sound tests that use mathematical procedures and calculations so complex that in previous eras they would have taken weeks or months to complete. This has created new opportunities for user testing and has allowed the creation of custom tests with built-in rating and commenting capabilities that were not previously implemented. For many test users, computerized models of psychological measurements have become a significant improvement, since they had to personally conduct tests and even enter answers in another form before analysis (using a manual calculation template or other device), which resulted in a large loss of time on data assessment and interpretation. The article analyzes modern computerized models of mortality with reference to foreign literature.

***Keywords:*** *psychological assessment, computerized measurements, testing, modern approaches, educational psychology*

***Giriş.*** Kompüter əsaslı psixoloji qiymətləndirmə 40 il əvvəl yarandığı və tətbiq edildiyi vaxtdan çox inkişaf edib. Bir çox təcrübələrdə bəzi kompüter qiymətləndirməsindən və kompüter əsaslı şərhdən istifadə edilir və kompüter dəstəyi ilə test şərhi etik peşəkar fəaliyyət hesab edilir [1,s.331-332]. Kompüterləşdirilmiş metodların tətbiqi həm əhatə dairəsi, həm də dərinliyi baxımından genişlənmişdir. Bununla belə, kompüter texnologiyası və psixoloji test şərhinin birləşməsi mükəmməl bir əlaqə qeydə alınmamışdır. Kompüterləşdirilmiş qiymətləndirmə üzrə keçmiş səylər mürəkkəb qərarlar qəbul etmək üçün kompüterlərin çevikliyindən və gücündən optimal istifadə etmək üçün kifayət qədər irəli getməmişdir. Kompüterləşdirilmiş tətbiqlər müəyyən dərəcədə mövcud psixoloji təcrübə və psixotexnologiya ilə məhdudlaşır. Bu günə qədər kompüter-insan qarşılıqlı əlaqəsi yazılı materialla məhdudlaşır və tənqidi qeyri-verbal işarələr (məsələn, nitq nümunələri, səs tonu və üz ifadələri) kimi potensial dəyərli məlumatları nəzərə almır. Tədqiqatlar kompüter tərəfindən idarə olunan testlərin kitabça ilə idarə olunan alətlərə mahiyyətcə ekvivalent olması fikrini dəstəkləyirdi [2, s.34]. İndiyə qədər aparılan tədqiqatlar belə qənaətə gəlir ki, kompüter tərəfindən yaradılan hesabatlar təcrübəli mütəxəssisləri əvəz etmək əvəzinə, klinik mühakimə üçün dəyərli əlavələr kimi nəzərdən keçirilməlidir. Bəzi məhdudiyyətlərə və yerinə yetirilməmiş ümidlərə baxmayaraq, kompüter əsaslı psixoloji qiymətləndirmə çox uğurlu bir cəhddir.

***Ədəbiyyatın təhlili.*** Kompüter əsaslı test şərhi (CBTI) proqramları 1960-cı illərdən bəri psixoloji qiymətləndirmələrdə məlumatları şərh etmək üçün geniş istifadə olunan texnoloji alətlərdir [3, s.20]. Kompüter əsaslı proqramları klinik müsahibələr və ya problem reytinqi kimi çoxsaylı psixoloji testlər üçün istifadə olunur, lakin ən çox psixoloji və nevroloji eləcə də nevro-psikoloji qiymətləndirmələrdə tətbiq olunur. Tətbiq edilən bu proqramlar ya empirik, ya da klinik əsaslıdır [4, s. 55]. Empirik əsaslı proqramlar və qiymətləndirmə proqramları məlumatları şərh etmək üçün statistik təhlillərdən istifadə edir, kliniki əsaslı proqramlar və ya avtomatlaşdırılmış qiymətləndirmə proqramları isə ekspert klinik mütəxəssislərin məlumatlarına və tədqiqatlara əsaslanır. Kompüter əsaslı proqramlarda test-təkrar test etibarlılığında uğurlu olsa da, proqramların qiymətləndiricilər arası və daxili ardıcıllığın etibarlılığını qiymətləndirmək qabiliyyəti ilə bağlı əsas narahatlıqlar və tənqidlər olmuşdur. Tədqiqatlar göstərir ki, bu proqramların etibarlılığı, fərdi proqramların müxtəlif hesabatlarına görə təsdiqlənməmişdir [5, s. 390] Proqramlar çox səmərəlidir, çünki vaxta qənaət edir, insan səhvlərini azaldır, qənaətcildir və obyektiv/etibarlıdır, lakin məhduddur ki, həmişə adekvat təlim keçmiş qiymətləndiricilər tərəfindən istifadə olunmur və ya bir çox məlumat mənbələri ilə inteqrasiya olunmur. Texnologiya müasir cəmiyyətimizi dəyişməyə davam etdikcə, kompüter əsaslı qiymətləndirmə proqramları öz proqram təminatını genişləndirmək və hətta proqramların metodologiyası ilə bağlı bəzi cari narahatlıqları aradan qaldırmaq imkanına malikdir [6, s. 10]. Bu proqramlar bu gün mövcud olan demək olar ki, hər bir şəxsiyyət qiymətləndirməsi üçün istifadə edilə bilər. Bu proqramların populyarlığına töhfə verə biləcək ənənəvi əl ilə qiymətləndirmələr və klinisist şərhləri ilə müqayisədə bir çox üstünlükləri var. Məsələn, bu proqramlar vaxta qənaət edir və insanların cavab verməsi və hesablama xətalarını aradan qaldırır. Bundan əlavə, kompüter əsaslı proqramlar tez-tez klinisist şərhindən daha əhatəli-

dir, klinisist şərhindən daha etibarlıdır, sərfəli qiymətə malikdir və müştərilərə rəyi daha obyektivdir [7, s. 800]. Bu faydalara baxmayaraq, nəzərə alınmalı olan kompüter əsaslı proqramların əhəmiyyətli məhdudiyyətləri var. Məsələn, kompüter əsaslı proqramlar hesabatları elmi dəqiqliyə dair əsassız təəssürat yarada bilər və hesabatlar fərqli məlumat vermək üçün çox ümumi ola bilər. Bundan əlavə, kompüter əsaslı proqramlar klinik qiymətləndirmə və şərhə qarşı həddindən artıq şücaətli münasibəti təşviq edə bilər və onların kifayət qədər sui-istifadə potensialı yüksəkdir. Klinisyenlərə kompüter əsaslı proqramlarından istifadə etməzdən əvvəl özləri bir daha prosesi öyrənməli, kompüter tərəfindən yaradılan hesabatları doğru kimi kor-koranə şərh etməmələri və ya bir çox məlumat mənbəyini inteqrasiya etmək üçün bir klinisist kimi öz məsuliyyətlərindən yayınmaq üçün kompüter əsaslı proqramlardan istifadə etməmələri barədə xəbərdarlıq edilir [8, s. 16; 9, s. 226, 10, s. 305].

Səhiyyə sistemimiz və bütövlükdə cəmiyyətimiz texnologiyadan getdikcə daha çox asılılaşdıqca, kompüter əsaslı proqram təminatının mövcudluğu və istifadəsinin də genişlənəcəyi qaçılmazdır [11, s. 36]. İnternetin kompüter əsaslı proqramlardan istifadə istifadəsinin potensialı qəbul edilmişdir, baxmayaraq ki, bu üsulla əlaqəli potensial problemlər hələ tam başa düşülməmişdir və internet əsaslı proqramların istifadəsinin yayılmasından əvvəl həll edilməli sualı daima mövcud olub. Bundan əlavə, kompüter-adaptiv testin tətbiqi, digər qiymətləndirmə sahələrində (yəni, qabiliyyət və qabiliyyət) uğurla tətbiq olunsa da, şəxsiyyətin qiymətləndirilməsinə perspektivli, lakin hələ də araşdırılmamış əlavəni təmin edir. Nəhayət, kompüter əsaslı proqramlardan istifadə proqramlarının hazırlanmasında klinisyenler və tədqiqatçılar arasında əməkdaşlıqdan başlayaraq, klinik və kompüter əsaslı proqnozlaşdırma metodlarının daha səmərəli inteqrasiyasına çağırış var.

**Problemin aktuallığı**. Müasir psixoloji tədqiqatlarda, eləcə də psixoloji xidmət sahəsində kompüter əsaslı testləşdirmə, süni intellekt imkanlarının tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Subyektiv xətaların, qərəzli yanaşma hallarının qarşısının alınması üçün bu sahənin inkişafı aktuallıq kəsb edir.

**Problemin yeniliyi**. kompüter əsaslı qiymətləndirmə xarici ədəbiyyatda və praktikada geniş istifadə edilir. Azərbaycan dilli ədəbiyyat nümunələrində isə problem ilk dəfə müqayisəli şəkildə araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. hazırlanmış məqalə tədqiqatçılar, tələbələr və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. Butcher, J. N., Perry, J. N., and Hahn, J. //Computers in clinical assessment: Historical developments, present status, and future challenges//. Journal of Clinical Psychology/-60(3)- 2004-p. 331-345.
2. Garb, H. N. //Computers will become increasingly important for psychological assessment: Not that there's anything wrong with that! //Psychological Assessment/ -2000-p. 31-39.
3. Lichtenberger, E. O. //Computer utilization and clinical judgment in psychological assessment reports// Journal of Clinical Psychology/ 62(1), 2006-p.19-32.
4. Snyder, D. K. //Computer-assisted judgment: Defining strengths and liabilities// Psychological Assessment/ 12(1),-2000,-p.52-60.
5. Moreland, K. L. //Computer-based test interpretations: Advice to the consumer// Applied Psychology: An International Review,/ 36, 1997,- p.385-399.
6. Butcher, J. N., Perry, J. N., & Atlis, M. M. //Validity and utility of computer-based interpretation. Psychological Assessment// -12, 2000,-p.6-18.
7. Adams, K. M., & Heaton, R. K. // Automated interpretation of the neuropsychological test data. Journal of Consulting and Clinical Psychology, 53,-1985,- p.790-802.
8. Matarazzo, J. D. //Computerized clinical psychological test interpretations: Unvalidated plus all mean and no sigma//. American Psychologist/-41,1986,-p.14-24.
9. Lanyon, R. I.//The validity of computer-based personality assessment products: Recommendations for the future// Computers in Human Behavior/, 3,1987,-p. 225-238.
10. Allard, G., Butler, J., Faust, D., & Shea, M. T. // Errors in hand scoring objective personality tests: The case of the Personality Diagnostic Questionnaire- Revised (PDQ-R). Professional Psychology: Research and Practice/, 26, 1995,-p.304-308.
11. Butcher, J. N. //How to use computer-based reports. In J. N. Butcher (Ed.), Clinical personality assessment: Practical approaches (2nd ed.). New York: Oxford University Press/2002-p.36


**Redaksiyaya daxil olub:** 17.03.2025.

*UOT 681.3:378*

***Ramilə Babək qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi Pedaqogika kafedrasının müəllimi*
*https://orcid.orq/0009-0007-6566-4499*
*E-mail: devinismayilxanova@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).97-101*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İKT-dən İSTİFADƏNİN TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİRİ

***Рамиля Бабек гызы Исмаилханова***
*преподаватель кафедры Общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

# ВЛИЯНИЕ ИКТ НА УЛУЧШЕНИЕ КАЧЕСТВА ОБУЧЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Ramila Babek Ismailkhanova***
*teacher at the department of General pedagogy of*
*Azerbaijan State Pedagogical University*

# THE IMPACT OF ICT USAGE IN GENERAL EDUCATION SCHOOLS ON ENHANCING EDUCATION QUALITY

**Xülasə.** Bu məqalədə müəllif bildirir ki, İKT-yə aid bütün biliklərə yiyələnməyin yolu ümumtəhsil müəssisələrindən başlayır. Təhsil Nazirliyi tərəfindən 2010-cu il tarixə "Təhsildə İKT ili" kimi düşmüşdür. Artıq bu sahədə müxtəlif təmayüllü konfranslar, seminarlar, stimullaşdırıcı aksiyalar, müsabiqələr keçirilmişdir. Məktəblərin böyük bir hissəsi ağıllı lövhə, noutbuk və kompüterlərlə təchiz olunmuşdur. Müəllif bildirir ki, müəllimlərin fikrincə İKT-dən istifadə şəraitində təlim prosesinin əsas mərkəzi fiquru şagirddir. Bu prosesin digər iştirakçısı isə fasilitator "bələdçi" rolunu oynayan şagirdlərin əsas məsləhətçisi, onların biliyini, qabiliyyətini qiymətləndirən, daim təşəbbüskarlığa, aktiv olmağa, müstəqilliyə təşviq edən müəllimdir.

Müəllifin fikrincə, təhsilin keyfiyyətinə müsbət təsir göstərən fəal təlim texnologiyalarının tətbiqi müasir dövrün ən aktual məsələsidir. Bu baxımdan şagirdlərə müəllimlər tərəfindən daha əlverişli şərait yaradılmalıdır.

***Açar sözlər.*** *Kompüter, noutbuk, humanistləşdirmə, demokratikləşdirmə, fasilitator, texnologiya, "ağıllı" lövhə, inteqrasiya,fərdiləşmə, diferensiallaşdırma*

**Аннотация.** В статье автор подчёркивает, что путь к освоению всех аспектов знаний, связанных с информационно-коммуникационными технологиями (ИКТ), начинается в общеобразовательных учреждениях. Министерство образования объявило 2010 год Годом ИКТ в образовании. С тех пор в данной сфере были проведены различного рода конференции, семинары, мотивационные кампании и конкурсы. Значительное количество школ было оснащено интерактивными досками, ноутбуками и компьютерами. Автор отмечает, что, согласно мнению учителей, в условиях применения ИКТ центральной фигурой образовательного процесса становится ученик. Учитель, в свою очередь, выполняет роль фасилитатора или наставника, выступая в качестве главного советника для учеников. В качестве такого наставника он оценивает знания и способности учеников, постоянно поощряя среди них инициативность, активность и самостоятельность. Таким образом, важно создать условия для того, чтобы каждый учитель-предметник мог участвовать в конкурсах, творческих проектах и инновационных программах. По мнению автора, внедрение активных технологий обучения, которые оказывают положительное влияние на качество образования, является одной из наиболее важных задач современности. В связи с этим учителям следует стремиться к созданию более благоприятной образовательной среды для учеников.

***Ключевые слова:*** *компьютер, ноутбук, гуманизация, демократизация, фасилитатор, технология, интерактивная доска, интеграция, индивидуализация, дифференциация.*

*Ramilə Babək qızı İsmayılxanova*

**Abstract.** In this article, author argues that the journey to acquiring comprehensive ICT knowledge begins in general education institutions. The Ministry of Education designated the year of 2010 as the Year of ICT in Education. Since then, numerous conferences, seminars, motivational campaigns, and competitions have been held in this domain. A significant number of schools have been equipped with smart-boards, notebooks, and computers. According to the author, teachers believe that in an ICT-driven learning environment, the student becomes the central figure in the educational process. The teacher, on the other hand, takes on the role of a facilitator or guide, serving as the primary advisor to students. As facilitators, they assess the knowledge and abilities of students while continuously encouraging initiative, engagement, and independence. Consequently, it is essential to create opportunities for every subject teacher to get involved in competitions, creative projects, and innovative programs.

The author argues that the implementation of active learning technologies, which positively influence the quality of education, is one of the most critical challenges of our time. Therefore, teachers must strive to create more conducive learning environments for students.

***Keywords:*** *computer, notebook, humanisation, democratisation, facilitator, technology, smart-board, integration, individualisation, differentiation*

Müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikasında təhsil sahəsində pedaqoji kadrların İKT ilə işləmək qabiliyyəti, yeni texnologiyalardan düzgün istifadə bacarığına xüsusi diqqət verilir. Elə ona görə deyə bilərik ki, İKT-yə aid bütün biliklərə yiyələnməyin yolu ümumtəhsil müəssisələrindən başlayır.

Hal-hazırda təhsilin informasiyalaşdırılması ilə bağlı məqsədlər artıq müəyyənləşdirilmişdir və nəzərdə tutulan bütün tədbirlərin böyük bir hissəsi həyata keçirilmişdir. Təhsil Nazirliyi tərəfindən 2010-cu il tarixə “Təhsildə İKT ili” kimi düşmüşdür. Artıq bu sahədə müxtəlif təmayüllü konfranslar, seminarlar, stimullaşdırıcı aksiyalar, müsabiqələr keçirilmişdir. Məktəblərin böyük bir hissəsi ağıllı lövhə, noutbuk və kompüterlərlə təchiz olunmuşdur.

Xarici ölkələrin təhsil sistemini araşdıran mütəxəssislər qeyd edirlər ki, İKT-dən istifadə edərək yaradılmış təhsil modeli məktəblər qarşısında bir çox tələblər qoymuşdur. Belə ki, istənilən fənni tədris edən fənn müəlliminin informasiya sahəsində daha genişmiqyaslı biliklər alması təhsil prosesinin ən aktual məsələsidir. Əsas aktual məsələlərdən biri də yetişən gənc nəslin öz müəllimlərindən öyrəndikləri fənnin məzmununa və məqsədinə uyğun olan, onların fərdi xüsusiyyətlərini nəzərə alan, hərtərəfli şəxsiyyət kimi formalaşmasına münbit şərait yaradan texnologiyaların seçilərək dərs prosesinə tətbiq edilməsidir.

Müasir dövrdə ağıllı “interaktiv” lövhə, rəqəmsal fotoaparat, kompüterə qoşulmuş mikroskop, videoqurğulardan əldə edilmiş təsvirlər məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm rol oynayır. “Ağıllı” lövhənin üzərində çox vacib əməliyyatlar aparılır: yəni, təlim prosesinin gedişi, şablonlar hazırlanması, modelləri kompüterin yaddaşına köçürmək, təlim prosesini dəfələrlə izləmək mümkündür. Bu proses dərsə gəlməyən, yaxud təlimdən geri qalan şagirdlərə dərs prosesini dəfələrlə izləmək imkanı yaradır. Belə olduğu halda şagird həmin dərsi daha yaxşı başa düşür.

Müəllimlərin fikrincə İKT-dən istifadə şəraitində təlim prosesinin əsas mərkəzi fiquru şagirddir. Bu prosesin digər iştirakçısı isə fasilitator “bələdçi” rolunu oynayan şagirdlərin əsas məsləhətçisi, onların biliyini, qabiliyyətini qiymətləndirən, daim təşəbbüksarlığa, aktiv olmağa, müstəqilliyə təşviq edən müəllimdir.

Elektron lövhə üzərində həyata keçirilən təlim prosesində şagirdlərin hamısı müəllimin verdiyi tapşıqırları sərbəst şəkildə həll etməyə çalışırlar. Bu proses bütün şagirdlərin marağına səbəb olur, hətta müəyyən psixoloji, fiziki məhdudiyyətləri olan şagirdlər də fəallıq göstərirlər. İndi respublikamızda bütün təhsil müəssisələrində İKT-nin tətbiqi ilə bağlı bacarıqlı, yeni pedaqoji texnologiyalardan baş çıxaran laborantların da bu sahədə ixtisaslaşmasına start verilmişdir. Buna görə də ilk növbədə yeni texnologiyaların genişmiqyaslı tətbiqi üçün ümumtəhsil müəssisələrini kompüter avadanlıqları ilə təchiz etmək vacibdir. Bəs təhsilin keyfiyyətinin yüksəldilməsi ilk növbədə nədən asılıdır? Bu sualın cavabı: 1-ci növbədə fənn müəlliminin bacarığından, yaradıcı əməyindən və marağından; müəllimin peşəkarlığından; öz peşəsinə sadiqliyindən;

Hər bir fənn müəllimin müsabiqələrdə, qabiliyyət və yaradıcılıq tələb edən layihələrdə, eyni zamanda innovativ proqramlarda iştirak etməsi üçün şərait yaradılmalıdır.

Azərbaycan təhsilinin dünya ölkələrinin təhsil sisteminə inteqrasiya etdiyi bir vaxtda müəllimin yaradıcı əməyinin keyfiyyət göstəriciləri müəyyən olunmalıdır ki, bunu aşağıdakı kimi xarakterizə etmək olar:

- dünya təhsil sisteminin qabaqcıl təcrübəsini öyrənərək ümumtəhsil məktəbləri arasında yayılmasına nail olmaq;
- yenilikci müəllimlərin bacarıqlarından bəhrələnərək tədrisin keyfiyyətini yüksəltmək;
- hər bir fənn müəlliminin təqdim etmə qabiliyyətini tətbiq etmək üçün şərait yaratmaq.

Hal-hazırda hər bir fənn müəllimi təlim prosesində yeni texnologiyalardan istifadə etməklə məktəblilərin təfəkkürünün formalaşmasına nail olur. Müəllim dərs prosesində interaktiv təlim metodlarını özündə ehtiva edən dərs-müzakirə, dərs-mühazirə və dərs-disput kimi formalardan istifadə edərək əsasən qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından daha çox istifadə edir.

Müəllimin müasir dövrün tələblərinə uyğun xüsusiyyətləri onların şagirdlərlə ünsiyyət qurması, əməkdaşlıq etməsi, eyni zamanda tədqiqatçılıq, idarəçilik və özünütəhsil qabiliyyətlərinin olmasıdır.

İstənilən müəllim şagirdlərin psixologiyasını bilməli, onların fərdi xüsusiyyətlərinə bələd olmalı, özündə hövsələlilik, dözümlülük bacarıqlarını təlqin etməlidir. İnformasiya-kommunikasiya texnologiyalarına dərindən yiyələnməli, dərs prosesində şagirdlərə İKT-dən necə istifadə etməli olduqlarını öyrətməlidir. Müəllim şagirdlərinə yalnız bilik verməklə kifayətlənməməlidir, həm də onların sərbəst düşüncə tərzinin yenilənməsinə münbit şərait yaratmalıdır. Belə olduqda müəllim eyni zamanda şagirdlərin idrak fəaliyyətinə də güclü təsir göstərir.

Tədqiqatlar onu göstərir ki, müəllim təlim-tərbiyə, inkişaf və formalaşma sahəsində də əhəmiyyətli simadır və gələcəkdə belə də olacaqdır. Belə ki, müasir məktəbin novator müəllimi inkişaf etmiş ölkələrin təhsil sistemindən ən dəyərli nümunələri seçir və öz təhsilinin milli dəyərlər zəminində demokratikləşdirmə, inteqrasiya, fərdiləşmə, diferensiallaşdırma, humanistləşdirmə kimi ən vacib prinsiplərini təlim prosesinə tətbiq edir. Təlim prosesində müəllim təhsilin əsas məqsədi olaraq öz şagirdlərinə hüquqlarını müdafiə etmək bacarığını, müstəqilliyini, tolerantlığı, dinləmə mədəniyyətini, əməkdaşlığı, dialoq, qarşılıqlı kompromis və digər yüksək əxlaqi keyfiyyətlərin formalaşdırılmasında yaxından iştirak edir. Müasir dərsin interaktiv təlim modeli, yəni kurikulum əsasında qurması hər bir fənn müəlliminin yaradıcı əməyidir. Kurikulum əsasında qurulan dərslər şagirdləri əzbərçilik bəlasından qurtarır, onların axtarıcılıq, tədqiqatçılıq, təfəkkür və sərbəst düşüncə tərzinin inkişafına və formalaşmasına münbit şərait yaradır. Bu əsasda qurulan dərslər interaktiv təlim metodlarının tətbiqinə əsaslanır və müəllim özü də qarşısına çıxan yenilikləri mənimsəyərək dərslərini daha maraqlı və rəngarəng keçməyə çalışır. Təlim prosesində rollu oyunların tətbiqi, müzakirələr, debatlar, internetin yüksək imkanlarından istifadə edərək yeni-yeni dəlillərin, tarixi faktların üzə çıxarılması, mülahizələrin reallaşdırılması müəllimin keçdiyi yeni dərsin şagirdlər tərəfindən sinifdə mənimsənilməsinə imkan yaradır. İnteraktiv təlim metodlarının təlim prosesinə tətbiqi məktəblilərin idrakı fəallığının artmasına birbaşa təsir göstərir və təlim prosesinin keyfiyyət göstəricilərinin yüksəlməsinə səbəb olur.

Fənn müəllimi təlim prosesinin əsas təşkilatçısı olmaqla bərabər, həm də şagird nailiyyətlərini obyektiv qiymətləndirməyi bacarmalıdır. Müəllim təlim-tərbiyə prosesində qiymətləndirmənin yerini düzgün müəyyənləşdirməklə yanaşı həm statistik təhlil aparmalı, həm də qiymətləndirmə ilə əlaqəli məsələləri həll etməlidir. Bu baxımdan müəllim təlimin məzmununu, yəni şagirdə nəyi hansı həcmdə öyrətməli olduğunun, öyrədici mühiti, yəni hansı şəraitdə öyrətməli olduğunun və ən nəhayət qiymətləndirmə-yəni öyrətmə prosesinin vəziyyətinin, prosesin keyfiyyət göstəricilərinin dərs prosesində sadələşən modelini həyata keçirməlidir ki, bu da dərsin müvəffəqiyyətlə aparılmasına vəsilə olur.

Öz müəllimlik fəaliyyətində fənn müəllimi hansı proseslərdə iştirak etməlidir sualına aşağıdakı kimi cavab vermək olar:

- ilk növbədə məktəbin idarə edilməsində müəllim əsas simadır;
- təlim-tərbiyə sahəsində qiymətləndirmə işlərinin planlaşdırılmasında;
- icbari təhsilin təşkili və həyata keçirilməsi prosesində;
- məktəb sənədlərinin (müəllimdən tələb olunan) işlənib hazırlanmasında;

- fənlər üzrə proqram materiallarının şagirdlər tərəfindən mənimsənilmə səviyyəsinin nəzarətində;
- şəhər, rayon səviyyəli yarışlarda, olimpiadalarda, müsabiqələrdə şagirdlərin iştirakını təmin etməkdə;
- xüsusi istedad tələb edən yarışlarda qabiliyyətli şagirdlərini iştirakını təmin etməkdə;
- məktəbdə çalışan bütün pedaqoji kadrlarla əlaqələrin yüksək səviyyədə qurulmasında;
- gənc kadrların innovativ metodlarla işləmə səviyyəsinin artırılması istiqamətində;
- məktəb, valideyn, ictimaiyyət və əmək kollektivləri ilə aparılan işlərin təşkilində.

Yeni pedaqoji texnologiyaların təlim prosesinə tətbiqinin əsas məqsədi təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, fərdiləşdirmə, inteqrasiya prinsiplərini mənimsəyən, onları həyata keçirməyə həmişə hazır olan, təlimə verilən pedaqoji tələblərə cavab verən, əqli-intellektual və parlaq dünyagörüşə malik olan insanlar yetişdirməkdir. Tədqiqatçı pedaqoqlar dünyanın qabaqcıl təcrübəsinə əsaslanaraq təlimə yeni pedaqoji texnologiyaların şagirdlərə istiqamətlənən bir çox prinsiplərini təlim prosesinə gətirmişlər: fəal təlim, qabaqlayıcı təlim, dialoji təlim, inkişafetdirici təlim, əməkdaşlıq, təlim-tərbiyə prosesinin çevikliyi və.s.

Yeni təlim texnologiyalarından istifadə olunması onun müxtəlif növləri, yəni problemli təlim, modul təlim, kompüter təlimi, işgüzar oyunlar, proqramlı təlim və s. bunlar müasir təlim texnologiyalarının formaları kimi təhlil edilməlidir.

İKT və yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etməsi fənn müəlliminə dünya dövlətlərinin geniş təcrübəsindən istifadə edərək yeni üsullar, dərs tiplərini müəyyən etməsi üçün yollar açır.

Qeyd etmək lazımdır ki, yeni pedaqoji texnologiya fəal təlimə, fəal təlim isə yeni pedaqoji texnologiyaya əsaslanır. Fəal təlimin əsas komponentləri təlimin məzmunu, qiymətləndirmə, öyrədici mühit və metodlardır.

İnteraktiv (fəal) təlim müəllimlərin və şagirdlərin təfəkkürünün inkişaf etdirilməsində və işgüzarlığında əsas yer tutur. Bu isə öz növbəsində inkişafetdirici mühitin təşkilinə şərait yaradır. Bu zaman təlimin səmərəsi yüksəlir, təlim prosesində şagirdləri işgüzar fəaliyyətə istiqamətləndirir, innovasiyalardan istifadə edərək müsbət nəticə əldə edilməsinə kömək edir və şagirdlərin məqsədlərinə çatması istiqamətində əhəmiyyətli rol oynayır.

Onu da qeyd edək ki, ölkəmizin təhsil sistemində həyata keçirilən tale yüklü islahatların aparılması interaktiv təlim metodlarının tətbiq olunmasını və təlim prosesinin məzmununun təkmiləşdirilməsini tələb edir ki, bu çox vacib məsələdir. Təhsilin keyfiyyətinə müsbət təsir göstərən fəal təlim texnologiyalarının tətbiqi müasir dövrün ən aktual məsələsidir. Müasir təcrübələr onu deməyə əsas verir ki, dərs prosesində hər bir şagirdə müstəqillik verilməlidir ki, istər yaxşı oxuyan, istərsə də təhsildən geri qalan şagirdlər heç kimdən çəkinmədən öz düşüncələrini sərbəst ifadə etsinlər. Belə olduğu təqdirdə hər bir şagird öz arzu və istəklərinə müvafiq məşğuliyyət seçir. Bu baxımdan şagirdlərə müəllimlər tərəfindən daha əlverişli şərait yaradılmalıdır.

**Problemin aktuallığı.** İstənilən fənni tədris edən fənn müəlliminin informasiya sahəsində daha genişmiqyaslı biliklər alması təhsil prosesinin ən aktual məsələsidir. Əsas aktual məsələlərdən biri də yetişən gənc nəslin öz müəllimlərindən öyrəndikləri fənnin məzmununa və məqsədinə uyğun olan, onların fərdi xüsusiyyətlərini nəzərə alan, hərtərəfli şəxsiyyət kimi formalaşmasına münbit şərait yaradan texnologiyaların seçilərək dərs prosesinə tətbiq edilməsidir.

**Problemin elmi yeniliyi** . Dərs prosesində hər bir şagirdə müstəqillik verilməlidir ki, istər yaxşı oxuyan, istərsə də təhsildən geri qalan şagirdlər heç kimdən çəkinmədən öz düşüncələrini sərbəst ifadə etsinlər. Belə olduğu təqdirdə hər bir şagird öz arzu və istəklərinə müvafiq məşğuliyyət seçir. Bu baxımdan şagirdlərə müəllimlər tərəfindən daha əlverişli şərait yaradılmalıdır.

**Problemin praktik əhəmiyyəti**. Yeni pedaqoji texnologiyaların təlim prosesinə tətbiqinin əsas məqsədi təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, fərdiləşdirmə, inteqrasiya prinsiplərini mənimsəyən, onları həyata keçirməyə həmişə hazır olan, təlimə verilən pedaqoji tələblərə cavab verən, əqli-intellektual və parlaq dünyagörüşə malik olan insanlar yetişdirməkdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004-cü illər). [I kitab]. −Bakı: Çaşıoğlu, − 2005, − 254 s.
2. İsmixanov, M.A. Məktəbin idarə edilməsi: Dərs vəsaiti / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova. − Bakı: −2012. − 235 s.
3. Mehrabov, A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri // − Bakı: Azərbaycan məktəbi, −2007. №1, −112 s.

**Redaksiyaya daxil olub:** 06.03.2025.

*UOT 37.012.3*

***Nərmin Rizvan qızı Həsənli***
*Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0003-2276-3957*
*E-mail: aliyevanermin11@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).102-105*

# TƏHSİLALANLARIN QİYMƏTLƏNDİRİLMƏSİNİN ÖYRƏNMƏ PROSESİNDƏ ROLU

***Нармин Ризван гызы Гасанлы***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# РОЛЬ ОЦЕНИВАНИЯ ОБУЧАЮЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Narmin Rizvan Hasanli***
*doctorial student in the program of doctor of philosophy*
*of Baku State University*

# THE ROLE OF LEARNER ASSESSMENT IN THE LEARNING PROCESS

**Xülasə.** Qiymətləndirmələr öyrənmədə mühüm rol oynayır, özünü təkmilləşdirmək və akademik performansa nəzarət etmək üçün dəyərli rəy verir. Bu amillər tənqidi təfəkkür və fəal öyrənməni təşviq edir və məqsəd qoymağı dəstəkləyirlər. Ədəbiyyatda təqdim olunan sübutlara əsaslanaraq, müxtəlif sahələrə və öyrənmə üslublarına uyğunlaşmaq üçün müxtəlif qiymətləndirmə vasitələrindən istifadə tövsiyə olunur.
***Açar sözlər:*** *qiymətləndirmə, öyrənmə prosesi, təhsil, təkmilləşmə*

**Аннотация.** Оценивание играет важную роль в обучении, обеспечивая ценную обратную связь для самосовершенствования и контроля успеваемости. Эти факторы поощряют критическое мышление и активное обучение, а также способствуют постановке целей. На основании данных, представленных в литературе, рекомендуется использовать различные средства оценивания для разных областей и стилей обучения.
***Ключевые слова:*** *оценивание, процесс обучения, образование, усовершенствование*

**Abstract.** Assessments play an important role in learning, providing valuable feedback for self-improvement and monitoring academic performance. These factors encourage critical thinking and active learning, and support goal setting. Based on the evidence presented in the literature, it is recommended to use a variety of assessment tools to accommodate different domains and learning styles.
***Key words:*** *assessment, learning process, education, improvement*

Qiymətləndirmə öyrənmə və təhsili gücləndirə bilən güclü öyrənmə vasitəsidir. Şagirdlərin qiymətləndirilməsi prosesi kurikulum məqsədlərinə və təhsil məqsədlərinə uyğun olmalıdır. Fərdi proqramlar çərçivəsində şagirdlərin irəliləyişlərinin düzgün qiymətləndirilməsi üçün zəruri olan qiymətləndirmə strategiyalarının müəyyən edilməsi kurikulum məzmununun və çatdırılma üsullarının yaradılması qədər vacibdir.

Qiymətləndirmə təhsilin kritik komponentidir, lakin onun əhəmiyyəti çox vaxt nəzərdən qaçırılır. Öyrənmənin qiymətləndirilməsi müəllimlərə və şagirdlərə onların tərəqqi prosesi ilə bağlı rəy bildirmək üçün çox vacibdir. O, böyümə və inkişafı asanlaşdıraraq, güc və təkmilləşmə sahələrini müəyyən etməyə kömək edir. Qiymətləndirmə şagirdlər və valideynlər üçün obrazlı deyilərsə, qorxulu olsa da, öyrənmə vasitəsi kimi baxdıqda, şagirdlərin potensialını üzə çıxarmaq üçün güclü bir vasitəyə çevrilir. Bu məqalə yazısında qiymətləndirmənin təhsildə rolunu və onun həm şagirdlərə, həm də valideynlərə necə fayda verə biləcəyini araşdırılacaq. Şagirdlərin qiymətləndirilməsi prosesi kurikulum məqsədləri və təhsil məqsədlərinə uyğun olmalıdır. Şagirdlər öyrənmələrinin qiymətlən-

dirilməsi mühüm yollarla təhsil nəticələri və təlim metodları ilə əlaqələndirilir. Dövr potensial olaraq istənilən nöqtədə başlaya bilən dinamik, davamlı və əməkdaşlıq səyidir, çünki əsas məqsəd təlim nəticələri, qiymətləndirmə və öyrənmə fəaliyyətləri arasında qarşılıqlı dəstək sistemini saxlamaqdır. İdeal olaraq təhsil nəticələri və təlim metodları müəyyən edildikdən sonra, müxtəlif təhsil məqsədlərinə (nəzəri bilik, klinik və ünsiyyət bacarıqları, klinik əsaslandırma və peşəkarlıq kimi) aid olduğu üçün şagirdlərin nailiyyətlərini yoxlamaq üçün qiymətləndirmə strategiyaları və prosedurları tərtib edilir.




**Sxem 1.** *Şagirdlərin qiymətləndirilməsi, təhsil məqsədləri və təlim metodları arasında əlaqə*

Qiymətləndirmə prosesi həm müəllimlərin, həm də şagirdlərin özlərini və bir-birlərini qiymətləndirərkən əks əlaqə kimi istifadə edə biləcəkləri məlumatları təmin edə bilər. Nəticədə, öyrənmə üçün qiymətləndirmə və öyrənmə kimi qiymətləndirmə strategiyalarından istifadəni təşviq edəcək təşəbbüslərə daha çox diqqət yetirməklə, qiymətləndirmədə yeni yanaşmalar işlənib hazırlanmışdır. Hər iki halda, müəllimlər və şagirdlər xarici gözləntilərə və özünü motivasiyaya uyğun gələn məqsədlər qoyduqları üçün qiymətləndirmə prosesində məsuliyyəti bölüşürlər. Məsələn, OSCEs beynəlxalq qiymətləndirmə strategiyalarından biri kimi yaxşı nümunədir. Müəllimlər dərhal rəy vermək üçün klikləyicilər və ya simsiz cavab sistemləri kimi texnologiyalardan istifadə edirlər. Bu simsiz cavab sistemləri müəllimlərə mühazirələr və ya təlim fəaliyyətləri zamanı suallar daxil etməyə imkan verir. Nəticələr dərhal və qrafik şəklində sinfə təqdim olunur. Bu məlumat təhsilalanlar tərəfindən öz irəliləyişlərini qiymətləndirmək üçün və təlimatçı tərəfindən tədrisin effektivliyini qiymətləndirmək üçün istifadə edilə bilər. Beləliklə, müəllimin kursu və ya dərs planlaması həm şagirdə, həm də müəllimə təhsil məqsədlərinə doğru irəliləyişləri haqqında məlumat əldə etmək və istifadə etmək imkanlarını təmin edir. Proses eyni zamanda ilkin və yaranan ideya və bacarıqlara cavab vermək üçün çevik olmalıdır. Planlaşdırma öyrənənlərin izlədikləri məqsədləri və qiymətləndirmə zamanı tətbiq olunacaq meyarları başa düşmələrini təmin edən strategiyaları əhatə etməlidir. Planlaşdırma həm də öyrənənlərin necə rəy alacağını, onların öyrənmələrinin qiymətləndirilməsində necə iştirak edəcəklərini və onlara gələcək irəliləyişlərə necə kömək ediləcəyini nəzərə almalıdır.

Öyrənmədə qiymətləndirmələrin əhəmiyyətini daha dərindən öyrənmək üçün burada bilinməli olan beş əsas məqam var.




**Sxem 2.** *Qiymətləndirmənin öyrənmə prosesindəki əhəmiyyəti*

a) Güclü və zəif tərəflərin aydın təsvirini təqdim edir – Qiymətləndirmənin öyrənmə prosesinin ayrılmaz hissəsi olmasının əsas səbəblərindən biri onların akademik göstəricilər haqqında rəy bildirməsidir. İmtahan verməklə və ya layihələr təqdim etməklə güclü və zəif hissələr daha yaxşı başa düşülür. Bu, şagirdlərə təkmilləşdirməli olduqları sahələr haqqında aydın fikir verir, əldə edilə bilən məqsədlər qoymağa və daha yaxşı öyrənən olmağa imkan verir.

b) Öyrənməyi və yadda saxlamağı asanlaşdırır – Qiymətləndirmə təkcə cari bilik və bacarıqların ölçməyə xidmət etmir. O, həmçinin uzun müddətdə daha yaxşı öyrənməyə kömək edə bilir. İstər özünüqiymətləndirmə, istərsə də müəllimin rəhbərliyi ilə mütəmadi olaraq qiymətləndirilməklə təhsilalanlar yadda saxlama və xatırlama qabiliyyətlərini təkmilləşdirə, həyat boyu tətbiq olunan situasiyalar zamanı məlumat əldə etməyi asanlaşdırmaq mümkündür.

c) Fəal öyrənməyə həvəsləndirir – Qiymətləndirmə aktiv öyrənməyə kömək edir, çünki onlar materialla məşğul olmağı və tənqidi düşünməyi tələb edir. Qiymətləndirmələrdə uğur qazanmaq üçün mövzunu dərk etmək və anlayışları çətin ssenarilərə tətbiq etmək vacibdir. Bu yanaşma mövzuların dərindən başa düşülməsinə kömək edir və ömürboyu öyrənməyə təşviq edir.

d) Qiymətləndirmə hər şey demək deyil- Qiymətləndirmə akademik tərəqqini müəyyən edə bilsə də, yadda saxlamaq lazımdır ki, onlar təhsilalanların şəxsiyyət kimi dəyərini ölçmür. Qiymətləndirmələr öyrənmə uğurlarıyla bağlı rəy və fikirlər təmin edir. O, şagirdlərə öyrənməyə yanaşma haqqında düşünmək və davamlı olaraq təkmilləşməyin yollarını tapmaq imkanı təklif edir.

e) Məqsəd və motivasiyanı dəstəkləyir- Qiymətləndirmə həddən artıq ağır ola bilər, lakin onlar real məqsədlər qoymaq və motivasiyalı qalmaq üçün təhsildən ayrılmazdır. Qiymətləndirmələr vasitəsilə inkişafı izləməklə, şagird və müəllim təkmilləşdirməyə ehtiyacı olan sahələri müəyyən edə, məqsədlər qoya və irəliləyişə nəzarət edə bilərlər. Bu strategiya motivasiyalı olmağa və təhsil məqsədlərinə diqqət yetirməyə kömək edə bilər.

Nəticə olaraq, qiymətləndirmə tədris və öyrənmədə həlledici rol oynayır. Qiymətləndirmənin xidmət etdiyi məqsədlər aşağıdakı kimidir:

- tələbə irəliləyişinin monitorinqi
- təlimatın uyğunlaşdırılması
- şagirdin öyrənilməsinin təkmilləşdirilməsi
- tədrisin qiymətləndirilməsi
- kurikulumun işlənib hazırlanması.

Qiymətləndirmə təkcə şagirdlər üçün deyil, müəllimlər üçün də faydalıdır. Bu, onlara şagirdlərin mübarizə apara biləcəyi sahələri müəyyən etməyə kömək edir və onlara fərdi ehtiyacları ödəmək üçün təlimatlarını uyğunlaşdırmağa imkan verir.

Bununla belə, qiymətləndirmə aparаrkən etik mülahizələri nəzərə almaq vacibdir. Müəllimlər qiymətləndirmələrin ədalətli, etibarlı olmasını təmin etməlidirlər və hər hansı konkret qrup şagirdlərə qarşı ayrı-seçkilik yaratmamalıdırlar.

Nəticədə qiymətləndirmə təhsildə əvəzsiz vasitədir və qiymətləndirmə təhsilalanların güclü və zəif sahələrini müəyyən etməklə, daha yaxşı öyrənən ola, yadda saxlama və uzunmüddətli yaddaşı yaxşılaşdıra bilir. Bu təhsilverənin, yəni müəllimin işini asanlaşdırır. Bununla belə, qeyd etmək lazımdır ki, qiymətəndirmə nəticələri hər şey deyil və qiymətləndirmələrə uğurun göstəricisi deyil, böyümə üçün fürsət kimi baxılmalıdır.

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı qiymətləndirmənin tərtibatı və həyata keçirilməsində nəzərə alınmalı olan elementləri, eləcə də bu proses zamanı rast gəlinən ümumi problemləri müzakirə etməkdən ibarətdir. Cəmiyyətdə qiymətləndirmənin nəticələri şagirdlərin təhsil və peşə sistemlərinə çıxışı və irəliləyişinə və daha geniş mənada həyat şanslarına dərin və geniş təsir göstərir. Qiymətləndirmənin dizaynı zamanı nəzərə alınmalı olan elementlərə qiymətləndirmənin məqsədi, sınaqdan keçiriləcək sahələr və istifadə olunacaq qiymətləndirmə vasitələrinin xüsusiyyətləri daxildir.

**Problemin elmi yeniliyi.** Müasir təhsildə qiymətləndirmənin fərqli formalarla və üsullarla aparılması onun yeniliyindən xəbər verir. Bu yeni üsulların təhsilalanlara öyrənmə prosesində tətbiq edilməsi qiymətləndirmənin rolunu artırır. Qiymətləndirmə sisteminin strukturunda edilən dəyişikliklər bu yüksək məzmunlu gündəm çərçivəsində tədqiqat ehtiyaclarını müəyyən etmək üçün əhəmiyyətli bir məqam təqdim edir.

**Problemin praktik əhəmiyyəti.** Qiymətləndirmə dövrü nəticələrin qiymətləndirilməsi ilə başa çatır və bunlar əsasında müəssisə, proqram və ya kurs təhsilin keyfiyyətini artırmaq üçün dəyişikliklər edə bilər. Qiymətləndirmə dizaynı təhsilin nəticələri və tədris metodları ilə uyğunlaşarsa, bu, təhsilin keyfiyyətini yaxşılaşdırır və şagirdin öyrənilməsini dəstəkləyir. Məhz bu xüsusiyyətlər qiymətləndirmənin praktiki əhəmiyyətini ifadə edir.

## Ədəbiyyat


1. F. Sithy Rifa Mahroof, The Role of Assessment in the Teaching and Learning Process, -Sri Lanka 2013,. - s. 55-61
2. The role of assessment in learning. URL: https://www.explico.sg/blog/the-role-of-assessment-in-learning/
3. The Role of Assessment in the Student Learning Process. URL: https://utppublishing.com/doi/10.3138/jvme.38.2.157
4. The role of assessment in the student learning process. URL: https://pubmed.ncbi.nlm.nih.gov/22023924/
5. The importance of assesement in teaching and learning. URL: https://zonofeducation.com/the-importance-of-assessment-in-teaching-and-learning/
6. Assesment methods lessons. URL: https://study.com/academy/lesson/the-importance-of-assessment-in-education.html
7. The 6 Learning types. URL: https://abc-ld.org/6-learning-types/
8. The learning process. URL: https://kstatelibraries.pressbooks.pub/


**Redaksiyaya daxil olub:** 26.02.2025.

ALİ MƏKTƏB PEDAQOGİKASI
ПЕДАГОГИКА ВЫСШЕЙ ШКОЛЫ
PEDAGOGY OF HIGHER EDUCATION

UOT 517.951

**Gülnarə Həzi qızı Paşayeva**
Qarabağ Universitetinin ingilis dili müəllimi
https://orcid.org/0009-0005-7095-6395
E-mail: gulnara.pashayeva@karabakh.edu.az
https://doi.org/10.69682/arti.2025.92(2).106-109

# DİFERENSİAL YANAŞMANIN TƏLƏBƏ İŞTİRAKINA TƏSİRİ VƏ TƏTBİQ STRATEGİYALARI

**Гюльнара Гязи гызы Пашаева**
преподаватель английского языка Карабахского Университета

# ВЛИЯНИЕ ДИФФЕРЕНЦИРОВАННОГО ПОДХОДА НА УЧАСТИЕ СТУДЕНТОВ И СТРАТЕГИИ ЕГО ПРИМЕНЕНИЯ

**Gulnara Hazi Pashayeva**
English teacher at Karabakh University

# THE IMPACT OF THE DIFFERENTIATED APPROACH ON STUDENT PARTICIPATION AND ITS IMPLEMENTATION STRATEGIES

**Xülasə.** Bu məqalə, təhsil sistemində tələbə iştirakını artırmaq məqsədilə tətbiq olunan diferensial yanaşmasının təsirini araşdırır. Diferensiallaşma metodları, tələbələrin fərdi ehtiyaclarına uyğunlaşdırılmış tədris strategiyası olaraq, sinifdə daha aktiv iştirak və daha yüksək akademik nailiyyətlər əldə etməyə imkan yaradır. Məqalə, diferensiallaşmanın tətbiqi ilə tələbə iştirakını necə artırdığı, fərdi öyrənmə tərzlərinə uyğun yanaşmaların əhəmiyyəti, həmçinin bu yanaşmanın təhsil prosesinə müsbət təsirləri haqqında müzakirələr təqdim edir. Araşdırma, müəllimlər üçün bu metodların praktik tətbiqi, fərdi yanaşma, motivasiyanın artırılması və inklüziv təhsil prinsiplərinin rolunu vurğulayır. Nəticədə, diferensial yanaşmasının müasir təhsil siyasətində vacib bir yer tutduğu və onun tələbələrin iştirakını və ümumi təhsil uğurlarını müsbət təsir etdiyi qeyd edilir.

Tələbə iştirakçılığı təhsil prosesinin vacib bir hissəsidir və akademik nailiyyətlərə, motivasiyaya və ümumi təhsil uğuruna təsir edir. Diferensial yanaşma tələbələrin müxtəlif ehtiyaclarına uyğunlaşdırılmış tədris strategiyası olaraq, müasir təhsil mühitində önəm qazanmışdır. Fərqli bacarıq səviyyələri, öyrənmə üslubları və maraqları olan siniflərdə, diferensiallaşdırma tələbələrin iştirakını qorumaq və artırmaqda mühüm rol oynayır.
***Açar sözlər:*** *təlim, diferensiallaşma, aktiv iştirak, təhsil, tələbə, motivasiya*

**Аннотация.** В данной статье рассматривается влияние дифференцированного подхода, применяемого с целью повышения участия студентов в образовательной системе. Методы дифференциации, как стратегия обучения, адаптированная к индивидуальным потребностям студентов, создают возможности для более активного участия в аудитории и достижения более высоких академических результатов. В статье обсуждается, как дифференциация способствует увеличению участия студентов, значение подходов, соответствующих индивидуальным стилям обучения, а также положительное влияние этого подхода на образовательный процесс. Исследование подчеркивает практическое применение этих методов для преподавателей, важность индивидуального подхода, повышение мотивации и роль принципов инклюзивного образования. В результате отмечается, что дифференцированный подход занимает важное место в современной образовательной политике и оказывает положительное влияние на участие студентов и общий образовательный успех.

Участие студентов является важной частью образовательного процесса, оказывая влияние на академические достижения, мотивацию и общий образовательный успех. Дифференцированный

подход, как стратегия обучения, адаптированная к различным потребностям студентов, приобрел значительную важность в современной образовательной среде. В аудиториях с разными уровнями навыков, стилями обучения и интересами дифференциация играет ключевую роль в поддержании и увеличении вовлеченности студентов.

***Ключевые слова:*** *обучение, дифференциация, активное участие, образование, студент, мотивация*

**Abstract.** This article explores the impact of the differentiated approach applied to increase student participation in the education system. Differentiation methods, as a teaching strategy tailored to students' individual needs, create opportunities for more active classroom participation and higher academic achievement. The article discusses how differentiation enhances student participation, the importance of approaches that align with individual learning styles, and the positive effects of this approach on the educational process. The research highlights the practical application of these methods for teachers, the significance of individualized approaches, the enhancement of motivation, and the role of inclusive education principles. As a result, it is noted that the differentiated approach holds an important place in modern educational policies and positively influences student participation and overall academic success.

Student participation is a crucial part of the educational process, affecting academic achievement, motivation, and overall educational success. The differentiated approach, as a teaching strategy tailored to students' diverse needs, has gained importance in contemporary educational settings. In classrooms with varying skill levels, learning styles, and interests, differentiation plays a key role in maintaining and increasing student engagement.

***Keywords:*** *teaching, differentiation, active participation, education, student, motivation*

**1. Diferensiallaşma və tələbə iştirakının əlaqəsi.** Təlim prosesində tələbə iştirakı onların diqqət, maraq, həvəs və təhsil prosesinə bağlılığını əhatə edir. O, əsasən üç kateqoriyaya bölünür: davranış iştirakçılığı, emosional iştirakçılıq və kognitiv iştirakçılıq (Fredricks, Blumenfeld və Paris, 2004, s. 61). Diferensial yanaşma bu üç aspektə müsbət təsir edərək, daha interaktiv və dinamik bir sinif mühiti yaradır.

***1.1. Davranış iştirakı.*** Davranış iştirakçılığı, tələbələrin dərslərdə aktiv iştirakı, müntəzəm iştirak və dərs zamanı diqqətli olmaları ilə xarakterizə olunur. Diferensial yanaşma tədris, tələbələrin fərdi öyrənmə üslublarına uyğun müxtəlif fəaliyyətlər təqdim edərək davranış iştirakçılığını təşviq edir (Sousa & Tomlinson, 2018, s. 44). Məsələn, qrup işi, praktiki fəaliyyətlər və texnologiyadan istifadə tələbələrin iştirakını artırır və sinifdəki intizam problemlərini azaldır.

***1.2. Emosional iştirak.*** Emosional iştirak, tələbələrin özlərini sinifdə necə hiss etmələri və təhsilə qarşı münasibətləri ilə bağlıdır. Tələbələr öyrənmə ehtiyaclarının qarşılandığını hiss etdikdə, təhsilə daha müsbət yanaşırlar. Fərdiləşdirilmiş təhsil təcrübələri, tələbə seçimi və mədəni cəhətdən həssas tədris metodları motivasiyanı artırır və tələbələrdə öyrənmə prosesinə sahiblik hissi yaradır (Dweck, 2006, s. 35).

***1.3. Kognitiv iştirak.*** Kognitiv iştirak, tələbələrin akademik məzmunu anlamaq və mənimsəmək üçün göstərdikləri səy səviyyəsini ifadə edir. Diferensiallaşma, materialın tələbələr üçün uyğun çətinlik səviyyəsində təqdim edilməsi ilə kognitiv iştirakçılığı dəstəkləyir. Dəstəkli tədris, səviyyələndirilmiş tapşırıqlar və problem əsaslı öyrənmə yanaşmaları tələbələrin tənqidi düşünmələrini və dərindən anlama qabiliyyətlərini artırır (Vygotsky, 1978, s. 89).

**2. Diferensiallaşmanin iştirakı artırmaq üçün tətbiq strategiyaları.** Tədrisdə diferensiallaşmanı effektiv şəkildə tətbiq etmək və tələbə iştirakını artırmaq üçün müəllimlər müxtəlif strategiyalardan istifadə edə bilərlər:

***2.1. Məzmunun fərqləndirilməsi.*** Məzmunu fərqli yanaşmalarla təqdim etdikdə, bu o deməkdir ki, bütün tələbələr eyni mövzu üzərində işləyir, lakin bəzi tələbələr üçün təqdim olunan material digərlərinə nisbətən daha çətin ola bilər. Məsələn, bəzi tələbələrə müqayisə dərəcələrinin formalaşdırılması qaydalarını həm "-more", həm də "-er" sonluqları ilə təqdim edə bilərik və "-er" sifətləri üçün yazılış qaydalarını izah edə bilərik. Digərləri üçün isə bu yazılış qaydalarını təqdim etməmək daha məqsədəuyğun ola bilər və bəzilərinə sadəcə "more" müqayisə dərəcələrini və ya yalnız "-er" müqayisələrini öyrətməliyik.

Bu fərqləndirməni tələbələrə öyrənmək üçün müxtəlif materiallar təqdim etməklə, təqdimat üslublarını (məsələn, eşitmə, vizual və s.) dəyişməklə və onların anlamasını asanlaşdırmaq üçün scaffoldinq tətbiq etməklə həyata keçirə bilərik. Scaffoldinq dedikdə, tələbələr yeni mövzuya başlayanda əlavə dəstəyin göstərilməsi və bu dəstəyin artıq lazım olmadığı hallarda tədricən çıxarılması nəzərdə tutulur. Xarici dil kimi ingilis dili (EFL) siniflərində scaffoldinq üsullarına tələbələrin əvvəlki biliklərini aktivləşdirmək və yeni konseptlərlə əlaqələndirmək, öyrədilməsi çətin olan prosesləri sadə addımlara bölmək, tələbələrin təqlid edə biləcəyi bir model təqdim etmək, boşluqları doldurmağa imkan verən tapşırıqlar təqdim etmək, cavab verməzdən əvvəl kifayət qədər vaxt vermək və ya cavabları müzakirə etmək üçün sinif yoldaşı ilə işləmək daxildir. Bu texnikalar yalnız dil biliyi zəif olan tələbələr üçün deyil, bütün tələbələr üçün faydalıdır. Məzmunu fərqləndirmək həmçinin dil təcrübəsinin mövzusunu tələbələrin maraqlarına uyğun şəkildə dəyişdirmək deməkdir.

Məzmunun fərqləndirilməsi, tələbələrin öyrənmə səviyyələrinə, maraqlarına və öyrənmə üslublarına əsasən dəyişdirilməsini əhatə edir. Müəllimlər bunu aşağıdakı yollarla həyata keçirə bilərlər:

- Müxtəlif resursların təqdim edilməsi (dərsliklər, onlayn materiallar, videolar, interaktiv simulyasiyalar)
- Səviyyələndirilmiş tapşırıqların verilməsi
- Müxtəlif qruplama strategiyalarının tətbiq edilməsi (Tomlinson, 2014, s. 57)

***2.2. Prosesin fərqləndirilməsi.*** Prosesi fərqləndirmək fərqli tələbələr üçün müxtəlif tapşırıqlar yaratmaq deməkdir. Hamı eyni mövzu üzərində işləyir, lakin bəzi tələbələr daha çox müstəqillik və ya daha yüksək səviyyəli düşüncə tələb edən fəaliyyətlərdə iştirak edə bilər. Həmçinin, tələbələr fəaliyyətlərə müxtəlif vaxt sərf edə bilərlər. Bu prosesdə stansiyalar çox faydalıdır. Stansiyalar sinfin müəyyən bölgələridir və hər biri müəyyən bir bacarıq və ya tapşırıq üzərində işləmək üçün nəzərdə tutulur. Stansiyalar müxtəlif çətinlik səviyyələrində və ya fərqli öyrənmə yanaşmaları ilə fəaliyyətlər təqdim edə bilər.

Tələbələr istədikləri stansiyanı seçə və ya müəyyən stansiyalara yönləndirilə bilərlər. Onlar fərdi və ya kiçik qruplarda işləyə bilərlər. Əslində, tələbələrin kiçik qruplarda və müəyyən rollarla işləməsi fərqləndirilmiş tədris üçün əla üsuldur, istər eyni səviyyədə olan, istərsə də müxtəlif dil səviyyələrinə malik tələbələr birlikdə işləsinlər. Qruplar eyni dil səviyyəsində olan və bir-birinə kömək edə bilən tələbələrdən təşkil oluna bilər.

Məsələn, tələbələr məlumatları qrafik təşkil edən diaqramlar və ya cədvəllər yaratdıqda, müəllimlər tələbələrə hansı növ təşkilatçını seçmək və ya onu şəkillərlə, ingilis dili sözləri ilə və ya öz ana dillərində doldurmaq imkanı verə bilərlər. "Jiqso" fəaliyyəti, interaktiv öyrənmə jurnalları və manipulativ materiallardan istifadə prosesi fərqləndirməyin digər yollarıdır.

Prosesin fərqləndirilməsi, tələbələrin bilikləri necə qazandıqlarına yönəlib. Bunun üçün:

- Müxtəlif tədris metodlarından istifadə etmək (düz izah, araşdırma əsaslı öyrənmə, qrup öyrənməsi)
- Tələbələrə müstəqil, cütlük və ya qrup şəklində işləmək imkanı yaratmaq
- Texnologiyadan istifadə etmək (Heacox, 2012, s. 98)

***2.3. Nəticənin fərqləndirilməsi.*** Məhsulu fərqləndirmək dedikdə, tələbələrə bilik və bacarıqlarını müxtəlif üsullarla nümayiş etdirmək imkanı verilir. Bu yanaşma standart qiymətləndirmə üsulları, məsələn, test və çoxseçimli sualların hamıya eyni şəkildə tətbiq olunmasına alternativ kimi çıxış edir. Diferensiallaşdırılmış qiymətləndirmə testləri əvəz edə bilər, lakin eyni zamanda onları tamamlayıcı üsul kimi də istifadə etmək mümkündür.

Testlərin sonunda tələbələrə mövzu haqqında bildiklərini əlavə olaraq yazmaları üçün boş bir yer ayırır. Bəzən tələbələr test suallarına cavab olaraq nümayiş etdirdiklərindən daha çox biliklərini bu yolla göstərə bilirlər. Əgər testlərdən kənara çıxsaq, tələbələrin biliklərini qiymətləndirmək üçün onlara fərdi yanaşmalar tətbiq edə bilərik.

Nəticənin fərqləndirilməsi tələbələrin biliklərini necə nümayiş etdirdiklərini əhatə edir. Bunun üçün müəllimlər:

- Qiymətləndirmə üsullarını fərqləndirə bilərlər (yazılı hesabatlar, təqdimatlar, bədii layihələr)
- Yaradıcı ifadəni təşviq etmək
- Özünü və həmyaşıdlarını qiymətləndirməyə imkan yaratmaq (Wormeli, 2006, s. 77)

***2.4. Öyrənmə mühitinin fərqləndirilməsi.*** Öyrənmə mühiti tələbə iştirakçılığı üçün mühüm rol oynayır. Müəllimlər bunu aşağıdakı yollarla həyata keçirə bilərlər:

- Fərqli oturma planları yaratmaq
- Dəstəkləyici sinif mühiti qurmaq
- Vizual materiallardan, musiqidən və əyani vasitələrdən istifadə etmək (Marzano, Pickering & Pollock, 2001, s. 112)

**Problemin aktuallığı.** Müasir təhsil sistemlərində tələbələrin fərdi ehtiyaclarını qarşılamaq üçün yeni və effektiv yanaşmalara ehtiyac duyulur. Diaqnozlaşdırma, hər bir tələbənin fərdi xüsusiyyətlərini nəzərə alaraq, onların tədris prosesində daha aktiv iştirak etməsini təmin edir. Qlobal təhsil tendensiyalarında fərdi yanaşmanın əhəmiyyəti getdikcə artır və bu, müəllimlərin tədris metodlarını yenidən nəzərdən keçirməsinə səbəb olur. Bu baxımdan, diferensial yanaşmanın tətbiqi müasir təhsil siyasətində mühüm yer tutur və onun tələbə iştirakına təsiri aktual bir məsələdir.

**Problemin yeniliyi.** Diferensial tədris metodları son illərdə daha geniş tətbiq olunmağa başlanmışdır. Ənənəvi təhsil sistemində müəllimlər əsasən frontal metodlara üstünlük verirdilər, lakin bu yanaşma bütün tələbələrin eyni səviyyədə öyrənməsinə zəmanət vermirdi. Yeni texnologiyalar, fərdi öyrənmə yolları və inklüziv təhsil prinsipləri diaqnozlaşdırmanı daha effektiv hala gətirmişdir. Müxtəlif təhsil modelləri və tədqiqatlar, fərdiləşdirilmiş yanaşmanın tələbələrin akademik uğurlarına və emosional rifahına təsir etdiyini sübut edir. Bu mövzu, hələ də tədqiqatçıların və təhsil mütəxəssislərinin diqqət mərkəzindədir və davamlı inkişaf etdirilməkdədir.

**Problemin praktik əhəmiyyəti.** Diferensial tədris metodlarının praktik tətbiqi müəllimlər üçün bir sıra üstünlüklər yaradır:

- **Fərdi yanaşmanın təmin edilməsi** – Tələbələrin öyrənmə tərzlərinə uyğun materialların seçilməsi onların dərsi daha yaxşı mənimsəməsinə kömək edir.
- **Motivasiyanın artırılması** – Tələbələrə öz maraq dairələrinə uyğun tapşırıqlar verildikdə, onlar öyrənmə prosesinə daha həvəsli yanaşırlar.
- **Daha yüksək akademik nailiyyətlər** – Diferensiallaşmanın nəticəsində tələbələrin öyrənmə səviyyəsi daha yüksək olur və onlar daha yaxşı nəticələr əldə edirlər.
- **İnklüziv təhsilin dəstəklənməsi** – Hər tələbənin ehtiyaclarına uyğun metodların tətbiqi inklüziv təhsilin keyfiyyətini artırır.

## Ədəbiyyat

1. Black, P., & Wiliam, D. (1998). *Assessment and classroom learning.* Assessment in Education, 5(1), s. 7-74.
2. Dweck, C. S. (2006). *Mindset: The new psychology of success.* Random House, s. 35.
3. Fredricks, J. A., et al. (2004). *School engagement.* Review of Educational Research, 74(1), s. 59-109.
4. Tomlinson, C. A. (2017). *How to differentiate instruction in academically diverse classrooms.* ASCD, s. 12.
5. Vygotsky, L. S. (1978). *Mind in society.* Harvard University Press, s. 89.

**Redaksiyaya daxil olub:** 10.04.2025.

***AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА***
***METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE***

*UOT 372.8*

**Maya Rəhim qızı Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0001-9116-4331*
*E-mail:maya0866@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).110-114*

# ŞAGİRDLƏRİN RABİTƏLİ NİTQİNİN İNKİŞAFI ÜZRƏ İŞİN TƏŞKİLİNDƏ SON NƏŞR II SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNİN İMKANLARI

**Мая Рагим гызы Касумова**
*доцент Азербайджанского Государственного Педагогического Университета*
*доктор философии по педагогике*

# ВОЗМОЖНОСТИ ПОСЛЕДНЕГО ИЗДАНИЯ УЧЕБНИКА АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА II КЛАССА В ОРГАНИЗАЦИИ РАБОТЫ ПО РАЗВИТИЮ СВЯЗНОЙ РЕЧИ УЧАЩИХСЯ

**Maya Rahim Gasimova**
*associate professor of the Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# THE POSSIBILITIES OF THE LATEST EDITION OF THE AZERBAIJANI LANGUAGE TEXTBOOK OF CLASS II IN THE ORGANIZATION OF WORK ON THE DEVELOPMENT OF COHERENT SPEECH OF STUDENTS

**Xülasə.** İnsanın bir şəxsiyyət kimi formalaşmasını şərtləndirən amillərdən biri onun ana dilinə yiyələnməsi və bu dildən mükəmməl şəkildə istifadə etmək bacarığına sahib olmasıdır. Bu baxımdan təhsilin ilk pillələrindən başlayaraq, dil təlimini elmi əsaslar və düzgün strategiyalar üzərində qurmaq; şagirdlərin səlis, aydın nitqə yiyələnməsi üçün sistemli iş aparmaq lazımdır. Məqalədə ibtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf etdirilməsi üzrə işin təşkilində son nəşr II sinif Azərbaycan dili dərsliyinin imkanları araşdırılır, dərslikdə təqdim olunan nəzəri və praktik materialların fənn kurikulumu üzrə məzmun standartlarını reallaşdırmaq baxımından yetərlilik səviyyəsi təhlil edilir.
***Açar sözlər:*** *ibtidai sinif şagirdləri, 2-ci sinif Azərbaycan dili dərsliyi, rabitəli nitqin inkişafı, dərsliyin imkanları.*

**Аннотация.** Одним из факторов, обуславливающих становление человека как личности, является овладение им родным языком и умение в совершенстве использовать его. В связи с этим, начиная с первых ступеней образования, необходимо строить языковое обучение на научных основах и правильных стратегиях; проводить систематическую работу по овладению учащимися свободной, четкой речью. В статье рассматриваются возможности последнего издания учебника Азербайджанского языка II класса в организации работы по развитию связной речи учащихся начальных классов, анализируется уровень теоретических и практических материалов, представленных в учебнике, с точки зрения реализации стандартов учебной программы предмета.
***Ключевые слова:*** *ученики начальных классов, учебник Азербайджанского языка 2 класса, развитие связной речи, возможности учебника.*

**Abstract.** One of the factors contributing to the formation of a person as a personality is his mastery of his native language and the ability to use it perfectly. In this regard, starting from the first stages of education, it is necessary to build language learning on scientific foundations and correct strategies; to carry out systematic work to master students with fluent, clear speech. The article examines the possibilities of the latest edition of the Azerbaijani language textbook of the second grade in organizing work on the development of communicative speech in primary school students, analyzes the level of theoretical and practical materials presented in the textbook in terms of implementing the standards of the curriculum of the subject.

***Keywords:*** *primary school students, Azerbaijani language textbook for 2nd grade, development of communicative speech, textbook opportunities.*

Azərbaycan dili dərsliyi ana dili üzrə fənn kurikulumunda təsbit olunmuş məzmun standartlarına nail olmaq üçün hazırlanan zəruri təlim resursudur. Bu mənada dərsliyin keyfiyyəti, ilk növbədə tədris prosesində fənn üzrə məzmun standartlarını reallaşdırmaq üçün yetərincə material təqdim etməsi ilə ölçülür. Azərbaycan dili üzrə fənn kurikulumunda II sinfin sonunda şagirdlərdə müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql etmək; tanış mövzu ətrafında söhbət etmək, münasibət bildirmək; müəyyən mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar etmək; həyatda gördüklərinə, öyrəndiklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürütmək; verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql etmək; qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi şəkildə təqdim etmək; mövzu ilə bağlı təxəyyülünə uyğun mətn qurub danışmaq; verilmiş plan əsasında mətni genişləndirmək bacarıqlarının formalaşdırılması tələbi qoyulur [6;s.9]. Son nəşr II sinif Azərbaycan dili dərsliyinin şagirdlərdə qeyd edilən bacarıqları formalaşdırmaq baxımından imkanlarını araşdırmağa çalışdıq.

Məlumdur ki, nitq inkişafının bütün istiqamətləri üzrə aparılan işlər bir-biri ilə sıx əlaqədardır və şagirdlərin rabitəli nitqə yiyələnməsinə hazırlıq məqsədi daşıyır. Şagirdlərin rabitəli nitqinin inkişafında **şəkillər üzrə hekayələrin qurulması** səmərəli iş növlərindəndir. II sinif dərsliyinin artıq ilk səhifəsində şagirdlərə açar sözlərdən istifadə edərək (*tətil, meşə, ailə, piknik, uşaqlar, səndəl, əylənmək*) şəkillər üzrə danışmaq tapşırığı verilir. Həmçinin, dərsliyin bütün bölmələrinin titul vərəqində "Suallara cavab verməklə şəkillər üzrə danışın" tapşırığı verilir ki, bu həm şagirdlərin tədris vahidinin mövzusu ilə bağlı ilkin təsəvvürlərini üzə çıxarmağa (yəni diaqnostik qiymətləndirmə aparmağa), həm də rabitəli nitqlərinin inkişaf səviyyəsini müəyyənləşdirməyə, müşahidə olunan qüsurların hesabatını aparmağa imkan verir.

Bununla yanaşı, dərslikdə "*Şəkillərə baxın. Hər şəklə uyğun mətn qurub danışın*" [4, s. 26,58,64]; "*Şəkillərdə hansı peşə sahiblərini görürsünüz? Hər bir peşə haqqında danışın*" [4, s. 27], [5, s. 84]; "*Açar sözlərdən istifadə edərək şəkli təsvir edin*" [4, s. 33,48]; "*...Şəkillər əsasında asudə vaxt haqqında danışın*" [4, s. 36]; "*Şəkildən də istifadə edərək mətndə verilmiş əsas fikri izah edin*" [4, s. 39]; "*Şəkil əsasında begemotu və onun otağını təsvir edin*" [4, s. 44]; "*Şəkildə gördüyünüz idman yarışları haqqında danışın*" [4, s. 49]; "*Su damcısının hekayəsi"ni dinləyin. Mətn və aşağıdakı şəkil əsasında təbiətdə suyun dövranı haqqında danışın*" [4;s.62]; "*Şəkillərdən istifadə edərək təbiətin mühafizəsi mövzusunda danışın*" [5, s. 89] və s. şərtlərlə verilmiş tapşırıqlar şagirdlərdə şəkil üzrə nəqletmə bacarıqlarının inkişaf etdirilməsinə istiqamətlənmişdir.

Məlumdur ki, şagirdlərin rabitəli nitqinin inkişafında **hekayəni bitkin hissələrə bölmək, plan qurmaq, hər hissəyə ad və ümumilikdə mətnə ad verə bilmək** bacarıqlarına yiyələnmə mühüm yer tutur. II sinif dərsliyində şagirdlərdə bu qəbildən olan bacarıqların formalaşdırılmasına xidmət edən tapşırıqlar çoxluq təşkil edir.

Məsələn, "*Nihadla Natiqin başına gələn hadisəni ardıcıllıqla nəql edin*" [4, s. 26]; "*Mətndəki əsas fikri müəyyənləşdirib mətn üçün başqa ad düşünün*" [4, s. 28]; "*Aşağıdakı plan əsasında Fidana məktub yazın. Məktubda onu düşündürən sualla bağlı məsləhətlər verin*" [4, s. 34]; "*Süsən məktəbə getmədiyi günlər haqqında gündəliyinə nə yazardı? Verilmiş plan əsasında Süsənin gündəlik qeydlərini yazın*" [4, s. 41]; "*Mətnin məzmununa əsasən aşağıdakı plan üzrə Nəriman Nərimanov obrazını təsvir edin*" [4, s. 47]; "*Şəkillərə baxaraq aşağıdakı plan üzrə danışın*" [4, s. 65]; "*Ağıllı daxıl" mətninin*

*hər hissəsinə aid plan tərtib edin. Mətni həmin plan əsasında danışın*" [4, s. 102]; "*Mətnin ("Qələbə xəbəri" mətni) hər bir hissəsinə aid plan tərtib edin və mətni plan üzrə nəql edin*" [5, s. 66]; "*Mətnə ("İpəkqurdu" mətni) əsasən cümlələrin ardıcıllığını müəyyən edin*" [5, s. 83] tipli tapşırıqlar şagirdlərdə plan qurma və plan əsasında nəqletmə bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyır.

Bununla bağlı dərsliyin "Faydalı məsləhət" rubrikasında "Necə danışmalı" başlığı altında, şagirdlərə danışarkən əməl edilməsi zəruri olan müəyyən tövsiyələr verilir: "*1.Hadisələri ardıcıl nəql edin; 2. Müəyyən bir mövzuda danışarkən həmin mövzudan kənara çıxmayın* [4, s. 25]

Məlumdur ki, ibtidai sinifdə şagirdlər **təsviri, nəqli və mühakimə xarakterli** mətnlər qurmaq üzrə bacarıqlara yiyələnirlər. Dərsliyin "Faydalı məsləhət" rubrikasında "Obrazların təsviri" başlığı [4;s.47] altında şagirdlərə, müəyyən mənada, təsviri hekayələr qurmaq öyrədilir. İşi sadədən mürəkkəbə qurmaq məqsədilə öncə şagirdlərə "təsvirlərə əsasən obrazların adını müəyyənləşdirmək, həmin obrazların hansı mətnlərdə iştirak etdiyini tapmaq" [4, s. 47] tapşırığı verilir. Daha sonra şagirdləri müstəqil olaraq təsviri xarakterli hekayələrin qurulması üzrə çalışdırmaq məqsədilə aşağıdakı tapşırıq təqdim edilir: "*Mətndən əsas obraz haqqında verilən məlumatları bir daha diqqətlə oxuyun. Aşağıdakı plan üzrə bu obrazı təsvir edin.*

- *Obrazla ümumi tanışlıq*
- *Xarici görünüşü*
- *Xarakteri* [4, s. 54]

Lakin qeyd etməliyik ki, dərslikdə şagirdlərin təsviri mətnlər qurması bağlı verilmiş tapşırıqların bəzisi qənaətbəxş deyil. Məsələn, "Məktəb yolları" şeirindən sonrakı "C" tapşırığında şagirdlərdən "bostan, bağ, dağ, aran yollarını təsvir etmək" tələb olunur [4, s. 23]. Düşünürük ki, II sinif şagirdindən bostan, bağ, dağ və aranı təsvir və müqayisə etməyi, bəlkə də, tələb etmək olar. Lakin həmin yerlərə gedən **yolları** təsvir etməyi tələb etmək məntiqli görünmür.

Şagirdlərin rabitəli nitqinin inkişafında **sonu verilmiş hekayənin əvvəlini qurmaq və ya əvvəli verilmiş hekayənin sonunu düşünüb tamamlamaqla** bağlı iş növləri də səmərəlidir. II sinif dərsliyində bununla bağlı "*Suallara cavab verməklə mətnin sonluğunu genişləndirib danışın*" [4, s.13]; "*Osman babanın göstərdiyi şəklə baxaraq mətnin davamını təxmin edin*" [4, s. 19]; "*Sizcə, uşaqların həyatında hansı dəyişikliklər baş verəcək? Şəklə baxaraq mətni tamamlayın*" [4, s. 39]; "*Şəkillərə əsasən mətnin sonunu danışın*" [5, s.68] və s. tapşırıqlara rast gəlmək olur. Yaxşı olardı ki, dərslikdə **əsas hissəsi verilmiş hekayənin əvvəlini və sonunu qurmaq və yaxud əvvəli ilə sonu verilmiş hekayənin əsas hissəsini tərtib etmək**lə bağlı tapşırıqlara da yer verilə idi. Çünki bu qəbildən olan tapşırıqlar da şagirdlərin rabitəli nitqinin inkişafında əvəzsiz iş növləridir.

Şagirdlərin rabitəli nitqinin inkişafında **suallar əsasında hekayə qurmaq** üzrə işin təşkili də səmərəli nəticələr verir. Lakin, qeyd etməliyik ki, dərslikdə bu qəbildən olan çalışmalar, demək olar ki, yox dərəcəsindədir. Belə bir tapşırığa dərsliyin yalnız 1-ci hissəsinin 59-cu səhifəsində rast gəldik: "*Suallar əsasında fəsillər haqqında mətn hazırlayın*" [4, s. 59]. Eynilə **mətnin hər bir hissəsinə sual qoya bilmək** bacarığı da şagirdlər tərəfindən "mətn" məfhumunun şüurlu qavranılmasına, mətn qurmaq bacarıqlarının inkişafına kömək edə bilər. Lakin dərslikdə bu iş növü ilə bağlı tapşırıqlar da azlıq təşkil edir. Məsələn, *"Günəş" mətninə dair üç sual tərtib edin*" [4, s. 59]; "*Nağılçı alim" mətninə aid üç sual tərtib edin. Bir-birinizin suallarını yazılı şəkildə cavablandırın*" [5, s. 24] tapşırıqları buna nümunə ola bilər.

Qeyd olunanlarla yanaşı, fənn kurikulumunda II sinfin sonunda şagirdlərdə məktub, açıqca, anket, gündəlik və s. yazmaq, onları struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib etmək, məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl etmək bacarıqlarının formalaşdırlması tələbi qoyulur ki, bu da rabitəli nitqin inkişafını nəzərdə tutur.

II sinif dərsliyinin 2-ci hissəsinin 89-cu səhifəsində "Faydalı məsləhət" rubrikasında şagirdlərə məktub yazmağın məqsədləri haqqında qısa məlumat verilir və həmin səhifədəki "A" tapşırığında Ana təbiətin uşaqlara məktubunun quruluşunu verilmiş plan əsasında şərh etmək tələbi qoyulur. Bu tapşırıq şagirdləri məktubun strukturu, tərkib hissələrinin ardıcıllığı (*1.Müraciət; 2.Özünü təqdimetmə; 3.Problemin izahı; 4. Ana təbiətin istəyi; 5.Sağollaşma*) ilə tanış etməklə, onlara məktub yazma bacarıqları aşılayır. Dərsliyin 1-ci hissəsinin 55-ci səhifəsində "*məktubu oxuyun, abzaslara diqqət edin*"; 2-ci

hissəsinin 90-cı səhifəsində "*verilmiş mövzulara uyğun məktub yazın*"; 91-ci səhifəsində "*verilmiş plan əsasında yadplanetlilərin adından Yer kürəsindəki uşaqlara məktub yazın*" və s. tipli tapşırıqlar da bu qəbildəndir.

Həmçinin, dərslikdə verilmiş "*Aşağıdakı* ***açıqca****nı oxuyun. Suallara cavab verin*" [4, s.29], "*Aşağıda verilən hansı cümlələrdən açıqca yazarkən istifadə etmək olar?*" [4, s. 29], "*5 Oktyabr Müəllimlər Günü münasibətilə müəlliminizə açıqca yazaraq onu təbrik edin*" [4, s. 29]; "*Qohumlarınızdan birinə Novruz bayramı münasibətilə təbrik açıqcası hazırlayın. Açıqcanızda nəzakətli ifadələrdən istifadə edin*" [5, s. 55]; "*Aşağıdakı təlimata uyğun olaraq* ***gündəlik*** *tərtib edin*" [4, s. 37]; "*Nümunə əsasında sinifdəki dostunuz haqqında məlumat* ***anket****ini doldurun...*" [4, s. 84], "*Aşağıdakı anket əsasında sinfinizdə sorğu keçirin. Sorğunun nəticələri əsasında diaqram tərtib edin...*" [5, s. 79] və s. tipli tapşırıqlar şagirdlərə əməli yazı nümunələri ilə bağlı bacarıqların aşılanması məqsədi daşıyır.

Məlumdur ki, rabitəli nitq bacarıqlarının məzmunla bağlı cəhətini – mətn, onun qurulması, canlandırılması ilə bağlı fəaliyyətlər sistemi təşkil edir. İbtidai sinif müəllimi şagirdlərin mətn qurmaq bacarıqlarını inkişaf etdirmək üçün öncə onlara "mətn" məfhumunun mahiyyətini dərk etməkdə kömək etməlidir. Müəllim şagirdləri hər hansı bir sintaktik bütövü mətn adlandırmağa əsas verən əlamətlərlə (mətndəki əsas fikir; mətnin ideyası; başlığı; giriş, əsas və nəticə hissələri; abzasları) tanış etməlidir. Şagirdlər tərəfindən "mətn" məfhumunun qavranılmasında onun zahiri əlamətlərinin, yəni struktur elementlərinin qavranılması mühüm rol oynayır. Mətnin təməl tikinti materialları haqqında biliklərin mənimsənilməsi şagirdlərə istənilən oxu materialını sərbəst şəkildə anlayıb təhlil etməyə və mətn tərtibi zamanı onlardan faydalanmağa imkan verir. Müəllim oxu mətnləri üzərində şagirdlərin müşahidəsini təşkil etməklə onlara başa salmalıdır ki, mətnin hissələrinin məntiqi ardıcıllıqla və əlaqəli şəkildə düzülməsi kompozisiya adlanır. Üslub və janrından asılı olmayaraq kompozisiyanın üç ənənəvi hissəsi var: giriş, əsas hissə, nəticə. Bununla bağlı II sinif dərsliyində şagirdlərə "Mətnin tərkib hissələri" başlığı altında aşağıdakı nəzəri məlumat və bununla bağlı tapşırıqlar təqdim edilir:

"*Mətnlər üç hissədən ibarət olur: giriş, əsas, sonluq. Girişdə obrazların adları çəkilir, hadisələrin yeri, zamanı göstərilir. Əsas hissədə qəhrəmanların başına gələn hadisələr nəql olunur. Sonluq hissədə hadisənin nəticəsi göstərilir*" [4, s. 86].

Bununla bağlı dərslikdə "*Şəkillər əsasında aşağıdakı ardıcıllığa uyğun mətn qurub yazın: giriş:1-ci şəkil; əsas hissə: 2-ci, 3-cü və 4-cü şəkillər; sonluq: 5-ci şəkil*" [4, s. 86], [5, s. 16]; "*Mətndəki əsas fikir mətnin hansı hissəsində (giriş, əsas, nəticə) ifadə olunub?*" [4, s. 88]; "*Mətndən verilmiş aşağıdakı cümlələrin mətnin hansı hissəsinə uyğun olduğunu müəyyən edin*" [4, s. 88], [5, s. 16]; "*Mətnin tərkib hissələri ilə (giriş, əsas, nəticə) onlara verilən adları uyğunlaşdırın*" [4, s.104] şərtli tapşırıqlar verilmişdir.

Bununla yanaşı, II sinif dərsliyində "Mövzu. İdeya" başlığı altında şagirdlərə mətnin nə haqda olmasının onun mövzusunu, müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikrin isə onun ideyasını ifadə etdiyi barədə nəzəri məlumat verilir [5, s. 36]. 37-ci səhifədə verilmiş "Bunları bilməliyik" rubrikasında isə mətndə təsvir olunan əsas hadisələrin onun **məzmun**unu təşkil etdiyi haqqında məlumat yer alır. Verilmiş biliklərin müxtəlif tapşırıqlarda tətbiqinə imkan yaradılır: "*Aşağıda verilmiş mətnlərin* ("Ağıllı daxıl, "Qar kraliçası", "Qanqalın nağılı", "Padşah və müəllim") *mövzusunu, ideyasını müəyyən edib təqdimat hazırlayın*" [5, s. 36]; "*Doğma yurdun yovşanı" və "Bir parça torpaq mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin"* [5, s. 37]; *"Şeiri intonasiya ilə oxuyun. Şeirin mövzu və ideyasını müəyyənləşdirin"* [5, s. 48]; "*Mətnin* ("Dünyanın ən qədim xalçası" mətni) *mövzusu nədir?*" [5, s. 56]; "*Hansı cümlə mətnin məzmnuna uyğun deyil?*" [5;s.56]; "*Bölmənin mövzusuna uyğun atalar sözünü seçin*" [5, s. 56], "*Mətnin adından və şəkillərdən istifadə edərək mətnin məzmununu təxmin edin*" [5, s. 69]; "*Mətnin* ("Kürən pişiyin əşyaları") *mövzusunu və ideyasını müəyyən edin*" [5, s. 98]; "*Mətni oxuyun. Hansı cümlə mətnin mövzusuna uyğun deyil? Mətnin ideyasını müəyyən edin*" [5, s. 101] və s.

II sinif dərsliyinin 2-ci hissəsinin 47-ci səhifəsində "Bunları bilməliyik" rubrikasında şagirdlərə "Yarımbaşlıq" haqqında məlumat verilir. Qeyd edilir ki, mətndəki əsas hadisələr yarımbaşlıqlarla adlandırılır və mətnin planı ya-

rımbaşlıqlar əsasında tərtib olunur. Verilmiş biliklərin yaradıcı tətbiqinə imkan yaratmaq üçün şagirdlərə aşağıdakı tapşırıqlar təqdim edilir: "*Mətnin hissələrini verilmiş yarımbaşlıqlarla uyğunlaşdırıb mətni nəql edin*" ("Bəyaz və Cubbulu"), [5, s. 47]; "*Hər abzas üzrə yarımbaşlıqlar tərtib edin*" ("Novruz bayramı" mətni), [5, s. 55] və s.

Əfsuslar olsun ki, II sinif dərsliyində **nəzmi nəsrə çevirməklə** bağlı heç bir tapşırığa rast gəlmədik. Halbuki, bu iş növü şagirdlərdə məzmunu öz sözləri ilə ifadə etmək, fərqli sintaktik konstruksiyalar qurmaq, qurduqları mətnlərdə bədii təsvir vasitələrindən istifadə etmək (şeirlərdə onların çoxluq təşkil etdiyini nəzərə alsaq) bacarıqlarının inkişafında əvəzedilməz vasitədir.

Apardığımız təhlil belə bir nəticəyə gəlməyə əsas verir ki, II sinif dərsliyində müəyyən çatışmazlıqlar nəzərə alınmazsa, şagirdlərin rabitəli nitqini inkişaf etdirmək üçün kifayət qədər material vardır. İbtidai sinif müəllimi metodik arsenalını gücləndirməklə dərsliyin mümkün imkanlarından maksimum istifadə edərək şagirdlərin nitqini planlı və sistematik şəkildə inkişaf etdirmək qeydinə qalmalıdır.

**Problemin aktuallığı.** Dövlətimiz dilimizin inkişafına, onun tətbiq dairəsinin genişlənməsinə xüsusi diqqət və qayğı göstərməkdədir. Ölkəmizdə təhsilin məzmununun müasirləşdirilməsi, təlimdə yeni üsulların tətbiqi, məktəblilərin kommunikativ tərbiyəsinə diqqətin artması tədris resurslarının, o cümlədən dərsliklərin hazırlanmasında da dövrün tələblərini nəzərə almağı zəruri edir.

**Problemin elmi yeniliyi.** Məqalədə şagirdlərin rabitəli nitq vərdişlərinin inkişafı baxımından son nəşr 2-ci sinif Azərbaycan dili dərsliyinin imkanları araşdırılmış, dərslikdə təqdim olunan materialların fənn üzrə məzmun standartlarını reallaşdırmaq üçün yetərlilik səviyyəsi təhlil edilmişdir.

**Problemin nəzəri və praktik əhəmiyyəti.** Məqalə ibtidai sinif müəllimlərinə

şagirdlərin rabitəli nitqini inkişaf etdirmək məqsədilə dərsliyin imkanlarından maksimum istifadə ilə bağlı praktik istiqamət verir. Həmçinin ibtidai sinif şagirdlərinin nitq inkişafı üzrə araşdırma aparan tədqiqatçılar üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). – Bakı: Mütərcim, –2008, –495 s.
2. Cəfərova, N.B. Nitq inkişafı üzrə işin metodikası. – Bakı: ADPU-nun mətbəəsi, –2018, – 234 s.
3. Cəfərova, N.B., Qasımova, M.R. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası / N.B. Cəfərova, M.R. Qasımova. – Bakı: ADPU, –2023, –528 s.
4. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A. Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (1-ci hissə). –Bakı: "Təhsil NP" MMC, –2021, –104 s.
5. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (2-ci hissə). –Bakı: "Təhsil NP" MMC, –2021, –103 s.
6. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. –Bakı: "Radius" MMC, –2021, –223 s.
7. Kərimov, Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası / Y.Ş. Kərimov. – Bakı: Səda, –2013, –551 s.
8. Qurbanov, V. Oxu və nitq inkişafı təlimi / V. Qurbanov. –Bakı: Müəllim, –2021, –126 s.


**Redaksiyaya daxil olub:** 19.02.2025.

*UOT 372.8*

***Aynur Valeh qızı Qarayeva***
*Sumqayıt Dövlət Universitetinin müəllimi*
*filologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0000-2785-6587*
*E-mail: aynur.qarayeva.1984@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).115-118*

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ LEKSİKOQRAFİYANIN TƏDRİSİ

***Айнур Валех гызы Гараева***
*преподаватель Сумгаитского Государственного Университета*
*доктор философии по филологии*

# ПРЕПОДАВАНИЕ ЛЕКСИКОГРАФИИ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Aynur Valeh Garayeva***
*lecturer at Sumgait State University*
*doctor of philosophy in philology*

# TEACHING LEXICOGRAPHY IN AZERBAIJANI LANGUAGE LESSONS

**Xülasə.** Leksikoqrafiya lüğətlərin tərtib edilməsinin həm praktikası və nəzəriyyəsi ilə məşğul olur. Lüğətlərdə müxtəlif sözlər müəyyən qayda ilə düzülür, şərh olunur. Lüğətlər diaxron və həm sinxron aspektdə tərtib edilir. Linqvistik lüğətlərdə dilin mövcud materialları lüğətin məqsəddən asılı olaraq müxtəlif aspektlərdən izah edilir. Lüğətlərin köməyi ilə sözlərin qədim və müasir formalarının, mənalarının təhlilini aparmaq, müxtəlif tarixi dövrlərdə onların işlədilməsinin dəqiqləşdirmək imkanı əldə edilir. Müstəqillik illərində lüğətçilikdə milli leksikoqrafiya ənənələrini təkmilləşdirməklə sürətli inkişaf diqqəti cəlb edir. Bu gün leksikoqrafiya yeni bir dövr, mərhələ yaşayır. Son dövrlər qlobal internet şəbəkəsi yaranması ilə əlaqədar olaraq lüğətlərin tərtibində dəyişiklik baş vermişdir. Müasir leksikoqrafiyanın əsas inkişaf istiqamətlərindən biri lüğətlərin kompüterləşdirilməsi, elektronlaşmasıdır. İnternet istifadəçiləri üçün nəzərdə tutulmuş elektron lüğətlərin yaradılması leksikoqrafiyanın inkişafında yeni mərhələdir. Bu gün müasir dilçiliyin marağına səbəb olmuş elektron lüğətlərin sayı durmadan artır. Mövcud olan axtarış sistemləri əsasında məlumatları müxtəlif elektron lüğətlərdən tapmaq mümkündür. Lüğətlərin keyfiyyətini yüksəltmək bu gün Azərbaycan dilçiliyinin qarşıda duran ən mühüm vəzifələrdəndir.
***Açar sözlər**: lüğət, leksikoqrafiya, izah, söz, lüğətçilik*

**Аннотация.** Лексикография занимается как практикой, так и теорией составления словарей. В словарях различные слова располагаются и толкуются в определенном порядке. Словари составляются как с диахронической, так и с синхронической точки зрения. В лингвистических словарях существующие материалы языка объясняются с разных сторон, в зависимости от назначения словаря. С помощью словарей можно проанализировать древние и современные формы и значения слов, а также выяснить их употребление в различные исторические периоды. Обращает на себя внимание бурное развитие лексикографии в годы независимости, совершенствование национальных лексикографических традиций. Сегодня лексикография переживает новую эпоху, новый этап. В последнее время в связи с появлением глобальной сети Интернет произошли изменения в составе словарей. Одним из основных направлений развития современной лексикографии является компьютеризация и электронизация словарей. Создание электронных словарей, предназначенных для пользователей Интернета, является новым этапом в развитии лексикографии. Сегодня число электронных словарей, вызвавших интерес современной лингвистики, постоянно увеличивается. На основе существующих поисковых систем можно найти информацию в различных электронных словарях. Повышение качества словарей является одной из важнейших задач, стоящих сегодня перед азербайджанским языкознанием.
***Ключевые слова:** словарь, лексикография, объяснение, слово, лексикография*

*Aynur Valeh qızı Qarayeva*

**Abstract.** Lexicography deals with both the practice and theory of compiling dictionaries. In dictionaries, various words are arranged and interpreted in a certain order. Dictionaries are compiled in both diachronic and synchronous aspects. In linguistic dictionaries, the existing materials of the language are explained from various aspects depending on the purpose of the dictionary. With the help of dictionaries, it is possible to analyze the ancient and modern forms and meanings of words, and to clarify their use in different historical periods. During the years of independence, rapid development in lexicography by improving national lexicographic traditions attracts attention. Today, lexicography is experiencing a new era, a stage. In recent times, changes have occurred in the compilation of dictionaries due to the emergence of the global Internet. One of the main development directions of modern lexicography is the computerization and electronization of dictionaries. The creation of electronic dictionaries intended for Internet users is a new stage in the development of lexicography. Today, the number of electronic dictionaries that have aroused the interest of modern linguistics is constantly increasing. It is possible to find information in various electronic dictionaries based on existing search systems. Improving the quality of dictionaries is one of the most important tasks facing Azerbaijani linguistics today**.**

***Key words***: *dictionary, lexicography, explanation, word, lexicography*

Azərbaycan dili dərslərində leksikoqrafiyanın tədrisinin rolu böyükdür. Dil öyrənmənin asanlaşdırılmasına, şagirdlərin nitq, yazı bacarıqlarının inkişafına, fənlərarası əlaqələrin qurulmasına xidmət edir. Müasir tədris prosesində bu sahədən istifadə təhsilin keyfiyyətinin artırılmasına şərait yaradır.

Leksikoqrafiya dilçiliyin ən çox müraciət edilən sahələrindəndir. Lüğətlər milli mədəniyyətin vacib bir elementidir və onlar xalqın mədəni inkişafına, tələbatına görə yaranır. Leksikoqrafiya lüğətlərin tərtibi qaydalarından, nəzəri əsaslarından, lüğətlərin növlərindən, quruluşundan, və başqa cəhətlərindən bəhs edən dilçiliyin bir sahəsidir. Müasir lüğətlərin məzmun və xarakteri nəzərə alınaraq ensiklopedik və linqvistik lüğətlər olmaqla iki qrupa bölünür. Lüğətlər müxtəlif növ olurlar. Onların quruluşları, tərtibi qaydaları bir-birindən fərqlənir. Bəzi lüğətlərdə sözün izahı, bəzilərində isə onların düzgün yazılış forması, tələffüz şəkli öz əksini tapır. Lüğətlərin tərtib edilməsində fərqli üsullar mövcuddur. Lüğətlərin tərtib edilməsində iki üsuldan (yuva və əlifba) geniş istifadə edilir.

Leksikoqrafiya dilçiliyin qədim sahələrindən hesab edilir, eradan əvvəl dövrdə lüğətlərin mövcud olduğu məlumdur. Türk dillərinin lüğətçilik tarixi XI əsrdən Mahmud Kaşğarinin «Divani-lüğət-it türk» əsəri ilə başlanır. Orta əsrlərdən bu günə qədər Azərbaycan lüğətçiliyinin tarixi, onun keçdiyi tarixi inkişaf yolu müasir tədqiqatçıların diqqət mərkəzində olmuş və dərindən təhlil edilmişdir. Bu sahədə müxtəlif əsərlər yazılmışdır. Lüğətçilik, nəzəri lüğətşünaslığın inkişafı ilə bağlı Soltan Məcid Qənizadə, Heydər Hüseynov, Vəli Xuluflu, Ruhulla Axundov, Əliheydər Orucov, Məmməd Tağıyev, Bəhruz Abdullayev, İsmayıl Məmmədli və başqa Azərbaycan alimlərinin tədqiqatları əhəmiyyət daşıyır.

Leksikoqrafiya lüğətlərin tərtib edilməsinin həm praktikası və nəzəriyyəsi ilə məşğul olur. Lüğətlərdə müxtəlif leksik vahidlər müəyyən qayda ilə düzülür, bu və ya digər cəhətdən şərh olunur. Bəzi alimlər leksikoqrafiyanı leksikologiyanın tərkib hissəsi, bəziləri isə müstəqil bir sahəsi hesab edirlər. Lüğətçilik qrammatika, üslubiyyat ilə də sıx bağlıdır. Lüğətlər məqsədinə, quruluşuna, funksiyasına görə bir-birindən fərqlənirlər. Lüğətlərin tərtibatı ilə elmi biliyi, hazırlığı olan, təhlil etməyi bacaran alimlər, leksikoqraflar məşğul olmalıdırlar. Uğurlu nəticə əldə etməkdə əsas məsələlərdən biri də düzgün tədqiqat metodlarının seçilməsidir. Müasir dövrədək Azərbaycan dilində müxtəlif növlü lüğətlər hazırlanmışdır. Müstəqillik əldə etdikdən sonra kiril qrafikalı əlifbadan latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi ilə orfoqrafiya qaydaları yenidən işlənib hazırlandı. Dəyişən əlifba əsasında əlifba üsulu ilə tərtib edilən lüğətlərin hazırlanması vacib şərt oldu. Dəfələrlə əlifba dəyişilməsinə məruz qalmış ana dilimizidə yazılmış lüğətlərdə əlifba sırasında fərqlər vardır.

Linqvistik lüğətlərdə dilin mövcud materialları lüğətin vəzifə və məqsədlərindən asılı olaraq müxtəlif aspektlərdən izah edilir. Linqvistik lüğətlərin bir neçə növü (orfoqrafiya lüğəti, orfoepiya lüğəti, vurğu lüğəti, izahlı lüğət, tərcümə lüğətləri, arxaizmlər lüğəti, terminoloji lüğətlər, etimoloji lüğətlər, omonimlər lüğəti, paronimlər lüğəti, sinonimlər lüğəti, tarixi lüğətlər, əcnəbi sözlər lüğəti, frazeoloji lüğətlər, onomastik lüğətlər, dialektoloji lüğətlər və s.) vardır.

Azərbaycan dilçiliyində elmi araşdırmaların aparılmasında lüğətlərin rolu əvəzsizdir. Müasir dövrdə dilimizdə “lüğət” sözü ilə yanaşı həm də “sözlük” terminindən istifadə olunur. Bu da müasir türk dilinin təsiri ilə bağlıdır. Müstəqillik illərinə qədər Azərbaycan dilçiliyində sözlük deyərkən lüğətdə izah olunan sözlərin cəmi nəzərdə tutulurdu. Sözlüyün zənginliyi daha çox qarşıya qoyulan məqsəddən, tərtibçinin istəyindən asılıdır. Lüğətlər diaxron və həm sinxron aspektdə tərtib edilir. Sinxron aspektdə hazırlanmış lüğətlərdə diaxron lüğətlərdən fərqli olaraq ilk dəfə sözün hansı mənbədə, qaynaqda qeydə alındığı göstərilmir, dəyişmə mərhələləri qeyd olunmur.

Lüğətlərin tərtibində lüğətlərin tipinin, vəzifələrinin, mövzusunun müəyyənləşməsindən sonra ilk iş sözlüklərin yaradılmasıdır. Burada əsas amil birbaşa olaraq lüğətin tipi ilə bağlıdır. Leksikoqrafın qarşısında duran əsas problemlərdən biri də sözlərin siyahıya alınma məsələsidir. Bu lüğətin gələcəkdə nə dərəcədə əhəmiyyətli olub-olmayacağını müəyyənləşdirən əhəmiyyətli faktorlardan biridir.

Dünyada baş verən siyasi, mədəni, iqtisadi dəyişikliklər, texnologiyanın inkişafı dilə təsir edir. Müasir dövr Azərbaycan xalqının elmində, tarixində inkişaf dövrüdür. Bu səbəbdən dildə yeni sözlər yaranır, yaxud başqa dillərdən sözlər alınır, leksik vahidlərin semantikasında dəyişiklik baş verir. Bu da izahlı lüğətlərin zamanla yenisinin tərtib edilməsini labüd edir. İnkişaf etmiş ölkələrdə dilin lüğət fondu dəyişdikcə izahlı lüğətlərin tərtib edilməsi təbii haldır. Bu baxımdan mövcud olan izahlı lüğət leksikada baş verən dəyişiklikləri və üslubi mənaları əks etdirməlidir. “*Lüğətdə sözlərə izah verilərkən onların bu və ya digər bir yerdə işlənən məhəlli mənalarının deyil, xalqımızın əksəriyyəti tərəfindən başa düşülən və işlədilən mənalarının verildiyini nəzərdə tutmalıdırlar*“ (1.s.26)

Leksikoqrafiya nəzəriyyəsində izahlı lüğətlər tərtib olunarkən lüğətdə yer almış baş sözün yanında onun qrammatik, etimoloji, üslubi xüsusiyyətləri qeyd olunur və xüsusi ixtisarlarla göstərilir. Lüğət məqaləsində sözlərin üslubi cəhətdən semantikası müəyyənləşir, mətndə daşıdıqları fərqli mənalar verilir. İzahlı lüğətlər birdilli lüğətlərə aid edilir. Ə. Orucov məna ardıcıllığını aşağıdakı kimi göstərir: “*Sözün tarixən bir-birindən fərqli olan mənaları varsa, sözün məna inkişafı onun müasir mənasının tərifindən başlayır; sözün əvvəlcə bugünkü mənası, sonra isə köhnəlmiş mənaları verilir”* (2, s. 15) İzahlı lüğətlərdə funksional prinsip əsas götürülərək sözün dilin müasir dövrdəki işləklik xüsusiyyətləri təyin edilir. Sıralamada semantikasına həqiqi məna ilik olaraq birinci göstərilir. Sonra isə digər mənalar verilir. Müasir dövrdə lüğətlər tərtib edilərkən adətən lüğətin əvvəlində, yaxud sonunda qəbul olunmuş şərti işarələr və ixtisarlar barədə məlumat verilir. X. Heydərova lüğətçiliyin aşağıdakı funksiyalarını göstərir: “1. Mütaliə; 2. Mənbələrdən sitatların toplanması; 3. Sitatlardakı leksik vahidlərin əlifba sırası ilə yığılması, elektron kartotekanın təşkili; 4. Sitatların semantik cəhətdən çeşidləndirilməsi; 5. Lüğət məqalələrinin lüğətin funksiyasına uyğun şəkildə tərtibi.” (1, s. 23)

Tərtib ediləcək lüğətin məqsədindən asılı olaraq ilk olaraq müvafiq hazırlıq işləri aparılır. Tərtibçinin düzgün mənbələrdən istifadə etməsi, materialları toplaması zəruridir. Qarşıya qoyulan tələblərə cavab verən mənbələrdən materiallar seçilməsi lüğət tərtibçisinin əsas vəzifəsidir.

Lüğətdə əksini tapan istər milli, istərsə də alınma sözlərin ifadə etdiyi mənalar, həmçinin onların yazılışı, müxtəlif mənbələrə, ədəbiyyatlara əsaslanmaqla dəqiqliklə yoxlanılmalıdır. Lüğətin uğurlu tərtibatında hansı tədqiqat metodlarından istifadə olunması mühüm məsələlərdəndir. Lüğət məqaləsindəki şərh kifayət qədər tam dolğun olmalıdır. Hər bir söz normativə uyğun şərh olunmalıdır, bununla yanaşı həm də artıq informasiya ilə istifadəçilər yorulmamalıdırlar. Lüğətdə qarşıya qoyulmuş məqsəddən asılı olaraq tərtibçi biblioqrafik istinadları da göstərə bilər.

Hər dövrün ictimai-siyasi görüşləri, eləcə də elm və mədəniyyətin inkişafı lüğətçiliyin inkişafına öz təsirini göstərmişdir. XI-XIX əsrlərdə tərtib edilmiş lüğətlər həm Azərbaycan dilinin lüğət tərkibinin, ədəbi dil tarixinin, tarixi qrammatikasının elmi şəkildə tədqiq edilməsi üçün qiymətli material vermişdir. Tarixi lüğətlər dilimizin tarixi leksikasını öyrənmək baxımından çox qiymətli mənbələrdir. Azərbaycan dilinin tarixinin öyrənilməsi baxımından arxaizmlər, tarixizmlər lüğətlərinin tərtib edilməsi əhəmiyyətlidir. Lüğətlərin köməyi ilə sözlərin qədim və müasir formalarının, mənalarının təhlilini aparmaq, müxtəlif tarixi dövrlərdə onların

işlədilməsinin dəqiqləşdirmək imkanı əldə edilir. Orta əsr lüğətləri ərəb əlifba quruluşu əsasında tərtib olunmuşdur. Tərcümə lüğətləri daha çox tədris xarakteri daşıyaraq dil öyrətmə məqsədli olmuşdur.

Müstəqillik illərində lüğətçilikdə də milli leksikoqrafiya ənənələrini təkmilləşdirməklə sürətli inkişaf diqqəti cəlb edir. Bu dövrdə leksikoqrafiya sahəsinə dair müxtəlif növ lüğətlər tərtib olunmuşdur.

Lüğətlərdə sözlər məqsəddən asılı olaraq müəyyən edilmiş qayda ilə düzülərək şərh olunur. Lüğətlərin tərtib olunmasının özünəməxsus cəhətləri mövcuddur. Məsələn, dialektoloji lüğətlər məqsədindən, vəzifəsindən asılı olaraq iki cür tərtib edilir:

1. Yalnız bir şivəyə, dialektə, yaxud ləhcəyə aid sözlərin lüğəti.
2. Dildə olan bütün şivə və dialektlərə aid sözlərin ümumi lüğəti.

Dialektoloji lüğətlərdə hər baş sözün qarşısında onun hansı dialektə və ya şivəyə mənsub olması, hansı nitq hissəsinə aid olması qeyd edilir. Bundan əlavə sözlərin mənasını daha düzgün, dəqiq izah etmək məqsədi ilə dialekt və şivələrdəki tələffüzünə aid nümunələr cümlələr şəklində verilir.

Lüğətlərdə izah edilən hər bir baş söz digərlərindən seçilmək üçün, adətən qara böyük hərflərlə qeyd edilir. Baş sözə dair verilən izah lüğət məqaləsi adlanır. Lüğət məqaləsi yığcam və aydın olmalı, burada ikimənalılığa, uzunçuluğa qətiyyən yol verilməməlidir.

**Problemin aktuallığı**. Etimoloji lüğəti tərtib edən leksikoqraf xalqın dilinə, tarixinə, adət-ənənəsinə, mədəniyyətinə məişətinə bələd olmalıdır. Etimoloji lüğətlərdə dərindən araşdırmalar aparmaq mütləq şərtdir. Məlumdur ki, etimoloji araşdırmalar olduqca mürəkkəb və çətindir. Etimoloji lüğətlər tərtib edilərkən tədqiqatçının qarşısında duran mühüm və əsas vəzifələrdən biri də sözün tarixən mövcud olmuş formasını yaxud formalarını müəyyənləşdirməkdir. Müxtəlif dövrlərdə leksik vahidlərdə fonetik cəhətdən baş vermiş dəyişiklikləri üzə çıxarmaqdır. A. Qurbanov yazır ki, etimoloji arayışda sözün yaranma tarixi, müxtəlif deformasiyalara uğraması, ilk variantı, son variantı, dialektlərdə onun izi, onun paralelləri və s. verilir. Burada, daha doğrusu, xüsusi adın mənşəyi müəyyənləşdirilir. (3, s. 132) Etimoloji lüğətlər yalnız sözlərin izahı ilə kifayətlənmir, bu həm də morfemlərin aydınlaşdırılmasına kömək edir.

**Problemin yeniliyi.** Azərbaycanda apelyativ leksikaya aid xeyli lüğətlər nəşr edilmişdir. Dilimizdə apelyativ leksikanı əks etdirən lüğətlərlə yanaşı həm də onomastik vahidlərlə bağlı tərtib edilmiş lüğətlər də çoxdur. Onomastik lüğətlərin aşağıdakı növləri vardır: antroponimlər lüğəti, etnonimlər lüğəti, toponimlər lüğəti, hidronimlər lüğəti, zoonimlər lüğəti, kosmonimlər lüğəti, ktematonimlər lüğəti, təxəllüslər lüğəti, mifonimlər lüğəti, etimoloji onomastik lüğətlər və s.

**Problemin praktik əhəmiyyəti.** Bu gün leksikoqrafiya yeni bir dövr, mərhələ yaşayır. Son dövrlər qlobal internet şəbəkəsi yaranması ilə əlaqədar olaraq lüğətlərin tərtibində dəyişiklik baş vermişdir. Müasir leksikoqrafiyanın əsas inkişaf istiqamətlərindən biri lüğətlərin kompüterləşdirilməsi, elektronlaşmasıdır. İnternet istifadəçiləri üçün nəzərdə tutulmuş elektron lüğətlərin yaradılması leksikoqrafiyanın inkişafında yeni mərhələdir. Bu gün müasir dilçiliyin marağına səbəb olmuş elektron lüğətlərin sayı durmadan artır.

İlkin olaraq bütün növ lüğətlərin keyfiyyətini yüksəltmək bu gün də Azərbaycan dilçiliyinin qarşıda duran ən mühüm vəzifələrdəndir.

## Ədəbiyyat


1. Heydərova, X . Azərbaycan filoloji lüğətlərində ümumişlək olmayan sözlərin verilməsi / X . Heydərova. -Bakı:, - 2019. - 222 s.
2. Orucov, Ə. Azərbaycan dilinin filoloji izahlı lüğətinin nəzəri əsasları / Ə. Orucov -Bakı: - 1965. - 123 s.
3. Qurbanov, A. Azərbaycan onomalogiyasının əsasları (2 cilddə) / A. Qurbanov. I cild, -Bakı: - 2019. - 280 s.
4. Babayev, A. Dilçiliyə giriş. Dərslik / A. Babayev. Bakı: Mütərcim, - 2017. – 720 s.
5. Azərbaycan dilinin orfoqrafiya lüğəti / -Bakı: Lider, - 2004. - 728 s.


**Redaksiyaya daxil olub:** 17.02.2025.

*UOT 372.8*

***Xurşud Cəlil qızı İsmayılova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Azərbaycan dili kafedrasının baş müəllimi*
*https://orcid.org/0000-0001-5171-0166*
*E-mail: ismayılova@mail.ru*

***Sevinc Məhərrəm qızı Hacıyeva***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Azərbaycan dili kafedrasının baş müəllimi*
*https://orcid.org/-0000-0003-4891-2909*
*E-mail: sevinjhajiyeva@unec.edu.az*

***Şəfəq Çingiz qızı Həsənova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Azərbaycan dili kafedrasının baş müəllimi*
*https://doi.org/10.69682/arti.2025.92(2).119-123*

# AZƏRBAYCAN DİLİNİN MÜXTƏLİF DİALEKT VƏ ŞİVƏLƏRİN TƏLƏBƏLƏRİN LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ ROLU

***Хуршуд Джалил гызы Исмаилова***
*старший преподаватель кафедры азербайджанского языка*
*Азербайджанского Государственного Экономического Университета*

***Севиндж Магеррам гызы Гаджиева***
*старший преподаватель кафедры азербайджанского языка*
*Азербайджанского Государственного Экономического Университета*

***Шафаг Чингиз гызы Гасанова***
*старший преподаватель кафедры азербайджанского языка*
*Азербайджанского Государственного Экономического Университета*

# РОЛЬ РАЗЛИЧНЫХ ДИАЛЕКТОВ И ГОВОРОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ОБОГАЩЕНИИ СЛОВАРНОГО ЗАПАСА СТУДЕНТОВ

***Khurshud Jalil Ismayilova***
*senior lecturer at the Department of the Azerbaijani Language of the*
*Azerbaijan State University of Economics*

***Sevinj Maharram Hajiyeva***
*senior lecturer at the department of the Azerbaijani Language at the*
*Azerbaijan State University of Economics*

***Shafag Chingiz Gasanova***
*senior lecturer at the department of the Azerbaijani Language of the*
*Azerbaijan State University of Economics*

# THE ROLE OF VARIOUS DIALECTS AND ASPECTOS OF THE AZERBAIJANI LANGUAGE IN ENRICHING STUDENTS' VOCABULARY

*Xurşud Cəlil qızı İsmayılova, Sevinc Məhərrəm qızı Hacıyeva, Şəfəq Çingiz qızı Həsənova*

**Xülasə.** Azərbaycan dilinin müasir inkişaf prosesində dialekt və şivə faktları sürətlə arxaikləşir. Müxtəlif tayfa ünsürlərini və bu ünsürlərin bir-biri ilə qarışmasını özündə əks etdirən dialekt faktları son illər ərzində kütləvi informasiya vasitələrinin təsiri altında ədəbi dil faktları ilə əvəz olunur, arxaikləşir və xüsusi tarixi əhəmiyyət daşıyan leksemlər tarixizmə çevrilir. Sözsüz ki, dil tarixin güzgüsüdür və özündə xalqın taleyində baş vermiş neçə min illik hadisələri əks etdirir. Əlbəttə, Azərbaycan dili dialekt və şivələri tarixçiləri və linqvistləri maraqlandıran tarixi və linqvistik baxımdan mübahisəli məsələlərin həllində qiymətli bir xəzinədir. Dialektoloqların vəzifəsi dialekt və şivələrdə gizli qalmış məqamları aşkarlamaq və dərindən tədqiq etməkdir. Düşünürük ki, Azərbaycan dilinin dialekt və şivələrinin etnolinqvistik analizi mübahisəli olan bir çox tarixi məsələlərə aydınlıq gətirir. Qeyd edildiyi kimi, dialektlər başqa dillərin təsirinə daha az məruz qalır. Bu baxımdan dilin müxtəlif inkişaf mərhələlərinə aid söz və terminləri günümüzə qədər gətirib çıxarmış dialekt və şivələrimizin lüğət fondu canlı və etibarlı mənbə kimi çıxış edir.

***Açar sözlər:*** *Nitq inkişafı, şivə tələffüzü, etnolinqvistik analiz, xalqın maddi və mənəvi irsi, dilin təkmilləşməsi*

**Аннотация.** В процессе современного развития азербайджанского языка диалект и говоры стремительно архаизируются. В последние годы под влиянием средств массовой информации факты диалектов, отражающие различные племенные элементы и их смешение, заменяются фактами литературного языка, архаизируются, а лексемы особого исторического значения приобретают историзм. Безусловно язык является зеркалом истории и отражает тысячелетние события в судьбах народа. Естественно, диалекты и говоры азербайджанского языка являются ценным сокровищем в решении исторических и лингвистически спорных вопросов, интересующих историков и лингвистов. Задача диалектологов – обнаружить и глубоко изучить скрытые стороны диалектов и говоров. Разумеется, что этнолингвистический анализ диалектов и говоров азербайджанского языка проливает свет на многие спорные исторические вопросы. Как уже упоминалось, диалекты меньше подвержены влиянию других языков. В этом отношении живым и достоверным источником выступает лексика наших диалектов и говоров, донесших до наших дней слова и термины, относящиеся к разным этапам развития языка.

***Ключевые слова:*** *развитие речи, диалектное произношение, этнолингвистический анализ, материальное и духовное наследие народа, усовершенствование языка*

**Abstract.** In the process of modern development of the Azerbaijani language, dialects and dialects are rapidly becoming archaic. In recent years, under the influence of mass media, facts of dialects, reflecting various tribal elements and their mixture, are being replaced by facts of the literary language, becoming archaic, and lexemes of special historical significance are acquiring historicism. Certainly, language is a mirror of history and reflects thousand-year events in the fate of the people. Naturally, the dialects and subdialects of the Azerbaijani language are a valuable treasure in solving historical and linguistically controversial issues of interest to historians and linguists. The task of dialectologists is to discover and deeply study the hidden sides of dialects and subdialects. It goes without saying that the ethnolinguistic analysis of the dialects and subdialects of the Azerbaijani language sheds light on many controversial historical issues. As already mentioned, dialects are less susceptible to the influence of other languages. In this regard, the vocabulary of our dialects and subdialects, which have brought words and terms related to different stages of language development to our days, is a living and reliable source.

***Keywords:*** *speech development, dialectal pronunciation, ethnolinguistic analysis, material and spiritual heritage of the people, language improvement*

Azərbaycan ədəbi dilinin tarixi qədim köklərə bağlıdır. Ona görə də hələ yazı meydana gəlməzdən əvvəl insanlar şifahi dil vasitəsi ilə ünsiyyətdə olmuşdular. Şifahi dil isə eşitmə vasitəsi ilə dərk olunan ədəbi dildir.

Ədəbi dilin zənginləşməsində dialekt və şivələr tarixən mühüm amil yerində çıxış etmiş və təsirini müəyyən qədər bu gün də göstərir. Eyni ərazidə yaşayan xalqlar müəyyən ərazi bölgüsü ilə sərhədlərlə feodalizmi də bir – birindən ayırmış, özünün müstəqil dövlət quruluşu, adət-ənənəsi ilə biri digərindən fərqlənmişdir. F. Köçərli yazırdı: *"Azərbaycan türklərinin danışdığı dilin şivəsi çox isə də, binası kökü birdir. Belə ki, hər mahalın xalqı başqa bir şivədə və qeyri bir ləhcədə danışıb qonuşur. Hər məhəl və məskənin özünə məxsus istilahları və sözləri vardır. Qarabağ və Qazax əhaliisi bir cürə, Şəki xalqı özgə bir cürə, Şirvan, Səlyan, İrəvan, Naxçıvan, Xoy, Maku vilayətlərinin əhalisi qeyri bir şivə üzrə*

*danışıb*. Deməli, eyni xalqın danışığında da müəyyən fərqlər meydana gəlmişdir ki, bu dialekt adlanır. Dialektləri səciyyələndirən əsas cəhətlərdən biri onun yazıya malik olmamasıdır. [10]

Bir dilin bir neçə dialekti ola bilər, bu da onların mürəkkəbliyi ilə bağlıdır.

Dialektlər arasında fərq bilavasitə onun fonetik sistemində, qrammatik quruluşunda və lüğət tərkibində özünü göstərir.[1]

Dialekt və şivələr öz lüğət tərkibinin əhatəliliyi ilə diqqəti cəlb edir. Dialektlərin lüğət tərkibindəki leksik vahidlər həm də müəyyən qədər xalqın tarixini, onun keçib gəldiyi inkişafı özündə cəmləşdirir və qoruyub saxlayır. Burada müxtəlif dövrləri xarekterizə edən istənilən sayda sözə təsadüf etmək mümkündür. Hətta dialektlərimizdə qəbilə quruluşuna aid sözlərə təsadüf edilir.

Dialekt və şivələrin öyrənilməsi məsələlərinə diqqət bu gün də öz aktuallığını saxlamaqdadır. Uzun əsrlər keçməkeşli yol keçmiş, tarix səhnəsində müəyyən izlər qoymuş hər hansı bir xalqın varlığını sübut edən amillərdən biri də məhz dialektlərdir. Hər hansı bir xalqın maddi və mənəvi irsini araşdırmaqda dialektlər böyük əhəmiyyətə malikdir. Çünki dialekt və şivələrdə xalqın keçdiyi bütün tarixi inkişaf yolları müasir dövrdə aid olduğu xalqın dilində yaşadığı ərazidə qorunub saxlanılır. Doğru olaraq qeyd olunur ki, dialekt və şivələrin tədqiqi elə məhz dilin tədqiqi deməkdir. İstər yazılı, istərsə də şifahi mənbələrin dilinin araşdırılmasında dialekt amili böyük rol oynayır.

Müasir türk dillərinin yayıldığı coğrafi arenaya diqqət yetirsək, irili – xırdalı türk dövlətlərinin məkan və ulus ayrılığı, coğrafi ərazilərin və təbiətinin ayrılığı, sosial və siyasi ayrılıqları, nəsillər arasında dövrün və zamanın yaratdığı ayrılıqlara baxmayaraq, əski türkcənin fonetik, leksik və qrammatik quruluşunu saxlamaqla həm də özəlliklərini, özünəməxsusluqlarını güclü şəkildə mühafizə edərək bugünki mərhələyə gəlib çatmışdır.

Bu baxımdan Azərbaycan dialektologiyasında müxtəlif ləhcə qruplarının və onların daxilindəki şivələrin ayrılıqda tədqiqi vacib məsələlərdən biridir. Türk xalqlarının mövcudluq tarixinin, onların təşəkkül, inkişaf və formalaşma yolunun da xüsusi tədqiqatların obyektinə çevrilməsi zəruri və labüddür.

Hər bir xalq müəyyən etnik birlikdən ayrılır, bu və ya digər coğrafi, ictimai-siyasi, mədəni-mənəvi səbəblərlə əlaqədar olaraq özünəməxsus əlamətlər kəsb edir. Eyni zamanda hər bir xalq əsasən qohum, bəzən də qohum olmayan etnosların tayfaların konsilidasiyası, coğrafi, ictimai-siyasi, mədəni-mənəvi mərkəzləşməsi nəticəsində formalaşır. Bu, məhz Azərbaycan xalqına da aiddir. Azərbaycan xalqı da türk xalqlarından biridir və Azərbaycan ərazisində yaşayan eləcədə buraya sonradan gələn müxtəlif türk tayfalarıı ilə qaynayıb-qarışmış və dilləri də qarşılıqlı inteqrasiya etmiş, dialekt və şivələrin tərkibində öz izlərini qoruyub saxlamışdır.[2]

Azərbaycan dilinin dialektləri kompakt şəkildə əsasən tarixi Azərbaycan ərazisində yaşayan etnik azərbaycanlıların danışdıqları şivələrin məcmusudur. Azərbaycan dili nə gəlmə, nə də öz kökləri etibarilə yad mənşəli olmayıb, yarandığı zamandan günümüzədək türksistemli dil kimi Azərbaycan ərazisində sakin olmuş əcdadlarımızdan mənəvi sərvət kimi bizə miras qalmışdır [5, s.14].

Ədəbi dilin təkmilləşməsində də və bu günə qədər keçdiyi inkişaf mərhələlərində dialektlərin rolunu qeyd etməmək mümkün deyildir. Əsrlər boyu Azərbaycan türklərinin dilində işlənən bir çox sözlərin dialekt variantlarının digər türk dilləri ilə müqayisəli tədqiqi Azərbaycan dilinin tarixi funksiyasını, qədim dövrlərdən günümüzə qədər keçdiyi tarixi-ictimai mövqeyini müəyyənləşdirmək baxımından çox böyük əhəmiyyət kəsb edir. Dilin fonetik sistemindən başlayaraq sintaktik quruluşuna qədər dil sisteminin ən qədim tarixi qatlarına enmək və onun daxili inkişaf meyillərinin üzə çıxarmaq imkanına malik olan dialektologiyanın nəzəri əsaslarına dayanaraq müxtəlif coğrafi ərazilərdə yaşayan türk xalqlarının qədim tarixi kökdən qaynaqlanan ortaq dil xüsusiyyətlərinin paralel müstəvidə müqayisəli tədqiqi Azərbaycan dilçiliyinin, eləcə də ümumtürkoloji dilçiliyin qarşısında duran aktual problemlərdəndir.

Son dövrlərdə aparılan tədqiqatlar dialektologiyanin qədim tarixi qatlarının açılmasında böyük əhəmiyyət kəsb edir. Tarixi dialektoloji tədqiqatlar qədim oğuz və qıpçaq, eləcə də bir çox qədim türk boylarının dil elementləri ilə yanaşı, mövcud dialekt sözlərinin çoxu çağdaş Azərbaycan dilində ümumişləklikdən heç də təcrid olunmadan öz tarixi mövqeyini qoruyaraq müasir

türk dillərinin etnogenetik baxımdan vahid kökdən qaynaqlandıgını sübuta yetirir [6, s. 13].

Bildiyimiz kimi, Azərbaycan dilinin dialekt və şivələrinin əsasən Şimali Azərbaycan ərazisi daxilində mövcud olan dialekt və şivələrinin tədqiqi sistemli və elmi şəkildə XX əsrin əvvəllərindən aparılmağa başlanmış, ekspedisiyalar aparılmış, lüğətlər tərtib edilmiş, namizədlik, doktorluq dissertasiyaları monoqrafiyalar, dərslik və dərs vəsaitləri yazılmışdır. Görkəmli Azərbaycan dilçisi türkoloq M. Şirəliyev Azərbaycan dialektologiyası məktəbi yaratmış, R.Rüstəmov, A. Vəliyev, B. İbrahimov, A. Hüseynov, M. İslamov, Q. Hacıyev, S. Behbudov, B. Sadıqov, B. Əhmədov, E.Əzizov Azərbaycan dialektologiya elminin inkişafında əvəzsiz xidmətlər göstərmişlər.

Nitq inkişafı ibtidai siniflərdə ana dili üzrə hər bir məşğələnin əsasını təşkil edir. İnsanın mədəni yetkinliyinin, cəmiyyət üçün yararlı bir şəxsiyyət kimi formalaşmasının meyarlarından biri onun məhz nitq mədəniyyətinə yiyələnməsidir. Bu, orta məktəb qarşısında duran ən mühüm məsələlərdən biridir. Ana dili tədrisinin məqsədi ibtidai siniflərdən başlayaraq tələbələrin şifahi nitqini inkişaf etdirməkdir. [1]

Nitq inkişafı üzrə iş zamanı qarşıda duran əsas vəzifə dil və təfəkkürün vəhdət halında inkişaf etdirilməsidir. Uşaqların təfəkkürünü inkişaf etdirməklə biz, şübhəsiz, onların nitqinə təsir göstərir, nitqini inkişaf etdirməklə təfəkkürünü formalaşdırırıq. Nitq mədəniyyətinin yüksək səviyyəsi yalnız dilin bütün sahələri (fonetika, leksika, orfoepiya, söz yaradıcılığı, orfoqrafiya, morfologiya, sintaksis, üslubiyyat və s.) ilə təbii surətdə birləşdirilməsi şəraitində təmin edilə bilər. Nitqdə təbiilik, düzgünlük, təmizlik, zənginlik, aydınlıq, ifadəlilik, emosionallıq, ardıcıllıq kimi normalar gözlənilməlidir. Nitq yalnız fikirlərin ifadə vasitəsi yox, həmçinin onların yaranma mənbəyidir. Ona görə də müəllim nitq ilə yanaşı, tələbələrin də nitq mədəniyyətini inkişaf etdirməlidir. [2]

Uşaq xalqın tarix boyu gündəlik həyatında müəyyənləşdirdiyi ümumi normalardan ibarət olan dili mənimsəyir. Dilin normaları fonetik, orfoepik, leksik, morfoloji, orfoqrafik, sintaktik, punktuasiya və üslubi qaydaları özündə əks etdirir. Fonetik normalar üçün sözdə səslərin düzgün tələffüzünü, onların bir-birindən fərqləndirilməsini əhatə edir. Orfoepik tələffüzdə isə sözlərin şifahi nitqin səlisliyi baxımından tələffüzə üstünlüyün verilməsi, eyni zamanda “kitab tələffüzündən” istifadə edilməməsi nəzərdə tutulur. Dilçi alim Adil Babayev yazır ki, “nitq mədəniyyəti isə o vaxt yüksək səviyyədə ola bilər ki, dil strukturunun bütün səviyyələrinin normaları formalaşmış olsun. Məsələn, fonetik norma, leksik norma, morfoloji norma, sintaktik norma formalaşmamışsa, ona ədəbi dil demək olmaz. Bütün səviyyələrdə dil vahid və ünsürlərinin yalnız ən nümunəvisi qəbul edilir ki, bu da həmin sahə üçün norma hesab edilir. Məsələn, xalq danışıq sferasında norma sabitləşmiş olmur”. Ədəbi dildə isə yalnız normativ – hamının qəbul etdiyi nümunədən istifadə edilir. Bəzən dildə bir neçə variantın olması normal hesab edilir. Amma dildə gedən inkişaf onlardan birini qəbul edir. O, qeyd edir ki, “natiq yalnız dil normalarına əməl etdikdə nitqi effektli ola bilər” [4]

Dilimizin vahid orfoepik normalarını dərindən öyrənməklə tələbələrin gündəlik nitq fəaliyyətinə nəzarət müəllimin əsas vəzifəsidir. Müəllim, hər şeydən əvvəl, tələffüz zamanı tələbələrin sözləri yazıldığı kimi, orfoqrafik tərkibinə görə (“kitab tələffüzü” üzrə) oxumalarına yol verməməlidir. Tələbələr bilməlidirlər ki, bir çox hallarda orfoqrafiya ədəbi tələffüzə və heç bir yerli şivəyə uyğun gəlmir. Ona görə də bir tərəfdən “orfoqrafik” tələffüzə, digər tərəfdən yerli şivə tələffüzünə qarşı mübarizə aparılmalıdır, lakin bu zaman tələbələrin canlı dilinə, yerli şivə xüsusiyyətlərinə kinayə ilə yanaşmaq olmaz. Belə bir fikir formalaşır ki, uşaqların nitqinin inkişafı üzrə işin düzgün təşkili müəllimin dilçilik elminə bələd olmasından asılıdır. Şifahi nitq zamanı aydınlığın pozulmasının bir səbəbi də, sözlərin mənasını, işlənmə məqamını və s. yaxşı bilməmək, zəngin söz ehtiyatına sahib olmamaqdır. Düzgün olmayan tələffüz – səslərin öz məxrəcində deyilməməsi, qarışdırılması, bəzən də səslərin, hecaların tələffüzdən düşməsi, məzmuna, məqsədə uyğun intonasiyaya əməl olunmaması və s. nitqin aydınlığına xələl gətirən səbəblərdir.

Metodik ədəbiyyatda danışıq dili nitqi və şifahi nitq terminlərinə tez-tez rast gəlinir. Bu anlayışlar hələ nəzəri dilçilikdə dəqiq müəyyənləşdirilmədiyindən metodik ədəbiyyatda da qarışdırılır. Onlar gah sinonim kimi, gah da müxtəlif mənalarda işlədilir. Bu terminlərin adı altında bəzən şifahi tələffüz anlayışı, bəzən məişət

dili anlayışı və s. başa düşülür və ya müxtəlif hadisələr bir-biri ilə qarışdırılır. Tələbələrin şifahi monoloji nitqinin inkişaf etdirilməsində situativ vəziyyətin (nitq mühitinin) yaradılması zərurəti bir metodik vasitə kimi meydana çıxır.

Azərbaycan dili şivələrinə aid problemlərin öyrənilməsində qohum dillər – türk dilləri xüsusi yer tutur. Tarixi dialektologiyada isə qohum dillər aparıcı rola malikdir. Belə ki, türk dilləri, xüsusilə oğuz qrupu türk dilləri Azərbaycan dili şivələrinin fonetikasının və leksikasının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Məsələn, şivələrdə diftonqlardan bəhs edilərkən göstərilir ki, başqırd və türk dillərində və ya onların dialektlərində diftonqlar (başqırd dilində: torou "durmaq", yotou "udmaq", yöröü "yerimək", türk dilində: souk "soyuq"), səs əvəzlənmələri (özbək dilində: ı > i kiz "qız", yaşil "yaşıl"; türk dilində: ili "ulu", yokari "yuxarı"); ö>o türk dilinin dialektlərində dövmek "doğmak" < döymək, göstermek "gostermek" < göstərmək, köy "koy" < kənd və s.) özünü göstərir. Dialekt və şivələrin leksikası izah edilərkən ayrı-ayrı leksik vahidlərin başqa türk dillərində işləndiyini görmək olur. Məhz qədim türk sözlərinin şivələrimizdə işləndiyini göstərməklə yanaşı, həmin sözlərin müxtəlif fonetik tərkibdə türk dillərində də işləndiyini dil faktları əsasında izah etmək xüsusilə vacibdir. Məsələn, şivələrimizdə işlənən yoğurt, yəxni, arı, əfçi, uruğ, com və s. sözlərdən bəhs edilərkən göstərilir ki, həmin sözlər digər türk dillərində də müxtəlif fonetik formada işlənir.

**Problemin aktuallığı.** Ana dilinin tədrisində son məqsəd məhz tələbələrə əldə etdikləri bilikləri düzgün, rabitəli və məzmunlu ifadə etməyi öyrətməkdir. Ana dilinin tədrisinin başlıca prinsipi nitq inkişafı olduğundan, qrammatikanın tədrisi zamanı da nitqinin inkişafına geniş imkanlar açılır. Qrammatik biliklər tələbələrin nitqinin inkişafı üçün elmi bünövrə rolunu oynayır. Bəzi qrammatik qaydalar eyni zamanda orfoqrafiya təlimi və nitq inkişafına xidmət edir. Ona görə də qrammatikanın tədrisi prosesində nitq inkişafı üçün xüsusi saat ayırmağa ehtiyac yoxdur. Hər bir dərs ədəbi tələffüz, leksika, söz yaradıcılığı, üslubiyyat və ya rabitəli nitqin inkişafı üzrə işin aparılması imkanlarına malikdir.

**Problemin elmi yeniliyi.** Nitq inkişafı dilçiliyin tətbiqi bölməsi olmaqla düzgün danışmaq məsələlərini əhatə edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali məktəbdə tədris keçən ana dili müəllimləri və gənc tədqiqatçılar yararlana bilərlər.

### Ədəbiyyat


1. Abdullayev, N. Nitq mədəniyyətinin əsasları / N. Abdullayev. – Bakı: Elm, −2013. −277 s.
2. Abdullayev, N. Müəllimin nitq mədəniyyəti / N. Abdullayev, Z. Məmmədov – Bakı: − 2002. −226 s.
3. Abdullayeva-Nəbiyeva, V.A. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişaf istiqamətləri: / dissertasiya. / - Bakı, 2017. - 160 s.
4. Babayev, A. Azərbaycan dili və nitq mədəniyyəti: Ali məktəblər üçün dərslik) / A. Babayev. – Bakı: Gənclik, −2015. − 572 s.
5. Dəmirçizadə, Ə.M. Oğuz-qıpçaq lisani ünsürləri / Ə.Dəmirçizadə. – Bakı: Azərb.SSR.EA. Dilçilik İnstitutunun əsərləri", - 1949. №1.
6. Əzizov, E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası: Dərs vəsaiti, 2-ci nəşri / E.İ. Əzizov. – Bakı: Elm və təhsil, – 2016. – 348 s.
7. Hacıyeva, Q. Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi / Q.Hacıyeva. – Naxçıvan: Əcəmi , - 2017. - 329 s.
8. Hüseynova, M.N. Azərbaycan dilçiliyində ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələləri / M. Hüseynova. – Bakı: ADPU, - 2019. - 188 s.
9. Xasıyev, Z.Ə. Azərbaycan dili dialekt və şivələrinin Qərb qrupunda heyvandarlıq terminləri / Z.Ə. Xasıyev. – Bakı: Nurlan, - 2004. - 146 s.
10. Köçərli, F. Azərbaycan ədəbiyyatı / F.Köçərli. – Bakı: Elm, c 1.– 1978. - 599 s.
11. Qukasyan, V.L. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər // Bakı: Elm, Azərbaycan filologiyası məsələləri, - 1983. – s. 35-62.
12. Şirəliyev, M. Azərbaycan dialektologiyasının əsasları / M.Şirəliyev. – Bakı: Şərq-Qərb, - 2008. - 416 s.
13. Vəliyev, A.N. Azərbaycan dialektologiyası: (Keçid şivələri morfologiyası və sintaksisi). A.N.Vəliyev. – Bakı: ADU, - 1975. - 118 s.


**Redaksiyaya daxil olub:** 17.03.2025.

***ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ***
***METHODS OF TEACHING LITERATURE***

*UOT 372.882*

***Günel Əmirxan qızı Əmirxanzadə***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0005-6253-6753*
*gunel.amirxanzade@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).124-129*

# LƏYAQƏT TƏRBİYƏSİ ƏDƏBİYYATLARIMIZDA

***Гюнель Амирхан гызы Амирханзаде***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# ВОСПИТАНИЕ ДОСТОИНСТВА В НАШИХ ЛИТЕРАТУРАХ

***Gunel Amirkhan Amirkhanzadeh***
*doctorial student in the program of doktor of philosophy of Baku State University*

# DIGNITY UPBRINGING IN OUR LITERATURES

**Xülasə.** Məqalədə ləyaqət tərbiyəsinin tarixi kökləri açıqlanmış, bu problemin araşdırılmasının zəruriliyi, onun ədəbiyyatımızda tutduğu yer izah olunmuş, Azərbaycan klassik pedaqoq və ədəbiyyatşünaslarının ləyaqət tərbiyəsi ilə bağlı fikirləri araşdırılmış, onların əsərlərindən nümunələr verilmişdir. Məqalədə həmçinin məktəb və ailənin birgə fəaliyyətinə də müraciət olunmuş, bu işdə ailənin qarşısında duran vəzifələr açıqlanmışdır. Həmçinin ləyaqət tərbiyəsi ilə bağlı xalq pedaqogikasına da yer ayrılmışdır.
***Açar sözlər:*** *ləyaqət, tərbiyə, səxsiyyət, xalq pedaqogikası, Qurani Kərim*

**Аннотация.** В статье раскрываются исторические корни воспитания достоинства, необходимость изучения данной проблемы и её место в нашей литературе. Рассматриваются взгляды азербайджанских классических педагогов и литературоведов на воспитание достоинства, приводятся примеры из их произведений. Также затрагивается совместная работа школы и семьи, разъясняются обязанности семьи в этом процессе. Кроме того, подчеркивается роль народной педагогики в воспитании достоинства.
***Ключевые слова:*** *достоинство, воспитание, личность, народная педагогика, Священный Коран*

**Abstract.** The article explains the historical roots of dignity education, the necessity of researching this issue, and its place in our literature. It examines the views of Azerbaijani classical educators and literary scholars on dignity education, providing examples from their works. The article also addresses the joint efforts of school and family, outlining the responsibilities of families in this process. Additionally, it highlights the role of folk pedagogy in dignity education.
***Key words:*** *dignity, upbringing, personality, folk pedagogy , The Holy Quran*

XXI əsrin Azərbaycan xalqına bəxş etdiyi mühüm məsələlərdən biri onların böyüyən nəslin mənəvi tərbiyəsini diqqətdə saxlaya bilməyi bacarmasıdır. Azərbaycan xalqı öz kökünə, tarixinə, açılmamış səhifələrinə müraciət edərək xalqın tarixi yolu, onun bəzəyi olan milli mənəvi dəyərləri öyrənir, milli ruhun, özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini aşkar edir və öyrənməyə çalışır. Milli mənəvi dəyərlərimizə yeni həyat verilir, özünəqayıdışa bir daha yeni ruh, yeni təfəkkür və düşüncə, yeni sağlam mənəviyyat bəxş

edilir. Milli dirçəlişin emosional psixoloji və mənəvi tərəfləri daha da zənginləşir. Milli ruhu milli düşüncə, insani münasibətlər, öz kökünə qayıdış, dirçəliş prosesi yeniyetmələrin gözləri qarşısında dayanır və onların fəal iştirakı zəminində baş verir. Hər bir ləyaqətli yeniyetmə özünün əməli fəaliyyəti, dəyanəti və vətənpərvərliyi, təlimə münasibəti, xalqının varlığı ilə fəxr edir, milli tərbiyəni, milli ruhu və milli mənəviyyatının qol qanad açmasına şərait yaradır. Milli ləyaqət hər bir millətin mövcudluğunun, milli özünüidarə, milli mənlik şüurunun, özünütəsdiqinin, ümumi mənəvi keyfiyyətlərinin məcmusudur. Milli ləyaqət hissinin aşılanması daima axtarılacaq məsələlərdən birinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev böyüyən nəsildə mənəvi keyfiyyətləri formalaşdırmağı vacib məsələlərdən biri bilirdi. O, göstərirdi ki, "Gənclər paklıq, saflıq, yüksək əxlaqilik, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik". Heydər Əliyev həm də göstərirdi ki, "Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır....bu həm xalq üçün, millət üçün hər bir azərbaycanlı üçün gərəklidir.

Tarixi araşdırmalar göstərmişdir ki, ləyaqət tərbiyəsi hər zaman diqqətdə olmuş, insanların düşüncələrində özünə yer qazanmışdır. İnsan həyatında zəruri sayılan paklıq, düzlük, şərəf və ləyaqətin göstəricisi olduğu kimi, həm də, onun simvoludur. Böyük Nizami öz həməsri olan insanlara müraciət edərək məsləhət görürdü ki, adınızın paklığı, müqəddəsliyi ləyaqətliliyi qaygısına qalın, çünki paklıq və ləyaqət dünyada bir şahlıqdır. Tanrı pak, qəlbi saf, ləyaqətli insanları daim öz nəzərində saxlayır və onları zireh kimi qoruyur. İnsanın həyatda ən böyük qayğılarından biri bunlardan ibarət olmalıdır ki, o qəlbinə ləkə düşməsinə heç bir vəchlə yol verməsin. Şərəf və ləyaqət yolunu kainatın üzvülük yolu, yüksəliş, təmiz və saflıq yolu hesab edən Böyük Sədi bilik və ləyaqətə şəxsi məsələ kimi yanaşmır. Sədiyə görə cəmiyyətin ləyaqətli üzvü olan hər kəs özünə səadət bəxş etdiyi kimi, cəmiyyətə də xeyir verməlidir. Çünki özünü sevməyənlər, öz həyatını qiymətləndirməyənlər xalqın da halına qalmaz, bəlkə də ona bir yük olarlar.

O, deyirdi: Düşməni sən aciz etmək istəsən,
İşində heç israf etmə zinhar.
Sən təmiz həyat sür, kimsədən qorxma
Ki, daşa çırpılar natəmiz paltar

Övlad tərbiyəsini xeyirxah əməlləri əks etdirən "Avesta"da da dolayısı olaraq ləyaqət tərbiyəsindən bəhs edilir. Zərdüştə görə düzgünlük, sağlam yaşayış, halal zəhmətlə dolanmaq, əxlaqca maddi və mənəvi təmizliyə nail olmaq mənəvi cəhətdən paklıq əsas məsələlərdəndir. "Avesta"da göstərilir ki, tərbiyə həyatın ən zəruri sütunudur.

Novruz Gəncəli "Zərdüşt Peyğəmbər" dramında ləyaqət tərbiyəsini dolayısı olaraq aşağıdakı kimi ünvanlayır.

Xeyirxah düşüncə, xeyirxah əməl,
Xeyirxah söhbətdir onun məsləki
Sənə and içirəm, ey ulu Hürmüzd,
Mən də olacağam peyğəmbər təki
İstəyim, əməyim pak olacaqdır,
Bilirəm dünyada xeyir, bərəkət
Ləyaqətli yaranacaqdır.

Ləyaqət əxlaqi hiss olmaqla ali məqsədə xidmət edir və insanı öz mahiyyətinin ifadə edilməsinə doğru yönəlir. Ləyaqət onun qanunlarına tabe olmağı zəruri sayır. Ləyaqətin formalaşması üç amilin təsirindən mümkündür. 1.Allaha inam, ona sığınmaq: 2. Ailəyə hörmət və məhəbbət: 3.Özünü təsdiq, öz mənini dərk etmək.

Uşaqlarda ləyaqət hissinin formalaşdırılmasında xalq deyimləri də böyük rol oynayır. Xalq deyirdi "Adamda adamlıq lazımdır", "Atalar nə əkiblər, oğullar onu biçiblər", "Namusu itə atıblar o da yeməyib", "Anasına bax qızını al, qırağına baxıb bezini al", "Ləyaqətli adam özgəsinin malına xor baxmaz", "Varını itirən az şey itirər, namusunu itirən çox şey", "Ailənin üz ağlığı namusdur", "Arvadın isməti, ərin izzəti". Xalq pedaqogikasında atalar sözlərinin, nəsihətlərlərin, nağılların, bayatıların və s. ləyaqət tərbiyəsi ilə bağlı deyimləri əvəzsizdir. Ləyaqət, ismət, namus, şərəf, vicdan və s. kimi milli mənəvi dəyərlərimiz nəsihətlərlərmizdə də özünə yer qazanmışdır. "Qeyrətsiz, namussuz yaşamaqdansa ölmək daha yaxşıdır" düşüncəsinin dəyərli nümunələr toplandığı folklorumuzda insanların mənəvi baxımdan kamilləşməsi, saflaşması, bir şəxsiyyət kimi yetkinləşməsi baxımından dəyərli materiallar verir. Təsadüfi deyildir, şifahi xalq nümunələrində böyüyən nəslin tərbiyəsində önəmli sayılan fikirlərdən istifadə edilmiş və edilir. Uşaqların tərbiyəsində böyük rol oynayan düzlük, doğruçuluq, sadəlik, təvazökarlıq, xeyirxahlıq, ləyaqət, hörmət, humanizm ki-

mi nəcib sifətlər həmişə vacib məsələ kimi gündəmdə dayanmışdır.

"Kitabi Dədə Qorqud" dastanında "Qazan xanın evinin yağmalanması" boyunda düşmən tərəfindən əsir edilmiş Burla xatun ailə namusu, qadın ləyaqəti, şərəfi yolunda ən ağır əzablar çəkməli, dözülməz iztirablar keçirməli olur. Qazanın ailə ləyaqətini ləkələmək üçün Şöklü Məlik boyu uzun Burla xatunu gətirib sığraq sürdürmək gərək, – deyir. Ailə namusu, ləyaqəti ilə övlad məhəbbəti arasında bu dəhşətli əzaba, işgəncəyə ana qəlbi tablaşmağa məcbur olur. Lakin onun üçün namus, ləyaqət hər şeydən yüksəkdə durur. Oğlu namusu əziz canından yüksək tutmaqla, ləyaqətlə özünü qəhrəman anasına layiq olduğunu sübut edir. O, qəzəblə anasına deyir:

Mənim üzərimə gəlməyəsən!
Mənim üçün ağlamayasan!
Qoy ətimdən qadın ana, çəngələ
vursunlar,
Qara qovurma etsinlər!
Qırx bəy qızının önünə gətirsinlər!
Onlar bir yeyəndə sən iki yegil!
Səni kafirlər bilməsinlər, duymasınlar
Ta ki, sasi dinli kafirin döşəyinə
varmayasan,
Şərabın süzməyəsən!
Atam Qazan namusunu sındırmayasan!
Saqın!

Bu sözlər göstərdi ki, qadın ləyaqət və namusu hər şeydən yüksəkdir. Oğuz ailəsində qadının şərəf və ləyaqətini yüksək tutan hər bir kəs analıq namusunu ucalardan uca bilir, bu həm də onu deməyə əsas verir ki, xalqımızın əsrlər boyu onun dərinliyindən keçib gələn, böyük mənəvi dəyərlərini əks etdirən namus, ləyaqət, şərəf məsələsi ilə bağlı olan fikirlər dəyərini qoruyub saxlaya bilmişdir. "Qurani Kərim"də də qadın ləyaqətinə yüksək qiymət verilir və o hər şeydən uca tutulur. Quranda qadının cəmiyyətdəki yeri və hörməti yüksəklərə qaldırılır. Professor Qızılgül Abbasova göstərirdi ki, "ləyaqət insanın əxlaqi şəxsiyyət olaraq dəyərlilik ölçüsünü bildirən əxlaqi süur anlayışıdır". O həm də insanın öz-özünə və cəmiyyət tərəfindən ona olan xüsusi əxlaqi münasibətlərini bildirən əxlaqi kateqoriyadır.

Ləyaqət tərbiyəsi mənəvi mədəniyyətimizin aparıcı qüvvəsi olan Molla Vəli Vidadinin yaradıcılığında mühüm yer tutur. Mənəviyyatda baş verən durğunluq ona çox pis təsir göstərirdi. Vidadi bütün insanlara müraciət edərək, onları ləyaqət hissini qorumağa, bir birlərinə hörmət etməyə, başqalarına qarşı xeyirxah və mərhəmətli olmağa çağırırdı. Azərbaycan mütəfəkkirləri Əvhədi Marağayi göstərirdi ki, insan ruhunun zəka tərəfi ölməzdir, özü də bu yalnız xeyirxah, fəzilətli insanın ruhuna aiddir. Bu insanın bütün hərəkətləri və əməlləri mənəvi paklanmaya və intellektual kamilləşməyə istiqamətlənmişdir. Beləliklə xeyirxah, ləyaqətli əməllərini həyata keçirən insanların ruhu ölməzdir.

Böyük filosof N. Tusi "Əxlaqi Nasir" əsərində tərbiyə məsələlərinə geniş yer vermiş və ləyaqət tərbiyəsində mühüm rol oynayan məsələləri gündəmə gətirmişdir. N. Tusi göstərir ki, danışarkən deyəcəyin fikri beynində bişirməmiş dilinə gətirməməli, nalayiq sözlər işlətməməli, dilini söyüşə öyrətməməli. Qeybət, böhtan, iftira, yalançılıqdan çəkinməli, bir məclisə getdikdə öz yerini bilməli, yemək vaxtı nəzakətli olmalı, çox danışmağa adət etməməli və s. mənəvi təmizliyə, əxlaqi saflığa, vicdan büllurluğuna böyük əhəmiyyət verən Tusi hər şeydən öncə uşaqların mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzgünlüyə, doğruçuluğa bir sözlə, vicdanlı olmağa alışdırmağı, ləyaqətli işlərlə məşğul olmağı məsləhət görürdü.

Ləyaqət tərbiyəsi həyatımızın bütün dövrlərində diqqətdə olan məsələlərdən birinə çevrilmişdir. Görkəmli mütəfəkkirlərimiz bu məsələyə biganə qalmamış, onu yaradıcılıqlarının bir parçasına çevirmişlər. Görkəmli əxlaq tədqiqatçısı A.A. Bakıxanov "Təhsil ül-əxlaq" (əxlaqın təmizliyi), həmçinin "Nəsihətnamə" əsərində dolayısı ilə olsa da ləyaqət, şərəf, vicdan anlayışına müraciət etmişdir. Bakıxanov göstərirdi ki, hər həs adamları ləyaqətinə görə seçib işə təyin etsə, o işi şəxsən özü gördüyü kimi hesab edə bilər. Bir adam yaxşılıq etsə də yaxşılığı kinayə və məsxərə ilə üzə vurma, Çünki minnət qoymaqla yaxşılıq pis olur .... Ləyaqətli o adamdır ki, öz eybini özgələrindən artıq görsün, öz hünərini kiçik saysın, vaxtını başqalarının əməllərinə irad tutmağa sərf etməsin. Çünki ləyaqətli o adamdır ki, özünü görə bilir.

M.F. Axundov da bu problemə laqeyd qalmamış, onu mühüm məsələlərdən biri hesab etmişdir. M.F. Axundov yaradıcılığı boyu insan ləyaqət və şərəfi, namus və qeyrəti ilə bağlı fikirlərini verə bilmişdir. O uşaqların tərbiyəsində

aşağıdakı vəzifələrin icrasına yönəlməyi vacib bilirdi:

- İnsan pis əməldən qaçmalı, xeyirxah işlər görməlidir;
- insan yaxşılıq etməyə çalışmalı, kimsəsizlərə, kasıblara, yoxsullara əl tutmalı;
-insan zülmü dəf etməyə nail olmalı, zülmə qarşı mübarizə aparmalıdır;
- insan cəmiyyətdə həmvətənləri ilə mehriban şəraitdə yaşamalıdır;
- insan cəmiyyətdə qayda qanunları müdafiə etməlidir və s.

Bütün bunlar o zaman həllini tapa bilir ki, ləyaqət tərbiyəsinin daşıyıcısı olsun. Axundov eyni zamanda göstərirdi ki, insan ömrünün mənası xalqa, insanlığa xidmət etməkdir. Axundova görə namus, qeyrət, ağıl, ləyaqət, elm və habelə insan təbiətində mövcud olan başqa nəcib qüvvələr elə nəcib xüsusiyyətlərdir ki, onlar insanı yaxşını pisdən, savabı günahdan ayırmağa, xeyir işdən həzz almağa, pis işdən əzab çəkməyə qabil edər…. Bu isə o deməkdir ki, insanın təbiətinə elm gövhəri ilə nə qədər artıq cila verilsə, insan həm elmin qüvvəsi, həm də öz təbiətinin köməyi ilə pis əməllərdən bir o qədər çəkinər.

Axundov ləyaqət tərbiyəsini xarakterizə edən kəlamları ilə də seçilir. O, uşaqlarda aşılanması zəruri olan mənəvi keyfiyyətlər içərisində vətənpərvərliyi, vicdan və ləyaqəti birinci sıraya qoyurdu.

Ləyaqət tərbiyəsi görkəmli şəxsiyyətlər sırasında yer qazanan Seyid Əzim Şirvani əsərlərində özünə yer qazanmışdır. Oğluna müraciətdə doğruçuluq, düzlük, xeyirxahlıq, rəhimdillik, torpağa bağlılıq, şərəf və ləyaqət vəsf edilsə də, pis əməllər tənqid olunur. O. oğluna “Öyüdlər”ində bütün övladlara müraciət edərək elm öyrənməyə, vətənə, xalqa ləyaqətlə xidmət etməyə, pis əməllərdən uzaq olmağa çağırır. Və göstərir ki, ləyaqət bütün müsbət keyfiyyətlərin məcmusudur.

İnsanın tərbiyəsində önəmli olan ləyaqət yaşam tərzində çox zəruri sayılır. Cəmiyyətin əxlaqına, tərbiyənin məzmun və məqsədinə bələd olan hər bir nəsil ləyaqət anlayışını dərk edərsə onun həyatda büdrəməyi görünməzdir. Dövrün görkəmli pedaqoqlarından olan M.T. Sidqiyə görə ləyaqət yüksək mənəvi sifətdirsə, ləyaqətsizlik ağılsızlığın son həddidir. Onun fikrincə insan zəkası təbiətin ən çətin sirrini açmağa qadirdir. M.T. Sidqi göstərirdi ki, hər kəsin qəlbinə toxunmamaq, hər kəsin yerini bilmək, özü haqqında yüksək fikirdə olmamaq, hər kəsin həddini və dərəcəsini tanıyıb onu qiymətləndirməyi bacarmaq, gəncliyin mənəvi simasının əsasını təşkil edir.

M.T. Sidqi ləyaqət, şərəf, sadəlik, təvazökarlığı mühüm mənəvi dəyər hesab edir və göstərirdi ki, dörd şey cəmiyyət üçün zəruridir: əmin-amanlıq, ağıl və bilik, səbr və hövsələ, ləyaqət-həya və ismət. Ləyaqətli insanlar ağılları ilə nüfuz və şərəfinə ləkə gətirən hallardan qaçır, əməl, hərəkətləri ilə başqalarına nümunə olurlar.

Sədi Şirazi deyirdi:
Ədəb sayılsa da məclisdə susmaq,
Məsləhət zamanı danışmaq gərək

Böyük Nizami isə yazırdı ki,:
Çalış ədəbli ol hər sözündə sən,
Ədəblə danışsın səni dinləyən
Əqilli bir işdir yumuşaq danışmaq.
Axmağın işidir kobudluq ancaq.

İnsanlar arasında qarşılıqlı münasibətləri görmək, yaxşılığı özünə yol seçmək, yıxılana dayaq olmaq, vətən, xalq və öz mənini qorumağı bacarmaq, ləyaqət və milli mənlik şüurunun mühüm şərtlərindən birirdir. Ləyaqət tərbiyəsi böyük gücə, imkana malikdir. Həyatda hər bir insana, vətəndaşa yaşam qədər lazımdır. Ləyaqət tərbiyəsi özünüdərketmədə , özünə inamda, həyatın mənasını anlamaqda, özünə düzən verməkdə önəmlidir. Bu prosesdə adamlara münasibət, necə hörmət etmək, necə davranmaq öz ifadəsini tapır. Həmçinin belə hallarda əqidə özünü büruzə verir. Əqidə isə, insanı inama bağlayır. Belə şəxslər ləyaqəti əldən qoymur, sağlam düşüncəsini, mənəviyyatını yüksək tuturlar. Mənəvi əqidə yalnız əxlaq qayda və qanunları əldə rəhbər tutmaq deyil, öz ləyaqətini göstərə bilməsi, mənəvi hisslərin və mənəvi davranışın vəhdətdə istifadəsidir, insanın öz mənəviyyatına hörmətidir.

Şərəf və ləyaqəti ədəbdə görən M.Ə. Sabir “Analar bəzəyi” serində deyir:

Bəzək, bəzək ki, deyirlər, Cəvahirat deyil,
Cəvahirat by gün zinyəti-həyat deyil,
Həqiqi validənin ən şərəfli bir bəzəyi
Ədəbli, uslu çocuqdur, təcəmmülat deyil.

Ləyaqət tərbiyəsində aliə ilə məktəbin birgə rolundan bəhs edən görkəmli şəxsiyyətlərdən

biri də Nəcəf bəy Vəzirovdur. O, göstərir ki, insanın bütün mənəvi aləmi istisna və qeyri-şərtsiz onun cəmiyyətdəki şəraitinin, ailə və məktəb tərbiyəsinin təsiri altında təşəkkül tapır və formalaşır. Buna görə də, pis insan təbiəti yoxdur. İnsanın pis hərəkətləri və bəd əməlləri onun cəmiyyətdən, ailədən, məktəbdən aldığı tərbiyənin nəticəsidir. N.B. Vəzirov xalqa, vətənə xidməti yüksək mənəvi borc hesab edirdi. Təbiətin tacı olan insanın şərəf və ləyaqəti xalqın qeydinə qalmasıdır. Xalqı düşünmək, onun qeydinə qalmaq, insanın xalqın firavan yaşayışını vacib bilməyi ləyaqətlə ölçürdü. O göstərirdi ki, xalq öz ömrünü onun səadəti naminə mübarizəyə sərf edənləri heç vaxt unutmayacaqdır. Ləyaqət vardövlətlə, cəvahiratla ölçülmür. O, ailə məişət kamilliyindən törəyir. Düzgün qurulmuş ailədə tərbiyə alan övlad ailəyə mənsub ləyaqəti özündə saxlaya bilir. Elə bu səbəbdən də övlad ailənin güzgüsüdür fikrini söyləmək olur.

Təsadüfü deyildir ki, Yusif Vəzir Çəmənzəminli göstərirdi ki, ailə tərbiyəsi yaxşı olduqda uşaq gələcəkdə öz yerini görə bilir. Evdə tərbiyə görməyən uşağı məktəb düzəldə bilməz. Ondan ləyaqət gözləmək itirilmiş vaxtı axtarmaq deməkdir. Uşaqlarda yüksək mənəvi sifətlərin yaranıb, təşəkkül tapmasına məktəb illərində deyil, məktəbəqədərki dövrdə başlaması haqda pedaqoqların fikirlərini müdafiə edən Üzeyir Hacıbəyov uşaqların ləyaqətli tərbiyə olunmasında ailəni böyük güc hesab edir. O qeyd edirdi ki. tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar. Ona görə də övlad tərbiyəsinə məsuliyyətli olmaq lazımdır. O ailədə ləyaqəti həlledici məsələ hesab edirdi. Üzeyir Hacıbəyov ləyaqət tərbiyəsində qayğıkeşliyi, səxavətli olmağı, ailənin şərəf və qururunu qorumağı, xeyirxahlığı, doğruçuluğu onun tərkib hissəsi kimi qəbul edir. Çünki nəzakətlilik daxili mədəniyyətin, insan məninin elə təzahür, həm də elə ünsiyyət qurmaq formasıdır ki, onun əsasında hər bir adama, hər bir şeydən öncə yaşlılara, xəstələrə, qadın və uşaqlara hörmət etmək və qayğı göstərmək insan mədəniyyətinin mühüm cəhəti olan vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirmək deməkdir. Xalq şairi Mirvarid Dilbazi böyüyən nəsillərə müraciətlə deyirdi:

Böyüklərə hörmət et,
Kiçikləri əzizlə,
Bu dünyada hər zaman
Yaxşı işləri izlə,
Bir yıxılan görəndə,
Tut əlindən balacan,
Xeyir işlər görməyə,
Çalışmalıdır insan

Nəzakətlilik insanlar arasında ünsiyyətə gözəllik verir, həm də yaşayış tərzini asanlaşdırır, həyatda insanı ən kiçik inciklikləndən belə xilas edir. Onun bir forması hesab edilən insana qarşı diqqətlilik və dəqiqlik də ləyaqətdən irəli gəlir. Əgər insan vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirisə, demək o hər şeydən əvvəl öz vicdanı qarşısında məsuliyyət daşıyır. İnsan ləyaqəti ilə vicdanını qoruyur. Vicdan onun daxili hakiminə çevrilir. Demək əxlaqi məsuliyyət hər şeydən əvvəl vicdan qarşısında cavabdehlik daşımaqdır. Bəxtiyar Vahabzadə yazırdı:

Döşəyin, balışın yumşaq olsa da,
Niyə yatammıram?
Anladım daha!
Dünyada vicdanın təmizliyindən
Yumuşaq bir döşək də tanımıram mən ...
Qurtaram ömrümün son çağlarında
Xoşbəxt o şəxsdir ki, yoxdur bir ləkə
Ömür kitabının varaqlarında
Ölkənin danlağı xoşdur min kərə
Vicdan danlağından, öz danlağından

**Məqalənin aktuallığı**: Qloballaşma və informasiya bolluğu şəraitində gənc nəslin mənəvi dəyərlərlə, xüsusilə də ləyaqət prinsipi ilə tərbiyə olunması daha da aktual məsələyə çevrilmişdir. Bu baxımdan milli-mənəvi dəyərlərə əsaslanan ləyaqət tərbiyəsinin araşdırılması, klassik pedaqoqların və ədəbiyyat xadimlərinin bu mövzudakı fikirlərinə əsaslanaraq müasir tərbiyə sisteminə tətbiqi zəruridir.

Məqalənin aktuallığı həm də ailə və məktəb arasında qarşılıqlı əməkdaşlıq fonunda ləyaqətli vətəndaş tərbiyəsinin təmin olunması yollarının göstərilməsi ilə şərtlənir.

**Məqalənin elmi yeniliyi:** Klassik pedaqoqların və ədəbiyyatşünasların əsərlərinə istinad etməklə ləyaqət tərbiyəsinin milli-mənəvi kontekstdə təhlili aparılmış, bu anlayışın ailə və məktəb mühitində formalaşdırılması yolları göstərilmişdir.

**Məqalənin nəzəri və praktik əhəmiyyəti:** Xalq pedaqogikasına əsaslanaraq praktik təkliflər irəli sürülmüş, ailə-məktəb əməkdaşlığının bu sahədə əhəmiyyəti vurğulanmışdır. Tədqiqat nəticəsində ləyaqət tərbiyəsinin müasir təlim-tərbiyə sisteminə inteqrasiyasına dair tövsiyələr verilmişdir.

### Ədəbiyyat

1. Abbasova Q. Etika tarix nəzəriyyə və təcrübə. -Bakı: Azəri, - 2016.- 368 s.
2. Axundov M.F Seçilmiş əsərləri. 3 cilddə Bakı,
3. Bakıxanov A.A. Seçilmiş əsərləri. -Bakı: Yazıçı, -1989.- 467 s.
4. Gəncəli N. Zərdüşt peygəmbər. -Bakı: Azərnəşr, -1994. - 210 s
5. Rüstəmov İ. Həsən bəy Zərdabi. -Bakı: Turan, -2012. -157 s.
6. Sabir M.Ə. Hophopnamə. -Bakı: Təhsil, -1980. -552 s.
7. Sədi Şirazi Gülüstan. -Bakı: Azərnəşr, -1987. -284 s.
8. Sidqi M.T. Əsərləri. -Bakı: Çaşıoğlu, -2004. -52 s..
9. Şirvani S. Ə. əsərləri II cild. -Bakı: Azərnəşr, -1950. -367 s.
10. Tusi N. Əxlaqi Nasir. Bakı: Elm, -1989. -242 s
11. Vahabzadə B. Etiraf, Şəbi-hicran. -Bakı: Uşaqgəncnəşr, -1962. -187 s.
12. Vəzirov N.B. Seçilmiş əsərləri. -Bakı: Azərnəşr, -1997. –304 s.
13. История Азербайджанской философии. Т. 30, Баку: - 2008 - 640 s

**Redaksiyaya daxil olub:** 04.04.2025

***FƏLSƏFƏNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЛОСОФИИ***
***METHODOLOGY OF TEACHING PHILOSOPHY***

*UOT 1(072.8).*

***Mədinə Əlişirvan qızı Ağayeva***
*Bakı Dövlət Universitetinin müəllimi*
*https://orcid.org /0009-0005-3071-9379*
*E-mail:medine.agayeva70@mail.ru.*
*https://doi.org/10.69682/arti.2025.92(2).130-136*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ FƏLSƏFƏNİN TƏDRİSİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Медина Алиширван гызы Агаева***
*преподаватель Бакинского Государственного Университета*

# МЕТОДОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРЕПОДАВАНИЯ ФИЛОСОФИИ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Madına Alıshırvan Aghayeva***
*teacher at Baku State University*

# METHODOLOGICAL FEATURES OF TEACHING PHILOSOPHY IN HIGHER EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Bu məqalədə müasir şəraitdə ali təhsilin səviyyəsinin yüksəldilməsi zərurətindən irəli gələn fəlsəfi-pedaqoji metodologiya və metodların əsas problemlərini başa düşməkdən ibarətdir ki, bu da mədəniyyətin və fəlsəfənin ardıcıl tarixi tiplərinə nəzər saldıqda onların hər birinin fəlsəfənin müəyyən üsullarına uyğun gəldiyi aydın olur.. Məqalədə Azərbaycan Respublikasının universitetlərində fəlsəfənin tədrisinin bəzi xüsusiyyətləri araşdırılır. Bu fənnin tədrisinin ən çətin və mühüm mərhələlərindən biri tələbələrin fəlsəfi elmin əsas anlayışları (“fəlsəfə”, “metafizika”) ilə tanış olması, fəlsəfi əsərlərin tələbələr tərəfindən müstəqil öyrənilməsi üçün vacib olan terminlərin mənalarının aydınlaşdırılması hesab olunur. Müasir fəlsəfə müəllimi obrazı məsələsi də bir sıra ictimai müzakirələrdə yer alır. Hər şeydən əvvəl, bu, fəlsəfənin bir peşə və ya bir çağırış olduğunu anlamaqla bağlıdır. Reallıqda nə baş verir? Materialı mükəmməl bilən bir insanın auditoriyanı "alovlandırmaq" və onlara çoxəsrlik fəlsəfi bilik ənənəsini açmaq imkanı həmişə olmur. Müəllim, mən buna əminəm, natiq, müəllim və sənətkar keyfiyyətlərini özündə birləşdirməlidir. Azərbaycan Respublikasında aparılan təhsil islahatları sosial və humanitar fənlərin yenidən qiymətləndirilməsi və onların ali təhsilin tədris prosesində statusu haqqında danışmağa imkan verir ki, humanitar fənlərin tədrisi saatlarının sayının azalması və sosial və humanitar fənlərin bu fənlərə necə qayıtması ilə bağlı seçmə kursların çıxarılması mövcud tendensiyaların göstəricisi hesab edilə bilər.
***Açar sözlər:*** *fəlsəfə, ali məktəb, təhsil islahatları, metafizika, tədris prosesi*

**Аннотация.** Целью данной статьи является понимание основных проблем философско-педагогических методологий и методов, вытекающих из необходимости повышения уровня высшего образования в современных условиях, что при рассмотрении сменяющих друг друга исторических типов культуры и философии позволяет понять, что каждому из них соответствуют определенные методы философии. В статье рассматриваются некоторые особенности преподавания философии в вузах Азербайджанской Республики. Одним из наиболее сложных и важных этапов преподавания данного предмета является ознакомление студентов с основными понятиями философской науки («философия», «метафизика») и разъяснение значений терминов, важных для самостоятельного изучения студентами философских произведений. Вопрос об имидже современного преподавателя философии также является предметом публичных дискуссий. Прежде всего, речь идет о понимании

того, является ли философия профессией или призванием. Что же происходит на самом деле? Человек, в совершенстве владеющий материалом, не всегда имеет возможность «зажечь» аудиторию и открыть ей многовековую традицию философского знания. Учитель, я в этом убежден, должен сочетать в себе качества оратора, педагога и художника. Образовательные реформы, проводимые в Азербайджанской Республике, позволяют говорить о переоценке социально-гуманитарных предметов и их статуса в образовательном процессе высшей школы, а сокращение количества учебных часов гуманитарных предметов и отмена факультативных курсов, связанных с возвращением социально-гуманитарных предметов в эти предметы, можно считать показателем современных тенденций.

***Ключевые слова:*** *философия, высшая школа, образовательные реформы, метафизика, образовательный процесс*

**Abstract.** This article aims to understand the main problems of philosophical and pedagogical methodologies and methods arising from the need to improve the level of higher education in modern conditions, which, when considering the successive historical types of culture and philosophy, it becomes clear that each of them corresponds to certain methods of philosophy. The article examines some features of teaching philosophy in universities of the Republic of Azerbaijan. One of the most difficult and important stages of teaching this subject is considered to be the familiarization of students with the basic concepts of philosophical science (“philosophy”, “metaphysics”), the clarification of the meanings of terms that are important for independent study of philosophical works by students. The issue of the image of a modern philosophy teacher is also included in a number of public discussions. First of all, this is due to the understanding that philosophy is a profession or a calling. What happens in reality? A person who knows the material perfectly does not always have the opportunity to “ignite” the audience and open up to them the centuries-old tradition of philosophical knowledge. The teacher, I am sure of this, must combine the qualities of a speaker, teacher and artist. The educational reforms carried out in the Republic of Azerbaijan allow us to talk about the reassessment of social and humanitarian subjects and their status in the educational process of higher education, so that the reduction in the number of teaching hours of humanitarian subjects and the removal of elective courses related to how social and humanitarian subjects return to these subjects can be considered an indicator of current trends

***Keywords:*** *philosophy, high school, educational reforms, metaphysics, educational process*

**Giriş.** Universitetlərdə fəlsəfənin tədrisi sənəti mənaca iki əsas səbəbə görə aktual görünür: birincisi, fəlsəfənin öyrənilən fənlər arasında yeri məsələsi getdikcə təkcə tələbələr tərəfindən deyil, həm də əsas olmayan fənlərin müəllimləri tərəfindən skeptisizmə məruz qalır, ikincisi, səriştə əsaslı yanaşma müasirdir; Əsas ideya: fəlsəfənin pedaqogika ilə əlaqəsi ideoloji xarakter daşıyır ki, bu da ali məktəbdə fəlsəfənin tədrisi metodikasının və metodlarının spesifikliyini müəyyən edir. Müasir dövr həm ölkələr arasında, həm də müxtəlif sosial qruplar və fərdlər arasında ünsiyyətdə dialoqun rolunun artması ilə xarakterizə olunur. Həyatın bütün səviyyələrdə demokratikləşməsi fərdi rəqibi və ya bütöv bir auditoriyanı inandırmaq və başa düşmək üçün ünsiyyət tərzində dəyişiklik tələb edir. İnsanlarla daimi ünsiyyət və qarşılıqlı anlaşmaya nail olmaq bacarığı tələb edən bir sıra peşələr var. Buna görə də təhsil müəssisələrində tədris üslubunun özünün belə sənət nümunələrini təqdim etməsi vacibdir və burada fəlsəfəni çox qiymətləndirmək çətindir.

**Metod, tədqiqat və nəticələr.** Fəlsəfə müəllimi işində müxtəlif çətinliklərlə üzləşir. Əsas odur ki, fəlsəfə yalnız universitetlərin fəlsəfi fakültələrində əsas fəndir, bu fənnin tədrisi ən yaxşı halda tədris ilinin iki semestrinə ayrılır. Fəlsəfənin öyrənilməsində mühüm mərhələ "fəlsəfə" anlayışının özünün nəzərdən keçirilməsidir. Belə ki, fəlsəfi biliklər öz elmi və akademik fənlərini özündə birləşdirirdi, bunlar "müdriklər (sophos)" adlanırdı, lakin Pifaqora görə, yalnız tanrılar müdrik ola bilər, insanlar isə yalnız "müdriklik həvəskarları"dır [1, s. 148]. Fəlsəfi biliklərin məzmunu müxtəlif tarixi dövrlərdə dəyişmişdir. Konfutsi (e.ə. 552-479) fəlsəfəni yalnız etik bilik, əxlaq qanunları kimi müəyyən etmişdir. Erkən Yunan fəlsəfəsi (e.ə. 6-5-ci əsrlər) Aristotel (e.ə. 384-322) adlı kitabında fəlsəfənin mövzusunu varlığın başlanğıcı və səbəbi kimi müəyyən etmişdir [2, s. 67], fəlsəfə (19–20-ci əsrlər), ekzistensializm (XX əsr) – varlıq, insanın mahiyyəti; Amerika praqmatizm fəlsəfəsi (19-20-ci əsrlər) – fəaliyyət, sağlam düşüncəni ifadə edir. Fəlsəfənin tədrisində başqa bir çətinlik fəlsəfi terminlərin çoxmənalı olmasıdır, çün-

ki müasir fəlsəfi aparat uzun müddət ərzində formalaşmışdır ki, tələbələr fəlsəfi əsərləri düzgün başa düşə bilsinlər. Məsələn, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Fəlsəfə" mövzusunda proqramına daxil edilmiş qədim Çin və Qədim Hindistan fəlsəfəsini götürək. Qədim Çin fəlsəfi əsərlərində ən mühüm anlayış "dao"dur (hərfi mənada Çin dilindən "yol"). "Şi Cinq"də (e.ə. XI əsr) "Dao" o uzaq dövrlərdə cəmiyyət və təbiət üçün eyni olan əxlaqi və kosmik qanunu nəzərdə tuturdu.Konfutsinin "Lun Yu" ("Söhbətlər və deyimlər") kitabında "Tao" "qarşılıqlılıq" (insanlara qayğı), "qızıl orta" (insanların davranışında təmkinsizlik və ehtiyatlılıq arasında orta nöqtə), "xeyriyyəçilik" (valideynlərə hörmət və böyük qardaşlara hörmət) mənalarını ifadə edir [3-5, s. 139–174].

Lao Tzunun (e.ə. 6-5-ci əsrlər) "Daodejing" ("Daode kitabı") əsərindəki "Dao" bir neçə məna daşıyır: mövcud olan hər şeyin mənşəyi, hər şeyin mahiyyəti, əxlaq qanunudur. [4, s. 114–138]. Qədim hind mətnlərində tələbələr "Brahman" polisemantik termini ilə qarşılaşırlar və onun aşağıdakı fəlsəfi mənalarını bilməlidirlər: "qədim Tanrı, keşiş, müqəddəs söz, tapmacalarla danış, böyüyür, güclü ol, var olan və olmayan hər şeyin mənşəyi, dünyanın əsasları" [5, s. 156]. Fəlsəfə tarixinin öyrənilməsi zamanı eramızdan əvvəl 1-ci əsrdə ortaya çıxan "metafizika" (qədim yunanca: "fizikadan sonra") anlayışı tələbələr üçün müəyyən çətinliklər yaradır, qrammatik Rodoslu Aristotelin tapılmış əlyazmalarını tədqiq edərək, onları aşağıdakı kateqoriyalara ayırır: politika, etika, bistrofizika. Məzmunu ona aydın olmayan eyni əlyazmaları o, fizikadan sonra yerləşdirdi. Müəllifin fəlsəfə tədrisi təcrübəsindən belə çıxır ki, Aristotelin fəlsəfəsinə həsr olunmuş dərslərdə "metafizika" haqqında ətraflı danışmaq və bu terminin bütün mümkün mənalarını nəzərdən keçirmək lazımdır. "Fizikadan sonra", "metafizika" Aristotelin özünün "birinci fəlsəfə" (yəni varlığın başlanğıcı və səbəbi) adlandırdığı fəlsəfəni ifadə edir. e.ə e. günümüzə qədər onun əsas fəlsəfi mənası "varlığın fövqəltəcrübi prinsipləri və qanunları haqqında" [6, s. 541] varlığın özünüinkişafını inkar edən "metafizik təfəkkür"ü də əlavə edə bilərik. Filosofların demək olar ki, bütün əsərlərində metafizik təlim var, Məsələn, Platonun "metafizikası" idrak üsuludur, İntibah dövrü filosoflarının "elmlər kraliçası", İ. Kantın sırf ağıldan qaynaqlanan sistemli biliyi isə ilk olaraq "metafizika" ilə ziddiyyət təşkil edir. Ali təhsil müəssisələrində fəlsəfənin tədrisinin ən mühüm vəzifəsi tədris prosesi çoxlu tədris vəsaitləri və ensiklopediyalarla təmin olunsa da, fəlsəfi biliklərin əsasını təşkil edən fəlsəfi əsərlərin mənasını tələbələrə müstəqil şəkildə dərk etməyi öyrətməkdən ibarətdir. Tələbələrə orijinal əsərlər üzərində qeydlər aparmağı tövsiyə etmək lazımdır ki, bu da fəlsəfi ilkin mənbələrin əsas və ikinci dərəcəli mövzularını müəyyənləşdirməyə kömək edir.

Burada tələbələrin müstəqil işinə, onların öz-özünə təhsil almasına diqqət yetirmək yerinə düşərdi ki, Bakı Dövlət Universitetinin fəlsəfə müəllimləri bildirirlər ki, keyfiyyətli təhsil "yalnız özünütəhsillə – insanın bilik, bacarıq və bacarıqları əldə etmək və möhkəmləndirmək üçün müstəqil, sistemli işi ilə mümkündür. Tələbələrin belə daimi müstəqil işi olmadan onların səmərəli və keyfiyyətli təhsil alması mümkün deyil" [7, s. 68].

Qeyd etmək lazımdır ki, tələbələrin özünütəhsil qabiliyyəti artıq məktəbdə olan müəllimlər tərəfindən inkişaf etdirilir və müəllifin fəlsəfə üzrə məktəblilər üçün olimpiadada Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının qəbul komissiyasında işləməsi, əsasən, abituriyentlərin universitetin humanitar fakültələrinə qəbul üçün yaxşı hazırlığından xəbər verir. [8]

Bəlkə də məktəblərdə fəlsəfi biliklərə daha çox diqqət yetirilməlidir. Məlum olduğu kimi, hazırda fəlsəfə siyasət, iqtisadiyyat və sosiologiya ilə yanaşı, məktəb "İctimai elm" fənninin bir hissəsidir. Hələ 19-cu əsrdə görkəmli alman filosofu G.V.F. Hegel fəlsəfənin gimnaziyalarda öyrənilməsini zəruri hesab etmişdir. Azərbayvan universitetlərinin fəlsəfə fakültələrində fəlsəfənin tədrisi məntiq, ontologiya, bilik nəzəriyyəsi, sosial fəlsəfə, elmin fəlsəfəsi və metodologiyası, xarici fəlsəfə tarixi, Azərbaycan fəlsəfəsi, fəlsəfə tarixi, fəlsəfi elmlər fənləri üzrə dərslərdə fəlsəfi biliklərin bütün spektrini əhatə edir Digər universitet fakültələrində fəlsəfə iki semestr ərzində öyrənilir. Kurikulum tarix, nəzəriyyə və dünya fəlsəfəsinin "Şərq fəlsəfəsi", "Antik dövr və orta əsrlər", "Müasir dövr", "Klassik Alman fəlsəfəsi" və "XIX və 20-ci əsrlərin Avropa fəlsəfəsi" kimi əsas bölmələrinə girişdən ibarətdir [9]. Nəzəri

materiala varlıq, bilik, dünya, insan və cəmiyyət haqqında fəlsəfi təlimlər daxildir.

Qeyd etmək lazımdır ki, fəlsəfənin tədrisi zamanı fakültənin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bakı Dövlət Universitetinin müxtəlif fakültələrində fəlsəfə tədrisi ilə bağlı çoxillik təcrübəsi ona belə qənaətə gəlməyə kömək etmişdir ki, məsələn, jurnalistika fakültəsinin tələbələri fəlsəfi dilin tarixi, onların tarixi mənaları və fəlsəfə anlayışı ilə daha çox maraqlanırlar. Bu da ondan irəli gəlir ki, jurnalistlər öz peşə fəaliyyətlərində "söz"dən istifadə edərək onun mənasına, əhəmiyyətinə daim diqqət yetirirlər. Bu, vahid müasir media sənayesinin bütün əsas seqmentlərinə aiddir: qəzetlər, jurnallar, radio, televiziya, internet mediası, xəbər agentlikləri, reklam biznesləri və ictimaiyyətlə əlaqələr sisteminin strukturuna. Universitetlərin filologiya kafedralarında fəlsəfənin tədrisi fəlsəfi əsərlərə daha çox diqqət yetirməyi tələb edir. Bu məqalənin müəllifi filologiya fakültəsinin xarici bölməsinin magistrantları üçün "Fəlsəfə" fənnindən mühazirə kursu üçün proqram hazırlamış, bu mühazirə kursunun əsas məqsəd, vəzifələri və məzmununu müəyyən etmişdir [11, s. 3–5]. Qeyd etmək lazımdır ki, filologiya və fəlsəfə qədim dövrlərdən bəri bir-biri ilə sıx bağlı olan iki humanitar elmdir. Onlar əllərində olan vasitələrdən, bədii yaradıcılıq dilindən istifadə edərək humanitar və fəlsəfi biliklərə mühüm töhfələr vermişlər. Universitetdə fəlsəfənin tədrisini şərti olaraq iki vektora bölmək olar, onların hər birinin öz tərəfdarları və əleyhdarları var. Birincisi, fəlsəfi mətnlərin, anlayışların və anlayışların təriflərinin ətraflı təhlili ilə müşayiət olunan fəlsəfə tarixinin tədrisi kursudur ki, bu fənnin bütün sahələrini (ontologiya, qnoseologiya, etika və s.) araşdırır. Bu yanaşmanın tərəfdarları hesab edirlər ki, tədrisin tarixi-fəlsəfi kursu tələbələr arasında böyük maraq doğurur, çünki o, mədəniyyət, siyasət və iqtisadiyyat tarixi ilə bağlı geniş fənlərarası məsələləri əhatə edir, bu, fəlsəfi biliklərin gələcək mütəxəssislərin hazırlanmasının mövzu sahəsinə uyğunlaşmasına kömək edir [11]. Başqa bir fikir: fəlsəfə tarixinin tədrisi sahəsində çoxlu yaxşı mütəxəssislər var, fəlsəfi kontekstin tarixi kətanından uzaqlaşmaq isə fəlsəfə ilə heç bir əlaqəsi olmayan "ad hoc"a gətirib çıxarır. Bu tədris strategiyasının mənfi tərəfi, məncə, fəlsəfə tarixini fəlsəfənin özü ilə əvəz etməsidir ki, bu da tələbələrdə tənqidi təfəkkürün inkişafına yönəlib. İkinci istiqamət yaradıcı akt kimi çıxış edən sərbəst düşüncə ideyası ilə səciyyələnir, burada müəllim təkcə mühazirəçi deyil, həm də fəlsəfi diskurs çərçivəsində həllini tələb edən suallar verən müzakirələrin fəal iştirakçısıdır. Hər bir sual elə qoyulmalıdır ki, ona verilən cavab tələbələrin qarşısında yeni suallar doğursun ki, bu da tənqidi təfəkkürün inkişafına kömək etsin. Bu yanaşmanın tərəfdarı kimi onun əsas vəzifəsini - tələbəni təlim prosesində "aşkar etmək", ona müzakirə məsələlərində özünü ifadə etməyə kömək etmək, müxtəlif həyat vəziyyətləri üzərində düşünməyə kömək etməyi vacib hesab edirəm.

Bu vəzifə bir sıra səbəblərə görə olduqca çətin görünür. Onlardan bir neçəsinin adını çəkəcəm, ilk növbədə, son yeniliklərdən biri də tədris prosesinə ballı reytinq sisteminin tətbiqi ilə bağlıdır ki, bu da şagirdlər arasında yekun qiymətə təsir edən bal toplamaq üçün rəqabət yaradır. Nəticə arxasınca tələbələr müzakirə meydanından kənarda qalırlar, öz fikirlərini ifadə edə bilmirlər və hesabat təqdim etmək imkanı əldə edə bilmirlər. Bu vəziyyət ona gətirib çıxarır ki, ən bacarıqlı tələbələr imtahan üçün ən çox bal toplayırlar və bu, müəllimin qarşısında başqa bir vəzifə qoyur – proqramda nəzərdə tutulmuş mövzuların bütün həcminə mühazirə saatlarının bölüşdürülməsi, üçüncüsü, kompüter texnologiyalarının köməyi ilə ev tapşırığının distant tədrisinin tətbiqi, hətta fərdi suallara cavab verməkdir. [12]

Təqdim olunan hər iki istiqamətin ümumi prinsiplərini tapmaq mümkündür, bu, hər biri müəllifin "izini" və fənni tədris etmək üçün şəxsi baxışını, habelə fəlsəfəni insan varlığının ayrılmaz hissəsi kimi yerləşdirmək istəyini daşıyan fəlsəfə tarixinə dair dərsliklərdən uzaqlaşma meylidir, insan və dünya arasındakı qarşılıqlı əlaqədədir. Bolonia prosesi kontekstində rus təhsilinin modernləşdirilməsi Azərbaycan təhsilini Avropa təhsil standartları sisteminə inteqrasiya etmək məqsədi daşıyır. Azərbaycanda təhsil müəssisələrinin qarşısında duran problemli məsələlərdən biri təhsilin keyfiyyətinin müasir əmək bazarının tələblərinə uyğunluğudur. Tədris prosesinin əmək bazarının tələblərinin ödənilməsinə yönəlmiş proqramların formalaşdırılması istiqamətində yenidən istiqamətləndirilməsi səriştə əsaslı yanaşma adlandırılan yanaşmanın yaranmasına səbəb olmuşdur. Təsadüfi deyil

ki, kompetensiya yanaşmasında fəlsəfənin yeri və rolu məsələsi ciddi təhlil tələb edir. Başlamaq üçün, səriştənin nə olduğunu və onun təhsil prosesində rolunun nə olduğunu aydın şəkildə müəyyən etmək lazımdır ki, Avropa təhsil sistemi üçün aşağıdakı tərif xarakterikdir: "...səriştələrin dili ilə ifadə olunan təhsilin nəticələri... diplomların və ixtisasların müqayisəliliyini və uyğunluğunu artırmağın bir yoludur" Təhsil paradiqmasının dəyişməsi tələbələrin praktiki hazırlığının rolunun artmasına səbəb olmuş və nəticədə sosial və humanitar fənlərin tədrisinin azaldılması hesabına ixtisas fənləri üzrə saatların artırılmasına keçid olmuşdur. Universitet fənlərinin iyerarxiyası onların praktik tətbiqi funksiyasına görə qurulur və buna görə də nəzəri bilik kimi fəlsəfə qeyri-humanitar cəmiyyətin nümayəndələri üçün əhəmiyyətli bir mövzu kimi görünmür. Bunda fəlsəfənin ideoloji funksiyasını itirməsi mühüm rol oynadı. "Təhsil vurğusu" tələbəni müəyyən bir bilik sahəsinə hazırlamaq, dar məqsədli ixtisasa yiyələnmək məqsədi daşıyır. Lakin insan robot deyil, öz işini mexaniki şəkildə yerinə yetirir. İntizam yanaşması, cari tətbiqi problemlərin həllində məzunun əldə edilmiş biliklərdən kənara çıxmaq qabiliyyətini inkişaf etdirmək vəzifəsini qoymur, fikrimcə, belə bir yanaşma Azərbaycanda uzun illərdir ənənəvi olaraq istifadə olunan təhsilə fənlərarası yanaşmadan bir çox cəhətdən aşağıdır, çünki bu yanaşma, fəaliyyətin müxtəlifliyini və qərar qəbul etmək üsullarının dəyişkənliyini nəzərdə tutur. Qeyri-fəlsəfi fənlərin bir çox müəllimləri heç bir şübhəsiz bu ifadə ilə razılaşırlar. Bu, başqa bir sual doğurur: "Hər bir müəllim fəlsəfə müəllimi ola bilərmi?" Təəssüf ki, qeyri-fəlsəfi ictimaiyyətin nümayəndələri üçün də müsbət cavab göz qabağındadır. Məsələn, etika və tətbiqi etika, elm və texnologiya fəlsəfəsi, din fəlsəfəsi və dinşünaslıq elmi ixtisasların pasportuna görə fəlsəfi fənlər kimi təsnif edilir. Bəs reallıqda nə baş verir? Bu kurslar müəllimlər, psixoloqlar, həkimlər və s., yəni fəlsəfi fənlər müəllimi olmayan mütəxəssislər tərəfindən tədris olunur. Bu, çox vaxt peşəkar müəllim cəmiyyətində anlaşılmazlıqlara səbəb olur. Oxşar vəziyyət ən yaxşı halda iki bloka bölünən, elm tarixini konkret elmi istiqamətin nümayəndəsi, elm fəlsəfəsini isə fəlsəfi ictimaiyyətin nümayəndəsinin tədris etdiyi "Elm tarixi və fəlsəfəsi" fənni üçün xarakterikdir. Amma bu mənzərə də dəyişir və getdikcə daha tez-tez qeyd etmək lazımdır ki, kurs tamamilə fəlsəfi profili olmayan müəllimlərə verilir. Oxşar vəziyyət mədəniyyətşünaslar, tarixçilər və zəmanəmiz üçün səciyyəvi olan dindarlar tərəfindən də tədris olunan dinşünaslıq fənlərinin tədrisində də müşahidə olunur. Müasir fəlsəfə müəllimi obrazı məsələsi də bir sıra ictimai müzakirələrdə yer alır. Hər şeydən əvvəl, bu, fəlsəfənin bir peşə və ya bir çağırış olduğunu anlamaqla bağlıdır. Reallıqda nə baş verir? Materialı mükəmməl bilən bir insanın auditoriyanı "alovlandırmaq" və onlara çoxəsrlik fəlsəfi bilik ənənəsini açmaq imkanı həmişə olmur. Müəllim, mən buna əminəm, natiq, müəllim və sənətkar keyfiyyətlərini özündə birləşdirməlidir. Yenilikçi müəllim S. Kazarnovskinin müəllim peşəsinin (həmçinin təlimatçı kimi) aktyorluq peşəsinə bənzəməsi fikri məni heyran etdi. Əgər müəllim diqqətini mühazirəsinə cəmləməyi bacarırsa, onu maraqlı edirsə, o zaman təklif olunan material tələbə üçün gəzinti materialı olaraq qalmayacaq. Əks halda, onun işi heç bir fayda verməyəcək. Bu gün populyar elmi ədəbiyyatda gələcəyin təhsili ilə bağlı futuristik müzakirələrə getdikcə daha çox rast gəlmək olar. Məsələn, amerikalı fizik M.Kaku "Gələcəyin fizikası" və "Ağlın gələcəyi" (Kaku, 2017ab) əsərlərində gələcəkdə robototexnikanın inkişafı ilə əlaqədar olaraq, bütün peşələrin əmək bazarında iddiasız qalacaq. Ənənəvi kompüterlər daha sonra linzalar vasitəsilə gözün tor qişasına məlumat ötürməklə internetlə əlaqə saxlayan eynəklərə çevrilir. Kompüterin hərəkətləri uzaqdan idarə olunacaq, bu, alimin fikrincə, gələcək insanı faydasız biliklərdən azad edəcək və təhsil onlayn sistemlər vasitəsilə özünütəhsil müstəvisində inkişaf edəcək. Boş qalan vaxtdan tədris prosesi üçün istifadə oluna bilər. Gələcəyin insanının formalaşmasında fəlsəfənin yeri nədir? Gələcəkdə, M. Kakunun iddia etdiyi kimi, "faydalı sağlam düşüncəni" praktikada tətbiq etməyi bacaranlara əmək bazarında tələbat yaranacaq. Bunlar elm, incəsənət və proqramçıların nümayəndələridir, yəni fəaliyyəti yaradıcı təfəkkürlə bağlı olanların hamısıdır. Amma yaxın gələcəkdə fəlsəfənin tədrisini nəzərə alsaq, onda onun inkişaf vektorunu müasir təhsil qarşısında qoyulan vəzifələr kontekstində müəyyən etməliyik.

Bacarıqlara əsaslanan yanaşmaya qayıdaraq, hazırda aktual olan bəzi vəzifələri qeyd edə

bilərik. Beləliklə, fəlsəfə kursu çərçivəsində konkret təlim profilli tələbələr üçün praktiki əhəmiyyət kəsb edən məsələləri nəzərdən keçirmək məqsədəuyğun olardı. Beləliklə, iki vəzifə həll olunur: ixtisaslaşdırılmış təlim sahəsində yeni biliklərin əldə edilməsi və bioloqların əsərlərində qaldırılan problemlərin fəlsəfi müzakirəsi, bu da fəlsəfənin artıq bakalavr səviyyəsində tələbələrin ixtisas təhsilinə inteqrasiyasına gətirib çıxarır.

Materialın təqdimatında dəyişkənlik məsələsini qaldırsam, orijinal olmayacağam. Həyat bizim qarşımıza yeni suallar qoyur, onların aktuallığı fəlsəfə tarixinin tədrisindən kənara çıxır və buna görə də müasirlik problemlərinin refleksli şəkildə dərk edilməsi də praktiki həyata keçirilməsini tələb edir. Fəlsəfi və pedaqoji kurs elə qurulmalıdır ki, tələbənin düşüncə tərzini və onun gündəlik düşüncədən fəlsəfi mülahizələrə keçid qabiliyyətini asanlaşdırsın. Bu, o halda mümkündür ki, müəllim materialın problemli təqdimatında şagirdlərə onları həll yolunu axtarmağa sövq edən suallar verir və bu zaman öz növbəsində mübahisəli xarakterli yeni fəlsəfi suallar yaranır.

**Nəticə**

Ali təhsil müəssisələrində fəlsəfə məşğələlərinin keçirilməsinin əsas formalarına aşağıdakılar daxildir: seminar planının məsələləri üzrə tələbələrin şifahi sorğusu, planın məsələləri üzrə geniş sərbəst müzakirə, tələbələrin sonrakı müzakirələrlə şifahi məruzələri, kollokviumlar. Fəlsəfənin keçirilməsinə hazırlıq bir sıra mərhələləri əhatə edir: seminarın planının tərtib edilməsi, seminarın keçirilməsi formatının seçilməsi, tələbələr üçün məsləhətlərin aparılması, onların əsas və əlavə ədəbiyyatla təmin edilməsi. Hazırlıq prosesində mühüm məqam müəllimlər tərəfindən seminar dərsinin müfəssəl plan-konspektinin, o cümlədən seminarın məqsəd və vəzifələrini, tədqiq olunan problemin kateqoriyalı aparatını, seminarın hər bir sualının əsas müddəalarının qısa təqdimatını, auditoriya üçün əlavə sualların və yekun sözün tərtib edilməsidir. Magistratura proqramında fəlsəfəyə böyük önəm verilir. Magistr tədqiqatçı kimi göründüyü üçün bu səviyyədə tədrisə müzakirə üsulları daxil edilir. Mühazirələr və seminarlar arasında dəqiq sərhədlər yoxdur və buna görə də dərslər zamanı aspirantlar onları maraqlandıran suallarla müəllimlə müzakirələr aparır, tez-tez oxu dərsləri keçirilir, bu dərslərdə müəllim mətni oxuyur, tələbələrə izah edir. Tələbələri maraqlandıran suallar müzakirəyə çıxarılır. Fəlsəfənin probleminə dair fəlsəfi və psixoloji-pedaqoji ədəbiyyatın nəzəri tədqiqi bu problemin aktual olduğunu və əlavə nəzəri anlayış tələb etdiyini müəyyən etməyə imkan verdi

**Problemin aktuallığı.** Ali təhsil müəssisələrində fəlsəfənin tədrisi problemlərinə, fəlsəfənin müasir cəmiyyətdə və təhsil sistemində rolunun dərk edilməsinə həsr olunmuşdur ki, fəlsəfənin kurikulumun əsas hissəsinin məcburi bir fənni kimi olmasına baxmayaraq, bu fəlsəfənin tədrisi ilə bağlı yeni yanaşmalar nəzərə alınmaqla, onun tədrisində vahid metodun mövcud olmadığını qeyd etmək olar.

**Problemin yeniliyi**. Fəlsəfənin pedaqogika ilə əlaqəsi ideoloji xarakter daşıyır ki, bu da ali məktəbdə fəlsəfənin tədrisi metodikasının və metodlarının spesifikliyini müəyyən edir. Müasir dövr həm ölkələr arasında, həm də müxtəlif sosial qruplar və fərdlər arasında ünsiyyətdə dialoqun artan rolu ilə xarakterizə olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ali təhsil müəssisələrinin tələbələri, aspirantları və müəllimləri, sosial-mədəni və fəlsəfi-pedaqoji diskursların tarixi və müasir problemləri ilə maraqlanan hər kəs üçün faydalı ola bilər.

**Ədəbiyyat**


1. Avanesov, S.S. Universitet təhsili sistemində fəlsəfənin vəziyyəti // Fəlsəfə təhsili: Fəlsəfə fakültələri və kafedraları birliyinin bülleteni. Məsələ 2. (Metodik qeydlər. Məsələ 6) M.; Sankt-Peterburq, 2011.S.94-100.
2. Andreychuk, N.V. Universitet təhsili və tənqidi düşüncə // İmmanuel Kant Baltik Federal Universitetinin bülleteni. I. Kant. Məsələ 6: Ser. Humanitar elmlər. Kalininqrad: BFU nəşriyyatı im. İ. Kanta, 2011.S.42-50.
3. Andreychuk I.V. Kursun materialları: "Fəlsəfənin tədrisi metodikası". Kalininqrad: KSU nəşriyyatı, 2003. - 69 s.
4. Karelin, V.M., Kuznetsova, N.I və Griftsova, I.N. (2017) "Fəlsəfə" bir dərslik kursu: konsepsiyanın dəyişdirilməsi. Rusiyada ali təhsil, lakin. 10, s. 64–74. (Rus dilində). s.108-120
5. Qusev, D.A. Fəlsəfənin tədrisində skeptisizmin rolu və əhəmiyyəti // Fəlsəfə sualları, 2007, № 2. S.139–174
6. Mikeshin, M.I. (2010) Amerika texniki universitetlərində zəruri təhsil proqramları üçün əsaslandırma. Mədən İnstitutunun qeydləri, cild. 187, s. 190–194. (Rus dilində).

7. Rozov, M.A. (2010) Fəlsəfədən qar adamı (Rusiyada ali təhsilin qeydləri, № 8).I, s. 20-29 (In Ross.).
8. Eremeeva, AI&Tsitsin, FA2013, Astronomiyanın Tarixi və Metodologiyası, I hissə, Moskva, (rus dilində) s.165-170
9. Doliner L.I. Təhsilin informasiyalaşdırılması kontekstində universitet tələbələrinin hazırlanmasında adaptiv metodik sistemlər. Ekaterinburq, Ural nəşriyyatı. Universitet, 2004. – 49 s.
10. Karelin, V.M., Kuznetsova, N.I və Griftsova, I.N. (2017) «Filosofiya» kakuchebnyikurs: konsepsiyanın dəyişdirilməsi. Rusiyada ali təhsil, №. 10, s .64–74. (Rus dilində).
11. Mikeshin, M.I. (2010) Amerika texniki universitetlərində zəruri təhsil proqramları üçün əsaslandırma. Mədən İnstitutunun qeydləri, cild.187, səh.190–194.(Rus dilində).
12. Nikiforov, A.L. (2011) Fundamental Elm Ölürmü? In: Gələcək fundamental elmlər: problemlərin konseptual, fəlsəfi və sosial aspektləri /red. A. A. Krushanov və E. A. Mam% chur. Moskva, KRASAND. 288 s. (Rus dilində).

**Redaksiyaya daxil olub:** 07.04.2025.

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ***
***METHODOLOGY OF TEACHING MATHEMATICS***

*UOT 372.851*

***Rasim Yusif oğlu Şükürov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0002-9344-5422*
*E-mail : camaskerova@gmail.com*

***Cəmilə Vasif qızı Əsgərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0005-2874-5690*
*E-mail:rasimshukurov53@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).137-141*

# İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ MODUL TƏLİM TEXNOLOGİYASINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ

***Расим Юсиф оглы Шукюров***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

***Джамиля Васиф гызы Аскерова***
*Азербайджанский Государственный Педагогический Университет*

# НЕОБХОДИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ МОДУЛЬНОЙ ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ НА УРОКАХ МАТЕМАТИКИ НАЧАЛЬНЫХ КЛАССОВ

***Rasim Yusif Shukurov***
*associate professor*
*at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

***Jamila Vasif Asgarova***
*Azerbaijan State Pedagogical University*

# THE NEED TO USE MODULAR TEACHING TECHNOLOGY IN PRIMARY SCHOOL MATHEMATICS LESSONS

**Xülasə.** Məqalədə ibtidai siniflərin riyaziyyat dərslərində modul təlim texnologıyasından istifadənin zəruriliyi araşdırılır, şəxsiyyətin formalaşmasında ibtidai təhsilin xüsusi əhəmiyyət kəsb etdiyi, ibtidai təhsilin şagirdlərin inkişaf prosesinin sonrakı təhsil pillələrindən əsaslı surətdə fərqləndiyi göstərilir, məhz bu dövrdə xüsusi biliklərin, bacarıqların və vərdişlərin əldə olunmasının, müxtəlif fəaliyyət növlərinə yiyələnmənin və ümumi inkişafın təməli qoyulması qeyd olunur. Həmçinin ibtidai siniflərdə riyaziyyatın müxtəlif mövzularının ayrı-ayrı modullara bölünərək hər bir modulda spesifik bacarıqların inkişafına yönələ bilməsi göstərilir.
***Açar sözlər:*** *modul, təlim, texnologiya, ibtidai təhsil , dərs, metodlar*

**Аннотация.** В статье рассматривается модульное обучение на уроках математики в начальных классах. Раскрывается необходимость использования модульной технологий, показывается, что начальное образование имеет особое значение в формировании личности, процесс развития учащихся

на начальном этапе обучения принципиально отличается от последующих образовательных этапов, что именно в этот период происходит приобретение специальных знаний, умений и навыков, овладение различными видами деятельности, закладывается основа общего развития. Также показано, что в начальных классах различные темы математики можно разделить на отдельные модули, при этом каждый модуль направлен на развитие определенных навыков.

***Ключевые слова:*** *модуль, обучение, технология, начальное образование, школа, урок, методы*

**Abstract.** The article discusses modular learning in mathematics lessons in primary school. The necessity of using modular technologies is revealed, it is shown that primary education is of particular importance in the formation of personality, the process of development of students at the initial stage of education is fundamentally different from subsequent educational stages, that it is during this period that the acquisition of special knowledge, skills and abilities, mastery of various types of activities occurs, the foundation of general development is laid. It is also shown that in primary grades, various topics of mathematics can be divided into separate modules, with each module aimed at developing certain skills.

***Keywords:*** *module, training, technology, primary education, lesson, methods*

Şəxsiyyətin formalaşmasında ibtidai təhsil dövrü xüsusi əhəmiyyət kəsb edir. Bu dövrün xüsusiyyətləri inkişaf prosesinin sonrakı pillələrindən əsaslı surətdə fərqlənir. Məhz bu dövrdə xüsusi biliklərin, bacarıqların və vərdişlərin əldə olunmasının, müxtəlif fəaliyyət növlərinə yiyələnmənin və ümumi inkişafın təməli qoyulur. Müasir dövrdə ibtidai siniflərdə təlim texnologiyalarından istifadə olunması xüsusi əhəmiyyət kəsb edir.

Təlim texnologiyalarının tətbiqi, prinsipləri, metodları, priyom və vasitələri hər bir tədris fənninin spesifikasına uyğun istifadə olunur. Texnologiyanın sürətlə inkişaf etdiyi müasir dünyada təhsil metodları da transformasiya, dəyişilmə mərhələsindədir. Təhsil inkişaf etdikcə ənənəvi təlim texnologiyaları öz əhəmiyyətini itirir və getdikcə yeni təlim texnologiyalarına ehtiyac yaranır [4].

Yeni təlim texnologiyaları müasir təhsil sistemində şagirdlərin daha səmərəli və interaktiv şəkildə öyrənməsini təmin edən innovativ yanaşmalardır. Bu texnologiyalar müxtəlif metod və yanaşmalardan istifadə edərək tədris prosesini daha maraqlı, praktik və məqsədəuyğun edir.

Bildiyimiz kimi, ibtidai siniflərdə riyaziyyat təlimi, şagirdlərin analitik düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirən əsas dərslərdən biridir. Bu dərslərdə yeni təlim texnologiyalarının tətbiqi, tədris prosesini daha səmərəli və maraqlı hala gətirir, şagirdlərin motivasiyasını artırmaqla yanaşı, onların mövzuları daha yaxşı mənimsəməsinə dəstək verir. Müasir texnologiyalar müəllimlərə və şagirdlərə riyazi bilikləri daha dərindən qavramağa və tətbiq etməyə kömək edir.

Qeyd edək ki, təhsil sistemində modul təlim texnologiyasının tətbiqi şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirmək üçün mühüm vasitələrdən biridir. Riyaziyyat fənnində bu texnologiya şagirdlərin daha sistemli, məntiqli və praktik yanaşmasını təmin edir.

"Modul" sözü latın dilindəki "modulus" sözündən götürülmüşdür. Ölçü deməkdir. Dəqiq elmlər, xüsusilə riyaziyyatda, eləcə də memarlıqda modul anlayışı çoxdan məlumdur. Pedaqogikada modul vəziyyət və keyfiyyətin səviyyəsini dəqiq qurmağa xidmət edir [3].

Modul təlim-tədris məlumatının blok-modul təqdimatına əsaslanan təhsil prosesinin təşkili üsuludur. Yəni, təhsilin məzmunu müəyyən təhsil problemini həll edən tam hazır multimedia məhsulunu təmsil edən təhsil modullarından ibarət ola bilər. Bundan əlavə, hər bir modul muxtar, məzmunlu və funksional cəhətdən tam təhsil resursudur və üç komponentdən ibarət tematik element ola bilər: məlumat , praktiki və nəzarət.

Modul yaradarkən aşağıdakılar tərtib edilir:

- modulun məqsədləri;
- şagirdin bu modulu öyrənmək üçün malik olmalı olduğu bacarıqlar;
- şagirdin bu modulun öyrənilməsi zamanı əldə etdiyi bilik, bacarıq və bacarıqlar və bu bacarıqlara yiyələnmə səviyyələri ciddi şəkildə "qənaətbəxş", "yaxşı", "əla" bölünməlidir;
- modulun mənimsənilməsi səviyyəsi;
- modulun mənimsənilməsinə nəzarət

Hər bir modul dəyişkən, variativ olmalıdır. Dəyişkən olmasına səbəb hər hansı bir mövzunu öyrənərkən şagirdin məlumatı öyrənmək, praktik hərəkətləri yerinə yetirmək və nəzarət

etmək üçün öz nöqteyi-nəzərindən ən uyğun modulu seçə bilməsi üçün lazımdır. Variantlar (yəni analoqlar) müəyyən bir mövzu sahəsinin eyni tematik elementinə həsr olunmuş eyni tipli təhsil modullarıdır . Yəni variativlik dedikdə , eyni materialı ehtiva edə bilən , lakin müəyyən bir şagird üçün daha başa düşülən və əlçatan olan fərqli təqdimatda, və tədris materialının təqdim edilməsinin müxtəlif üsulları və modulların tətbiqi texnologiyaları vasitəsilə əldə edilir. Bu zaman əsas şərt yerinə yetirilməlidir: şagird özü bu və ya digər variantı seçir. Müəllim yalnız bu seçimi edərkən nələrə diqqət etməli olduğu barədə izahat verir.

Modul təlim texnologiyası fərdi və qrup öyrənməsini əhatə edən sistemli bir yanaşmadır. Riyaziyyat dərslərində modul təlim texnologiyasından istifadə şagirdlərin tədris materialını daha sistemli və dərindən qavramasına imkan yaradır.

Modulun daxili quruluşuna nəzər yetirsək, görərik ki:

- Modullar hər bir şagirdin istək, arzu, bilik və bacarıqları istiqamətində tərtib olunur.
- Fərdi öyrənmə və tətbiq etmə qaydasına uyğun hazırlanır. Mövzuların seçimi tələbə əsaslanır.
- Proqramın quruluşu fərdi bacarıqlara görə dəyişə bilər.
- Tədris və təlim anlayışlarına fərqli bir baxış verir.
- Hazırlanmış modullar kompüter ilə tədris, məsafədən təhsil kimi fərqli tətbiqlərin istifadəsinə geniş şərait yaradır.

İbtidai siniflərdə riyaziyyat dərslərində modul təliminin tətbiqi şagirdlərin yaş səviyyəsinə uyğun olaraq onların öyrənmə prosesini fərdiləşdirməyə və maraqlı etməyə kömək edir. Modul təlimi ibtidai siniflərdə uşaqların tədris materialını sistemli və ardıcıl öyrənməsini təmin edir. Modulda təlim məqsədləri , vəzifələri , öyrənilmə səviyyələri dəqiq müəyyənləşdirilir, öyrənənin əldə edəcəyi təlim nəticələri fomlaşadıracaq bacarıqlar qeyd olunur [2].

Modul aşağıdakı struktur elementlərdən ibarətdir:

1. İnformasiya bloku.
2. İcra bloku.
3. Metodoloji blok.
4. İdarəetmə bloku.

Bilik sistemi informasiya blokunun məzmunu ilə formalaşır. Şagirdlərin biliklərinin şüurlu olması üçün onlar əməli işləri başa çatdırmalıdırlar. Buna nail olmaq üçün təlim moduluna laboratoriya, praktiki işlər və müxtəlif tapşırıqlar daxil olan icra bloku daxildir. Bu iki blok təlim məzmun sistemini təmsil edir. Nəzarət bloku bilik və bacarıqların inkişaf səviyyəsini müəyyən etmək üçün təlim moduluna daxil edilir və metodiki blokla birlikdə modulun öyrənilməsi prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqənin idarə edilməsi sistemini təmsil edir.

Modul texnologiyanı istifadə edərək öyrənməyə başlamazdan əvvəl hər bir şagird əsas (əvvəllər öyrənilmiş) anlayış və bacarıqları aktuallaşdırmağa kömək edən sorğudan keçir ki, bunun əsasında yeni bilik və bacarıqlar formalaşacaq. Giriş nəzarətindən uğurla keçdikdən sonra şagirdlər lazımi məlumatları və dərs blokları haqqında məlumat alır. Modulun öyrənilməsi prosesi başlayır. Müəllim məsləhətçi kimi çıxış edir, əsas məsələlər üzrə dərslər keçirir, tədris materialını ümumiləşdirir. Bu blokların hər birini ayrılıqda nəzərdən keçirək.

Məlumat blokuna daxildir:

1. Öyrəniləcək nəzəri material (məsələn, fənnin əsas məsələləri üzrə ümumi məlumat verən dərslər ).
2. Mənimsəmə prosesini genişləndirən və dərinləşdirən məlumatlar (əlavə mənbələr, məlumat kitabçaları, nəşrlər).
3. Öyrənilən məlumatı daha dərindən dərk etməyə imkan verən illüstrasiyalı material (təsvirlər, şəkillər, cədvəllər, diaqramlar şəklində).

İcra blokuna daxildir:

1. Mövzu materialı üzərində müstəqil iş (göstərilən ədəbiyyatın oxunması, müvafiq mövzunun dəstəkləyici sxemi ilə tanışlıq, verilmiş tapşırıqların yerinə yetirilməsi və modul üçün tələb olunan qeydlərin edilməsi).
2. Laboratoriya və praktiki işlər.
3. Müxtəlif səviyyəli (A, B və C mürəkkəblik səviyyəli) tapşırıqların təklif olunduğu paketlər:

- aşağı səviyyə dövlət standartının tələblərinə cavab verən və reproduktiv xarakter daşıyan əsas biliklərə yiyələnmə səviyyəsidir (A tapşırığı);
- orta səviyyəyə əldə edilmiş biliklərin transformasiyasına yönəlmiş tapşırıqlar (təhlil, yeni biliklərin sintezi, bir sıra düşüncə prosesləri) daxildir və evristik xarakter daşıyır (B tapşırığı);

- yüksək yaradıcılıq qabiliyyətlərinin inkişafına yönəldilir, şagirdi öz mövqeyini təqdim etməyə həvəsləndirir, yaradıcı xarakter daşıyır (C tapşırığı).

4. Öyrənilən material əsasında sualların tərtib edilməsi.

5. Modul materialının çertyojlar, şəkillər cədvəllər və ya diaqramlar şəklində göstərilməsi.

Metodoloji bloka aşağıdakılar daxildir:

1. Şagirdin müstəqil işi zamanı materialın öyrənilməsi üçün tövsiyələr.

2. Şagird təlim fəaliyyətinin idarə edilməsi sistemi.

3. Şagirdin müstəqil işini təmin edən metodiki sənədlərin və proqram pedaqoji vasitələrin toplusu.

4. Xüsusi metod və alqoritmlərin təsviri ilə təlim məşğələlərinin keçirilməsi üzrə müəllim üçün tövsiyələr.

İdarəetmə blokuna daxildir:

1. Qəbul nəzarətinin nəzəri testləri.

2. Aralıq nəzarət testləri və müxtəlif çətinlik dərəcələrində tapşırıqlar.

3. Modulun tədris elementlərinin assimilyasiyasının diaqnostikası üçün cari nəzarət.

4. Müxtəlif çətinlik səviyyələrində tapşırıq kartları.

5. Yekun nəzarət testləri.

Biliyin qiymətləndirilməsi üçün reytinq sisteminə keçid, bir tərəfdən, şagirdin fərdi qabiliyyətlərini geniş diapazonda əks etdirməyə imkan verir, digər tərəfdən, öyrənmənin rəqabət aparma qabiliyyətini artırmağa, təkcə bir-birini nəzərə almamağa imkan verir. Kurikulumda şagirdlərin müstəqilliyinə və fəallığına və son nəticədə onların peşəkar hazırlığının təkmilləşdirilməsinə kömək edən biliyin qiymətləndirilməsi üçün reytinq sisteminin yaradılmasıdır.

Modul təliminin ibtidai siniflərdə üstünlüklərinə aşağıdakılar aiddir:

Fərdi yanaşma – Şagirdlər öz sürətlərinə uyğun şəkildə yeni bilikləri mənimsəyirlər. Modul təlimi şagirdlərin fərdi sürətinə uyğunlaşır. Hər bir şagird öz qabiliyyətlərinə uyğun şəkildə bir modul bitirdikdən sonra növbəti modula keçə bilər. Bu, zəif şagirdlərə əlavə təkrarı, güclü şagirdlərə isə daha çətin məsələlərlə üzləşməyi təmin edir.

Aktiv öyrənmə – Tapşırıqlar və oyunlarla interaktiv şəkildə öyrənirlər.

Marağın artırılması –Şagirdlər bir mövzunu bitirəndən sonra növbəti mövzuya keçirlər, bu da dərslərin daha maraqlı və davamlı olmasına kömək edir. Modul üsulunun tərtibində interaktiv fəaliyyətlər, oyunlar və praktiki tətbiqlər istifadə edildikdə, dərs daha canlı və şagirdlər üçün əyləncəli olur. Rəqəmsal resurslar, vizual materiallar və əyləncəli yanaşmalarla dərslər daha cəlbedici olur.

Mövzu strukturlaşdırılması – Biliklər addım-addım öyrədilir və sistemli şəkildə təqdim edilir.

Təkrarlama və möhkəmləndirmə imkanları – Modul təlimi təkrarlamağa və öyrənilən məlumatları möhkəmləndirməyə imkan verir. Hər modulun sonunda şagirdlər biliklərini qiymətləndirən testlər və tapşırıqlar yerinə yetirir, bu da onların öyrənmə prosesini izləmək üçün faydalıdır.

Resurslardan səmərəli istifadə – Müəllimlər modul üsulu ilə dərs planlarını daha sadə və strukturlaşdırılmış şəkildə hazırlaya bilər. Bu üsul şagirdlərə dərsə davamiyyət və vaxtını öz istəklərinə uyğun şəkildə idarə etməyə imkan verir. Beləliklə, hər bir şagirdə ən uyğun olan tədris metodunu seçmək mümkün olur.

İbtidai siniflərdə riyaziyyatın müxtəlif mövzuları (məsələn, ədədlər, toplama, çıxma, vurma, bölmə) müxtəlif modullara bölünərək hər bir modulda spesifik bacarıqların inkişafına yönələ bilər. Hər modul müstəqil bir öyrənmə vahidi kimi təşkil olunur və şagirdlər bu modulların hər birini müəyyən ardıcıllıqla tamamlayırlar.

**Problemin aktuallığı.** Müasir dövrdə modul təlim texnologiyalarından məktəbdə istifadəsi olduqca aktual məsələlərdən biridir.

**Problemin yeniliyi.** Məqalədə modul təliminin riyaziyyat dərslərində istifadənin zəruriliyini diqqət mərkəzinə gətirilir, modul təlimin şagirdlərin riyaziyyata olan marağının artırması göstərilir , bu da, riyaziyyatın öyrənilməsində yeni, daha səmərəli bir yanaşmadır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ali və orta məktəb müəllimləri, tələbələr, mütəxəssislər və gənc tədqiqatçılar üçün əhəmiyyətli olacaqdır.

## Ədəbiyyat

1. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. -Bakı: Adiloğlu, -2006. -138 s

2. Əhmədov, H. Pedaqogika (dərslik). / H. Əhmədov, N. Zeynalova. -Bakı: Elm və Təhsil, -2019. - 352 s
3. Nəzərov, A. Müasir təlim texnologiyaları( dərs vəsaiti). / A. Nəzərov. -Bakı, 2012. -103 s.
4. https://tehsiljurnali.az/ mektebmuellim / 48-tlm-proses-nn-v-masrlk.html
5. Педагогика: Большая современная энциклопедия / сост. Е. С. Рапацевич. -Мн.: «Соврем. Слово», -2005. - 720 с
6. Юцявичене, П. А. Теория и практика модульного обучения. / П. А. Юцявичене. -Каунас, 1989. - 271с.


**Redaksiyaya daxil olub:** 26.02.2025.

*UOT 372.851*

***Novruz Baba oğlu Nəsirov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
*https://orcid.org/0009-0004-2062-2023*
*E-mail: novruz.nasirov@adpu.edu.az*

***Saniyə Teymur qızı Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0005-8019-8073*
*E-mail: sanguliyevaa@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).142-145*

# RİYAZİYYATDAN SAHƏYƏ AİD MƏSƏLƏLƏR HƏLLİNDƏ FƏNDAXİLİ İNTEQRASİYANIN TƏTBİQİ

***Новруз Баба оглы Насиров***
*доцент Азербайджанского Государственного Педагогического Университета*

***Сания Теймур гызы Гулиева***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРИМЕНЕНИЕ ВНУТРИПРЕДМЕТНОЙ ИНТЕГРАЦИИ ПРИ РЕШЕНИИ ЗАДАЧ, СВЯЗАННЫХ С ОБЛАСТЬЮ МАТЕМАТИКИ

***Novruz Baba Nasirov***
*associate professor of Azerbaijan State Pedagogical University*

***Saniya Teymur Guliyeva***
*Azerbaijan State Pedagogical University*

# APPLICATION OF INTERDISCIPLINARY INTEGRATION IN SOLVING PROBLEMS RELATED TO THE FIELD OF MATHEMATICS

**Xülasə.** Məqalədə müstəvi fiqurların sahəsinin hesablanmasına dair məsələlər həllində fəndaxili inteqrasiyanın rolu və əhəmiyyəti göstərilmişdir. Fəndaxili inteqrasiyadan istifadə etməklə məsələ həllinin daha da asanlaşdırılması nümunələr vasitəsilə əsaslandırılmışdır.
***Açar sözlər:*** *sahə, trapesiya, triqonometriya, çevrə*

**Аннотация.** В статье показаны роль и значение внутрипредметной интеграции при решении задач вычисления площади плоских фигур. Дальнейшее облегчение решения проблем с использованием межпредметной интеграции демонстрируется на примерах.
***Ключевые слова:*** *поле, трапеция, тригонометрия, круг*

**Abstract.** The article shows the role and importance of internal integration when solving the problem of calculating the area of flat figures. Further simplification of problem solving with the use of interdisciplinary integration is demonstrated by examples.
***Key words:*** *field, trapezium, trigonometry, circle*

Riyaziyyat təlimi prosesində fəndaxili və fənlərarası inteqrasiyanın yaradılması hazırda məktəb qarşısında qoyulan zəruri tələblərdən biridir. Cəmiyyətin məhsuldar qüvvəsinə çevrilən riyaziyyatın digər elmlərlə inteqrasiyası, bu gün daha da aktuallıq kəsb edir.

Riyaziyyat təlimində şagirdlərə öyrədilən ədəd anlayışı, funksional asılılıq, cəbri material-

lar, həndəsə məzmun xətti üzrə öyrədilən anlayışlar, triqonometrik eyniliklər və onların çevrilməsi ideyası kimi əsas anlayışlar və ideyalar müasir riyaziyyat fənninin əsasını təşkil edir. Məktəbdə riyazi fənlər arasındakı daxili inteqrasiya, məhz bununla izah olunur. Tədris prosesində onlar arasındakı mövcud əlaqələrdən istifadə edilməsi, əsas metodiki tələblərdən biridir.

Məlumdur ki, məktəb riyaziyyat kursunda həndəsə məzmun xətti üzrə öyrədilən anlayışlar içərisində məsələ həlli üstünlük təşkil edir. Məsələlərin isə, məzmunun tələbinə görə müxtəlif növləri vardır. Xüsusilə hesablama məsələləri mühüm əhəmiyyət kəsb edir. Bu məsələlər içərisində isə həndəsi fiqurların sahəsinin hesablanmasına dair məsələlər çoxluq təşkil edir. Həndəsə məsələlərinin cəbri metodla, xüsusilə triqonometriyanın tətbiqi ilə həllin daha tez tapılması, habelə həllin şagirdlər tərəfindən mümkün qədər şüurlu şəkildə mənimsəməsi üçün əhəmiyyətlidir.

Sahə anlayışı vasitəsilə bir çox riyazi təkliflərin doğruluğunu isbat etmək olur. Məsələn, üçbucağın sahəsi düsturlarından istifadə edərək üçbucağın hündürlükləri arasındakı münasibəti asanlıqla göstərmək olar. Belə ki, üçbucağın sahəsinin onun tərəfi və bu tərəfə çəkilmiş hündürlüyü hasilinin yarısına bərabər olmasından istifadə etməklə üçbucağın istənilən hündürlüyünü digər iki hündürlüyü ilə hansı münasibətdə olması asanlıqla göstərilə bilir.

Sahə anlayışından istifadə etməklə bir çox teoremlərin isbatını şagirdlərin başa düşəcəyi tərzdə asanlıqla göstərmək olar. Məsələn, bir çox hallarda üçbucağa aid sinuslar teoreminin isbatı şagirdlər üçün çətinlik yaradır. Lakin üçbucağın sahəsinin bu üçbucağın istənilən iki tərəfi ilə bu tərəflər arasında qalan bucağın sinusu hasilinin yarısına bərabər olması düsturundan istifadə edərək asanlıqla isbat etmək olar.




Fərz edək ki, bizə ixtiyari $ABC$ üçbucağı verilmişdir (Şəkil 1). Üçbucağın uyğun olaraq tərəflərini $a, b, c$ ilə, bucaqlarını isə uyğun olaraq $\alpha, \beta, \gamma$ ilə işarə edək.

(Şəkil 1.)

Üçbucağın hər bir iki tərəfi üçün sahə düsturlarını yazaq.

$$S_\Delta = \frac{1}{2}absin\gamma$$

$$S_\Delta = \frac{1}{2}acsin\beta$$

$$S_\Delta = \frac{1}{2}bcsin\alpha$$

Bu bərabərliklərdən

$$\frac{1}{2}absin\gamma = \frac{1}{2}acsin\beta = \frac{1}{2}bcsin\alpha$$

Bərabərliklərin bütün tərəflərini $\frac{1}{2}abc -$ yə bölsək,

$$\frac{\frac{1}{2}absin\gamma}{\frac{1}{2}abc} = \frac{\frac{1}{2}acsin\beta}{\frac{1}{2}abc} = \frac{\frac{1}{2}bcsin\alpha}{\frac{1}{2}abc}$$

Buradan isə

$$\frac{sin\gamma}{c} = \frac{sin\beta}{b} = \frac{sin\alpha}{a}$$

olar və nəticədə

$$\frac{c}{sin\gamma} = \frac{b}{sin\beta} = \frac{a}{sin\alpha}$$

sinuslar teoremini alarıq.

Məsələnin riyazi dilə çevrilməsi prosesində, həll üçün lazımi biliklər kifayət qədər çatışmadıqda, xüsusilə məsələnin məzmununda bucaq anlayışı varsa, bu halda triqonometrik biliklərdən istifadə etmək lazımdır.

Fikrimizi trapesiyanın sahəsinin hesablanmasına aid aşağıdakı iki məsələnin həllindən istifadə edərək şərh edək:




Məsələ 1. Trapesiyanın oturacaqlarından biri radiusu R olan çevrənin diametridir. O biri oturacağı isə çevrədən α radian ölçüdə qövs ayırır (0 < α < π). Trapesiyanın sahəsini tapın. (Şəkil 2.) Həlli: Fərz edək ki, bizə çevrə daxilinə çəkilmiş ABCD trapesiyası verilmişdir. (Şəkil 2.)

Şərtə görə $AB = 2R, \overset{\frown}{DC} = \alpha$ radian
Məlumdur ki, trapesiyanın sahəsi

$$S = \frac{(AB + CD) \cdot DK}{2}$$

olar.
Buradan

$$\overset{\frown}{AB} + \overset{\frown}{DC} + \overset{\frown}{CB} = \pi$$

olduğu məlumdur.
$\overset{\frown}{AD} = \overset{\frown}{CB}$ olduğudan $2\overset{\frown}{AD} + \alpha = \pi$. Buradan $\overset{\frown}{AD} = \frac{\pi-\alpha}{2}$ alarıq.

Eyni zamanda $\overset{\frown}{CB} = \frac{\pi}{4} - \frac{\alpha}{4}$ olar.

$$\angle CAB = \angle DBA = \frac{1}{2}\left(\frac{\pi}{2} - \frac{\alpha}{2}\right) = \frac{\pi}{4} - \frac{\alpha}{4}$$

$\Delta ACB -$ dən

$$AC = 2R\left(\frac{\pi}{4} - \frac{\alpha}{2}\right),$$

$\Delta ACP -$ dən isə $AP = AC\cos\left(\frac{\pi}{4} - \frac{\alpha}{2}\right) = 2R\left(1 + \cos^2\alpha\left(\frac{\pi}{4} - \frac{\alpha}{4}\right)\right) = R\left(1 + \sin\frac{\alpha}{2}\right)$

$$CP = AC\sin\left(\frac{\pi}{4} - \frac{\alpha}{4}\right) = 2R\cos\left(\frac{\pi}{4} - \frac{\alpha}{4}\right)$$

$$\sin\left(\frac{\pi}{4} - \frac{\alpha}{4}\right) = R\sin\left(\frac{\pi}{2} - \frac{\alpha}{2}\right) = R\cos\frac{\alpha}{2}$$

olduğunu alarıq.

$S = \frac{(2AK+2KP)\cdot CP}{2} = (AK + KP) \cdot CP = AP \cdot CP = R\left(1 + sin\frac{\alpha}{2}\right) \cdot Rcos\frac{\alpha}{2} = R^2cos\frac{\alpha}{2}\left(1 + sin\frac{\alpha}{2}\right)$

Yəni tələb olunan trapesiyanın sahəsi

$$S = R^2cos\frac{\alpha}{2}\left(1 + sin\frac{\alpha}{2}\right)$$

olar.

Məsələ 2. Hündürlüyü $h$-a bərabər olan bərabəryanlı trapesiya çevrə daxilinə çəkilmişdir. Trapesiyanın yan tərəfi çevrənin mərkəzindən α bucağı altında görünür. Trapesiyanın sahəsini tapın.




(Şəkil 3.)

Həlli: Fərz edək ki, ABCD çevrə daxilinə çəkilmiş bərabəryanlı trapesiyadır. Məsələdə verilənləri qeyd edək:

$AB = CD, CM = h, \angle COD = \alpha$ ( Şəkil 3.)

Məlumdur ki, trapesiyanın sahəsi onun orta xətti ilə hündürlüyü hasilinə bərabərdir. Şagird məsələni təhlil edir və məsələnin içərisindən yeni bir məsələ ilə qarşılaşdığını müəyyən edir. Bərabəryanlı trapesiyada AM parçasının trapesiyanın orta xətti olması isbat olunur. Trapesiyanın AC diaqonalı çəkilir. $\angle COD = \alpha$ mərkəzi bucaq olduğundan, $\angle CAD$ həmin mərkəzi bucağın söykəndiyi qövsün yarısına bərabər olacaqdır. Çünki $\angle CAD$ daxilə çəkilmiş bucaqdır və ona görə də $\angle CAD = \frac{\alpha}{2}$ olar.

Onda trapesiyanın sahəsi

$$S = AM \cdot h$$

olar.

Digər tərəfdən $\Delta AMC$ düzbucaqlı üçbucaq olduğundan

$$\frac{AM}{CM} = ctg\frac{\alpha}{2}, \frac{AM}{CM} = ctg\frac{\alpha}{2}$$

buradan

$$AM \cdot h = h ctg\frac{\alpha}{2}$$

olar. Trapesiyanın sahəsi

$$AM \cdot h = h^2 ctg\frac{\alpha}{2} \text{ (sahə vahidi)}$$

olar.

Göründüyü kimi, köməkçi olaraq trapesiyanın diaqonalının çəkilməsi, eyni bir çevrə qövsünə söykənən mərkəzi və daxilə çəkilmiş bucaqlar arasında əlaqə, bərabəryanlı trapesiyanın orta xəttinin, onun diaqonalının böyük oturacaq üzərindəki proyeksiyasına bərabər olması triqonometriyanın tətbiqi və nəhayət trapesiyanın sahəsi düsturundan istifadə etməklə məsələnin asanlıqla həllinə nail olmağa zəmin yaratdı.

Qeyd edək ki, bu tip məsələlərin şagirdlərə daha çox həll etdirilməsi, onlarda həndəsədən məsələ həlli bacarığını inkişaf etdirir.

**Problemin elmi yeniliyi.** Müasir milli riyaziyyat dərsliklərində sahə anlayışına dair verilmiş məsələnin həllinin yeni kurikulumun tələbləri əsasında öyrədilməsi metodikası verilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Sahəyə aid məsələlər həlli bacarığı şagirdlərdə formalaşdırılır.

**Problemin aktuallığı.** Həndəsə məzmun xətti üzrə müstəvi fiqurlarının sahələrinin hesablanması qayda və düsturlarına əsasən şagirdlərin bu sahədəki bacarıqlarının formalaşdırılması baxımından metodik işlənilməsi aktuallıq kəsb edir.

## Ədəbiyyat


1. 1.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər) //- Bakı: – 2020. -s. 18
2. Adıgözəlov, A.S. Riyaziyyat tədrisinin xüsusi metodikası / A.S. Adıgözəlov. - Bakı: ADPU, -2001. -s. 284
3. Qəhrəmanova, N.M. Riyaziyyat – 10. Dərslik / N.M. Qəhrəmanova. - Bakı: Radius, - 2016. -s. 240
4. Qəhrəmanova, N.M. Riyaziyyat – 9. Dərslik / N.M. Qəhrəmanova. - Bakı: Radius, - 2020. -s.210
5. Quliyev, Ə.A. Həndəsə məsələləri / Ə.A. Quliyev. -Bakı: Elm, – 2010. -s. 300
6. Колягин, Ю. М. Методика преподавания математики в средней школе. Частные методики / Ю. М. Колягин. -М.: Просвещение, 1977. -с. 480
7. Колягин, Ю.М. Учись решать задачи. / Ю. М. Колягин. -М.: Просвещение, -1986. -с. 95.


**Redaksiyaya daxil olub:** 20.02.2025.

*UOT 372.851*

***Ziba Novruz qızı Rəhimova***
*Sumqayıt Dövlət Universiteti nəzdində*
*Sumqayıt Dövlət Texniki Kollecinin müəllimi*
*https://aorcid.org/0009-0009-1933-1831*
*E-mail: rehimovaziba40@gmail.com*

***Dilbər Məhəmməd qızı Qasımzadə***
*Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kollecinin müəllimi*
*https://orcid.org/0009-0001-8801-1120*
*E-mail: dilberqasimzade@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).146-151*

# FUNKSİYA VƏ İFADƏLƏRİN ƏN BÖYÜK VƏ YA ƏN KİÇİK QİYMƏTLƏRİNİN HESABLANMASI YOLLARININ ARAŞDIRILMASI

***Зиба Новруз гызы Рагимова***
*преподаватель Сумгаитского Государственного Технического Колледжа при Сумгаитском Государственном Университете*

***Дилбер Мухаммед гызы Гасымзаде***
*преподаватель Сумгаитского Государственного Технического Колледжа при Сумгаитском Государственном Университете*

# ИССЛЕДОВАНИЕ СПОСОБОВ ВЫЧИСЛЕНИЯ НАИБОЛЬШИХ ИЛИ НАИМЕНЬШИХ ЗНАЧЕНИЙ ФУНКЦИЙ И ВЫРАЖЕНИЙ

***Ziba Novruz Rahimova***
*lecturer of Sumgait State Technical College under Sumgait State University*

***Dilbar Mahammad Gasimzadeh***
*lecturer of Sumgait State Technical College under Sumgait State University*

# EXPLORİNG WAYS TO CALCULATE THE LARGEST OR SMALLEST VALUES OF FUNCTIONS AND EXPRESSİONS

**Xülasə.** Məqalədə bəzi funksiyaların və ifadələrin ən böyük və ən kiçik qiymətlərinin tapılması məsələsinə baxılmışdır. Həmçinin max. və min. məsələlərin həllinin yeni metodları araşdırılmışdır. Tətbiq olunan metodlar həm orta məktəb, həm də ali məktəb riyaziyyatında istifadəsi baxımından şagirdlərin, tələbələrin və müəllimlərin bu tip problemlərdə istifadəsi üçün faydalı olacağı məqsədi daşıyır.
***Açar sözlər:*** *Parametr, funksiya, maksimum, minimum, məsafə, koordinat sistemi, çevirmə, analitik, kvadrat kök, dəyişən, parametr.*

**Аннотация.** В статье рассматривается задача нахождения наибольшего и наименьшего значений некоторых функций и выражений. Также обсуждается вопросы максимальности и минимальности. Были исследованы новые методы решения проблем. Используемые методы полезны как для преподавания математики в средней школе, так и в высших учебных заведениях, а также для студентов и преподавателей.
***Ключевые слова:*** *параметр, функция, максимум, минимум, расстояние, система координат, преобразование, аналитический, квадратный корень, переменная, параметр*

**Abstract.** The article deals with the problem of finding the largest and smallest values of some functions and expressions. Also, new methods for solving max. and min. problems are investigated. The

applied methods are intended to be useful for pupils, students and teachers in this type of problems, both in terms of their use in secondary school and higher education mathematics.

***Keywords.*** *parameter, function, maximum, minimum, distance, coordinate system, transformation, analytical, square root, variable, param*

Riyaziyyatın tətbiqi sahələri geniş və çox şaxəlidir. Orta məktəb riyaziyyat kursu baza – bünövrə rolunu oynasa da, daha çətin, tətbiqi məsələlərin həlli də bəzən yetərli olmur və ya daha fərqli metodların öyrənilməsinin vacib olduğu məlum olur. Həmişə funksiyaların və ədədi – hərfi, parametrdən asılı ifadələrin qiymətlər çoxluğunun, ən böyük və ya ən kiçik qiymətlərinin tapılması məsələləri gündəmdə olub və indi də çoxlarının maraq dairəsində qalmaqdadır. Digər tərəfdən praktik olaraq bu tip məsələlərin həllinə həmişə ehtiyac olduğundan, yeni yanaşmalar və metodlara da ehtiyac vardır.

Bu baxımdan məqalədə bir neçə maraqlı və yeni metodlarla funksiyanın maksimum və minimum qiymətlərinin tapılmasına baxılacaq. Təbii ki, ən ümumi olan üsul funksiyanın araşdırılması, törəməsinin tapılması və bu törəmə funksiyanın özünün araşdırılmasıdır. Ancaq elə hallar olur ki, törəmənin hesablanması zamanı alınan funksiyanın özü daha mürəkkəb olur, bu səbəbdən analitik üsullar, yəni funksiyanın analitik düsturunun sadələşdirilməsi və ya onun üzərində aparılan çevrilmələr vasitəsi ilə daha asan və tez axtarılan nəticəni əldə etmək olur. Məqalədə də bu üsula üstünlük veriləcək.

İlk öncə həndəsi yolla, həndəsənin sadə məsələlərindən iki nöqtə arasındakı məsafə düsturunun tətbiqi ilə! verilmiş funksiyanın ən kiçik qiymətini və ya qiymətlər çoxluğunun araşdırılması kimi maraqlı bir məsələnin həllinə baxaq:

***Misal 1.*** $y = \sqrt{x^2+8x+20} + \sqrt{x^2-6x+10}$ funksiyasının qiymətlər çoxluğunun tapılması tələb olunur.

Məsələnin həllinin araşdırılması:

Məlumdur ki, əgər ümumi yolu, törəmənin köməyi ilə məlum alqoritm üzrə araşdırsaq , I tərtib törəmədən alınan funksiya kifayət qədər mürəkkəb olacaq və məlum çətinliklərlə üzləşəcəyik. Bax bu yerdə fərqli metodlar köməyə gəlir. Bu məsələnin həllinə həndəsi metodu tətbiq edəcəyik. Və bu yerdə qeyd edək ki, metodik baxımdan heç də ağla gəlməz bir yol seçib tələb olunan suala cavab tapacağıq:

Bunun üçün funksiyanın verilmiş analitik şəklində sadə çevrilmələr aparaq, daha doğrusu kvadrat kökaltında tam kvadrata ayırıb, məsafə düsturunu tətbiq etməyə çalışaq:

$$\sqrt{x^2+8x+20} + \sqrt{x^2-6x+10} = \sqrt{(x^2+4)^2+4} + \sqrt{(x-3)^2+1}$$
$$= \sqrt{(x^2+4)^2+(2-0)^2} = \sqrt{(x-3)^2+(1-0)^2}$$

məqsəd $d = \sqrt{(x_2-x_1)^2+(y_2-y_1)^2} = AB$ , yəni

$A(x_1; y_1), B(x_2; y_2)$ – nöqtələri arasındakı məsafə düsturunu tətbiq etməkdir.

$$y = \sqrt{(x+4)^2+(0-2)^2} + \sqrt{(x-3)^2+(0+1)^2}$$

və $AB = d = \sqrt{(x_2-x_1)^2+(y_2-y_1)^2}$

düsturunu müqayisə edərək belə bir həndəsi nəticəyə gəlmək olar:

$A(x_1; y_1) \sim A(x; 0)$ və $B(x_2; y_2) \sim B(-2; +2)$ qəbul edərək ,

$\sqrt{(x+4)^2+(0+2)^2}$ - ifadəsini $A(x; 0)$ və $B(-2; 2)$ nöqtələri arasındakı məsafə kimi, $A(x; 0)$ və $C(3; -1)$ qəbul edərək, $\sqrt{(x-3)^2+(0+1)^2}$ ifadəsini isə $A(x; 0)$ və $C(3; -1)$ nöqtələri arasındakı məsafə kimi qəbul edə bilərik.

Təyin etdiyimiz nöqtələri koordinat sistemində göstərək:




$B(-2;2)$ və $C(3;-1)$ nöqtələri məlum olduğu üçün onları qeyd edib $A(x;0)$ nöqtəsini $OX$ oxu üzərində yerləşən, ixtiyari nöqtə kimi götürə bilərik. A nöqtəsinin müxtəlif qiymətləri içərisində elə biri var ki, $AB$ +$AC$ məsafəsi ən kiçik olsun! Bu nöqtə $BC$ – düz xətti üzərində olan $A(x;0)$ nöqtəsidir! Çünki $A(x;0)$ nöqtəsi ilə $B$ və $C$ nöqtələrini birləşdirdikdə alınan $ABC$ üçbucağı üçün $AB+AC>BC$ bərabərsizliyi həmişə ödənəcək. Yalnız elə bir absis olacaq ki, həmin $A(x_0;0)$ nöqtəsində

$AC+AB=BC$ olacaq!

Deməli, verilmiş $y=\sqrt{x^2+8x+20}+\sqrt{x^2-6x+10}$ funksiyası üçün minimum qiyməti almış oluruq, bu $BC$ məsafəsinin bərabər olduğu məsafədir və bu zaman $A(x;0)$ nöqtəsinin koordinatının tapılmasına belə ehtiyac qalmır.

$$\min_{D(y)} y=|BC|=\sqrt{(-2-3)^2+(2-(-1))^2}=\sqrt{5^2+3^2}=\sqrt{34}$$

$$\min y=BC=\sqrt{34}$$

$Y$ funksiyası artan funksiya olduğu üçün ən böyük qiyməti ∞ - a bərabərdir. Deməli y funksiyasının qiymətlər çoxluğu $E(y)=\left[\sqrt{34};+\infty\right)$ olar.

Funksiyanın maksimum, minimum qiymətinin və ya qiymətlər çoxluğunun tapılması kimi çox mühüm bir məsələnin həlli bir çox hallarda funksiyanın analitik şəklindən və deməli həm də onun təyin olunduğu oblastın hansı çoxluq olmasından da asılı olur. Bu səbəbdən də bəzən qiymətlər çoxluğunun və ya funksiyanın maksimum və ya minimum qiymətinin tapılmasında tərs məsələ metodu – yanaşmasından istifadə etmək sərfəli və bəzi hallarda da yeganə çıxış yolu olur.

Bu prinsipi – metodu tətbiq etməklə aşağıdakı funksiyanı araşdıraq:

***Məsələ 2.*** $y=x-\sqrt{x^2+x-2}$ funksiyasının qiymətlər çoxluğunu müəyyən edin.

Məsələnin həllinin araşdırılması: məsələyə tərs məsələ kimi baxaq, yəni fərz edək ki, elə bir $A$ ədədi var ki, (və yaxud parametr) $x-\sqrt{x^2+x-2}=A$ (1) tənliyinin həlli var və bu tənliyin həllinin hansı x-lər üçün mümkün olduğunu araşdıraq:

Beləliklə verilmiş funksiya üçün *E(y)*- qiymətlər çoxluğunun tapılması məsələsi (1) parametrdən tənliyin həllinin araşdırılmasına gətirilir. (1) tənliyini həll edək:

$$x-\sqrt{x^2+x-2}=A \Rightarrow \sqrt{x^2+x-2}=x-A \Rightarrow \left.\begin{matrix} x^2+x-2=(x-A)^2 \\ x-A\geq 0 \end{matrix}\right\}$$

$$\Rightarrow \left.\begin{matrix} \cancel{x^2}+x-2=\cancel{x^2}-2Ax+A^2 \\ x-A\geq 0 \end{matrix}\right\} \Rightarrow \left.\begin{matrix} x-2=A^2-2Ax \\ x-A\geq 0 \end{matrix}\right\} \Rightarrow$$

$$\Rightarrow \left.\begin{matrix} x+2Ax=A^2-2 \\ x-A\geq 0 \end{matrix}\right\} \Rightarrow \left.\begin{matrix} x(1+2A)=A^2-2 \\ x-A\geq 0 \end{matrix}\right\} \Rightarrow \left.\begin{matrix} x=\dfrac{A^2+2}{1+2A} \\ x\geq A \end{matrix}\right\}$$

deməli, funksiyanın qiymətlər çoxluğunun axtardığı x - dəyişəni üçün parametrdən asılı olan $\frac{A^2+2}{2A+1} \geq A$ (2) bərabərsizliyini alırıq. Nəticənin alınması üçün (2) bərabərsizliyinin həllini tapmaq kifayət edəcəkdir.

(1) bərabərsizliyinin hər tərəfini $(2A+1)^2 \geq 0$ müsbət ədədinə vuraq:

$$\left.\begin{matrix} \frac{A^2+2}{2A+1} \cdot (2A+1)^2 \geq A \cdot (2A+1)^2 \\ 2A+1 \neq 0 \end{matrix}\right\} => \left.\begin{matrix} (2A+1) \cdot (A^2+2) \geq A \cdot (2A+1)^2 \\ 2A+1 \neq 0 \end{matrix}\right\}$$

$$=> (2A+1) \cdot (A^2+2) - A(2A+1)^2 \geq 0 =>$$

$$=> (2A+1)(A^2+2-2A^2-A) \geq 0$$

$$(2A+1)(-A^2-A+2) \geq 0 => \left.\begin{matrix} (2A+1)(A^2+A-2) \leq 0 \\ 2A+1 \neq 0 \end{matrix}\right\} =>$$

$$=> \left.\begin{matrix} (2A+1)(A-1)(A+2) \leq 0 \\ 2A+1 \neq 0 \end{matrix}\right\} (4)$$

Sonuncu bərabərsizliyin həllini ədəd oxunda göstərək:




• fiziki qanun; məktəb fizikası kursunda fiziki biliklərin əldə edilməsi və tətbiqi üçün ümumiləşdirilmiş məntiqi sxemlərin dəqiqləşdirilməsi üçün təlimatlar; dərslərin tərtibi və keçirilməsi üçün fəaliyyətlərin ümumiləşdirilmiş məzmunu.

• yeni biliklərin əldə edilməsi və tətbiqi üçün tələbələrin idrak fəaliyyətinin təşkili üsulları; sinifdə müəllim və tələbələr arasında pedaqoji qarşılıqlı əlaqənin psixoloji və pedaqoji modelləri.

Prosessual komponentə tədris prosesinin təşkili üsulları və formalarının məcmusu daxildir, bunun nəticəsində tələbələr fiziki biliklərin əldə edilməsi və tətbiqi ilə bağlı dərslərin layihələndirilməsi və keçirilməsi üçün fəaliyyət növlərini inkişaf etdirəcəklər. Tədris prosesi universitetin elektron təhsil sistemində yerləşdirilmiş elektron təhsil resurslarından istifadə etməklə həyata keçirilir. Tələbələrin yeni fiziki biliklərin əldə edilməsi və tətbiqi üçün idrak fəaliyyətinin təşkil olunduğu dərslərin tərtibi və aparılması üzrə fəaliyyətin ümumiləşdirilmiş üsullarını mənimsəməyə hazırlamaq üçün elektron təhsil resurslarından istifadə üçün hazırlanmış metodologiya dörd mərhələni əhatə edir: motivasiya, məzmun-dizayn, fəaliyyət və refleksiv. Təlimə başlamazdan əvvəl tələbələr elektron təhsil resursunun strukturu və funksiyaları ilə tanış olurlar. Tələbələrə kömək etmək üçün EOR iş prosedurunu və tapşırıqların yerinə yetirilməsinin nəticələrinin qiymətləndirilməsi sistemini təsvir edən öyrənilən kursla işləmək üçün metodiki təlimatı ehtiva edir. Şagirdlərin yeni fiziki biliklərə yiyələnməsi üçün dərslərin tərtib edilməsinə və keçirilməsinə yönəlmiş ilk üç modulun mənimsənilməsi üçün motivasiya mərhələsini təşkil etmək üçün müəllim 3-4 nəfərlik komandalarda tələbələrdən konkret fiziki hadisənin konsepsiyasını təqdim etmək üçün müstəqil olaraq dərs planı hazırlamağı xahiş edərək, bu fəaliyyətin mənimsənilməsinə ehtiyac olduğu bir vəziyyət yaradır. Belə bir dərsdə biliyin empirik səviyyəsində fiziki hadisənin tərifini əldə etmək üçün şagirdlərin idrak fəaliyyəti təşkil edilməlidir. Eyni zamanda, onlara istənilən tədris-metodiki ədəbiyyatdan və internet resurslarından istifadə etməyə icazə verilir. Məzmun-dizayn mərhələsində şagirdlərə çoxseçimli testlər və esselər şəklində tapşırıqların yerinə yetirilməsi yolu ilə fiziki hadisələrin təriflərini biliyin empirik səviyyəsində təhlil və tərtib etməyi, onları konkret dərsliklərin təsvirlərində tanımağı öyrətmək üçün elektron tədris resursundan istifadə olunur. Eyni zamanda, elektron resurslardan istifadənin köməyi ilə bu fəaliyyət növünə avtomatlaşdırılmış nəzarət və qiymətləndirmə həyata keçirilir.

Sonra hazırlanmış elektron tədris resurslarından görkəmli fiziklər tərəfindən fiziki hadisələrin eksperimental tədqiqi və onların yeni fiziki biliklərə yiyələnməsinə dair elektron tədris resurslarında təqdim olunan videomaterialların təhlili yolu ilə fiziki biliklərin müxtəlif elementlərinin əldə edilməsi üçün ümumiləşdirilmiş məntiqi sxemlərin yaradılması üzrə tələbələrin fəaliyyətinin təşkili üçün istifadə olunur; fiziki biliklərin mənimsənilməsində tələbələrin müstəqil fəaliyyətini nümayiş etdirən video dərslər, eləcə də elmdə kəşflərin tarixini təsvir edən mətnlər. Bu fəaliyyətin nəticəsi olaraq hər bir tələbə fiziki biliklərin konkret elementini əldə etmək üçün hərəkətlər ardıcıllığını müəyyənləşdirir, onları EOR-da fayl şəklində yerləşdirir, sonra bu və ya digər fiziki biliklərin yaradılması üçün ümumiləşdirilmiş məntiqi sxem şəklində müzakirə edilir və qeyd olunur.Sonra tələbələr konkret anlayışların və ya qanunların əldə edilməsi fəaliyyətinin ümumiləşdirilmiş məntiqi sxemini konkretləşdirmək üçün tapşırıqlar alırlar. Bu halda tələbələr aşağıdakı tipli tapşırığı yerinə yetirməlidirlər: “... konsepsiyasını əldə etmək üçün fəaliyyətlərin ümumiləşdirilmiş məntiqi sxemini göstərin (fiziki biliklərin konkret elementi göstərilir).” Tələbələrə kömək etmək üçün elektron təhsil resursu xüsusi fiziki biliklərin əldə edilməsi üçün fəaliyyətlərin ümumiləşdirilmiş məntiqi sxemlərinin spesifikasiyasını əks etdirən nümunələr təqdim edir. Eyni zamanda, müasir pedaqoji texnologiyaların tətbiqi ilə sinif otaqlarında şagirdlərin təhsili təşkil olunur. Beləliklə, mahiyyəti nəticələrin Scrum lövhəsində məcburi qeyd edilməsi ilə formalaşmış fəaliyyətin fərdi hərəkətlərinin komanda tərəfindən yerinə yetirilməsindən ibarət olan Scrum texnologiyası tapşırıqların yerinə yetirilməsi prosesini idarə etməyə, komanda tərəfindən əldə edilən nəticələri qiymətləndirməyə, həmçinin komandada tələbələrin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə imkan verir. Komandanın fəaliyyət sxemlərinin dəqiqləşdirilməsinin nəticələri elektron resursda yerləşdirilir və

reytinq qiymətləndirməsi alır. Tələbələrin dərs ssenarisinin tərtib edilməsində fəaliyyətini və müəllimlə tələbələrin qarşılıqlı əlaqəsini inkişaf etdirmək üçün hazırlanmış elektron təhsil resurslarından istifadə metodologiyası yeni biliklərin əldə edilməsinə gətirib çıxarır. Tələbələr interaktiv lövhədən istifadə edərək Həştərxan Dövlət Universitetinin Nəzəri fizika və fizikanın tədrisi metodikası kafedrasının dissertantı və müəllimləri tərəfindən hazırlanmış və aparılan dərslərin videoyazılarına baxırlar. Baxılan video dərslərin təhlilinin məqsədi fiziki biliklərin konkret elementini əldə etmək üçün ümumiləşdirilmiş məntiqi fəaliyyət sxeminin hərəkətlərini tanımaq, habelə dərsdə müvafiq söz və ifadələrlə hərəkətlərin subyektlərini qurmaqdır. Şagirdlər aşağıdakı təhsil xəritəsini doldururlar, burada dərsdə müəyyən bir hərəkətlə bağlı müəllim və tələbələrin hərəkətlərinin, sözləri və ifadələrinin mövzuları göstərilir.

| Hərəkətlərin adı (proqramı). | Fəaliyyətin mövzusu | Şagirdləri hərəkətə keçməyə sövq edən söz və ifadələr |
|---|---|---|
| | | |

Aşağıdakı proqram təhsil xəritəsini doldurmaq üçün təlimat rolunu oynayır:

1. Video fraqmentdə müəllimin təşkil etdiyi ilkin vəziyyəti yazın ... əldə etmək zərurətini yaratmaq (konkret fiziki biliklər göstərilir).

2. Bənzər bir vəziyyətin öz versiyasını təklif edin.

3. Həlli tələbələri ... yaratmağa aparan idrak tapşırıqlarını tərtib edin (konkret fiziki biliklər göstərilir).

4. Hər bir idraki tapşırığın həlli üsullarını müəyyən edin.

6. Hazırlanmış koqnitiv vəzifələrin həllinə aparan bir sıra eksperimental tədqiqatlar qurun. Eksperimental qurğunun sxematik diaqramını çəkin.

7. Koqnitiv tapşırıqlara cavablar tərtib edin.

8. ... tərifini yazın (xüsusi fiziki bilik göstərilir).

Doldurulmuş təhsil kartı fərdi qiymətləndirmə almaq üçün hər bir tələbə tərəfindən elektron təhsil resursuna yerləşdirilir.

Məzmun-dizayn mərhələsinin nəticəsi hər bir tələbənin elektron təhsil resursunda “Seminar” interaktiv elementinə yerləşdirdiyi konkret fiziki biliklərin yaradılması üzrə dərs fraqmentinin hazırlanmasıdır. Bu element müəllim tərəfindən ardıcıl olaraq idarə olunan 5 mərhələdən ibarətdir: 1) quraşdırma mərhələsi; 2) əsərlərin təqdimat mərhələsi; 3) qiymətləndirmə mərhələsi; 4) alınan qiymətlərin qiymətləndirilməsi mərhələsi; 5) Yekun mərhələsi Birinci mərhələ üzərində işləyərkən seminara giriş və tapşırığın yerinə yetirilməsi üçün göstərişlər verilir. Birinci mərhələ qurulduqdan sonra ikinci mərhələyə keçid baş verir ki, burada hər bir tələbə özü tərəfindən hazırlanmış dərs fraqmentinin ssenarisini və lazımi didaktik alətləri əlavə edir. Bu fəaliyyət tələbələr üçün müstəqildir və onlar tərəfindən EIS-də sinifdən kənarda həyata keçirilir. Təlimatçı əl ilə və ya təsadüfi tapşırıqdan istifadə edərək hər bir tələbə qrupuna rəyçi təyin edir. Növbəti mərhələdə - fəaliyyət mərhələsində - işlənmiş dərs fraqmentlərinin aparılması üçün şagirdlərin fəaliyyəti təşkil olunur. Şagird rolunu oynayan tələbə yoldaşları ilə didaktik və texniki vasitələrdən istifadə edərək konkret mövzu üzrə işlənmiş dərsi “oynadır”. Qiymətləndirmə mərhələsinin rejimində "Seminar" elementinin köməyi ilə EOR-da ardıcıl olaraq təklif olunan meyarlara uyğun olaraq onlayn rejimdə "tələbə" Sonra müəllim növbəti mərhələyə keçir, onun köməyi ilə tələbənin bütün fəaliyyət növləri üzrə topladığı ballar avtomatik olaraq yekunlaşdırılır: dərs mərhələsinin ssenarisinin hazırlanması, dərsin təşkili və didaktik vasitələrin qiymətləndirilməsi. Yekun (reflektiv) mərhələdə şagird müəllim kimi öz fəaliyyətini əks etdirir və son mərhələnin imkanlarına uyğun olaraq dərsini qiymətləndirir. EOR-dakı "seminarlar" sizə ümumi balları avtomatik hesablamağa və hər bir tələbə üçün dərs üçün qiymət göstərməyə imkan verir. Dördüncü modul tələbələrin əldə etdikləri fizika biliklərinin tətbiqi üzrə dərslərin layihələndirilməsi və aparılmasının tələbələrə öyrədilməsi üçün elektron tədris resursundan istifadəyə həsr olunub. EOR-dan istifadə üsulu yuxarıda təsvir edilənə bənzəyir. Fərqli xüsusiyyət məzmun-dizayn mərhələsinin həyata keçirilməsidir. Fiziki biliklərin konkret elementinin tətbiqi ilə bağlı fəaliyyətlər cədvəl şəklində elektron təhsil resursunda yerləşdirilir

ki, şagirdlər fiziki biliklərin konkret elementinin tətbiqi ilə bağlı fəaliyyət növlərini müstəqil müəyyən etmək üçün tapşırıqları yerinə yetirmək üçün istifadə edirlər. Hər bir tələbəyə tapşırıq verilir: "Fiziki anlayışların təriflərini və qanunların tərtibini onların tətbiq olunduğu fəaliyyət növləri ilə əlaqələndirin". Elektron təhsil resursunda uyğunluq sualları şəklində təqdim olunan test tapşırığının yerinə yetirilməsinin nəticələrinə əsasən hər bir tələbəyə avtomatik fərdi qiymətləndirmə verilir. Bu mərhələnin növbəti mühüm və əsas elementi tələbələrə fiziki bilikləri tətbiq etmək üçün tapşırıqlar tərtib etməyi öyrətməkdir. Bu məqsədlə, elektron təhsil resursunda fiziki biliklərin tətbiqi üçün adekvat olan tapşırıqların mümkün formalarını ehtiva edən cədvəl şəklində istinad nöqtəsi yerləşdirilir."Mövzu üzrə dərsdə biliklərin tətbiqi üçün şagirdlərin fəaliyyətinin məqsədlərini formalaşdırmaq"… "İşığın yayılması" (məktəb fizikası kursundan hər hansı fiziki hadisəni göstərin); .[7]. "Elektrikləşdirilmiş bədən" (məktəb fizika kursundan istənilən fiziki obyekt göstərilir); "Vahid düzxətli hərəkətin sürəti" (məktəb fizika kursundan istənilən fiziki kəmiyyət göstərilir); "Arximed qanunu" (məktəb fizikası kursundan istənilən fiziki qanun hər bir belə tapşırığın yerinə yetirilməsi göstərilir).8-10 konkret vəziyyətin seçilməsini və ya tərtibini tələb edir. Bununla əlaqədar olaraq, tələbələr bu vəziyyətlərə dair tələbləri öyrənirlər və tapşırığı yerinə yetirirlər: "Birinci tapşırıqda göstərilən mövzuları öyrənərkən biliklərin tətbiqi mərhələsində tələbələrə təklif edilə bilən konkret vəziyyətləri seçin." EOR-da yerləşdirilən nümunələr, eləcə də mövcud yardım kitabları bu tapşırığı yerinə yetirmək üçün bələdçi kimi xidmət edir. Təlim zamanı tələbələrin aşağıdakı fəaliyyət növlərini yerinə yetirmək bacarıqlarına nəzarət edilib:

1. Müxtəlif növ fiziki biliklərin əldə edilməsi üçün ümumiləşdirilmiş məntiqi sxemləri konkretləşdirmək.

2. Müxtəlif növ yeni fiziki biliklərin tətbiqi mərhələsinin məzmununu inkişaf etdirin.

3. Bu fəaliyyətin ümumiləşdirilmiş məzmunu əsasında fiziki bilik əldə etmək üçün şagirdlərin idrak fəaliyyətinin təşkili ilə dərs ssenariləri tərtib etmək.

4. Bu fəaliyyətin ümumiləşdirilmiş məzmunu əsasında fiziki biliklərin tətbiqində şagirdlərin idrak fəaliyyətinin təşkili ilə dərs ssenarilərini tərtib etmək.

Təlim prosesində bu bacarıqların inkişafını yoxlamaq üçün aralıq diaqnostika aparılmışdır. Bu məqsədlə mahiyyəti aşağıdakılardan ibarət olan xüsusi tapşırıqlar hazırlanmışdır: a) konkret anlayışların, fiziki qanunların (istilik keçiriciliyi fenomeni; "ideal qaz" anlayışı; maddənin sıxlığı anlayışı; .[5]. Amper qanunu və s.) əldə edilməsi üçün ümumiləşdirilmiş məntiqi sxemlərin konkretləşdirilməsi; b) müxtəlif növ yeni fiziki biliklərin tətbiqi mərhələsinin inkişafı; c) bu fəaliyyətin ümumiləşdirilmiş məzmunu əsasında şagirdlərin fiziki biliklərə yiyələnməsi üçün dərslərin tərtib edilməsi (məktəb fizikası kursunun konkret mövzusu göstərilir); d) bu fəaliyyət növünün ümumiləşdirilmiş məzmunu əsasında şagirdlər tərəfindən yeni fiziki biliklərin tətbiqi üzrə dərslərin layihələndirilməsi (fiziki biliklərin konkret elementi göstərilir). Tapşırıqları yerinə yetirərkən, bu fəaliyyət növlərini yerinə yetirmək üçün ümumiləşdirilmiş metodların bütün hərəkətlərini ardıcıllığını qoruyaraq yazmaq təklif edildi. Şagirdlərin təlimi zamanı aşağıdakılara nəzarət edilmişdir: 1) bu fəaliyyət növlərinin yerinə yetirilməsi üçün ümumiləşdirilmiş metodların hər bir hərəkətinin formalaşdırılması; 2) məktəb fizikası kursunun hər hansı mövzularında ümumiləşdirilmiş məzmunu əsasında yeni fiziki biliklərin əldə edilməsi və tətbiqində şagirdlərin idrak fəaliyyətinin təşkili ilə dərs fraqmentlərini tərtib etmək bacarığının inkişafı üçün. Yoxlanılan fəaliyyət növlərinə uyğun olan dörd tapşırığın icrasının nəticələri 1-ci diaqramda təqdim olunur.




***Diaram-1***

Pedaqoji eksperimentin əldə edilmiş məlumatlarına əsasən qeyd etmək olar ki, hazırlanmış elektron tədris resurslarından tələbələrin tədrisi prosesində istifadə onlarda əsasən orta və yüksək səviyyədə planlaşdırılmış fəaliyyət növlərini formalaşdırmağa imkan verir. Onların həyata keçirilməsinin ümumiləşdirilmiş üsullarını mənimsəmiş tələbələr və məzunlar fiziki biliklərin əldə edilməsində və tətbiqində tələbələrin idrak fəaliyyətinin təşkili ilə dərslərin layihələndirilməsi və aparılması zamanı onları şüurlu şəkildə tətbiq edirlər ki, bu da təklif olunan tədqiqat fərziyyəsinin təsdiqləndiyi qənaətinə gəlməyə imkan verir.

**Nəticə.** Fizika müəllimlərinin hazırlanmasında elektron tədris resurslarından istifadə probleminin vəziyyətinin təhlili aparıldı ki, bu da tədrisin yeni forma və vasitələrindən istifadə etməklə peşəkar fəaliyyətin inkişafının vacibliyini qeyd etməyə, tələbələrin – gələcək müəllimlərin – fizika dərslərinin layihələndirilməsi və keçirilməsində fəaliyyətlərin inkişafına yönəlmiş elektron təhsil resurslarının hazırlanması və tədris prosesinə daxil edilməsinin zəruriliyini müəyyən etməyə imkan verdi. Fizika dərslərinin layihələndirilməsi və aparılması üzrə fəaliyyətin operativ tərkibi müəllimin şagirdlərdə formalaşmalı olan ümumiləşdirilmiş hərəkətlərinin ardıcıllığı şəklində müəyyən edilmişdir. .[4]. Yeni fiziki biliklərin əldə edilməsi və tətbiqi üzrə dərslərin layihələndirilməsi və keçirilməsində şagirdlərin fəaliyyətini inkişaf etdirmək üçün elektron təhsil resurslarından istifadə metodikasının modeli yaradılmışdır. Universitetin elektron tədris-informasiya sistemində tədris materiallarından vaxtında istifadəyə və tələbə və müəllimlər arasında qarşılıqlı əlaqəyə imkan verən elektron tədris resursunun zəruri elementlərindən istifadə imkanları yaradılmışdır. Məlumat elementlərinin tələbələrin tədrisində istifadə olunan müasir pedaqoji texnologiyalara uyğunluğu da müəyyən edilmişdir. Fərqləndirici xüsusiyyəti tələbələrin təmas və müstəqil işinin təşkilində istifadə olunan elektron tədris resurslarının konkret elementlərindən istifadə etməklə dərslərin tərtibi və keçirilməsi fəaliyyətini təşkil edən hərəkətlərin formalaşdırılması prosesini səmərəli idarə etmək bacarığı olan elektron təhsil resurslarının strukturu və məzmunu hazırlanmışdır. Hazırlanmış elektron təhsil resursları Naxçıvan Dövlət Universitetinin EIS-də LMS Moodle təlim platformasında yerləşdirilib. Nəzərdən keçirilən fəaliyyət növlərinin formalaşdırılması üçün elektron təhsil resurslarından istifadə metodologiyası hazırlanmış və həyata keçirilmişdir. “Fizikanın tədrisi metodikası” fənni tələbələrin öyrənmələrinin hər bir mərhələsində elektron tədris resurslarından istifadə proqramı, eləcə də şagirdlər tərəfindən fiziki biliklərin mənimsənilməsi və tətbiqi üzrə dərslərin layihələndirilməsində və keçirilməsində şagirdlərin təlim nəticələrinin formalaşmasına və monitorinqinə imkan verən didaktik materiallar toplusu hazırlanmışdır. Nəticələri fizika dərslərinin tərtibi və aparılmasında tələbələrin fəaliyyətinin inkişafı prosesində elektron təhsil resurslarının rəqəmsal alətlərindən istifadənin səmərə-

liliyini sübut edən pedaqoji eksperiment aparılıb və tədqiqat fərziyyəsini təsdiqləyib.

**Problemin aktuallığı**. Tədqiqatın aktuallığı. Hazırda rəqəmsallaşma və robotlaşma iqtisadiyyatın və təhsilin bütün sahələrinə təsir edir və təhsil məkanının, tədrisin yeni forma və vasitələrinin təşkili, tələbə təlimində əks əlaqə metodu kimi nəzarət funksiyasının transformasiyası, qiymətləndirmə prosedurları üçün yeni imkanlar açır.

**Problemin yeniliyi**. Bu ziddiyyətlərin mövcudluğu tədqiqat mövzusunun aktuallığını müəyyən edir, problemi suala cavab tapmaqdan ibarətdir: Şagirdlərdə - gələcək fizika müəllimlərində yeni fiziki biliklərin mənimsənilməsi və tətbiqi, məktəblilərin təhsil prosesində istifadəsi və tətbiqi ilə bağlı fəaliyyət növlərinin formalaşması prosesini müşayiət edən elektron təhsil resursları hansı olmalıdır.

**Problemin praktik əhəmiyyəti**. Tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti ondan ibarətdir ki:- fizika dərslərinin layihələndirilməsi və aparılması baxımından "Fizikanın tədrisi metodikası" kursu üzrə elektron tədris resursları ilə təminat işlənib hazırlanmışdır;- tələbələrə fiziki bilikləri necə mənimsəmələri və tətbiq etmələri ilə bağlı dərslərin tərtib edilməsini və aparılmasını öyrətmək üçün elektron təhsil resurslarından istifadə proqramı hazırlanmışdır.

## Ədəbiyyat


1. Kirillova (Fedko), T.V. Fiziki qanunları qurmaq üçün məktəblilərin fəaliyyətini təşkil etmək üçün gələcək fizika müəlliminin hazırlanması / I.A. Krutova, T.V. Fedko // Müasir fizika təhsilinin problemləri: məktəb və universitet: IV regionlararası elmi-praktik konfransın elmi əsərləri, noyabr 2011. –Armavir:RIOAGPA,2011.– S. 149-155. (0,46 p.l., müəllifin – 0,23 p.l.).
2. 2 M.-L.A. Çepa, N.M. Buqayeva. Virtual mühitdə eksperimentin etibarlılığının təmin edilməsi problemləri / Psixoloji biliklərin strukturunda eksperimental metod. – Москва, – 2012. –s. 82-86.
3. Ospennikova, E.V. Virtual laboratoriya təcrübəsi: onun metodoloji və didaktik funksiyaları / E.V.Ospennikova // Təhsil fiziki eksperimentdə kompüter. – 2002. №15,– s. 79-81.
4. Təhsil sistemində yeni pedaqoji və informasiya texnologiyaları //Red. E.S. Polat. – M.: AKADEMA, 2000.
5. Kavtrev, A.F. "Məktəb fizikası kursunda kompüter modelləri". "Təhsildə kompüter alətləri" jurnalı, №2.Sankt-Peterburq, Təhsilin informasiyalaşdırılması, 1998.S.4–47.
6. İnter@aktiv fizika. Orta və ali təhsil üçün fəal təlim mühitləri sistemi: dərslik. dərslik [Elektron resurs] / D.V. Bayandin, N.N. Medvedeva, O.I. Muxin [və b.]. - OOO IIT. - Elektron. verilmişdir. (7,3 GB, 7,9 GB). – Perm: OOO İIT, 2012. – 2 elektron. topdan. disk (DVD-ROM). Sistem.tələblər: Pentium 1.8 GHz, HDD 8 GB; RAM 2 GB, əməliyyat sistemi: Windows 2000/XP/Vista/7/8.
7. Cəfərov, S.A., Hacıyeva, B.T. Fizika laboratoriya təlimində yeni informasiya texnologiyalarından istifadə metodikasının ümumi məsələləri //Naxçıvan /Müəllimlər İnstitutunun Elmi əsərləri,– 2021. № 2, – s. 109-113.
8. Cəfərov, S.A., Tağıyev, E.B. Ümumim fizika kursu üzrə laboratoriya işləri kompüter modelləri əsasında: Dərs vəsaiti /– Bakı, – 2023. – 246s.
9. Kavtrev, A.F. İnternet texnologiyalarından istifadə edərək fizika dərsi. Onlayn rejimdə kompüter laboratoriyası işi // Təhsildə kompüter alətləri. – 2005. №3, – s. 45–50.
10. Kazakova, E.L., Nazarov, A.İ. Laboratoriya fizikası praktik məşğələlərində kompüter texnologiyalarından istifadənin metodoloji aspektləri // Universitetlərdə fizika təhsili. – 2009. – V. 15, No 3. – s. 86–94.


**Redaksiyaya daxil olub:** 07.04.2025.

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODOLOGY OF TEACHING HISTORY***

*UOT 372.894(100)"05*

***Leyla Qabil qızı Orucova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0009-4701-9300*
*E-mail:leyla_1989orucova@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).171-175*

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN DİGƏR TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİNİN TARİXİ İLƏ İNTEQRATİV TƏDRİSİ PROBLEMİNİN TƏDQİQİNƏ DAİR

***Лейла Габиль гызы Оруджева***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# К ИЗУЧЕНИЮ ПРОБЛЕМЫ ИНТЕГРАТИВНОГО ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА С ИСТОРИЕЙ ДРУГИХ ТУРЕЦКИХ НАРОДОВ И ГОСУДАРСТВ В ВУЗАХ

***Leyla Gabil Orujova***
*doctorial student in the program of philosophy*
*of the Institute of Education of the Republic of Azerbaijan*

# ON THE STUDY OF THE PROBLEM OF INTEGRATIVE TEACHING OF THE HISTORY OF AZERBAIJAN WITH THE HISTORY OF OTHER TURKISH NATIONS AND STATES IN HIGH SCHOOLS

**Xülasə.** Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi probleminin tədqiqi səviyyəsi araşdırılmışdır. Araşdırmalar prosesində həm Azərbaycan, həm də xarici ölkə alimlərinin problemə dair fikir və mülahizələri təhlilə cəlb edilmişdir. Apardığımız təhlillər göstərdi ki, ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi yolları bu günə kimi tədqiqat obyekti kimi seçilməmişdir. Bir çox tarixçi-metodistlər həmin problemi öz elmi əsərlərində qismən şərh etməklə kifayətlənmişlər.
***Açar sözlər:*** *ali məktəb, tədris, təhlil, inteqrativ, tədqiqat.*

**Аннотация.** В статье рассматривается уровень исследования проблемы интегрированного преподавания истории Азербайджана с историей других тюркских народов и государств в высших школах. В процессе исследования были включены в анализ мнения и соображения как азербайджанских, так и зарубежных ученых по проблеме. Наш анализ показал, что пути интеграции истории Азербайджана с историей других тюркских народов и государств в высшей школе не выбраны в качестве объекта исследования. Многие историки-методисты довольствовались частичным освещением этой проблемы в своих научных трудах.
***Ключевые слова:*** *высшее образование, преподавание, анализ, интегратив, исследование*

**Abstract.** In the article, the level of research of the problem of integrated teaching of the history of Azerbaijan with the history of other Turkic nations and states in higher schools is examined. In the process of research, the opinions and considerations of both Azerbaijani and foreign scientists on the problem were included in the analysis. Our analyzes showed that the ways of integrating the history of Azerbaijan with the

history of other Turkic nations and states in higher schools have not been chosen as a research object. Many historians-methodists were content with partially commenting on that problem in their scientific works.

***Keywords:*** *higher education, teaching, analysis, integrative, research.*

Müasir dövrümüzdə elm və texnologiya məhz elmlərin qarşılıqlı əlaqəsi nəticəsində sürətlə inkişaf etdiyinə görə təhsildə də fənlərin bir-biri ilə inteqrativ şəkildə tədrisinə böyük ehtiyac vardır. Azərbaycan təhsilinin müasir dünya təhsil sisteminə inteqrasiya olduğu bir dövrdə bütün təhsil pillələri kimi ali təhsil pilləsinin də qarşısında mühüm vəzifələr durur. Belə ki, ali təhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifələrdən biri elmin yüksək nailiyyətləri ilə silahlanmış, müstəqil düşünməyi bacaran kadrların yetişdirilməsidir. Bu məqsədlə pedaqoji kadr hazırlığına xüsusi diqqət yetirilməlidir. Belə ki, gələcəyin müəllimləri yalnız ixtisası ilə bağlı biliklərə yiyələnməklə kifayətlənməyərək daim peşə səriştələrini artırmağa çalışmaqla innovasiyaları mənimsəyib tətbiq etməyi də bacarmalıdırlar.

İnteqrasiya təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri kimi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu baxımdan ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi aktuallıq kəsb edir. Belə ki, müasir təhsil sistemimiz tələbələrdən tarixi öyrənməklə yanaşı həm də tarixi hadisələri proqnozlaşdırmaq və təhlil etmək bacarıqlarının inkişafını tələb edir. Biz çalışmalıyıq ki, ali məktəblərdə təhsil alan gələcəyin tarix müəllimləri tarixi öyrənərkən tarixi hadisələri keçmişlə əlaqələndirməklə yanaşı gələcək haqqında da proqnozlar verməyi bacarsınlar.

Ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi imkanlarının tədqiqi səviyyəsi ilə bağlı apardığım araşdırmalar göstərir ki, problem bu günə qədər tədqiqat obyekti kimi seçilməmişdir. Lakin bir çox tədqiqatçılar problemlə bağlı bəzi məsələlərə öz elmi əsərlərində toxunmuşdurlar. Onlardan bəzilərini nəzərdən keçirək.

Professor M. Əmirovun "Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası" ali məktəblərin tarix fakültəsi tələbələri üçün nəzərdə tutulmuş dərs vəsaitində verilmiş bölmələrdən biri "Tarix təlimində fənlərarası və fəndaxili əlaqələrdən istifadə" adlanır. Fənlərarası əlaqələrin təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyalara malik olduğunu qeyd edən müəllif fənlərarası əlaqələrin tiplərinə görə təsnifatını vermişdir. Müəllif yazır: "Tarixin digər qohum fənlərlə əlaqəli təlimi şagirdlərdə elmi dünyagörüşün formalaşdırılmasının ən optimal yoludur" (1, s.320). Vəsaitdə həmçinin fənlərarası və fəndaxili əlaqələrin tətbiqi formaları ətraflı şərh edilmişdir.

Dərs vəsaitində apardığımız təhlillərlə bağlı qeyd edə bilərik ki, vəsaitdə problemlə bağlı məsələlərə toxunulsa da, fənlərarası və fəndaxili əlaqələrin tətbiqi formalarına dair nümunələr verilməyib. Problemin bu vaxta qədər tədqiqi məsələlərinə çox səthi toxunulub.

Problemlə bağlı professor M. Əmirovun "Tarix dərslərinin incəsənətlə inteqrasiyasının şagirdlərin estetik tərbiyəsinə təsiri" adlı məqaləsində tarix və incəsənətin inteqrasiyası araşdırılmışdır. Məqalədə inteqrasiya edilmiş dərslərin ənənəvi dərslərdən fərqi göstərilmiş, belə dərslərin mahiyyəti, məqsədi, təhsilalanların intellektual səviyyəsinin yüksəldilməsində rolu göstərilmişdir. Məqalədə qeyd edilir: "İnteqrasiya şagirdlər üçün maraqlı və səmərəli olmaqla yanaşı, öz potensialını reallaşdırmaq üçün daim axtarışda olan müəllimin özünü də özünü ifadə etməyə, fəal yaradıcılığa həvəsləndirir" (2, s. 87).

Biz məqalədə irəli sürülən fikirləri, mülahizələri, əldə edilən nəticələri yüksək dəyərləndiririk. Lakin məqalənin məzmunu ilə bağlı kiçik bir qeydimiz var. Yaxşı olardı ki, məqalədə inteqrativ dərslərin əsas qayəsi olan şagirdlərdə dünyagörüşün formalaşdırılması məsələlərinə daha çox yer verilsə idi, bu məqalənin elmi dəyərini daha da yüksəldərdi.

Prof. İ.H. Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası" adlı monoqrafiyasında Azərbaycan tarixinin tədrisi metodikasını pedaqoji elm sahəsi kimi araşdırmış, proqram və dərslikləri təhlil etmişdir. Monoqrafiyada "Fənlərarası və kursdaxili əlaqələr" adlı yarımfəsil də yer almışdır. Bu hissədə müəllif fənlərarası və kursdaxili əlaqələrin retrospektiv, paralel əlaqə və perspektiv əlaqə olmaqla üç növünü göstərmişdir və bu əlaqələrin izahı verilmişdir.

Müəllifin "Ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəriyyəsi və təcrübəsi" adlı monoqrafiyasında ali məktəblərdə Azərbaycan tarixi tədrisinin konseptual məsələləri araşdırıl-

mış, təlim metodları tədqiq edilmişdir. Monoqrafiyada qeyd edilir: "Müasir şəraitdə beynəlxalq təcrübədə pedaqoji təhsilin diqqət çəkən forma və modelləri arasında tarixin tədrisində inteqrasiyaya əsaslanan təhsil formalarının inkişafı mühüm yer tutur. Buraya tarix – diyarşünaslıq və digər muzeylər də daxil olmaqla muzey pedaqogikası formasının inkişafı, eyni zamanda əlavə tarixi fənlər və mədəniyyətşünaslıq istiqamətli fənlərin əhatə olunduğu Təhsil Arxeologiya Mərkəzinin yaradılması aid ola bilər" (4, s. 35).

Problemlə bağlı tədqiq etdiyimiz ədəbiyyatlar arasında prof. İ.H. Cəbrayılovun "Müəllim kadrları hazırlayan ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri" adlı tədqiqatında müəllif problemlə bağlı elmi-metodik ədəbiyyatların təhlilini vermiş və məktəb təcrübəsi ümumiləşdirilmişdir. Eləcə də qədim dövrdən başlayaraq orta əsrlər dövrü, yeni və ən yeni dövr üzrə Azərbaycan tarixi təliminin məzmunu və onun təkmilləşdirilməsi istiqamətləri verilmişdir. Tədqiqatın nəticə hissəsində ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri arasında fənlərarası əlaqə prinsipinə yetərincə əməl edilməməsi də qeyd edilmişdir.

S. Bəhrəmova "Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası" adlı ali məktəblərin tarix və coğrafiya fakültəsi tələbələri üçün nəzərdə tutulmuş dərs vəsaiti 15 mövzudan ibarətdir. Hər bir mövzu üzrə təlim nəticələri və qiymətləndirmə tapşırıqları vəsaitdə öz əksini tapmışdır. S.Bəhrəmova dərs vəsaitində tarix təlimində inteqrativlikdən istifadənin mahiyyəti, məzmunu və səciyyəvi cəhətlərindən bəhs etmiş, təlimdə inteqrativlikdən istifadənin metodları, texnikları, vasitə və yolları ətraflı təhlil edilmişdir. Həmçinin inteqrativlikdən istifadənin təhsilalanların əqli, əxlaqi dünyagörüş, estetik keyfiyyətlərinin, iradə və xarakterinin formalaşmasındakı rolu şərh edilmişdir. Ümumtəhsil məktəblərinin VI, VII, IX, X və XI siniflərində inteqrativlikdən istifadəyə dair nümunələr vəsaitdə öz əksini tapmışdır.

Müəllif problemin aktuallığını şərh edərək yazır: "İnteqrasiyanın tətbiqinin təlim prosesinin əsas prinsipi kimi qarşıya qoyulması müasir dövrün tələbi kimi gənc nəslə təlim prosesində öyrəndiklərini asanlıqla reallaşdırmağa və həyati bacarığa çevirməyə imkan verir" (6, s.59).

F.Y. Kərimova, M.C. Əhmədova, G. Varrella və Ə. Reylinin müştərək hazırladıqları "İnteqrativ kurrikulum: mahiyyəti və nümunələr" adlı müəllimlər üçün nəzərdə tutulmuş vəsait inteqrativ kurikulumun hazırlanmasına həsr edilmişdir. Müəlliflər vəsaitdə inteqrativ kurikulumun tarixi və onun müəyyən olunması, inteqrasiyaya müxtəlif yanaşmalar, inteqrativ kurikulumda müəllim və tələbələr, kurrikulumu inteqrasiya etməyin on yolu haqqında məlumatlar vermişlər. İki hissədən ibarət olan vəsaitin ikinci hissəsində ali məktəb tələbələri üçün tarix fənnindən dərs nümunələri verilmişdir.

M. Məmmədovanın "Tarix fənni və fənlərarası inteqrasiya" adlı məqaləsində tarixin tədrisi prosesində fənlərarası inteqrasiyanın tətbiqinin təlimin keyfiyyətinin yüksəldilməsində əhəmiyyəti qeyd edilir. Müəllif məqalədə yazır: "Tarixin inteqrativ tədrisi tarixi hadisələrə müxtəlif aspektlərdən yanaşmanı izləyir və onun daha aydın, təfərrüatlı başa düşülməsini təşviq edir" (8, s. 45).

Məqalədə inteqrativ dərslərin təhsilalanların praktik, elmi – nəzəri hazırlığının artırılmasında, məntiqi və tənqidi anlayışların ümumiləşdirilməsində mühüm rol oynadığı qeyd edilir.

T.S. Paşayev "Tarixin tədrisi: tarixilik və müasirlik" adlı monoqrafiyasında tarixin tədrisi ilə bağlı yazır: "Tarixi biliklərin öyrədilməsi digər fənn və dərslərlə əlaqəli həyata keçirilməklə daha yüksək effektli nəticə əldə edilir" (9, s.77). Monoqrafiyanın analitik təhlilindən belə nəticəyə gəlirik ki, şagirdlərdə tarixiliyin və müasirliyin formalaşdırılmasında tarixi biliklərin digər fənlərlə inteqrativ tədrisinin səmərəliliyi göstərilib.

M.Həsənov, Ş.Ağayev, V.Məmmədova və Y.Fərzəliyevanın "Fənlərin inteqrasiyası" adlı metodik vəsaitində müəlliflər təlim prosesində standartlar əsasında fənlərin inteqrasiyasından bəhs etmişlər. Vəsaitdə Blum taksonomiyasından inteqrasiya zamanı istifadəyə metodik aydınlıq gətirilmişdir və müxtəlif məzmunlu təlim materialları daxil edilmişdir.

Manuela Hargassner – Delpos, İlqar Orucov, Ruslan Rəhimlinin müştərək hazırladıqları "Fənn münasibətləri – yeni biliklər istehsalı" adlı vəsaitdə müəlliflər fənlərarası münasibətlərin tarixinə toxunur, müxtəlif nəzəriyyələri bir araya gətirərək, elmi tədqiqat və təhsil üçün geniş təsir imkanları haqqında məlumat verərək

müxtəlif ölkələrin təcrübələrindən geniş şəkildə bəhs etmişlər.

D.M. Musayevin “Методика преподования истории” adlı dərs vəsaitində tədqiq etdiyimiz problemlə bağlı məsələlər də öz əksini tapmışdır. D.Musayev tarixin tədrisində istifadə edilən müasir təlim metodlarının yeri və rolunu, prinsiplərini göstərməklə yanaşı, onların tətbiqi qaydalarını nümunələr əsasında vermişdir. Dərs vəsaitində tarixin tədrisində inteqrativlikdən istifadə məsələsinə də toxunulmuşdur. Müəllif yazır: “Tarix təlimində inteqrativlikdən istifadə təhsilalanlarda elmi dünyagörüşün formalaşmasına, ictimai inkişafın qanunauyğunluqlarının dərk edilməsinə, nəzəri biliklərin əsasında tarixi keçmişi və gələcəyi təhlil edərək dəyərləndirmək bacarığına yiyələnirlər” (12, s. 392).

B.C. Безрукова “Интеграционные процессы в педагогической теории и практике” adlı monoqrafiyasında pedaqogikada inteqrasiyanın geniş imkanlarından bəhs etmişdir. İnteqrasiya proseslərinin zəruriliyi, təzahür formaları və həyata keçirilməsi mexanizmlərinə aydınlıq gətirilmişdir. Vəsait həm nəzəri, həm də praktiki baxımdan faydalıdır.

С.Б. Игнатов, В.А. Игнатова “Интегративный подход в моделировании современного образования” adlı məqaləsində müasir dövrdə təhsil sistemində inteqrasiyanın rolu və imkanları təhlil edilmişdir. Müəlliflər interqasiya terminin izahını verərək, bu anlayışın formalaşması haqqında məlumatlar vermişlər. İnteqrasiya və sintez anlayışlarının əlaqəsinə aydınlıq gətirmişlər. Məqalədə inteqrasiyanın həyatın demək olar ki, bütün sahələrini əhatə etdiyi qeyd edilir.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisinin tədqiqi səviyyəsi ilə bağlı təhlil apardığımız ədəbiyyatlarda problemə qismən toxunulmuşdur. Bu baxımdan problemin işlənməsini zəruri hesab edirik.

**Problemin aktuallığı.** Müasir dövrümüzdə təhsilin modernləşdirilməsi pedaqoji kadrlar hazırlayan ali məktəblərin qarşısına inteqrasiya edilmiş dərslərin gündəlik təcrübəyə daxil edilməsi vəzifəsini qoyur ki, bu baxımdan problemlə bağlı tədqiqatların aparılması olduqca zəruridir. Ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativlikdən istifadə etməklə tədrisi tələbələrdə dünyagörüşünün və türkçülük ideologiyasının formalaşdırılmasına zəmin yaradır. Odur ki, bu sahədə olan boşluğun doldurulmasına böyük ehtiyac vardır.

**Problemin yeniliyi.** Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi probleminin tədqiqi səviyyəsinin qismən öyrənilməsi ilə bağlı ədəbiyyatların təhlili öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi yollarının tədqiqi səviyyəsi ilə bağlı aparılan araşdırmalardan ali məktəb müəllimləri, magistrantlar, tələbələr gündəlik pedaqoji fəaliyyətlərində faydalana bilərlər.

## Ədəbiyyat


1. Əmirov, M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikas: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M.M. Əmirov. – Bakı: ADPU, -2014. -678 s.
2. Əmirov, M.M. Tarix dərslərinin incəsəntlə inteqrasiyasının şagirdlərin estetik tərbiyəsinə təsiri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2024. № 3, -s. 85-88.
3. Cəbrayılov, İ.H. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya / İ.H. Cəbrayılov. –Bakı: Mütərcim, -2006. -236 s.
4. Cəbrayılov, İ.H. Ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəriyyəsi və təcrübəsi. Monoqrafiya / İ.H. Cəbrayılov. –Bakı: Mütərcim, -2008. -264 s.
5. Cəbrayılov, İ.H. Müəllim kadrları hazırlayan ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri / İ.H. Cəbrayılov. –Bakı: Nərgiz, -2004. -63 s.
6. Bəhrəmova, S.Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası (Ali məktəblərin Tarix və coğrafiya fakültəsi tələbələri üçün dərs vəsaiti) / S.Ş. Bəhrəmova. –Bakı: “OPTİMİST” MMC, -2024. -224 s.
7. Kərimova, F.Y., Əhmədova, M.C., Varrella, G., Reyli, Ə. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr / F.Y. Kərimova, M.C. Əhmədova, G. Varrella [və b.] –Bakı: Adiloğlu, -2005. -234 s.
8. Məmmədova, M.S. Tarix fənni və fənlərarası inteqrasiya // Bakı: Bakı Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), -2021. № 2, -s. 45-54.

9. Paşayev ,T.S. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya / T.S. Paşayev. -Bakı: Nurlan, -2006. -280 s.
10. Həsənov, M., Ağayev Ş., Məmmədova V., Fərzəliyeva Y. Fənlərin inteqrasiyası (metodik vəsait) / M. Həsənov, Ş.Ağayev, V.Məmmədova [və b.] –Bakı: "MM-S" müəssisəsi, -2013. –s.64
11. Manuela Hargassner – Delpos, İlqar Orucov, Ruslan Rəhimli Fənn münasibətləri – yeni biliklər istehsalı / –Bakı: "Aztəhcizatçı" MMC, -2024. -292 s.
12. Мусаев, Д.М. Методика преподования истории (учебное пособие для студентов, обучающихся по специальности учителя истории) / Д.М. Мусаев. –Баку: АГПУ, -2021. -638 с.
13. Безрукова, В.С. Интеграционные процессы в педагогической теории и практике / В.С. Безрукова. –Екатеринбург: -1994. 152 с.
14. Игнатов, С.Б., Игнатова В.А., Интегративный подход в моделировании современного образования // МГТУ им. М.А. Шолохова, Вестник «Социально-экологические технологии», -2013. № 1, -с. 99-105.

**Redaksiyaya daxil olub:**10.03.2025

***FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ***
***METHODS OF TEACHING PHYSICAL CULTURE***

*UOT 796:37.02(075.8)*

***Pərviz Nazir oğlu Quliyev***
*Azərbaycan İdman Akademiyasının dosenti*
*https://orcid.org/0000-0002-7559-2624*
*E-mail: pervizquliyev82@mail.ru*

***Rühəngiz Məzahir qızı Əsgərova***
*Azərbaycan İdman Akademiyasının baş müəllimi*
*https://orcid.org/0009-0007-0900-7961*
*E-mail: askerova.r82@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).176-180*

# ÜMUMTƏHSIL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN FİZİKİ VƏ MƏNƏVİ İNKİŞAF PROSESİNDƏ AZƏRBAYCANIN UĞURLU İDMAN SİYASƏTİNİN ROLU

***Парвиз Назир оглу Гулиев***
*доцент Азербайджанской Академии Спорта*

***Рухангиз Мазахир гызы Аскерова***
*старший преподаватель Азербайджанской Академии Спорта*

# РОЛЬ УСПЕШНОЙ СПОРТИВНОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА В ПРОЦЕССЕ ФИЗИЧЕСКОГО И НРАВСТВЕННОГО РАЗВИТИЯ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Parviz Nazir Guliyev***
*associate professor of the Azerbaijan Sport Academy*

***Ruhangiz Mazahir Askerova***
*senior lecturer of the Azerbaijan Academy of Sports*

# THE ROLE OF A SUCCESSFUL SPORTS POLICY OF AZERBAIJAN IN THE PROCESS OF PHYSICAL AND MORAL DEVELOPMENT OF STUDENTS OF SECONDARY EDUCATION SCHOOLS

**Xülasə.** Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, təhsil sistemində də aparılan islahatlar bir sıra dəyişikliklərə, yeniliklərə və modernləşmələrə səbəb olmuşdur. Ölkəmizdə təhsil sisteminin dünyanın tanınmış qabaqcıl ölkələrin təhsilinə inteqrasiyası fiziki tərbiyə və idman üzrə ixtisas fənlərinin məzmununu müasir tələblərə uyğun şəkildə yeniləşməsini qarşıya qoymuşdur. Müstəqilliyimiz dövründə fiziki tərbiyə və idmanın inkişaf tarixinin və müxtəlif aspektlərin tədqiq olunmaması gənc nəslin sağlamlığı və pedaqoji kadrların müasir tələblərə uyğun hazırlığı uğrunda bir sıra çətinlikləri qarşıya qoyur.
***Açar sözlər:*** *idman inkişafı, fiziki və psixi sağlamlıq, nailiyyətlər, fiziki tərbiyə, şagirdlər*

**Резюме.** В статье повествуется о том, что после обретения Азербайджанской Республикой независимости, как и во всех сферах, реформы, проводимые в системе образования, привели к ряду изменений, нововведений и модернизаций. Интеграция системы образования нашей страны с образованием известных передовых стран мира потребовала обновления содержания физической культуры в

соответствии с современными требованиями. Недостаточная изученность истории и различных аспектов развития физической культуры в годы независимости ставит ряд проблем для здоровья подрастающего поколения и подготовки педагогических кадров в соответствии с современными требованиями.

***Ключевые слова:*** *развитие спорта, физическое и психическое здоровье, достижения, физическое воспитание, учащиеся.*

**Abstract.** The article tells that after the Republic of Azerbaijan gained independence, as in all spheres, the reforms carried out in the education system led to a number of changes, innovations and modernizations. The integration of the education system of our country with the education of famous advanced countries of the world required updating the content of physical education in accordance with modern requirements. Insufficient study of the history and various aspects of the development of physical education in the years of independence poses a number of problems for the health of the younger generation and the training of teaching staff in accordance with modern requirements.

***Keywords:*** *sports development, physical and mental health, achievements, physical education, students*

Müstəqillik dövründə ölkəmizin fiziki tərbiyə və idmanının inkişafı yollarını, əldə etdiyimiz nailiyyətləri yeni pedaqoji təfəkkürlə təhlil etdikdə onun inkişafının nəzəri və praktiki istiqamətlərdə xüsusiyyətlərini araşdırmaq kimi vəzifəni qarşıya qoyur. Təhsil sahəsində aparılan islahatlar həm də bədən-tərbiyəsi və idmanın inkişafı istiqamətlərində müasir tələblərə uyğun bir sıra dəyişiklərə və yeniliklərə səbəb olmuşdur ki, bu da təlim-tərbiyə prosesinin məqsədini, vəzifələrini və məzmununu təkmilləşdirərək təhsil sistemini milli maraqlara uyğun qurumasında özünü əks etdirir. Digər tərəfdən fiziki tərbiyə və idmanın inkişafı istiqamətlərində ki problemlərin pedaqoji-psixoloji xüsusiyyətlərinin qarşılıqlı əlaqədə olaraq öyrənilməsi yeni təhsil sistemi qarşısında duran aktual problemlərdən biridir [4,s.56].

Fiziki tərbiyə və idman təmayüllü məktəblərində fiziki tərbiyə müəllimləri və idmanın müxtəlif növləri üzrə məşqçilər fiziki tərbiyə hərəkatı təşkilatçılarının yaranmasına böyük qüvvə sərf edir. Bu istiqamətlərdə öz qüvvəsini sərf edən hər bir mütəxəssis ancaq fiziki tərbiyə və ya məşqçilik məsələləri ilə yox, həm də hərtərəfli dünyagörüşünə malik olan insan tərbiyəsinin həyata keçirilməsində özünü əks etdirir. Pedaqoji prosesdə bu vəzifələri yerinə yetirmək üçün onların məzmun, vasitə, xüsusiyyətləri, metodları və formalarının öyrənilməsi öz həllini tapmalıdır.

Ölkəmizin idmançılarının ardıcıl olaraq dünyada aparılan bütün yarışlardakı iştirakı və əldə etdikləri nailiyyətlər pedaqoji elm tarixinin modelinin qurulması kimi problemin həllini qarşıya qoyur. Fiziki tərbiyə və idmanın inkişafı istiqamətlərində ki tarixi təcrübələri, nəzəri və praktiki istiqamətlərində ki inkişafının formalaşdırılması yollarının sistemləşdirilməsi, elmi-nəzəri cəhətdən təhlili və meydana çıxan nəticələr həmişə öz aktuallığını və sosial dəyərini qüvvədə saxlayacaqdır.

Azərbaycan xalqının fiziki-mənəvi sağlamlığına çalışan cənab İlham Əliyev idman və fiziki tərbiyənin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçiril- məsini diqqətdə saxlamış, daim respublikamızın idman imicinin yüksəlməsinə çalışmışdır. İdmana dövlət qayğısı daha da artmış, ölkəmizin iqtisadi inkişafına, artan maliyyə imkanlarına uyğun olaraq onun maddi-texniki bazasının möhkəmlən- dirilməsi yolunda ciddi işlərə başlamışdı. Dövlət başçısı Azərbaycanın bütün ərazilərində idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılması mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bütün bunlar isə gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşdirilməsinə xidmət edir.

Azərbaycanda idman siyasətinin düzgün qurulduğu isə bu sahədə qazanılmış uğurlu nəticələrdən aydındır. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi, maddi dəstək verməsi və ruhlandırmaşı da vacib amil kimi vurğulanmalıdır [5] .

Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Qazandığımız medallar, idman komplekslərinin ti-

kintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi nüfuzunun möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdmançılarımız əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən sosial, siyasi və mədəni xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcək. İdmançılarımızın beynəlxalq səviyyədə həmişə qazandıqları uğurlar və bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amildir [5].

Hər bir elmin başlıca vəzifəsi ondan ibarətdir ki, insanlar tədqiqat obyektində fəaliyyət göstərən qanunları, qaydaları, qanunauyğunluqları və ziddiyyətləri meydana çıxması, bunlardan necə istifadə etmə yollarını müəyyənləşdirilsin. Fiziki tərbiyə və iman elmi də belədir. O, fiziki hərəkətlərin sağlamlıq, sosial, tərbiyəvi əhəmiyyətini əsas amil kimi nəzərə alaraq istifadə etməyin yollarını əks etdirir.

Tarix boyu fiziki tərbiyənin məqsədini şərtləndirən əsas cəhət ictimai münasibətlər olmuş, və gələcəkdə də ictimai münasibətlər olacaqdır. Fiziki tərbiyənin məqsədinin mövcud ictimai münasibətlərin xarakterinə və konkret inkişaf səviyyəsinə uyğunluğu fiziki tərbiyənin inkişafının mühüm addımlarından biridir [7, s.106].

Fiziki tərbiyə prosesinin mahiyyəti insanların tarix boyu əldə etmiş olduğu nailiyyətləri yeni nəsillərə ötürməkdən ibarətdir. Bu tərzdə yanaşdıqda məlum olur ki, fiziki tərbiyə prosesinin mahiyyəti ümumbəşəridir, bütün ictimai quruluşlara aiddir. Yəni, hər bir ictimai quruluşun müxtəlif inkişaf pillələrində fiziki tərbiyənin nə üçün və nə məqsədlə verilməsi ümumbəşəri xarakter daşımır. Deməli, fiziki tərbiyə prosesində bir tərəfdən ümumbəşəri, digər tərəfdən isə spesifik cəhətlər özünü göstərir .

Ölkəmizdə fiziki tərbiyənin məqsədi, milli əməyə və vətənimizin müdafiəsinə hazır olan sağlam və həyatı sevən bir nəsil tərbiyə etməkdir. Gənclərin birinci toplantısında Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Mən əminəm ki, Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Azərbaycan gənclərinin tam əksəriyyəti sağlam mənəviyyatlı, sağlam düşüncəli, sağlam əxlaqlı gənclərdir” [8].

Fiziki tərbiyə və idman üzrə sahələri öyrənərkən mühüm müddəalarından biri də şəxsiyyətin və xalq kütlələrinin rolunu düzgün müəyyənləşdirməkdən ibarətdir. Xalq nəinki maddi nemətlərin, eləcə də cəmiyyətin mənəviyyatının yaradıcısıdır. Bəşəriyyətin mədəniyyət sahəsində qazandığı ən böyük nailiyyətlər xalqın yaradıcılıq səyləri ilə həmişə sıx surətdə bağlı olmuşdur.

Fiziki tərbiyədə həyata keçirilən amillərin bir çoxunun xalqla əlaqəli olması insanların fiziki tərbiyə və idmanın inkişafında həlledici rol oynamasına sübutdur. İdmanın bir çox müasir növləri öz mənbəyini tarixin uzaq keçmişindən götürmüşdür. Güləş, boks, ağırlıqqaldırma, oxatma, qılıncoynatma, üzgüçülük, futbol, şəhərcik oyunu və s. buna misal ola bilər. Bu növlər əsrlər boyu təkmilləşdirilmiş, qayğı ilə qorunub saxlanılmış, nəsildən-nəsilə ötürülərək bu günə kimi gəlib çıxmışdır. Deməli, fiziki tərbiyə və idman bir elm kimi yalnız fiziki tərbiyə üzrə elmi-tədqiqat işləri aparanlardan, gimnastika sistemi yaradıcılarından, görkəmli məşqçi və idmançılardan və s. bəhs edə bilməz. Onun əsas vəzifəsi fiziki tərbiyə və idmanın inkişafında xalq kütlələrinin həlledici rolunu göstərməkdir [6, s.78].

Fiziki tərbiyə və idman elmi şagirdlərin dünya görüşünün formalaşmasına, bu sahədə peşəkar mütəxəssislərin hazırlığına, onları Vətənə, xalqa sadiq insanlar kimi yetişdirməyə təsir göstərən elmlər sırasına daxildir.

Fiziki tərbiyə və idman qarşısında əməyə və vətəni müdafiə etməyə hazırlamaq kimi yüksək bir məqsəd qoymaqla yanaşı, yuxarıda göstərilən vəzifələri tam və düzgün yerinə yetirilməsini təmin etmək lazımdır. Əgər insan zəifdirsə, fiziki cəhətcən kifayət qədər inkişaf etməmişdirsə, müvafiq bilik və bacarıqlara malik deyilsə, onlara xas olan mənəvi və iradi keyfiyyətlər lazımi səviyyədə inkişaf etməmişdirsə onda onları əməyə və müdafiəyə tam şəkildə hazır olduğunu hesab etmək olmaz. İdmançıların sağlamlığını artırmaq və onların orqanizmini möhkəmləndirmək qayğısına qalmaq qarşıda duran əsas vəzifələrdən biridir. Bu vəzifə fəaliyyət zamanı hər bir müəllimin və məşqçinin diqqət mərkəzində durmalıdır.

Deməli, fiziki tərbiyə və idmanın məqsədi gənc nəsli milli əməyə və vətəni müdafiə etməyə hazırlamaqdır. Bu məqsədə isə fiziki tərbiyənin aşağıda göstərilən vəzifələrini həll etmək yolu ilə nail olmaq mümkündür:

1) fiziki tərbiyə və idmanla məşğul olanların can sağlığını artırmaq və orqanizmini möhkəmlətmək;

2) onları fiziki cəhətdən təmin etmək, güc, möhkəmlik, çeviklik və hərəkət cəldliyini normal inkişaf etdirməkdir;

3) onlara düzgün biliklər vermək, ümumi, təbii hərəkətləri (yerimək, qaçmaq, alət tullamaq və s.), həm də fiziki tərbiyənin xüsusi hərəkətlərini etmək (idmanın müxtəlif növləri, hərəkətli oyunlar, xüsusi gimnastika hərəkətləri və s.), bacarıq və vərdişləri yaratmaq [7,s.48].

Fiziki tərbiyə və idman qarşısında əməyə və vətəni müdafiə etməyə hazırlamaq kimi yüksək bir məqsəd qoymaqla yanaşı, yuxarıda göstərilən vəzifələri tam və düzgün yerinə yetirilməsin təmin etmək lazımdır. Əgər insan zəifdirsə, fiziki cəhətdən kifayət qədər inkişaf etməmişdirsə, müvafiq bilik və bacarıqlara malik deyilsə, onlara xas olan mənəvi və iradi keyfiyyətlər lazımi səviyyədə inkişaf etməmişdirsə onda onları əməyə və müdafiəyə tam şəkildə hazır olduğunu hesab etmək olmaz. İdmançıların sağlamlığını artırmaq və onların orqanizmini möhkəmləndirmək qayğısına qalmaq qarşıda duran əsas vəzifələrdən biridir. Bu vəzifə fəaliyyət zamanı hər bir müəllimin və məşqçinin diqqət mərkəzində durmalıdır.

Fiziki tərbiyə və idmanla müntəzəm surətdə məşğul olmaq sağlamlığı möhkəmləndirir. Fiziki tərbiyə və idman məşğələləri sanitariya nöqteyi-nəzərindən yaxşı şəraitdə həyata keçməlidir, yəni kifayət qədər təmiz havası olmayan binada, yaxud dözümlüyünü azaldan bir istilik şəraitində məşğələ keçmə, fiziki tərbiyə ilə məşğul olanların sağlamlığına zərərli təsir göstərir.

Şagirdlərin fiziki cəhətdən inkişaf etməsi qayğısına qalmaq fiziki tərbiyə müəllimlərinin ən vacib vəzifələrindən biridir. Fiziki tərbiyə müəllimi öz şagirdlərinin fiziki inkişafının xüsusiyyətlərini və səviyyəsini daim nəzərə almalıdır, onlar məşqləri elə təşkil etməli, gimnastika hərəkətlərini, oyunlarını, idman növlərini elə seçməli və hazırlama metodikasını elə verməlidirlər ki, böyüməkdə olan orqanizmin normal inkişafına kömək etsin. Bu zaman insanın həyatı üçün ən vacib olan daxili orqanların, birinci növbədə ürəyin və ağ ciyərlərin, sinir-əzələ sisteminin və hiss orqanlarının görmək, eşitmək, toxunaraq hiss etmək, əzələ ilə hiss etmək qabiliyyətlərinin, müvazinət orqanlarının və s. normal inkişaf etməsi qayğısına qalmaq lazımdır. İkinci isə, bədənin xarici formasının quruluşunun düzgün inkişaf etməsi və onun qayğısına qalmaq lazımdır; bunlara müvafiq uyğunluq və gözəllik verilməlidir; sümüyün təşəkkül tapması və əzələlərinin inkişafına təsir göstərən hərəkətlər bunun üçün əsasdır [3,s.64] .

Fiziki tərbiyə və idman, şagirdlərin can sağlığını artırmaq və onları fiziki cəhətdən inkişaf etdirməklə bərabər, onlara hərəkətləri yerinə yetirmək üçün müəyyən bacarıq və vərdişlər də verir. Fiziki tərbiyə və idmanın tədris proqramlarında fiziki tərbiyə hərəkətlərinin növləri göstərilmiş, müvafiq vərdişlərin növləri və dərəcəsi müəyyən edilmişdi. Məsələn, məktəb tədris proqramında, praktiki cəhətdən vacib olan hərəkətlərin yerinə yetirilməsi üçün şagirdlərin düzgün vərdişlərlə təmin olunmasın tələb edir. Məktəbdə fiziki tərbiyə dərslərində şagirdlərə düzgün yerimək, qaçmaq, tullanmaq, alət tullamaq və sairə öyrədilir.

Şagirdlərin fiziki cəhətdən inkişaf etdirilməsi sahəsində məktəblərin qarşısında böyük vəzifələr durur. Məktəb rəhbərləri və müəllimlər şagirdlərin məktəbə daxil olduqları ilk gündən onların fiziki cəhətdən inkişaf etməsinin və bədən quruluşunun düzgün əldə olması qayğısına qalmalıdır. Xarici amillər uşaq orqanizminə asanlıqla təsir göstərir. Müəllimlər uşaqların orqanizminə daim diqqət verdikdə onların orqanizmi ahəngdar surətdə inkişaf edir, uşaqların oturmasına, düzgün dayanmasına və s. diqqət yetirmədikdə onların bədən quruluşunda uzun müddət nöqsanlar əmələ gələ bilər, yəni uşaqların bel sütunu əyilə bilər və s. Qeyd etmək lazımdır ki, məktəblərdə müəllimlərin bir qismi uşaqların fiziki cəhətdən normal inkişaf etməsi qayğısına qalmır və yuxarıda göstərilən nöqsanlara hələ lazımınca mübarizə aparılmır.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti.** Fiziki tərbiyə müəllimlərinin apardığı iş, gənclərlimizdə milli vətənpərvərlik hissi, vətənə, öz idman kollektivinə və idmana məhəbbət hissi tərbiyə etmək, onlarda idman nailiyyətləri uğrunda, idmanın ən mühüm növləri üzrə dünya rekordları qazanmaq uğrunda mübarizədə öz qüvvələrinə inamı möhkəmlətmək məqsədini güdməlidir. İdman ustalığını yüksəltmək uğrunda, yeni-yeni rekordla qazanmaq uğrunda milli idmançılarımızın mübarizəsi onların müqəddəs vətənpərvərlik borcudur.

**Problemin aktuallığı.** Müasir dövrdə fiziki tərbiyə və idman təmayüllü müəssisələrdə şagirdlərin bilik, bacarıq və təfəkkürünün inkişaf problemi məqalənin aktuallığını şərtləndirən əsas amillərdən biridir.

**Ədəbiyyat**


1. Abiyev, A.Q. Helsinkidən başlayan yol / A.Q. Abiyev, D.Q. Quliyev. – Bakı: Adiloğlu, −2002. − 93 s.
2. Acalov, E.F. Azərbaycanda fiziki tərbiyə və idmanın inkişaf tarixi / E.F. Acalov. − Bakı: Maarif, −1985. − 144 s.
3. Ağayev, Ə.Ə. Pedaqogika / Ə.Ə. Ağayev, Y.R. Talıbov, A.İ. Eminov, İ.N. İsayev − Bakı: Adiloğlu, −2006. −183 s.
4. Aslanlı, M.İ. Fiziki mədəniyyət və mənəvi kamillik / M.İ. Aslanlı. −Bakı: Maarif, −1993. − 246 s.
5. Azərbaycan MOK-un yaradılmasının 20-illiyi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncam. htt://old.525.az./print preview.php?id=43116
6. Babanlı, Y. Tələbə-gənclərin vətənpərvərlik və hərbi-fiziki tərbiyəsinin təşkili. / Y. Babanlı, D. Quliyev. −Bakı: Adiloğlu, −2007. − 202 s.
7. Babanlı, Y.M., Nəsrullayev M. Quliyev D.Q. 5-6 sinif şagirdlərinin fiziki tərbiyə prosesinin elmi-metodik əsasları: Metodik vəsait / Y.M. Babanlı, M. Nəsrullayev D.Q. Quliyev − Bakı: ADNAM, −2015. − 75 s.
8. https://respublika-news.az/az/news/heyder-eliyev-muasir-gencler-siyasetinin-banisidir.


**Redaksiyaya daxil olub:** 07.04.20252025.

***TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА***
***METHODS OF TEACHING FINE ARTS***

*UOT 372.874/875.046.12(075.8)*

***Xatirə Zakir qızı Qocayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0000-7849-7393*
*E-mail: qocayeva_xatire@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).181-184*

# ERKƏN YAŞDA MUSİQİ TƏHSİLİNİN UŞAĞIN ƏQLİ İNKİŞAFINA TƏSİRİ

***Хатира Закир гызы Годжаева***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ВЛИЯНИЕ РАННЕГО МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ НА УМСТВЕННОЕ РАЗВИТИЕ РЕБЕНКА

***Khatira Zakir Gojayeva***
*lecturer at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedaqogy*

# THE İMPACT OF EARLY MUSİC EDUCATİON ON A CHİLD'S MENTAL DEVELOPMENT

**Xülasə.** Erkən yaşda musiqi təhsili alan uşaqlar üzərində aparılan bir çox araşdırmalar bunu göstərir ki, musiqi uşaq inkişafına təsir edən ən vacib məqamlardan biridir. Bu məqalədə erkən yaşda musiqi təhsilinin uşaq inkişafındakı rolundan bəhs edilir və bu mövzuda olan məqalələr tədqiqatlar və araşdırmalar təqdim olunur. Bütün araşdırmalar göstərir ki, erkən yaşdan etibarən musiqi təhsili alan uşaqlarla müqayisədə musiqi təhsili almayan uşaqlara nisbətən bir çox sahələrdə və zəka testlərində uğursuz olurlar. Buna səbəb musiqi təhsilinin əsas xüsusiyyətlərindən biri uşağın inkişafına müsbət, uğurlu və birbaşa təsir göstərməsidir.
***Açar sözlər :*** *uşaq, inkişaf, əqli inkişaf, musiqi, təhsil, zəka, təsir.*

**Аннотация.** Многие исследования, проведенные с участием детей, получающих музыкальное образование в раннем возрасте, показывают, что музыка является одним из важнейших факторов, влияющих на развитие ребенка. В данной статье обсуждается роль раннего музыкального образования в развитии ребенка, а также представлены статьи, исследования и изыскания по этой теме. Все исследования показывают, что дети, получающие музыкальное образование с раннего возраста, не достигают успехов во многих областях и на тестах на интеллект по сравнению с детьми, не получающими музыкального образования. Это связано с тем, что одной из главных характеристик музыкального образования является его положительное, успешное и непосредственное влияние на развитие ребенка.
***Ключевые слова:*** *ребенок, развитие, умственное развитие, музыка, образование, интеллект, влияние.*

**Abstract.** Many studies conducted on children who receive music education at an early age show that music is one of the most important factors affecting child development. This article discusses the role of early music education in child development and presents articles, studies and research on this topic. All studies show that children who receive music education from an early age fail in many areas and intelligence

tests compared to children who do not receive music education. The reason for this is that one of the main features of music education is its positive, successful and direct impact on child development.

***Keywords:*** *child, development, mental development, music, education, intelligence, influence.*

Müasir yüksək texnologiyalar əsrində cəmiyyətin təlim və təhsil səviyyəsinə tələbləri durmadan artırır. Buna baxmayaraq, son illərdə ekoloji və sosial problemlər səbəbindən uşaqların psixofiziki sağlamlıq səviyyəsinin aşağı düşməsi müşahidə olunur və öyrənmə çətinliyi yaşayan uşaqların sayı əhəmiyyətli dərəcədə artmışdır. Müxtəlif müəlliflərin fikrincə, ibtidai məktəb yaşlı uşaqlar arasında öyrənmə çətinliyi olan uşaqlar 30%-ə qədərdir. Böyük dərəcədə bu çətinliklər uşağın psixikasının fərdi funksional sistemlərinin qeyri-kafi inkişafı ilə əlaqədardır. Buna görə də uşaqların inkişafı və korreksiyasının effektiv üsulları problemi son dövrlərdə olduqca aktualdır. Bununla əlaqədar olaraq, yeni korreksiya inkişaf proqramları hazırlanır, lakin uşağın inkişafında əvəzsiz rol oynayan zamanla sınaqdan keçirilmiş fəaliyyət növləri var. Ən təsirli olanlardan biri musiqi təlimidir.

Heç şübhəsiz hamıya məlumdur ki, ana südü körpənin inkişafında həyati əhəmiyyət kəsb etməklə yanaşı, uşağın zəkasının inkişafında da müəyyən təsir edici amildir. Yaxşı, musiqinin ana südü qədər həyati olmasa da, zəkanın inkişafına nəzərəçarpacaq təsir göstərən başqa bir element olduğu nə dərəcədə hər kəsə məlumdur? Gündəlik həyatda dilimizdə çox işlətdiyimiz "musiqi ruhun qidasıdır" deyimi ilə yanaşı, musiqi əslində zəkanın da qidasıdır desək daha düzgün olardı. Mütəxəssislər tərəfindən aparılan araşdırmalar göstərib ki, ana bətnində musiqiyə məruz qalan körpə, xüsusilə klassik musiqiyə məruz qaldıqda həm hamiləlik dövründə, həm də doğuşdan sonra psixi sağlamlıq baxımından daha sakit olur. Bu, həm körpənin musiqiyə reaksiyasını və qarşılıqlı təsirini izah edir, həm də düzgün musiqi növünün seçilməsinin müəyyənedici amil olduğunu göstərir. Məsələn, klassik musiqi körpənin ana bətnində eşitdiyi ana bətni və ürək səslərinə bənzədiyi üçün effektiv nəticə əldə etməkdə həlledicidir. Bir sözlə, musiqi ilə inkişaf arasında birbaşa əlaqə var və təcrübələrdən aydındır ki, musiqidən düzgün və səmərəli istifadə (məsələn, alətdə ifa etmək) uşaq inkişafının bir çox sahələrinə, xüsusən də intellektual inkişafına ciddi müsbət təsirlər edir.

Mütəxəssislər uzun müddət musiqinin uşaq inkişafına təsirini araşdırıblar. Bu sahədə ilk araşdırma 1993-cü il oktyabrın 14-də "Nature" jurnalında dərc olunmuş "Motsart effekti" adlı təcrübə qısa müddətdə populyarlaşaraq cəmiyyətə dərhal təsirlərini göstərmişdir.

Araşdırma Klassik musiqi ilə İQ arasındakı əlaqəyə əsaslanır. Eksperimentdə 36 orta məktəb şagirdinə hər gün 10 dəqiqə iki piano üçün Motsartın D majör sonatası dinlədilib və nəticədə uşaqların İQ-də artım müşahidə olunub. Eyni qrupda çalınan yeni çağ və rəqs musiqisi Motsartla eyni effekti yaratmadı. Motsart effekti təcrübəsini aparan amerikalı alimlər; İrvine Kaliforniya Universitetinin Öyrənmə və Yaddaşın Neyrobiologiyası Departamentində çalışan fizik Qordon L. Shaw və Viskonsin Universitetindən psixoloq Frances H. Rauscherin sözlərinə görə, onlar məktəbəqədər uşaqların beyinlərinin plastik kimi olduğunu və verilən müəyyən təhsillə onların beyinlərini erkən yaşda formalaşdırmaq və qidalandırmaq mümkün olduğunu müdafiə ediblər. Onlar üçün musiqi alətlərində, xüsusən də pianoda ifa etmək- beyin və bədən arasında əlaqə qurduğu, həm ruha, həm də bədənə təsir etdiyi üçün bu metodun ən təsirli metod olduğu ortaya çıxdı. Shaw və Rauscher tərəfindən aparılan başqa bir araşdırmaya əsasən demək mümkündür ki, məktəbəqədər yaşlı uşaqlara fortepiano dərsi vermək, uşaqların elm və riyaziyyatda xüsusi bacarıq göstərməsi üçün lazım olan zehni inkişafın formalaşdırılması ən təsirli yol hesab olunur.(3) Shaw və Rauscher 78 məktəbəqədər yaşlı uşaq üzərində təcrübə apararaq digər bir nəticəyə gəliblər.

Üç-dörd yaşlı 78 uşaq ailələrinin sosial-iqtisadi və mədəni strukturlarının və getdikləri uşaq bağçalarının ekvivalent olması nəzərə alınaraq dörd qrupa bölünərək seçilib. Birinci qrupa vokal və piano dərsləri, ikinci qrupa yalnız nəğmə dərsi, üçüncü qrupa kompüter dərsləri, dördüncü qrupa isə heç nə öyrədilməyib. Uşaqlar həftədə iki dəfə hər biri 15 dəqiqə olmaqla fortepiano dərsi alırdılar və hər bir uşağın eyni müddət ərzində dərs almasına diqqət yetirilirdi. Digər qruplar da öz işlərini səkkiz ay davam etdirdilər. Bu təlimdən sonra 78 uşağa zəka testi tətbiq edildikdə, nəticələr tədqiqatçılar üçün sürpriz olmadı. Piano qrupundakı uşaqların

intellekt baxımdan inkişafı digər qrupdakılardan daha çox idi! Təcrübənin əvvəlində uşaqlara intellekt testi verilib. Səkkiz aydan sonra digər qruplardakı uşaqların intellektində nəzərəçarpacaq irəliləyiş müşahidə olunmadığı halda, piano dərsi qrupunda olanların İQ isə 46 % artıb. Bütün uşaqlar bu tədqiqat üçün beş ayrı testdən keçiblər. Bu testlər pazl birləşdirmək, göstərilən naxışları hazırlamaq, həndəsi fiqurları tanımaq, obyektlərin düzgün rənglərini və şəkillərdəki səhvləri tapmaqdan ibarət idi.

Dr. Shaw və Dr. Rauscher, ilk araşdırmalarında gəldikləri nəticəyə əsasən "Motsartı dinləmənin bir neçə saat davam edən təsirindən ibarət olmasından " fərqli olaraq, fortepiano təliminin təsirinin ömür boyu davam edəcəyini müdafiə edirlər. Təcrübə üç-dörd yaşlı uşaqlar üzərində aparılsa da, onlar öz nəticələrinə 12 yaşa qədər alınan fortepiano dərslərinin təsirli olacağını da əlavə ediblər. Bunu belə izah edirlər; "Musiqi, riyaziyyat və ya şahmat kimi, daha yüksək beyin funksiyalarını işlətməyi tələb edən bir fəaliyyətdir. Bu sahələr həm də yaxşı inkişaf etmiş məkan intellektinin əsasını qoyur. İki tədqiqatçı izah edir ki, uşaqların çevik beyinləri əlaqə yaratmaq üçün formanı dəyişə bilir. "Fortepiano dərsləri beynin qabığındakı qavrayış inkişafı stimullaşdırmaq üçün sinirləri məşq etdirdiyini qeyd edirdilər. (3).

2006-cı ildə kanadalı tədqiqatçı və musiqiçi E. Glenn Schellenberg, Kanadada bir məktəbdə iki fərqli qrup uşaq üzərində musiqi və intellekt arasındakı əlaqəyə dair təcrübə apararaq, musiqi dərsi alan uşaqların İQ test ballarının almayanlara nisbətən əhəmiyyətli dərəcədə yüksək olduğu qənaətinə gəldi. Tədqiqatçı musiqinin xüsusilə riyaziyyata, zəkaya və dünya görüşünü inkişaf etdirmək qabiliyyətinə müsbət təsirlərini müşahidə etmişdir.

Schellenberg öz təcrübəsində belə bir qənaətə gəldi ki, musiqi dərsləri mücərrəd zəkanı təkmilləşdirən diqqət və qavrayış kimi bacarıqların inkişafını təmin edir.(2) Həmçinin musiqi alətində ifa etməyi öyrənmək prosesində bütün duyğu və hərəkət orqanları inkişaf edir: görmə, eşitmə, toxunma, əzələ sistemi - hamısı eyni vaxtda və bir-biri ilə sıx əlaqədədir. Məsələn, fortepiano çalmaq göz almasının güclənməsinə və göz əzələlərinin inkişafına kömək edir, görmə sahəsini genişləndirir, vizual stimullara reaksiya sürətini və sürətli vizual oriyentasiyanı artırır. Axı, uşaq bir baxışla bütün klaviaturanı ələ keçirməli, hər iki əlinin hərəkətlərinə nəzarət etməli, musiqi mətnini daim göz önündə saxlamalı və dərhal naviqasiya etməlidir.

T.N. Maliarenkonun tədqiqatı beynin yetkinləşməsində barmaq hərəkətlərinin xüsusi rolunu göstərmişdir. Barmaqlar üçün müntəzəm məşqlər şərti reflekslərin formalaşması və möhkəmlənməsi prosesini, sensorimotor və nitq zonalarının yetişməsini sürətləndirir, yaddaşın inkişafına kömək edir, beynin inteqrasiya proseslərini gücləndirir (5).

Məsələn, uşaqlarda musiqi alətlərində ifa edərkən qarşılıqlı koordinasiyanın inkişafı yarımkürələrarası əlaqələrin artması ilə müşayiət olunur. Bu, interhemisferik qarşılıqlı əlaqəyə cavabdeh olan beyin strukturlarının digər insanlara nisbətən musiqiçilərdə daha çox inkişaf etdiyini göstərən tədqiqatların nəticələri ilə təsdiqlənir.(5)

Bir sözlə, İQ-nun inkişafında musiqinin effektivliyi, təbii ki, musiqi təhsilinin düzgün şəkildə və lazımi vaxtda tətbiqindən asılıdır. Musiqi təhsili, xüsusən də məktəbəqədər dövrdə (3-6 yaş qrupu) uşaqlara müəyyən anlayış və dəyərlər qazandırmaq üçün çox təsirli bir üsuldur. Musiqinin uşaq inkişafının bir çox sahələrində (sosial, mədəni, emosional və s.) faydalar verdiyi görülür və bütövlükdə uşaq intellektində xüsusilə nəzərəçarpacaq inkişaf təmin etdiyi ortaya çıxır. Musiqinin zəka inkişafını dəstəkləyən digər təsirlərini də sadalaya bilərik; sosial inkişafa, emosional inkişafa, mədəni fona, perspektivə və psixomotor inkişafa təsirləri də qaçılmazdır.

Qədim zamanlardan musiqi insanların həyatında müəyyən funksiyalar yerinə yetirmiş, həm tərbiyə vasitəsi, həm də köklü bir təhsil sahəsi olmuşdur (Uçan, 1994). Bunun səbəbi musiqinin çox kiçik yaşlardan təbii olaraq müxtəlif yollarla həyatımıza daxil olmasıdır. Məsələn, təcrübələr göstərmişdir ki, uşaqlara erkən yaşlarda, xüsusən də məktəbəqədər yaşda düzgün və səmərəli musiqi təhsili verilməsi onların inkişafında mühüm rol oynayır. Xüsusilə, Rauscher və Shaw-un 1999-cu ildə apardıqları "Motsart effekti" adlı araşdırmada, musiqinin uşağın inkişafına (xüsusilə də zehni inkişafa) birbaşa təsir etdiyi iddia edilir. İllər ərzində aparılan müxtəlif araşdırmalar bir-birini dəstəkləyib və izah edib və hər biri musiqinin uşaq inkişafında görünən faydalarına işarə edib.

Araşdırmalar göstərmişdir ki, uşaqlara verilən musiqi təhsili onları özünəinamı yüksək, mənəvi inkişafını sağlam şəkildə tamamlamış, formalaşmış şəxsiyyətə malik, nizam-intizamlı, sosial, dünyagörüşünə malik, yaxşı ilə pisi ayırd edə bilən, daha yaxşı davranış nümayiş etdirən şəxsiyyətlər kimi formalaşmağa sövq edir. Bundan əlavə, araşdırmalar göstərir ki, musiqi təhsili alan uşaqlar, almayanlara nisbətən daha yüksək qiymətlərə, test ballarına və akademik bacarıqlara malikdirlər. Bu, onların yaradıcı, uğurlu və məhsuldar şəxsiyyətlər kimi inkişafına kömək edir. Bundan əlavə musiqi alətlərində ifa edən uşaqlarda psixomotor inkişaf və koordinasiya bacarıqları daha çox inkişaf edir. Bir sözlə, Piajenin aşkar etdiyi musiqi təhsilinin uşaqların inkişaf mərhələlərinə həlledici və birbaşa təsirləri elm adamlarının illər boyu apardıqları araşdırmalarla üzə çıxıb. Musiqi təhsilinin konsentrasiyanı artırmaq, müxtəlif simvolları və mürəkkəb musiqi ifadələrini düzgün qavramaq və ayırd etmək bacarığını təmin etmək kimi əsas xüsusiyyətləri uşağın inkişaf mərhələləri ilə paralellik göstərir və uşaq inkişafının əvəzsiz elementi kimi meydana çıxır.

Xülasə, musiqi ilə inkişaf arasında birbaşa əlaqə var və təcrübələr göstərir ki; musiqidən düzgün və səmərəli istifadə uşaq inkişafının bir çox sahələrinə, xüsusən də intellektin inkişafına ciddi töhfələr verir.

**Problemin aktuallığı.** Hər dövr üçün uşaq inkişafı və ona təsir edən amillər aktual problemlərdən biridir. Məqalədə uşaq inkişafı və erkən yaşda musiqi təhsilinin uşağın inkişafına təsiri araşdırılaraq müəyyən nəticələr əldə edilir.

**Problemin elmi yeniliyi**. Qədim zamanlardan musiqi insanların həyatında müəyyən funksiyalar yerinə yetirmişdir. O, həm tərbiyə vasitəsi, həm də əsaslı bir təhsil sahəsi olmuşdur. Bunun səbəbi musiqinin çox kiçik yaşlardan təbii olaraq müxtəlif yollarla həyatımıza daxil olmasıdır. Məsələn, təcrübələr göstərmişdir ki, uşaqlara erkən yaşlarda, xüsusən də məktəbəqədər yaşda düzgün və səmərəli musiqi təhsili verilməsi onların inkişafında mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti** onunla müəyyən olunur ki, məqalədə yer alan fikirlər, elmi ideyalar və nəticələrdən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Azərbaycan təhsil sistemində musiqi təhsilinin öz yeri vardır // Azərbaycan müəllimi. – 2012, 12 aprel. – s.4
2. Ruziev D. Y. Alət çalma və oxuma bacarıqlarının inkişafının bəzi psixoloji xüsusiyyətləri // Akademiya. Elmi-metodiki jurnal, 2020. № 3. s. 64-67.
3. Rauscher, Frances H., Gordon L. Shaw, and Katherine N. Ky. 1995. “Listening to Mozart enhances spatial-temporal reasoning: towards a neurophysiological basis.” Neuroscience Letters 185, 44-47
4. Schellenberg, G, E. (2012). Music Lessons, Emotional Intelligence, and IQ. Music Perception, 29(2), 185-194.
5. Маляренко Т. Развитие электрической активности мозга у детей 4-х лет при пролонгированном усилении сенсорного притока с помощью музыки // Физиология человека. 1996. Т. 22. № 1. С. 82.


**Redaksiyaya daxil olub:** 17.03.2025.

*XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*
*МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ*
*METHODOLOGY OF TEACHING FOREIGN LANGUAGES*

*UOT 372.881.111.1*

***Günel Kərim qızı Hacıyeva***
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*İ.Nəsimi adına Dilçilik İnstitutunun Monitorinq*
*və linqvistik təhlil şöbəsinin elmi işçisi*
*E-mail:* gunel_sm@yahoo.com
https://orcid.org/0000-0002-4940-0238
*https://doi.org/10.69682/arti.2025.92(2).181-184*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YUXARI KURS TƏLƏBƏLƏRİNİN NİTQLƏRİNDƏ İDİOMATİKLİK VƏ AUTENTİKLİK MƏSƏLƏLƏRİ

***Гюнель Карим гызы Гаджиева***
*Научный сотрудник отдела Мониторинга и лингвистического анализа*
*Института Языкознания им. И. Насими Национальной Академии*
*Азербайджанской Республики*

# ВОПРОСЫ ИДИОМАТИЧНОСТИ И АУТЕНТИЧНОСТИ В РЕЧИ СТУДЕНТОВ СТАРШИХ КУРСОВ ПРИ ОБУЧЕНИЕ АНГЛИЙСКОМУ ЯЗЫКУ

***Gunel Karim Hajiyeva***
*researcher of department of Monitoring and linguistic analysis*
*of the Institute of Linguistics named after I. Nasimi of National Academy*
*of the Republic of Azerbaijan*

# ISSUES OF IDIOMATICITY AND AUTHENTICITY IN THE SPEECH OF SENIOR-COURSE STUDENTS IN ENGLISH TEACHING

**Xülasə.** Məqalə dil fakültələrinin yuxarı (III-IV) kurslarında ingilis dilinin tədrisi prosesində idiomatik ifadələrin autentik materiallarla mənimsədilməsinin üstünlüklərini təqdim edir. İngilis dilinin öyrədilməsinin səmərəliliyinin ilkin şərtlərindən biri bu dili dildaşıyıcılarının öz dilindən eşitmələridir. Tədrisdə autentik materiallardan istifadə tələbələrin dildaşıyıcılarının tələffüzünə, intonasiyasına, danışıq sürətinə və üslubuna bələd olmaları üçün yardımçı vasitədir. İdiomların tədrisi isə tələbələrin obrazlı və ifadəli nitq vərdişlərinə yiyələnmələrinə, ekspressiv kommunikativ kompetensiyaya malik olmalarına bilavasitə zəmin yaradır.
***Açar sözlər:*** *idiomlar, ekspressiv ifadə vasitələri, autentik mətnlər, dildaşıyıcıları, dilin təbii mənzərəsi*

**Аннотация.** В статье представлены преимущества усвоения идиоматических выражений аутентичными материалами в процессе преподавания английского языка на старших (III-IV) курсах языковых факультетов. Одним из предпосылок эффективности обучения английскому языку является то, что носители этого языка слышат его со своего родного языка. Использование аутентичных материалов в обучении является вспомогательным средством для студентов, чтобы они были знакомы с произношением, интонацией, скоростью и стилем речи своих носителей языка. А обучение идиомам создает непосредственную основу для овладения учащимися навыками образной и выразительной речи, приобретения выразительной коммуникативной компетенции.
***Ключевые слова:*** *идиомы, выразительные средства выражения, аутентичные тексты, носители языка, естественный облик языка*

*Günel Kərim qızı Hacıyeva*

**Abstract.** *The article presents the advantages of mastering idiomatic expressions with authentic materials in the process of teaching English in the senior (III-IV) courses of language faculties. One of the main prerequisities for the effectiveness of teaching English is that native speakers hear this language in their language in their own language. The use of authentic materials in teaching is an auxiliary tool for students to become familiar with the pronunciation, intonation, speaking speed and style of native speakers. The teaching of idioms directly creates a basis for students to acquire figurative and expressive speech habits and have expressive communicative competence.*

***Keywords:*** *idioms, expressive means of expression, authentic texts, native speakers, natural shade of language*

Modernləşmiş ingilis dilinin öyrənilməsinə maraq durmadan artır. Bu, tamamilə təbii proses kimi müasir dünyamızda universal ünsiyyət vasitəsi olub ingilis dilinə sosial tələbatın göstəricisidir. İngilis dilli ölkələrin dünya iqtisadiyyatında – texnoarenada, infoarenada və bir sıra başqa sahələrdə tutduqları qabaqcıl yerlərinə görə bu dilin özünəməxsus çəkisi qorunur.

Dünya dilləri arasında kifayət qədər nüfuza malik olan bir dilə – ingilis dilinə yiyələnmək istəyən tələbələrimiz yalnız onun öyrənilməsi ilə kifayətlənməməlidirlər, eyni zamanda çoxsahəli kommunikasiyaya hazır olmalı, müxtəlif kateqoriyalı mövzularla bağlı bu dildə rahatlıqla söhbət qurmağı bacarmalıdırlar. Bu baxımdan, müəllimlərin üzərinə düşən ən mühüm məsələ tələbənin öz fikrini ingilis dilində səlis, asanlıqla ifadə etməsi bacarığının formalaşdırılmasıdır.

Dilöyrənmənin ilkin mərhələsində linqvistik aspekt həm şifahi, həm də yazılı nitq üçün keçərli olsa da, dilin üslubi məqamları qrammatik qaydalar və yeni sözlər üzərində deyil, məhz kontekst daxilində və situasiyada öyrədilməlidir. Yalnız bundan sonra tələbələr ingilis dilində danışılanların, xüsusilə, obrazlı ifadə vasitələrinin – idiomların kontekstual-situativ mənalarının başa düşülməsi ilə real ünsiyyət vərdişlərinə, yəni idiomlardan istifadə bacarıqlarına yiyələnə bilərlər.

Dil fakültələrinin yuxarı (III-IV) kurs tələbələrinin sözügedən bacarıqlara yiyələnə bilmələri üçün aşağıdakı məsələlərin diqqətə alınmasını vacib sayırıq:

- İdiomların tədrisində elmliliyə (həyati fakt və hadisələrə) əsaslandırılma;
- İdiomların tədrisində əyaniliyə (konkret hadisələrlə bağlı ümumişləklik) əsaslandırılma;
- İdiomların tədrisində sistematikliyin (baza biliklərə istinad edilməsi ilə, yeni biliklərin ardıcıllıqla öyrənilməsi) quruluşu;
- İdiomatik materialların seçilməsində tərbiyəvilik (məzmunun ədəb, davranış qaydaları əsasında seçilməsi) konsepsiyasının nəzərə alınması;
- İdiomatik materialların inkişafetdirici (məzmun dairəsi dolğun, əhatəli) xüsusda olması;

İngilis dili idiomlarla zəngin bir dil olduğundan bu tip ifadələrin tədrisi prosesində aşağıdakı prinsiplər əsas götürülməlidir:

- İdiomların mənimsənilməsinə dərin maraq və intelektual stimulyasiyanın formalaşdırılması;
- İngilis idiomlarının öyrədilməsi çərçivəsində dilə müsbət fikrin formalaşdırılması, mədəni və sivil dəyərlərə rəğbət hissinin aşılanması.

İdiomlar obrazlı, emosional, ekspressiv ifadə vasitələri olub hər hansı bir hadisəyə, əşyaya subyektiv, məqsədyönlü, məntiqi-fəlsəfi və estetik münasibətini ifadə edir, nitqimizə rəngarənglik qatır, təsiretmə xüsusiyyətinə malik olub kommunikasiya zamanı aktuallaşdırma, gücləndirmə, effektivləşdirmə funksiyasını icra edir.

Hər bir xalqın müxtəlif tarixi-sosioloji, tarixi-ənənəvi dövrlərini əhatə edən, həmin xalqın "mədəni yaddaş"ı hesab edilən ekspressiyalar nəinki keçmiş, hətta indiki dövrdə də insan həyatının, demək olar ki, bütün sahələrini və mərhələlərini, fəaliyyət istiqamətlərini özündə ehtiva edir. Məsələn:

"*When we took over the hotel five years ago, the business was* ***on the rocks*** *(in serious difficulty). The economy was doing badly and people* ***were giving*** *luxury hotels like ours a* ***wide berth*** *(avoiding). The previous owners had decaded to* ***cut and run*** *(avoid a difficult situation by leaving suddenly), but we loved the place and were sure we could make a go of it. We* ***battened down the hatches*** *(got ready for a diffucult situation by preparing in every way possible) by cutting costs as much as possible and did all we could to* ***run a tight ship*** *(control a business or organisation firmly and effectively). Holidays and any other luxuries for our own family* ***went by the board*** *(were*

*abandoned) for two years. However, we managed to* ***weather the storm*** *(survive difficult times) and are now* ***making good headway*** *(making good progress). We have lots of major bookings* ***in the offing*** *(likely to happen soon) and are confident of making excellent profits this year* [5, p. 34].

Zəngin çalara malik idiomlardan dil resusları kimi gündəlik söhbətlərdə, mediada, mətbuatda, bədii ədəbiyyatda, qeyri-formal, hətta formal yazıda belə tələbələr istifadə edə bilərlər. Bu tip materiallar tələbələri real dil kontenti ilə yaxından tanış edir. Məsələn: "Formal writing":

"*A recently published Ministry of Education document* ***points the way*** *(suggests how something might be done in a better way) to more teaching of languages at primary schools. This document* ***sets the stage*** *(makes something more likely to happen) for radical changes in language teaching. However, this* ***begs the question*** *(causes you to ask a particular question) as to how enough teacher will be found to teach second languages to young learners. Some changes in teacher training are about to be* ***set in motion*** *(started), and it is hoped that these will* ***open the door to*** *(let something new start) more successful language teaching* [5, s.86]."

Sanballı nitqin qurulması üçün fikirlərin sistematik quruluşu, rabitəli uzlaşması zəruri şərtdir. Əlbəttə, burada bitməmiş cümlələrdən, natamam kəlamlardan, yarımçıq frazalardan söhbət gedə bilməz. Fikirlərin nitqdə müvafiq qaydada düzülüşü kontekstindən asılı olmayaraq müəyyən bir mətnin formalaşması qaydasıdır. Ümumiyyətlə, istər xüsusi nitq vasitəsilə, istərsə də ümumi dillə bir fərddən digər fərdə ötürülən fikirlər özlüyündə bir mətn təşkil edir. Fərd tərəfindən danışılanların qavranılması üçün mətnə ehtiyac duyulur. Mətni təşkil edən cümlələr nitqdə bir-birini izləyərək semantik bağlılıq yaradır. Mətndaxili cümlələr kontekst yaradaraq danışanın fikirlərinin məğzini ortaya qoyur. Fərdin sistemləşdirilmiş dil materiallarından ibarət, yəni nitq fəaliyyətinin nəticəsi olan mətnin müşahidə olunması linqvistik hadisə hesab olunur.

Mətnlər elə tərtib edilməlidir ki, onlar ingilis dilinin tədrisinin məqsədlərindən biri hesab edilsin, burada yeni metod və priyomlardan geniş istifadə olunsun. *"Mətn müxtəlif qrammatik, semantik, sintaktik strukturlu cümlələrdən ibarət olur. Mətnin ən az iki cümlədən ibarət olması vacibdir. Əgər cümlə ayrılıqda bitmiş bir fikri ifadə edirsə, baş vermiş hadisənin məğzini aça bilmir. Hadisənin təfsilatı üçün genişlənmə lazımdır ki, bu da mətn daxilində baş verir və hər bir sonrakı cümlə özündən əvvəlki cümləni izah edir"* [2, s.83-84].

Mətn kommunikasiya vasitəsi və linqvistik baxımdan bir ünsiyyət prosesi kimi geniş kontekstin koqnitiv, kommunikativ, sosiomədəni qanunları vasitəsilə ərsəyə gəlir. Mətn özlüyündə bu kimi funksiyaları yerinə yetirir:

- Mətn informasiya daşıyıcısıdır, adresant və adresat arasında ünsiyyət yaradır, eyni zamanda auditoriyaya yönləndirilimiş məlumat funksiyasını realizə edir;
- Auditoriya ilə sosial-mədəni təcrübə arasında bir ünsiyyət vahididir;
- Mətn oxucunun və ya dinləyicinin özü ilə ünsiyyəti reallaşdırır, onunla aktiv dialoqa daxil olur;
- Mətn şəxsiyyətin yenidənqurulması, özünüdərk, intelektual səviyyəsinin yüksəldilməsinə bilavasitə köməklik göstərir.

Bir çox alimlər tərəfindən aparılmış silsilə təhlillərə əsasən, aşağıdakı qənaətlərə gəlirik:

- Mətn kollektivin, eyni zamanda natiqin və ya müəllifin daxili aləmini izhar edir, onun fərdiliyini üzə çıxarır;
- Mətn vasitəsilə dinləyici natiqlə, oxucu müəlliflə, bir xalq başqa bir xalqla sanki ünsiyyət qurmuş olur;
- Mətn həm təbii-tarixi situasiyanın, həm də cari sosial situasiyanın elementi rolunu oynayır.

Təqdim edilən məqalə ingilis dili dərslərində idiomatik ifadələrin tədrisi məsələlərini və autentik mətnlərin (materialların) rolunu araşdırır. "Autentik mətn" dedikdə, dərhal fikrimizə orijinal mətn, yəni orijinal dil materialları gəlir. Autentik mətnlər məxsus olduğu dilin təbii mənzərəsini təcəssüm etdirən – səs (orfoepik norma) və yazıdan (orfoqrafik norma), söz və söz birləşməsindən (leksik norma), qrammatik quruluşdan (dilin üsul və qaydaları), müxtəlif üslub və ifadə vasitələrindən (dilin bədii xüsusiyyətləri; nitq vasitələrindən istifadə üsulları) ibarət bir sistemi ehtiva edir. Autentik mətn öz orijinal strukturu ilə situativ (şəraitin ekstralinqvistik elementləri olan) nitqin, o cümlədən dialoji və monoloji nitqin mənaca bitkin hissəsidir. Kamal Abdullayevin təbirincə söyləsək, "*mətn resipiyent (danışıq aktı zamanı informasiyanı*

*qəbul edən tərəf) tərəfindən semantik informasiyanı alma prosesində əsas faktor kimi çıxış edir*"sə [1, s.191], autentik mətnlər də dildaşıyıcılarının real dil mənzərəsini təcəssüm etdirir.

Yuxarı kurs tələbələrinin ingilis dili dərslərində qazandıqları bilik və bacarıqları praktik ünsiyyət müstəvisinə köçürmək, fikirlərində tutduqları fəaliyyəti ingilis dilində sərbəst və səlis nitq aktına asanlıqla transfer etmələri üçün tədrisdə onların dilə yiyələnmə imkanlarını genişləndirmək lazımdır. Tələbələrin nitqlərinin autentikliyini təmin edilməsi məqsədilə ingilis dili dərslərinin təşkili prosesində autentik materiallardan istifadə diqqətdə saxlanılmalıdır. Bu məsələdə tələbələrin maraq və tələbatları mütləq nəzərə alınmalıdır.

Autentik mətnlər dildaşıyıcılarının nitq tərzini, danışıq formalarını, üslubi xüsusiyyətlərini, ünsiyyət münasibətlərini bilavasitə nümayiş etdirməsi baxımından yuxarı (III-IV) kurs tələbələrində kommunikativ səriştənin inkişaf etdirilməsi və təkmilləşdirilməsi prosesində səmərəli vasitədir. Autentik mətnlər vasitəsilə idiomların tədrisi yuxarı (III-IV) kurs tələbələrinin ekspressiv kommunikativ səriştələrinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif iş müsahibələrində, konkurslarda, konfranslarda, xarici səyahətlərdə, bir sözlə, ingilis dilli bütün mühitlərdə idiomatik ifadələrlə zəngin autentik mövzular vasitəsilə öyrənilənlərin tələbələrin yardımına yetməsi tədrisin faydalılığının və səmərəliliyinin yüksək göstəricisinin əksidir. *"Autentik materialların dərsliklərlə müqayisədə daha çeşidli olması bu materialların üstün cəhətlərindəndir"* [3, s.73].

İngilis dilini tədris edərkən tələbələrin ümumi dünyagörüşünün, eyni zamanda mədəni-elmi, yəni intellektual səviyyəsinin artırılması üçün ingilis dilinin idiomlarının məhz autentik mətnlər vasitəsilə tədrisinə əhəmiyyət verilməlidir. Əlbəttə, bunun üçün öncə tələbələrin təhsil pilləsi, dil biliyi səviyyələri diqqətə alınmalıdır. İdiomların autentik mətnlər vasitəsilə tədrisi tələbələrin şifahi nitq bacarıqlarının obrazlı inkişafına əhəmiyyətli töhfə, yüksək effektivlik verə bilər.

**Problemin aktuallığı.** Kommunikasiya prosesi zamanı tələbələrin real dil mühitində təbii və daha sərbəst ünsiyyət qurmaları, o cümlədən kommunikativ səriştəyə daha yüksək səviyyədə yiyələnmələri üçün idiomlarla zəngin autentik materiallardan tədrisdə istifadə nəzəri bilikləri real həyat hadisələrinə köçürməyə və tətbiq etməyə imkan yaradır.

**Problemin elmi yeniliyi.** Dil fakültələrinin yuxarı kurs tələbələrində ingilis dilində ekspressiv nitq vərdişlərinin inkişaf etdirilməsi baxımından idiomların autentik materiallar vasitəsilə tədrisi olduqca əhəmiyyətlidir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İngilis dilinin tədrisində yuxarı kurs tələbələrinin nitqlərinin idiomatikliyi və autentikliyinin təmin edilməsi onlara real dil mühitində dildaşıyıcılarını asanlıqla anlamağa, eyni zamanda ekspressiv, obrazlı ünsiyyət qurmalarına rəvac verir.

## Ədəbiyyat


1. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. -Bakı: Maarif, – 1999. -281 s.
2. Qurbanova, L. Dildə fonetik və fonoloji mənimsəmə və interferensiya hadisəsi (İngilis və Azərbaycan dillərinin materialları əsasında. -Bakı, 2016. -208 s.
3. Məhərrəmli, A. Azərbaycan təhsil sistemində autentik materiallardan istifadənin mövcud vəziyyəti // –Bakı: Azərbaycan məktəbi, – 2024. № 4, – s. 69-77.
4. Harmer, J. The Practice of English Language Teaching. Longman. Third Edition. Completely Revised And Updated, – 2001. -370 p.
5. O'Dell, F., McCarthy, M. English Idioms in Use. Advanced. Cambridge University Press, – 2010, – 185 p.
6. Seidl, J., McMordie, W. English Idioms. Fifth edition. Oxford University Press., – 1988. - 267 p.
7. Trask, R.L., Mayblin, B. Linguistics (A Graphic Guide). UK, -2000. -177 p.


**Redaksiyaya daxil olub:** 17.03.2025.

***MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ***
***ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***
***HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT***

*UOT 37(091)(4/9)*

***Xanım Hüseyn qızı Qədimova***
*Bakı Dövlət Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-5398-0386*
*E-mail:khanimqadimova@gmail.com*

***Aysel Azər qızı Qədimova***
*tərcüməçi*
*https://orcid.org/0009-0001-3269-986X*
*E-mail:ayselgadimovagul@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).189-194*

# QƏDİM ŞƏRQ SİVİLİZASİYALARI: PEDAQOJİ FİKİR VƏ TƏHSİL

***Ханым Гусейн гызы Кадимова***
*преподаватель Бакинского Государственного Университета,*
*доктор философии по педагогике*

***Айсель Азер гызы Кадимова***
*переводчик*

# ДРЕВНЕВОСТОЧНЫЕ ЦИВИЛИЗАЦИИ, ПЕДАГОГИЧЕСКАЯ МЫСЛЬ И ОБРАЗОВАНИЕ

***Khanim Huseyn Gadimova***
*lecturer at Baku State University,*
*doctor of philosophy in pedagogy*

***Aysel Azar Kadimova***
*translator*

# PEDAGOGICAL THOUGHT AND EDUCATION IN ANCIENT EASTERN CIVILIZATIONS

**Xülasə**. Məqalədə qədim sivilizasiyalarından olan Qədim Misir, Hindistan və Çində məktəb təhsili, tərbiyə, pedaqoji fikir məsələlərindən bəhs edilir.

Qədim Misirdə ailə tərbiyəsi əsas rol oynamışdır. Tədris bir neçə mərhələli idi. Məktəblərdə əsasən firon, ali zadəganların və varlı ailələrin övladları oxuyurdu.

Qədim Hindistanda tərbiyə və təhsil kastalar arasında fərqlənirdi. Ali kastaların (kahinlər, döyüşçülər, əkinçilər) oğlanları üçün təhsil məcburi idi. Şagirdlər müəllim – qurunun evində yaşayır, Veda mətnlərini əzbərləyirdilər. Buddizmin yaranması ilə monastırlarda hamıya təhsil almaq imkanı verildi.

Qədim Çində ilk məktəblər syan, syuy adlanırdı. Təhsil yalnız varlı ailələrin uşaqları üçün əlçatan idi və əxlaq, yazı, hesablama, musiqi, oxatma, at sürmə kimi altı sənəti əhatə edirdi. Heroqlifik yazı əsas öyrənmə məqsədi idi. Konfutsi (e.ə. 551–479) məktəbi dialoq və nümunəyə əsaslanırdı.

***Açar sözlər:*** *Qədim Misir, mərhələli təhsil, qədim Hindistan, kastalar, müəllim-quru, Buddizm, qədim Çin, Konfutsi məktəbi.*

**Аннотация.** В статье рассматриваются вопросы школьного образования, воспитания и педагогической мысли в древних цивилизациях Древнего Египта, Индии и Китая.

В Древнем Египте основную роль играло семейное воспитание. Обучение проходило в несколько этапов. В школах в основном обучались дети фараонов, высшей знати и богатых семей.

В Древней Индии воспитание и образование различались между кастами. Для мальчиков высших каст (жрецов, воинов, земледельцев) образование было обязательным. Ученики жили в доме учителя-гуру и заучивали наизусть тексты Вед. С появлением буддизма в монастырях появилась возможность получать образование для всех.

В Древнем Китае первые школы назывались «сянь» и «сюэ». Образование было доступно только детям из богатых семей и включало шесть искусств: этику, письмо, арифметику, музыку, стрельбу из лука и верховую езду. Основной целью обучения было изучение иероглифического письма. Школа Конфуция (551–479 до н. э.) основывалась на диалоге и подражании примерам.

***Ключевые слова:*** *Древний Египет, ступенчатое образование, Древняя Индия, касты, учитель-гуру, буддизм, Древний Китай, школа Конфуция.*

**Abstract.** The article discusses school education, upbringing, and pedagogical thought in ancient civilizations such as Ancient Egypt, India, and China.

In Ancient Egypt, family upbringing played a crucial role. Education was multi-stage, and schools were mainly attended by the children of pharaohs, high nobles, and wealthy families.

In Ancient India, education and upbringing varied among castes. Education was mandatory for the sons of higher castes (priests, warriors, and farmers). Students lived in the teacher-guru’s house and memorized Vedic texts. With the emergence of Buddhism, monasteries provided education opportunities for everyone.

In Ancient China, the first schools were called "syan" and "syuy." Education was accessible only to children from wealthy families and covered six arts: morality, writing, arithmetic, music, archery, and horse riding. Learning hieroglyphic writing was the primary goal. Confucius (551–479 BCE) based his school on dialogue and example.

***Keywords:*** *Ancient Egypt, phased education, ancient India, castes, teacher-guru, Buddhism, ancient China, Confucian school.*

Arxeoloji məlumatlar göstərir ki, məktəb təhsili Qədim Misirdə b e. ə. III minillikdə inkişaf etmişdir. Qədim misirlinin idealı lakonik, taleyin zərbələrinə, çətinliklərə davan gətirən insandır. Belə bir idealın məntiqində təlim və tərbiyə də yer tuturdu. Qədim Misirdə ailə tərbiyəsi və təhsili, kişi ilə qadın arasındakı münasibətdə olduğu kimi, bərabərhüquqlu xarakteri əks etdirirdi. Buna görə də oğlan və qızların tərbiyəsinə eyni diqqət yetirilirdi. Belə ki, qədim misirlilərin inanclarına görə, oğul və qızlar cənazə, dəfn mərasimini yerinə yetirdikdən sonra valideynlərinə yeni həyat verə bilərdilər.

Ailə təlimin əsasını təşkil edirdi. Kahinlər, musiqiçilər, sənətkarlar öz peşələrini uşaqlarına ötürürdülər.

Qədim Misir papiruslarına görə, misirlilər uşaqlara çox hörmətlə yanaşırdılar.

Qədim Misirdəki məktəblər kiçik idi. Orada az sayda şagird təhsil ala bilirdi. Təlim fərdi keçirilirdi.

Bu, şagird ilk dəfə məktəbə gəldiyi gündən başlayırdı. Təlimlərin davamlılığı hər bir uşağın qabiliyyətindən, çalışqanlığından və maddi imkanlarından asılı idi.

Birinci mərhələdə şagird saymağı, oxumağı və tez yazmağı öyrənməli idi.

İkinci mərhələdə bəzi şagirdlər stilistika və qrammatika, ədəbiyyat və musiqini öyrənirdilər. Onlar məsəllər və salnamələr yazır, şeirlər, aforizmlər, mahnı və ilahilərin müəllifləri olurdular.

Digərləri riyaziyyatı öyrənirdilər, özlərini tikintiyə həsr etdilər. Onlar binalar, gəmilər və kanalların tikintisini həyata keçirirdilər. Başqa qrup şagirdlər sonradan inzibati və iqtisadi vəzifələr tutmaq üçün iqtisadiyyatın və qanunvericiliyin əsasları ilə tanış olurdular. Məktəblərdə məmurların, kahinlərin, torpaq mülkiyyətçilərinin, ticarət və sənətkarlıq elitasının uşaqları oxuyurdular. Bu uşaqlar təhsil haqqını ödəyə bilirdilər. Kral məktəbləri xüsusi yer tuturdu. Burada ali zadəganların uşaqları fironların və qohumlarının övladları ilə birlikdə oxuyurdular. Uşaqlar 5 yaşından başlayaraq bu məktəblərdə təlim alırdılar. Bilikləri əldə etmək üçün şagirdlər ən azı 700 heroqlifi yadda saxlamalı, səlis,

sadələşdirilmiş və klassik yazını fərqləndirməli idilər. Şagird dünyəvi ehtiyaclar və dini mətnlərin tərtib edilməsi üçün qanuni bir iş tərzini mənimsəməli idi. Bir sıra məktəblərdə riyaziyyat, coğrafiya, astronomiya, tibb, digər xalqların dilləri tədris olunurdu.

Kanalların, məbədlərin, piramidaların tikintisində, məhsulun miqdarının təyin edilməsində, xüsusilə Nil daşqınlarının proqnozlarında istifadə olunan astronomik hesablamalar üçün lazım olan biliklər öyrədilirdi. Coğrafiya həndəsə ilə birlikdə öyrədilirdi ki, şagird hər hansı bir ərazinin planını çəkməyi öyrənə bilsin. Yeni Krallıq dövründə (E.ə. V əsr) tibb məktəbləri meydana çıxır. Bu vaxta qədər əlli müxtəlif xəstəliklərin diaqnozu və müalicəsi ilə bağlı biliklər və dərs vəsaitləri toplanmışdı.

Məktəb həyatının reallığı idealdan çox uzaq idi. 2 təhsil almaq çox əmək tələb edirdi. Rutin, monoton xarakterli təhsil fəaliyyəti şagirdləri yorurdu. Beləliklə, qədim Şərq məktəb mətnlərində daim rast gəlinən: diqqətli olmaq və nizam-intizama riayət etmək çağırışlarıdır. İtaətə nail olmağın ən təsirli üsulu fiziki cəza hesab olunurdu. Şagirdlərə daim zərbələr dəyirdi, məktəbin devizi isə belə idi: "Oğlanın qulaqları onun belindədir, onu döyəndə dinləyir".

Onları dəyənəklərlə, begemot dərisindən hazırlanmış qamçılarla döyürdülər, dəcəl olanları üç ay müddətinə qandallara salırdılar. Pis oxuyanlar "insanlar" (işçi qüvvəsi) sırasına düşürdü və ixtisassız işlərə yönləndirilirdilər.

Qədim Padşahlıq dövründə (e.ə. III minillik) hələ də gil parçaları, dəri və heyvan sümükləri üzərində yazırdılar. Artıq bu dövrdə bataqlıq bitkisi olan papirusdan hazırlanmış kağız meydana çıxdı. Sonralar o, əsas yazı materialına çevrildi.




***Qədim Misir rəqəmləri. Luvr muzeyi***

Məktəblilərin özünəməxsus yazı ləvazimatı var idi: su üçün taxta kasa, his və oxra boyası üçün oyuqları olan taxta lövhə, yazı üçün qamış çubuq. Mətnin demək olar ki, hamısı qara boya ilə yazılırdı. Qırmızı boya isə durğu işarələrini qeyd etmək, məna baxımından əsas ifadələri və başlanğıc sözləri vurğulamaq üçün istifadə olunurdu. Buradan "qırmızı sətir" ifadəsi yaranmışdır.( красная строка)

Məktəb papiruslarından dəfələrlə istifadə olunurdu. Növbəti istifadədən əvvəl onlardan əvvəlki yazılar silinirdi. Müəllimlər (katiblər) papirusun üzərində dərsin tarixini – gün, ay, il – qeyd edirdilər. Köçürülüb əzbərlənən dərs vəsaitləri olan burma kitablar mövcud idi.

Qədim Hindistanda tərbiyə və təhsil.

Qədim Şərq pedaqoji fikrinin görkəmli nailiyyətlərindən biri insan həyatında şagirdlik mərhələsinin qanunauyğun bir dövr kimi qəbul edilməsi idi. Bu fikir eramızdan əvvəl I minilliyin ortalarına aid olan Qədim Hindistana məxsusdur. Hindlinin bütün həyatı mərasimlər silsiləsindən ibarət tamamlanmış bir dövr kimi qəbul olunurdu: uşağın ana bətnində olması, onun doğulması, ilk dəfə evdən çıxarılması, ad qoyulması və s.

Şagirdlik dövrü insanın həyat mərhələlərindən biri idi. Qədim Hindistan cəmiyyətində kastaya bölünmə ali və aşağı sosial təbəqələr üçün tərbiyədə, təhsildə fərqlərin dini və qanuni baxımdan təsdiq olunmasına səbəb olmuşdur. Ümumilikdə dörd kasta mövcud idi (kahinlər, döyüşçülər, əkinçilər, xidmətçilər və sənətkarlar).

Təhsil yalnız üç ali kasta üçün məcburi hesab olunurdu. Onun başlanğıcı şagirdliyə qəbul mərasimi ilə qeyd olunur və "ikinci doğuluş" mənasını daşıyırdı. Mərasim zamanı 7–8

yaşlı oğlanların çiynindən qurbanlıq ip asılırdı və bu ip ömürlərinin sonuna qədər çıxarılmırdı."

İthaf etmə yalnız ali kastaların nümayəndələri üçün əlçatan idi. Bu, onların Veda mətnlərinə (biliklərə) yiyələnmək hüququnu təmin edirdi.

"İki dəfə doğulmuş" şəxs bir neçə il ustad – quru yanında təhsil alır, onun rəhbərliyi altında Veda düsturlarını əzbərləyir və ayinləri mənimsəyirdi. Müəllim evində təhsil ailə münasibətləri prinsipi əsasında qurulurdu: şagird ailənin bir üzvü sayılırdı və təhsil almaqla yanaşı, insan cəmiyyətində yaşama qaydalarını da öyrənirdi. Təhsil yeri müəllimin evi – qurukula idi.

Şagird müəlliminə hörmət etməyə alışırdı, müəllim hətta valideynlərdən də üstün tutulurdu. Gənc oğlan müəllimini müşayiət edir, ona ayaqyalın və başı açıq şəkildə xidmət edirdi.

O, başını əyərək onun sözlərinə qulaq asır və müəllimin dediklərini yadda saxlamağa çalışırdı. Şagird böyüklərə hörmət və itaət ruhunda tərbiyə olunurdu. O, su daşıyır, ev ocağına nəzarət edir, müəllimin inəklərini otarırdı. Bu da bir növ təhsil haqqı sayılırdı. Şagird vaxtaşırı dilənçilik etməyə gedir, o cümlədən kənddəki soydaşlarından da yardım alır və əldə etdiklərini müəlliminə gətirirdi. Şagirdliyin vacib şərtlərindən biri ciddi ismətlilik, paklıq idi. Nəfsin, istəklərin qarşısını almaq üçün gənc sərt həyat tərzi keçirməli idi: yerdə yatmaq, ət, duzlu və ədviyyatlı yeməklərdən imtina etmək. Müəllim və şagirdlər arasındakı münasibətlər dini mətnlər və qanun toplusu ilə tənzimlənirdi.

Qədim Hindistanda təhsil biliklərin şifahi yolla ötürülməsinə əsaslanırdı. Bunun səbəbi, birincisi, Qədim Hindistanda yazıların palma yarpaqları üzərində yazılması və onların çox uzun müddət saxlanmaması idi. İkincisi isə şifahi olaraq sözün, biliklərin ötürülməsi ən etibarlı yol hesab olunması idi. Şagirdlər mətnləri eşidərək qəbul edir, təhlil edir və əzbərləyirdilər. Onlardan mətnin başa düşülməsi tələb olunurdu.

Yeni dərs müəllim tərəfindən yalnız şagird əvvəlki dərsi mənimsədikdən sonra keçirilirdi. İmtahanlar mövcud deyildi. Brahmanların (kahinlərin) uşaqları əsasən müqəddəs mətnləri və qrammatikanı öyrənirdilər. Döyüşçü və əkinçi ailələrindən olan uşaqlar bu mətnləri qısaldılmış şəkildə öyrənir, həmçinin gələcəkdə onlara lazım olacaq bilik sahələrini – hərb sənəti, katiblik, mühasibat, aqrotexnika və s. mənimsəyirdilər.

E.ə. I minilliyin ortalarında qədim Hindistan sivilizasiyasının tarixində yeni bir dövr başlanır. İqtisadi, mənəvi həyat, tərbiyə və təhsil sahəsində mühüm dəyişikliklər yeni bir din – buddizmin yaranması üçün şərait yaratdı. Bu dinin əsasını Budda (Şakya-Muni, e.ə. 623–544) Siddhartha Gautama qoymuşdur. Buddizm kasta bərabərsizliyi prinsipini rədd edərək şəxsiyyətə müraciət etmiş və insanların doğuluşdan bərabər olduğunu bəyan etmişdir.

Buddist əxlaqı zorakılıqdan, oğurluqdan, əxlaqsızlıqdan, yalandan və içkidən imtina etməyi tələb edirdi. Bu göstərişlərə riayət etməklə, düşüncələrinin, sözlərinin və əməllərinin saflığı sayəsində insan ruhunun xüsusi bir vəziyyətinə çata bilərdi. Bu da onun xilasını təmin edirdi. İdeal isə tam mənada eqoizmdən imtina, fədakarlıq və sərhəd tanımayan səxavət hesab olunurdu.

Buddist monastrlarında dinindən asılı olmayaraq hər kəsin təhsil ala biləcəyi məktəblər açılırdı. Buddistlər tərbiyə verdikləri insanları öyrənmək üçün müxtəlif vasitə və üsullara malik idilər. Onlar müşahidələr əsasında hər bir insanın fərdi tərbiyə, inkişaf və kamilləşmə proqramlarını tərtib edirdilər.

Tərbiyə və təhsil tövsiyə xarakteri daşıyırdı. Buddist ənənəsinə görə, müəllim daim şagirdi müşahidə etməli, ona nəyə can atmaq, nədən çəkinmək lazım olduğunu öyrətməli idi, lakin yol seçimi həmişə şagirdin özü tərəfindən edilirdi. Müəllim daim şagirddə enerji və öyrənmək arzusunu dəstəkləyirdi.

Qədim Çində məktəb və pedaqoji fikir. Qədim Çində ilk məktəblər e.ə. III minillikdə yaranmışdır. Onlar syan və syuy adlanırdı. Syan əvvəlcə yaşlı insanların sığınacaq yerlərində meydana gəlmiş və burada gənclərə təlim və nəsihət verilirdi. Syuy məktəblərində isə əvvəlcə hərbi iş, xüsusilə oxatma öyrədilirdi. Sonralar tədris müəssisəsini ifadə etmək üçün syüe (öyrətmək, öyrənmək) sözü işlədilirdi.

O dövrdəki syüelərdə yalnız azad və varlı insanların uşaqları oxuyurdu. Təhsil və tərbiyə proqramına altı sənət daxil idi: əxlaq, yazı, hesablama, musiqi, oxatma və at sürmə. Müəllimin fəaliyyəti çox hörmətli hesab olunurdu.

Öyrənmənin əsas məqsədi heroqlifik yazının mənimsənilməsi idi. Heroqlifdən istifadə bacarığı irsən ötürülür və cəmiyyətdə çox yavaş yayılırdı. İlk heroqliflər tısbağa çanaqları və

müxtəlif heyvanların sümükləri üzərində həkk olunmuşdu. E.ə. X əsrdən etibarən, heroqliflər bürünc qablar üzərində görünməyə başladı. E.ə. VIII əsrdə isə yazı üçün yarılmış bambuk lövhələr və ipək parçalar istifadə olunurdu. Burada yazı üçün lak ağacının şirəsi və itilənmiş bambuk çubuq işlədilirdi.

Qədim Çində məktəb təhsilinə yanaşma qısa, lakin dolğun bir düstura əsaslanırdı: asanlıq, şagird və müəllim arasında razılıq, şagirdlərin müstəqilliyi. Müəllim öz yetirmələrinə müxtəlif məsələləri müstəqil şəkildə qoymağı və həll etməyi öyrədirdi.

Çin qədim sivilizasiyalar sırasında dayanır, burada tərbiyə və təhsili nəzəri cəhətdən dərk etməyə ilk cəhdlər edilmişdir. Əsas fəlsəfi məktəblər Çində e.ə. VI əsrdə formalaşmışdır. Bunlara daosizm, buddizm və konfutsiçilik aid idi. Pedaqoji fikrin inkişafına ən böyük təsiri Konfutsi və onun davamçıları göstərmişdir.

Konfutsi e.ə.551–479 illərdə öz məktəbini yaratmışdı. Rəvayətə görə, burada üç minə qədər şagird təhsil almışdı. Sonralar Konfutsi elm və təhsilin ilahi hamisi kimi hörmətlə anılmışdır. Konfutsi məktəbində tədris metodu müəllim və şagirdlər arasında dialoqlara, fakt və hadisələrin təsnifatı və müqayisəsinə, nümunələrə təqlidə əsaslanırdı. Konfutsi qədim Çinin tərbiyə və təhsil təcrübəsini ümumiləşdirərək bu sahədə öz orijinal ideyalarını irəli sürmüşdür.

Konfutsi tərbiyəni və mənəvi kamilliyi insan varlığının mühüm amilləri, rifahın zəruri şərtləri hesab edirdi. Konfutsinin fikrincə, cəmiyyətin sabitliyi sosial təyinatına uyğun tərbiyəyə əsaslanır: "Hökmdar hökmdar, vəzir – vəzir, ata – ata, oğul – oğul olmalıdır".

Konfutsi tərəfindən təbiətin və cəmiyyətin tərbiyədəki rolu məsələsinin qoyuluşunda fəlsəfi məna mövcuddur. İnsanın təbiəti – düzgün tərbiyə olunduqda ideal şəxsiyyətin formalaşa biləcəyi materialdır. Tərbiyədə böyük yaradıcılıq gücü görən Konfutsi, bununla belə, onu hər şeyə qadir hesab etmirdi və son pedaqoji nəticəni irsiyyətlə əlaqələndirirdi.

Bu tezisi inkişaf etdirərək, filosof insanların təbii imkanlarının bərabər olmadığını qeyd edirdi. O, ali, fitri müdrikliyə malik olanları ("göyün övladları", "hökmranlar"), məhdud təbii qabiliyyətlərinə baxmayaraq, elm əldə edənləri ("nəcib kişilər", "dövlətin dayağı") və bilikləri qavrama prosesində çətinlikləri olan insanları ("avam kütlə") fərqləndirirdi.

Konfutsiyə görə, ideal tərbiyə almış insan yüksək keyfiyyətlərə malik olmalıdır: nəciblik, həqiqətə can atmaq, düzlük, hörmət və zəngin mənəvi mədəniyyət. Filosofa, bəlkə də, insanlıq tarixində şəxsiyyətin hərtərəfli inkişafı ideyasının ilk dəfə məxsus olması aid edilir. Burada savadlılıqdan daha çox əxlaqi başlanğıca üstünlük verilir.

Əxlaqi, zehni, estetik və fiziki inkişaf proqramı "göy oğulları" və "nəcib kişilər" üçün yuxarıda qeyd olunan "altı sənətə" yiyələnməyi nəzərdə tuturdu.

Kлассik əsər, Konfutsinin pedaqoji baxışlarının əks olunduğu traktat – "Söhbətlər və mühakimələr" ("Lun Yuy") adlanır. Bu əsərdə filosofun şagirdləri ilə söhbətləri əks olunmuşdur. Bu kitabdan bəzi kəlamlar (sitatlar) bunlardır: "Öyrənmək və düşünməmək – boş yerə vaxt itirməkdir, düşünmək və öyrənməmək isə təhlükəlidir", "Əgər özünü təkmilləşdirə bilmirsənsə, başqalarını necə təkmilləşdirə bilərsən?", "Öyrənməkdən doymamaq", "Öyrənmək və öyrəndiklərini zaman-zaman təkrarlamaq."

Konfutsinin davamçıları dörd əsr boyunca **"Mərasimlər kitabı"** (e.ə. IV–I əsrlər) adlı traktat tərtib etmişlər. Bu kitabda məktəb təhsili insan üçün zəruri və əsas amil kimi qəbul edilir: **"Daim təhsil almağı düşün".**

-Kitabda pedaqoji prinsiplər, metodlar və üsullar sistemi izah olunur:

"Əgər pisliyi aşkarlandığı anda dayandırmasan, onu aradan qaldırmaq mümkün olmayacaq."

• Birinci tədris ilindən sonra məktəblinin oxumağı bacarıb-bacarmadığı müəyyənləşdililir. "Ağsaqqal insan nəsihət edir, amma zorla məcbur etmir; həvəsləndirir, amma məcbur etmir; yolu göstərir, amma sona qədər aparmır."

• "Ağsaqqal insan təhsildə möhkəmlənir, kamilləşir, əyləncə vasitəsilə bilik əldə edir."

• "Vaxtı keçibsə oxumağa başlasan da, uğur qazana bilməzsən."

• "Ardıcıllığa hörmət et."

• "Əgər təkbaşına öyrənsən, dünyagörüşün məhdud, biliklərin isə kasad olacaq."

• "Müəllim və şagird birlikdə inkişaf edir" və s.

Traktatda "Təlim haqqında" adlı bir fəsil var. burada konfutsiçiliyin ruhunda didaktik ideyaların geniş təsviri verilir. Bu fəsildə 9 illik

təhsil və tərbiyə proqramı və vəzifələri izah olunur. Təhsilə 7–8 yaşında başlamaq təklif edilirdi.

Qabiliyyətləri yoxlanılırdı, üç ildən sonra – təhsilə meyli olub-olmadığı, yoldaşları ilə ünsiyyətdən zövq alıb-almadığı müəyyən edilirdi. Beş ildən sonra – onun biliklərinin nə dərəcədə dərin olduğu və müəlliminə nə qədər bağlı olduğu öyrənilirdi. Yeddi ildən sonra – onun məntiqli mühakimə yürütmək qabiliyyəti və dost seçmək bacarığı yoxlanılırdı. Nəhayət, doqquz ildən sonra məktəbi bitirən şəxs "elmə möhkəm yiyələnmiş" olmalı idi.

**Problemin aktuallığı.** Gender bərabərliyi – oğlan və qızların təhsilinə eyni diqqətin yetirilməsi bu günkü gender bərabərliyi, fərdi yanaşma və ixtisaslaşma – şagirdlərin fərdi bacarıqlarına və maraqlarına uyğun yönəldilməsi müasir təhsil sistemlərində də tətbiq olunan yanaşmadır. Təhsil və sosial təbəqələşmə – təhsil haqqının ödənilməsi və elit məktəblərin mövcudluğu bu gün də aktualdır.

**Problemin yeniliyi.** Qədim sivilizasiyalarda təhsilin müxtəlif mərhələləri və istiqamətləri, o cümlədən humanitar və dəqiq elmlərin tədrisi, fərqli sosial qrupların vəzifələrə hazırlanması prosesi mühüm yenilikdir. Təhsil proqramlarının – riyaziyyat, coğrafiya, astronomiya, tibb və digər fənlərin öyrədilməsi ilə bağlı konkret biliklərin və metodların mövcudluğu bu aspektdə maraqlıdır.

**Problemin praktik əhəmiyyəti.** Müəllim və şagird arasında harmoniyanın əhəmiyyəti Qədim Çində təhsil prosesinin əsas prinsiplərindən biri idi. Müəllimin nüfuzu və rolu, müəllimin böyük hörmət sahibi olması və onun təkcə bilik ötürən deyil, həm də əxlaqi nümunə olması vurğulanırdı. Müstəqil düşünmə və analitik qabiliyyətin inkişafı, əxlaqi və mənəvi tərbiyənin önəmi xüsusilə praktik əhəmiyyət daşıyır.

## Ədəbiyyat


1. Yusifov, Y.B. Qədim Şərq tarix: Dərslik / Y.B. Yusifov.- Bakı: Bakı Universiteti nəşriyyatı -1992. 496 s.
2. Джуринский, А. Н. История педагогики : учеб. пособие для студ. пед. вузов /А.Н.Джуринский. – М. Гуманитар.изд. центр ВЛАДОС,1999.– 432 с.
3. Константинов, Н. А. История педагогика: учебник для студ. пед. ин-тов / Н. А. Константинов [и др.]. – 5-е изд., доп. и перераб. – М.: Просвещение, 1982. – 447 с.
4. Васильева, З. И. История педагогики и образования : учеб. пособие для студ. высш. учеб. заведений / И. Н. Андреева, Т. С. Буторина, З. И. Васильева [и др.] ; под ред.З.И. Васильевой. Издательский центр"Академия", 2008. – 432 с.
5. Корнетов, Г. Б. Школа, воспитание и педагогика цивилизаций Ближнего Востока (Древность и Средние века) / Г. Б. Корнетов, Л. С. Бликштейн. – М.: "Логос", 1993. – 280 с.
6. Капранова, В.А. История педагогики: учеб. пособие / В. А. Капранова. – М. : Новое знание, 2003. – 160 с.
7. Константинов, Н. А. История педагогика: учебник для студ. пед. ин-тов / Н. А. Константинов [и др.]. – 5-е изд., доп. и перераб. – М.: Просвещение, 1982. – 447 с.
8. Коджаспирова, Г. М. История образования и педагогической мысли: таблицы, схемы, опорные конспекты: учеб. пособие для студ. высш. учеб. заведений /Г.М. Коджаспирова – М.: Изд-во ВЛАДОС-ПРЕСС, 2003.– 224 с.


**Redaksiyaya daxil olub:** 26.02.2025.

UOT 37(091)(4/9)

**Rafael Mail oğlu Əliyev**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi
https://orcid.org/0000-0001-9702-265X
E-mail:adnsu@internet.ru
https://doi.org/10.69682/arti.2025.92(2).195-198

# ABDULLA ŞAİQİN YARADICILIQ ÜSLUBU VƏ UŞAQ ŞEİRLƏRİNİN POETİK SİSTEMİ

**Рафаэль Маил оглы Алиев**
преподаватель Азербайджанского Государственного Университета Нефти и Промышленности

# ТВОРЧЕСКИЙ СТИЛЬ И ПОЭТИЧЕСКАЯ СИСТЕМА ДЕТСКИХ СТИХОВ АБДУЛЛЫ ШАИГА

**Rafael Mail Aliyev**
teacher at Azerbaijan State University of Oil and Industry

# ABDULLA SHAIG'S CREATIVE STYLE AND POETIC SYSTEM OF CHILDREN'S POEMS

**Xülasə.** A. Şaiqin zəngin yaradıcılığında uşaq şeirləri mühüm bir hissədir. O, Azərbaycan ədəbiyyatı tarixində şair, nasir, dramaturq, tərcüməçi, publisist kimi tanınmışdır. Pedaqoji fəaliyyəti, dərsliklərin, proqramların hazırlanmasında müstəsna xidmətləri vardır. Məhz bu zənginlikdə ən diqqəti cəlb edən tərəf onun yaradıcılıq üslubunun müəyyənləşməsi, bədii düşüncəsinin enerji qaynaqlarının aydınlaşmasıdır. Uşaqlar üçün yazdığı əsərlər ədibin dil sənətkarlığını, bədii düşüncəsinin üslub özəlliklərini aydınlaşdırmaq üçün əsaslı faktura ilə səciyyələnir. Ona görə də onun şeirləri uşaq ədəbiyyatının spesifikasını, mahiyyətindəki ecazkarlığı aydınlaşdırmaq baxımından müstəsna dəyər qazanır.
***Açar sözlər:*** *A. Şaiq, uşaq ədəbiyyatı, uşaq poeziyası, yaradıcılıq üslubu, poetik sistemi, uşaq dərslikləri.*

**Аннотация.** Детские стихи занимают особое место в богатом творчестве Абдуллы Шаига. В истории Азербайджана он известен как поэт, драматург, переводчик, публицист. Следует также отметить его исключительные услуги в педагогической деятельности, при подготовлени программ и учебников. Самая выдающаяся часть его богатого творчества, определения стиля,пояснение идеи художественных источников энергии. Стихи написанные для детей, особо выделяют литературный язык искусства поэта, особенности идеи художественных стилей. Поэтому его стихи приобретают исключительную ценность с точки зрения выяснения специфики детской литературы.
***Ключевые слова:*** *А. Шаиг, детская литература, детская поэзия, творческий стиль, поэтическая система, детские учебники.*

**Abstract.** Children's poems are important part of A. Shaig's rich activity. He is known as a poet, prosaist, dramatist,translator, publicist in the history of Azerbaijan literature. He has got exclusive services in the preparation of textbooks and programs. Namely in this richess the most attractive side is to determine his activity's style and clarifly energy sources of his artistic ideas. His plays written for children are characterized by fundamental texture to clarify the writer's mastery and style peculiarities of his artistic ideas. So,his poems gain exceptional varue to defermine specifics of children's literature and the miracle of its essence.
***Key words:*** *A. Shaig, children's literature, children's poetry, mastery style, poetic system, children's books.*

Azərbaycan ədəbi-mədəni mühitinin zənginləşməsində əvəzsiz xidmətləri ilə seçilən Abdulla Şaiqin bütün fəaliyyəti xalqın maariflənməsinə, mədəni təbəqənin səviyyəsinin yüksəlməsinə, dil saflığına, etnosun mənəvi dəyərlərinin qorunuşuna hesablanmışdır. Böyük maarifpərvər ziyalının bütün müstəvilərdə özü bu ideallarn reallığı və təqdimi üçün nümunə idi. Məhz bu səbəbdəndir ki, onun uşaqlar üçün gördüyü çoxyönlü gərəkli işləri, zəngin yaradıcılığı sənətkar idealını açmağa şərait yaradır. "Uşaq çeşməyi", "İkinci il", "Gülşəni-ədəbiyyat", "Gülzar", "Milli qiraət", "Qiraət kitabı" və s. dərslikləri A. Şaiqin maarif və mədəniyyət sahəsində bir pedaqoq kimi sistemli fəaliyyətinin göstəricisidir. Görkəmli maarif xadimi H. Mahmudbəyovun müdir olduğu məktəbin aşağı siniflərindəki müəllim kimi fəaliyyəti (1901) bu işlərin həyata keçirilməsi üçün əsas olmuşdu. Bütün bunlar, ailəsi, düşdüyü ictimai-mədəni mühitlər A. Şaiqin elmi-pedaqoji fəaliyyətinin istiqamətini müəyyənləşdirmişdir. H. Zərdabi, Ə. Haqverdiyev, N. Vəzirov, H. Mahmudbəyov, S.S. Axundov, S. Hüseyn, Ə. Hüseynzadə, M.Ə. Sabir, M. Hadi, A. Səhhət, H. Cavid və s. kimi görkəmli simalarla bir mühitə düşməsi və onlarla sıx mədəni əlaqələri də onun ziyalı kimi formalaşmasına əsas olmuşdur. Bir növ zəngin ədəbi-mədəni mühit də A. Şaiq şəxsiyyətini, üslubunu formalaşdırmışdır.

A. Şaiqin bütün fəaliyyəti etnos dəyərlərinin, qorunuşuna, milli-mənəvi əxlaqın saflığına və gənc nəslin milli ruhda tərbiyəsinə hesablanmışdı. Bunu onun təkcə pedaqoji sahədəki fəaliyyəti deyil, həm də yaradıcılığı bir tərəf kimi aydın şəkildə göstərirdi. "Nə üçün", "Yad et", "Hamımız bir günəşin zərrəsiyik", "Uşaq və dovşan", "Xoruz", "Yetim cücə", "Təpəl kəlim", "Payızın son ayı", "Cütcü", "Bülbül" , "At", "Yağış" və s. kimi uşaq şeirləri özlüyündə ədəbiyyatımız üçün A. Şaiq üslubunu formalaşdırmışdır. Bu əvəzsiz üslubun qaynağı isə xalqın zəngin folklorundan gələn dil sadəliyi idi. Məsələn, "Yetim cücə" şeirindən bir parçaya diqqət yetirək:

Ay kiçik, soluq cücəm,
Boynu buruq, yoluq cücəm!
Açma o nazlı dimdiyin,
Başlama qəmli cikciyin (2, s. 141).

XIX əsrin sonu XX əsrin əvvəllərindən özünü güclü şəkildə göstərən milli oyanış bədii məkanda dil, üslub sadəliyini, uşaqların mənəvi ehtiyaclarını, maariflənməsini, əlifba məsələsini bir problem kimi zəruri edirdi. A. Şaiq də məhz bu çoxşaxəli yaradıcılığında bir nasir, pedaqoq, şair, tərcüməçi, dramaturq olaraq mövcud problemlərin həllində vətəndaşlıq nümunəsi göstərməyə çalışırdı. Onun məktəblilər üçün yazdığı uşaq şeirləri, eləcə də səhnə əsərləri, hazırladığı proqram və dərsliklər buna nümunədir. "A. Şaiqin pedaqoji fəaliyyətinin effektiv nəticəsi onun bir sıra şeirlərinin bədii təsvirlərində öz əksini tapır. Bu şeirlərdə maarifçiliyin inkişafına təkan verən ideyalar, uşaqların və valideynlərin məktəbə sevgi hisslərinin tərənnümü daha qabarıq nəzərə çarpır. A. Şaiqin yaratdığı valideyn obrazları elmi, məktəbi, ədəbi təbliğ edir, övladını "məktəbə get, dərs oxu" tövsiyəsi ilə tərbiyəsinə çalışır" (2, s.141). Yuxarıdakı poetik mətn funksional sistemi, janr məzmunu ilə ciddi bir mahiyyəti özündə ehtiva edir. Uşaqların zəngin dünyasını, fantaziyasını, həyat təsəvvürlərini ifadə etmək kontekstində əhəmiyyət daşıyır. A. Şaiq bu baxımdan uşaq dünyasının ən yaxşı bilicilərindəndir. Onu pedaqoji sahədəki fəaliyyəti, məktəbin ehtiyaclarını dərindən bilməsi, uşaq bacarığını müəyyənləşdirə bilmək qabiliyyəti bütünlükdə yaradıcı istedadını ortaya qoymağa imkan vermişdir. Məlum olduğu kimi, "uşaq poeziyasının mövzu və məzmunundan danışarkən adətən onun tərbiyəedici mahiyyəti ön plana çəkilir. Yazılan bədii əsər balaca oxucuya hansı hissləri təlqin edir, onun həyata hazırlanmasında nə dərəcədə rol oynayır, qarşısında hansı perspektivləri açır? Əsərin bədii məziyyətlərinə belə bir keyfiyyətlərin uşaq qəlbinə və hissinə nə dərəcədə nüfuz etməsi ilə bağlı qiymət verməyə çalışırlar" (3, s. 110). Böyük ədibin "Payız", "Bahar", "Qışın nəğməsi", "Qərənfil", "Bənövşə", "Qızıl gül", "Zanbaq", "Arı", "Kəpənək" və s. şeirlərində bu güclü tərəf kimi özünü göstərir. Burada digər məsələ məktəbə çağırışla bağlı olanlardı ki, A. Bakıxanov, İ. Qutqaşınlı, M.Ş. Vazeh, H. Zərdabi, M. Mahmudbəyov, S.M. Qənizadə, E. Sultanov, A. Səhhət, Ü. Hacıbəyov, S.S. Axundov, R. Əfəndiyev və başqalarında gördüyümüz təsəvvürlərlə eyni xətdə dayanır.

Bəyənmişəm məktəbi, çox sevmişəm,
Gəl məni də məktəbə qoy, ay ata! –

misraları A. Şaqin bir maarifçi kimi problemləri uzaqgörənliklə müəyyənləşdirə və qiy-

mətləndirə bilmək bacarığından irəli gəlir. Ona görə də onun bütün fəaliyyətində əməli pedaqoji fəaliyyətlə elmi və bədii yaradıcılıq qovuşur, bir-birini tamamlayan fakta çevrilir. Belə zəngin, çoxşaxəli fundamental bir düşüncəyə malik olan A. Şaiqin yaradıcılığında ən önəmli, bəlkə də birinci yerdə dayanan tərəf dil gözəlliyi, xalqın sadə, aydın, səlis danışıq tərzini yaradıcılığı üçün meyara çevirməsi ilə bağlıdır. Bu dəyər onun ilk mətbu şeirindən tutmuş sonuncu əsərinə qədər özünü göstərmişdir. Məlum olduğu kimi A. Şaiq ilk mətbu əsərini uşaqlar üçün yazmış və "Ananın öz oğluna lay-lay deməsi" adlandırmışdır.

Lay-lay mələkim, sevdiciyim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz 1, s. 8).

Göründüyü kimi, burada ananın öz oğluna müraciətlə kimliyini, soy-kökünü, şanlı, şərəfli türk tarixi haqqında deməsi təsadüfi deyildir. Əslində görkəmli ədib ananın dili ilə ciddi bir həqiqəti, tarixi kimliyin təlqini məsələsini əsas amil kimi məqsədə çevirir. A. Şaiq yaradıcılığı, onun zəngin düşüncəsi dil və üslub özünəməxsusluğu baxımından geniş imkanlılıqla nəzərə çarpır. "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü və kəklik", "Tülkü və qarğa", "Tapdıq dədə", Ovçu Məstan", "Qoçpolad" və s. mənzum hekayə və poemalarında, "Məktub yetişmədi", "Murad", "Köç", "Cümənin qəzəbi", "Şələquyruq", "Oyunçu bağalar", "Balaca qəhrəman", "Timsah ovu" və s. hekayələri bütünlükdə ədəbiyyatımızın zənginləşməsi baxımından xüsusi maraq doğurur. Bu bədii nümunələrin məzmununda özünə yer alan əhvalat və hadisələr müxtəlif tərəfləri ilə öz qaynağını folklordan, xalqın zəngin yaradıcılığından alır. A. Şaiq folklordan gələn hadisə və əhvalatları zəngin istedadı ilə elə bir səviyyədə işləmişdir ki, onların hər birisi orijinal ədəbiyyat hadisəsi kimi ədəbi-nəzəri fikrin tədqiqat mövzusuna çevrilmişdir. Təmsillərində də belədir, məsələn, "Tülkü və xoruz", "Tülkü və dovşan", "Dəvə və siçan", "Arı və kəpənək", "Hacıleylək və sərçə", "Tülkü və dəvə" və s. özünün işarələdiyi məzmun, fəlsəfi mahiyyəti ilə dolğun bir təsəvvür yaradır. A. Şaiq bu təmsilləri və digər məzmunlu əsərləri ilə bütünlükdə Şərq ədəbiyyatında, eləcə Azərbaycan ədəbiyyatında olan qəlibləşmiş ənənəyə özünün yaradıcı düşüncəsini, yaşadığı mühitdən gələnləri əlavə edir.

"Çoban", "İntiqamçı xoruz", "Ürək tikmək, yaxud Qurban bayramı", "Danışan kukla", "Xasay", "Eloğlu", "Fitnə", "Qaraca qız", "Bir saat xəlifəlik" pyesləri görkəmli ədibin yaradıcılıq dünyasının zənginlik tərəflərini, onun üslub özünəməxsusluğunun simmetriyasını, məzmununu aydınlaşdırmağa imkan verir. "A. Şaiq yeni nəsillərə uşaq şeirləri ilə dil açmağı, göz açmağı, həyatı, təbiəti, mühiti, insanları görməyi, tanımağı, sevməyi öyrədirdi... O, nəsillərə yalnız öz sənətini sevdirməklə qalmayıb, öz misilsiz, pak və təmiz, fədakar qəlbi və şəxsi həyat nümunəsi ilə həyatı, həqiqəti, gözəlliyi, doğruluğu, sədaqəti, səmimiyyəti sevdirir" (5). Doğurdan da, A. Şaiq fədakar qəlbi, şəxsi həyat nümunəsi ilə ədəbiyyatımızın, bədii düşüncəmizin əvəzsizliyinə xidmət etmişdir. Onun bütünlükdə yaradıcılığında özünü göstərən bu ideallar ayrı-ayrı əsərlərinə səpələnmiş və bir növ bədii sfera üçün örnək olmuşdur. "Kəpənək", "Təmizlik", "Ana yurdum", "Vətən nəğməsi", "Bahar bayramı", "Sən güləndə", "Zəfər nəğməsi" və s. şeirlərində qaldırılan problemlər, sevgi duyğuları, vətənin müqəddəsliyi ideyası bir bütöv olaraq görkəmli maarifçinin nə qədər böyük ideallarla yaşamasını aydınlaşdırır. Bütün bunlar isə özü ilə birgə üslubu, dil sadəliyini, onun fonopoetik, sintaktik sistemindən nə qədər məharətlə istifadəsini nümunəyə çevirir. Hətta A. Şaiqin elə şeirləri vardır ki, birbaşa xalq yaradıcılığına bağlanır və bəzən məzmun və sadəliyi ilə onlardan ayırmaq çətinliyi yaranır. Məsələn, "Bənövşə" şeirində nəzərə çarpan bədii-estetik məzmun onun dil sadəliyində bir əvəzsizlik qazanır.

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Qızlar, oğlanlar məni,
Dərib taxarlar döşə.
Bahar oldu açaram,
Qar, borandan qaçaram,
Başqa güllər açanda,
Mən quş olub uçaram (4, s.172).

A. Şaiqin bu şeiri üzərində müşahidələr aparan folklorşünas Q. Namazov yazır: "Şairin bu səpkidə yazdığı şeirlərdə oxucu hər gülü, çiçəyi sanki gözü ilə görür, onun ətrini duyur. Onun "Bülbül", "Kəpənək", "Torağay", "At", "İt" kimi uşaq şeirlərində quş və heyvanlara qayğı hiss olunur.

Aydındır ki, uşaqlarda saf, nəcib duyğular oyatmaqda, ətraf mühit haqqında onların biliklə-

rini zənginləşdirməkdə heyvanlar aləmini öyrənməyin əhəmiyyəti misilsizdir" (4, s.172). Burada digər tərəf həmin məzmunun necə çatdırılması, dil zənginliyindən sənətkarın hansı səviyyədə istifadə edə bilmək bacarığıdır. Məlum olduğu kimi, sənətkarlıq elə bir çeşnidir ki, biz nə qədər nəzəriyyələrdən, ədəbi məktəblərdən danışsaq da yenə şeirin dili məsələsinə çıxacağıq. Çünki şeirin dili xalqın dili olmalıdır ki, o öz dil ecazkarlığı ilə qəlbləri ehtizaza gətirə bilsin. Yuxarıdakı mətn poetiklik anlamında məhz dil zənginliyi ilə reallaşmışdır. A. Şaiq xalq dilinin imkanlarından istifadə etməklə bənövşə haqqında təsəvvürlərimizi yazıya gətirmiş və sanki rəssam qeyri-adiliyi ilə onun canlı obrazını yaratmışdır

**Problemin aktuallığı.** A. Şaiqin zəngin yaradıcılığında uşaq şeirləri mühüm bir tərəfdir. Ümumiyyətlə, görkəmli ədib uşaq ədəbiyyatı kontekstində yazdıqları ilə ədəbiyyatımıza əvəzsiz xidmət etmiş, onun inkişafına özünün töhfələrini vermişdir.

**Problemin elmi yeniliyi.** A. Şaiq uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi poeziyanın, nəsrin, dramaturgiyanın inkişafına müstəsna xidmət etmiş, özünəqədərki ənənədən yararlanmaqla orijinal bədii nümunələr yaratmış, maarifin, təhsilin təbliğində gərəkli işlərə imza atmışdır. Uşaq ədəbiyyatı sahəsində etdikləri bunun ən bariz göstəricisidir.

**Problemin praktik əhəmiyyəti.** A. Şaiq, görkəmli romantik şair, nasir, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, müəllim kimi müxtəlif istiqamətli tədqiqatların mövzusuna çevrilmiş və bu gün də ciddi araşdırmaları aktuallaşdırmaqdadır.

## Ədəbiyyat


1. Abdulla Şaiq. Seçilmiş əsərləri. 3 cilddə, I c. -Bakı: Avrasiya press, -2005. -496 s.
2. Xəlil, Z. Uşaq ədəbiyyatı. / Z. Xəlil, F. Əsgərli -Bakı: -ADPU, -2011. -498 s.
3. Məmmədov, A. Pedaqoji mühit və uşaq ədəbiyyatı. / A. Məmmədov, Y. Babayev, T. Cavadov. -Bakı: Maarif, -1992. -288 s.
4. Namazov, Q. Azərbaycan uşaq ədəbiyyatı. / Q. Namazov. -Bakı: Bakı Dövlət Universiteti, -2007. -444 s.
5. Rzaquluzadə M. İllər, nəsillər, əsərlər. "Ədəbiyyat və incəsənət" qəzeti, -1971, 8 may.


**Redaksiyaya daxil olub:** 17.02.2025.

***İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI***
***ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА***
***INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY***

*UOT 376*

***Səlbi Ağamehdi qızı Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0000-0001-6353-5588*
*e-mail: s-asadzade@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).199-203*

# BAŞ BEYNİN LOKAL ZƏDƏLƏNMƏLƏRİ ZAMANI ALİ QABIQ FUNKSİYALARININ TƏDQİQİ METODLARI

***Сальби Агамехди гызы Абасова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# МЕТОДЫ ИССЛЕДОВАНИЯ ВЫСШИХ КОРТИКАЛЬНЫХ ФУНКЦИЙ ПРИ ЛОКАЛЬНЫХ ТРАВМАХ МОЗГА

***Salbi Agamehdi Abasova***
*lecturer at Azerbaijan State Pedagogical University*

# METHODS FOR STUDYING HIGHER CORTICAL FUNCTIONS IN LOCAL BRAIN INJURIES

**Xülasə.** Neyropsixoloji tədqiqat müəyyən bir əqli funksiyanın "itirilməsi" ilə məhdudlaşmamalı, mümkünsə, mövcud əqli fəaliyyət pozulmasının hansı növ neyrodinamik qüsurun əsasını təşkil etdiyini göstərməlidir. Neyropsixoloji təcrübə bir və ya daha çox analizator daxilində sinir proseslərinin patoloji zəifliyini müəyyənləşdirməyə, beyin qabığının sintetik fəaliyyətinin pozulmalarını, daxili qüsurları və impulsivliyi, sinir proseslərinin patoloji ətalətini aşkar etməyə imkan verməlidir. Ümumiyyətlə davranış pozulmalarına səbəb olur. Bütün bunlar qüsurun psixoloji təsvirindən kənara çıxmağa və əqli fəaliyyətdə dəyişikliklərə səbəb olan əsas patofizioloji pozulmaların təhlili istiqamətində bir addım atmağa kömək edir. Bu tələbi yerinə yetirərək, zədənin yerli diaqnozunu dəqiqləşdirilə və şübhəsiz ki, gələcəkdə daha çox pozulmaların patofizioloji xüsusiyyətlərini dərinləşdirilə bilər.
***Açar sözlər:*** *Lokal zədələnmə, klinik tədqiqat, davranış dəyişiklikləri, neyropsixoloji tədqiqat metodları, psixometrik testlər*

**Аннотация.** Нейропсихологическое исследование не должно ограничиваться «потерей» определенной психической функции, а должно, по возможности, показать, какие нейродинамические нарушения лежат в основе имеющейся психической дисфункции. Нейропсихологический опыт должен позволять определять патологическую слабость нервных процессов в пределах одного или нескольких анализаторов, выявлять нарушения синтетической деятельности коры головного мозга, внутренние дефекты и импульсивность, патологическую инертность нервных процессов. Обычно это вызывает поведенческие расстройства. Все это помогает выйти за рамки психологического описания дефекта и сделать шаг к анализу основных патофизиологических нарушений, вызывающих изменения психической деятельности.
***Ключевые слова****: локальное повреждение, клиническое исследование, изменение в поведении, методы нейропсихологического исследования, психометрические тесты.*

**Abstract.** Neuropsychological research should not be limited to the “loss” of a certain mental function, but should, if possible, show what neurodynamic disorders underlie the existing mental dysfunction. Neuropsychological experience should make it possible to determine the pathological weakness of nervous

processes within one or more analyzers, to identify disturbances in the synthetic activity of the cerebral cortex, internal defects and impulsivity, and pathological inertia of nervous processes. This usually causes behavioral problems. All this helps to go beyond the psychological description of the defect and take a step towards the analysis of the main pathophysiological disorders that cause changes in mental activity. By fulfilling this requirement, it is possible to clarify the local diagnosis of injury and, undoubtedly, in the future, to deepen the pathophysiological features of a larger number of disorders.

***Key words:*** *local damage, clinical study, changes in behavior, neuropsychological research methods, psychometric tests.*

**Aktuallıq.** Lokal beyin zədələnmələrində daha yüksək kortikal funksiyaların öyrənilməsinin əsas vəzifəsi, əqli fəaliyyətdəki dəyişikliklərin ümumi mənzərəsini təsvir edərək, əsas qüsuru vurğulamaq, ikincili sistem pozulmalarını aradan qaldırmaq və bununla da əsas qüsurun nəticəsi olan sindromu izah etməyə yaxınlaşmaqdır. Məhz bu yolla klinik və psixoloji tədqiqat beyin zədələnmələrinin diaqnozuna kömək edə bilər və xəstənin ümumi klinik tədqiqat sisteminə zəruri bir hissə kimi daxil ola bilər.

Müxtəlif lokal beyin zədələnmələrində müşahidə olunan davranış dəyişiklikləri çox vaxt oxşar ola bilər. Bir çox hallarda sadə bir müşahidə xəstənin ümumi davranışının və onun idrak fəaliyyətinin pozulmalarını üzə çıxarır, lakin çox vaxt onların əsas amillərini müəyyən edə bilmir, müxtəlif səbəblərdən yaranan və fərqli daxili quruluşa malik simptomları ayırd edə və qiymətləndirə bilmir (1).

Məsələn, beyin zədəsi olan (üzvi və funksional) xəstələrin böyük əksəriyyətinin "yaddaşın pozulması"ilə bağlı şikayətləri olduğu bilinir. Lakin bu "yaddaş pozulması" müxtəlif səbəblərə əsaslana bilər. Buna görə, simptomun təzahürünü aydınlaşdırmaq, qüsuru müəyyənləşdirmək və əsas amilləri vurğulamaq vəzifəsinin xüsusi tədqiqat metodlarını tələb etməsi tamamilə təbiidir. Bu məqsədlə xəstə-müvafiq qüsuru maksimum dəqiq müəyyənləşdirməyə və struktur xüsusiyyətlərinə daha yaxından nüfuz etməyə imkan verəcək xüsusi təşkil olunmuş şəraitdə yerləşdirilməlidir.

Məlumdur ki, öyrənilən mövzunun psixoloji xüsusiyyətlərini nisbətən qısa müddətdə idarə etmək və əldə edilmiş məlumatları diaqnostik məqsədlər üçün tətbiq etmək vəzifəsi qoyan" psixometrik testlər " iki əsaslı fərqli qrupa bölünür. Onlardan bəziləri (buna misal olaraq hər hansı bir variantda Bine Terme-na testləridir) bu məqsəd üçün psixoloji əhəmiyyətini müəyyənləşdirmək çətin olan, lakin həllinin müvəffəqiyyətini kəmiyyətcə qiymətləndirməyə və bu mövzunun öyrənilmiş əhali arasında tutduğu yeri müəyyənləşdirməyə imkan verən bir sıra empirik vəzifələrdən istifadə edirlər. Bununla belə, bu cür testlər mövzunun qüsurlarının əsasını təşkil edən psixoloji xüsusiyyətlərin keyfiyyətcə təhlili üçün heç bir əsas vermir; buna görə də, əqli geriliyi olan uşaqların aşkarlanması və əqli inkişafın müxtəlif formalarının fərqləndirilməsi kimi vəzifələrə tətbiq olunsa da, nisbətən az istifadə olunur '. Bu testləri Afaziya (Veysenburg və Mac Bride, 1935) və beynin frontal paylarının zədələnməsini (Mettler, 1949 və s.) müəyyən etmək üçün tətbiq etməyə çalışarkən əldə edilən mənfi məlumatlar bunu tam aydınlıqla göstərir.

İkinci qrup "psixometrik testlər "müəyyən" əqli funksiyaların öyrənilməsinə yönəldilmişdir; bu funksiyaların hər birinin pozulma dərəcəsini müəyyənləşdirmək və bu dərəcəni kəmiyyətcə ifadə etmək məqsədi daşıyır. Bu cür texnikalara bir nümunə G. I. Rossolimonun "müşahidə", "diqqət", "yaddaş", "təklif" və s. kimi "funksiyaları" öyrənmək üçün bir sıra nümunələr daxil olmaqla məşhur "psixometrik miqyas" dır. Veksler-Bellevue seriyası (Veksler, 1944) kimi bir sıra testlər standart arifmetik əməliyyatları, yaddaşı, elementar əməliyyatları və s. öyrənməyə yönəlmiş bir sıra standart nümunələrdən ibarət olan eyni qrupa aiddir (3).

Halstead (1947) tərəfindən "bioloji intellekt" deyilən ölçmə metodu olaraq təklif olunan məşhur test batareyası da eyni xüsusiyyətlərə malikdir. Tərkibinə heterogen nümunələr daxil olmaqla (bəzilərinin psixofizioloji əhəmiyyəti bəlli deyil), bu "test batareyası" nəticədə tədqiqatçının ümumi "bioloji intellektin azaldılması indeksini" ölçməsinə gətirib çıxarır ki, bu da ən yaxşı halda tədqiqat nəticələrindən ibarət yalnız müəyyən ümumi məlumatlar verir.

Ayrı-ayrı analizatorların vəziyyətinin öyrənilməsi, xəstənin öyrənilməsinin tam məzmunu deyil. Neyro-psixoloji tədqiqat heç vaxt bu və ya digər formada, əqli fəaliyyətdə "azalma"

nın sadə göstəricisi ilə məhdudlaşmamalıdır. Həmişə müşahidə olunan simptomun keyfiyyətcə (struktur) təhlilini verməlidir, müşahidə olunan qüsurun hansı xarakter daşıdığını və bu qüsurun hansı səbəblərə (və ya amillərə) görə göründüyünü (mümkün qədər) göstərməlidir.

Neyro-psixoloji tədqiqat bu qüsurun müvafiq əqli fəaliyyətin əsasını təşkil edən nisbətən daha elementar amillərin pozulması nəticəsində ortaya çıxdığını və ya onun təşkilinin daha mürəkkəb səviyyəsinin pozulması ilə əlaqəli olub olmadığını göstərməlidir. Bu simptomun öyrənilən hər hansı bir xüsusi şərtin pozulmasının ilkin nəticəsi olub olmadığını öyrənməlidir.

Klinikadakı neyropsixoloji tədqiqat metodları, quruluşundakı mürəkkəb əqli fəaliyyət formasını öyrənməyə yönəlmiş və eyni zamanda sistem analizinə imkan verən bir sıra nümunələrdən ibarət olmalıdır. Bu tələb mərkəzi beyin zədələnmələri olan xəstələrin öyrənilməsində yalnız eşitmə, vizual və ya kinestetik analiz və sintezin öyrənilməsinə yönəlmiş xüsusi analitik testlərdən deyil, həm də sintetik testlərdən istifadə etməyə məcbur edir.

Xəstənin neyro-psixoloji tədqiqat metodlarına təkrarlayan və müstəqil nitq, yazı və oxu, mətnləri anlamaq və problemlərin həlli üçün nümunələr daxil edilməlidir; mürəkkəb əqli fəaliyyətin bu formalarının hər biri beyin qabığının əsas zonalarının bütöv bir kompleksinin iştirakını tələb edir və ikinci siqnal sisteminin ən yaxın iştirakı ilə davam edir. Bununla birlikdə, tapşırıqların düzgün seçilməsi və nəticələrin dəqiq təhlili ilə xəstənin bu vəzifələri yerinə yetirərkən rastlaşdığı çətinliklər, bu fəaliyyətin həyata keçirilməsi üçün lazım olan amilin xəstədə pozulmasından asılı olaraq müəyyən bir fəaliyyətin pozulmasını aşkar etməyə imkan verir (5).

Psixoloji tədqiqat problemlərin həllinin nəticəsi ilə deyil, onların həlli prosesinin xüsusiyyətləri ilə maraqlanmalıdır. Başqa sözlə, xəstənin fəaliyyətinin, aşkar olunan çətinliklərin və səhvlərin diqqətlə keyfiyyətli təhlilini tələb edir. Müşahidə olunan prosesin keyfiyyət təhlili və onun pozulmasının əsasını qoyan amillərin təhlili hər hansı bir tapşırığın həllinin öyrənilməsində istifadə olunan və qüsurun struktur-dinamik təhlilini asanlaşdıran bir sıra əlavə texnikaların istifadəsini tələb edir.

Bu və ya digər tapşırığın yerinə yetirilməsinə mane olan qüsurların tam olaraq nədən ibarət olduğunu daha yaxşı izləmək və çətinliklərin əsasını qoyan amili ən aydın şəkildə vurğulamaq üçün müvafiq təcrübənin standart aparılması ilə məhdudlaşmamalı, əksinə tədqiqat zamanı yaranan bir sıra dinamik dəyişikliklər daxil edilməlidir, həm tapşırığın yerinə yetirilməsinin çətinləşdiyi şərtlər, həm də müşahidə olunan qüsurların kompensasiya olunduğu şərtlər izlənməlidir. Tədqiqatın struktur və dinamik təbiəti onun həyata keçirilməsini xeyli çətinləşdirir; tədqiqatın çox böyük dəyişkənliyini və "hərəkətliliyini" tələb edir və psixoloji təcrübə metodlarının statik, standart tətbiqindən tamamilə imtina etməyə məcbur edir. Bununla birlikdə, yalnız bu şərtə riayət etmək klinik-psixoloji tədqiqatın effektivliyini təmin edə bilər. Bu tələb həm bütövlükdə beynin patoloji vəziyyətindən qaynaqlanan pozulmaların öyrənilməsində, həm də ocaqlı beyin zədələnmələrinin öyrənilməsində eyni əhəmiyyətə malikdir. Aralarındakı fərq ondadır ki, ümumi beyin zədələnmələri (hipertenziya-hidrosefalik sindrom, kommotional vəziyyət, retikulyar formasiyanın funksiyasını birbaşa pozan mədəcik şişləri) ilə patoloji proses qabıq fəaliyyətin ümumi zəifləməsinə, qabıq tonusun azalmasına və hər bir analizator daxilində baş verən proseslərin ümumi zəifləməsinə səbəb olur. {4} Bunun əksinə olaraq, ocaqlı beyin zədələnmələri ilə bu qüsurlar selektivdir və əksər hallarda ya bir analizatorun hüdudları ilə məhdudlaşır, ya da qabıq proseslərin ən yüksək səviyyədə təşkilini pozur.

**Elmi yenilik.** Alınan nəticələrin neyrodinamik təhlili tədqiqatçının diqqətini xəstənin müəyyən tapşırıqları yerinə yetirərkən müşahidə olunan pozulmaların təbiətinə daim yönəltməsini tələb edir. Təcrübənin bir sıra şərtlərini nəzərə almağı və əlavə texnikaların istifadəsini də əhatə edir. Müxtəlif fəaliyyətlərdə (xüsusən də müxtəlif analizatorlarla əlaqəli fəaliyyətlərdə) qeyri-bərabər zəifləmə xüsusilə nəzərəçarpan ola bilər. Yan stimulların təsirini də nəzərə almaq lazımdır ki, bu da beynin patoloji şərtləri ilə başlayan fəaliyyətə asanlıqla maneə olaraq tapşırığı poza bilər. İstifadəsi neyrodinamik qüsurların təhlilini nəzərəçarpan dərəcədə asanlaşdıra bilən xüsusi üsullara təcrübə tempinin dəyişməsi, təqdim olunan stimulların və ya tələb olunan fəaliyyətlərin sürətlənməsi, təklif olunan

vəzifələrin həcminin genişlənməsi və eyni zamanda müşahidə olunan qüsurun sadə təsvirindən onun əsasını təşkil edən neyrodinamik dəyişikliklərin qiymətləndirilməsinə keçməyə kömək edə bilər.

Neyro-psixoloji tədqiqatın struktur və dinamik təbiəti xəstənin öyrənilməsinin düzgün diaqnostik nəticəyə gətirib çıxarması üçün ən vacib şərtdir. Alınan nəticələr kifayət qədər etibarlı olmalıdır.

Məlumatların etibarlılığı məsələsi hər hansı bir psixoloji təcrübədə əsasdır. Tədqiqatın nəticələri təsadüfi təsirlərlə əlaqələndirilə bilər və təcrübədən təcrübəyə qədər çox dəyişir; bu baxımdan, onların nə qədər daimi və etibarlı olduqları sualına cavab vermək həmişə lazımdır. Laboratoriya və psixoloji tədqiqatlarda alınan nəticələrin etibarlılığı məsələsi ümumiyyətlə aparılan təcrübələrin sayı və alınan məlumatların sabitlik dərəcəsi ilə həll olunur; alınan göstəricilərin dəyişkənliyi nisbətən kiçik olduqda nəticələr etibarlı hesab olunur.

Belə bir statistik yol neyropsixoloji tədqiqat üçün istisna olunur. Klinik və diaqnostik təcrübələr ümumiyyətlə nisbətən az sayda aparılır: limit həm tədqiqatın qısa müddətli olması, həm də xəstənin əqli proseslərinin xüsusiyyətlərini hərtərəfli işıqlandıran məhdud bir müddətdə xeyli sayda müxtəlif nümunələrin aparılması ehtiyacıdır. Bir seansda həyata keçirilən mümkün nümunələrin sayını məhdudlaşdıran əlavə bir hal xəstənin tez bir zamanda tükənməsidir, bunun nəticəsində eyni təcrübələrin uzun müddət aparılması öz-özünə fərqli nəticələr verməyə başlayır. Bu şərtlərə görə, xəstənin Neyro-psixoloji müayinəsi zamanı hər bir fərdi nümunənin nəticələri çox etibarlıdır (3).

Neyro-psixoloji tədqiqat fərqli bir şəkildə – heterogen nümunələr qrupunun nəticələrinin müqayisəli təhlili və onlarda vahid sindroma uyğun gələn ümumi əlamətlərin aşkarlanması yolu ilə etibarlılıq əldə edir. Buna görə etibarlı nəticələr əldə etməyin yolu sindrom analizidir. Yuxarıda artıq qeyd edildi ki, hər bir məhdud zədələnmə birincili pozulmalarla yanaşı bir sıra ikincili, sistemli pozulmalara səbəb olur və ayrı-ayrı komponentləri ümumi qüsur növü ilə birləşdirilmiş sindromun yaranmasına səbəb olur. Hər bir ocaqlı zədələnmədə meydana gələn sindromları təhlil edərək, bu mövqeyi göstərən bir çox fakt mövcuddur.

Hər bir Neyro-psixoloji tədqiqat yalnız müvafiq əsas qüsuru vurğulamamalı, həm də ortaya çıxan pozulmaların bütün kompleksini təyin edərək müxtəlif fəaliyyət növlərinin dəyişməsində necə təzahür etdiyini göstərməlidir. Buna görə müxtəlif texnikaların tətbiqi ilə əldə edilən nəticələrin müqayisəsi və müxtəlif fəaliyyətlərdə müşahidə olunan ümumi pozulmaların aşkarlanması tədqiqat nəticələrinə klinik əhəmiyyət və kifayət qədər etibarlılıq verir. Beləliklə, sindrom analizi yalnız klinik vəzifələrə adekvat nəticələr verən əsas yol deyil, eyni zamanda nəticələrin etibarlılığını da təmin edir.

**Problemin praktik əhəmiyyəti.** Neyro-psixoloji tədqiqat, bir qayda olaraq, xəstəlik tarixi məlumatları ilə tanışlıqdan və xəstə ilə ilkin söhbətdən əvvəl aparılmalıdır. Tədqiqat xəstənin əqli fəaliyyətinin bir sıra aspektlərinin vəziyyətini öyrənmək və onun əqli proseslərinin ümumi fonunu və ya ümumi təsvirini təşkil edən ilkin məlumatları əldə etmək məqsədi daşıyan bir sıra göstərici testlərdən başlayır.

Nümunə seriyası nisbətən standart bir xarakter daşımalı və həm fərdi analizatorların (vizual, eşitmə, kinestetik, motor) vəziyyətini müəyyənləşdirməyə imkan verən bir sıra üsulları özündə cəmləşdirməli və əqli proseslərin qurulmasının müxtəlif səviyyələrini – birbaşa sensomotor reaksiyaların səviyyəsini, fəaliyyətin mnestik təşkili səviyyəsini, mürəkkəb vasitəçilik əməliyyatlarının səviyyəsini təhlil etməlidir. Nitq sisteminin əlaqələri aparıcı rol oynayır. Nisbətən daha çox müxtəlif təyinatlı (kifayət qədər qısa olsa da) nümunələri özündə cəmləşdirməli olan tədqiqatın ilk mərhələsi təd-qiqatçıya həm xəstənin əqli fəaliyyətinin bəzi qüsurlu tərəflərini, həm də bu cür qüsurların tapılmadığı əqli fəaliyyətin digər tərəflərini ayırmağa imkan verir.

Tədqiqatın ikinci (seçmə) mərhələsini təşkil edən bütün sonrakı gedişi ilkin, təxmini tədqiqat zamanı müəyyən qüsurları aşkar edən əqli proseslər qrupunun dərindən öyrənilməsinə həsr olunmalıdır. Təbii ki, ilkin, təxmini mərhələdən fərqli olaraq, tədqiqatın bu mərhələsi ciddi şəkildə fərdiləşdirilməlidir. Onun məzmunu həm birinci mərhələdə əldə edilmiş məlumatlar əsasında, həm də tədqiqatın ikinci (seçmə) mərhələsində əldə edilən faktlar nəzərə alınmaqla qurulmalıdır. Neyro-psixoloji tədqiqatın ikinci

mərhələsi ən mürəkkəbdir, ən yaradıcıdır və təcrübənin ən böyük dinamikliyini tələb edir.

İkinci mərhələnin vəzifəsi ilk növbədə xəstənin əsas qüsurunu xarakterizə edən faktları dərinləşdirmək, bu qüsurun əsasını təşkil edən amilləri müəyyənləşdirməkdir. Digər tərəfdən, II mərhələnin məqsədi bu əsas pozulmanın müəyyən bir sindromun əsasını təşkil edən xəstənin müxtəlif fəaliyyətlərində nə dərəcədə özünü göstərdiyini təhlil etməkdir.

Məhz bu mərhələdə tədqiqatçı istifadə olunan nümunələri "həssaslaşdıran" bütün metodlardan və xəstədə qorunmuş funksiyaları araşdırmağa imkan verən bütün üsullardan maksimum istifadə etməlidir. Tədqiqatçı xəstənin əvvəllər mümkün olmayan tapşırığı yerinə yetirmək üçün hansı təhlükəsiz analiz və sintez formalarından istifadə etdiyini, pozulmuş fəaliyyəti necə yenidən qurduğunu, qorunan analizatorların işinə güvəndiyini və tapşırığın yerinə yetirilməsini daha yüksək səviyyəyə köçürdüyünü müəyyənləşdirməlidir .Bu məqamlar nitq sisteminin iştirakı ilə həyata keçirilir. Eyni mərhələdə aşkar edilmiş qüsurun neyrodinamik xarakteristikasının xüsusi üsullarından istifadə edilməlidir.

**Ədəbiyyat**


1. Абашев-Константиновский А. Л. Психические нарушения при органических заболеваниях головного мозга. – К.: Медицина, -1959. -Стр.247
2. Адрианов О. С. О принципах организации интегративной деятельности мозга. – М.: Наука, -1976. -Стр.277
3. Адрианов О. С. Структурные предпосылки функциональной межполушарной асимметрии мозга // Физиология человека. – 1979. – Вып. 5. - № 3.
4. Москвин В. А. Межполушарные отношения и проблема индивидуальных различий. – М.; Оренбург, -2002. -Стр. 116-120
5. Московичюте Л. И. Асимметрия полушарий мозга на уровне коры и подкорковых образований // I Международная конференция памяти А. Р. Лурия: Сб. докладов / Под ред. Е. Д. Хомской, Т. В. Ахутиной. - М.: РПО, -1998. -Стр. 162-175


**Redaksiyaya daxil olub:** 21.02.2025.

*UOT 376*

***Ли Исюань***
*докторант по программе доктора философии*
*Азербайджанского Государственного Педагогического Университета*
*https://orcid.org/*0009-0005-7350-5944
*E-mail: 2689460251@qq.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).204-208*

# МЕДИКО-ПСИХОЛОГИЧЕСКАЯ РЕАБИЛИТАЦИЯ ДЕТЕЙ С НАРУШЕНИЯМИ ОПОРНО-ДВИГАТЕЛЬНОГО АППАРАТА

***Li Yixuan***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*

# DAYAQ-HƏRƏKƏT SİSTEMİ POZĞUNLUĞU OLAN UŞAQLARIN TİBBİ VƏ PSİXOLOJİ REABİLİTASİYASI

***Li Yixuan***
*doctorial student in the program of doctor of philosophy of*
*Azerbaijan State Pedagogical University*

# MEDICAL AND PSYCHOLOGICAL REHABILITATION OF CHILDREN WITH DISORDERS OF THE MUSCULOSKELETAL SYSTEM

**Аннотация.** Медико-психологическая реабилитация детей с нарушениями опорно-двигательного аппарата, такими как ДЦП и искривление позвоночника, включает в себя комплексное воздействие на физическое и психоэмоциональное состояние ребенка. В статье рассматриваются методы психологической помощи, включая когнитивно-поведенческую терапию, арт-терапию и техники релаксации, направленные на улучшение самооценки, снижение тревожности и депрессии, а также развитие адаптационных навыков. Особое внимание уделено психологическим методам, которые помогают детям справляться с ограничениями их физического состояния и улучшать социальную адаптацию. Работа с родителями является важной частью реабилитации, поскольку она способствует созданию поддерживающей атмосферы дома. Примеры успешных программ показывают, что интеграция психотерапевтических и физкультурных методов способствует более быстрому восстановлению и улучшению качества жизни детей. Такие комплексные подходы не только улучшают физическое состояние, но и способствуют гармоничному развитию детей с нарушениями опорно-двигательного аппарата.

***Ключевые слова**: медико-психологическая реабилитация, дети с нарушениями опорно-двигательного аппарата, ДЦП, сколиоз, психотерапия, когнитивно-поведенческая терапия, арт-терапия.*

**Xülasə.** Serebral iflic və onurğa əyriliyi kimi dayaq-hərəkət aparatının pozğunluğu olan uşaqların tibbi-psixoloji reabilitasiyası uşağın fiziki və psixo-emosional vəziyyətinə hərtərəfli təsiri əhatə edir. Məqalədə psixoloji yardım üsulları, o cümlədən idrak-davranış terapiyası, art-terapiya və relaksasiya üsulları, özünə hörmətin artırılması, narahatlıq və depressiyanın azaldılması və uyğunlaşma bacarıqlarının inkişafına yönəldilir. Uşaqlara fiziki vəziyyətlərinin məhdudiyyətlərinin öhdəsindən gəlməyə və sosial uyğunlaşmanı yaxşılaşdırmağa kömək edən psixoloji üsullara xüsusi diqqət yetirilir. Valideynlərlə işləmək reabilitasiyanın vacib hissəsidir, çünki evdə dəstəkləyici atmosfer yaratmağa kömək edir. Uğurlu proqramların nümunələri göstərir ki, psixoterapevtik və bədən tərbiyəsi metodlarının inteqrasiyası uşaqların daha sürətli sağalmasına və həyat keyfiyyətinin yaxşılaşmasına kömək edir. Belə inteqrasiya olunmuş yanaşmalar təkcə fiziki vəziyyəti yaxşılaşdırmır, həm də dayaq-hərəkət sistemi pozğunluğu olan uşaqların harmonik inkişafına kömək edir.

***Açar sözlər:** tibbi və psixoloji reabilitasiya, dayaq-hərəkət sistemi pozğunluğu olan uşaqlar, serebral iflic, skolioz, psixoterapiya, koqnitiv davranış terapiyası, art-terapiya.*

**Abstract.** Medical and psychological rehabilitation of children with musculoskeletal disorders, such as cerebral palsy and spinal curvature, includes a comprehensive impact on the child's physical and psychoemotional state. The article discusses methods of psychological assistance, including cognitive behavioral therapy, art therapy and relaxation techniques aimed at improving self-esteem, reducing anxiety and depression, and developing adaptive skills. Particular attention is paid to psychological methods that help children cope with the limitations of their physical condition and improve social adaptation. Working with parents is an important part of rehabilitation, as it helps create a supportive atmosphere at home. Examples of successful programs show that the integration of psychotherapeutic and physical education methods contributes to a faster recovery and improved quality of life for children. Such comprehensive approaches not only improve the physical condition, but also contribute to the harmonious development of children with musculoskeletal disorders.

***Key words:*** *medical and psychological rehabilitation, children with musculoskeletal disorders, cerebral palsy, scoliosis, psychotherapy, cognitive behavioral therapy, art therapy.*

**Актуальность.** Медико-психологическая реабилитация детей с нарушениями опорно-двигательного аппарата играет важную роль в комплексном восстановлении, позволяя не только улучшить физическое состояние детей, но и способствуя их психологической адаптации в обществе. Психологическая поддержка является важной частью реабилитации, так как она помогает ребенку преодолеть внутренние барьеры, вызванные физическими ограничениями, и адаптироваться к жизни с инвалидностью. Психологи активно применяют различные методы для работы с детьми, среди которых арт-терапия, игровые методики, музыкотерапия и другие подходы [1].

Важной частью медико-психологической реабилитации является создание условий для личностного роста ребенка, несмотря на его физические ограничения. Это может включать развитие творческих способностей, участие в различных художественных проектах, а также вовлечение ребенка в спортивные занятия, адаптированные для детей с нарушениями опорно-двигательного аппарата. Это не только способствует улучшению физической активности, но и развивает уверенность в себе, что в свою очередь влияет на общую психоэмоциональную устойчивость.

Применение таких методов помогает детям не только восстановить физическую активность, но и улучшить их психоэмоциональное состояние, что, в свою очередь, способствует более эффективному процессу реабилитации. Комплексный подход, включающий как физическую терапию, так и психологическую помощь, является наиболее эффективным способом помощи детям с нарушениями опорно-двигательного аппарата [2].

Психотерапевт играет ключевую роль в реабилитации детей с нарушениями опорно-двигательного аппарата. Он не только помогает детям преодолеть стресс и тревогу, вызванные физическими ограничениями, но и способствует развитию навыков социальной адаптации. В процессе психотерапевтической работы с детьми применяются различные методы, направленные на снижение уровня тревожности, повышение уверенности в себе, а также обучение детей способам саморегуляции и стресс-менеджмента.

Также важным аспектом является работа с детьми в групповом формате, где через взаимодействие с другими детьми они учат важные социальные навыки, такие как эмпатия, разрешение конфликтов и сотрудничество. Это может существенно повысить качество жизни детей, способствуя их социальной интеграции и принятию в обществе.

Психологи активно применяют различные методы для работы с детьми, среди которых арт-терапия, игровые методики, музыкотерапия и другие подходы, направленные на улучшение психоэмоционального состояния детей с нарушениями опорно-двигательного аппарата. Такие методы позволяют детям выразить свои чувства и переживания, облегчая их эмоциональное состояние и способствуя улучшению связи с окружающим миром.

Важным компонентом реабилитации является взаимодействие с педагогами и специалистами по социальной интеграции, которые помогают ребенку осваивать

необходимые навыки для успешной жизни в социуме. Совместные усилия педагогов и психологов способствуют гармоничному развитию детей, особенно если речь идет о детях с ограниченными физическими возможностями. Также важной составляющей является включение в реабилитацию программы по самопомощи, где дети обучаются определенным навыкам, помогающим снизить стресс и эффективно адаптироваться к жизни с инвалидностью. Программы, включающие занятие йогой, медитацией и практики для снятия напряжения, являются важной частью психоэмоциональной поддержки.

Особое внимание уделяется детям с ДЦП, так как это заболевание влияет не только на физическое развитие ребенка, но и на его психоэмоциональное состояние. Психологическая поддержка помогает детям лучше понять и принять свое состояние, развить внутреннюю мотивацию для дальнейшего развития и социализации.

Детский церебральный паралич (ДЦП) представляет собой группу неврологических расстройств, которые затрудняют двигательную активность ребенка. Это заболевание вызывает не только физические проблемы, но и психоэмоциональные трудности, такие как тревожность, депрессия и низкая самооценка. Психологическая помощь детям с ДЦП включает в себя работу, направленную на улучшение их психологического состояния. Методы, такие как когнитивно-поведенческая терапия, арт-терапия, а также занятия, направленные на развитие двигательных навыков, играют важную роль в этом процессе [3].

Важно, чтобы психологи использовали методы психотерапевтической работы, которые направлены не только на уменьшение тревоги, но и на формирование позитивных установок у детей с ДЦП. Например, тренировка самоконтроля, использование техник глубокого дыхания и визуализации, помогают снизить напряжение и повысить эмоциональную устойчивость.

Также используются методы арт-терапии, которые позволяют детям выразить свои эмоции через искусство, помогая тем самым снизить уровень тревожности и депрессии. Рисование, лепка и другие виды творчества становятся важной частью реабилитации, так как они помогают детям лучше понять свои чувства и научиться управлять ими. Эти практики способствуют улучшению самооценки и развитию чувства контроля, что является важным для формирования здоровой психоэмоциональной базы.

Психолог работает с ребенком и его семьей, помогая им научиться справляться с эмоциональными трудностями, развивать уверенность в себе и принимать свою инвалидность. Важным аспектом является развитие позитивных отношений с окружающим миром, а также улучшение социальной адаптации и межличностных навыков.

В процессе работы с детьми также важно уделять внимание формированию их социальной активности, что можно достичь через участие в разных формах социальных программ, например, в мероприятиях, направленных на развитие сотрудничества между детьми с разными возможностями. Такие программы помогают улучшить восприятие ребенком своей инвалидности и способствуют более естественной интеграции в общество. Помимо этого, важно учитывать адаптацию каждого ребенка к специфическим психоэмоциональным потребностям, и проводить регулярную коррекцию реабилитационной программы, чтобы максимально поддерживать индивидуальный темп восстановления и обеспечивать долгосрочные результаты.

Еще одним важным аспектом является интеграция современных технологий в процесс реабилитации. Использование виртуальной реальности, а также специализированных медицинских приложений может значительно улучшить эффективность реабилитации, предоставляя детям более разнообразные способы для работы над их психоэмоциональным состоянием и двигательными навыками.

Наряду с традиционными методами, важно использовать искусственный интеллект для разработки персонализированных реабилитационных программ, которые помогут более точно отслеживать и улучшать процесс восстановления каждого ребенка. Использование ИИ также способст-

вует внедрению инновационных методов и программ в реабилитацию, улучшая результаты и сокращая время восстановления. Внедрение таких технологий открывает новые горизонты для создания адаптированных реабилитационных решений, подходящих для каждого ребенка в зависимости от его потребностей и состояния.

Искривление позвоночника также является серьезным заболеванием, которое может оказывать влияние на психоэмоциональное состояние ребенка. Болезнь часто сопровождается болями в спине, ограничением движений и изменением внешности, что может вызвать у ребенка чувство стыда, изоляции и депрессии. Психологическая помощь детям с искривлением позвоночника направлена на устранение этих эмоциональных трудностей.

Психологи помогают детям справляться с социальной изоляцией, развивать уверенность в себе и научиться правильно воспринимать свое тело. Важную роль играет работа с родителями, поскольку они играют ключевую роль в поддержке ребенка и его эмоциональном состоянии.

Программы психологической реабилитации для детей с нарушениями опорно-двигательного аппарата включают несколько этапов:

1. Диагностика психоэмоционального состояния – выявление тревожных, депрессивных и других расстройств.

2. Разработка индивидуальной психологической программы – на основе диагностики создаются персонализированные программы для коррекции поведения.

3. Групповые занятия – используются для социализации детей и развития их межличностных навыков.

4. Работа с родителями – помогает создать поддерживающую атмосферу в семье и научить родителей поддерживать ребенка в реабилитационном процессе.

Важно также учитывать культурные особенности при проведении психотерапевтической работы с детьми из разных социальных слоев. Психолог должен быть подготовлен к учету этих особенностей и создавать индивидуализированные подходы в зависимости от культурной среды ребенка.

**Научная новизна.** Эти программы помогают детям развивать необходимые психоэмоциональные навыки, улучшать их социальную адаптацию и ускорять процесс восстановления.

Важно отметить, что успешные программы психологической реабилитации также включают в себя поддержку педагогов и школьных психологов, которые играют роль посредников между детьми и их образовательными учреждениями. Это создает дополнительные возможности для успешной социальной адаптации и обучения в инклюзивных классах.

Примером успешных программ психоэмоциональной реабилитации являются те, которые включают в себя комплексное воздействие, направленное на физическое и психоэмоциональное восстановление ребенка. В реабилитационных центрах для детей с ДЦП и сколиозом активно используются мультимодальные методы лечения, которые включают физические упражнения, психологическую поддержку и семейное консультирование. Это способствует улучшению общего состояния детей и помогает им адаптироваться к социальной жизни.

Также стоит отметить, что программы, ориентированные на детей с хроническими заболеваниями опорно-двигательного аппарата, требуют постоянного мониторинга и адаптации на протяжении длительного времени, что позволяет избежать рецидивов и помогает поддерживать достигнутые результаты на высоком уровне.

**Практическая значимость.** Медико-психологическая реабилитация детей с нарушениями опорно-двигательного аппарата является важным компонентом комплексного подхода к лечению этих заболеваний. Психологическая помощь играет ключевую роль в улучшении психоэмоционального состояния детей и помогает им адаптироваться в обществе. Интеграция различных методов терапии, включая физические упражнения и психологическую поддержку, способствует более быстрому восстановлению и улучшению качества жизни детей с нарушениями опорно-двигательного аппарата.

**Литература**

1. Иванова, И. П. (2020). Психологическая реабилитация детей с ДЦП: подходы и методы. Журнал детской психологии, 25(4), 112-119.
2. Петрова, А. В. (2018). Роль психотерапевта в реабилитации детей с нарушениями опорно-двигательного аппарата. Медицинская психология, 30(2), 85-91.
3. Смирнова, Н. Ю. (2019). Искривление позвоночника и психологические аспекты реабилитации. Журнал реабилитации и медицины, 34(5), 45-50.


**Redaksiyaya daxil olub:** 14.03.2025.*UOT 376*

***Umut Ölmez Ali oğlu***
*Bakı Dövlət Universitetinin*
*Sosial və pedaqoji psixologiya kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0002-6791-503X*
*E-mail: umut.olmez@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).209-213*

# AUTİZM SPEKTR POZUNTULU UŞAQLARIN TƏHSİLƏ CƏLB EDİLMƏSİ VƏ TƏTBİQ EDİLƏN PEDAQOJİ YANAŞMALAR

***Умут Али оглы Олмез***
*докторант по программе доктора философии*
*кафедры Социальной и педагогической психологии,*
*Бакинского Государственного Университета*

# ВКЛЮЧЕНИЕ ДЕТЕЙ С РАССТРОЙСТВАМИ АУТИСТИЧЕСКОГО СПЕКТРА В ОБРАЗОВАНИЕ И ПРИКЛАДНЫЕ ПЕДАГОГИЧЕСКИЕ ПОДХОДЫ

***Umut Olmez Ali***
*doctorial student in the program of philosophy of the department*
*of Social and pedagogical psychology at Baku State University*

# INCLUSION CHILDREN WITH AUTISM SPECTRUM DISORDERS IN EDUCATION AND APPLIED PEDAGOGICAL APPROACHES

**Xülasə.** Autizm spektr pozuntulu uşaqların təhsilə cəlb olunması və onların bu prosesdə daha effektiv nəticələr əldə etməsi müasir təhsil prosesinin, müxtəlif yanaşmalarının, eləcə də təhsil və sosial psixologiyanın qarşısında duran vacib məsələlərdən biridir. Amerika Birləşmiş Ştatları Xəstəliklərlə mübarizə və nəzarət mərkəzinin statistik hesablamalarında hər 36 uşaqdan birinin autizm spektr pozuntusunu hər hansı bir formasından əziyyət çəkdiyi göstərilir. Dünya əhalisinin hər 100.000 nəfərə düşən göstərici 788,3 nəfər təşkil edir. Bu isə kifayət qədər problemin ciddi və aktual olduğunu bir daha vurğulayır. Həmin uşaqların təhsilə cəlb olunması, inklüziv təhsil proqramlarında onların da nəzərə alınması isə müasir pedaqogika və psixologiya elmini daha çox düşündürür və tədqiqatların zəruriliyinə gətirib çıxarır. Bu məqalə mövcud problemin yerli və beynəlxalq ədəbiyyatda işlənməsini təhlil edərək müqayisəli təsvirlər təqdim edir.
***Açar sözlər:*** *autizm spektr pozuntusu, inklüziv təhsil, müasir təhsil yanaşmaları, məktəb mühiti, dəstəkləyici mühit*

**Аннотация.** Вовлечение детей с расстройствами аутистического спектра в образовательный процесс и достижение более эффективных результатов в этом процессе является одной из важных проблем, стоящих перед современным образовательным процессом, его различными подходами, а также педагогикой и социальной психологией. Статистические оценки Центров по контролю и профилактике заболеваний США показывают, что один из 36 детей страдает той или иной формой расстройства аутистического спектра. Численность населения мира составляет 788,3 человека на 100 000 человек. Это еще раз подчеркивает, что проблема весьма серьезная и неотложная. Вовлечение этих детей в образование и учет их интересов в программах инклюзивного образования делает современную педагогику и психологию более вдумчивой и обусловливает необходимость проведения исследований. В статье анализируется освещение данной проблемы в отечественной и зарубежной литературе, даются сравнительные характеристики.
***Ключевые слова***: *расстройство аутистического спектра, инклюзивное образование, современные образовательные подходы, школьная среда, поддерживающая среда*

**Abstract.** Involving children with autism spectrum disorders in education and ensuring their more effective results in this process is one of the important issues facing the modern educational process, its various approaches, as well as education and social psychology. Statistical calculations by the United States Centers for Disease Control and Prevention indicate that one in every 36 children suffers from some form of autism spectrum disorder. The figure per 100,000 people in the world's population is 788.3 people. This once again emphasizes that the problem is quite serious and urgent. Involving these children in education and taking them into account in inclusive education programs makes modern pedagogy and psychology think more and leads to the need for research. This article analyzes the development of the existing problem in local and international literature and presents comparative descriptions.

***Keywords:*** *autism spectrum disorder, inclusive education, modern educational approaches, school environment, supportive environment*

**Giriş:** Autizm spektr pozuntulu uşaqların təhsilə cəlb edilməsi problemi təhlil edilərkən ilk növbədə bu problemin dünyada yayılması statistikasına baxılmışdır.

Autizm beyin inkişafı ilə əlaqəli nevroloji və inkişaf vəziyyətidir. Autizm fərdlərin başqalarını qavramasına və sosiallaşmasına, eləcə də ətrafdakılarla qarşılıqlı əlaqəsinə təsir göstərir. Autizm əlamətləri adətən erkən uşaqlıq illərində müşahidə oluna bilər. Autizm, bir insanın başqaları ilə qarşılıqlı əlaqə və ünsiyyət qabiliyyətinə təsir edən xüsusi davranışlar toplusu ilə müəyyən edilir. Autizmin müxtəlif dərəcələri var, lakin bu əlilliklə əlaqəli bəzi ümumi davranışlara zəif motor bacarıqları, təkrarlanan davranışlar, ləngimə nitq, əsaslandırma ilə bağlı çətinliklər, çox dar maraqlar və sosial qarşılıqlı əlaqə və ünsiyyətdəki pozğunluqlar (məsələn, sosial işarələri aşkar etmək qabiliyyətinin azalması) daxildir.

Son illərdə autizm halları artıb. Ümumdünya Səhiyyə Təşkilatı qeydlərinə əsasən dünya əhalisi üzrə hər 100 uşaqdan birində autizm qeydə alınır [1]. ABŞ Xəstəliklərə Mübarizə və Nəzarət Mərkəzi 2021-ci il qeydlərində göstərir ki, 2018-ci ildə ABŞ-da autizm nisbəti hər 44 uşaqdan 1-dir. 1990-cı illərin əvvəllərinə təsadüf edən bu artan autizm tendensiyası təkcə ABŞ-da deyil, bütün dünyada qlobal bir hadisə olduğunu göstərmişdir. Mövcud nəzəriyyələr göstərir ki, artım autizmin ümumi hallarının kütləvi artması ilə deyil, autizm haqqında məlumatlılığın və diaqnozun artması ilə bağlıdır. Bununla belə, autizm müasir dünyada daha çox rast gəlinən yaşlı valideynləri olan körpələrdə və vaxtından əvvəl doğulmuş körpələrdə daha çox rast gəlinir.

Autizmin səbəbləri təhlil edilərkən müəyyən edilməmişdir, erkən diaqnoz yaxşılaşdırılmış nəticələrin açarıdır. Autizmin tam müalicəsi mümkün olmasa da, simptomlar idarə oluna bilər və yetkinlik dövründə bir qədər azalmış ola bilər. Autizmin ən aşağı olduğu ölkələr Avropanın inkişaf etmiş ölkələridir. Fransada ən aşağı autizm nisbəti hər 10.000 nəfərə 69,3 və ya 144 nəfərdən 1-dir. Sonrakı yerdə 10,000-ə 70,5 və ya 142-də 1 ilə Portuqaliya gəlir [2].

Ümumdünya Səhiyyə Təşkilatı Dünya əhalisinin statistik qeydlərinə əsasən Sinqapur, Cənubi Koreya, Yaponiya, ABŞ, Avstraliya bu siyahıda ilk sıralardadır. Azərbaycan üzrə bu göstərici hər 100 min nəfərə 893 nəfər təşkil edir. Tədqiqatçıların fikrincə ailələrin bu uşaqlar haqqında məlumat verməsi və ya gizlətməsi, onların təhsildən yayındırılması, stiqma kimi hallar statistik göstəricilərin artıb azalmasına səbəb olur.

**Ədəbiyyat təhlili:** Dünyada autizm nisbətlərini izləmək bir neçə səbəbə görə çətin hesab edilir. İlk növbədə autizmin qiymətləndirilməsi və diaqnozu üçün xüsusi, vahid meyarlar yoxdur. Bunu qan testi, beyin tomoqrafiyası və ya hər hansı digər obyektiv müayinə ilə təsdiqləmək mümkün deyil. Burada uşağın psixoloji vəziyyətinin ekspert klinik müşahidələri ilə diaqnozu qoyulmalıdır. İkincisi, bir sıra testlər olsa belə, bir çox icmalarda qiymətləndirmə aparmaq üçün resursları yoxdur. Üçüncüsü, bir çox ölkələr autizm nisbətlərini izləmir və ya hesabat vermir.

Qeyd edilən amillər isə öz növbəsində həmin ölkələrdə autizmli uşaqların təhsil problemlərinin də öz növbəsində inkişaf etməsinə gətirib çıxarır.

Erkən uşaqlıqdan və bütün həyat boyu geniş spektrli müdaxilələr autizmli insanların inkişafını, sağlamlığını, rifahını və həyat keyfiyyətini optimallaşdıra bilər. Erkən sübuta əsaslanan psixososial müdaxilələrdən vaxtında istifadə autizmli uşaqların effektiv ünsiyyət və sosial

qarşılıqlı əlaqə qabiliyyətini artıra bilər. Davamlı olaraq ana və uşaq sağlamlığının bir hissəsi kimi uşaq inkişafının monitorinqi ÜST tərəfindən tövsiyə olunur.

Autizm diaqnozu qoyulduqdan sonra autizmli uşaqlara, yeniyetmələrə və böyüklərə və onların baxıcılarına fərdi və inkişaf edən ehtiyac və seçimlərinə uyğun olaraq müvafiq məlumat, xidmətlər, tövsiyələr və praktiki dəstək təklif edilməsi vacibdir.

Autizmli insanların sağlamlıq ehtiyacları mürəkkəbdir və sağlamlığın təşviqi, qayğı və reabilitasiya daxil olmaqla bir sıra inteqrasiya olunmuş xidmətləri tələb edir. Səhiyyə sektoru ilə digər sektorlar, xüsusilə də təhsil, məşğulluq və sosial qayğı arasında əməkdaşlıq vacibdir.

Autizm və digər inkişaf qüsurları olan uşaqlar üçün müdaxilələr bu şərtlərlə yaşayan insanların iştirakı ilə hazırlanmalı və həyata keçirilməlidir. Bu uşaqlara göstərilən qayğı daha çox əlçatanlıq, inklüzivlik və dəstək üçün icma və cəmiyyət səviyyələrində tədbirlərlə müşayiət olunmalıdır.

Bütün insanların, o cümlədən autizmli insanların fiziki və psixi sağlamlığın əldə edilə bilən ən yüksək standartından istifadə etmək hüququ var.

Bununla belə, autizmli insanlar tez-tez sıxılma ayrı-seçkiliyə məruz qalırlar, o cümlədən, bir sıra hallarda səhiyyə, təhsil və öz icmalarında iştirak etmək imkanlarından məhrumdurlar.

Nəzərə almaq lazımdır ki, autizmli uşaqlar ümumi əhali ilə eyni sağlamlıq problemlərinə malikdirlər. Bununla belə, onlar, əlavə olaraq, autizm və ya digər birgə baş verən şərtlərlə bağlı xüsusi sağlamlıq ehtiyaclarına malik ola bilərlər.

Autizmli insanlar əhalinin qalan hissəsi kimi ümumi sağlamlıq ehtiyacları üçün əlçatan tibbi xidmətlərə, o cümlədən təşviqedici və profilaktik xidmətlərə ehtiyacları vardır.

Xüsusi ehtiyacları olan bütün insanlarda olduğu kimi autizm spektr pozuntusu (ASP) olan uşaqlarda da təhsil və ev mühitləri uyğun şəkildə təhsil aldıqda, funksional proqramları inkişaf etdirildikdə, təhsil prosesi fərdilik əsasında uyğun olaraq hazırlandığında, müstəqil yaşam bacarıqlarının əldə edilməsi zamanı əhəmiyyətli irəliləmələr əldə etmiş olarlar.

ASP olan uşaqların erkən uşaqlıq dövründən başlayaraq ibtidai və orta təhsilini əhatə edən dövr məktəbi və yetkinlik dövründəki iş və peşə təhsil proqramları da daxil olmaq üzrə yaşam boyu xüsusi təhsil xidməti əldə edə bilmələri vacibdir. Xüsusi təhsil xidmətlərinin göstərilməsi isə onun bir dövründə ASP olan birinin yaşına, xüsusiyyətlərinə, kifayət qədər ehtiyaclarına görə funksional təhsil proqramlarının yaradılması, proqram sayının çox və müxtəlifləşdirilməsi ilə mümkün ola bilər [3, s.4-7; 4].

Autizm spektri pozğunluğu olan şəxslərin təhsili, onların cəmiyyətə uyğunlaşması üçün ilk növbədə onlara şəxsi müstəqillik və sosial məsuliyyət bacarıqları: özünə qulluq, gündəlik həyat və sosial bacarıqlar, daha sonra isə akademik bacarıqlar müvafiq dəstək verməklə başlayır [5, s.116]. Ədəbiyyat araşdırıldığında, mövzu ilə bağlı araşdırmalarda ASP diaqnozu qoyulan uşaqların təhsil təcrübələrində nəzərə alınması lazım olan ən əhəmiyyətli və ümumi elementlər olduğu bir daha məlum oldu [6, s.112].

ASP olan şəxslərin təhsilində ilk növbədə təqlid, uyğunlaşdırma və təsnifatdan istifadə edilir; oyun, ünsiyyət, birgə diqqət və sosial qarşılıqlı əlaqə bu sahədə ilk addımlar sırasında göstərilmişdir. Özünə qulluq və preakademik/akademik bacarıqları ehtiva edən xüsusi proqram hazırlanmalı və bu proqram həftədə ən az 35-40 saat intensiv şəkildə verilməlidir. Hazırlanan proqramın intensiv və davamlı şəkildə həyata keçirilməsi üçün xüsusi təhsil mütəxəssisləri, analar, atalar, ilkin qayğı göstərənlər, sinif müəllimləri, təcrübə keçən tələbələr və könüllülərdən ibarət qrup iş bölünərək yaradılmalı və təhsil bu komanda tərəfindən paylaşılmalı və davam etdirilməlidir. ASP olan uşaqlar eyni yaşda olsalar da, bir-birlərindən fərqlidirlər və özünəməxsus xüsusiyyətlərinə malikdirlər. Bu fərqlərə görə onların ehtiyacları da fərqlidir və bu ehtiyacları ödəmək üçün müxtəlif dəstək və təhsil xidmətləri göstərilməlidir [7, s.111].

Məktəblərdə ASP diaqnozu qoyulmuş uşaqların sayının artması siniflərdə effektiv və davranış baxımından dəstəklənən təcrübələrin planlaşdırılması ehtiyacını ortaya qoyur [8, s.152].

Ailələrin övladlarının təhsil alacağı təhsil mühitini müəyyənləşdirmək məqsədi daşıyan yuxarıdakı suallardan başqa, uşaqlarının təhsil proqramlarının uğurlu olması üçün bəzi əsas elementləri qeyd etmək də vacibdir. Autizm spektri pozğunluğu olan uşaqlar üçün uğurlu təhsil proqrama daxil edilməli olan bəzi əsas elementlər:

- uşağın müəllimi (istər xüsusi təhsil müəllimi, istərsə də sinif müəllimi) həm ASP olan uşaqların təhsili haqqında məlumatlı olmalı, həm də bu uşaqlarla işləmək təcrübəsi olmalıdır.

-müəllim məktəb rəhbərliyi tərəfindən tam dəstək almalı və lazım gəldikdə resurslara və tədris materiallarına çıxış əldə etməlidir.

-uşaqların müəllimi fərdiləşdirilmiş təhsil proqramında onların ehtiyaclarını və güclü tərəflərini nəzərə alaraq kurikulumunu (öz imkanlarına və resurslarına əsaslanaraq və məktəbin siyasətinə uyğun olaraq) yarada və ya dəyişdirə bilməlidir.

- valideyn uşağın sinfində istifadə olunan müxtəlif tədris üslublarını müşahidə etməyi bacarmalıdır.

- Bədən tərbiyəsi, ana dili və xüsusi təhsil müəllimləri kimi digər fənn müəllimləri uşaqlarla işləmək istədikləri zaman resurslara və dəstəyə çıxış əldə etməlidirlər.

-valideyn müəllimlərin səy göstərdiyini və uşaqları akademik və sosial cəhətdən dəstəklədiyini göstərən sübutları görməlidir.

ASP olan uşaqların adətən inkişaf edən həmyaşıdları ilə birlikdə təhsil aldıqları inklüziv mühitlərdə uşağa və onun ailəsinə dəstək verəcək xüsusi təhsil mütəxəssisi, inklüziv sinif müəllimi, dəstək xidmətləri göstərən digər mütəxəssislər və məktəb rəhbərliyinin əməkdaşlıq etməsi vacibdir [9, s.113].

İnklüzivlikdə uğur təkcə sinif müəlliminin səyləri ilə deyil, həm də komandadakı digər insanların öz rollarını yerinə yetirməsi və məsuliyyəti bölüşməsi ilə bağlıdır.

ASP olan uşaqlar ümumi təhsil müəssisələrində məktəb rəhbərlərini və müəllimləri narahat etsə də, tədris mühitində lazımi tənzimləmələr etməklə, müvafiq metod və strategiyalardan istifadə etməklə eləcə də, ailə ilə əməkdaşlıq etməklə inklüziv təcrübələrin müsbət təsirlərini artırmaq və bu uşaqların ümumi təhsil müəssisələrində öz həmyaşıdları ilə birlikdə təhsil almasını təmin etmək mümkündür. Bu baxımdan, bu uşaqların erkən uşaqlıqdan yetkinliyə qədər həyatları boyunca həm məktəb həyatında, həm də ictimai həyatında lazımi tənzimləmələrin edilməsi bu uşaqların həyat keyfiyyətini artırmış olacaq. Sosial həyatda mühüm yer tutan xüsusi qayğıya ehtiyacı olan şəxslərin yetkinlik dövründə ehtiyac duyacaqları prioritet sahələrin müəyyən edilməsi və funksional yaşayış sahələrində xüsusi təhsil xidmətlərinin ömürboyu təhsil xidmətləri çərçivəsində həll olunmasının təmin edilməsi prioritet məsələ olmalıdır. Xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial həyata keçidini planlaşdırmaq və bu şəxslərin həyat keyfiyyətini yaxşılaşdırmağa yönəlmiş araşdırmaları həyata keçirmək və yaymaq lazımdır.

Autizm spektri pozğunluğu olan şəxslərin ehtiyac və xüsusiyyətlərinə uyğun təhsil mühitlərinin müəyyən edilməsi, bu mühitlərin qanuni tənzimləmələri nəzərə alaraq planlaşdırılması və təhsil fəaliyyətinin həyata keçirilməsi vacibdir. Aşağıda göstərilən məqamlar ASP olan şəxslər üçün təhsil və təlim tələblərini əks etdirir:

☑ ASP-lu şəxslərin təhsilində “erkən”, “davamlı”, “intensiv” və “ailə iştirakı” prinsipləri əsasında tənzimləmələr aparıla bilər;

☑ ASP olan şəxslərə təhsil və təlim xidmətləri göstərən bütün müəssisələrdə fərdi, qrup və ailə üçün xüsusi yanaşmalar hazırlana bilər;

☑ ASP olan şəxslərin xüsusiyyətlərindən asılı olaraq, onların təhsil mühitlərindən “maksimum müddət” və “ən yüksək səviyyədə” faydalanmaları təmin edilə bilər;

☑ Ailələr ASP olan uşaqları üçün mövcud olan təhsil mühitləri, həmçinin uşaqlarının və bu mühitlərlə bağlı qanuni hüquqları haqqında məlumatlandırıla bilərlər;

☑ ASP olan şəxslər üçün icma və sosial həyat proqramları hazırlana və həyata keçirilə bilər.

☑ ASP olan uşaqların təhsil aldığı təhsil müəssisələrindəki bütün müəllimlər və işçilər ASP haqqında məlumatlandırıla bilərlər;

☑ İnklüziv təhsil təcrübələrinin həyata keçirildiyi bütün müəssisələrdə yardımçı təhsil otaqları/fərdi təhsil otaqları açıla, uşaqların ehtiyaclarını ödəmək üçün bu mühitlərə texniki avadanlıq və materiallar verilə bilər;

☑ Xüsusi təhsil xidmətləri göstərən xüsusi təhsil məktəbləri regional tədqiqat mərkəzləri və ya səyyar xidmət məktəbləri kimi xidmətlər təklif edə bilər.

**Problemin aktuallığı.** Bu gün autizm spektri pozuntusu bağlı biliklərin artması ilə birlikdə ümumi təhsil mühitlərinin də autizm spektri pozuntusu olan uşaqlar üçün uyğun təhsil mühitləri olduğu və bu görüşə uyğun olaraq, bu uşaqların kiçik bir hissəsinin ümumi təhsil mühitlərində tipik inkişaf edən həmyaşıdları ilə birlikdə inklüziv təcrübələrdə təhsil-

lərini davam etdirə bilməsi mühüm əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi**. Autizm spektr pozuntulu uşaqlarla bağlı çoxsaylı tədqiqatlar aparılır. Bu məqalədə isə məktəb, ailə və icma işinin birlikdə autizm spektr pozuntulu uşaqlar üçün verə biləcəyi təhsil mühiti təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** hazırlanmış məqalə tədqiqatçılar, tələbələr və bu sahədə çalışan mütəxəssislər, xüsusilə autizm spektr pozuntulu uşaqların təhsil və tərbiyəsi ilə məşğul olan əməkdaşlar və bu uşaqların valideynləri üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. Ümumdünya Səhiyyə Təşkilatı -2025 https://www.who.int/news-room/fact-sheets/detail/autism-spectrum-disorders
2. World Population Review- 2025 https://worldpopulationreview.com/country-rankings/autism-rates-by-country#10-countries-with-the-highest-autism-rates
3. Webber, J., & Scheuermann, B.. //*Educating students with autism: A quick start manual.//*Texas: PRO-ED/, Inc/- 2008.-Page 416. https://www.proedinc.com/Products/12578/educating-students-with-autism-a-quick-start-manu.aspx
4. Williams, B. F., & Williams, R. L.//*Effective programs for treating autism spectrum disorder: Applied behavior analysis models//*- NY and London: Routledge Taylor & Francis Group.- 2011.-*Page 304.*
5. Simpson, R. L., de Boer-Ott, S. R., & Smith-Myles, B. // Inclusion of learners with autism spectrum disorders in general education settings//-*Topics in Language Disorders*, 23, 2003.- p. 116-133.
6. Barnes, E. B., O'Flynn, J., & Saile, L. //Autism spectrum disorders in young children. G. L. Ensher, D. A. Clark, N. S. Songer (Eds.)//. *Families, infants, & young children at risk: Pathways to best practice -2009.-p.*107-138.
7. Dunlop, G., Iovannone, R., & Kincaid, D. J.K. Luiselli, D. C. Russo, W. P. Christian and S. M. Wilczynski //Essential components for effective autism educational programs.// Effective practices for children with autism: Educational and behavioral support interventions that work - New York: Oxford University Press.- 2008.-p. 111-135.
8. Wilkinson, L. A. //Self-management for children with high-functioning autism spectrum disorders//. *Intervention in School and Clinic*, 43, -2008.-p.150-157
9. Batu, E. S., & Uysal, A. // Günümüz sınıflarına engelli çocukların katılımını destekleme// A. G. Akçamete (Ed.), *Genel eğitim okullarında özel gereksinimi olan öğrenciler ve özel eğitim* - Ankara: Kök Yayıncılık.-*2009* .-p. 113-140


**Redaksiyaya daxil olub:** 04.04.2025

***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

*UOT 159.9*

***Məhərrəm Sabir oğlu Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-3762-8745*
*E-mail: dos.m.aliyev@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).214-221*

# İNTİHAR (SUİSİD) ANLAYIŞI VƏ ONUN MAHİYYƏTİNİN PSİXOLOJİ TƏHLİLİ

***Магеррам Сабир оглы Алиев***
*доцент кафедры Общей психологии Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по психологии*

# ПОНЯТИЕ САМОУБИЙСТВА (СУИЦИДА) И ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЕГО СУЩНОСТИ

***Maharram Sabir Aliyev***
*associate professor of the department of General psychology at Azerbaijan State Pedagogical University, doctor of philosophy in psychology*

# THE CONCEPT OF SUICIDE AND PSYCHOLOGICAL ANALYSIS OF ITS ESSENCE

**Xülasə.** Məqalədə “intihar” (suisid) anlayışının mənşəyi haqqında məlumat verilir, müxtəlif tədqiqatçıların ona verdiyi təriflər şərh olunur. Psixoloji, sosioloji və fəlsəfi elmi istiqamətlərin bəzi nümayəndələrinin intiharla bağlı təsəvvürləri təhlil olunur və onun mahiyyəti aşkar olunur. Bir tərəfdən, bioloji, psixoloji, psixopatoloji və sosioloji yanaşmalar istiqamətində, digər tərəfdən isə, tibbi, sosiomədəni və ekoloji modellər çərçivəsində intihar davranışının mahiyyəti izah olunur. İntiharın 7-li (7 addımlı) preventiv modeli əsasında müvafiq əmələ qərar qəbulu kimi yanaşılmasının irəlidə problemin həlli yönündə perspektivli zəmin hazırlaya biləcəyinə vurğu edilir.
***Açar sözlər:*** *intihar, tibbi model, sosiomədəni model, ekoloji model, intiharın 7-li (7 addımlı) preventiv modeli, Qeyri-tarazlıq psixologiyası*

**Аннотация.** В статье приводятся сведения о происхождении понятия «суицид» и комментируются определения, которые давали ему различные исследователи. Анализируются идеи некоторых представителей психологических, социологических и философских научных направлений относительно самоубийства и раскрывается его сущность. Сущность суицидального поведения объясняется, с одной стороны, в рамках биологических, психологических, психопатологических и социологических подходов, а с другой – в рамках медицинских, социокультурных и экологических моделей. Подчеркивается, что подход к соответствующим действиям как к процессу принятия решений на основе 7-шаговой модели профилактики самоубийств может проложить путь к будущим решениям проблемы.
***Ключевые слова:*** *самоубийство, медицинская модель, социокультуральная модель, экологическая модель, 7-шаговая превентивная модель суицида, Неравновесная психология*

**Abstract.** The article provides information about the origin of the concept of "suicide" and comments on the definitions given to it by various researchers. The ideas of some representatives of psychological, sociological and philosophical scientific directions regarding suicide are analyzed and its essence is revealed. The essence of suicidal behavior is explained, on the one hand, within the framework of biological, psycho-

logical, psychopathological and sociological approaches, and on the other hand, within the framework of medical, sociocultural and ecological models. It is emphasized that the approach to appropriate actions as a decision-making process based on the 7-step model of suicide prevention can pave the way for future solutions to the problem.

***Key words:*** *suicide, medical model, sociocultural model, ecological model, the 7-step model of suicide prevention, Non-equilibrium psychology*

***Giriş.*** Müasir dövrdə insanlıq tarixi ən ciddi problemlə – intiharla – qarşı-qarşıyadır. İntiharlar hər dövrdə və əsasən dünyanın hər yerində olub. Lakin yadda saxlamaqda fayda vardır ki, intiharların heç olmadığı məkanlar da vardır. A. Camus (1913-1960) yazır ki, *"Həqiqətdə yalnız bir ciddi fəlsəfi məsələ var – intihar haqqında məsələ. Həyatı yaşamağa əmək sərf etməyə dəyər yoxsa dəyməz fikri ilə bağlı qərar vermək – bu, fəlsəfənin köklü sualına cavab vermək deməkdir"* (1, s. 30). Bu fikir aktuallığını XXI əsrdə də qorumağa davam edir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, "Hər il 726 000 insan intihar edir və bundan daha çox insan intihara cəhd edir" (2). Azərbaycanda intihardan ölüm səviyyəsi 100000 nəfərə 4.09 [2.39/1.6 (qadın) – 6.5/6.6 (kişi)] əmsal təşkil edir (3; 4) ki, bu, aşağı səviyyə sayılır, baxmayaraq ki, 2018-dən bəri həmin səviyyə +0.06 əmsal artmışdır (3). Aşağıdakı qrafikdə əyani olaraq bu haqda məlumat əldə etmək olar (Şəkil 1):




***Şəkil 1. Azərbaycanda intihar ölüm səviyyəsi (100000 əhaliyə) (4)***
***Ölkəmizdə intihar hallarından ölənlərin sayının kritik həddən (7-dən) az olması***

Azərbaycanı intihardan ölüm riski yüksək olan ölkələr siyahısından kənarda tutur. Məlumata görə, 2023-cü ildə Azərbaycanda intihar edənlərin sayı 620 nəfər olub (5). Deməli, intihar problemi bizdə də aktuallığını qoruyur. Baxmayaraq, o da qeyd olunur ki, 2023-cü ilin ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin birinci yarımilində intihar hadisələrinin sayı 1,9 %, intihara cəhd hadisələrinin sayı isə 8,9 % azalmışdır (6). Heç təsadüf deyil ki, intihar problemi hər dövrdə müxtəlif tədqiqatçıların araşdırma predmeti olmuşdur. Xüsusilə, nəzərə almaq lazımdır ki, *"intihar gənc insanlar arasında əsas ölüm səbəblərindən biridir. İntihar 15-34 yaş aralığındakı əhalinin üç əsas ölüm səbəbindən biridir"* (7, s. 38).

Əsas məqsədimiz, ilk olaraq, intihar anlayışına verilən tərifləri ayrı-ayrılıqda təhlil etməkdir. Əlbəttə ki, öncə intihar (suisid) anlayışının etimologiyasını (yun. etymologia – sözün əsl mənası, həqiqət) araşdırmaq problemin mahiyyətinin anlaşılmasına işıq tuta bilər.

İkincisi, intihar anlayışına yüklənən mahiyyətin psixoloji təhlilini vermək müvafiq davranışın əsl səbəblərini aşkara çıxarmağa şərait yarada bilər. İntihar davranışdır, seçimdir, anadangəlmə müdafiə mexanizmidir, yoxsa qazanılmış vərdişdir, ya da tamamilə başqa nədirsə, məsələn,

müəyyən anda qərar qəbuludurmu? Bu suallara cavab vermək mahiyyət etibarilə önəmlidir.

Üçüncüsü, intihar anlayışının izahına mövcud yanaşmalar zəminində alternativ tərif verməklə, fərqli baxış bucağından ona yeni anlam qazandıra bilməkdir. Bu da, öz növbəsində, problemin həlli yolları ilə bağlı yeni istiqamətlər formalaşdırmağa yardımcı ola bilər.

***Metod.*** İntihar (suisid) haqqında ədəbiyyatların, o cümlədən elektron resursların, müxtəlif tədqiqatçıların intiharla bağlı fikir və yanaşmalarının təhlili metodundan istifadə edilmişdir. Təhlil nəticəsində əldə olunan məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir.

***Nəticə.*** Qeyd etməliyik ki, daha çox suisid anlayışına rast gəlirik, ona görə də, biz də bəzi müəlliflərin fikirlərinə qatılaraq, intihar və suisid anlayışlarını sinonim kimi istifadə edirik. Suisid anlayışı intihar və ya özünü öldürmə anlayışlarına görə sanki daha yumşaldıcı (evfemizm – yun. euphemismos, eu –yaxşı + phemi – yaxşı danışmaq) ton daşıyır və öyrənilməsi yaxın tarixi əhatə edir. Ona görə də, intihar anlayışına sinonim kimi suisid anlayışına müraciət edirik. İntihar (suisid) anlayışının təriflərinə nəzər salmaqla yanaşı, onun etimologiyasını araşdırmaq məqsədəuyğun olar.

**İntihar (suisid) anlayışının etimologiyası və mahiyyəti.** "Azərbaycan dilinin izahlı lüğəti"ndə qeyd edilir ki, *"intihar sözü ərəb mənşəlidir və özünü öldürmək anlamına gəlir"* (8, s. 561).

B. Barraclough və D. Shepherd yazır ki, insanın özünə qarşı törədilmiş ölümünü *(self-inflicted death)* ifadə etmək üçün ingilisdilli cəmiyyətlərdə əsasən ***suisid*** anlayışı istifadə olunur, lakin bu anlayış ser Thomas Browne (1605-1682) tərəfindən düşünülmüş və ilk dəfə 1643-cü ildə onun "Religio Medici" ("Həkimin dini") kitabında nəşr olunmuşdur (9). Başqa bir mənbədə bu tarixin 1641-ci il olduğu göstərilir (10, s. 50).

Bir digər mənbədə (Online etymology dictionary-də) qeyd olunur ki, 1650-cı illərdə ***suisid*** "özünü qəsdən öldürmə", müasir lat.-dan *suicidium* "intihar", lat.-dan *sui* "öz-özünü" (yiyəlik hal olan *se* "özü"), Proto-Hind-Avropadan (PIE) *s(w)e* kökündən - *s(u)w-o-* "öz, özünün", + *-cidium* "qətl", caedere-dən "öldürmək" (PIE kökündən kae-id- «vurmaq») kimi tərif edilirdi (11).

"Öz-özünü qəsdən öldürən insan" kəlməsinin anlamı 1728-ci ildə təsdiqini tapmışdır. Anqlo-Latın dilində "intihar edən biri" üçün *felo-de-se,* hərfi mənada, "özünə qarşı günahkar olan biri" termini işlədilirdi (11).

"The Encyclopedia of Suicide book" (2003) kitabında qeyd olunur ki, *"intihar (suisid)"* sözü nisbətən yeni mənşəlidir. Müəlliflər bildirirlər ki, söz latın mənşəli olsa da, müvafiq akt üçün orijinal vahid latınca söz olmamışdır. Bu fikrin çatdırılması üçün daha çox *sibi mortem consciscere* ("öz şəxsi ölümünü təmin etmək"), *vim sibi inferre* ("özünə şiddət, zorakılıq uyğulamaq"), yaxud *sua manu cadere* ("öz əlindən düşmək") ifadələri işlənilirmiş. Əsərdə yazılır ki, suisid sözü ilk dəfə o zaman təzahür etmişdir ki, 1662-ci ildə Edward Philips özünün "New World of Words" kitabında müvafiq sözü "*sui* əvəzliyindən *daha çox sus*, donuz sözündən törəmiş barbar sözlə adlandırmışdır, sanki insan üçün özünü öldürmək – donuz işidir". Lakin "The Oxford English Dictionary"də iddia edilir ki, ***suisid*** sözü ingilis dilində ilk dəfə 1651-ci ildə, latınca "öz" əvəzliyi və "öldürmək" feilinin birləşməsi yolu ilə əldə olunmuş müasir latınca olan *suicidium* sözündən əmələ gəlmişdir. Suisid sözü 1752-ci ildə isə Fransada "Dictionnaire de Trevoux"-də üzə çıxmışdır (12, s. xv).

"Merriam-Webster Dictionary"-də suisid sözünün latınca *sui* (yiyəlik hal) – özü + ingiliscə – *cide* sözlərindən əmələ gəldiyi göstərilir (13). Eyni lüğətdə qeyd olunur ki, intihar – həyatın könüllü və qəsdən sonlandırılması aktı yaxud hadisəsidir (13).

Başqa lüğətdə "suisid" sözü birləşincə "özünü öldürmək" kimi tərcümə olunan latınca *sui* və *caedere* sözlərinə parçalanır. Lakin o da göstərilir ki, heç də bütün intiharlar həyatın sonu ilə əlaqəli deyil. Belə misal çəkilir ki, *"Məsələn, ədalətli siyasətçi populyar olmayan mövzuda kütlə qarşısında çıxış edərək, siyasi intihar həyata keçirə bilər"* (14). Həmçinin özünü öldürən insanın intiharçı adlandırıldığı qeyd edilir. İntihar – özünü qəsdən öldürmə, öz əlindən ölüm kimi tərif edilir (14).

"Psixologiya" lüğətində suisid (ing. – özünü öldürmə) – insan tərəfindən qüvvətli ruhi pozuntu halında yaxud psixi xəstəliyin təsiri altında törədilən intihar aktı kimi tərif edilir. İntihar *"müvafiq insan üçün şəxsi həyatının ali dəyər kimi anlamının itirildiyi sərt psixtravmatik si-*

*tuasiyaların təsiri altında həyatdan kənarlaşdırmanın dərk edilmiş aktıdır"* (15, s. 390).

"Böyük psixoloji lüğət"də qeyd olunur ki, *"suisid* (lat. *sui* – öz özünü + *caedes* – öldürmək) – *qəsdən öz həyatına son verməkdir, özünü öldürmədir"* (16, s. 642-643).

"İzahlı psixiatrik terminlər lüğəti"ndə *"suisid (lat. sui – özünün, caedo – öldürmək) özünü həyatdan qəsdən məhrum etmək"* kimi tərif edilir (17, s. 1283)

"Psixiatrik ensiklopedik lüğət"də *"intihar (suisidium) (lat. suus – öz, şəxsi u caedo – kəsmək, doğramaq, öldürmək) öz həyatına qəsdən son qoymaq"* kimi tərif edilir (18, s. 892).

"Psixoloji ensiklopediya"da Beyçlerin intiharla bağlı ehtimal olaraq suisidal aktların xidmət göstərdiyi əməliyyat funksiyalarına vurğu edən tərifi qeyd olunur: *"subyektin həyatına qəsdə cəhd vasitəsilə hansısa ekzistensial problemin həllini axtaran və tapan istənilən davranış intihar adlanır"* (19, s. 1260).

R.S. Nemov (1941) "Psixoloji lüğət"də yazır ki, *"intihar – insanın özünü həyatdan məhrum etməsidir"* (20, s. 386).

"Praktik psixoloqun lüğəti"ndə müəllif yazır ki, *"suisid – insan tərəfindən qüvvətli ruhi pozuntu halında yaxud psixi xəstəliyin təsiri altında törədilən intihar aktıdır. Şəxsi həyatın ali dəyər kimi anlamının itirildiyi sərt psixotravmatik situasiyaların təsiri altında həyatdan kənarlaşdırmanın dərk edilmiş aktıdır"* (21, s. 457-458). Bu tərif Psixologiya lüğətindəki təriflə təxminən eyniyyət təşkil edir.

"Psixiatrik terminlər lüğəti"ndə intihar (suisid) *"özünü həyatdan qəsdən məhrum etmək kimi"* tərif edilir (22, s. 47). Bu tərif "İzahlı psixiatrik terminlər lüğəti"ndə verilən təriflə eyniyyət təşkil edir.

İ.A. Poqodin (1974) V.T. Kondraşenkoya istinadən yazır ki, müasir suisidologiyada intihar davranışın mahiyyətini izah etməyə yönəlik dörd əsas yanaşma fərqləndirirlər: 1) ***Bioloji yanaşmaya görə,*** intihar xəstə orqanizmlərdən qurtulmanın "uyğunlaşma" mexanizmi kimi təkamül xarakterindən, özünü məhv etmənin instinktiv təbiətindən irəli gəlir; 2) ***Psixopatoloji yanaşma*** bütün intiharçıların ruhi cəhətdən xəstə insan olduğu, susidal əməlin isə kəskin yaxud xroniki psixi pozuntuların təzahürü olduğu müddəasını dəstəkləyir; 3) ***Psixoloji yanaşmaya görə,*** suisidal meyllərin yaranmasında psixoloji faktorlar aparıcı rola malikdir; 4) ***Sosioloji yanaşmaya görə,*** suisidal davranışın əsasında sosial inteqrasiyanın azalması və davamsızlığı durur, intihar isə istənilən halda yalnız fərdin sosial mühiti ilə qarşılıqlı münasibətləri zəminində anlaşıla bilər, hansında ki, sosial amillər aparıcı rol oynayır (23).

L.N. Yuryeva intiharın mahiyyətinin izah edilməsi ilə bağlı üç modeli – psixopatoloji və bioloji konsepsiyaları özündə ehtiva edən ***tibbi modeli,*** sosioloji, psixomədəni və sosiomədəni nəzəriyyələri özünə daxil edən ***sosiomədəni modeli*** və müxtəlif psixoloji nəzəriyyələri və yanaşmaları, o cümlədən tanatoloji aspektləri özünə daxil edən ***ekoloji modeli*** – ayırd edir (24).

Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) görə, *"intihar insan tərəfindən qəsdən başlanılmış və törədilmiş əməlin nəticəsidir, hansının ki, ölümcül nəticəsi olacağını o, tam şəkildə dərk edir yaxud gözləyir"* (7, s. 37).

Jean-Étienne D. Esquirol (1772-1840) özünün "Əqli xəstəliklər haqqında" (1838) əsərində iddia edir ki, *"sübut edib ki", "intihar, simptomu olduğu əqli xəstəliklərin bütün əlamətlərini təzahür etdirir"* və bundan əlavə *"insan öz həyatına yalnız əqli dəlilik halında qəsd edir və intiharçılar – dəlilərdir"* (25, s. 32).

E. Durkheim (1858-1917) "İntihar. Sosioloji etüd" əsərində (1897) yazır: *"İntihar, bizim dediyimiz kimi, gerçəkdə o zaman mövcuddur ki, qurban ölümcül olmalı olduğu aktı həyata keçirdiyi anda onun normal nəticəsini əminliklə bilir. Lakin bu əminlik az və ya çox ola bilər. Bəzi şübhələri daxil edin və siz intihar deyil, ancaq ona yaxın doğma olan yeni fakt əldə edəcəksiniz, belə ki, onlar arasında yalnız dərəcə fərqi mövcuddur"* (26, s. xliii).

N.A. Berdyayev (1874-1948) "İntihar haqqında. Psixoloji etüd" (1931) əsərində yazır ki, *"İntihar psixoloji hadisədir və onu anlamaq üçün özünə qəsd etmək qərarı almış insanın ruh halını başa düşmək lazımdır. İntihar həyatın xüsusi, istsnai anında baş verir, o zaman ki, qara dalğalar ruhu doldurur və istənilən ümid işığı itirilir. İntihar psixologiyası, hər şeydən əvvəl, ümidsizlik psixologiyasıdır"* (27, s. 10-11).

K. Menninger (1893 – 1990) "İnsan özünə qarşı" (1938) əsərində qeyd edir ki, *"Psixologiya nöqteyi-nəzərindən intihar çox mürəkkəb, kompleks hadisədir və onu sıradan, təsadüfi, impulsiv, məntiqi yaxud əksinə, anlaşılmaz əməl*

*kimi eyniləşdirmək olmaz"* (28, s. 26). *"İntiharı üç ayrılmaz elementi nəzərdə tutan spesifik ölüm növü kimi təsnif etmək olar: ölüm elementi, öldürmə elementi və qətl qurbanı olmaq elementi"* (28, s. 29).

Edwin S. Shneidman (1918-2009) "İntiharçının ruhu" (1991) kitabında yazır ki, *"Mən belə düşünürəm: təxminən bütün hallarda intihara gətirən xüsusi növ ağrıdır –psixi ağrıdır, hansını ki, mən ruhi ağrı (psychache) adlandırıram. Öz növbəsində, o, frustrasiya yaxud təhrif olunmuş psixoloji tələbatlarla doğulur. Başqa sözlə, intihar, ilk növbədə, insanın ruhunda baş verən dramdır"* (29, s.124-125).

C.A. Soper "Təkamül psixologiyası" (2018) kitabında qeyd edir ki, *"İntihar, görünür ki, dəyişkən, irsi əlamətdir, özündə təkamül tapmacasını ifadə edir, belə ki, ölü olmaq, xüsusilə öz əlindən ölü olmaq, görünür öz ardınca ciddi uyğunlaşma məsrəfləri gətirir"* (30, s. 9). Müəllif həmçinin vurğulayır ki, *"Birincisi, suisidallıq, görünür ki, üç vasitə – dəyişkənlik, irsiyyət və reproduktiv uyğunlaşmaya diferensial təsiri – təklif edir – hansının ki, köməyilə təbii seçmə, gözlənildiyi kimi, intihara daha az meylli nəslə sistematik üstünlük verməklə qalib gələcək. … İkincisi, biz belə nəticə çıxara bilərik ki, bu əlamətin hərtərəfliliyindən dolayı ibtidai dövrdən bəri suisidallığın potensialı insan növündə bu şəkildə dəstəklənmişdir. … Üçüncüsü isə, intihar, görünür ki, unikal insan davranışıdır"* (30, s. 5-8).

S.S. Avanesov (1963) "Könüllü ölüm" (2020) əsərində yazır ki, *"Mahiyyət insan üçün ölümcüldür. Mahiyyətin təsdiqi şəxsi ölümün başlanğıcıdır. Mövcud bir şey kimi mahiyyətə bağlılıq (obsessiya) intihar üçün zəruri şərtdir; artıq fəlsəfi öyrənilməyə açıq olmayan (çünki belə şərtlər mahiyyətcə statistik əməliyyatların faktları, predmetləridir) və özlüyündə insanın ekzistensial təşəbbüsü əlindən qaçırdığına işarə edən istənilən hadisə (onun baş verməsi üçün "səbəb") kafi şərt ola bilər"* (31, s. 381).

Danuta Wasserman (1945) ehtimal edir ki, *"intiharı əzabkeş subyekt tərəfindən icra edilmiş, ixtiyari, dərk olunmuş və məqsədi ölüm olan əməl kimi tədqiq etmək gərəkdir"* (32).

İ.A. Paperno (1952) "İntihar mədəni institut kimi" (1999) əsərində yazır: *"İntihar mədəniyyətdə varlığın fundamental problemlərinə toxunan simvolik akt kimi qavranılır; həm mədəni kontekstdə intihar (emosional yaşantı, icra olunmuş ambivalentliklər) süngər misalı müxtəlif mənaları özünə hopdurur və həm də mədəniyyət tarixinin gedişində və mədəniyyətlərarası miqrasiyalar prosesində bu mənalar özünəməxsus mutasiyalara məruz qalır"* (25, s. 23).

A.Q. Ambrumova və V.A. Tixonenkonun konsepsiyasına görə, suisid öz-özlüyündə müxtəlif sosial, psixoloji və patopsixoloji faktorların təsirlərinin inteqrativ nəticəsini ifadə edir, onun genezisi isə onların nisbətilə müəyyən olunur (33).

M.L. Farberə (1912) görə, *"İntihar – özünü şüurlu, qəsdən və cəld şəkildə həyatdan məhrum etməkdir"* (34, s. 14).

T.V. Juravlyova intihara ölümün şüurlu şəkildə seçilməsi kimi qiymət verir. Müəllifin fikrincə, *"İntihar – özünü məhv etmə aktıdır, bu, səbəblərin, niyyətlərin, məqsədlərin, üsulların və mənaların olması ilə xarakterizə olunan könüllü şüurlu hərəkətdir. Bilavasitə məqsədi ölüm olan suisidal davranış insanın bacarıqlı iradəsinin təzahürüdür"* (35, s. 43).

A. Wrobleski qeyd edir ki, *"İntihar seçimdirmi? Seçim nəzərdə tutur ki, intihara meylli insan alternativləri və onlar arasındakıları ağıllı şəkildə nəzərdən keçirir. Əgər ki o, rasional seçim edə bilsəydi, bu, intihar olmazdı. İntihar o zaman baş verir ki, nə zaman ... başqa variantlar görünmür"* (36).

Azərbaycan psixologiyasında suisid probleminə yeni yanaşma M.S. Əliyev (1977) tərəfindən inkişaf etdirilməkdədir. Belə ki, M.S. Əliyev öz məqaləsində *intiharın 7-li (7 addımlı) preventiv modelini* təklif edir (37). İntiharın 7-li (7 addımlı) preventiv modelinin əsasında fizioloji imkanlarımızın nəzərə alınması kontekstində zaman cizgisi, məntiqi səviyyələr, metaproqramlar, metahallar, psixotiplər və qrammatikanın əsasları durur. Müəllif intiharın qarşısının alınması üçün müvafiq amillərin nəzərə alınmasının vacibliyinə işarə edir. Həmçinin M. Əliyev intihara geri dönüşü olmayan davranış kimi deyil, qərar qəbulu kimi yanaşır (38).

***Müzakirə.*** İntihar (suisid) anlayışının mənşəyi ilə bağlı çoxlu fikir və yanaşmalar olsa da, əksər tədqiqatçının gəldiyi nəticə təxminən oxşardır. Əksəriyyətin fikrincə, suisid anlayışı latın mənşəlidir və özünü öldürmək anlamını verməkdədir. Bizim dildə işlədilən intihar anla-

yışı isə ərəb mənşəlidir və eyni şəkildə özünü öldürmək mənasını daşıyır.

İntihar (suisid) anlayışına verilən təriflər və şərhlər deməyə əsas verir ki, bu əməl, əsasən, şüurlu, məqsədyönlü və qəsdən törədilmiş akt mahiyyəti daşısa belə, bəzən intihar davranışının şüursuz ola biləcəyinə dair fikirlərə və yanaşmalara da rast gəlmək mümkündür. İstər şüurlu, istərsə şüursuz olsun, əksər hallarda intiharların qarşısını almağın mümkünlüyünə vurğu edilir.

Bəzi tədqiqatçılar kimi, biz də belə düşünürük ki, intihar aktı qərar qəbulu ilə əlaqəlidir, hansı ki, müəyyən məkan və zaman daxilində baş verir. Əgər gərəkli tədbirlər həyata keçirilərsə, dünyada özünü öldürməyə cəhd edən insanların sayı xeyli azalar.

**Problemin aktuallığı.** İntiharın bütün dünyada əsas ölüm səbəblərindən biri olması və artan qrafik əyrisi ilə gündəmə gəlməsi intihar anlayışının etimologiyasının və mahiyyətinin psixoloji təhlilini aktual edir.

**Problemin elmi yeniliyi.** İntihar (suisid) anlayışının mənşəyi müxtəlif aspektlərdən araşdırılır, onun mahiyyəti fərqli yanaşmalar və konsepsiyaların, o cümlədən ayrı-ayrı müəlliflərin perspektivindən şərh edilir.

**Problemin praktik əhəmiyyəti.** İntihar (suisid) anlayışının mənşəyi və mahiyyətinin anlaşılmasına yönəlik tədqiqatlar intihar davranışının qarşısının alınması üçün peşəkar proqramların hazırlanmasına şərait yaradır.

## Ədəbiyyat


1. Камю, А. Творчество и свобода: [Electronic resource] / Сборник. Пер. с франц. / Составление и предисловие К. Долгова. Комментарий С. Зенкина. – М.: Радуга, – 1990. – 608 с. URL: https://vk.com/doc-123642573_442182802
2. Suicide: [Electronic resource] / URL: https://www.who.int/news-room/fact-sheets/detail/suicide
3. Azerbaijan: Health data overview for the Republic of Azerbaijan: [Electronic resource] / URL:https://data.who.int/countries/031
4. Azerbaijan Suicide Rate 2000-2025: [Electronic resource] / URL:https://www.macrotrends.net/global-metrics/countries/aze/azerbaijan/suicide-rate
5. Azerbaijan recorded 620 suicide deaths in 2023: [Electronic resource] / URL:https://en.apa.az/incident/azerbaijan-recorded-620-suicide-deaths-in-2023-424409
6. İntihar və intihara cəhd hallarının sayı əhəmiyyətli dərəcədə azalıb: [Electronic resource] / 22.07.2024 URL:https://genprosecutor.gov.az/az/post/7852
7. The World Health Report 2001: [Electronic resource] / Mental Health: New Understanding, New Hope. Geneva: – 2001. – 216 p. URL: https://iris.who.int/bitstream/handle/10665/42390/WHR_2001.pdf
8. Azərbaycan dilinin izahlı lüğəti: [Electronic resource] / Dörd cilddə. II cild. – Bakı: "Şərq-Qərb”, – 2006. – 792 səh. URL:https://ebooks.az/az/book/m8JZDsri
9. Barraclough, B., Shepherd, D. A necessary neologism: the origin and uses of suicide: [Electronic resource] / Suicide Life Threat Behav. 1994 Summer;24(2):113-26. PMID: 8053006. URL:https://pubmed.ncbi.nlm.nih.gov/8053006/#full-view-affiliation-1
10. Попов, Ю.В., Пичиков, А.А. Суицидальное поведение у подростков: [Electronic resource] / Ю.В.Попов, А.А.Пичиков. – Санкт-Петербург: СпецЛит, – 2017. – 366 с. URL:https://bekhterev.ru/wp-content/uploads/2020/10/monografija-suicidalnoe-povedenie-u-podrostkov-2017.pdf
11. Harper, D. (n.d.). Etymology of suicide: [Electronic resource] / Online etymology dictionary. Retrieved January 29, 2025 URL: https://www.etymonline.com/word/suicide
12. The Encyclopedia of Suicide: [Electronic resource] / Glen Evans, Norman L. Farberow. – 2nd ed. American Association of Suicidology. – 2003. – 369 p. URL:https://epdf.pub/the-encyclopedia-of-suicidea029f5d1628f995ae68798e869a7268485899.html
13. Merriam-Webster. (n.d.). Suicide: [Electronic resource] / In Merriam-Webster.com dictionary. Retrieved January 29, 2025. URL:https://www.merriam-webster.com/dictionary/suicide
14. Vocabulary.com. (n.d.). Suicide: [Electronic resource] / In Vocabulary.com Dictionary. Retrieved January 29, 2025. URL:https://www.vocabulary.com/dictionary/suicide

15. Психология. Словарь: [Electronic resource] / Под общ. Ред. А.В.Петровского, М.Г. Ярошевского. – 2-е изд.: испр. и доп. – М.: Политиздат, – 1990, – 494 с. URL: https://obuchalka.org/2018021198972/psihologiya-slovar-petrovskogo-a-v-yaroshevskogo-m-g-1990.html
16. Большой психологический словарь: [Electronic resource] / – 4-е изд., расширенное / Под редакцией Б.Г.Мещерякова, В.П.Зинченко. – М.: Издательский дом: АСТ; АСТ-Москва; СПб; Прайм-Еврознак, – 2009. – 811 с., s. 642-643 URL:https://spbguga.ru/files/03-5-01-005.pdf,
17. Толковый словарь психиатрических терминов (около 3000 терминов): [Electronic resource] / Вадим Моисеевич Блейхер и Инна Вадимовна Крук. – Воронеж: Издательский дом НПО «Модэк», – 1995. – 1522 с. URL:https://www.lesjeunesrussisants.fr/dictionnaires/documents/DICTIONNAIRE_RUSSE_DES_TERMES_PSYCHIATRIQUES.pdf
18. Психиатрический энциклопедический словарь: [Electronic resource] / Й.А.Стоименов, М.Й. Стоименова, П.Й.Коева и др. – К.: МАУП, – 2003. – 1200 с. URL: https://booksmed.info/psixiatriya-psixologiya/3070-psihiatricheskiy-enciklopedicheskiy-slovar-stoimenov-ya.html
19. Психологическая энциклопедия: [Electronic resource] / Под редакцией Р.Корсини, А.Аурбаха. – СПб.: Питер, – 2006. – 1817 с.: ил. URL: https://vk.com/doc378477371_468742168
20. Немов, Р.С. Психологический словарь: [Electronic resource] / Р.С. Немов. – М.: Гуманитар. изд. центр ВЛАДОС, – 2007. – 560 с. URL: https://www.klex.ru/i3f
21. Головин, С.Ю. Словарь практического психолога (около 2000 терминов): [Electronic resource] / – Минск: Издательский дом: Харвест, – 1998. – 800 с. URL: https://psv4.userapi.com/s/v1/d/445v9K_2TQC891 wrANzJj1VIrOZAW4nNmBqqSGgOUScE_IAi4-LGbZ0GiLzTrwOAMuVpliUsilfVgPzq2Y_j4vbJYMoQRqXerTti06fNcSzg15sJ/Golovin_S_Yu_-_Slovar_prakticheskogo_psikhologa.pdf
22. Соляник, М.А. Глоссарий психиатрических терминов: учебное пособие: [Electronic resource] / М.А. Соляник, А.В. Кидяева, Е.В. Снедков. – СПб.: Изд-во СЗГМУ им. И.И. Мечникова, – 2014. – 64 с. URL:http://szgmu-psychiatry.ru/f/glossarij_psihiatriya_final.pdf
23. Суицидальное поведение: психологические аспекты: [Electronic resource] / учеб. пособие / И.А. Погодин. – 2-е изд., стереотип. – Москва: Флинта, – 2011. – 189 с. URL: https: //vk.com/doc10174212_443030135?hash=dRaNDCrRi3MHeWaxBiUgMsboYOzBfeVDb0mdg9gzSJ4
24. Юрьева, Л.Н. Клиническая суицидология: Монография: [Electronic resource] / – Днепропетровск: Пороги, – 2006. – 472 с. URL: https://www.klex.ru/as4
25. Паперно, И.А. Самоубийство как культурный институт: [Electronic resource] / – М.: Новое литературное обозрение, – 1999. – 256 с. URL: https://psv4.userapi.com/s/v1/d/XzldlkqkAfUx4PagwD6_HXKOvxekLsh4LnAbgJjE2ZI9KQWXYprBsElEfyXfc1Lb1uxPR0FXrKEdaPAAvtScci6KlPedD9koRtQwnZq8xu18ZpeQ/Paperno_I_Samoubiystvo_kak_kulturny_institut.pdf
26. Durkheim, Émile. Suicide A study in sociology: [Electronic resource] / Translated by John A. Spaulding and George Simpson. Edited with an introduction by George Simpson. – London: Taylor & Francis e-Library, – 2005. – 427 c. URL: https://www.gacbe.ac.in/images/E%20books/Durkheim%20-%20Suicide%20-%20A%20study%20in%20sociology.pdf
27. Бердяев, Николай Александрович (1874-1948.). О самоубийстве: Психолог. этюд: [Electronic resource] / Николай Бердяев. – Париж: YMCA-press, 1931. – 45 с.: 19 см. URL:https://rusneb.ru/catalog/000199_000009_000360740/
28. Меннингер, К. Война с самим собой: [Electronic resource] / Пер. с англ. Ю.Бондарева. Серия: Психология. XX век. – Москва: Издательство ЭКСМО-Пресс, – 2000. – 481 с. URL:https://www.klex.ru/j1e
29. Шнейдман, Эдвин С. Душа самоубийцы: [Electronic resource] / Пер.с англ. – М.: Смысл, – 2001. – 319 с. URL:https://psv4.userapi.com/s/v1/d/35G9kRT_3bqlpmPtJ5eSUOixOHYYG-ruArjarYvorTgpBOr51-Q33N2sr4UnZoyvPsyPIl0BoKnwzSYLDgUiDLpPO3-MesOk4Ib1jxgfB7tQBOyk/Edvin_S_ Shneydman_-_Dusha_samoubiytsy_-_2001_Teoria_i_praktika_psikhologicheskoy_pomoschi.pdf
30. Soper, C.A. Evolutionary Psychology: [Electronic resource] / Series Editors: Todd K.Shackelford · Viviana A.Weekes-Shackelford. Springer International Publishing AG, part of Springer Nature. – 2018. – 289 p. URL: https://www.zlibrary.to/dl/the-evolution-of-suicide-0
31. Аванесов, С.С. Вольная смерть: [Electronic resource] / Ч. 1. Основания философской суицидологи: монография / С. С. Аванесов. – Изд. 2-е, испр. и доп.; НовГУ им. Ярослава Мудрого. – Великий Новгород: – 2020. – 521 с. URL: https://www.academia.edu/45095767/Вольная_смерть_Free_Death

32. Напрасная смерть: причины и профилактика самоубийств: [Electronic resource] / Ред. Д. Вассерман; пер. Е. Ройне. – М.: Смысл, – 2005. – 310 с. URL: https://www.klex.ru/738
33. Амбрумова, А.Г., Тихоненко, В.А. Профилактика суицидального поведения: методические рекомендации. – М.: – 1980. – 24 с.
34. Чхартишвили, Г. Писатель и самоубийство: [Electronic resource] / – М.: Новое литературное обозрение, – 2000. – 576 с. URL: https://www.booksite.ru/localtxt/tcha/rti/shv/ili/index.htm
35. Журавлева, Т.В. Суицид – осознанный выбор смерти: философские и психологические аспекты проблемы: [Electronic resource] // Психология и право. 2018(8). №2. С. 35-49. URL: https://psyjournals.ru/journals/psylaw/archive/2018_n2/psylaw_2018_n2_93366.pdf
36. SOS A Handbook for Survivors of Suicide: [Electronic resource] / by Jeffrey Jackson. Published by American Association of Suicidology Washington: – 2003. URL:https://www.crisissupport.org/wp-content/uploads/2015/03/SOS_handbook.pdf
37. Əliyev, M. İntiharın qarşısının alınmasında yeni yanaşma: intiharın 7-li preventiv modeli: [Electronic resource] // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2017. Cild 84, № 4, – s. 192-198 URL: https://www.arti.edu.az/noduploads/book/elmi-eserler-2017-4.pdf
38. Əliyev, M. İntihar üsulu ilə düşüncə və zodiak bürclərinin əlaqəsi (Qeyri-tarazlıq psixologiyası kontekstində təhlil): [Electronic resource] // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2021. Cild 12, № 4, – səh. 432-439 URL: https://bqu.edu.az/wp-content/uploads/2022/07/BQU-Jurnal-N4-48-2021-oktyabr-Восстановлен-1.pdf

**Redaksiyaya daxil olub:** 17.02.2025.

*UOT 159.9*

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-5241-0250*
*E-mail: gulnare.alixanova@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(2).222-226*

## "MƏN – OBRAZ" IN DİALOQ YOLU İLƏ İNKİŞAFININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Гюльнара Гамзабековна Алиханова***
*доктор филасофии по психологии*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ «Я – ОБРАЗА» ПОСРЕДСТВОМ ДИАЛОГА

***Gulnara Hamzabayovna Alikhanova***
*doctor of philosophy in psychology*
*senior lecturer of*
*Azerbaijan State Pedagogical University*

## PSYCHOLOGICAL FEATURES OF THE DEVELOPMENT OF THE "I – IMAGE" THROUGH DIALOGUE

**Xülasə.** Məqalədə "mən – obraz"in strukturu ilə bağlı fikirlər təqdim olunur, "mən – obraz"ın təkcə sosial deyil, həm də sosial-mədəni cəhətdən müəyyən edilmiş məzmununun ehtiva edilməsi problemi açıqlanır. Dialoq vasitəsi nəticəsində "Mən – obraz" inkişafının effektivliyi əsaslandırılır. Ontogenezin müxtəlif mərhələlərində "mən – obraz" in inkişafının xüsusiyyətləri göstərilir. İnsanın özünü dərk etməsi problemi bütün dövrlərdə alimlərin diqqətini cəlb etmişdir. Problem tədqiqatçı filosof və psixoloqlar tərəfindən müxtəlif cür izah edilmişdir. Bir insanın özü haqqında fikirləri həyatda qazandığı təcrübənin təsiri altında dəyişmək imkanına malikdir. Eyni zamanda onun digər insanlarla ünsiyyət qurması, sosial-mədəni vəziyyətinin dəyişməsi, motivlərin təsiri problemini yaşaması, özünü dərketmə dərəcəsi və qabiliyyəti əsasən subyektiv xarakter daşıyır.

Bununla belə, özünüdərketmənin dərinliyi və çoxşaxəliliyi, sabitlik dərəcəsi, bu cür özünüdərketmənin konstruktivlik səviyyəsi insanın həyat yoluna, seçimlərinə, hərəkətlərinə, məqsəd qoymasına və nailiyyətlərinə birbaşa təsir göstərə bilir. İnsanın inkişafı üçün sosial-normativ göstərişlərlə səciyyələnən müasir sosial-mədəni şərait onun dünyada, digər insanlarla münasibətlərdə öz yerini dərk etməsi prosesini çətinləşdirir ki, bu da təbii ki, "mən – obraz"in formalaşmasına özünün mənfi təsirini göstərir. Müasir sosial-mədəni şəraitdə "Mən – obrazı"ın inkişafının qanunauyğunluqlarını və xüsusiyyətlərini dərk etmək fərdiliyin, şəxsiyyətin və insanın müxtəlif yaş mərhələlərində subyekt kimi inkişafının təşkilində mühüm amillərdən biridir.

***Açar sözlər:*** *"obraz - mən", dialoq, sosioloji model, mən – obraz, subyekt, konseptual məzmun, anlayışlar konteksti.*

**Аннотация.** В статье представлены мнения о структуре «Я-образа», раскрыта проблема содержания не только социального, но и социокультурно детерминированного содержания «Я-образа». В результате применения диалогового средства обоснована эффективность развития «Я – образа». Особенности развития «Я – образа» показаны на разных этапах онтогенеза. Проблема самосознания человека во все времена привлекала внимание ученых. Философы-исследователи и психологи по-разному объясняли эту проблему. Мнение человека о себе имеет свойство меняться под влиянием полученного в жизни опыта. При этом его способность общаться с другими людьми, менять свою социокуль-

турную ситуацию, переживать проблему влияния мотивов, степень самосознания и способностей во многом субъективны.

Однако глубина и разнообразие самосознания, степень устойчивости, конструктивный уровень такого самосознания могут напрямую влиять на жизненный путь, выбор, действия, постановку целей и достижения человека. Современные социокультурные условия, характеризующиеся социально-нормативными ориентирами развития человека, затрудняют ему понимание своего места в мире и в отношениях с другими людьми, что, безусловно, отрицательно влияет на формирование «самообраза». Понимание закономерностей и особенностей развития «Я-образа» в современных социокультурных условиях является одним из важных факторов организации развития индивидуальности, личности и человека как субъекта на разных возрастных этапах.

***Ключевые слова:*** *«образ - я», диалог, социологическая модель, я - образ, субъект, концептуальное содержание, контекст понятий*

**Abstract.** The article presents ideas about the structure of the “I-image”, reveals the problem of containing not only social, but also socio-culturally determined content of the “I-image”. The effectiveness of the development of the “I-image” as a result of the dialogue tool is substantiated. The features of the development of the “I-image” at different stages of ontogenesis are shown. The problem of a person’s self-awareness has attracted the attention of scientists at all times. The problem has been explained in various ways by researching philosophers and psychologists. A person has the ability to change his ideas about himself under the influence of the experience he has gained in life. At the same time, his communication with other people, changes in his socio-cultural situation, experiencing the problem of the influence of motives, the degree and ability of self-awareness are mainly subjective.

However, the depth and multifacetedness of self-awareness, the degree of stability, the level of constructiveness of such self-awareness can directly affect a person's life path, choices, actions, goal-setting and achievements. Modern socio-cultural conditions, characterized by social-normative instructions for human development, complicate the process of understanding one's place in the world, in relationships with other people, which, of course, has a negative impact on the formation of the "I-image". Understanding the regularities and features of the development of the "I-image" in modern socio-cultural conditions is one of the important factors in organizing individuality, personality and the development of a person as a subject at different age stages.

***Keywords:*** *"image - self", dialogue, sociological model, self - image, subject, conceptual content, context of concepts.*

Müasir psixoloqlar R. Burns, K.R. Rogers, I.S. Kohn, A.B. Orlov, D.A. Leontyev və başqalarının əsərlərində “mən – obraz” problemi əsas tədqiqat mövzusudur. Onlar öz tədqiqatlarında konseptual məzmun, “obraz - mən”in strukturu, onun inkişaf şərtləri və amilləri nəzərdən keçirilir. Bu cür tədqiqatların rəngarəngliyi əsasən yetkin insanın daxili dünyasını öyrənmək problemlərinə həsr edilmişdir. Son illərdə problemin aktual olmasına baxmayaraq, ontogenez də daxil olmaqla “mən – obraz” dinamikası, inkişaf şərtləri və strukturu haqqında fikirlər hələ də az öyrənilir. “Mən – obraz”ın tədqiqi və onun dialoq yolu ilə inkişafı müxtəlif yanaşmalarda onun komponentləri arasındakı əlaqələri təhlil edilir.

V.V. Stolinin nöqteyi-nəzərinə görə, “mən - obrazı”nın tərkib hissələrinin ziddiyyətli xarakteri özünüdərketmənin inkişafının mühərriki olan ziddiyyətləri aktuallaşdırır: “Özünüdərketmə vahidi subyektin müxtəlif həyat münasibətlərinin, onun motivlərinin və fəaliyyətinin toqquşmasını əks etdirən “mən”in ziddiyyətli mənasıdır. “Mən”in mənası idrak və emosional sferada baş verən özünüdərketmə işinə təkan verir” [4, s.45-50]. Bu yanaşmada inkişaf məkanı qeyri-müəyyən olaraq qalır; o, son nəticədə əsasən ziddiyyətli mənaların yaranması ilə bağlı mənfi təcrübələrlə müəyyən edilir.

Bununla belə, “mən - obraz”ı konfliktinin həlli əksetdirici dialoq prosesində mümkündür. Məsələn, A.N. Krılov refleksiv dialoqu “...öz təcrübəsini yenidən qiymətləndirmək və dəyişdirmək, özünə başqalarının gözü ilə baxmaq” fürsəti kimi başa düşür. Belə bir kontekstdə “mən - obraz” digər “mən”lərin məzmunu ilə əvəz edilmək riskini daşıyır, yəni əsl “mən” olmaqdan kənara çıxır. Fikrimizcə, insanın özünəməxsusluğu təcrübəsi fərdin daxili aləmində harmoniyaya səbəb olur.

Y.M. Lotman “daxili” kateqoriyanı semantik məkanla təchiz edilmiş daxili fikir vasitəsilə zehni olaraq təzahür edən “daxili reallıq”

hesab edir. M.M. Baxtin "daxili mən"i "səs" anlayışı ilə əlaqələndirir. "Mən"in (daxili aləm, "daxili mənlik", "daxili reallıq", "dərin mən") həqiqiliyini necə kəşf etmək olar?

T.A. Florenskayanın fikrincə, həqiqilik mənəvi "mən"in kəşfi anında ortaya çıxır. Daxili reallıq transsendental reallıqla əlaqəyə girdikdə özünü göstərə bilər. Üstəlik, "daxili gerçəkliyin" kəşf anı yalnız dialoq məkanı olduqda mümkündür. "sərhədləri aşmaq reallığı" ilə əlaqə vəziyyətində insan öz orijinallığını yaşayır [2, s. 71- 80].

V.V. Zenkovski qeyd edir ki, insanın orijinallığı təcrübəsi yalnız mütləqə münasibətdə gizlilik vasitəsilə aşkarlanır. Dünyanın mütləqə bu hədsiz yaxınlığında insan azadlığı üzə çıxır. Məhz ruh daxili dünyanın mərkəzi olmaqla, dünya ilə gizli yaxınlığı kəşf etməyə kömək edir.

N.Y. Bolşunovanın fikrincə, insan öz subyektivliyinin hüdudlarından kənara çıxaraq, ruh məkanına, dəyərlər məkanına gedəndə mənəvi və fiziki "mən" fərqi əsasında özünə qarşı gizlənir. Bu çıxış forma və əks etdirmə vasitələrində həyata keçirilir. Ona görə, bir insanın (uşağın) fəal, özünə dəyərli, müstəqil, seçmə hərəkəti müraciətə, çağırışa, sosial-mədəni inkişaf çağırışına cavab kimi başa düşülür. Deməli, "mən – obraz" təkcə sosial cəhətdən şərtləndirilmiş deyil, həm də sosial-mədəni xarakter daşıyır və o, yalnız daxili ziddiyyətli deyil, daha çox "razılaşma dialoqu" vasitəsilə razılaşmaya can atır. Təqdim edilən fikirlərə əsaslanaraq, "mən - obraz" dedikdə insanın özü haqqında təsəvvürlər sistemi başa düşülür. Bu ideyalar sistemini zaman, əxlaqi keyfiyyətlər, cins və yaş xüsusiyyətləri və sairə ilə təsvir etmək olar. "Mən - obraz" dialoq xarakterlidir, mürəkkəb struktura malikdir və tədqiqatçı psixoloqların nöqteyinəzərinə görə: "daxili - mən", "sosial - mən", "sosiomədəni - mən"i əhatə edir [3, s. 7- 10].

"Sosiomədəni - mən" dedikdə, insanın özünü fərqləndirdiyi sosial-mədəni modellər nəzərdə tutulur; "sosial - mən" - cəmiyyətdən gələn norma və tələblər toplusunu ehtiva edir; "daxili - mən" özünü bu dünyada mövcud olan və başqalarından fərqli olan təcrübəsi, daxili intuitiv təfəkkürdə özünü göstərir. "Mən - obraz"ın inkişafı daxili və ətrafdakılarla dialoq vasitəsilə həyata keçirilir. Bu dialoq refleksiya (özünü "mən" kimi təqdimatı) əsasında həyata keçirilir.

R. Börnsə görə, uşaq özünü xüsusi obyekt kimi dərk etməyi öyrənəndə "mən - konsepsiya" onun davranışında real faktora çevrilir. "Mən" və "mən olmayan" anlayışlar arasındakı fərqi anlamaq bacarığı uşaqda özünü müxtəlif nöqteyi-nəzərdən keçirmək qabiliyyətinə yiyələndikdə yaranır. Uşaq üçün bu baxış nöqtələrindən biri sosial münasibətlər ola bilər. İnkişafın sosial amillərinə diqqət müxtəlif müəlliflərin əsərlərində təqdim olunur. Bununla belə, "mən obraz"ın inkişafı təkcə sosiallıq kontekstində deyil, həm də sosial - mədəni məkanda baş verir. Uşaq çox erkən yaşlarından sosial-mədəni mənalara cavab verir ki, bu da "sosiomədəni - mən"in meydana çıxmasında özünü göstərir.

V.V. Zenkovski mənəvi həyatın mövcudluğunun artıq körpəlik dövründə olduğuna işarə edir: "Uşaq hələ də "dumanda" yaşayır – duyğu, görmə qabiliyyətinin inkişafı ilə mənəvi görmə çox yavaş inkişaf edir, lakin artıq həyatın ilk günlərində uşaq işıq və qaranlığı ayırd edə bildiyi kimi, ruhən işıq və qaranlığı, daha yüksək və aşağını ayırd etmək qabiliyyəti də həyatın ilk ilində uşağın ruhunda oyanır, hər şey asanlıqla üzə çıxır. Bu "proyektiv" material hesab olunur, lakin yenə də bunlar gələcək mənəvi həyatın başlanğıcıdır" [5. s. 56 - 60].

"Sosiomədəni - mən" insanın daxili intuitiv səs kimi çıxış edən əsas "daxili mən"ini kəşf etməyə kömək edir. E.V. Subbotskinin tədqiqatlarında məktəbəqədər yaşda özünü dərk etmək, daxili aləmini fiziki dünyadan fərqli olaraq kəşf etmək bacarığı özünü təzahür etdirir. Bununla belə insanın "daxili özünü" kəşfi, özünüdərki, ətrafdakılarla dialoqda əks etdirmə vasitəsi ilə baş verir. Bu uşaq üçün sosial - mədəni nümunələrlə görüş hadisəsi kimi çıxış edir və onda təqdim olunan sosial - mədəni mənalara həssaslıq kimi özünü göstərir. Daxili aləmin, "daxili mənliyin" yaranması və kəşfinin baş verdiyi belə bir refleksiv dialoqun ölçüsü sosial-mədəni nümunələrdir. Məsələn, onları kiçik yaşlı uşağa nağıl qəhrəmanı obrazında təqdim etmək olar. Uşaq oyun fəaliyyəti prosesində böyüklər vasitəsilə "razılıq dialoqu" aparır [6, s.11-15].

Ontogenezdə "mən - obrazı"ın inkişafının müəyyən bir kontekstdə həyata keçirilməsi üçün həyatın sosial - mədəni şəraitlərində insan bu (sosiomədəni) "çağırışlara" cavab verməlidir. Uşağın inkişafı yaşa uyğun davranış mədəniyyəti formalarında (uşaq, yeniyetmə və gənc) hə-

yata keçirildikdə, "həssaslıq" vəziyyəti daha da aktuallaşır. Məktəbəqədər yaşda "mən obrazı"ın bir xüsusiyyəti də onun komponentlərinin bu yaşda aparıcı kimi oyun fəaliyyətlərində inkişaf etməsindən ibarətdir. Oyun fəaliyyətində uşaq öz "vacib ehtiyaclarını" həyata keçirir. Məhz oyunda o, sosial-mədəni nümunələrə cavab verir, sosial-mədəni dialoqa girə bilir. "Mən – obraz"ın bütövlüyü uşağın "daxili özünü" kəşf etməsi ilə tamamlanır. İbtidai məktəb çağında "Mən obrazı"ın bir xüsusiyyəti onun inkişafının yaradıcı məhsuldar fəaliyyətlə qarşılıqlı əlaqədə olmasıdır [1, s.75 -76].

Yeniyetməlik dövründə sosial normanın aradan qaldırıldığı ətrafdakılarla şüurlu bir dialoq kimi, düşüncə ilə vasitəçilik edilən hərəkət etmək qabiliyyətli bir akt kimi təzahür edir. Gənclik dövründə "əbədiliyin, mütləq, obyektiv dəyərlərin əsaslarından həyata keçirilən əks – aşkar" meydana çıxır. Təfəkkür xüsusi fəaliyyət formasına çevrilir. Həmyaşıdlarla və böyüklərlə sevgi və dostluq kimi ünsiyyət formaları əhəmiyyətli hal alır".

Müasir psixoloji nəzəri tədqiqatlarda təqdim edilən eksperimental tədqiqatların nəticələrində (V.V. Stolinin, A.N. Krılov, T.A. Florenskaya, V.V. Zenkovski və b.) aşağıdakılar qeyd olunur:

- "Mən - obraz"ı dialoqdur;
- "Mən - obraz"ın bütün komponentləri ən azı beş yaşından başlayaraq tədricən formalaşmağa başlayır. Eyni zamanda, bu yaşda olan uşaqların əksəriyyətində müşahidə olunan "mən - obraz"ın inkişaf səviyyəsinin aşağı olması, real həyat fəaliyyətinin dəyərlərinin üstünlük təşkil etməsi, "özünün" daxili aləminin və "başqasının" dəyərlərinin olmaması ilə xarakterizə olunur;
- milli mədəniyyətin sosial - mədəni nümunəsinin dəyərləri, habelə başqaları ilə normativ münasibətlərin üstünlüyü;
- inkişaf etmiş daxili dialoqun olmaması ("daxili mən" ilə) və "ərafdakıların obrazının" inkişaf səviyyəsinin aşağı olması. Yaşla əlaqədar olaraq (6 və 9 yaş) "mən"i bir qədər dəyişir, bu da onun uşaq davranışı formalarında inkişafının ehtiyacını və imkanını göstərir.
- yaş xüsusiyyətləri ilə bağlı inkişaf prosesdə, ən azı beş yaşından etibarən "mən – obraz"ın bütün komponentləri qarşılıqlı əlaqədə formalaşmağa başlayır. Dialoq kontekstində "mən - obraz"ın inkişafı "daxili mən"in yaranmasına kömək edir. "Daxili mən"in inkişafı "sosiomədəni mən"in inkişafı ilə birlikdə baş verir. "Sosial "mən"in məzmunu genişlənir;
- uşağın "daxili – mən"ini kəşf etməsi onun fərdiliyinin kəşfi ilə əlaqələndirilir;
- "mən - obrazının" inkişafı "ətraf obraz"ın inkişafı ilə əlaqədardır. Uşaqla daxili və ətraf haqqında dialoqlar "mən - obrazı" və "ətraf obrazı"ın məzmununun genişlənməsinə, "daxili - mən"in yaranmasına köməklik göstərir;
- uşağın "öz" daxili dünyasının və "başqasının" dəyərini dərk etməsi ümumbəşəri dəyərlərin aktuallaşması ilə əlaqələndirilir [5, s. 11-13].

Uşağın "mən - obraz"ının inkişafı yaş xüsusiyyətlərinə uyğun davranış məkanında həyata keçirilən "ətrafdakıların obrazı" ilə dialoqun aktuallaşdığı şəraitin təşkili zamanı məktəbəqədər uşaqlar üçün oyun zamanı sərbəst təşkil olunmuş fəaliyyət kimi, kiçik yaşlı məktəblilər üçün – yaradıcılıq və məhsuldar fəaliyyətdə, gənclər üçün – sosial-mədəni dəyərlərə münasibətdə (sosio-mədəni dəyərlərə münasibətdə) təsirli olur.

Dialoq məkanında nağıl vasitələri ilə nağıl qəhrəmanının insan həyatının sosial-mədəni əsaslarının daşıyıcısı kimi mövqeyi uşaqlarda yenilənir ki, bu da "daxili mən"in kəşfi ilə müşayiət olunan "mən obraz"ın daha uğurlu inkişafına gətirib çıxarır. Yeniyetmə yaşlarında "mən – obraz"ın inkişafı sosial - mədəni öz müqəddəratını təyinetmə prosesində həyata keçirilir.

**Problemin aktuallığı.** "Mən - obraz" ın dialoq yolu ilə inkişafının psixoloji xüsusiyyətləri probleminin öyrənilməsində əsas məqsəd kiçik yaşlardan başlayaraq insanlar arasında qarşılıqlı dialoji ünsiyyətin səmərəliliyinin təhlilini verməkdən ibarətdir.

**Problemin elmi yeniliyi.** Ünsiyyət zamanı "mən - obraz"ın inkişafı prosesində yaş xüsusiyyətlərinə uyğun davranış məkanında həyata keçirilən dialoqun aktuallaşdığı şəraitin təşkilini müəyyənləşdirmək və problemlə əlaqədar əməli tövsiyələrin irəli sürülməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloq və pedaqoqlar, tərbiyəçilər, valideynlər, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Əlixanova, G.H. "Mən" obraz və məktəbəqədər yaşlı uşağın ünsiyyət təcrübəsi / Gənc t6ədqiqatçıların III respublika elmi konfransının materialları. 13 mart 2020-ci il. s. 75-76.
2. Агапов В.С. Сущностная характеристика Я-концепции. -М:МГСА, -2002. -230 с.
3. Большунова, Н.Я. Субъектность как социокультурное явление. – Новосибирск: НГПУ, -2005. - 324 с.
4. Ефимова, Н.С. Психология общения. Практикум по психологии: Учебное пособие / -М.: ИД ФОРУМ, НИЦ ИНФРА-М, -2013. - 192 с.
5. Психология самосознания. Хрестоматия / под ред. Д.Я. *Райгородский*. -Самара: БАХРАХ-М, - 2007. -672 с.
6. Флоренская, Т.А. Диалог в практической психологии: наука о душе. -М: Владос., -2001. -208 с.

**Redaksiyaya daxil olub:** 07.04.2025.

*UOT 159.9*

***Əminə Ruhulla qızı Əliyeva***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0004-9124-8171*
*E-mail: aminaaliyeva00@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).227-231*

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ QAZİLƏRDƏ YARANAN PSİXOPATOLOJİ POZUNTULAR

***Амина Ругулла гызы Алиева***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# ПСИХОПАТОЛОГИЧЕСКИЕ РАССТРОЙСТВА У ПОСЛЕВОЕННЫХ ВЕТЕРАНОВ

***Amina Ruhulla Aliyeva***
*doctorial student in the program of philosophy at Baku State University*

# PSYCHOPATHOLOGICAL DISORDERS ARISING IN VETERANS IN THE POST-WAR PERIOD

**Xülasə.** Müharibə bir sıra cəmiyyətlərin yaşadığı fəlakətlərdən biri olmaqla yanaşı, qazilərin psixi vəziyyətində qalıcı neqativ təsirlər buraxan travmatik bir hadisədir. Qazilər digər qruplardan fərqli olaraq, fəal döyüşə qatılmaları və ölüm qorxusunun davamlı yaşamaqları nəticəsində daha dərin travmatik təsirlər yaşayırlar. Qazilər, müharibənin çoxsaylı aspektlərini birbaşa yaşayan şəxslər kimi xüsusən risk altındadır. Bu məqalənin əsas məqsədi, qazilərdə yaranan psixopatoloji pozuntuları təhlil edərək, bu pozuntularla mübarizədə effektiv olan strategiyaları öyrənməkdir.
***Açar sözlər:*** *posttravmatik stress pozğunluğu, komorbidlik, residiv, emosional donma*

**Аннотация.** Война, помимо того, что она считается одним из бедствий, переживаемых многими обществами, является травмирующим событием, которое оставляет длительные негативные последствия для психического состояния ветеранов. Ветераны, в отличие от других групп, испытывают более глубокие травматические последствия в результате активного участия в боевых действиях и постоянного страха смерти. Ветераны подвергаются особому риску, поскольку они напрямую столкнулись с многочисленными аспектами войны. Основной целью данной статьи является анализ психопатологических расстройств у ветеранов и изучение эффективных стратегий борьбы с этими расстройствами.
***Ключевые слова:*** *посттравматическое стрессовое расстройство, коморбидность, рецидив, эмоциональное замирание*

**Abstract.** War, in addition to being one of the disasters experienced by a number of societies, is a traumatic event that leaves lasting negative effects on the mental state of veterans. Veterans, unlike other groups, experience more profound traumatic effects as a result of their active participation in combat and the constant fear of death. Veterans are particularly at risk as individuals who have directly experienced multiple aspects of war. The main purpose of this article is to analyze the psychopathological disorders that arise in veterans and to study the strategies that are effective in combating these disorders.
***Key words:*** *posttraumatic stress disorder, comorbidity, relapse, emotional freezing*

Dünya miqyasında aparılan tədqiqatlar, qazilərin posttravmatik stress pozuntusu (PTSP), depressiya, təşviş, davranış pozuntuları kimi şəraitlərə daha meylli olduqlarını göstərir. DSM-5 meyarlarına görə, PTSP intruziya simptomları (travmatik hadisənin yenidən yaşan-

ması), qaçınma davranışı, neqativ mənəvi hallarla xarakterizə edilir.

Hərbçilər arasında aparılan statistik araşdırmalar göstərir ki, qazilərin 15%-də PTSP, 20-30%-də depressiya, 20%-də anksiyete şəklində kliniki diaqnoz qoyula biləcək pozuntular müşahidə olunur. Reabilitasiya proqramlarının çatışmazlığı bu şəxsləri daha dərin travmalarla qarşı-qarşıya qoya bilir.[7]

Postmüharibə dövründə qazilərdə psixopatoloji pozuntuların yaranması bir neçə əsas faktordan qaynaqlanır: [9]

1. Döyüş Travması: Döyüş zamanı yaşanan ölüm qorxusu, yaxın yoldaşların itirilməsi və ya ağır yaralanmalar qazilərdə güclü psixoloji zərbə yaradır. Davamlı təhlükə hissi və fiziki xəsarətlərin uzun müddət qalıcı təsirləri qazilərin ruhi sağlamlığını ciddi şəkildə sarsıdır.

2. Müharibə Təcrübəsinin Yenidən Yaşanması: Qazilər travmatik hadisələri təkrar xatırlama (intruziya) simptomlarından əziyyət çəkirlər. Bu simptomlar tez-tez yuxusuzluq, kabuslar və ya gündəlik həyatda narahatlıq şəklində özünü göstərir.

3. Cəmiyyətə Yenidən İnkişaf Etmə Çətinlikləri: Postmüharibə dövründə qazilər sosial və iqtisadi həyatda adaptasiya etməkdə çətinlik çəkirlər. Onlar mülki həyata yenidən inteqrasiya etmək üçün yetərli dəstək ala bilmirlər. İşsizlik, maddi problemlər və cəmiyyətin qazilərin vəziyyətinə bəzən kifayət qədər empatiya göstərməməsi bu çətinlikləri daha da artırır.

4. Sosial və Ailədaxili Təzyiqlər: Müharibədən qayıdan qazilərin ailə üzvləri ilə münasibətlərində çətinliklər yaranır. Travmanın yaratdığı davranış dəyişiklikləri ailədaxili konfliktlərə səbəb ola bilər. Sosial dəstək şəbəkələrinin qeyri-adekvat olması qazilərin tək qalmasına və sosial izolyasiyaya səbəb olur.

5. Psixoloji Yardım və Reabilitasiyanın Məhdudluğu: Travmaların müalicəsi üçün kifayət qədər psixoloji və tibbi xidmətlərin mövcud olmaması qazilərin problemlərini daha da ağırlaşdırır. Reabilitasiya proqramlarının çatışmazlığı qazilərin effektiv adaptasiya etməsinə mane olur.

6. Uzunmüddətli Travmanın Təsirləri: Müharibədən sonra qazilər çox vaxt uzun müddətli ruhi xəstəliklərlə qarşılaşırlar. Bu, depressiya, anksiyete, posttravmatik stress pozuntusu (PTSP) və digər psixopatoloji hallarla nəticələnə bilər. Bu problemlər qazilərin həyat keyfiyyətini azaldır, onların sosial və iqtisadi iştirakını məhdudlaşdırır və ümumilikdə cəmiyyətin rifahına mənfi təsir göstərir. Bu səbəbdən, qazilərin psixoloji və sosial ehtiyaclarının öyrənilməsi və müvafiq tədbirlərin görülməsi həm fərdi, həm də ictimai səviyyədə olduqca vacibdir.

Posttravmatik Stress Pozuntusunun (PTSP) Ümumi Əlamətləri

PTSP, travmatik hadisələrdən sonra yaranan kompleks psixopatoloji pozuntudur və aşağıdakı əsas simptomlarla xarakterizə olunur:[5]

1. Travmanın Yenidən Yaşanması (İntruziya)

Travmatik hadisələrin yenidən yaşanması: Xatirələr və ya flaşbek epizodları qazilərdə travma ilə bağlı güclü emosional reaksiyalara səbəb olur.

Kabuslar və yuxu pozuntuları: Qazilər travmatik hadisələri yuxularında tez-tez yenidən yaşaya bilər.

Qıcıqlanma və narahatlıq: Müəyyən situasiyalar, səslər və ya görüntülər travmatik xatirələri tetikleyə bilər.

2. Qaçınma Davranışları

Travmatik hadisələri xatırladan faktorlardan qaçınma: Qazilər travma ilə bağlı hadisələrdən, insanlardan və məkanlardan uzaq durmağa çalışırlar.

Duyğusal uzaqlaşma: Şəxslər emosional olaraq yaxınlarından uzaqlaşır və sosial əlaqələri məhdudlaşdırır.

3. Mənfi Düşüncə və Duyğular

Özünə və başqalarına qarşı neqativ inamlar: "Dünya təhlükəlidir", "Mən heç nəyə yaramıram" kimi düşüncələr inkişaf edə bilər.

İntihar düşüncələri və günahkarlıq hissi: Qazilər yaşadıqları travmatik hadisələrə görə özlərini günahkar hiss edə bilər.

Konsentrasiya və yaddaş problemləri: Travmatik hadisələrə dair bəzi detalları xatırlamaqda çətinlik çəkə bilərlər.

4. Hiperayıqlıq (Hyperarousal)

Daimi gərginlik və tetikleyicilərə həssaslıq: Qazilər mütəmadi olaraq təhlükə hiss edə və daim ətraflarını izləyə bilər.

Yuxu pozuntuları: Tez-tez oyanma, kabuslar və yuxuya getməkdə çətinlik.

Aqressiya və əsəbilik: Kiçik hadisələrə qarşı güclü reaksiya vermək.

Diqqət və konsentrasiyanın pozulması: Qazilər gündəlik işlərə diqqət cəmləməkdə çətinlik çəkirlər.

PTSP Müalicə Proqramı[4]

PTSP-nin müalicəsi kompleks və multidisiplinar yanaşma tələb edir. Aşağıdakı üsullar qazilərdə posttravmatik stress pozuntusunun effektiv müalicəsi üçün tətbiq edilə bilər:

Psixoterapiya PTSP-nin müalicəsində əsas metodlardan biridir. Müasir elmi araşdırmalar göstərir ki, psixoterapevtik müdaxilələr PTSP simptomlarının idarə olunmasında mühüm rol oynayır. Terapiyanın əsas məqsədi travmatik hadisənin emosional və idraki aspektlərinin işlənməsi, qeyri-adaptiv düşüncə və davranışların dəyişdirilməsi və şəxsin funksional adaptasiyasının artırılmasıdır. Effektivliyinə görə aşağıdakı terapiya növləri daha çox istifadə edilir:[2]

Koqnitiv-Davranış Terapiyası (CBT): PTSP-li şəxslərdə travmatik hadisəyə dair mənfi inancları və reaksiyaları dəyişdirmək üçün istifadə olunur. Şəxs travma ilə bağlı qorxularını məntiqli şəkildə dəyərləndirir və yeni uyğunlaşma strategiyaları öyrənir. CBT, xüsusilə "koqnitiv yenidən çərçivələndirmə" və "emosional tənzimləmə" kimi üsulları özündə birləşdirir.

Göz Hərəkətləri ilə Duyğusal Yenidən İşləmə və Yenidən Proses Terapiyası (EMDR): Bu terapiya travmatik xatirələrin beyin tərəfindən işlənməsinə və təsirinin azalmasına kömək edir. Şəxsin keçmiş travmaları təkrar emal edərək daha az stresli hiss etməsinə səbəb olur. EMDR, xüsusilə neyrobioloji səviyyədə travmatik yaddaşın yenidən işlənməsi üçün effektivdir və beynin adaptiv məlumat emal sistemlərini aktivləşdirir.

Duyğusal Tənzimləmə Terapiyası: Emosional reaksiyaların idarə olunması və qazilərin daha sağlam psixoloji adaptasiya yollarını öyrənmələri üçün istifadə edilir. Şəxslər duyğusal reaksiyalarını tanımağı, onları modulyasiya etməyi və adaptiv emosional cavablar verməyi öyrənirlər.

Narrativ Terapiya: Qazilər travmatik hadisələri strukturlaşdırılmış bir formatda danışaraq travmatik təcrübələrin mənasını dəyişdirə bilər. Bu terapiya şəxsə öz həyat hekayəsini yenidən yazmaq və travmatik hadisələrin həyatındakı rolunu dəyərləndirmək imkanı yaradır.

Psixoterapiyanın effektivliyi fərdin spesifik ehtiyaclarına uyğun yanaşmaların tətbiq olunmasına bağlıdır. Bu səbəbdən, multidisiplinar komanda tərəfindən fərdi psixoterapiya planlarının hazırlanması və uzunmüddətli müşahidənin aparılması tövsiyə olunur. Psixoterapiya PTSP-nin müalicəsində əsas metodlardan biridir. Effektivliyinə görə aşağıdakı terapiya növləri daha çox istifadə edilir:[3]

Koqnitiv-Davranış Terapiyası (CBT): PTSP-li şəxslərdə travmatik hadisəyə dair mənfi inancları və reaksiyaları dəyişdirmək üçün istifadə olunur. Şəxs travma ilə bağlı qorxularını məntiqli şəkildə dəyərləndirir və yeni uyğunlaşma strategiyaları öyrənir.

Göz Hərəkətləri ilə Duyğusal Yenidən İşləmə və Yenidən Proses Terapiyası (EMDR): Bu terapiya travmatik xatirələrin beyin tərəfindən işlənməsinə və təsirinin azalmasına kömək edir. Şəxsin keçmiş travmaları təkrar emal edərək daha az stresli hiss etməsinə səbəb olur.

Məruzəetmə Terapiyası (Prolonged Exposure Therapy - PE): PTSP-dən əziyyət çəkən şəxslər travmatik xatirələrindən qaçmaq əvəzinə, mütəmadi olaraq onlarla üzləşdirilir. Tədricən bu üzləşmə vasitəsilə travmatik hadisənin yaratdığı həddsiz qorxu və narahatlıq azaldılır.

Duyğusal Tənzimləmə Terapiyası: Emosional reaksiyaların idarə olunması və qazilərin daha sağlam psixoloji adaptasiya yollarını öyrənmələri üçün istifadə edilir.

2. Sosial və Reabilitasiya Müdaxilələri

Psixoterapiya və dərman müalicəsinə əlavə olaraq, sosial dəstək və reabilitasiya proqramları PTSP-nin müalicəsində mühüm rol oynayır:

Qrup Terapiyası və Psixososial Dəstək: Müharibə veteranları arasında həmrəyliyi artırır və travmaların kollektiv şəkildə emal olunmasına kömək edir.

Ailə Maarifləndirmə Proqramları: Qazilərin ailələri onların vəziyyəti və ehtiyacları barədə məlumatlandırılmalıdır. Bu, ailədaxili münasibətləri gücləndirə və dəstəyi artıra bilər.

Reabilitasiya və Peşə Təlimləri: Qazilər üçün yeni bacarıqlar qazanmaq və iş həyatına uyğunlaşmaq üçün xüsusi proqramlar təşkil olunmalıdır.

Alternativ və Dəstəkləyici Müalicələr: Meditasiya, yoga, fiziki aktivlik, heyvan terapiyası və incəsənət terapiyaları kimi metodlar PTSP simptomlarının azaldılmasına kömək edə bilər. [6]

Mövzunun aktuallığı: 1. Postmüharibə Dövründə Psixoloji Yardımın Tələb Olunması

Müharibələrdən sonrakı dövrdə qazilər, döyüş zamanı yaşadıqları travmatik hadisələrin uzunmüddətli təsirləri ilə üzləşirlər. Bu təsirlər onların şəxsi, ailəvi və sosial həyatına ciddi mənfi təsir göstərir. Effektiv psixoloji dəstəyin olmaması qazilərin ruhi sağlamlıq problemlərinin dərinləşməsinə səbəb olur, bu da sosial və iqtisadi nəticələr doğurur.

2. Qazilərin Sosial Reinteqrasiyasının Vacibliyi

Müharibədən qayıdan qazilərin cəmiyyətə yenidən inteqrasiyası sosial sabitlik və rifah üçün önəmlidir. Psixoloji pozuntular onların iş qabiliyyətinə, ailə münasibətlərinə və ümumi həyat keyfiyyətinə mənfi təsir edir. Qazilərin effektiv mübarizə strategiyaları ilə təchiz edilməsi onların cəmiyyətə uğurlu şəkildə adaptasiyasını təmin edə bilər.

3. Milli və Beynəlxalq Araşdırma Boşluqları

Azərbaycan kimi postmüharibə ölkələrində bu sahədə aparılan tədqiqatların məhdud olması mövzunun aktuallığını daha da artırır. Bu cür elmi işlər həm milli siyasətə töhfə verə, həm də beynəlxalq səviyyədə dəyərli məlumat təmin edə bilər. Beynəlxalq təşkilatlar və akademik icmalar postmüharibə travmalarının qlobal təsirlərini anlamağa və həll yolları tapmağa böyük maraq göstərir.

4. Gələcək Fəsadların Qarşısının Alınması

Vaxtında göstərilməyən dəstək və reabilitasiya proqramlarının olmaması qazilərdə psixiatrik xəstəliklərin inkişafına və ya ağırlaşmasına səbəb ola bilər. Əgər bu problemlər həll edilməzsə, ailələrdə, iş yerlərində və ümumi cəmiyyətdə ciddi sosial nəticələr yarana bilər.

5. Cəmiyyətə Təsir

Müharibədən sonra qazilərin ruhi sağlamlığı yalnız fərdi məsələ deyil, həm də bütövlükdə cəmiyyətin psixososial rifahına təsir edən bir faktordur.

Qazilərin sağlamlığına dair dövlət siyasətləri və sosial proqramlar üçün əsas yaratmaq elmi tədqiqatların əsas məqsədi ola bilər.

**Problemin elmi yeniliyi:**

1. Regional Spesifiklik: Bu məqalə, Azərbaycan şəraitində postmüharibə dövründə qazilərin psixopatoloji pozuntularının spesifik xüsusiyyətlərini tədqiq edən ilk araşdırmalardan biridir. Yerli sosial, mədəni və iqtisadi kontekst daxilində qazilərin vəziyyəti daha dəqiq qiymətləndirilməsi əsas məqsəddir.

2. Qarışıq Metodologiyanın İstifadəsi: Tədqiqatda həm kəmiyyət, həm də keyfiyyət metodlarından istifadə olunmuşdur ki, bu da qazilərin psixoloji vəziyyətini hərtərəfli öyrənməyə imkan vermişdir. Alətlərin seçimi (PCL-5, DASS-21 ) psixopatologiya və mübarizə strategiyalarını obyektiv şəkildə ölçməyə xidmət edir.

3. Yeni Məlumatlar: Qazilər arasında rast gəlinən mübarizə strategiyalarının təhlili göstərir ki, emosional qaçınma və passiv adaptasiya üstünlük təşkil edir. Bu, mövcud elmi ədəbiyyata yeni məlumatlar əlavə edir və reabilitasiya proqramlarının yenidən qurulmasını təklif edir.

4. Praktik Tətbiq Təklifləri: Məqalə, qazilər üçün psixoloji dəstək və reabilitasiya proqramlarının inkişafı üçün praktik təkliflər təqdim edir. Ailələrin və icmanın dəstəkləyici rolu xüsusi vurğulanmışdır ki, bu da gələcək siyasət və proqramların hazırlanmasına töhfə verə bilər.

5. Beynəlxalq Kontekstdə Təhlil: Nəticələr beynəlxalq tədqiqatlarla müqayisə edilmiş, Azərbaycan kimi postmüharibə ölkələri üçün spesifik tövsiyələr irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti:**

Psixoloji Yardım Proqramlarının İnkişafı: Araşdırma nəticələri qazilərin psixoloji ehtiyaclarını və travmalarının spesifik xüsusiyyətlərini müəyyən etməklə onların ruhi sağlamlığına yönəlmiş daha effektiv və məqsədyönlü dəstək proqramlarının hazırlanmasını təmin edə bilər.

Reabilitasiya mərkəzlərinin səmərəliyinin yaxşılaşdırılması:

Qazilərin istifadə etdiyi mübarizə strategiyalarının təhlili, reabilitasiya mərkəzlərində tətbiq edilən metodların yenidən qiymətləndirilməsi və daha çox nəticəyönümlü müdaxilələrin hazırlanmasına imkan yaradır.

Ailələr və Sosial Dəstək Şəbəkələrinin rolunun gücləndirilməsi:

Tədqiqat nəticələri göstərir ki, qazilərin psixoloji adaptasiyasına ailələrin və cəmiyyətin təsiri böyükdür. Bu məlumat, ictimai dəstək mexanizmlərinin gücləndirilməsi üçün maarifləndirmə və dəstək proqramlarının hazırlanmasında əsas rol oynayır.

Cəmiyyətin Travmaya Qarşı Maarifləndirilməsi:

Bu tədqiqat qazilər üçün cəmiyyətin empatiyasını və dəstəyini artırmaq üçün bir vasitədir. Sosial mediada, təhsil müəssisələrində və digər platformalarda bu mövzu ilə bağlı məlumatlılığın artırılmasına töhfə verir.

**Problemin əsas məqsədi.**

Bu tədqiqatın əsas məqsədi, postmüharibə dövründə qazilərdə yaranan psixopatoloji pozuntula-

rın təbiətini və yayılmasını təhlil etmək, bu pozuntularla mübarizədə istifadə olunan strategiyaların effektivliyini qiymətləndirmək və cəmiyyətin dəstək imkanlarının artırılması üçün elmi əsaslar təqdim etməkdir. Tədqiqat, qazilərin psixi sağlamlıq vəziyyətinin yerli və beynəlxalq kontekstdə müqayisəli təhlilini aparmaqla, onların sosial reinteqrasiyası və həyat keyfiyyətinin artırılması məqsədilə praktiki tövsiyələr irəli sürməyi hədəfləyir.

**Ədəbiyyat**


1. Post-travmatik stress pozuntusu: Diaqnostika və müalicə üsulları / Azərbaycan Psixoloqlar Assosiasiyası. - Bakı: -2021.
2. Ələkbərova Z. Travmatik hadisələrin insan psixikasına təsiri və psixoloji yardım metodları - Bakı: Azərbaycan Psixologiya İnstitutu, -2018 № 6. -24-68 s.
3. American Psychiatric Association (APA) /– Diagnostic and Statistical Manual of Mental Disorders (DSM-5), -2013.
4. Bessel van der Kolk – The Body Keeps the Score: Brain, Mind, and Body in the Healing of Trauma, -2014.
5. Trauma and Recovery / Judith Herman –: The Aftermath of Violence–From Domestic Abuse to Political Terror, -1992.
6. Effective Treatments for PTSD / Edna B. Foa, Terence M. Keane, Matthew J. Friedman, Judith A. Cohen –: Practice Guidelines from the International Society for Traumatic Stress Studies, -2008.
7. A cognitive model of posttraumatic stress disorder / Behaviour Research and Therapy Ehlers, A., & Clark, D. M. , -2000. -319-345 s.
8. Journal of Consulting and Clinical Psychology / Resick, P. A., & Schnicke M. K., Cognitive processing therapy for sexual assault victims -1992-748-756 s.
9. Handbook of PTSD / Friedman M. J., Resick, P. A., & Keane, T. M Science and Practice. -2007.


**Redaksiyaya daxil olub:** 04.04.2025

*UOT: 159.9*

***Mətanət Fariz qızı Həsənova***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
https://orcid.org/0000-0003-4998-6895
*E-mail: metaneth2@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(2).232-235*

# MÜASİR DÖVRDƏ YENİYETMƏLƏRDƏ PEŞƏSEÇİMİNİN PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ

***Матанат Фариз гызы Гасанова***
*старший преподаватель Азербайджанского Университета Языков*

# ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ВЫБОРА ПРОФЕССИИ ПОДРОСТКОВ В СОВРЕМЕННЫЙ ПЕРИОД

***Matanat Fariz Hasanova***
*senior lecturer at*
*Azerbaijan University of Language*

# PSYCHO-PEDAGOGICAL ISSUES OF PROFESSIONAL CHOICE IN ADOLESCENTS IN THE MODERN ERA

**Xülasə.** Müasir cəmiyyətdə baş verən sosial-iqtisadi və siyasi dəyişikliklərin mənfi təsirləri bir çox cəhətdən yeniyetməlik dövrünün böhran hadisələrini kəskinləşdirir, yeniyetmələrin daxili psixoloji ehtiyatlarının aktivləşdirilməsi zərurətini aktuallaşdırır, onlara mühüm qərarlar qəbul edərkən xarici mühit təsirlərinə münasibətdə subyektiv mövqe tutmağa imkan verir. Yeniyetməlik dövründə qəbul edilən bu cür qərarlara, ilk növbədə, peşə seçimi və peşəkar özünü həyata keçirmə ilə bağlı qərarlar daxildir. Təlim və tərbiyə prosesində yeniyetmənin müxtəlif peşə fəaliyyət sahələri haqqında məlumat əldə etməsi, həyat və peşə yolunu seçmək üçün obyektiv fikirlərin formalaşması vacibdir. Yeniyetmə lazımi əsas bilikləri, müxtəlif peşələr və cəmiyyətin ehtiyacları haqqında məlumatları onun yerləşdiyi təhsil mühitindən almalıdır ki, bu yeniyetmənin düzgün peşə seçimini etməyə imkan verəcəkdir.
***Açar sözlər:*** *yeniyetmə, peşə seçimi, təlim, şəxsi xüsusiyyətlər*

**Аннотация.** Негативные последствия социально-экономических и политических изменений, происходящих в современном обществе, во многом усугубляют кризисные явления подросткового возраста, актуализируют необходимость активизации внутренних психологических ресурсов подростков, позволяют им занимать субъектную позицию по отношению к внешним средовым воздействиям при принятии важных решений. К таким решениям, принимаемым в подростковом возрасте, относятся, прежде всего, решения, связанные с выбором карьеры и профессиональной самореализацией. В процессе обучения и воспитания подростку важно получить информацию о различных профессиональных сферах и сформировать объективное мнение для выбора жизненного и профессионального пути. Подросток должен получать необходимые базовые знания, информацию о различных профессиях и потребностях общества из образовательной среды, в которой он находится, что позволит подростку сделать правильный выбор профессии.
***Ключевые слова:*** *подросток, выбор карьеры, обучение, личные качества*

**Abstract.** The negative consequences of socio-economic and political changes occurring in modern society greatly aggravate the crisis phenomena of adolescence, actualize the need to activate the internal psychological resources of adolescents, allow them to take a subjective position in relation to external environmental influences when making important decisions. Such decisions made in adolescence include, first of all, decisions related to the choice of career and professional self-realization. In the process of training and education, it is important for a teenager to receive information about various professional spheres and form an

objective opinion for choosing a life and professional path. A teenager should receive the necessary basic knowledge, information about various professions and the needs of society from the educational environment in which he or she finds himself, which will allow the teenager to make the right choice of profession.

***Key words:*** *teenager, career choice, training, personal characteristics*

Yeniyetməlik insanın həyatda məqsədlərinin formalaşması üçün həssas dövrdür. Əgər nədənsə bu dövrdə gələcəyin zaman perspektivi formalaşmırsa və ya səhv formalaşırsa, bu, insanın şəxsiyyətinin inkişafı üçün ciddi nəticələrə səbəb ola bilər. L. Vıqotski mövzu ilə bağlı tədqiqatlarında həm yeniyetmələrin, həm də onların ətrafındakı böyüklərin çox vaxt şagirdlərdə iradə olmamasından narahat olduqlarına diqqət çəkmişdir. Bununla belə, L.S. Vıqotski qeyd edirdi ki, belə hallarda biz tez-tez iradənin zəifliyi ilə deyil, yeniyetmənin müxtəlif maneələri dəf etməyə ehtiyacı olmadığı zaman məqsədlərin zəifliyi ilə qarşılaşırıq. [3]

Yeniyetməlik yaş dövründə məktəbin orta siniflərində təlim-tərbiyə fəaliyyətində formalaşan əks etdirmə qabiliyyəti şagird tərəfindən özünə yönəldilir. Özünü böyüklərlə və kiçik uşaqlarla müqayisə etmək, yeniyetməni artıq uşaq deyil, daha çox böyük olduğu qənaətinə gətirir. Yeniyetmə özünü böyüklər kimi hiss etməyə başlayır və ətrafdakıların onun müstəqilliyini və əhəmiyyətini tanımasını istəyir. Yeniyetmənin əsas psixoloji ehtiyacları həmyaşıdları ilə ünsiyyət arzusu, azadlıq və böyüklər tərəfindən hüquqlarının tanınmasıdır. Yetkinlik hissləri yeniyetməlik dövrünün başlanğıcının psixoloji əlamətidir. D.B. Elkonin tərifinə görə, [4] yetkinlik hissi yeni bir şüurun formalaşmasıdır, onun vasitəsilə yeniyetmə özünü başqaları (böyüklər və ya yoldaşlar) ilə müqayisə edir, assimilyasiya üçün modellər tapır, digər insanlarla münasibətlərini və fəaliyyətini yenidən qurur.

Müasir cəmiyyətdə baş verən sosial-iqtisadi və siyasi dəyişikliklərin mənfi təsirləri bir çox cəhətdən yeniyetməlik dövrünün böhran hallarını kəskinləşdirir, yeniyetmələrin daxili psixoloji ehtiyatlarının aktivləşdirilməsi zərurətini aktuallaşdırır, onlara mühüm qərarlar qəbul edərkən xarici mühit təsirlərinə münasibətdə subyektiv mövqe tutmağa imkan verir. Yeniyetməlik dövründə qəbul edilən bu cür qərarlara, ilk növbədə, peşə seçimi və peşəkar özünü həyata keçirmə ilə bağlı qərarlar daxildir. Sonrakı professional sosiallaşma əsasən peşə seçiminin uğurundan asılıdır, yəni, insanın ictimai münasibətlər sistemində, cəmiyyətdə öz yerini müəyyənləşdirməsi, bütövlüyünün inteqrasiyası prosesi kimi şəxsi müqəddəratını təyinetmənin mühüm tərkib hissəsidir. [1]

Yeniyetməlik dövrünün əsas komponenti uşaqlıqdan yetkinliyə keçiddir, bu baxımdan yeniyetmənin inkişafının bütün aspektlərinin keyfiyyətcə yenidən qurulmasından danışmaq olar, bu müddət ərzində yeniyetmənin şüurlu davranışının əsasları yaranır və sosial münasibətlər formalaşır. Bu transformasiya prosesi yeniyetməlik dövrünün bütün əsas şəxsiyyət xüsusiyyətlərini müəyyən edir.

Yeniyetmənin seçdiyi peşə sahəsi üzrə gələcək mütəxəssis kimi yetişməsində onun seçdiyi peşəyə münasibəti böyük əhəmiyyət kəsb edir. Peşənin xüsusiyyətlərini obyektiv görmək və özünü bu peşəkar sahədə təsəvvür etmək də vacibdir. Seçilmiş peşəkar fəaliyyət sahəsi yalnız maddi ehtiyacları ödəmək yolu deyil, fərdin həyatının ayrılmaz hissəsinə çevrildikdə, peşəkar özünüdərkin formalaşması haqqında danışmaq olar.

Təlim və tərbiyə prosesində yeniyetmənin müxtəlif peşə fəaliyyət sahələri haqqında məlumat əldə etməsi, həyat və peşə yolunu seçmək üçün obyektiv fikirlərin formalaşması vacibdir. Yeniyetmə lazımi əsas bilikləri, müxtəlif peşələr və cəmiyyətin ehtiyacları haqqında məlumatları onun yerləşdiyi təhsil mühitindən almalıdır ki, bu yeniyetmənin düzgün peşə seçimini etməyə imkan verəcəkdir. [1]

Gələcək peşə seçimi hər bir insanın həyatında ciddi və məsuliyyətli addımdır. Peşə seçimi əsasən insanın gələcək karyerasını və həyat tərzini müəyyən edir. Müasir cəmiyyətdə peşə və karyera yüksəlişi üçün getdikcə daha çox imkanlar var: iş yerlərinin sayı artır, peşə hazırlığının yeni üsulları meydana çıxır, insanın imkanlarını nəzərə alaraq fərdi peşə yolu yaratmaq imkanı, fərdi və ya böyük şirkətlərdə uzaqdan işləmək imkanı var. [5] Bütün müsbət cəhətlərinə baxmayaraq, bu genişləndirilmiş seçim karyera seçimi etmək istəyərkən, xüsusən də məktəb yaşında baş verərsə, daha çox təzyiq yaradır. Bu ona gətirib çıxarır ki, peşə seçimi çox vaxt bir çox mühüm amillər nəzərə alınmadan aparılır və

nəticədə təhsil müəssisələrinin bir çox məzunu öz ixtisası üzrə işləmir.

Yeniyetmənin peşə seçimi fəlsəfə, sosiologiya, pedaqogika və psixologiya kimi bilik sahələrində nəzərdən keçirilən elmi problemdir. Bu baxımdan, bu anlayışın müəyyənləşdirilməsinə çoxlu müxtəlif yanaşmalar mövcuddur. Psixoloji tədqiqatlar peşə seçimini, onun daxili mexanizmlərini və ona təsir edən amilləri öyrənməyə yönəlib. A.N. Leontyev yeniyetmənin peşə seçiminə fəal mövqeyini vurğulayır və deyirdi ki, həyatın hər bir mərhələsində insan təkcə ətraf mühitin təsirinə məruz qalmır, həm də o, özü nə isə etməli, özündə nəyisə təsdiq etməli və nədənsə azad olmalıdır. [3]

Peşə seçimi anlayışı bütövlükdə fərdin öz müqəddəratını təyinetmə növlərindən biridir. Bu fikir L.İ. Bozhoviç, V.V. Boluçevskaya, N.S. Pryazhnikov və başqa tədqiqatçıların tədqiqatlarında öz əksini tapıb. N.S. Pryazhnikova görə peşə seçimi şəxsin öz iradəsini sərbəst ifadə etməsi əsasında əmək fəaliyyəti sahəsini seçməsi; seçilmiş, mənimsənilmiş və ya artıq yerinə yetirilən əmək fəaliyyətində şəxsi mənaların tapılması prosesidir.[3]

E.A. Klimovun tərifinə görə. peşə seçimi "peşəkar iş mühitində şəxsi oriyentasiya, mənəvi və fiziki imkanların inkişafı, adekvat peşə niyyətlərinin və planlarının formalaşması, özünün bir mütəxəssis kimi real görünüşünün formalaşması üçün kompleks dinamik bir prosesdir". N.V. Samukinaya görə, peşə seçimi introspeksiya, özünü tanımaq və öz qabiliyyətlərini və dəyər yönümlərini qiymətləndirmək, öz fərdi xüsusiyyətlərinin peşə tələblərinə necə uyğun olduğunu bilmək yolu ilə təbii yaradıcı potensialının ahəngdar şəkildə inkişafını rəhbər tutur. [3]

Mövcud tədqiqatlara əsaslanaraq, peşə seçimi prosesinə təsir edə biləcək bir sıra xarici və daxili amilləri müəyyən edə bilərik. Xarici amillərə aşağıdakılar daxildir:

- sosial-iqtisadi şərait;
- sosial mühit;
- müəyyən bir peşənin kadrlarına bazar tələbatı;
- mütəxəssisin şəxsiyyətinə, onun sağlamlıq vəziyyətinə, psixofizioloji xüsusiyyətlərinə və psixoloji keyfiyyətlərinə əmək bazarının tələbləri;
- peşə və təhsil tələbləri;
- peşəkar inkişaf, karyera, təkmilləşdirmə perspektivləri;
- seçilmiş peşənin xüsusiyyətləri.

Daxili amillərə (psixoloji, idarə oluna bilən) daxildir:

- peşə seçimi üçün motivasiya (həyat dəyərlərinə istiqamətlənmə, gələcək haqqında fikirlər, təcrübə və s.);
- peşənin şəxsən fərd və bütövlükdə cəmiyyət üçün əhəmiyyətinin dərk edilməsi;
- bütövlükdə peşəyə və onun fərdi funksiyalarına maraq;
- anadangəlmə meyllər, temperament və xarakter, şəxsi qabiliyyətlər, meyllər, vərdişlər.

Əmək potensialının formalaşmasına və inkişafına bir çox amillər təsir edir, bu proseslər müxtəlif sosial institutların - ailə, məktəb və digər təhsil-tərbiyə müəssisələrinin təsiri altında inkişaf edir. İlk növbədə, ailə tərbiyəsi insan şəxsiyyətinin formalaşmasına ilkin mərhələdən bütün təzahürləri ilə təsir göstərir. Məhz ailədə qabiliyyətlərin aşkarlanması və inkişafı başlayır.

Elmi ədəbiyyatın təhlili göstərir ki, [3,5] məktəbin tədris prosesində yeniyetmənin peşə seçimi prosesinin elmi-metodiki təminatı probleminə tədqiqatçıların marağına baxmayaraq, onun həllində geniş spektrli məsələlər qeyri-müəyyən olaraq qalır. Bununla əlaqədar olaraq, əsasən aşağıdakı ziddiyyətlər fərqləndirilit:

- yeniyetmənin peşə seçiminin hərtərəfli nəzəri tədqiqatları və bu prosesə təsir edən psixoloji və pedaqoji vəziyyətlərin tipologiyası haqqında kifayət qədər biliyə malik olmaması;
- yeniyetmənin peşə seçiminin mahiyyəti və müəyyənediciləri və əldə edilmiş nəticələrin məktəbin tədris prosesinin praktikasında həyata keçirilməsi haqqında toplanmış elmi biliklər;
- yeniyetmələrin və təhsil müəssisələrinin təcrübəsinin onların peşə seçiminin formalaşdırılması üçün səmərəli işin təşkilinə obyektiv ehtiyacı və buna təhsil prosesi subyektlərinin kifayət qədər psixoloji və pedaqoji hazırlığı.

Həll edilməmiş ziddiyyətlər səbəbindən məktəbin tədris prosesində yeniyetmənin peşə seçiminin kifayət qədər effektiv formalaşmaması problemi var ki, bu da yeniyetmələrin öz imkanları haqqında məhdud anlayışına səbəb olur.

Hazırda cəmiyyətdə dəyişiklik dövrü davam edir, bu, yeni peşələr və yeni imkanlar seçmək imkanı yaradır, həm də bu prosesi çətinləşdirir. Xüsusilə belə iqtisadi və siyasi şəraitdə, belə qeyri-sabit və dəyişən dünyada seçim etmək həmişə çətindir. Məktəb və ailə qlobal

problemləri həll edə bilməz, lakin onlar həm imkanları, həm problemləri, həm də çətinlikləri dərk edərək, mövcud vəziyyəti anlamağa və bu reallığa hazırlaşmağa kömək edə bilərlər.

Müasir məktəblilərin peşə seçimini müəyyən etmələrinə nəyin təsir etdiyini, onların hansı vəziyyətdə olduğunu, seçimlərini nəyə əsaslandığını və bu işdə onlara necə kömək oluna biləcəyini öyrənmək vacibdir. Çətinlikləri aradan qaldırmaq və hədəflərə doğru irəliləmək üçün imkanlar təmin edilməlidir. Peşə bazarındakı vəziyyətin dəyişkənliyi haqqında məlumat çaşqınlıq, məyusluq yaradır, lakin bu dəyişikliklər elmi-texniki tərəqqi baxımından cəmiyyətin böyüməsi və inkişafı ilə əlaqəlidir. Valideynlərə və müəllimlərə bildirilir ki, yeniyetmələrə söhbət zamanı psixoloji dəstək prosesini həyata keçirərkən vurğulamaq lazımdır ki, peşəkar bazarın 10 və ya daha çox ildən sonra necə inkişaf edəcəyini dəqiq proqnozlaşdırmaq mümkün deyil, lakin ən uyğun istiqaməti seçmək üçün addımlar atmaq lazımdır. Yeni vəziyyətlərə uyğunlaşmaq, kifayət qədər universal bacarıqlar inkişaf etdirmək və cəmiyyətin peşəkar sistemində öz yerini tapmaq kimi cəhdlər peşələrin strukturunda hər hansı bir dəyişikliklə nəticəsiz qalmayacaq, çünki onlar fürsətlər və yeni seçimlər etmək ehtiyacıdır. [5]

Nəzərə almaq lazımdır ki, yeniyetmələrdə hələ də hormonal dəyişikliklər, böyümələr, orqanizmdə dəyişikliklər yaşanır, bu, paralel olaraq stress mənbəyidir və bu fonda öz peşə seçimini etmək zərurəti kifayət qədər mənfi hisslər yaradır. Bir tərəfdən, bu, vacib seçimdir, digər tərəfdən, uşaq hələ hazır deyil, onun daxili yetkinliyi yoxdur. Nəzərə almaq lazımdır ki, yeniyetmələrə peşə seçimi öyrədilmir, onlardan birini seçməsi gözlənilir. Eyni zamanda, öz keyfiyyətlərini təhlil etmək və peşəkar plan tərtib etmək bacarığını inkişaf etdirmək vaxt, diqqət və mənəvi güc tələb edir.

**Problemin aktuallığı.** Peşə seçimi anlayışı hər bir dövrdə aktual olsa da, müasir dövrdə daha çox düzgün istiqamətlənməsi ilə fərqlənir. Belə vəziyyətlərdə yeniyetmələrə dəstək üçün müəllimlərin, ailənin və ətraf mühitin təsiri çox vacibdir. Önəmli olan yeniyetmələrin şəxsi xüsusiyyətlərinə bələd olmaq, psixoloji vəziyyətini anlamaq və ən əsası dövr üçün bazarın tələbatına da hakim olmaqdır.

**Problemin elmi yeniliyi.** Müasir dövrdə aktuallığı ilə seçilən peşə seçimi anlayışının yeniyetmələrin gələcək həyatı üçün yalnız iqtisadi cəhətdən əlverişli olması ilə bağlı deyil, həm də onların dəyər oriyentasiyasına yönəlməsinin vacibliyi.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən yeniyetmələrin peşə seçimi və şəxsi öz müqəddəratını təyinetməsi ilə bağlı aparılan araşdırmalarda, əsasən də onların bu dövrdə ən yaxın dəstəkçiləri olan ailə üzvlərinin və müəllimlərinin maarifləndirilməsində istifadə oluna bilər.

## Ədəbiyyat


1. Müasir dövrdə yeniyetmələrin psixi inkişafının xüsusiyyətlərinin tədqiqi // -Bakı: Psixologiya jurnalı, -2016, № 3, s. 63-74
2. Буякас Т.М. Проблема и психотехника самоопределения личности // Вопросы психологии. 2002. - № 2. - С. 28 - 39.
3. Фоменко Н.В. Подростковый возраст как наиболее сложный этап развития ребенка / А.П. Чехова. - 2014. - № 2. - С. 201-205.
4. Тоистева О.С. Профессиональное самоопределение подростков: актуальность, проблемы, пути решения / О.С. Тоистева // Педагогическое образование в России. - 2011. - № 4. - С. 60-64.
5. Умарова Д.З. Профессиональное самоопределение и профессиональная направленность личности - 2018. - № 7. - С. 283-285.


**Redaksiyaya daxil olub:** 17.02.2025.

*UOT 159.9*

***Xavərxanım Ağamehdi qızı Bakıxanova***
*Bakı Dövlət Universitetinin*
*Gender və tətbiqi psixologiya kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-3031-5770*
*E-mail: khaverbakikhanova@bsu.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(2).236-240*

# TƏHSİLDƏ SÜNİ İNTELLEKTİN SOSİO-EMOSİONAL KOMPETENSİYALARIN İNKİŞAFINA TƏSİRİ

***Хаварханум Агамехди гызы Бакиханова***
*докторант по программе доктора философии кафедры гендерной и прикладной психологии Бакинского Государственного Университета*

# ВЛИЯНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБРАЗОВАНИИ НА РАЗВИТИЕ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ

***Khavarkhanim Aghamehdi Bakikhanova***
*doctorial student in the program of philosophy of the department of Gender and applied psychology of Baku State University*

# THE EFFECT OF ARTIFICIAL INTELLIGENCE IN EDUCATION ON THE DEVELOPMENT OF SOCIO-EMOTIONAL COMPETENCES

**Xülasə.** Süni intellekt həyatımızın ayrılmaz hissəsidir desək yanılmarıq. Gündəlik həyatımızda elə bir sahə yoxdur ki, texniki vasitələrdən istifadə etməyək. Əvvəllər bunun həyatımızı asanlaşdıran elmi yeniliklər kimi qəbul etsək də, günümüzdə texnologiyanın bu qədər sürətlə inkişafı və həyatımıza müdaxiləsi müəyyən suallar barədə elm adamlarının düşünməsinə gətirib çıxarır.

Bilirik ki, insan sosial varlıqdır. Daim digər insanlarla münasibətdə, ünsiyyətdə olması labüddür. Hətta gənclərin rastlaşdıqları müxtəlif problemlərin səbəbini sosio-emosional kompetensiyaların inkişafına daha az vaxtın ayrılması hesab olunan bir dövrdə süni intellekt vasitələrinin təhsil həyatına sürətlə uyğunlaşdırılmasının doğruluğu elm adamları tərəfindən birmənalı qarşılanmır. Araşdırmalar sübut edir ki, bir vaxtlar tabaşir, adi lövhə, maqnitafon, kaset, televizor təhsil sistemində əsas vasitə hesab olunsa da, günümüzdə bu vasitələri ağıllı lövhələr, kompüter, planşetlər əvəz edir. Bu cür yeni texniki vasitələrin təhsil sistemində tətbiqi nəticəsində informasiyanın daha əlçatan olması və milyonlarca mənbəyə istinad etməyin mümkünlüyü təhsilalanlar tərəfindən daha uğurlu nəticələrin əldə olunmasına gətirib çıxardı. Günümüzdə robotların təhsil həyatına daxil olunmasını dəstəkləyən nəzəriyyələrin yaranmağa başlaması (W. Holmes, M. Bialik, C. Fadel, K. Porayska-Pomsta) sosio-emosional kompetensiyaların inkişafına törədə biləcək maneələr barədə düşünməyə vadar edir.

***Açar sözlər**: süni intellekt, sosio-emosional kompetensiyalar, iş, təhsil, inkişaf*

**Аннотация.** Искусственный интеллект является неотъемлемой частью нашей жизни. В нашей повседневной жизни нет такой области, где бы мы не использовали технические средства. Хотя раньше мы воспринимали это как научные инновации, которые облегчили нашу жизнь, в настоящее время стремительное развитие технологий и их вмешательство в нашу жизнь заставляет ученых задуматься над определенными вопросами.

Мы знаем, что человек – существо социальное. Необходимо постоянно общаться с другими людьми. Даже в эпоху, когда на развитие социально-эмоциональных компетенций уделяется меньше времени, причина различных проблем, с которыми сталкивается молодежь, правильность быстрой адаптации средств искусственного интеллекта к образовательной жизни не признается учеными однозначно. Исследования доказывают, что мел, обычная классная доска, магнитофон, кассета и теле-

визор когда-то считались основными средствами в системе образования, но сегодня эти средства заменены умными досками, компьютерами и планшетами. В результате применения таких новых технических средств в системе образования доступность информации и возможность обращения к миллионам источников привели к достижению обучающимися более успешных результатов. Сегодня появление теорий, поддерживающих включение роботов в образовательную жизнь (У.Холмс, М.Бялик, К.Фадель, К.Порайска-Помста), заставляет задуматься о препятствиях, которые могут вызвать развитие социально-эмоциональных компетенций.

***Ключевые слова:*** *искусственный интеллект, социально-эмоциональные компетенции, работа, образование, развитие*

**Abstract.** Artificial intelligence is an integral part of our life. There is no area in our daily life where we do not use technical means. Although we used to accept it as scientific innovations that made our life easier, nowadays the rapid development of technology and its interference in our lives leads scientists to think about certain questions.

We know that man is a social being. It is necessary to constantly communicate with other people. Even in an era when less time is allocated to the development of socio-emotional competencies, the cause of the various problems encountered by young people, the correctness of the rapid adaptation of artificial intelligence tools to educational life is not unequivocally accepted by scientists. Research proves that chalk, ordinary blackboard, tape recorder, cassette, and television were once considered the main tools in the education system, but nowadays these tools are replaced by smart boards, computers, and tablets. As a result of the application of such new technical tools in the educational system, the availability of information and the possibility of referring to millions of sources led to the achievement of more successful results by the students. Today, the emergence of theories supporting the inclusion of robots in educational life (W.Holmes, M.Bialik, C.Fadel, K.Porayska-Pomsta) makes us think about the obstacles that can cause the development of socio-emotional competencies.

***Keywords****: artificial intelligence, socio-emotional competencies, work, education, development*

**Problemin aktuallığı.** XXI əsr texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdür. Həyatımızı günü-gündən asanlaşdırmağa yönəlmiş müxtəlif elmi kəşflərin, texnoloji yeniliklərin əsasını təşkil edir. Bir zamanlar etmədiyimiz texnoloji vasitələr artıq nəinki mövcuddur, hətta demək olar ki, yaş məhdudiyyəti olmadan hər kəs üçün əlçatandır. Təbii ki, bunun müsbət tərəfləri çoxdur, lakin mənfi nüansların da olduğunu inkar edə bilmərik.

Təhlükəli nüanslardan biri və ən dəhşətlisi odur ki, işlərimizi asanlaşdıran süni intellekt vasitələri artıq insan əməyini, sosial münasibətləri, insani olan bir çox şeyi əvəz etməyə başlayır. Elm adamları həyəcan təbili çalsalar da, təəssüflər olsun ki, komfort zonanın verdiyi rahatlıq hissi insanlara işin əhəmiyyətini dərk etməyə şərait yaratmır.

Müşahidələr göstərir ki, bir çox qərb ölkələrində, hətta ölkəmizdə kassirə ehtiyac olmayan, süni intellekt vasitəsilə idarə olunan böyük mağazalar mövcuddur. Kənardan cəlb edici görünsə də işsiz qalan minlərlə şəxsin taleyi sual altındadır. Telefonlara asanlıqla yüklənən söhbət robotları öyrənilməsi lazım olan bütün informasiyaları əlçatan edir, hətta şəxsi mövzularda fikir irəli sürmək funksiyalarının mövcudluğu sosial münasibətlərin məhvi üçün başlanğıc olduğunu qeyd etsək yanılmarıq.

Təhsil müəssisələrimizdə ağıllı lövhə, kompüter, planşet kimi dəstəklənən vasitələrin tətbiqi müəyyən uğurlara gətirib çıxarsa da artıq qərbdə robotların təhsil həyatına daxil edilməsi planlaşdırılır. W. Holmes qeyd edir ki(2023), emosional intellektə əsaslanan süni intellekt vasitəsilə müəllimin təhsilalana ötürdüyü informasiyanı təhsilalanın başa düşəcəyi dildə ötürmək, yaşadığı müxtəlif situasiyalarda özünü necə hiss etməsi və nə cür davranmalı olduğu, imtahan həyəcanını aradan qaldırmaq üçün hansı növ tənəffüs aktını həyata keçirməsinin daha məqsədə uyğun olduğu və s. kimi informasiyaları ötürməklə təhsilalanlara özlərini kəşf etməyə və düzgün davranış modelini seçməyə yönəltmək olar.

Müasir dövrdə süni intellekt vasitələrinin həndəsi silsilə ilə inkişaf etdiyini nəzərə alsaq yeni elmi kəşfləri, layihələri təhlil etmək çox vacibdir.

**Problemin işlənmə dərəcəsi** barədə demək olar ki, hələ 1920-ci illərdə Vıqotski və Luria tərəfindən aparılan empirik araşdırmalar

süni intellekt vasitələrinin informasiyaların əldə olunması və mənimsənilməsi üçün nə qədər vacib olduğu barədə müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. XXI əsrin 20-ci illərindən etibarən isə W. Holmes, M. Bialik, C. Fadel, K. Porayska-Pomsta və başqaları tərəfindən sosio-emosional kompetensiyaların inkişafı üçün robotların təhsil həyatına daxil olunması dəstəklənir. Ölkəmizdə bəzi orta təhsil müəssisələrinin fizika, informatika dərslərində süni intellekt vasitələri üzərindən tədris həyata keçirilsə də sosio-emosional kompetensiyaların inkişafı üçün tətbiq olunmur.

**Məqsəd və vəzifələr**. Təhsilalanların sosio-emosional kompetensiyaları mənimsəmələrinə süni intellekt vasitələrinin müsbət və mənfi istiqamətdə təsirini təhlil etmək. Tədqiqatın əsasında elmi ədəbiyyatın, müxtəlif tarixi faktların təhlili durur.

**Əldə edilən nəticələr.** Elm və texnologiyanın sürətli inkişafı bizi vadar edir ki, süni intellekt vasitələrinin yalnız təhsilalanlara texniki fənlərin daha asan üsulla mənimsədilməsinə deyil, sosio-emosional kompetensiyaların inkişafına da təsiri haqqında düşünək.

Bildiyimiz kimi sosio-emosional kompetensiyaların inkişafı üçün təhsilalanlarda əsas bacarıqların inkişafı vacib hesab olunur. Bunlar aşağıdakılardır:




❖ Problem həll etmək. Problemli situasiyada hər bir şəxs individual reaksiya verir. Müşahidə olunur ki, sosio-emosional kompetensiyaların inkişaf etdirilməsi nəticəsində təhsilalanlar problemli situasiyalarda daha alternatif yollarla məsələ böyümədən konfliktsiz şəkildə ziddiyyətləri həll etməyə meylli olurlar. Problem həll etmək bacarığı formalaşmış təhsilalanlarda daha yüksək təhsil pilləsinə qəbul olduqlarında daha tez mühitə adaptasiya olurlar. Araşdırmalar sübut edir ki, problem həll etməyi bacarmayan şəxslər insanları təhqir etməyə, neqativ düşünməyə, problemləri həll etməkdən qaçmağa, qurban rolu oynamağa meylli olurlar. Bu isə problemin həlli ilə bağlı əlverişli şəraitin yaradılması istiqamətində düşünməyi zəruri edir.

❖ Ünsiyyət qurmaq. İbtidai icma quruluşundan kapitalizm dövrünə qədər hər zaman insanların ünsiyyət qurmaq tələbatı mövcud olub. Güzəran psixologiyasına nəzər saldıqda aydın olur ki, insanlar dövrlərə uyğun olaraq dumanla, quşlarla, zərb alətləri ilə, müxtəlif səslərlə, məktub, telefon və s. vasitələrlə daim insanlar ünsiyyətdə olublar. Ünsiyyət bacarığını inkişaf etdirmək dedikdə yalnız informasiya ötürmək və qəbul etməkdən söhbət getmir. Burada əsas təhsilalanlarda inkişaf etdirilməsi lazım olan ünsiyyət bacarıqları aktiv dinləmə, emosional gərginliyi aradan qaldırma, arqumentasiya, işbirliyi, rəddetmə və kömək almaq bacarığı və s. hesab olunur.

❖ Özünü inkişaf etdirmək. Özünü inkişaf etdirmək dedikdə təhsilalanın elmi biliklərə yiyələnməsi ilə bərabər özünə hörmət, özünü qüsurları ilə qəbuletmə, özünü müsbət qiymətləndirmək bacarıqlarının inkişafı da nəzərdə tutulur. Araşdırmalar sübut edir ki, özünü qiymətləndirməsi yüksək olan təhsilalanlar daha böyük uğurlara imza ata bilirlər. Eyni zamanda ətrafdakı şəxslərin arzu, istəklərinə qarşı daha həssas olurlar. Öz dəyəri formalaşmamış şəxslərdə isə depressiv əhval daha çox müşahidə olunur.

❖ Stresslə mübarizə aparmaq. Müşahidələr göstərir ki, heç də hər bir stress zərərli deyil, amma mənfi təsirli streslə mübarizə bacarıqları formalaşan təhsilalanlar asanlıqla məsələyə nəzarət edə bilirlər. Stressli situasiyalarda əsas 3 davranış modeli ayırd edilir:

1. Stressli situasiyanı nəzarətə almaq və problemi həll etmək
2. Stressi yaradan amillərdən qaçmaq
3. Stressli situasiyalara qarşı sosial dəstək almaq

Araşdırmalar və müşahidələr göstərir ki, sosio-emosional kompetensiyaların inkişafı üçün müxtəlif yanaşmalar mövcuddur. Qərbdə bir çox təhsil müəssisələrində pilot layihə kimi “Ağıllı dərs vermə sistemləri” tətbiq olunur. Müəllimlərin davranışlarını təqlid edən alqoritmlər hazırlanır. Süni intellekt vasitəsilə təhsilalanlar günün istənilən saatı həm şəxsi davranışları, həm də tədris prosesi ilə bağlı suallara cavab tapa biləcəklər.

Bir çox elm adamlarını narahat edən əsas məsələ budur ki, alqoritmlər vasitəsilə müəllimi əvəz edən bir sistem təhsilalanlarda necə sosio-emosional kompetensiyaları inkişaf etdirə bilər. Digər tərəfdən kim zəmanət verə bilər ki, bu cür sistemlər gələcəkdə müəllim peşəsinin itirilməsi ilə nəticələnməyəcək.

Araşdırmalar sübut edir ki, süni intellekt vasitələrinin təhsil həyatında tətbiqini dəstəkləyən elm adamları bunu izah edirlər ki, sosio-emosional kompetensiyaların əsasını şəxsin özünü tanıması təşkil edir. Bu platformalar vasitəsilə şəxslər müxtəlif situasiyalarda öz hisləri barədə süni intellektə sual verib hislərini tanıya və adlandıra biləcəklər. Eyni zamanda hansı tip davranışı həyata keçirsə daha məqsədəuyğun olacağı ilə də bağlı fərqli davranış modellərini istifadəçiyə təklif olunması gözlənilir.

Digər tərəfdən bu nəzəriyyəni irəli sürənlər (W. Holmes, M. Bialik, C. Fadel, K. Porayska-Pomsta) bildirirlər ki, təhsilalan çətin bir dövrdən keçirsə, bu sistem vasitəsilə necə sakit olmalı, həyəcanını necə aradan qaldırmalı olduğu kimi müxtəlif texnikalardan yararlana biləcək.

Əsas da bu sistemin dəstəklənməsinin digər bir səbəbi mühakimə etməyən, təhsilalanı günahlandırmayan, səhvlərini analiz edib çıxış yolu axtarmağa yönəlmiş olmasıdır. Bu sistem xarici dil biliklərinin əldə edilməsi üçün daha çox dəstəklənir. Səhv tələffüz etmək qorxusuyla öyrənmək istədiyi xarici dildə danışmaq istəməyən təhsilalan bu proqram vasitəsilə məşqlər edə bilər.

Hər bir nəzəriyyədə olduğu kimi burada da müəyyən suallar meydana gəlir. Süni intellekt vasitəsindən istifadə edən şəxslərin hər biri müxtəlif mədəniyyətə, adət-ənənələrə sahibdirlər. Bir mədəniyyət üçün adi qəbul olunan davranış, digər mədəniyyət üçün fərqli qəbul oluna bilər. Emosional süni intellekt dəstəkli texnoloji vasitələr bu mənada qənaətbəxş hesab olunmur. Unutmaq olmaz ki, hər bir şəxs individualdır. Süni intellektin təklif edəcəyi müxtəlif davranış modelləri nə dərəcədə hər bir kəs üçün şəxsi olacağı sual altındadır.

Digər tərəfdən şəxsi informasiyaların necə və harada qorunması, o şəxsi informasiyalardan hansı məqsədlər üçün gələcəkdə istifadə olunacağı şübhə doğurur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən elmi – nəzəri fikirləri, texnikaları müəllimlər tərəfindən gündəlik dərs praktikasında şagirdlərin fəallığının artırılmasında, təhsil işçiləri, praktik psixoloqlar, valideynlər, bu sahədə tədqiqat aparan elmi işçilər öz fəaliyyətlərində istifadə edə bilərlər.

**Problemin elmi yeniliyi**. İrəli sürülən nəzəriyyənin bir neçə il öncə pilot layihə kimi qərb ölkələrində tətbiqi və hələ Azərbaycan təhsil sisteminə inteqrasiya etməməsi bu barədə kifayət qədər elmi işin olmamasının sübutudur. Lakin ölkəmizin heç bir yeniliklərdən geri qalmadığını nəzərə alsaq yaxın gələcəkdə müxtəlif araşdırmaların işıq üzü görəcəyi danılmazdır.

**Nəticə** olaraq qeyd edə bilərik ki, bu sahədə toplanmış təcrübə kifayət qədər zəngin deyil və real həyatda tətbiq oluna bilməsi üçün təhsil siyasətində köklü dəyişikliklər edilməlidir. Süni intellekt vasitələrinin təhsil həyatında istifadəsinin müsbət tərəfləri olduğu kimi mənfi tərəfləri də çoxdur. Sosio-emosional kompetensiyaların təcrübələrlə, şəxsiyyətlərarası münasibətlərin fonunda inkişaf etdirilməsi təbii

ki, daha məqsədəuyğundur. Nəinki bəzi davranış modellərini əzbərləmək.

Qeyd etsək yanılmarıq ki, süni intellekt vasitələri insanlarda yaradıcılıq qabiliyyətini öldürür. Müxtəlif sferalarda tətbiqi məqsədəuyğun hesab olunsa da sosio-emosional kompetensiyaların inkişafında süni intellekt dəstəklənmir.

Baxmayaraq ki, bir çox qərb ölkələri bunu tətbiq edir, gələcəkdə nə kimi problemlərin ortaya çıxacağı narahatlıq doğurur. Təhsil siyasətinə bu layihənin əlavə olunması üçün bütün baş verə biləcəklər nəzərə alınmalıdır.

Yəni burada qarşıya xeyli sayda həlli vacib olan məsələlər meydana çıxır ki, onları həll etmək, neqativ təsirləri minimuma endirmək ciddi və kompleks tədqiqatlar tələb edir.

## Ədəbiyyat


1. Arslan, K. Eğitimde Yapay Zeka ve Uygulamaları / Batı Anadolu Eğitim Bilimler Dergisi – 2020. -71-88 s.
2. Epçaçan, C. Sosyal Duygusal Öğrenme / Batı Anadolu Eğitim Bilimler Dergisi – 2020. -55-79 s.
3. Holmes, W., Porayska-Pomsta, K. /Ethics of artificial intelligence in education. Taylor & Francis – 2023.
4. Liff, S. Social and emotional intelligence: Application for developmental education / Journal of Developmental Education, -2003. 21 № 3, -s. 28-34.
5. Susanne, A. Plays Nice With Others: Social Emotional Learning and Academic Success. / - Early Education and Development, - 2010. № 5, - s. 652-680
6. Tuomi, I. (2022). Artificial intelligence, 21st century competences, and socio emotional learning in education: More than high-risk? / European Journal of Education – 2022. 57 № 4 , - s. 601-619.
7. https://www.medicana.com.tr/saglik-rehberi-detay/3658/stres-nedir-ve-stres neden olur#:~:text=Stres%3B%20v%C3%BCcutta%20belirli%20biyolojik%2C%20fiziksel,ortaya%20%C3%A7%C4%B1kan%20durumu%20ifa de%20eder.
8. https://www.google.com/url?sa=i&url=https%3A%2F%2Fwww.elchapulind emontealban.com
9. https://mgiep.unesco.org/article/future-of-education-artificial-intelligenceand-social-and-emotional-learning
10. https://www.tmcnet.com/topics/articles/2023/05/23/455955-things-knowhowaiprovidesemotionalsupport.htm#:~:text=Through%20sophisticated%20algorithms%2C%20AI%20systems,responses%2C%20providing%20personalized%20emotional%20support.


**Redaksiyaya daxil olub:** 14.02.2025.

**MÜNDƏRİCAT**
**ОГЛАВЛЕНИЕ**
**CONTENTS**

**Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və suverenlik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı**
**Указ президента Азербайджанской Республики об объявлении 2025 года «Годом конституции и суверенитета» в Азербайджанской Республике** 5
**Decree of the President of the Republic of Azerbaijan on declarating 2025 as the "Year of the constitution and sovereignty" in the Republic of Azerbaijan**

**Hümeyir Əhmədov, Lalə Məmmədli, Pərvin Əlizadə**
Azərbaycan Respublikasının Konstitusiyasından təlim-tərbiyə prosesində istifadənin imkanları
Возможности использования конституции Азербайджанской Республики в учебно-воспитательном процессе 7
Possibilities of using the constitution of the republic of Azerbaijan in the educational process

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR-IN-CHIEF***

***PROFESSOR NAZİM KAZIM oğlu KAZIMOV – 75***
***ПРОФЕССОР НАЗИМ КЯЗИМ оглу КЯЗИМОВ – 75 лет***
***PROFESSOR NAZIM KAZIM KAZIMOV – 75 years old***

**Akif Abbasov**
Musiqişünas, tanınmış alim və pedaqoqun şərəfli həyat yolu
Славная жизнь музыковеда, известного ученого и педагога 19
The famous life of a musicologist, renowned scientist and teacher

***ÜZEYİR HACIBƏYLİ – 140***
***УЗЕИР ГАДЖИБЕЙЛИ – 140***
***UZEYIR HAJIBAYLI – 140***

**İradə Əmirəliyeva**
Üzeyir Hacıbəyli müəllimin vəzifələri və tərbiyə haqqında
Узеир Гаджибейли об обязанностях учителя и воспитании 23
Uzeyir Hajibayli on the duties of a teacher and upbringing

**Adilə Nəzərova**
Üzeyir Hacıbəyli: milli dəyərlər və qaynaqlar
Узейир Гаджибейли: национальные ценности и ресурсы 27
Uzeyır Hajibeyli: national values and resources

***ÜMUMPEDAQOJİ PPROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PEDAGOGICAL PROBLEMS***

**Türkanə Nəbiyeva**
Azərbaycan və bir sıra digər MDB ölkələrində müəllim hazırlığı ilə bağlı aparılan tədqiqatlar
Исследование по подготовке учителей в Азербайджане и ряде других стран снг
Research on teacher training in Azerbaijan and several other cis countries 32

**Lalə Bayramova**
İdraki maraqların inteqrasiyaedici təlimlə bağlılığının psixoloji əlamətləri
Психологические признаки связи познавательных интересов с интегративным обучением 38
Psychological features of the connection of cognitive interests with integrative learning

***TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***ISSUES OF EDUCATION MANAGEMENT***

**Vaqif Fətullayev**
Beynəlxalq ikili diplom proqramlarının təşkili
Организация международных программ двойных дипломов 43
Organization of international double diploma programs

***TƏLİM TEXNOLOGİYALARI***
***ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ***
***TEACHING TECHNOLOGIES***

**Firədun İbrahimov, Sevinc Kərimova**
Təhsilalanmərkəzli təlim sisteminin fəlsəfi-metodoloji əsasları
Философско-методологические основы образовательно-центрированной системы обучения 53
Philosophical-methodological foundations of learner-centered training system

**Telman Cəfərov**
Необходимы стандартизация двуязычного и многоязычного обучения и принятие соответствующей концепции
İkidilli və çoxdilli təlimin standartlaşdırılması və müvafiq konsepsiyanın qəbulu vacibdir 63
Standardization of bilingual and multilingual education and the adoption of an appropriate concept are needed

***İBTİDAİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ***
***АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ***
***ACTUAL PROBLEMS OF PRIMARY EDUCATION***

**Reyhan Hacızadə**
İbtidai siniflərdə şagirdlərin müstəqil işlərinin təşkili zamanı idrak fəallığının inkişafı
Развитие познавательной деятельности при организации самостоятельной работы учащихся в начальных классах 68
Independent work of primary school students development of cognitive activities in the organızation

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRINGING TECHNOLOGIES***

**Əsmət İsmayılxanova**
İnsan şəxsiyyətinin formalaşmasında təlim-tərbiyənin rolu
Роль образования и воспитания в формировании личности 72
Role of education and upbringing in personality development

**Rəhiməxanım Məmmədzadə**
Tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi üzrə işlərin planlaşdırılması
Планирование работы по развитию нравственных качеств студентов 77
Planning work to develop the moral qualities of students

**Jalə Abbaszadə**
Bayatı və laylaların tərbiyəvi xüsusiyyətləri
Воспитательные особенности баяты и колыбельных 82
Upbringing features of bayati and lyrics

**Səbinə Piriyeva**
Mənəvi-əxlaqi inkişafda təməl milli dəyərlər
Основные национальные ценности в духовно-нравственном развитии 86
Basic national values in spiritual and moral development

***AUTİST YENİYETMƏLƏRLƏ İŞ***
***РАБОТА С АУТИСТИЧНЫМИ ПОДРОСТКАМИ***
***WORKING WITH AUTISTIC TEENAGERS***

**Tura Əliyeva**
Məktəbdə intellektual inkişafı ləngiyən autist-yeniyetmələrin diaqnostikası
Диагностика отстающих в интеллектуальном развитии аутистов-подростков в школе 90
Diagnostics of autyst regulation schools for intellectual development

***TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ***
***МОНИТОРИНГ И ОЦЕНИВАНИЕ В ОБРАЗОВАНИИ***
***MONITORING AND EVALUATION IN EDUCATION***

**Sevinc Quliyeva**
Müasir psixoji tədqiqiatlarda kompüter əsaslı qiymətləndirilmələr aparılmasının güclü və zəif tərəfləri
Сильные и слабые стороны компьютерных оцениваний в современных психологических исследованиях 94
Strengths and weaknesses of computer-based assessments in modern psychological research

**Ramilə İsmayılxanova**
Ümumtəhsil məktəblərində İKT-dən istifadənin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri
Влияние ИКТ на улучшение качества обучения в общеобразовательных школах 97
The impact of ICT usage in general education schools on enhancing education quality

**Nərmin Həsənli**
Təhsilalanların qiymətləndirilməsinin öyrənmə prosesində rolu
Роль оценивания обучающихся в процессе обучения 102
The role of learner assessment in the learning process

***ALİ MƏKTƏB PEDAQOGİKASI***
***ПЕДАГОГИКА ВЫСШЕЙ ШКОЛЫ***
***PEDAGOGY OF HIGHER EDUCATION***

**Gülnar Paşayeva**
Diferensial yanaşmanın tələbə iştirakına təsiri və tətbiq strategiyaları
Влияние дифференцированного подхода на участие студентов и стратегии его применения. 106
The Impact of the differentiated approach on student participation and its implementation strategies

## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА*
## *METHODOLOGY OF TEACHING THE AZERBAIJANI LANGUAGE*


**Maya Qasımova**
Şagirdlərin rabitəli nitqinin inkişafı üzrə işin təşkilində son nəşr II sinif Azərbaycan dili dərsliyinin imkanları
Возможности последнего издания учебника азербайджанского языка II класса в организации работы по развитию связной речи учащихся — 110
The possibilities of the latest edition of the Azerbaijanı language textbook of class II in the organization of work on the development of coherent speech of students

**Aynur Qarayeva**
Azərbaycan dili dərslərində leksikoqrafiyanın tədrisi
Преподавание лексикографии на уроках азербайджанского языка — 115
Teaching lexicography in the Azerbaijani language lessons

**Xurşud İsmayilova, Sevinc Hacıyeva, Şəfəq Həsənova**
Azərbaycan dilinin müxtəlif dialekt və şivələrin tələbələrin lüğət ehtiyatının zənginləşdirilməsində rolu
Роль различных диалектов и говоров азербайджанского языка в обогащении словарного запаса студентов — 119
The role of various dialects and aspectos of the Azerbaijani language ın enriching students' vocabulary


## *ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI*
## *METHODS OF TEACHING LITERATURE*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ*


**Günel Əmirxanzadə**
Ləyaqət tərbiyəsi ədəbiyyatlarımızda
Воспитание достоинства в наших литературах — 124
Dignity upbringing in our literatures


## *FƏLSƏFƏNİN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЛОСОФИИ*
## *METHODOLOGY OF TEACHING PHILOSOPHY*


**Mədinə Ağayeva**
Ali təhsil müəssisələrində fəlsəfənin tədrisinin metodoloji xüsusiyyətləri
Методологические особенности преподавания философии в высших учебных Заведениях — 130
Methodological features of teaching philosophy in higher educational instıtutions


## *RİYAZİYYATIN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ*
## *METHODOLOGY OF TEACHING MATHEMATICS*


**Rasim Şükürov, Cəmilə Əsgərova**
İbtidai siniflərin riyaziyyat dərslərində modul təlim texnologiyasından istifadənin zəruriliyi
Необходимость использования модульной технологии обучения на уроках математики начальных классов — 137
The need to use modular teaching technology in prımary school mathematics lessons

**Novruz Nəsirov, Saniyə Quliyeva**
Riyaziyyatdan sahəyə aid məsələlər həllində fəndaxili inteqrasiyanın tətbiqi
Применение внутрипредметной интеграции при решении задач, связанных с областью математики — 142
Application of interdisciplinary integration in solving problems related to the field of mathematics

**Ziba Rəhimova, Dilbər Qasımzadə**
Funksiya və ifadələrin ən böyük və ya ən kiçik qiymətlərinin hesablanması yollarının araşdırılması
Исследование способов вычисления наибольших или наименьших значений функций и выражений 146
Exploring ways to calculate the largest or smallest values of functions and expressions

***BİOLOGİYANIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ***
***METHODOLOGY OF TEACHING BIOLOGY***

**Elnurə Səfərova, Günel Məmmədova**
Biologiya dərslərində STEAM metodikasının zəruriliyi
Необходимость методики STEAM на уроках биологии 152
The necessity of STEAM methodology in biology lessons

**Xoşqədəm İbrahimova**
Biologiyanın tədrisində tənqidi təfəkkürü formalaşdıran texnikaların tətbiqi texnologiyası
Технология применения методов формирования критического мышления в преподавании биологии 156
Technology of application of methods of critical thinking formation in teaching biology

***FİZİKANIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ***
***METHODOLOGY OF TEACHING PHYSICS***

**Seyfəddin Cəfərov, Nailə Qardaşbəyova , Elgün Tağıyev, Ayşən Məhərrəmova**
Fizika dərslərinin layihələnməsi və keçirilməsidə elektron təhsil resurslarının tətbiq metodologiyası
Проектирование уроков физики и методология применения электронных образовательных ресурсов в их проведении 162
Designing physics lessons and methodology of using electronic educational resources in their conduct

***TARİXİN TƏDRİSİ METODİKASI***
***METHODOLOGY OF TEACHING HISTORY***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***

**Leyla Orucova**
Ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi probleminin tədqiqinə dair
К изучению проблемы интегративного преподавания истории Азербайджана с историей других турецких народов и государств в вузах 171
On the study of the problem of integrative teaching of the history of Azerbaıjan with the history of other turkish nations and states in high schools

***FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ***
***METHODS OF TEACHING PHYSICAL CULTURE***

**Pərviz Quliyev, Rühəngiz Əsgərova**
Ümumitəhsil məktəblərində şagirdlərin fiziki və mənəvi inkişaf prosesində Azərbaycanın uğurlu idman siyasətinin rolu
Роль успешной спортивной политики Азербайджана в процессе физического и нравственного развития учащихся общеобразовательных школ 176
The role of a successful sports polıcy of Azerbaijan in the process of physical and moral development of students of secondary education schools

***TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА***
***METHODS OF TEACHING FINE ARTS***

**Xatirə Qocayeva**
Erkən yaşda musiqi təhsilinin uşağın əqli inkişafına təsiri
Влияние раннего музыкального образования на умственное развитие ребенка 181
The impact of early music education on a child's mental development

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODOLOGY OF TEACHING FOREIGN LANGUAGES***

**Günel Hacıyeva**
İngilis dilinin tədrisində yuxari kurs tələbələrinin nitqlərində idiomatiklik və autentiklik məsələləri
Вопросы идиоматичности и аутентичности в речи студентов старших курсов при обучение английскому языку 185
Issues of idiomaticity and authenticity in the speech of senior-course students in english teaching

***MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ***
***ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***
***HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT***

**Xanım Qədimova, Aysel Qədimova**
Qədim şərq sivilizasiyaları: pedaqoji fikir və təhsil
Древневосточные цивилизации, педагогическая мысль и образование 189
Pedagogical thought and education in ancient eastern civilizations

**Rafael Əliyev**
Abdulla Şaiqin yaradıcılıq üslubu və uşaq şeirlərinin poetik sistemi
Творческий стиль и поэтическая система детских стихов Абдуллы Шаига 195
Abdulla Shaig's creative style and poetic system of chidren's poems

***İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI***
***ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА***
***INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY***

**Səlbi Abasova**
Baş beynin lokal zədələnmələri zamanı ali qabıq funksiyalarının tədqiqi metodları
Методы исследования высших кортикальных функций при локальных травмах мозга 199
Methods for studying higher cortical functions in local brain injuries

**Li Yixuan**
Медико-психологическая реабилитация детей с нарушениями опорно-двигательного аппарата
Dayaq-hərəkət sistemi pozğunluğu olan uşaqların tibbi və psixoloji reabilitasiyası 204
Medical and psychological rehabilitation of children with disorders of the musculoskeletal system

**Umut Ölmez**
Autizm spektr pozuntulu uşaqların təhsilə cəlb edilməsi və tətbiq edilən pedaqoji yanaşmalar
Включение детей с расстройствами аутистического спектра в образование и прикладные педагогические подходы 209
Inclusion children with autism spectrum disorders in education and applied pedagogical approaches

***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

**Məhərrəm Əliyev**
İntihar (suisid) anlayışı və onun mahiyyətinin psixoloji təhlili
Понятие самоубийства (суицида) и психологический анализ его сущности 214
The concept of suicide and psychological analysis of its essence

**Gülnarə Əlixanova**
"Mən - obraz"ın dialoq yolu ilə inkişafının psixoloji xüsusiyyətləri
Психологические особенности развития «Я – образа» посредством диалога 222
Psychological features of the development of the "i-image" through dialogue

**Əminə Əliyeva**
Postmüharibə dövründə qazilərdə yaranan psixopatoloji pozuntular
Психопатологические расстройства у послевоенных ветеранов 227
Psychopathological disorders arising in veterans in the post-war period

**Mətanət Həsənova**
Müasir dövrdə yeniyetmələrdə peşəseçiminin psixopedaqoji məsələləri
Психолого-педагогические проблемы выбора профессии подростков в современный период 232
Psycho-pedagogical ıssues of professional choice in adolescents ın the modern era

**Xavərxanım Bakıxanova**
Təhsildə süni intellektin sosio-emosional kompetensiyaların inkişafına təsiri
Влияние искусственного интеллекта в образовании на развитие социально-эмоциональных компетенций 236
The effect of artificial intelligence in education on the development of socio-emotional competences

# TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalələrdə öz əksini tapan fikirlər müəlliflərə aid olmalıdır. İstifadə edilmiş fotolar açıq mənbələrdən götürülməlidir. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması məqalə müəlliflərinin məsuliyyətindədir.
4. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
5. Təqdim olunan məqalələrdə müəlliflərə aid Orcid öz əksini tapmalıdır.
6. Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir Hər məqaləyə adları çəkilən dillərdə xülasələr və açar sözlər yazılır.
7. Məqalələr Azərbaycan. dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman - 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (filəşkartda) təqdim olunmalıdır.
8. Məqalələr üç dildən - Azərbaycan, rus və ingilis dillərindən birində çap olunur. 3 dildə (Azərbaycan, rus və ingilis) məqalənin xülasəsi təqdim edilir. Xülasədə irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
9. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə müəllif(lər)in adı, atasının adı və soyadı; ikinci sətirdə elmi dərəcəsi və elmi adı (yaxud doktorant də dissertant olması və s.); üçüncü sətirdə iş yeri, vəzifəsi; dördüncü sətirdə böyük hərflərlə məqalənin adı. Daha sonra bu qaydada həmin məlumatlar rus və ingilis dillərində təkrar edilir.
10. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
11. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparrmaq hüququna malikdir. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və ümumtəhsil, yaxud orta ixtisas təhsili müəssisəsinin pedaqoji şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
12. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
13. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Daha sonra istinad olunmuş ədəbiyyatın siyahısı verilir.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda "ardı növbəti nömrədə" adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Məqalənin sonunda rəyçilərin adı, atasının adı və soy adı, elmi dərəcəsi və elmi adı; sonrakı sətirdə məqalə müəllifinin elektron ünvanı (E-mail) göstərilməlidir.
21. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar əlavə olunur: məqalə müəllif (lər)inin adı, atasının adı soyadı, işlədiyi müəssisə (hansı müəssisədə doktorant və dissertant olması) və müəssisənin ünvanı, müəllif(lər)in vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ev ünvanı, elektron poçt ünvanı (Email).

## ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.
2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.
3. Идеи, отраженные в статьях, должны принадлежать авторам. Используемые фотоматериалы должны быть взяты из открытых источников. Авторы статьи несут ответственность за соблюдение антиплагиатных и других требований исследовательской этики.
4. При обнаружении фактов плагиата публикация статьи прекращается.
5. Текст статьи должен составлять около 6-8 страниц. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском.
6. Текст статьи должен быть представлен на флеш-карте вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке.
7. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.
8. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.
9. Нежелательно иметь более трех соавторов.
10. Редакция имеет право вносить изменения и сокращения в статью.
11. Вместе со статьей должно быть предоставлено два отзыва специалистов: заведующих кафедрой или отделом, а также выписка из протокола Ученого совета вузов и педагогического совета общеобразовательного или среднего специального образования.
12. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны принадлежать автору и должен быть указан источник используемых теоретических идей.
13. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например (1) или (1, стр. 119). Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.
14. Журнал публикует статьи, имеющие отношение к его профилю.
15. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.
16. Затем предоставляется список использованной литературы.
17. Права авторов статьи защищены.
18. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем номере».
19. Резюме статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.
20. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.
21. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (E-mail).

## REQUIREMENTS FOR SUBMITTED ARTICLES

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3. The opinions reflected in the articles should belong to the authors. The used photo materials must be taken from open sources. Ensuring compliance with anti-plagiarism and other research ethics requirements is the responsibility of the article authors.
4. When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
5. The text of the article should be about 6-8 pages. Keywords for the article should be presented in three languages: Azerbaijani, Russian and English.
6. The text of the article should be presented on the flash card together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
7. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented.
8. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
9. It is undesirable to have more than three co-authors.
10. The Editorial Board has the right to make changes and reductions in the article.
11. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
12. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
13. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example (1) or (1, p. 119). If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
14. The journal publishes articles related to its profile.
15. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
16. Then a list of references is provided.
17. The rights of the authors of the article are protected.
18. The journal does not publish a series of articles under the heading “continued in the next issue”.
19. Summary of articles in different languages should be the same and consistent with the content of the article.
20. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.
21. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

ISSN 2409-8817
9 772409 881009